

İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ

# CƏMİL ƏKBƏR

ŞEİRLƏR

6. CİLD

İKSAD
Publishing House

İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ

# CƏMİL ƏKBƏR



## *ŞEİRLƏR*

*VI CİLD*

İKSAD Publishing House

Copyright © 2023 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law. Institution of Economic Development and Social Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com
It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2023©
**ISBN: 978-625-367-060-3**
Cover Design: İbrahim KAYA
May / 2023
Ankara / Turkey
Size = 16 x 24 cm

# ÖN SÖZÜN MÜƏLLİFİ

***Prof.Dr. İlgar İmamverdi, Hüquqşünas Əli İmamverdi***

**ELMİ REDAKTOR VƏ MƏSLƏHƏTÇİ:**

**Professor Maarifə Hacıyeva**
***Filologiya Elmləri Doktoru***

Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlu ilə Əli İmamverdinin, pedaqoji sahədə uzun illər səmərəli xidmət etmiş, iqtisadcı alim, Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirdikləri ***VI cild "Cəmil Əkbər şeirlər"*** adlı kitabda, yarıməsirlik bir yaradıcılıq yolu keçmiş şair təbiətli şəxsiyyətin poetik irsinin bir hissəsi yer almaqdadır. Ayrı - ayrı dönəmləri əhatə edən, müxtəlif mövzulu kitabda varyantları ilə birlikdə 331 adda poetik nümunələr yer almaqdadır. Vətən, məhəbbət, eşq, insan amili, ictimai-siyasi, optimist xarakterli nümunələrlə yanaşı, bəzən də tənbeh, satirik hətta, qarğış, giley motivli, haqsızlığa üsyan, lirik-duyğusal, bədbin, pissimist ovqatlı müxtəlif mövzulu poetik incilər Cəmil Əkbərin həssas, kövrək, narahat qəlbinin, şairanə düşüncələrinin şeir dili ilə əks-sədası olub, mənəvi – ruhi dünyasını təcəssüm etdirir. VI cild "Cəmil Əkbər şeirlər" adlı kitab filoloji elm sahəsində çalışan mütəxəssislər, ədəbyyatşünaslar və qiymətli oxucularımız üçün nəzərdə tutulmuşdur.

# MÜNDƏRİCAT

Ön Sözün Müəllifi .......... i
Mündəricat .......... iii
Ön söz .......... 13
1. Azdir .......... 27
2. Çox azdir .......... 27
3. Çox azdir .......... 28
4. Çox azdir .......... 30
5. Verəndə .......... 31
6. Öz gücündədir .......... 32
7. Toxunma! .......... 33
8. Mərdin ürəyi .......... 34
9. "Qardaş" .......... 35
10. Fəhlə əlləridir, kəndli əlləri .......... 36
11. Axtar .......... 37
12. Zəmanənin ağsaqqalı .......... 38
13. Ayılmamişam .......... 40
14. Həzz alsın .......... 40
15. Taparsan .......... 42
16. Dolanın .......... 42
17. Düz dolan! .......... 44
18. Yarı .......... 45
19. İnsan kimi yaşayaq .......... 46
20. Qalmır .......... 47
21. Nə deyək? .......... 48
22. Yonuram .......... 48
23. Bilmədi .......... 49
24. Bunu bil .......... 50
25. Yer tapılmadı .......... 53
26. Oyan Lenin .......... 54
27. İosif Vissarionoviç Çuqaşvili Stalin .......... 56
28. İnsan fəlsəfəsi .......... 58
29. Qəzəl .......... 59
30. Bilin! .......... 60
31. Tələb etmək? .......... 61
32. Rübailər .......... 62
33. Adamsan .......... 63

34. Adam var ..... 63
35. Adam var, adam var ..... 64
36. Vədəsində ..... 67
37. Ey vəfasız yar? ..... 67
38. Yuxum ..... 68
39. Yarat ..... 69
40. Nəsihət ..... 70
41. Son arzu ..... 71
42. Partiyam ..... 73
43. Partiyam ..... 74
44. Alagöz pərim ..... 75
45. A Mələknisə ..... 76
46. Salamat qalın ..... 77
47. Poza bilmirəm ..... 79
48. İnsanlar dostlaşarsa ..... 80
49. Düşmüşəm ..... 81
50. Yox isə ..... 82
51. Suallar ..... 83
52. Yer qalıb ..... 84
53. Tanımamışıq ..... 86
54. İşindən ..... 87
55. Bir tərəfdə ..... 88
56. Bir tərəfdə ..... 89
57. Darixma! ..... 91
58. Kəslərin ..... 92
59. Qandıra bilmədim qanmayanları ..... 93
60. İlişsin o ..... 93
61. İtirmişik biz ..... 94
62. Məhv edək ..... 95
63. Zəhmətdir ..... 96
64. Zəhmətinkidir ..... 97
65. Ayrılıq ..... 98
66. Qorxmayın! ..... 99
67. Zəmanə insanı nəgünə qoyur? ..... 99
68. Səbr eylə! ..... 101
69. Dəyişdi ..... 103
70. Boğulmaqdadır ..... 104
71. Atarlar ..... 106
72. Onu bil! ..... 108

73. Ver dedikcə ver ........ 110
74. Səməd Vurğuna ........ 112
75. Haçandı? ........ 113
76. Ay etibarsız? ........ 114
77. Keçən günlərim ........ 114
78. İnsanlığa səsləyir ........ 116
79. Küsmüşəm ........ 118
80. İnciməsinlər ........ 119
81. Sən bacardın, mən bacarmadım ........ 120
82. Seçənməmişəm ........ 122
83. Hədər ........ 123
84. Yersiz tələblər ........ 124
85. Şair qocaldı ........ 125
86. Sığmır ........ 127
87. Sığmıram! ........ 128
88. Qınamıram ........ 129
89. Vicdanıkəm olanlar ........ 130
90. Elə bağlıdır ........ 131
91. Heç xoşlamadım ........ 132
92. Məftunam ........ 134
93. Gəlinlər! ........ 135
94. Seçilənməyib ........ 136
95. Heyif ........ 138
96. Gəzdi ........ 139
97. Gəzirsən ........ 139
98. Qəlbini! ........ 141
99. Mehriban ........ 141
100. Dünən bu gün ........ 143
101. Çatmayan ........ 144
102. Ləyaqətlənib ........ 147
103. Xəbər yox ........ 149
104. Bu da bircür bəyanatdir ........ 150
105. Kəsmə! ........ 151
106. Cırlaşıb ........ 153
107. Aman! ........ 154
108. Haçandan bəridir? ........ 155
109. Dananmaram ........ 157
110. Gözlə! ........ 159
111. Gözləyə ........ 161

112. Gözləyir ........ 161
113. Özünü gözlə! ........ 163
114. Özünü gözlə! ........ 164
115. Özünü gözlə! ........ 165
116. Gözləyən? ........ 166
117. Gözləmə! ........ 167
118. Gözləmə! ........ 170
119. Gözləmə! ........ 171
120. Məni orda gözləməyin! ........ 172
121. Məni orda gözləməyin! ........ 173
122. Məni orda taparsınız! ........ 176
123. Bəsləmə! ........ 178
124. Dərs alaq ........ 179
125. Çatanmaz ........ 181
126. Əsər yox! ........ 182
127. Yox aram! ........ 184
128. Bundan artıq nə verəydi o bizə? ........ 185
129. Meydanına ........ 187
130. Keçib ........ 188
131. Oğlusan ........ 188
132. Sən də onunsan! ........ 189
133. Yaradıb! ........ 192
134. Ürəyiniz dəmirdimi, daşdımı? ........ 193
135. Təzadlıq ........ 197
136. Çalır ........ 198
137. Seçən az olub ........ 199
138. Varisiyik ........ 201
139. Əsl insan ........ 203
140. Ay müdir qağa ........ 204
141. Calanıb ........ 207
142. Çatanmır ........ 208
143. Oxu şeirimi ........ 209
144. Naqissən! ........ 211
145. Olacaqlar ........ 212
146. Bu gün də belə ........ 214
147. Hər şey ........ 215
148. Vurğundur ........ 217
149. Dolub ........ 218
150. Arama! ........ 219

151. Görənmədim .... 219
152. Görənmir .... 220
153. Almışam .... 223
154. Özümə .... 224
155. Hərə bir yandan .... 225
156. Yer yedi .... 227
157. Qəlbimə dəyən olmasın .... 228
158. Düşmüşük? .... 229
159. Azarım .... 230
160. Uzaqsa .... 231
161. Uzaqsan .... 232
162. Olanmıram .... 233
163. Zornan .... 234
164. Bir zaman .... 235
165. Biraz odur, biraz budur .... 238
166. Hələ lovğalanma .... 239
167. Korlandı .... 240
168. Vəzifə olmayanda .... 240
169. Əlvidalaşır .... 242
170. Nəqədər? .... 243
171. Qalmayır .... 244
172. Oğluyam .... 244
173. Aralı düşmək .... 245
174. Səbr elə! .... 247
175. Aralanmışam .... 248
176. Nəfayda? .... 249
177. Öyrəndim mən .... 251
178. İtirmişəm .... 253
179. Qənimimdir .... 255
180. Yollarda .... 255
181. Odur bil! .... 256
182. Nədirki? .... 256
183. Tapılar .... 257
184. Biganəsən .... 259
185. Qanındadır .... 261
186. Zirvədədir .... 262
187. Qızıl gül .... 263
188. Həngamə .... 264
189. Ogündən .... 266

190. Bakımın ........ 268
191. Çəkiləndədir ........ 269
192. A qohumbala ........ 270
193. Gözəllərə öyüd ........ 271
194. Bizim yerlər ........ 272
195. Duel yeri ........ 273
196. Deyəmmərəm ........ 274
197. Görməmiş oğlu görməmiş ........ 275
198. Olaydım ........ 276
199. Nə sənə, nə mənə, nə ona qalır ........ 277
200. Qardaşım ........ 278
201. Mən nə bilim? ........ 279
202. Bəs eylər mənə ........ 279
203. Geridə qalma! ........ 281
204. Təzədir ........ 282
205. Çətindir ........ 283
206. Neçəsən? ........ 285
207. A Nadir? ........ 287
208. Önündə ........ 287
209. Birhaldaki... ........ 288
210. Ləyaqət ........ 289
211. Ayaqlarım ........ 290
212. İnqilab nəfəsli şair ........ 291
213. Necəsən? ........ 293
214. Biriyəm ........ 294
215. Biriyəm ........ 295
216. Həzz ala ........ 297
217. Barışammıram ........ 298
218. Bu yerdə ........ 299
219. Adım ........ 301
220. Nəpisdir Allah? ........ 302
221. Nə əcayib, eybəcərsən, çirkinsən? ........ 304
222. Sən olsan da, olmasan da ........ 306
223. Sən olsan da, olmasan da ........ 306
224. Xəbərsizsiniz ........ 307
225. Məni şair eylədi ........ 308
226. Dağlarda qaldı ........ 311
227. Dəyişmərəm ........ 312
228. Dəyişmərəm ........ 314

229. Qalıb ........ 315
230. Qalıb ........ 318
231. Qalacaq ........ 320
232. Qalacaq ........ 322
233. Qalacaq ........ 323
234. Qalacaq ........ 324
235. Qalacaq ........ 325
236. Qalacaq ........ 326
237. Qalacaq ........ 327
238. Qalar ........ 329
239. Qalıbdı ........ 330
240. Qalmadı ........ 330
241. Qalmasın ........ 332
242. Qalıbdı ........ 334
243. Qalar ........ 335
244. Qaldı ........ 336
245. Mat qalıb ........ 340
246. Yoxsa insan qalmayıb? ........ 343
247. Yaxşılardan qalıbdı ........ 347
248. Yaxşılardan qalıbdı ........ 349
249. Pisdən qalıb ........ 363
250. Çox imiş! ........ 367
251. Sadiq qalmalıyıq cəmiyyətə ........ 367
252. Sadiq qalmalıyıq cəmiyyətə ........ 374
253. Sadiq qalmalıyıq cəmiyyətə ........ 382
254. Sadiq qalmalıyıq cəmiyyətə ........ 397
255. Bədxah əməllər ........ 400
256. Gərəkdir qardaş ........ 406
257. Qardaşım? ........ 407
258. Qardaşım ........ 410
259. Qardaş ........ 412
260. Kəndli qardaşım ........ 414
261. Verməlidir cavabi ........ 424
262. İki göz ........ 426
263. İki göz ........ 427
264. Həyat fəlsəfəsi ........ 428
265. Həyat fəlsəfəsi ........ 430
266. Belə görmədim ........ 431
267. Nə deyim? ........ 439

268. Oxu bu məktubu ........ 440
269. Şikayət ........ 442
270. Nə deyəsən? ........ 443
271. Nə deyəsən? ........ 444
272. Nə deyəsən? ........ 446
273. Deyəsən ........ 447
274. Qüvvətim, qüdrətim azalıb gedir ........ 449
275. Nanıkorsan nanəcib (1) ........ 451
276. Nanikorsan nanəcib (2) ........ 453
277. Cavanlığın ........ 454
278. Cavanlığın ........ 455
279. Bu, insana yaraşarmı, yaraşmır?! ........ 457
280. Həyat həqiqətləri (1) ........ 465
281. Həyat həqiqətləri (2) ........ 468
282. Həyat həqiqətləri (3) ........ 470
283. Həyat həqiqətləri (4) ........ 472
284. Həyat həqiqətləri (5) ........ 473
285. Həyat həqiqətləri (6) ........ 474
286. Həyat həqiqətləri (7) ........ 475
287. Həyat həqiqətləri (8) ........ 477
288. Həyat həqiqətləri (9) ........ 478
289. Sənsiz ........ 479
290. Vallah ........ 482
291. Mənimki döy ........ 484
293. Tükənən deyil ........ 486
293. Deyil ........ 488
294. Deyil ........ 489
295. Deyil ........ 491
296. Deyil ........ 493
297. Deyil ........ 494
298. Deyil ........ 496
299. Qanmayacaq ........ 498
300. Bir deyil ........ 499
301. Deyiləm ........ 501
302. Deyiləm ........ 502
303. Deyildir ........ 504
304. Deyildir ........ 510
305. Deyildir ........ 513
306. Deyildir ........ 516

307. Anlamışam mən ........................................................................ 519
308. Anlamışam .............................................................................. 522
309. Ölücan ................................................................................... 523
310. Elə sandım .............................................................................. 528
311. Elə sandım .............................................................................. 530
312. Elə sandım .............................................................................. 531
313. “Elin ağsaqqalı, başbilənləri” .................................................. 533
314. Haray ...................................................................................... 535
315. Gədə oğlu düzəlmirki, düzəlmir .............................................. 538
316. Dayaq ol .................................................................................. 541
317. Busayaq ol .............................................................................. 542
318. De! .......................................................................................... 543
319. Dedim bəlkə... ......................................................................... 546
320. Sözümüzü deməliyik, deməli ................................................... 548
321. Mən sözümü deməliyəm, deməli ............................................. 554
322. Mən sözümü deməliyəm, deməli ............................................. 556
323. Deyəcəm ................................................................................. 559
324. Deyəcəm ................................................................................. 560
325. Deyirsən .................................................................................. 561
326. Deyirsən .................................................................................. 564
327. Deyirsən .................................................................................. 565
328. Pis onlara deyilir ...................................................................... 567
329. Deməsinlər .............................................................................. 569
330. Nə deyəsən? ............................................................................ 571
331. Əhsən desin ............................................................................. 572
HÜQUQŞÜNAS ƏLİ İLQAR OĞLU İMAMVERDİ ..................... 574
PROF. DR. İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV ................ 575

## ÖN SÖZ

### *"ÜRƏYİMDƏ NƏQƏDƏR YAZILASI SÖZÜM VAR?*

Qəlbində İlahi Vətən eşqi olan şairlərin mənəvi aləmi hər zaman dolu olar. Bir dərya olur ürəyində Vətən adlı məhəbbəti, ülvi eşqlə zəngin olan şairlərin könül dünyası. Yazılmaqla bitəsi deyil. Nəqədər yazmış olsa belə dəryadan bir damla kimi görünür şair ürəyinin sözləri. Bitib-tükənən deyil bu qeyri-adi əsrarəngiz görünən ürək sahibləri. Çünki könül dünyasının içindədir aşıb-daşan ülvi bulaq. Qaynayır, fışqırır, çağlayır hər zaman. Təlatümə gətirib coşdurur və bəndi-bərəni vurub dağıdır. Xalqına zəməm suyu dəyərində qiymətli sözlərlə insanlıq aləminin mənəviyyat dünyasına aydınlıq gətirməklə rövnəqləndirir zamanla, əsrlər keçsə belə. Poetik sözlərin hikməti də burada özünü göstərir. Təravətini heç bir zaman itirmir, dəyərli fikirlərdəki aktuallıq öz hökmündə qalmaqla qərinələrlə yaşamaqdadır. Çünki xoş məramla deyilən müdrik fikirlərlə zəngin mübarək kəlamlara xalqımızın hər zaman mənəvi ehtiyacı olmuşdur. Bu poetik kəlamların müəllifi Peyğəmbərlərimizin bir sonrakı sırasında yer alan şairlərdir Nizamilərin, Fizulilərin, Xəqanilərin, Firdovsilərin, Nəvailərin, Nəsirəddin Tusilərin timsalında. Xalqın xüsusi bir nümayəndəsidir şairlər. Xalqın söz gülüstanlarının bağbanıdır şairlər. Millətinin dərdi-sərinə qəlbən yanan özəl şəxslərdir, şəxsiyyətlərdir şairlər. Onun xoş günlərinə sevinəndir şairlər. Sevincli günlərinə ortaq olan, nəşəli, xoş günlərini paylaşandır şairlər. Söz gülüstanının mənəviyyat adlı bağçasının bülbülləridir şairlər. Xalqın düşüncələrini, ruhunu poetik misraların məcazi gücü ilə ən gözəl şəkildə mənalı şəkildə ifadə etməyi bacarandır şairlər. Bu baxımdan xalqını, millətini dünya mədəniyyətində, dünya ədəbiyyatında ləyaqətlə, qeyrətlə təmsil etdiyi üçün xalqın özü, xalqın səsi-sədası, millətinin özüdür şairlər. Möhtəşəm əsərləri ilə bu dünyada yaşamağa haqq qazanandır şairlər. Belə şairlərdən biri də alim olub şeirlər yazan, şair olub məqalələr yazan, pedaqoji sahədə gənc nəslin tərbiyəsində, savadlanmasında, peşəkar mütəxəssis kimi yetişməsində 50 il sərasər əməyini əsirgəməyən, Bəhmən Vətənoğlunun təbiri ilə "Alim kimi şair, şair kimi alim" olan şəxsiyyət timsalında görünərək şərəfli bir ömür yaşamış Cəmil İmamverdioğlu

Əkbərdir. 2381 adda poetik incilərin müəllifi olan Cəmil müəllimin yazdığı hər benddə xalqının bəxtəvər olduğunu, xoş gününü görmək məramı dayanır. Çox zaman öyüd nəsihət verir, doğru yol göstərir, sözünü dinləməyənləri isə tənqid atəşinə tutaraq ifşa edir. Yanlış düşüncədə olanları isə insanlığın ali haqq yoluna səsləyir. İstədiyinə nail ola bilmədikdə isə bəzən qəmlənir, kədərlənir dərdini qəmini şeirin misraları ilə izhar etməklə təskinlik tapmağa çalışır Cəmil Əkbər. Xalqının, millətinin uğurlarına qəlbən sevinən, qəminə şərik olan, kədərini öz kədəri kimi qəbul etdiyi üçün də şair xislətində poetik əsərlər yazdı-yaratdı gələcək nəsillərə əmanət etdi və çəkib bu fani dünyadan Haqq dərgahına köçdü nigaran halda 12 mart 2000-ci il tarixində. Bu əbədi ayrılıqdan 23 il keçməsinə rəğmən poetik misraları, aktual şeir mücevhərlərindəki dəyərli fikirlər öz hökmündə qalmaqdadır. Hər birini oxuduqca necə böyük insanı itirdiyimizin daha yaxından fərqində oluruq. Çünki zamanında dediyi hər kəlamı təəssüf ki, dəqiq anlaya bilmədik. Xoş məramının nə olduğunun qiymətli fikirlərinin aliliyinin incəliyinə qədər fərqinə vamadıq. İndi isə təəssüflənməkdəyik. Təəssüfdən, sonrakı peşimançılıqdan nə çıxar əziz oxucularım? Çifayda. Sədheyif deməkdən başqa söz tapa bilmirik. Zamanında dəyərləndirə bilmədik. Qiymətli bir insan olduğunu haqq dünyasına təşrif apardıqdan sonra anlamaqdayıq. Heyif ki… Çox gecikdik müdrikanə düşüncələrini, ali məramla insanlıq aləminə təmənnasız bəxş etdiyi fikirlərini anlamaqda. İndi oxuduqca şeirlərində anlamağa çalışırıq şükürlər olsun ki. Nə yaxşı ki, müdrikanə fikir dünyasını kağıza yazdı gecə gündüz. Bir ata olaraq öz mənəvi borcunu, alimlik borcunu, müəllimlik borcunu, insanlıq borcunu verməyə çalışdı imkanı çərçivəsində, gücü-qüdrəti yetdiyi qədər. İç dünyasını sərrast, poetik misralarla ifadə edə bildirdi bizlərə. Təəssüf ki, sağlığında layiqli qiymətini ver bilmədik "Ədalət" məramı ilə bir ömür boyu yaşamış Cəmil Əkbər şəxsiyyətinə. Allahdan qorxdu. Nə etdisə Allah rızası üçün etdi. Savab qazandı bu fani dünyada, haqq dünyası üçün. Rəhmət qazandı, müqəddəs əməlləri ilə. Nur kimi aydınlatdı çevrəsini, günəş kimi işıq saçdı insan oğlunun qəlb dünyasına, hərarət gətirdi könül xanimanına. Cəlaləddin Ruminin təbiri ilə *"Olduğu kimi göründü, Göründüyü kimi də oldu"*, yaşadı yaratdı şeirlər külliyatını İlqar İmamverdi və Əli İmamverdi vasitəsi

ilə xalqına ərmağan etdi. Nigaran getdi, fikir, dərd içində çəkdi getdi həssas qəlbli, kövrək insan köç karvanını, aram-aram 72 il ərzində. Haqq dünyasına tərəf gəşt edib rəvan oldu Haqq dərgahına.

Həyatın sona yaxınlaşdığının siqnalını verən *"Qorxmayın"* rədifli qoşması qarşıda olacaq kədərli hadisənin ifadəsidir ki, məhz bu şeirin timsalında duyulmaqdadır. 1980-ci il 20 dekabr tarixində yazdığı şeiri oxuduqca həssas insan övladı, bir gün ömrün sona yaxınlaşdığının işarətini anlayacaq. Bu şeir məhz həmin kövrək əhval-ruhiyyəni təmsil edir poetik misraların fonunda.

Dünyaya gələnlər gedirlər bir-bir,
Deyən vaxtım çathaçatdı, qorxmayın!
Nəşəmiz cüzidir, qəmimiz min bir,
Ömür-günüm bithabitdi qorxmayın!

Ölüb gedir, azalıbdır tay-tuşum,
Qəmi çəkmə, dərdi yemə qardaşım,
Gündən-günə zəifləyir yaddaşım,
Olan-qalan ithaitdir qorxmayın!

Matəmə batmasın nə oğlum, qızım,
Sönməsin həyatda tale ulduzum,
Çıxmasın yaddaşdan, gəlsin avazım,
Ömür sona yethayetdi qorxmayın!

Günlər keçir, gəlib-gedir karvanım,
Gündən-günə qəm-qüssədir hər anım,
Gizli deyil, nə danışım, nə danım?
Cəmil burdan gethagetdi qorxmayın!

Cəmil Əkbər poeziyasında qəmli ovqatlı, bədbin ruhlu, giley motifli, həyatdan, insnlıq adına xələl gətirənlərdən şikayət mövzulu şeirlər yetərincə vardır. Bu şairin həssas duyğusunun müşahidəsindən qaynaqlanır. İctimai-siyasi həyatdakı yanlışlıqlar Cəmil Əkbəri düşündürür ki, bu da şeir nümunələrinə çevrilir fərqli rədiflərlə, şeirin quruluşundan asılı olmayaraq. *"Azdır"* rədifli şeirdə bir bəndə nəzər saldıqda bir az əvvəl qeyd etdiyimiz cəhətlər görünməkdədir.

Yarası qövr edib, simləyən çoxdur,
Ağlayıb, sızlayıb, inləyən çoxdur,
Nəqədər deyirsən dinləyən yoxdur,
Xəstələr çoxalır, sağalan azdır.

*“Çox azdır”* rədifli şeirdə də giley motifini duyuruq.

Neyləsin görəsən yazan yazıqlar,
Oxuyub, anlayan, qanan çox azdır.
Canını, qanını üzən yazıqlar,
Acıyıb halına yanan çox azdır.

*“Çox azdır”* rədifli digər şeirdə də şikayət ruhu vardır.

Adamlar içində adamlar çoxdur,
Axtarıb-arasan insan çox azdır.
Nəqədər istəsən nadanlar çoxdur?
Düşünüb, dərk edən, qanan çox azdır.

*“Verəndə”* rədifli gəraylısı da şikayət motifli olub ömür-gün yoldaşı üçün, yarını nəzərdə tutub yazmşdır Cəmil Əkbər.

Taleyimdən gileyliyəm,
Mənə böylə yar verəndə.
Nə danışım, nə söyləyəm?
Mənə böylə mar verəndə.

Dövrandan, zəmanədən şikayət ruhlu şeirlərdən biri də *“Cırlaşıb”* rədifli qoşmasıdır. 24 Yanvar 1995-ci ildə yazılmış bu şeir Sovetlərin çökməsindən sonra bağımsızlıq qazandığımız dönəmin yadigarıdır. Bir çox dəyərlərimizin gedərək qeybolması, savab işlərin yerini bəd əməllərin alması, ülvi istəyin, məhəbbətin, ülfət-ünsiyyətin, öyüd - nəsihətin, insanlığın, ləyaqətin, cəmiyyətin, şəxsiyyətin, sədaqət - səxavətin, insaf-mürvətin, kəramətin, şan-şöhrətin, şərafətin, bacarıq, məharətin, igidliyin, cəsarətin cırlaşması məcazi anlamda poetik dillə ifadə olunur Cəmil Əkbər poeziyasında.

Qınamasın məni dövrü-zəmanə,
Ədalət də, həqiqət də cırlaşıb.
Aqillər yerinə gəlib divanə,
Ülvi-istək, məhəbbət də cırlaşıb.

Eləbil dünyanın axırı gəlib,
Sürtülüb qalayı, paxırı gəlib,
Azalıb insanı, naxırı gəlib,
Ülfətlər də, ünsiyyət də cırlaşıb.

Gecə-gündüz çalışanlara, zəhmətkeşlərə, hər zaman qiymət verən Cəmil Əkbər, onların halal zəhmətini *"Fəhlə əlləridir, kəndli əlləri"* şeiri ilə qiymətləndirmişdir. Bu münasibətlə müxtəlif bəndlərdə zəhmətkeşlərin əllərini məcazi anlamda yazıçı, şair, bəstəkar, ən böyük müqənni, nəğməkar münəccim, loğman, tanınmış sərkərdə, igid, qəhrəman kimi dəyərləndirmişdir.

Ən böyük yazıçı, şair, bəstəkar,
Fəhlə əlləridir, kəndli əlləri.
Ən böyük müğənni, gözəl nəğməkar,
Fəhlə əlləridir, kəndli əlləri.

Tarixi şəxsiyyətlərə həsr etdiyi şeirlər də Cəmil Əkbər yaradıcılığında yer almaqdadır. Sovetlər Birliyinin qurucusu Vladimir İliç Leninin uyuduğu movzoleyi ziyarət etdikdən sonra yazdığı şeir *"Oyan Lenin"* adlanır. M.V. Lomonosov adına universitetdə 1 il müddətində içtimai-siyasi elm sahəsində təhsil artırmaq, təkmilləşmə kusunu almaq səbəbi ilə Mosva şəhərinə ezam olduğu zaman 28 Dekabr 1951-ci ildə V. İ. Leninin movzoleyinə ziyarəti zamanı aldığı ilkin təəssüratı bir şair təbi ilə poetik misralara səmimiyyətlə düzmüşdür.

Yerləşib qoynunda Qızıl Meydanın,
Döyüşdə sınanmış dahi vüqarın.
Gəlib movzoleyin seyr edirik biz,
Yenə vərəqlənir doğma qəlbimiz.

Sənin həyat yolun dərs olub bizə,
Doğru yol göstərir gənclərimizə.
Əməyin meyvəsi gül bizim olmuş,
Sənin zəhmətinlə el bizim olmuş.
Oyan İliçimiz bir salamlaşaq,
Səninlə yenidən əlvidalaşaq.

Sovetlər İttifaqının ikinci rəhbəri İosif Stalinin 5 mart 1953-cü ildə vəfatı ilə əlaqədar Cəmil Əkbər bu münasibətlə şeir yazaraq günümzə ərmağan etmişdir. Təbiiki hər dönəmin öz hökmü vardır. Bu şeir də Cəmil Əkbərin yaşadığı dönəmin mühüm hadisəsinin şeirsəl dillə ifadə olunan bir xatirəsini əks etdirir.

İnsanlıq hər şeyə qalib gəlsə də,
Yaşayıb, yaşadıb, deyib-gülsə də,
Əcəlin şərbətin içəcək bir gün,
Sirat  körpüsündən keçəcək bir gün.

Əcəl nə pis şeydir qədirbilməzə.
İnsanı yandırır, heç güldürməyir.
Onda nə insaf var, nə də ki, mürvət,
Nə yaxşılıq qanır, nədə ki, hörmət.

Əcəlin şərbəti acı olsada,
Canlı xilqətimi usandırsa da.
Bir qanun olubdur hamılar üçün,
Çarəsi tapılmır bilməm nə üçün?
Mən eləbilirdim Stalin ölməz.

Türkiyə cumhuriyyətinin qurucusu Turqut Özalın haqq dünyasına qovuşması *(18.04-1993)* səbəbi ilə də Cəmil Əkbərin bu matəm günündə daxili aləmində yaranan qəm libasına bürünmüş kədərli duyğularını şeir dili ilə ifadə etmişdir.

Azəri elinin qardaşı idi,
Həmdəmi, həmkarı, sirdaşı idi,
Yaxşı dostu idi, yoldaşı idi,
Deyirlərki Turqut Özal da öldü.

Cəmil Əkbər Azərbaycanın şifahi xalq ədəbiyyatına aid  poeziyanın hər növündə qələmini sınamış hətta klassik yazılı ədəbiyyatı təmsil edən, qəzəl, rübai şerində də nümunələr yazmışdır.

Əyləncədir həyat bilmək lazımdır,
Vəfasızdır, ona gülmək lazımdır,
Vəfasız olubdur həyat insana,
Çox çətin deyildir duyub qansana.

Cəmil Əkbər poeziyasına nəzər saldığımız zaman zəhmət, xidmət, Vətənə, xalqa, millətə mənəvi borcu qaytarmaq kimi əsl insana məxsus keyfiyyət ön planda olmaqla yaradıcılığının ana xəttini təşkil edir. İnsanı insan edən onun vicdanla əzimlə, dözümlə, fanatikcəsinə çəkdiyi zəhmətidir. Bu qəbildən olan insani dəyərlər Cəmil Əkbərin yaradıcılığında bir çox şeirlərində öz əksini tapmışdır. Zəhmət insanlıq aləminin varoluşunun təməl daşıdır. *"Zəhmətdir"* rədifli şeirni oxuduqca bu ülvi meyarlar poetik dillə oxucusuna axtarılır.

Biryolluq məhv olub itib-gedərdik,
Bizə bu həyatı verən zəhmətdir.
Qərq olub dəryaya, batıb gedərdik,
Bizə bu cürəti verən zəhmətdir.

Cəmil Əkbərin *"Zəhmətinkidir"* rədifli şeirində də təxminən eyni fikirlər səslənməkdədir.

Biryolluq məhv olub, itib-gedərdik,
Bu dövran, bu həyat zəhmətinkidir.
Dəryalar dibində batıb gedərdik,
Bu məzmun, bu hikmət zəhmətinkidir.

Bir çox şairlərin yaradıcılığında *"Ayrılıq"* rədifli şeirlər mövcuddur. Ayrılığın müxtəlif tərəfləri vardır. Biri yarından, biri qardaş-bacısından ayrılır, biri Vətənindən cüda düşür. *"Ananı-baladan aralı gördüm"* deyən Aşıq Ələsgər yaradıcılığında da özünü göstərmişdir. Fərhad İbrahiminin "*Hər bir dərddən olar, yaman ayrılıq"* misrası ilə başlayan və bəstəsi Əli Səlimiyə aid olan lirik melodıyalı qəmli musiqi Azərbaycan, İran və Türkiyə sənətçilərinin repertuarında yer almaqla bahəm hər zaman səsləndirilməkdədir.

Fikrindən gecələr yata bilmirəm,
Bu fikri başımdan ata bilmirəm,
Neyləyimki sənə çata bilmirəm?
Ayrılıq, ayrılıq, aman ayrılıq,
Hər bir dərddən olar yaman ayrılıq.

Cəmil Əkbər də bu mövzuda, *"Ayrılıq"* rədifində poetik fikrini paylaşaraq 25 Noyabr 1980-ci ildə bir qoşma yazmışdır.

Qəlbimin telləri bəmə köklənir,
Qərq olur hicrana, qəmə köklənir,
"Yetim segah" üstə simə köklənir,
Hər yada düşəndə yenə ayrılıq.

Elə bir od qoyub, yandırıb yaxır,
Car olub sinəmdən qara qan axır,
Gözlərim zillənir, yollara baxır,
Nəyaman qəsd edir mənə ayrılıq.

*"Şair qocaldı"* rədifli şeirini bütün poeziya əhlinə ünvanlasada əslində Cəmil Əkbər bir şair kimi öz düşüncəsini, fikrini məramını, keçirdiyi nigarançılığı ifadə edir. Səmimi dillə yazılmış bu şeirində şairləri qocaldan əsas cəhətləri açığa çıxarır. Qəbahət, cəhalət, xəyanət, ədalətsizlik, ədavət, zəlalət, xəcalət, cinayət, şikayət, hörmətsizlik, küdurət, pis vərdiş, pis adət, əziyyət, fəlakət, müsibət kimi hallar şairlərin timsalında əslində isə müəllifin özünü qocaldan cəhətlər olduğunu oxucularına anladır.

Deyirlər şairi qocaldan nədir?
Qəbahət gördükcə şair qocaldı.
İncidib, sarsıdıb, sozaldan nədir?
Cəhalət gördükcə şair qocaldı.

*"Eldən aldım"* rədifli şeirlə tanış olduqca Cəmil Əkbərin mənəvi aləmi gün üzünə çıxır. El-obasından güc-qüdrət aldığını. Özünü bir an da olsa el-obadan ayrı olmadığını şeirin ayrı-ayrı misralarında bütün səmimiyyəti ilə ifadə edir.

El-obaya bağlıdır, hər kefimiz, qəmimiz,
Bu kök üstə köklənib, hər zilimiz, bəmimiz.
Bəşər oğlu güləndə, mən də gülə bilmişəm,
Gözyaşını siləndə, mən də silə bilmişəm.
O düşəndə zəhmətə, mən də kədərlənmişəm,
İçin-için inləyib, mən də qəhərlənmişəm.
Onun üzü güləndə, mən də dağa dönmüşəm,
Qönçələrim gül açıb, barlı-bağa dönmüşəm.

Cəmil Əkbərin iki şeirini oxuduqca nəyi xoşlayıb, nəyə məftun olduğunu görürük. Aydın olur ki, *"Heç xoşlamadım"* şeirində yaltaqlığı, abırsızlığı, ismətsizliyi Cəmil Əkbər heç xoşlamır. Cahil olanlar, qanmazlar, nadanlar da bu qrupda yer alır. Saxtalığı, yalanı, xasiyətdə iblis, əqrəb olub ilan kimi sançan adamları da heç xoşlamadığını etiraf edir. Ləyaqət əhlinə pis deyənləri də heç sevmədiyini də bildirir. Qulağı eşitsədə kar olanları, gözləri görsə də kor olanları, ağıldan dayaz, fikri, düşüncəsi çaş olanları, haqqa-ədalətə öc olanları, bununla belə abırsız, həyasızları nəzərdə tutub *"Mən belə dünyanı heç xoşlamadım"* – deyir.

Hayana baxırsan yaltaq bürüyüb,
Mən belə dünyanı heç xoşlamadım.
Abırsız, ismətsiz sırtıq bürüyüb,
Mən belə dünyanı heç xoşlamadım.

Üzcıranı, həyasızı, azalmır,
Əqidəsiz, qayəsizi azalmır,
Tərbiyəsi kəm, dayəsi azalmır,
Mən belə dünyanı heç xoşlamadım.

Bütün bunlarla yanaşı digər bir şerində birçox insani dəyərlərə vurğun olduğunu da ifadə edir Cəmil Əkbər. *"Məftunam"* rədifli şeirində nələrə vurğun olduğunu, şeirin rədifindəki kimi Cəmil Əkbəri məftun edən cəhətləri də bir-bir qeyd edir. Bu insani dəyərlər arasında həqiqət, ədalət, ləyaqət, ədəb-ərkan, mərifət, nəzakət, səxavət, kəramət, sədaqət, məhəbbət, xeyirxahlıq, fəzilət də yer almaqdadır. Xoş dövrana, bacarığa, fərasətə, məharətə, səadətə məftun olduğunu bir misrada belə ifadə edir Cəmil Əkbər.

Əzəl gündən, ibtidadan, haqsızlıqla yox aram,
Harda varsa doğru-düzlük, həqiqətə məftunam.
Biganəni, laqeyidi harda görsəm sızlaram,
Qoyun bilsin bunu hamı, ədalətə məftunam.

Təəssüf ruhunda yazılmış şeirlər də həssas təbiətli Cəmil Əkbər yaradıcılığında yer almışdır. Şairi məyus edən cəhət bir pedaqoq kimi, dünyagörmüş müdrik bir ağsaqqal şəxsiyyət olaraq bəzi üzdəniraq kəslərə deyilən qiymətli sözlərin qiymətsiz olduğu səbəbi ilə kəmağıl, key, səy, kütbeyin, zay başlara, boş beyinlərə əsər etməməsinin *"Heyif"* rədifli şeirinin nümunəsində müşahidə edirik.

Dünyada nəqədər söz deyilsə də,
Yol tapa bilmədi key başa, heyif.
Atılıb hədəfə düz deyilsə də,
Çatmadı kəmağıl, səy başa heyif.

Cəmil Əkbərin bir ata, bir qaynata kimi səmimi dillə yazdığı *"Mehriban"* rədifli qoşma bütün yeni ailə qurmuş övladlarımız üçün bir xeyir-dua dəyərindədir. Ülvi arzularını, xoş məramlarını Cəmil

Əkbər 2 dekabr – 1991-ci ildə yazdığı bu şeirində səmimiyyəti ilə ifadə etmişdir.

Ay əziz İlqarım, ay Şəkər xanım,
Yaşayın mehriban, qurun mehriban.
And-aman edirəm siz mənim canım,
Oturun mehriban, durun mehriban.

Həyatda mənanı zəhmətdə görün,
Xalqına etdiyin xidmətdə görün,
Şərafətdə görün, şöhrətdə görün,
Dövranını yaxşı sürün mehriban.

Əsl şairlər xalqın xoş gününə, xoşbəxt günlərinə sevinən, başına gələn müsibətlərə isə dərdlənib, qəmlənib mənən gözyaşı tökən həssas qəlbli Vətənsevər insanlar olmuşlar. Bu baxımdan ürəyi xalqı milləti üçün yanan şairləri millətindən, xalqından ayırmaq mümkün deyildir. Çünki şairlər xalqın millətin yetirməsi, millətinin xalqının haqq səsini daima həryana carçəkən dünyaya bildirən carcıları olmuşdur. Ədalətsizliyə qarşı dözməyən şairlər öz yaradıcılığında bu kimi hadisələri qələmə alıb poetik düşüncələrini poetik misralarda təzahür etdirmişlər. Bu baxımdan xalqının saysız dərdinin, qəminin, şən xoşbəxt günlərinin, sevinçlərinin elçiləri olmuşlar şairlər. Kəlbəcərin 4 aprel 1993-cü il tarixində Erməni faşist cəlladlarının işğalına məruz qalması həqiqətən də hər bir Azərbaycanlı Vətən övladlarımız kimi Cəmil Əkbəri də dərindən sarsıtmış. Nə edəcəyini, necə edəcəyini bilmədiyi üçün qələmə sarılmış *"Ürəyiniz dəmirdimi, daşdımı?"* rədifli qoşması ilə nəinki Kəlbəcər xalqına həm də Azərbaycan xalqına həyəcan təbilini 32 benddən ibarət qoşmasında dərdini yana-yana anladaraq poetik dillə izhar edib, sanki qeyzə gəlmiş fırtına kimi çağlamışdır. 2 iyun 1993-cü ildə yazdığı bu şerin bəzi bəndlərini oxucularımızla paylaşmaq istərdik:

Var-halınız şülən oldu, talandı,
Bağrım başı od-ocaqsız qalandı,
Koroğlular məgər indi yalandı?
Ürəyiniz dəmirdimi, daşdımı?

Hansı namərd sizə tələni qurdu?
Satdı yal-yamacı, bələni verdi,
Çəkilib yayındı, kənarda durdu,
Ürəyiniz dəmirdimi, daşdımı?

Bir zamanlar istedadlı şairimiz Rasim Kərimlinin məşhur *“Nəfayda”* rədifli şeiri ustad aşıqların repertuarında yer almaqda idi:

Rasiməm dar gündə elimə yaraq,
İnamın yoxdursa imtahan et bax,
Zülmət gecələrdə yanmayan çıraq,
Günəşli gündüzdə yandı nəfayda?

Cəmil Əkbər də *“Nəfayda”* rədifli şeirini yazmış, bu mövzudakı poetik düşüncələrini təqdim etdiyimiz misralarda fərqli yöndən belə ifadə etmişdir.

Hər bir kəsdə abır gərək, ar gərək,
Abır yoxsa, ismət yoxsa nəfayda?
Vəfalı dost, bir namuslu yar gərək,
Namus yoxsa, qeyrət yoxsa nəfayda?

Gəl ey Cəmil, axıtma gözyaşını,
Nahaq yerə çox ağrıtma başını,
Ona-buna turşutma göz-qaşını,
Öz-özünə hiddət yoxsa nəfayda?

Cəmil Əkbər aşıq şeirinin birçox formasında qələmini sınamış gözəl şeri nümunələri yaratmışdır. Divani, qoşma, gəraylı, bayatı şeiləri çoxluq təşkil edir. Hətta qəzəl şeir növündə yazdığı nümunələr də vardır. Divani şeir qəlibində yazdığı *“Qənimimdir”* rədifli şeirindən bir bəndi oxucularımızla paylaşmaq istərdim.

Qoyun deyim, siz də bilin, kimdi ah-zar etdiyim,
Harda varsa azca-çoxca qənimimdir nadanlar.
Əllərindən xəstə düşüb, beylə güzar etdiyim,
Harda acsa, harda toxsa, təlimdən kəm dadanlar.

Cəmil Əkbər yaradıcılığının müəyyən bir qismini insanlığa qarşı yönəlmiş xain xislətli, pis əməllərlə millətini cana gətirən, vəzifəsindən sui-istifadə edən üzdəniraqların, başqalarına zülm edıb

iztirab verməklə var-hal toplayanların, fəqirin, kasıbın qanını soran cəlladların timsalında olan bədxur, nankor, nadürüst, əclafların haqdan, ədalətdən uzaq kəc rəftarlarına qaşı olan ittiham dolu poetik nümunələr yer alır. Məcazi anlamda zəli xislətli iblisləri hədəf alan Cəmil Əkbər *"Tapılar"* rədifli şeirində "qisas qiyamətə qalmaz" deyir:

Ay zəlilər az sussayın qanıma,
Sənin də qanını soran tapılar.
Xələl vurma şövkətimə, şanıma,
Sənin də qolunu buran tapılar.

Yol verməyin bir bu qədər günaha,
Qulluq etmə ömürboyu tamaha,
Nəzər salın siz uğurlu sabaha,
Sənin də qəsdinə duran tapılar.

Cəmil Əkbər yaradıcılığında qəmli, kədərli şeirlər vardır. Bu qəmli şeirlərin bir qismi yaxından tanıdığı, el-oba arasında sevilən, hörmət bəslənilən, hətta qohum əqrəbalar da daxil olmaqla haqqın rəhmətinə vaxtsız getməsi ilə əlaqədardır. Üzüntüsünü şeirin misralarında car edib dərdi-qəmini poetik misraların gözyaşı ilə ağlayan Cəmil Əkbərin bu qəbildən olan bir çox şeirləri vardır. Bu şeirlərdən biri də Gədəbəy elinin şair təbli tanınmış həkimi, Nadir Əliyevin faciəvi şəkildə bilinməyən bir səbəblə özünə qıyması, faciəvi şəkildə vəfatı ilə bağlıdır. Həyatının orta çağlarında ölüm şərbətini dadan Nadir həkimin xiffətinə dözə bilməyən Cəmil Əkbər dərdi-qəmini kədərli misralara ipə-sapa belə düzmüşdür:

Görmürdünmü səni oba, el sevir?
Necə qıydın, niyə qıydın a Nadir?
Çəmən sevir, çiçək sevir, gül sevir?
Necə qıydın, niyə qıydın a Nadir?

Bilmədinmi ana, bacı ağlayar?
Dərd-qəm çəkib, sinəsini dağlayar?
Yas saxlayıb, başa qara bağlayar?
Necə qıydın, niyə qıydın a Nadir?

Bir iqtisadçı alim kimi ölkədə ərzağın çatışmamazlığı xüsusilə də buğdanın yabançı ölkələrdən gətirilməsi ilə iqtisadiyyatın

düzəlməyəcəyini bir mütəxəssis həyəcanı ilə 28.09 -1996 ildə izadığı *"Barışammıram"* rədifli şeirnin bir bəndində belə ifadə edir:

Əslində 90-cı ildən Sovetlərin çöküşündən sonra ictimai-siyasi sahədə xaosun və qarğaşanın yaranması səbəbi ilə iqtisadiyyatda özbaşınalığın baş alıb getməsi, zəhmətkeş əkincilərin, maldarların əlinin işdən soyuması, əməyinə verilən qiymətin doğru-dürüst dəyərləndirilməməsi, həvəsləndirici təşviqlərin olmaması nəticəsində iqtisadiyyat iflicə uğradı. Bu səblədə iqtisadcı-şair Cəmil Əkbər bu narahatçılığını və nigarançılığını şeir dili ilə xalqına və yüksək vəzifə sahiblərinə, iqtisadi işə mükəlləf olmuş yetkililərə üzünü tutub əslində poetik misralarla həyəcan təbili çalır:

Gündən-günə xarablaşır günümüz,
Yad ölkədən gətirilir dənimiz,
Xoşa gəlmir səs-küyümüz, ünümüz,
Bu cürə alverlə barışammıram.

Şairlərin digər insanlardan fərqli uzaqgörən olması, Peyğəmbərlərimizə məxsus olan keyfiyyətin kiçik bir zərrəsi kimi də adlandıra bilərik. Çünki bu qabiliyyət müəyyən qədər şairlərin fitrətində yer almaqla yaradıcılığında öz əksini tapmışdır. *"Göyçəlilər dağılmayın göyçədən"* deyən Xalq Şairimiz Hüseyn Arif qarşıda böyük fəlakətin anonsunu bir neçə il öncədən duyaraq şeirində ifadə etmişdir. Bu nigarançılıq, həyəcan təbili illər keçdikdən sonra Göyçəlilərin Göyçədən pərən-pərən düşməsi ilə nəticələndi təəssüf ki. Ən nəhayət xalqımız köçgün, qaçqın adlı bəlayla üzləşməli oldu 35 il öncə.

Cəmil Əkbərin bir şeirində onun uzaqgörənliyi, 2019 ilində mart ayının 16-da Türkiyədə də başlamış "Covid-19" adlı qorxunc virusun bütün dünyanı işğal edib insanlıq aləmini əsarətə alması zamanı anlaşıldı. 41 il öncə yəni dəqiq desək 15 Sentyabr 1978-ci ildə Cəmil Əkbərin *"Özünü gözlə"* rədifində yazdığı qoşmanın ilk bəndində həyəcan təbili çalaraq gözlə-görülməz mikrob danəsinin gücünün, bütün bəşəriyyəti təhdid edən Atom bombası qüdrətinində olduğu təsdiqini tapmışdır.

Günəş yanmağından qorxma dünyada,
Çınqı yanğısından özünü gözlə!
Əjdaha, begemont, nə fildən qorxma,
Mikrob danəsindən özünü gözlə!

Cəmil Əkbərin bir çox sahələrdə, xüsusən də iqtisadi, ideoloji hətta ekoloji sahələrdə bir zaman çaldığı həyəcan təbillərini də qeyd etməmiz gərəkir. Çünki indiki yaşdığımız dönəmdə ekoloji fəlakətlərin olacağını həyatda yaşadığı zaman 50 il öncə insanlıq aləminə hətta bəşəriyyətə anlatmağa, şeirin dili ilə xəbərdar etməyə çalışmışdı Cəmil Əkbər. Fəqət bu həyəcanlarının səsini-sədasını təəssüflər olsun ki, nə duyan oldu, nədəki eşidən. İndi də qarşısı alınmaz fəlakətlərlə boğuşmaqdayıq. Qasırğalarla, tusinamilərlə, leysanlarla, zəlzələlərələ, quraqlıqlarla, yanğınlarla, aclıqlarla qarşı-qarşıya dayanaraq savaş verməkdəyik nə yazıq ki. Bu bəşəri problemləri çözə biləcəyikmi görəsən? Allaha pənah. İstedadlı şairimiz Bəhmən Vətənoğlunun təbiri ilə desək: *"İş düzələr bir İlahi yetsə dada, mən kiməm?".* Allah yardımcımız olsun. Amin…



Prof. Dr. İlgar Cəmiloğlu



Hüquqşünas Əli İmamverdi

28. 05 – 2023 saat 08:28

## 1. AZDIR

Qəribə yaranıb bu qoca dünya,
Təpələr saysızdır, dağ olan azdır.
Bu əfsanə dünya, bu beca dünya,
Kol-koslar saysızdır, bağ olan azdır.

Yarası qövredib, simləyən çoxdur,
Ağlayıb, sızlayıb, inləyən çoxdur,
Nəqədər deyirsən dinləyən yoxdur?
Xəstələr çoxalır, sağalan azdır.

Bu bəşər qatara düzülüb gedir,
Çox qalın olanlar, nəzilib gedir,
Torbaya tökülüb, süzülüb gedir,
Ayranlar nə çoxdur, yağ olan azdır.

Çox mənəm deyənin üzünə baxma!
Yoluna boylanıb, izinə baxma!
Söhbətinə uyma, sözünə baxma!
Üzü el içində ağ olan azdır.

Çoxunun sözünün əsəri yoxdur,
Ellərə çatası səməri yoxdur,
İnsanlıq elmindən xəbəri yoxdur,
Sözləri-söhbəti dağ, olan azdır.

Nəqədər insanlar qəm içindədir,
Zildən-pəsə düşüb, bəm içindədir,
Gözünün didəsi nəm içindədir,
Kefləri-damağı çağ olan azdır.

***Cəmil Əkbər*** 12. 01 - 1996

## 2. ÇOX AZDIR

Neyləsin görəsən yazan yazıqlar,
Oxuyub, anlayan, qanan çox azdır.
Canını, qanını üzən yazıqlar,
Acıyıb halına yanan çox azdır.

Nəqədər düşünsün qanan yazıqlar?
Ellərin dərdinə yanan yazıqlar?
Məcnunlar, Kərəmlər, Sənan yazıqlar?
Axtarıb-arayan, anan çox azdır.

Nəqədər məzlumlar qəflətdə yatır,
Qəzəbdə, acıqda, hiddətdə yatır,
Küdurətdə yatır, nifrətdə yatır,
Məhəbbət bağına qonan çox azdır.

Haqsızlıq içində boğulur bəşər,
Vuruşur, didişir, xeyir ilə şər,
Nəyi izhar edib, deyim müxtəsər,
Qanı laxtalanıb donan çox azdır.

Hərə bir tərəfdə öz işindədir,
Əyri işindədir, düz işindədir,
Dərin işindədir, üz işindədir,
Salıb bir xarrata yonan çox azdır.

Deyəsən eşq də saxtalanıbdır,
Donubdu damarda laxtalanıbdır,
Qapısı-bacası taxtalanıbdır,
Ruha qida verən canan, çox azdır.

***Cəmil Əkbər*** 12. 02- 1990

## 3. ÇOX AZDIR

Adamlar içində adamlar çoxdur,
Axtarıb-arasan insan çox azdır.
Nəqədər istəsən nadanlar çoxdur,
Düşünüb, dərk edən, qanan çox azdır.[1]

[1] *II variant*
Bu cahan mülkündə adamlar çoxdur,
Əfsuslar olsunki adam çox azdır.
Nəqədər istəsən nadanlar çoxdur,
Dərdini düşünüb qanan çox azdır.

Çoxları bilməyir haqq-say nədir?
Halal süfrə nədir, halal çay nədir?
Gözəl sovqat nədir, gözəl pay nədir?
Onu xatırlayan, anan çox azdır.[2]

Gedirəm şəhərə, gəlirəm kəndə,
Düşürəm sehirli bəndə, kəməndə,
Çoxları desə də sevirəm mən də,
Məhəbbət mülkünə qonan çox azdır.[3]

Çoxlarıyla ülfət qılıb əyləndim,
Giley-güzar eyləyərək söyləndim,
Qan qaraldıb, əbəs yerə keyləndim,
Ürəkdən can deyib, yanan çox azdır.[4]

El-obaya dərd verənlər nəqədər?
Çəmkirənlər, hürüşənlər nəqədər?
Yayınanlar, sürüşənlər nəqədər?
Qanı laxtalanıb, donan çox azdır[5]

---

[2] *II variant*
Çoxları unudur haqq-sayları,
Halal süfrələri, halal çörəyi,
Gözəl sovqatları, dürlü payları,
Onu yada salıb, anan çox azdır.

[3] *II variant*
Gedirəm şəhərə, qəsəbə, kəndə,
Düşürəm sehirli kəməndə, bəndə,
Çoxları desəki sevirəm mən də,
Məhəbbət gülünə qonan çox azdır.

[4] *II variant*
Çoxlarıyla ülfət qılıb, əyləndim,
Umdum-küsdüm, öz-özümə söyləndim,
Korlayıb əsəbi, yaman keyləndim,
Ürəkdən can deyib, yanan çox azdır.

[5] *II variant*
Ellərin dərdini artıran çoxdur,
Yolunda kol-koslar bitirən çoxdur,
Bavalı boynuna götürən çoxdur,
Qanı laxtalanıb, donan çox azdır.

Haqqın yollarından azanlar çoxdur,
Doğrunu əyriyə yozanlar çoxdur,
Ülfət-ünsiyyəti pozanlar çoxdur,
Əyrini düzəldib yonan çox azdır.[6]

Dünyada nə çoxdur gözəl xanımlar,
Səndən də, məndən də əzəl xanımlar,
Yelbeyin, sərsəri, dəcəl xanımlar,
Ruhumu oxşayan canan çox azdır.[7]

Çoxları deyir ki, mən də anayam,
Məhəbbətə əriş-arğac xanayam,
Huriyəm, pəriyəm, gözəl sonayam,
Abırlı-isml ətli zənan çox azdır.

Hamı ləyaqətdən ilham alsa da,
Bu kökün üstündə hava çalsa da,
Cəmil kimi xəyallara dalsa da,
Kərəmlər, Dilqəmlər, Sənan çox azdır. [8]

***Cəmil Əkbər*** 15-17 // 05 – 1989

## 4. ÇOX AZDIR

Dünyada nəqədər adam olsa da,
Düşünüb dərk edən, qanan çox azdır.
Sərsəri, cahillər, nadan olsa da,
Axtarıb arasan, insan çox azdır.

---

[6] *II variant* Haqqın yollarından azanlara bax,
Doğrunu əyriyə yozanlara bax,
Ülfət-ünsiyyəti pozanlara bax,
Əyrini-üyrünü yonan çox azdır.

[7] *II variant* Dünyada nə çoxdur mələkzadələr,
Hiyləgər, dələduz, kələkzadələr,
Ağ yel, qara yellər, küləkzadələr,
Ruhumu oxşayan canan çox azdır.

[8] *II variant* Gözəllikdən hamı ilham alsa da,
Cəmil kimi xəyallara dalsa da,
Bu kök üstdə çoxlu hava çalsa da,
Kərəmlər, Dilqəmlər, Sənan çox azdır.

Çoxları desəki insanam mən də,
Alim münəccimən, loğmanam mən də,
Düşünüb dərk edən, qananam mən də,
Məhəbbət bağına qonan çox azdır.

Nəqədər dost-tanış, yoldaş görmüşəm?
Vəfalı-vəfasız sirdaş görmüşəm?
Həmyaşıd, tay-tuşlar, çağdaş görmüşəm?
Ürəkdən can deyib yanan çox azdır.

Haqqın yollarından dönənlər çoxdur,
Qaralıb-qarsıxıb sönənlər çoxdur,
Zirvədən aşağı enənlər çoxdur,
Əyrini-üyrünü yonan çox azdır.

Hamı məhəbbətə təzim etsə də,
Səxa-sədaqətə təzim etsə də,
Ülvi-ləyaqətə təzim etsə də,
Kərəmlər, Dilqəmlər, Sənan çox azdır.

Dünyada çoxsada gözəl xanımlar,
Yarlı-yaraşıqlı özəl xanımlar,
Bir deyən yoxdur ki, düzəl xanımlar,
Ruhumu oxşayan canan çox azdır.

***Cəmil Əkbər***

## 5. VERƏNDƏ

Taleyimdən gileyliyəm,
Mənə böylə yar verəndə.
Nə danışım, nə söyləyəm?
Mənə böylə mar verəndə.

Keçənmirəm vicdanımdan,
Dəli şeytan, gic qanımdan,
Şirin həyat bu canımdan,
Mənə namus, ar verəndə.

Gecə-gündüz yanıram mən,
Canımdan usanıram mən,
Varlığımı danıram mən,
Sinəm üstə nar verəndə.

Ömürboyu çəkdim qəhər,
Qan qaraltdım axşam-səhər,
Eşq ucundan içdim zəhər,
Mənə böylə  xar verəndə.

Sinəm gördü düyünlü-dağ,
Saçım oldu qardan da ağ,
Böylə dərddən qalarmı yağ?
Mənə böylə bar verəndə.

***Cəmil Əkbər***

## 6. ÖZ GÜCÜNDƏDİR

Ağlayan ağlayır, gülənlər gülür,
Dünya öz işində, öz gücündədir.
Doğulan doğulur, ölənlər ölür,
Dünya öz işində, öz gücündədir.

Üzənlər üzürlər, batanlar batır,
Vicdanı, məsləyi satanlar satır,
Aranı-bərəni qatanlar qatır,
Dünya öz işində, öz gücündədir.

İnsafı-mürvəti atanlar atır,
Oyanan oyanır, yatanlar yatır,
Qaçanlar qaçırlar, tutanlar tutur,
Dünya öz işində, öz gücündədir.

Qanmayan qanmayır, qananlar qanır,
Alışıb, od alıb yananlar yanır,
Xətiri-hörməti dananlar danır,
Dünya öz işində, öz gücündədir.

Qazanan qazanır, yeyənlər yeyir,
Bəzənib, düzənib, geyənlər geyir,
Düzəldən düzəldir, əyənlər əyir,
Dünya öz işində, öz gücündədir.

Sellənib, kükrəyib daşanlar daşır,
Həddi- hüdudunu aşanlar aşır,
Yanılan yanılır, çaşanlar çaşır,
Dünya öz işində, öz gücündədir.

Ölən də, qalan da vecinə deyil,
Açılıb solan da vecinə deyil,
Boşalıb dolan da vecinə deyil,
Dünya öz işində, öz gücündədir.

Gedənlər gedirlər, gələnlər gəlir,
Bağrının başını dələnlər dəlir,
Gözünün yaşını silənlər silir,
Dünya öz işində, öz gücündədir.

Ünsiyyət-ülfəti pozanlar pozur,
Yolunu, izini azanlar azır,
Oxuyan oxuyur, yazanlar yazır,
Dünya öz işində, öz gücündədir.

Ucalan ucalır, enənlər enir,
Qaralıb qarsıxıb sönənlər sönür,
Susanlar susurlar, dinənlər dinir,
Dünya öz işində, öz gücündədir.

***Cəmil Əkbər*** 3. 05 -1998

**7. TOXUNMA!**

İnsanoğlu, seyrinə çıx, dünyamıza yaxşı bax,
Eyham ilə gəzib dolan, bir insana toxunma!
El-obaya nəzər yetir, xülyamıza yaxşı bax,
Dərdbilənə, əhli-hala, sözqanana toxunma!
Sərsəm fikir, kəc xəyala, nə eyləsən özün bil,
Zəhmət çəkib dərk eyləyən, düz qanana toxunma!
Ünsiyyəti pozanlara nə eyləsən yaraşar,
Bələd olub yol tanıyan, iz qanana toxunma!

Qoy sözlərim bəyan olsun, cəhalətdə yatana,
İşarədən göz anlayıb, tez qanana toxunma!
Nə danışıb, nələr desən, qəlbi buza yaraşır,
Sinəsində od püskürən, köz qanana toxunma!

***Cəmil Əkbər*** 14. 04 – 1998

## 8. MƏRDİN ÜRƏYİ

Sındırsan qəlbini kin ilə dolar,
Dumandı, çiskindi mərdin ürəyi.
İblislə, əqrəblə, cin ilə dolar,
Zalıma yamandı, mərdin ürəyi.

Sən onu küsdürsən dərdi çoxalar,
Ürəyi kövrələr, qəlbi yuxalar,
Əyninə yaraşmaz atlas çuxalar,
Arxadı, həyandı, mərdin ürəyi.

Xətrinə dəyəndə nifrəti artar,
Qəzəbi çoxalar, hiddəti artar,
Yetişər xətası, şiddəti artar,
Tufandı, borandı mərdin ürəyi.

Məhəbbət yolunda özünü yorur.
Usanmır zəhmətdən yaradır, qurur,
Səadət naminə oturur, durur,
Eşq ilə vurandır mərdin ürəyi.

Yar sadiq olmasa, vaxtsız qocalar,
Naləsi, fəqanı göyə ucalar,
Qəmin çələngindən başı tac alar,
Boynunu burandı mərdin ürəyi.

Ülvi gözəlliyin pərvanəsidir,
Vəfasız gözəlin biganəsidir,
Leylilər, Əslilər divannəsidir,
Məcnundur, Sənandır mərdin ürəyi.

Dərd tüğyan eyləsə yanıb kül olar,
Gah bəmə köklənər, gah da zil olar,
Bir günlük ayrılıq min bir il olar,
Sevgisiz virandır mərdin ürəyi.

Nəqədər dözümlü, mətin də olsa,
Enişdə, yoxuşda, çətin də olsa,
Polad xəlitəsi qatında olsa,
Şam kimi yanandır mərdin ürəyi.

Yorulmaq bilmədən qayalar çapır,
Oğul-qız qazanır, ləl-gövhər tapır,
Arzuya qovuşub, murada çatır,
Nökərdir, çobandır mərdin ürəyi.

Ha çəkirsə qayğıları azalmır,
Ha yorulur, inildəmir, pozulmur,
Gündən-günə aşıb-daşır, sozalmır,
Dəryadır, ümmandır mərdin ürəyi.

***Cəmil Əkbər*** 12. 02 – 1980

## 9. "QARDAŞ"

Eşit bu sözləri, bir qərara gəl,
Qoy biz də dolanaq, ay zəli "qardaş".
Zəhmət çək xeyirə, şərə yara gəl,
Acından öldürmə gəl, kəli "qardaş".

Gör nələr çəkirik, xəbərin olsun?
Könül diyarında sətirin olsun?
Adi bənövşətək, ətirin olsun?
Sanma sözlərimi gülməli, "qardaş".

Ellərdən, obadan az nifrət qazan,
Az küdurət qazan, ədavət qazan,
Dəhşətlər törədib, az hiddət qazan,
Sağikən olmaynan ölməli, "qardaş".

De kimdən öyrəndin belə olmağı?
Tamahı önündə kölə olmağı?
Ellərə, obaya şələ olmağı?
Qaşları, gözləri sürməli "qardaş".

Oxu bu naməni kamala yetiş,
Əqidə, məsləyə, amala yetiş,
Ellərə nəzər sal, mahala yetiş,
Sənə deyilməsin, ay dəli "qardaş".

Ünsiyyət-ülfətdə kələk az qurun,
İncidib bu xalqı, daha az yorun,
Çəkib damarından qanı az sorun,
Qoy biz də dolanaq, ay bəli "qardaş".[9]

***Cəmil Əkbər***

## 10. FƏHLƏ ƏLLƏRİDİR, KƏNDLİ ƏLLƏRİ

Ən böyük yazıçı, şair, bəstəkar,
Fəhlə əlləridir, kəndli əlləri.
Ən böyük müğənni, gözəl nəğməkar,
Fəhlə əlləridir, kəndli əlləri.

Ən böyük müəllim, münəccim, loğman,
Tanınmış sərkərdə, igid, qəhrəman,
Keçmişdə, indidə, gələcək zaman,
Fəhlə əlləridir, kəndli əlləri.

Bəşər övladının dadına çatan,
Zalım dünyasının daşını atan,
Haqdan, ədalətdən yapışan, tutan,
Fəhlə əlləridir, kəndli əlləri.

Zəfər dünyasını mayalandıran,
Müqəddəs kitabı ayələndirən,
Əqidə verdirən, qayələndirən,
Fəhlə əlləridir, kəndli əlləri.

***Cəmil Əkbər***

---

[9] *II variant* Azma doğru yolu, gəl haqqı tanı,
Çaşma sağı-solu, ədəb-ərkanı,
Çəkib damarından az sorun qanı,
Qoy biz də dolanaq ay bəli "qardaş".

## 11. AXTAR

Ən təmiz havanı udmaq istəsən,
Öz elin-obanda, meşəndə axtar.
Ən gözəl neməti dadmaq istəsən,
Zəhmətində axtar, işində axtar.

Anlamaq istəsən məhəbbət nədir?
Ehtiram, etiqad, mərhəmət nədir?
Xeyirxahlıq nədir, fəzilət nədir?
Öz könül aynanda, şüşəndə axtar.

İstəsən ellərdə tanınsın adın,
Enişdə-yoxuşda sınansın adın,
Sayılsın, seçilsin, unannsın adın,
Atlananda axtar, düşəndə axtar.

Bezdirib zəhləni tökən olmasın,
Qəlbinin bəndini sökən olmasın,
Sinənə dağ-düyün çəkən olmasın,
Sakit təbiətdə, guşəndə axtar.

Axtarıb-arasan gözəl günləri,
Xatirəyə dönmüş özəl günləri,
Gəlhagəl günləri, xəzəl günləri,
Kefində, damaqda, nəşəndə axtar.

Qovuşmaq istəsən səadətə sən,
Gözəl ənənəyə, xoş adətə sən,
Bilik-bacarığa, məharətə sən,
İdraklı, zəkalı başında axtar.

İstəsən olasan şərafət əhli,
Bacarıq, fərasət, məharət əhli,
İxtiyar, iqtidar, sədarət əhli,
Kamil sənətində, peşəndə axtar.

İstəsən həryanda soydaş çoxalsın,
Dost-tanış çoxalsın, yoldaş çoxalsın,
Həmkarlar, həmdəmlər, sirdaş çoxalsın,
Yeməkdə, içməkdə, aşında axtar.

İstəsən özgəyə əl uzanmasın,
Təvəqqə çoxalıb, dil uzanmasın,
Oxu bu naməni bil, uzanmasın,
Kotan, dırmığında, xışında axtar.

Axtarıb-arasan səadəti sən,
Ünsiyyət-ülfətdə səxavəti sən,
Ətiri-gülüstan, təravəti sən,
Öz yal-yamacında, döşündə axtar.

Ay Cəmil, istəsən pozulmayasan,
İnləyib, sızlayıb, sozalmayasan,
Çevrilib tərsinə yozulmayasan,
Öz fikir-xəyalın, huşunda axtar.

***Cəmil Əkbər*** 5.05-1997

## 12. ZƏMANƏNİN AĞSAQQALI

Açıq-aşkar danışanmır,
Zəmanənin ağsaqqalı.
Xeyrə-şərə qarışanmır,
Zəmanənin ağsaqqalı.

El içində sözü keçmir,
Ha desə də, düzü keçmir,
Yolu keçmir, izi keçmir,
Zəmanənin ağsaqqalı.

Bir-birilə yarışanmır,
Əhval tutub soruşanmır,
Dərinliyə girişənmir,
Zəmanənin ağsaqqalı.

İtiribdir adı-sanı,
Halal süfrə, təmiz qanı,
Nuranilər deyin hanı?
Zəmanənin ağsaqqalı.

Qeybedibdir hörmətini,
Şərəfini, şöhrətini,
Sağlam fikir, niyyətini,
Zəmanənin ağsaqqalı.

Məqamında saya gəlmir,
Kara gəlmir, hoya gəlmir,
Dürlü-dürlü paya gəlmir,
Zəmanənin ağsaqqalı.

Alnıaçıq gəzə bilmir,
Dərya dərin, üzə bilmir,
Dərd ağırdır, dözə bilmir,
Zəmanənin ağsaqqalı.

Mərd igidlər gədə olub,
Sağ bədəndə zədə olub,
Hər yetirən dədə olub,
Zəmanənin ağsaqqalı.

Gedə-gedə cılızlaşır,
Dövrü-zaman qəlizləşir,
Zəyifləyib öləzləşir,
Zəmanənin ağsaqqalı.

Görə-görə kar olubdur,
El içində xar olubdur,
Koryapalaq sar olubdur,
Zəmanənin ağsaqqalı.

Vaxt-vədəsiz ölüb gedir,
Gözlərini silib gedir,
Azdan-çoxdan bilib gedir,
Zəmanənin ağsaqqalı.

Elə, xalqa yol göstərmir,
Peyvənd üçün kol göstərmir,
Nə bilirsə bol göstərmir,
Zəmanənin ağsaqqalı.

Hardasansa gəlin çıxın,
Cəhaləti vurun, yıxın,
Əzişdirin, qırın, sıxın,
Zəmanənin ağsaqqalı.

***Cəmil Əkbər*** 5. 07 – 1989

## 13. AYILMAMIŞAM

Dolanıb nəqədər dövranlar keçib,
Qəflətdə yatmışam, ayılmamışam.
Sarvanlar köç edib, karvanlar köçüb,
Günaha batmışam, ayılmamışam.

Nəqədər gözələ çirkin demişəm?
Nəqədər sadəyə nikbin demişəm?
Nəqədər nikbinə bədbin demişəm?
Vicdanı satmışam, ayılmamışam.

Nəqədər yaxşıya pisdi demişəm?
Zalımdı, bədxahdı, nəsdi demişəm?
Qızıla-gümüşə misdi demişəm?
Mürvəti atmışam, ayılmamışam.

Ləyaqət əhlindən qaralanmışam,
Bədinə danışıb aralanmışam,
Bostantək dərilib uralanmışam,
Yuxumu qatmışam, ayılmamışam.

Ay Cəmil, dolanıb, keçibdi illər,
Fəsillər dalınca keçib fəsillər,
Nəsillər dalınca gəlib nəsillər,
Yetmişə çatmışam, ayılmamışam.

***Cəmil Əkbər*** 10. 01 – 1996

## 14. HƏZZ ALSIN

Şair gərək elə yazıb yaratsın,
El oxuyub qoşmasından həzz alsın.
İtib-batıb qalmayaydı arada,
İlhamının çeşməsindən həzz alsın.

Gələnlərdən, gedənlərdən söz aça,
Dolaşığı, düyünləri tez aça,
Təzə-təzə puçurlayıb göz aça,
Aşıb-daşıb, coşmasından həzz alsın.

Gəraylısı, təcnisindən danışıb,
Xeyrə-şərə yaxınlaşıb, qarışıb,
İnciməmiş, küsməmişdən barışıb,
Qaynar təbin daşmasından həzz alsın.

Dolana dünyanı, gəzə mərdana,
Hünərlər göstərib girə meydana,
Çıxardıb mətahın tökə dür danə,
Qıfılbəndlər açmasından həzz alsın.

Avamlığı, cəhaləti göstərib,
Törədilən qəbahəti göstərib,
Kin-küdurət, ədavəti göstərib,
Haqsızlığı sancmasından həzz alsın.

Qaralmaya, qarsıxmaya, sönməyə,
İlqarından, imanından dönməyə,
Zirvələrdən aşağıya enməyə.
Tərlan kimi uçmasından həzz alsın.

Nanəciblik, naqisliyi pisləyə,
Xainliyi, xəbisliyi pisləyə,
Arsız-karsız varisliyi pisləyə,
Arxasından, qaçmasından həzz alsın.

Harda olsa mənliyini bildirə,
Ürəkləri sevindirə, güldürə,
Naxələfi, nadürüstü öldürə,
Ziyasını saçmasından həzz alsın.

Ötsə də nəqədər əsrlər belə,
Fəsillər dalınca fəsillər belə,
Nəsillər dalınca nəsillər belə,
Könüllərdən keçməsindən həzz alsın.

Harda olsa düz danışa sözünü,
Haqsızlığa yummayıbdır gözünü,
Qurban verə haqq yolunda özünü,
Boya xələt biçiləndən həzz alsın.

***Cəmil Əkbər*** 9. 01 - 1996

## 15. TAPARSAN

Eşidib sözümü, sınayın məni,
Mənəvi var-dövlət, sərvət taparsan.
Faydası olmasa yanıyın məni,
Elinə-obana xidmət taparsan.

Onun hər sətirində, hər kəlməsində,
Hərbir səhvəsində, hər cümləsində,
Ərişi, arğacı, hər ilməsində,
Mənalar kəsb edib, hikmət taparsan.

Oxuyun hərzaman, onu dərk edin,
Xətalar edənə cəza bərk edin,
Nümunə göstərin hər an görk edin,
Şərafət taparsan, şöhrət taparsan.

Kəsilər qal-qovğa, kəsilər dava,
Zəhərə qarışmaz tərtəmiz hava,
Bu cahan mülkündə azalar yava,
Çıxıb azadlığa, möhlət taparsan.

Çaşmazsan həyatda yolun düz olar,
Sözünlə əməlin üzbəüz olar,
Doxsana çatarsan, yaşın yüz olar,
Ellərdən, obadan nüsrət taparsan.

***Cəmil Əkbər***

## 16. DOLANIN

Eşitsən sözümün budur hikməti,
İnsaf-mürvət, kəramətlə dolanın.
Alarsan ellərdən doğru qiyməti,
Ədəb-ərkan, nəzakətlə dolanın.

Əzilən olmasın, əzən olmasın,
Canından usanıb bezən olmasın,
İnləyib, sızlayıb, dözən olmasın,
Doğru-düzlük, həqiqətlə dolanın.

Abırlı, ismətli, həyalı olun,
Qədəmi uğurlu, sayəli olun,
Əqidəli olun, qayəli olun,
Təmiz arzu, pak niyyətlə dolanın.

Haqqın-ədalətin bədinə getmə,
Həyat yollarında kol kimi bitmə,
Könüllər mülkündən silinib itmə,
Dözüm-durum, qətiyyətlə dolanın.

Səni aldatmasın nə şər, nə böhtan,
Nə iblis, nə əqrəb, nədə ki, şeytan,
Hər addımbaşında aranı qatan,
İnsan kimi ləyaqətlə dolanın.

Qəlbində saxlama kini-küdrəti,
Avamlıq, nadanlıq, nə cəhaləti,
Xətanı, bəlanı, nə qəbahəti,
Zərifliklə, məlahətlə dolanın.

İlqara-imana dönük olmayın,
Hər səmtə üz tutan yönük olmayın,
Dadamal, tamarzı, ənik olmayın,
Sədaqətlə, səxavətlə dolanın.

Çalışın qüssəni, qəmi çəkməyin,
Əyəri, əksiyi, kəmi çəkməyin,
Zildən pəsə düşüb, bəmi çəkməyin,
Eşq-həvəs, məhəbbətlə dolanın.

Unutma sözünü Cəmil Əkbərin,
Oxu bu kəlamı olsun xəbərin,
Görənlər, bilənlər desin afərin,
Bu nicatla, bu nüsrətlə dolanın.

***Cəmil Əkbər*** 12. 07 -1996

## 17. DÜZ DOLAN!

Haqqın, ədalətin bədinə getmə,
Ayıbdır ellərdən gədə, düz dolan!
Övladı-bəşərə bədxahlıq etmə,
Həyalan güllərdən gədə, düz dolan!

Salıb müsibətə bezdirmə xalqı!
Dağları, daşları gəzdirmə xalqı!
Əzab-əziyyətə dözdürmə xalqı!
Gəşt etmə tərsinə gədə, düz dolan!

Yalan söz-söhbəti dilə gətirmə,
Obaya çıxarma, elə gətirmə,
Muğana, Şirvana, Milə gətirmə,
Qəsd etmə xalqına gədə, düz dolan!

İnsanam deyənə qardaş kimi bax,
Vəfalı dost-tanış, yoldaş kimi bax,
Mehriban, səmimi tay-tuş kimi bax,
Ayıl cəhalətdən gədə, düz dolan!

Tökmə qabaqları, gəl çatma qaşı,
İncitmə ürəyi, ağrıtma başı,
Qərq olub qəflətdə qalmaynan naşı,
Dərk eylə həyatı gədə, düz dolan!

Məqam gəlib cavabını alarsan,
Tezi-geci yaman günə qalarsan,
Sözlərimi bir-bir yada salarsan,
Çəkil bəd işlərdən gədə, düz dolan!

Düzgün dolanmağın zərəri yoxdur,
Heçkəsə xətası, xətəri yoxdur,
Qüssəsi, kədəri, qəhəri yoxdur,
Anla həqiqəti gədə, düz dolan!

Zəhmət çək bir qədər dinlə Cəmili,
Eşit bu sözlərdən, götür dəlili,
İncidib heçkəsi etmə zəlili,
Qayıt yol-ərkana gədə, düz dolan!

***Cəmil Əkbər*** 10. 10 - 1996

# 18. YARI

Dünyada heç nədən yarımasan da,
Oğuldan ilham al, qızından yarı.
İşin düz gətirib, sarımasan da,
Süfrədə tamından, duzundan yarı.[10]

Heçkəs ünvanına pisdi deməsin,
Zalımdı, bədxahdı, nəsdi deməsin,
Höcətdi, inaddı, tərsdi deməsin,
Saldığın yolundan, izindən yarı.

Dediyin sözlərdə yalan olmasın,
Əqrəblər, iblislər, ilan olmasın,
Boğazdan yuxarı kalan olmasın,[11]
Hər kəlmən, cümləndən, sözündən yarı.

Düşsən də tufana, borana neylim?
Dağlara, daşlara, arana neylim?
Muğanda, Şirvanda şorana neylim?[12]
Enişdən, yoxuşdan düzündən yarı.

Demirəm vədəsiz, vaxtsız köçəsən,
Əcəl şərbətini alıb içəsən,
Sirat körpüsündən gəlib keçəsən,
Səksənin, doxsanın, yüzündən yarı.[13]

Xoş keçsin dövranın, açılsın kefin,
Çoxalsın qazancın, gəlirin, nəfin,
Çalınsın təbilin, susmasın dəfin,
Kamanın, tarından, sazından yarı.[14]

---

[10] Saldığın süfrədən, duzundan yarı.

[11] Züy tutub, nağara çalan olmasın.

[12] Barsız torpaqlara, şorana neylim?

[13] *II variant* Demirəm vədəsiz, vaxtsız köçəsən,
Əcəl şərbətini vaxtsız içəsən,
Sirat körpüsündən vaxtsız keçəsən,
Səksənin, doxsanın, yüzündən yarı.

[14] Aşığından yarı, sazından yarı.

Deməki dünyada cəlalım azdı,[15]
Kef-damaq pozulub, əhvalım azdı,[16]
Mənəvi görkəmim, camalım azdı,
Çoxuna qane ol, azından yarı.

Oxuyub, eşidib anla Cəmili,
Xətası çoxdursa danla Cəmili,
Kötəklə, qırmancla, yanla Cəmili,
Söhbətindən yarı özündən yarı.

***Cəmil Əkbər*** 10. 05 -1996

## 19. İNSAN KİMİ YAŞAYAQ

Yaradan düşüncə, baş verib bizə,
İnsan olub, insan kimi yaşayaq.
Dərk edib, anlayan, baş verib bizə,
İnsan olub, insan kimi yaşayaq.

Nəzər salaq öldürənə, ölənə,
Ağlayana, sızlayana, gülənə,
Milyon-milyon gedənlərə, gələnə,
İnsan olub, insan kimi yaşayaq.

Görə-görə kor olmasın gözümüz,
El içində xar olmasın üzümüz,
Dar olmasın yolağımız, izimiz,
İnsan olub, insan kimi yaşayaq.

Pis adəti, ünsiyyəti qovaq biz,
Kollektivdən, şəxsiyyətdən qovaq biz,
Yerdən, göydən, cəmiyyətdən qovaq biz,
İnsan olub, insan kimi yaşayaq.

Görən gözlər səni görcək sevinsin,
İftixarla, fərəh ilə öyünsün,
Ürəyimiz məhəbbətlə döyünsün,
İnsan olub, insan kimi yaşayaq.

---

[15] Deməki dünyada kamalım azdı.
[16] Əqidəm, məsləyim, amalım azdı.

Onu-bunu bezdirməyək, əzizim,
Hər əzaba dözdürməyək əzizim,
Dağı-daşı gəzdirməyək əzizim,
İnsan olub, insan kimi yaşayaq.

Qul olmayaq nə nəfsə, tamaha,
Yol verməyək qəbahətə, günaha,
Nəzər salaq gəl uğurlu sabaha,
İnsan olub, insan kimi yaşayaq.

Avamlıqdan, cəhalətdən nə çıxar?
Xəta-bəla, qəbahətdən nə çıxar?
Kin-küdurət, ədavətdən nə çıxar?
İnsan olub, insan kimi yaşayaq.

Kol-kos olub yolda-izdə bitməyək,
Bəd fikirlə, bəd xəyalla getməyək,
Bu dünyadan köç edərkən itməyək,
İnsan olub, insan kimi yaşayaq.

Azad olaq cəhalətdən əbədi,
Qəsd-qərəzdən, xəyanətdən əbədi,
Giley-güzar, şikayətdən əbədi,
İnsan olub, insan kimi yaşayaq.

Gəl Cəmil Əkbərdən al nəsihəti,
Unutma düz sözü, bil həqiqəti,
Ləyaqət hərşeydən qətidir, qəti,
İnsan olub, insan kimi yaşayaq.

***Cəmil Əkbər*** 30.06 - 1990

## 20. QALMIR

İlahi bu necə dövrü-zamandır?
Öləsi-ölməyir, qalası-qalmır.
Övladı-bəşərin halı yamandır,
Şəhidlər çoxalır, balası qalmır.

İnci də, sədəf də,ləllər də solur,
Xəzana qərq olub, güllər də solur,
Darçın da, müxək də, hillər də solur,
Dağların döşünün lalası qalmır.

Boşalan boşalır, dolanlar-dolur,
Satanlar-satırlar, alanlar-alır,
Fikirə, xəyala dalanlar-dalır,
Nənəsi yaşayır, xalası qalmır.

***Cəmil Əkbər*** 28. 05 – 1994

## 21. NƏ DEYƏK?

Nə deyək dünyanın kəc gərdişinə?
Hiyləgər, dələduz, bic gərdişinə,
İnad vərdişinə, öc vərdişinə.
Solmayası solur, solası solmur.

Dünyanın gərdişi düzələn deyil,
Dalısı uzundur, üzülən deyil,
Törpüyə gələrək nəzilən deyil,
Olmayası olur, olası olmur.

Fitnədən-fəsaddan əl götür Cəmil!
Danışma bir kəlmə, dil götür Cəmil!
İnci seç, sədəf seç, ləl götür Cəmil!
Çalmayası çalır, çalası çalmır.

***Cəmil Əkbər*** 28. 05 – 1994

## 22. YONURAM

Çəkici, baltanı vururam sənə,
Nə hörgü hörürəm, nə daş yonuram.
Bu toru, kələfi qururam sənə,
Nə yalan deyirəm, nə faş yonuram.

İncidən, sədəfdən nə xəbərin var?
Yayınma hədəfdən nə xəbərin var?
Söz açma sədəfdən nə xəbərin var?
Nə əyri görürəm, nə çaş yonuram.

Sənət aləmindən nə xəbərin var?
Nə haray salmısan, nə ətərin var?
Nə yaxşı, nəyaman nə betərin var?
Nə gözlər çıxarıb, nə qaş yonuram.

Cəfəngi anlamaz, cəfəng olanlar,
Aqili anlamaz səfəng olanlar,
Cırtdanı öldürüb nəhəng olanlar,
Nə ürək qırıram, nə döş yonuram.

Namərdlər, nakəslər el qana bilməz!
Nə tufan, nə boran yel qana bilməz!
Nə sısqa, nə daşqın, sel qana bilməz!
Qurunu yandırıb, höyüş yonuram.

***Cəmil Əkbər*** 1986

## 23. BİLMƏDİ

Sahil çox genişdir, dərya dərindir,
Çox mənəm deyənlər üzə bilmədi.
Nəyat nə gözəldir, can da şirindir,
Çoxları incidi, bezə bilmədi.

Əzəldən möcüzə, sir dünyasıdır,
Alhaal, sathasat, ver dünyasıdır,
Yumma gözlərini, gör dünyasıdır,
Çoxları düşündü, sezə bilmədi.

Nəqədər dayanıb, durmadı getdi,[17]
Gözəllik yaradıb, qurmadı getdi,
Həyatı başadək vurmadı getdi,
Təngidi, darıxdı, dözə bilmədi.

Bəşərin ümidi ədalət oldu,
Doğruluq, düzgünlük, həqiqət oldu,
Bunu anlamayan xəcalət oldu,
Ha yozmaq istədi, yoza bilmədi.

---

[17] Çoxları dayanıb, durmadı getdi.

Nakam ürək ilk məhəbbət izini,
Kövrək kəlamını, qırıq sözünü,
Yanan alovunu, sönən közünü,
Ha pozmaq istədi, poza bilmədi.

Çoxları axırda zay oldu getdi,
Qaranlıq küçədə ay oldu getdi,
Bilmədi kimlərə tay oldu getdi,
Sədheyif, möhüblər düzə bilmədi.

Əzəldən axıra key oldu getdi,
İtirib əqlini səy oldu getdi,
Hay-həşir törədib küy oldu getdi,
Nə müəmma, nə möcüzə bilmədi.

Günbəgün azaldı, soyudu getdi,
Qəflət yuxusuna uyudu getdi,
Kütləşdi, bütləşdi keyidi getdi,
Gəlib hərarətə qıza bilmədi.

Cəmil Əkbər məhəbbətdən aralı,
Ədəb-ərkan, nəzakətdən aralı,
Xeyirxahlıq, fəzilətdən aralı,
Bir addım kənarda gəzə bilmədi.

***Cəmil Əkbər*** 3. 11 -1995

## 24. BUNU BİL

***H i k m ə t n a m ə***

Biri məndən soruşdu, düzələrmi cəmiyyət,
Yol-ərkana gələrmi, düzələrmi bu millət?
Düzələrmi zəmanə, düzələrmi bu məkan?
Düzələrmi bu bazar, düzələrmi bu dükan?
Düzələrmi bu cahan, düzələrmi kainat?
Düzələrmi bu xilqət, düzələrmi cəmaət?
İpə-sapa gələrmi, düzələrmi əyrilər?
Həmkar olub bizimlə, düz gedərmi qeyrilər?
Azalarmı dələduz, düzələrmi de biclər?

Düzələrmi xainlər, düzələrmi de kəclər?
Düzələrmi cahillər, düzələrmi nadanlar?
Tərbiyədən, təlimdən alayarı dadanlar.
Azalarmı de qiymət, düzələrmi bu bazar?
Qurtararmı xəstəlik, sağalarmı bu azar?
Yolu-izi tanıyıb, düzələrmi bu bəşər?
Ünsiyyətə girərək, barışarmı xeyir-şər?
Düzələrmi xainlər, nanəciblər, naqislər?
Tamahkirlər, acgözlər, qarınqulu, hərislər?
Düzələrmi namərdlər, düzələrmi xəbislər?
Azalarmı görəsən, arsız-karsız varislər?
Düzələrmi görəsən bu dünyanın axırı?
Sürtülərmi qalayı, qurtararmı paxırı?
***Dedim:*** haçan camaat, cəhalətdən qaçacaq,
Nöqsanlardan əlçəkib, qəbahətdən qaçacaq.
Xeyirxahlıq edəcək, savablara batacaq,
Birbirinə can deyib, xeyir işlər tutacaq.
Azmayacaq sağ-sola, düz gedəcək yolunu,
Bataqlıqdan çıxacaq, tez gedəcək yolunu.
Avamlıqdan uzaşıb, cəhaləti boğacaq,
Ünsiyyətdə-ülfətdə, qəbahəti boğacaq,
Yoxsulluqdan çıxacaq, səfaləti boğacaq,
Son qoyacaq davaya, fəlakəti boğacaq,
Küdurəti, nifrəti, ədavəti boğacaq,
Xainliyi damlayıb, xəyanəti boğacaq,
Giley-güzar nə varsa, şikayəti boğacaq,
Harda varsa orada, cinayəti boğacaq,
Pis fikirdən əlçəkib, nəs adəti boğacaq.
Nə zaman ki, bu millət ayılacaq qəflətdən?
Oyanacaq bir zaman, çıxacaqdır qəflətdən?
Əyri yoldan uzaşıb, haq yoluna gələcək,
Gözündəki dumanı, ləkələri siləcək.
Xoş əməllə, fikirlə sevinəcək, güləcək,
Öləndə də kişitək, adla-sanla öləcək.
Nə zaman ki, bu millət, pisə-pisdi deyəcək,
Yaxşılara-yaxşıdır, nəsə-nəsdi deyəcək.
Höcətlərə höcətdir, tərsə-tərsdi deyərsə,
Qızıllara qızıldır, misə-misdir deyərsə.
Əyri yoldan uzaşıb, düz dolanıb durarsa,

Düz düşünüb, dərk edib, düz yaradıb qurarsa.
Öz aldığı borcları qaytararsa, verərsə,
Öz saldığı bağların meyvəsini dərərsə.
Əməlinin, işinin faydasını görərsə,
Könüllərə yol tapıb qapısından girərsə.
Təpələrə-təpədi, dağa-dağdı deyərsə,
Qaralara-qaradı, ağa-ağdı deyərsə.
Əyrilərə-əyridir, düzə-düzdü deyərsə,
Dərinlərə-dərindir, üzə-üzdü deyərsə.
Düzələcək o zaman, düzələcək bu millət,
Qurtaracaq bu zülüm, qurtaracaq bu zillət.
***Dedim:*** dostum düzələr, sən düzəltsən özünü,
O düzəltsə özünü, mən düzəltsəm özümü.
O yummasa gözünü, bu yummasa gözünü,
Sən də desən düzünü, mən də desəm düzünü,
O da desə düzünü, bu da desə düzünü.
***Dedim:*** dostum düzələr, cəhalətdən uzaşsaq,
Addımbaşı xətadan, qəbahətdən uzaşsaq,
Xainlikdən əlçəkib, xəyanətdən uzaşsaq,
Kin-küdurət, nifrətdən, ədavətdən uzaşsaq.
***Dedim:*** dostum düzələr, əli-ələ calasaq,
Fikirləri-fikirə, dili-dilə calasaq,
Obaları-obaya, eli-elə calasaq,
Çeşmələri çaylara, çayı gölə calasaq.
***Dedim:*** dostum düzələr, əyri yoldan uzaşsaq,
Kəc fikirdən əlçəkib, qeyri yoldan uzaşsaq.
Biz hünərdən yapışsaq, biz zəhmətdən yapışsaq,
Canı-dilnən işləyib, biz xidmətdən yapışsaq.
***Dedim:*** dostum düzələr, səndə kamal olarsa,
Bizdə kamal olarsa, sizdə kamal olarsa.
***Dedim:*** dostum düzələr, məhəbbətin olarsa,
Vətəninə, elinə, sədaqətin olarsa,
Doğruluğun, düzlüyün, həqiqətin olarsa,
İnsanlığa xas olan, ləyaqətin olarsa.
***Dedim:*** dostum düzələr, zəmanəmiz bunu bil,
Olmasaydı arada, biganəmiz bunu bil.

***Cəmil Əkbər*** 20. 10 - 1993

## 25. YER TAPILMADI

Cahil, sərsərilər, gədə yanında,
Ləyaqət əhlinə yer tapılmadı.
Vicdanı, məsləyi zədə yanında,
Şərafət əhlinə yer tapılmadı.

Nanəciblər, naqislərin yanında,
Acgözlərin, hərislərin yanında,
Naxələfin, xəbislərin yanında,
Səxavət əhlinə yer tapılmadı.

Dünyada bixəbər nadan yanında,
Təlimdən kəm-kəsir, dadan yanında,
Yolunu tərsinə adan yanında,
Ədalət əhlinə yer tapılmadı.

Ünsiyyət-ülfəti pozan yanında,
Doğrunu tərsinə yozan yanında,
Yolunu-izini azan yanında,
Həqiqət əhlinə yer tapılmadı.

Yekəxana, ədəbazlar yanında,
Araqatan fitnəbazlar yanında,
Ərköyünlər, modabazlar yanında,
Mərifət əhlinə yer tapılmadı.

Eybəcərlər, çirkinlərin yanında,
Şadxürrəmlər, nikbinlərin yanında,
Lovğaların, xudbinlərin yanında,
Nəzakət əhlinə yer tapılmadı.

Hiyləgərlər, dələduzlar yanında,
Qanısoyuq, qəlbi buzlar yanında,
Ağzıqara yalquzaqlar yanında,
Mərhəmət əhlinə yer tapılmadı.

Ürəyi buz, qəlbidaşlar yanında,
Fikiri, xəyalı çaşlar yanında,
Filə hürən alabaşlar yanında,
Məhəbbət əhlinə yer tapılmadı.

Naxələflər, nanıkorlar yanında,
El-obaya ziyankarlar yanında,
Şər uyduran sitəmkarlar yanında,
Şəriət əhlinə yer tapılmadı.

İlqardan, imandan dönən yanında,
Bu ali mövqedən enən yanında,
Qaralıb, qarsıxıb sönən yanında,
Sədaqət əhlinə yer tapılmadı.

Geni xarab, qanı zaylar yanında,
Zülalı yox, şanı zaylar yanında,
Cəsədi də canı zaylar yanında,
Nəcabət əhlinə yer tapılmadı.

Qanqalların, tikanların yanında,
Dağıdanlar, sökənlərin yanında,
Zəhlələri tökənlərin yanında,
Təravət əhlinə yer tapılmadı.

Şarlatanlar, yaltaqların yanında,
Abırsızlar, sırtıqların yanında,
Sıramızda artıqların yanında,
Mərifət əhlinə yer tapılmadı.

***Cəmil Əkbər***

## 26. OYAN LENİN

Yerləşib qoynunda Qızıl Meydanın,
Döyüşdə sınanmış dahi vüqarın.
Gəlib movzoleyin seyr edirik biz,
Yenə vərəqlənir doğma qəlbimiz.

Sənin həyat yolun dərs olub bizə,
Doğru yol göstərir gənclərimizə,
Əməyin meyvəsi gül bizim olmuş,
Sənin zəhmətinlə el bizim olmuş.

Oyan İliçimiz bir salamlaşaq,
Səninlə yenidən əlvidalaşaq.
Ölkəmiz olubdur bir gözəl diyar,
Xalqın əlindədir hüquq, ixtiyar.

İnsana hörmət var, əməyə qiymət,
Tarix görməyibdir bir belə dövlət.
Xoşbəxtdir ölkəmin oğulu, qızı,
Onundur parlayan  Kreml ulduzu.

Xalqım ondan alır coşğun ilhamı,
Qurub yaratmağı, gözəl dövranı.
Oyan İliçimiz əllərə bir bax,
Səni alqışlayan dillərə bir bax.

Yaşamalı gözəl günlər bizdədir,
Azadlıq bizdədir, hünər bizdədir.
Sənin al bayrağın əlimizdədir,
Səadət günəşi ölkəmizdədir.

O partiyamızdır xalqı səsləyən,
Əməkçi kütləyə qayğı bəsləyən.
Onun həyat yolu şərəfdir bizə,
Azadlıq bəxş edir ellərimizə.
Oyan, yeni həyat quranlara bax.
Sənin al bayrağın tutanlara bax.

Tarixin tələbi hökm edir bizə,
Zülməti döndərək günlü gündüzə.
Zülməti sarsıdan sülh olacaqdır,
Sülhün sayəsində el güləcəkdir.
Ölkəmin xalqları verib əl-ələ,
“Volqa”, “Don”u bağlamışlar qol-qola.

Sussamış səhralar al yaşıllaşır,
Qaranlıq gecələr çıraqbanlaşır,
Oyan, yaşıllaşan səhralara bax,
Suvarma xəttinə, tarlalara bax.

Dünya bölünübdür iki cəbhəyə,
Biri cəhalətdir, xalqlara zindan.
Birində bahardır, açılıb yazı,
Ötür könüllərin coşğun avazı.

Truman, Çörçillər xam xəyaldadır,
Hitlerin getdiyi azğın yoldadır.
Tarix öz hökmünü veribdi gerçək,
Heç bir təsadüfə baş əyməyəcək.
Tarixin hökmünü qabaqdan görən,
Oyan, bəşəryətin kamil ustadı.

***Cəmil Əkbər*** 30. 12 -1951 / Moskva

## 27. İOSİF VİSSARİONOVİÇ ÇUQAŞVİLİ STALİN

*Stalinin ölümü münasibəti ilə*

İnsanlıq hər şeyə qalib gəlsə də,
Yaşayıb, yaşadıb deyib-gülsə də,
Əcəlin şərbətin içəcək bir gün,
Sirat körpüsündən keçəcək bir gün.
Əcəl nə pis şeydir qədirbilməzə?
İnsanı yandırır, heç güldürməyir?
Onda nə insaf var, nədə ki, mürvət,
Nə yaxşılıq qanır, nədə ki, hörmət.
Əcəlin şərbəti acı olsa da,
Canlı xilqətimi usandırsa da.
Bir qanun olubdur hamılar üçün,
Çarəsi tapılmır bilməm nə üçün?
Mən eləbilirdim Stalin ölməz!
Ölüm, qamətini heç əyə bilməz!
Ölüm nanəcibdir, heç bilmədi ki?
O milyonlar üçün candan əzizdir.
O çox döyüş gördü, heç əyilmədi,
Onun məclisində düşmən gülmədi.
Savaş meydanında o ölməmişdir,
Tarix belə mərdi heç görməmişdir.
Ona ağlaşırlar milyonla canlar,
Yaş yerinə gözdən tökülür qanlar.
Yox! əziz qardaşlar o ölməmişdir,
Ölüm qarşısında əyilməmişdir.
Onun əməlləri ölümə yaddır,
Azadlıq yolunda sönməz mayaqdır.

Mən eləbilirəm o yenə sağdır,
O yenə bağbandır, Vətənim bağdır.
Yox! dostlar o məvhum ayırıb bizi,
Kədərə qərq edib ellərimizi.
Qəlbimə silinməz yaralar vurub.
Unutmaq olarmı bu qəmli günü?
Böyük Stalinin göz yumduğunu?
İtirdik xalqların dostunu hanı?
Tarix bəxş etdiyi qadir insanı.
Yığılın yoldaşlar, yığılın dostlar,
Qurub yaratmağa yeni dövranlar.
Orada yar olsun ölüm də bizə,
Kədər, qəm dəyməsin qoy qəlbimizə.
Əzizim unutmaq olarmı səni?
Laləzər etmisən bizim Vətəni.
Hər qayğı, xidməti oğula, qıza,
Zülməti çevirdin günlü-gündüzə.

Əzizim atasan yenə bizlərə,
Yenə nəqş olursan, yenə sözlərə.
Alacam ilhamım əməllərindən,
Yazıb-yaratmağı əsərlərindən.

Əzizim haqqında ötsəm ha-ötsəm,
Qoyduğun yollarla getsəm ha-getsəm,
Yorulmaq, dincəlmək nədir bilmərəm?
Sənin matəm günün, əsla gülmərəm.

Əzizim igidlər igidisən sən,
Gözəl gələcəyin simvolusan sən.
Bir an unutmaram bilginən yəqin,
Silinməz izləri heç həqiqətin.

Əzizim gənclərin qədir biləndir,
Sənin hünərinlə deyib güləndir.
Müqəddəs işini başa vuracaq,
Sənin keşiyində daim duracaq.

***Cəmil Əkbər*** 5. 03 - 1953

## 28. İNSAN FƏLSƏFƏSİ

Oxucum qarşımda dur dinlə məni,
Müxtəlif yetirir həyat insanı.
Yerləşib yaşayır diyarbadiyar,
Söylə gülüm, bunun nə hikməti var?
Eşit bu dünyada zühur edən insan.
Düşün, bir də düşün, bu sirri bir qan,
Bu insanki vardır, bir çox üzvü var,
Söylə hansındadır külli-ixtiyar?
Hərbir insan üzvü çox mürəkkəbdir,
Oxucum bunları bilmək gərəkdir.
Bir məvhum andıran bizim bu insan,
Bunun mənasına sən bir əl atsan.
Görərsən həyatda böyük nemətdir,
Bu dünya üzünə bəzək, zinətdir.
Ondadır hər işlər, bir də ixtiyar,
Bu böyük məvhumun çox mənası var.
Bütün insanların beynində şüur,
Birdəki hafizə yerləşib durur.
Təfəkkür, təsəvvür, həm də qavrayış,
Həm düşüncə vardır, həm də anlayış.
Oxucum mürəkkəb mexanizmə bax,
Onu ağ lövhəyə bənzədirəm mən.
Bir anda yazılır, həm də pozulur.
Bilirsənmi dostum, bu nə sirridir?
Məgər oyuncaqdır bizim beynimiz?
İncə, saf deyilmi duyan qəlbimiz?
Odur həyatımın coşğun matoru,
Onunla gedirəm qabağa doğru.
O bir an yatarsa, deyiləm diri,
Bir də qayıtmaram həyata geri.
İnsana məxsusdur düşünən beyin,
Bunun səbəbini söyləyin, deyin.
Müxtəlif düşünür hər beyin nədən?
Sirrini bilməyir hər gəlib-gedən?
Oxucum bunun da sirri var yəqin,
Dinləyin, eyləyim bunu da təlqin.
Hər insan yaşayır məkan, zamanda,

Fikir beynə gəlir qəfil, bir anda.
Yaşamaq uğrunda çarpışan insan,
Həyatın mənasın bir duyub qansan.
Həyatda təkbətək vuruşmaq olmaz,
Onun varidatı heç kimə çatmaz.
Vəfasız olsa da insana dünya,
Şirindir neməti, qiymət ver ona.
Bu nemət uğrunda gedən vuruşlar,
Özəl mülkiyyətlə qoşa durmuşlar.
Mülkiyyət ayırır siz insanları,
Tökdürür nahaqdan hədər qanları.
Xüsusi mülkiyyət ayırır sizi,
Parça-para edir var qüvvənizi.
Xüsusi mülkiyyət olmasa barı,
İnsanlar çəkərmi heç ahuzarı?
İnsan beyni-zehni yolgöstərəndir.
O həm duyan, həmdə ki, düşünəndir.
Ey insan özünə yol açmalısan,
Xilqətin gözünə nur saçmalısan.
Xüsusi mülkiyyət ləğv edilmədən,
Azadlığa çıxmaz insanam deyən.
İnsan düşünməsə ağılı olmaz,
Görüb götürməsə kamalı olmaz.
Dünya gör-götürdür atalar deyib,
Görüb-götürməyən hədər gedib.

***Cəmil Əkbər*** 1953

## 29. QƏZƏL

Bilsəydim bu cahan mülkü vəfasız olacaqdı,
Əsla bu cahan mülkünə bir də gəlməz idim mən.
Yox əzizim bu dünyaya öz xoşuma gəlməmişəm,
Heçkimsənin xatirinə, burda qərar tutmamışam.
Bilin məni bəsləmişlər öz gözünün nuru kimi,
Bir nazənin dilbər olan, huri kimi, pəri kimi.
Oxucum sorsan əyər neyçün səni bəsləmişlər?
Zəhmət çəkib bu cahan mülkünə səsləmişlər?
Burada bir səbəb var kı, bilginən o məhəbbətdir,
O sevgidır, o eşqdir, sədaqətdir, həqiqətdir.
Qoy var olsun pak məhəbbət, sevgi, bir də sədaqət,

Bu xilqəti yaşadan o, bil ki, bir də həqiqət.
Bir kimdəki yoxdur sevgi, məhəbbət, sədaqət əyər,[18]
Quru külək kimi daim, bütün cismi-canı kəsər.[19]
Ey Cəmil xalqa sevgi, məhəbbət, sədaqət bəslə,
Bütün xilqəti, həyatın bu haqq yoluna səslə.

***Cəmil Əkbər***

## 30. BİLİN!

Ey el-oba qınamayın siz məni,
Dilbilməz əlində qalmışam bilin!
Nə təlim götürür, nə də tərbiyə,
Dilbilməz əlində solmuşam bilin!

Yeddi ildir hər dərdinə dözürəm,[20]
Eləbilki seyraqubnan gəzirəm,
Dərd əlindən gecə-gündüz bezirəm,
Çıxılmaz bir yolda qalmışam bilin!

Seçə bilmir ot-alafı, samanı,
Nə yaxşını qanır, nə də yamanı.
Nə dostu tanıyır, nə də düşməni,[21]
Bir nadan əlində qalmışam bilin!

Eləbil yağıdır, girib qəsdimə.
Qara bulud çökmüş sanki üsdümə,[22]
Bir siz baxın başdan qalxan tüsdümə,
Kədərdən, qüssədən doymuşam bilin![23]

Mən sandımki, ondan olar mənə yar,
Sən deməynən olacaqmış zəhrimar,
İstəyirki olsun külli-ixtiyar,
Bu gün bir canıma doymuşam bilin!

---

[18] Kimdəki yoxdur sevgi, məhəbbət, sədaqət əyər.
[19] Onun qiyməti yox, ucuz bir işə dəyər.
[20] Nə müddətdir hər dərdinə dözürəm.
[21] Nə ata tanıyır, nə də ananı.
[22] Sanki bulud çökmüş mənim üstümə.
[23] Dərd çəkməkdən cana doymuşam bilin.

Bu zalımın yoxdur bir dərdbiləni,
Əlində dəsmalı göz yaş siləni,
Yara yoldaşına sadiq olanı,
Bir fitnə-fellərə uymuşam bilin![24]

Bilmirsən dəlidir, yoxsa divanə,
Bilmirəm od olum, yoxsa pərvanə,
Deyirəm sözümü, gətirmiş cana,
Hərcayı dostluqdan doymuşam bilin!

Onunla qazandım könül meyvəsin,
Cəmil öz dərdini kimə söyləsin?
Dərdbilməz əlinə düşüb neyləsin?
Bir şahmar ilandı almışam bilin.

***Cəmil Əkbər*** 1956

## 31. TƏLƏB ETMƏK?

Təqsir səndə deyil vəfasız yarım,
Olarmı arsızdan, ar tələb etmək?
Yüz bəslə tikani, yüz bəslə-ha yüz,
Olarmı tikandan bar tələb etmək?

Hər bitən meyvənin öz dadı vardır,
Bilin hər igidin öz adı vardır,
Məni ağlar qoyan vəfasız yardır,
Olarmı yoxsuldan var tələb etmək?

Bilin, hərbir şeyin öz qanunu var,
Dünyanı bürümür heç də ahuzar,
Bir yanda qəm-qüssə, bir yanda toy var,
Olarmı söyüddən nar tələb etmək?

***Cəmil Əkbər*** 1956

---

[24] *II variant* Nə ata-anası qanmadı məni,
Bir oğul bətində sanmadı məni,
Bir gərək işində anmadı məni,
Bir fitnə ailəyə uymuşam bilin.

## 32. RÜBAİLƏR

Əyləncədir həyat bilmək lazımdır,
Vəfasızdır, ona gülmək lazımdır.
Vəfasız olubdur həyat insana,
Çox çətin deyildir duyub qansana.

* *

Aldanma dünyada mala, dövlətə,
Aldanma hörmətə, nazı-nemətə.
Aldanan kimsənin halı yamandır,
Xilqətim aldanır xeyli-zamandır.

* *

Hərkəs aldanarsa dünya malına,
Gözələm deyənin xətti-xalına.
Ah-vayı ucalır göylərə sarı,
Könüldən çıxarmır heç intizarı.

* *

Çoxunu aldadır bu qoca dünya,
Bil onun sirrini, yuxuya uyma!
İgid o kimsədir heç aldanmayır,
Namərd qarşısında boyun əyməyir.

* *

Hər gecəm-gündüzüm kədərdir, qəmdir,
Bacaran kimsəyə bu həyat dəmdir.
Çalışdım dünyadan köç edən zaman,
Olmayam özümdən heç də bədgüman.

* *

Bədgüman adamın düz deyil özü,
Düz deyil ilqarı, düz deyil sözü.
Paxıl olmasaydı insan dünyada,
Heç könül yanmazdı nahaqdan oda.

* *

Ey insan özün də insansan ki, bil?!
Nahaqdan tökülən gözyaşını sil.
Çevirmə tərsinə düzələn işi,
Unut beynindəki köhnə vərdişi.

* *

Baharı bir anda qış etmək olmaz,
Yaralı könülü xoş etmək olmaz.
Cəmil haqsızlığı gördüyü zaman,
Ürəkdən acıyıb inanın, inan!

***Cəmil Əkbər***

## 33. ADAMSAN

Mən səni, mən səni qınamayıram,
Yolu başqa, izi başqa adamsan.
Saymıram, seçmirəm, tanımayıram,
İşi başqa, sözü başqa adamsan.

Acgözlükdən, hərislikdən doğuldun,
Xainlikdən, xəbislikdən boğuldun,
Nadanlıqdan, naqislikdən dağıldın,
Ərki başqa, nazı başqa adamsan.

Yedin, içdin sağa-sola taladın,
Dişlərini al-qanlara buladın,
Onu-bunu od-ocaqsız qaladın,
Odu başqa, közü başqa adamsan.

Sədaqətdən, səxavətdən uzaqsan,
İnsanlıqdan, ləyaqətdən uzaqsan,
Təmiz arzu, saf niyyətdən uzaqsan,
Astarı bir, üzü başqa adamsan.

Bilməyirsən namus nədir, ar nədir?
Yoldaş nədir, tay-tuş nədir, yar nədir?
Dövlət nədir, sərvət nədir, var nədir?
Qışı başqa, yazı başqa adamsan.

***Cəmil Əkbər***

## 34. ADAM VAR

Adam var ki, xeyir verir insana,
Adam da var olduğundan olmadığı yaxşıdır.

Adam var ki, yesin şirin tikəni,
Adam da var, yediyindən yemədiyi yaxşıdır.

Adam var ki, gülüşündə məna var,
Adam da var, güldüyündən gülmədiyi yaxşıdır.

Adam var ki, yaranmasa lap xoşdur,
Adam da var,  öldüyündən ölmədiyi yaxşıdır.

Adam var ki, gəlişiylə nur saçır,
Adam da var, gəldiyindən gəlmədiyi yaxşıdır.

Adam var ki, dərdin bilib acıyır,
Adam da var, bildiyindən bilmədiyi yaxşıdır.

Adam var ki, dindirirsən nur tökür,
Adam da var, dindiyindən dinmədiyi yaxşıdır.

***Cəmil Əkbər*** 1956

## 35. ADAM VAR, ADAM VAR

Adam var ki, adamların ləlidir,
Tər qönçənin, qərənfilin güllüdür.
Darçınıdır, mixəyidir, hilidir,
Nəhənglərin-nəhəngidir, filidir.

*Adam da var, bünövrədən dəlidir,*
*Həşəratdır, qansorandır, zəlidir,*
*Sağ olsa da ölülərdən-ölüdür,*
*Əl-ayağın zir-zibili, külüdür.*

Adam var ki, el-obaya validir,
Xəbərdardır, hər işlərdən halıdır,
Harda olsa, alilərdən-alidir,
Cəmiyyətin zülalıdır, balıdır.

*Adam da var, eləbilki zəhərdir,*
*Müsibətdir, fəlakətdir, qəhərdir,*
*Ah-nalədir, dərd-azardır, kədərdir,*
*İnsanlıqda  payı yoxdur, hədərdir.*

Adam var ki, tərtəmizdir ürəyi,
Cana sinər, nə yesən də çörəyi,
Çox nəcibdir arzuları, diləyi,
Həzin əsir gilavarı küləyi.

*Adam da var, natəmizdir ürəyi,*
*Üfunətdir arzuları, diləyi,*
*Çox bəd əsir qasırğası, küləyi,*
*Heçkimsəyə dəyən deyil köməyi.*

Adam var ki, uzaq görür gözləri,
Yaxşı seçir dağı-daşı, düzləri,
Ruha yatır hər söhbəti, sözləri,
Könüllərdə əbədidir izləri.

*Adam da var, yaxşı-pisi görənmir,*
*Könüllərə yol tapanmır, girənmir,*
*Hərkəsdəyə qiymətini verənmir,*
*Zəhmətinin bəhrəsini dərənmir.*

Adam var ki, ləyaqətdə bəllidir,
Sədaqətdə-səxavətdə bəllidir,
Ədəb-ərkan, nəzakətdə bəllidir,
El-obada, məmləkətdə bəllidir.

*Adam da var, qəbahətdə ad alıb,*
*Kin-küdurət, ədavətdə ad alıb,*
*Paxıllıqda, xəyanətdə ad alıb,*
*Nadanlıqdan, cəhalətdən çıxanmır.*

Adam var ki, fərəh ilə dolanır,
Məhəbbəti peyvənd olub, calanır,
El dərdinə od-ocaqsız qalanır,
Yeri gəlsə qurban gedir, talanır.

*Adam da var, qəflətlərdən ayılmır,*
*İnsan cərgəsində adı sayılmır,*
*Xoş xəbərlə el-obaya yayılmır,*
*Çirkabları dənizdə də yuyulmur.*

Adam var ki, xoş gəlibdir cahana,
Dad gətirir dodaqlara, dəhana,
Yaraşıqdır dövranlara, zamana,
Bais olur ah-naləyə, amana.

*Adam da var, dolanması ey deyil,*
*Bəslənməsi, sulanması ey deyil,*
*Hoppanması, tullanması ey deyil,*
*Aramızda bulunması ey deyil.*

Adam var ki, insanlıqdı peşəsi,
Tərtəmizdir könlündəki şüşəsi,
Halal süddən tutulubdur qişası,
Qoyulubdur bünövrəsi, rişəsi.

*Adam da var, avamlıqdı peşəsi,*
*Cahillikdi, nadanlıqdı peşəsi,*
*Əsəbləri korlamaqdı peşəsi,*
*Hissiləri zorlamaqdı peşəsi.*

Adam var ki, qardaş desən yaraşır,
Ay can-ciyər, yoldaş desən yaraşır,
Həmdəm desən, sirdaş desən yaraşır,
Tay-tuş desən, çağdaş desən yaraşır.

*Adam da var, görünməyə gözünə,*
*Baxmayasan sifətinə, üzünə,*
*Getməyəsən, gəlməyəsən izinə,*
*Dözməyəsən nə ərkinə, nazına.*

Adam var ki, oturasan, durasan,
Yaşayasan, yaradasan, qurasan,
Kələyini yollarında yorasan,
Axtarasan, kef-halını sorasan.

*Adam da var, dərhal ondan qaçasan,*
*Qanad alıb diyar-diyar uçasan,*
*Qonşuluqda dayanmayıb köçəsən,*
*Tapa bilib zəm-zəm suyu içəsən.*

Nə gözəl demişdir Tufarqan Abbas,
Axtaran bu sözə bir qüsur tapmaz.

*“Adam var ki, adamların naxşıdır,*
*Adam da var, heyvan ondan yaxşıdır,*
*Adam var ki, dindirdikcə dürr tökür,*
*Adam da var, dindirməsən yaxşıdır”.*

***Cəmil Əkbər*** 2. 10 - 1996

## 36. VƏDƏSİNDƏ

A bimürvət, a nainsaf, a zalım,
Küsdürmə könlümü al vədəsində.
Uçurub evimi qoyma viranə,
Yazıqdır, qayğıma qal vədəsində.

Həyatım bir güldür  mütləq solacaq,
Hamının həyatı belədir ancaq,
Gəl vaxtsız öldürmə ahım tutacaq,
İmdada, yardıma gəl vədəsində.

Ötüb keçən şikar, ova tuş olmaz,
Günü keçmiş qarı, daha qız olmaz,
Bu dünya vəfasız, kimsəyə qalmaz,
Könül rübabımı çal vədəsində [25]

Sənin nə daş qəlbin, acı dilin var?
Mənimlə bəslədiyin qoşa gülün var,
Bilirəm, vəfasız yurdun, elin var,
Xəstəyəm verginən bal vədəsində.[26]

Sonrakı peş*(i)*manlıq bir fayda verməz,
Atalar deyibdir tökülən dolmaz,
Atasız övladın heç üzü gülməz,
Yarını bir yada sal vədəsində.[27]

***Cəmil Əkbər*** 1956

## 37. EY VƏFASIZ YAR?

Mən səndən üzümü döndərən zaman,
Tutmadın qolumdan, demədin aman.
“Getməynən gözümdən, halımdır yaman”,
Demədin eləmi, ey vəfasız yar?

---

[25] Gəl bu sınqın könlüm al vədəsində.
[26] Xəstəyəm dərdimə qal vədəsində.
[27] Ata qayğısına qal vədəsində.

Dedim həsrətimə dözə bilməzsən,
Seyraqub adamla gəzə bilməzsən,
Namərd meyvəsini üzə bilməzsən,
Niyə inanmadın ey səfasız yar?

Gəlib-gedənlərə çoxlu baxırsan,
O sınqın könlümü oda yaxarsan,
Sükansız gəmini daşa çaxarsan.
Heç əqlin olmadı ey qafasız yar?

Tulladın dalımca kitab-dəftəri,
Saldın qapılara məni sərsəri,
Mənimlə bir yerdə olandan bəri,
Dərdimi artırdın ey cəfasız yar?

***Cəmil Əkbər*** 1955

## 38. YUXUM

Söylə həyatımın yoldaşı yuxu,
Niyə üzün döndü, oldun vəfasız?
Sən niyə küsmüsən yoldaşlığımdan?
Qaçma uzaqlara vəfalı yuxum.

Sənsiz dincələrmi insanın canı?
Xahişim budurki, sən məni tanı,
Harada taparsan sadiq insanı?
Getmə uzaqlara səfalı yuxum.

Yarım üz döndərib, çıxıb vəfasız,
Onun vicdanı yox, oldu cəfasız,
Sən məndən ötürü yarsız, səfasız,
Getmə uzaqlara vəfalı yuxum.

Səninlə dost oldum atadan artıq,
İtirmiş qüvvəmi geri qaytardıq,
Səninlə yasdığa baş atıb yatdıq,
Küsmə dostluğumdan vəfalı yuxum.

Hər günümdə yaman möhtacam sənə,
Üzünü döndərmə rəhm eylə mənə,
İnanma yadlara, yağı-düşmənə,
Getmə uzaqlara vəfalı yuxum.

***Cəmil Əkbər*** 1955

## 39. YARAT

Yaratmaq lazımdır bilin dünyada,
Yaradan kimsələr qalmır piyada.
Yazıb yaradana heyranam mən də,
Bülbül cəh-cəh vurur güldə, çəməndə.
Ey gülüzlü balam yazmaq istəsən,
Oxuyub, düşünüb qurmaq istəsən.
Bülbültək güllərin, çəmənin olsun,
Ruhun coşa gəlib bir ümman olsun.
Bülbülə yaraşır güllər, çiçəklər,
İnsana məxsusdur gözəl diləklər.
Nəyə gərəksiniz gözəl bülbülüm?
Fəqan eyləməyə o nəcib dilin?
Oxu, qoy ucalsın o gözəl səsin,
Yarın-yoldaşındır sənə nəfəsin.
İnsan xoş diləksiz nəyə gərəkdir?
Onun qiyməti yox, kimə gərəkdir?
Xoşbəxt o kimsədir sevir ürəyi,
Vardır ürəyində gözəl diləyi.
Gözəl diləklərdir yaşadan bizi,
Fərəhlə yaşadır o qəlbimizi.
Yerinə yetdikcə gözəl diləklər,
Ondan ilham alır milyon ürəklər.
Hər şey başa gəlir məkan, zamanda,
İnsan yaratmalı, bilin hər anda.
Hər an yaradanı unutmur hamı,
Bürüyür  nurtəki bütün cahanı.
Nizami, Firdovsi, Xəyyama bir bax,
Yazmaq istədiyin əyyama bir bax.
Torpağı sevirlər ona görə ki,
Sərvəti çoxludur onun gərəkli.

Sərvətsiz torpağın qiyməti olmaz,
Yaradan əllərin gülləri solmaz.
Xalqda etibar var, unutmur onu,
Böyütmüş olduğu qadir oğlunu.
Yaratmaq istəsən sən sev əməyi,
Əməksiz yetməyir insan diləyi.
Əmək hər insana yardır, yoldaşdır,
İnsan arzusuna yaxşı sirdaşdır.
Əməklə yaranır hər iş cahanda,
Ona qiymət vardır bizim mahalda.
İnsana ruh verən əməkdir, əmək,
Bunu hərbir insan öyrənsin gərək.
Əmək yetişdirir hərbir insanı,
Rövnəqə gətirir bizim cahanı.
Əməksiz yaratmır, yaradan kəslər,
Sevgisiz yaşamır o gözəl şəxslər.
Sevginin kimdəsə var hissiyatı,
Zinətə gətirir o külliyatı.
Heç insan olmaz ki, olsun sevgisiz?
Mənim dediyimi unutmayın siz!
Sevgi də insanda dərin olmalı,
Hərşeydən dünyada şirin olmalı.
İnsan sevdiyini yaratsın gərək,
Ölkənin sərvətin çoxaltsın gərək.
Cəmil, gəl yarat ki, sənə yar olsun,
Yaratdığın şeylər xalqa bar olsun.

***Cəmil Əkbər*** 1956

## 40. NƏSİHƏT

İnsanlara xoş gəlir, yaxşı günlər əzəldən,
Könlüm doymaq istəmir, bir vəfalı gözəldən.
Pis gün isə çürüdür, gözəl saf ürəkləri,
Pozub heçə döndərir, ən gözəl diləkləri,
Nahaq qanı tökmə sən, üz cırıb ağlayarsan,
Sənki cəllad deyilsən, başa qara bağlarsan.
Qoy səndən də qəlbimə qalsın gözəl yadigar,
Qoy mənə dar olmasın, bizim bu gözəl diyar.
Bir könül ki, çırpınır görsün gözəl günləri,

Mənasızdır yəqin ki, sındırmaq könülləri.
Tökmə nahaqdan qanım, mən aşiqəm gözəlim,
Ətirlidir güldən də, yəqin et ki, gözəlim.
Hamı aşiq olsaydı, nə gözəl gün olardı,
Hamının üzü gülər, bəxti ötkün olardı.
Aşiqlər seçsin gərək, axtarıb öz tayını,
Seçməsinlər gərək ki, gözəllərin zayını.
Sən də aşiq olunca, seçib axtar tayını,
Çəkməynən bu dünyanın, heç də ahı-vayını.
Elə tay tapginən ki, yansın acı halına,
Şərik olsun qardaştək, sənin hər əhvalına.
Elə tay tapginən ki, dar günündə yar olsun,
Sənin kimi məşuqə sanki iqtidar olsun.
Elə tay tapginən ki, dərdin bilib acısın,
O da sənin qədərcə, çəksin həyat acısın.
Elə tay tapginən ki, amalın açıq olsun,
Tayın düşmən gözünə bir iti bıçaq olsun.
Güldürməsin düşməni, a gülüzlüm üzünə,
Şərik olsun həmişə, sənin şirin sözünə.
Cəmil də pərvanətək, oda düşüb yanıbdır,
Aşiq ikən tayını axtarıb tapmayıbdır.
Zülm ilə başa verib, keçirdiyi günləri,
Xoşlamışdır həmişə, o bəxti ötgünləri.
Bəxtı ötgün o şəxsdir, aşiq olub həmişə,
Təsəllisin alıbdır, bir vəfalı gözəldən.

***Cəmil Əkbər*** 1956

## 41. SON ARZU

*(vəfasız arvada son arzu)*

Deyirsən, ey Cəmil qarğama mənə,
Söylə bəs hansı söz yaraşar sənə?
Yalvarıb-yapışdım məni qanmadın,
Nihayət özünə bir yar sanmadın.
Nəsihət eylədim, sən eşitmədin,
Göstərdiyim yolla əsla getmədin.
Sənə yalvardım ki, rəhm eylə mənə,
Xarı yaxın qoyma gülə, çəmənə.
Mən düzünə çəkdim, sənsə tərsinə,

Hər nə dedim dəydi sənin hirsinə.
Sındırdın könlümü, dağıtdın evim,
Sənə ey vəfasız daha nə deyim?
Əlbəttə yanıram övlad halına,
Yanıram onların hər əhvalına.
Yığıb var-yoxumu sən gedən zaman,
Tökdüm gözyaşımı, sən etdin güman.
Ayrılıq acısın duydum əzəldən,
Təsəlli almadım heç bir gözəldən.
Gözyaşım kədərin töhvəsi idi,
Acı həyatımın lövhəsi idi.
Övladın taleyi ağlatdı məni,
Həyatın neməti aldatdı səni.
Yığdın evimdəki dəyər-dəyməzi,
Cırıq-cındırı da hər natəmizi.
Gülüzlü Zakiri qoyub da getdin,
Eləbil onunla adamlıq etdin.
Olmadı düşüncən, olmadı başın,
Üzünə iz salsın, axsın gözyaşın.
Əzəldən yanmadın övlad halına,
O könül meyvənin heç əhvalına.
Sanki ana qəlbi yox idi səndə,
Fəqir uşaqları saldın kəməndə.
Qoy ana ürəyin tarımar olsun,
Yediyin, içdiyin zəhrimar olsun.
Necə qarğamayım, deyiləm haqsız,
Görüm haqq yanında sən ol cavabsız.
Nahaqdan qəlbimi sındırıb atdın,
Mülkümə əl atıb onu dağıtdın.
Səndən incimişəm hərşeydən artıq,
Könlüm sağalmazdır, bir daha artıq.
Layiqsən qarğışa, aha, naləyə,
Görüm rast gələsən min bir bəlaya.
Neçə könülləri pərişan etdin,
Bununla sanmaki məqsədə yetdin.
Sən xoş sözlərimi götürməmisən,
Bağçamı suvarıb bitirməmisən.
Günəş şüasını, ay işığını,
Bu dünya özünün yaraşığını,

İnsan hörmətini, su paklığını,
Həyat qidasını, qəlb saflığını,
Şirin mey dadını, el şəhvətini,
Qonşu eyliyini, dost hörmətini.
Qınamasınlar sənə vəfasız yarım,
Əqilsiz, kamalsız, qafasız yarım.
Gözünə görünən acıya dönsün,
Tutduğun işlərin tərsinə dönsün.
Onda görərsənki, hər iş yamandır,
Cəmili incitdin, xeyli zamandır.

***Cəmil Əkbər*** 1954

## 42. PARTİYAM

İnsanlıq yolunu yaxşı bilmisən,
Səadət yolunu görən partiyam.
Xalqlar dəryasilə coşa gəlmisən.
Ellərlə kommunizm quran partiyam.

Sənin son məqsədin gəlibdir xoşa,
Gözəl dövlətimiz yetişir başa,
Millətlər çevrilir qohum-qardaşa,
Xalqıma azadlıq verən partiyam.

Milyon ürəkləri coşa gətirdin,
Xalqı ayıldaraq huşa gətirdin,
Çoxlu arzuları başa yetirdin,
Ədalət yolunda duran partiyam.

Yeni həyat qurur nəsillərimiz,
Həmişə bir vurur könüllərimiz,
Dünyaya nur saçır əməllərimiz,
Hər an ayıqgözlü duran partiyam.

Amalın açıqdır, ucadır başın,
Əsrlər keçsə də cavandır yaşın,
Sənə minnətdardır qohum-qardaşın,
Nəbzi-nəbzimizlə vuran partiyam.

Sən vermisən bizə məqsəd, birliyi,
Baş tutub ölkəmdə xalq əlbirliyi,
Bütün millətlərin var dilbirliyi,
Haqqın keşiyində duran partiyam.

Qüdrəti yüksəlir bizim vətənin,
Diqqəti cəlb olur gəlib-gedənin,
Xalqım da sənindir, canım da sənin,
Gözəl gələcəyi görən partiyam.

Böyük Lenini də salamlamışıq,
Mərkəzi-komitəni alqışlamışıq,
Sənin ətrafında sıx toplaşmışıq,
Düşmən zərbəsini qıran partiyam.

***Cəmil Əkbər*** 18.11 – 1955

## 43. PARTİYAM

Şöhrətin yayılıb bütün cahana,
Qüdrəti mükəmməl olan partiyam.[28]
Hörmət var ölkəmdə hər bir insana,
Xalqın qayğısına qalan partiyam.

Düzdür siyasətin, düzdür əməlin,
Dağılmaz tuncdandır sənin təməlin,[29]
Mahir qurğususan çox böyük əlin,
Elmin qanununu bilən partiyam.

Sənə qoşulubdur milyonlar canlar,
Sıxlaşır sırana sadiq insanlar,
Sənə qiymət verir qoca cavanlar,
Böyüyüb yaşlara dolan partiyam.

Səninlə səadət tapmışıq biz də,
Yazıb yaradırıq hərbirimiz də,
Deyir dilimiz də, həm qəlbimiz də,
Xalqın ümidgahı olan partiyam.

---

[28] 1) Qüdrəti sarsılmaz olan partiyam. 2) Qüdrəti çox möhkəm olan partiyam.
[29] Dağılmaz poladdır sənin təməlin.

Tükənməz qüvvədir sənin dayağın,
Xalqın əlindədir qızıl bayrağın,
Xoşdur xalqım üçün sənin növrağın,
Zəhmətkeş atası olan partiyam.

Sarsılmaz qaladır Sovet dövləti,
Sənsən ölkəmizin böyük qüdrəti,
Milyon ürəklərin saf məhəbbəti,
Ellər qərərgahı olan partiyam.

***Cəmil Əkbər*** 18.11 – 1955

## 44. ALAGÖZ PƏRİM

*Bir nazənin xanımı görərkən yazılmış şeir*

Mən nə bilim ürəyindən keçəni?
Dilə gəl, unutma alagöz pərim.
Gündüz söhbət edək, yataq gecəni,
Dilə gəl, dilə gəl, alagöz pərim.

Görünür baxışdan deyən sözlüsən,
Kamandı qaşların, alagözlüsən,
Nə xub baxışlısan, alma üzlüsən,
Dilə gəl, dilə gəl, alagöz pərim.

Sirrini bilmərəm sən danışmasan,
Dərdindən ölərəm bil barışmasan,
Qeyrətin bilmərəm sən yarışmasan,
Dilə gəl, dilə gəl, alagöz pərim.

Keşgə görməyəydim alagöz səni,
Pərvanətək oda yandırma məni,
Qala deyil, gəl dağıtma sinəmi,
Dilə gəl, dilə gəl, alagöz pərim.

Bu dünya belədir, sən bilməlisən.
Deyən məzəlisən, həm gülməlisən,
Axan gözyaşımı sən silməlisən,
Dilə gəl, dilə gəl, alagöz pərim.

Qanlı gözyaşımı sənsən tökdürən.
Bu cavan qəddimi tezcə bükdürən,
Hamıdan gözəlsən, ay qız dik duran,
Dilə gəl, dilə gəl, alagöz pərim.

Gözaltı baxmağın nədir mənası?
Nədir o könlünün məndən umması?
İstəyirsən gəl ol oğlum anası,
Dilə gəl, dilə gəl, alagöz pərim.

Adını bilmirəm, xanımsan-xanım,
Hərşeydən artıqsan canımsan-canım,
Sən kəklik deyilsən, sonamsan-sonam,
Dilə gəl, dilə gəl, alagöz pərim.

Cəmildi aşiqin, niyə bilmədin?
Mənki göz eylədim, niyə gülmədin?
Axıtdın gözyaşım, gəlib silmədin,
Dilə gəl, dilə gəl, alagöz pərim.

***Cəmil Əkbər*** 20. 11 - 1955

## 45. A MƏLƏKNİSƏ

Günün keçib qocalıbsan sən daha,
Vaxtında malını satmısan baha,
Doğrusu gəlmirsən indi iştaha,
Yatmırsan meylimə a mələknisə.

Quruyubdu suyun, axıbdı çayın,
Gedib gözəlliyin, qalıbdır zayın,
Xahişim budur ki, məndən tez yayın,
Yatmırsan könlümə  a mələknisə.

Sənin davranışın gəlmir xoşuma,
Pərvanətək gəl dolanma başıma,
Söz atıban sən toxunma huşuma,
Yatmırsan könlümə  a mələknisə.

Çoxdakı küsmüşəm mən öz yarımdan,
Küsdüm kamanımdan, simli tarımdan,
Könlümü almazsan ixtiyarımdan,
Yatmırsan könlümə  a mələknisə.

Misal var deyərlər quyruq acıyam,
Səninlə mən yoldaş, həm də bacıyam,
Bir xoş əndamlının bilki tacıyam,
Yatmırsan könlümə  a mələknisə.

İncimə mələyim, məndən incimə,
Mane olma, yorulmuşam dincimə,
Mənimlə bu qədər bəsdir yoncuma,
Yatmırsan könlümə  a mələknisə.

Gedibdir hay-hayın, qalıb vay-vayın,
Məndən olarmı ki, heç sənin tayın,
Olmaynan Cəmilə heç də arxayın,
Yatmırsan könlümə a mələknisə.

***Cəmil Əkbər*** 1955

## 46. SALAMAT QALIN

Yolum Bakıya düşdü,
Dostlar salamat qalın.
Könlüm sizlə öpüşdü,
Dostlar salamat qalın.

Yaman olur arvadın,
Dilbilməzi, qanmazı,
Dindirirsən dinməyir,
Dərdi-halın bilməyir,
Hər nə istər eyləyir,
Sirrin yada söyləyir.

Oğul-uşaq qanmayır,
Pis işdən usanmayır.
Salır evə davanı,
Öldürür mən cavanı.

Acımayır halına,
Baxın qeylü-qalına.
Sanki mənə qəsd edir,
Sərxoş kimi məsd edir.

Alır şirin canımı,
Sorur mənim qanımı.
Yoxdur onun vicdanı,
Vardır onun gic qanı.

Ürəkdə təpəri yox,
Başında süpəri yox.
Əsir qara yel kimi,
Coşur həm də sel kimi.

Axıdır var-yoxumu,
Həyatımın çoxunu.
Xeyli böyüyüb yaşın,
Az deyildir qardaşım.

Düşünmüşəm mən indi,
Hər adama lazımdı.
Qansın namusu, arı,
İncitməsin ərini,
Bilsin onun qədrini,
Dilbilməzi alma sən,
Hörmətə aldanma sən.
Yoxdur onun vəfası,
Yaylaq kimi səfası.
Çoxdur ahı-naləsi,
Ağıdır piyaləsi.

Dili sanki zəhərdir,
Davranışı qəhərdir.
Qurban olsan yolunda,
Kini vardır könlündə.
Sevə bilmir insanı,
Dərdin bilib qananı.
Sevdirmir heç özünü,
Bilmir şirin sözünü.

***Cəmil Əkbər*** 1955

## 47. POZA BİLMİRƏM

Söylə xatirində qalırmı sənin,
Ayrılıq anları, o sakit gecə.
Mən elə arxanca baxdım aramsız,
Sən kiçik xal olub gözdən itincə.

Durub qapınızdan baxdım biqərar,
Bəlkə bir geriyə dönəsən dedim,
Sanki ayağıma qandal vurdular,[30]
Ha getmək istədim, gedə bilmədim.

Dedim bircə addım yerisəm belə,
Bu son ümidlər də dönəcək heçə.
Mən sizi könlümə yazdım kədərlə,
Ey küsüb gedən yar, ey sakit gecə.

Barışdı nəqədər ayrı düşənlər,
Çoxu könül açdı, cavab da aldı.
Bir mənim, bir mənim hər axşam səhər,
Sevgilim gözlərim yollarda qaldı.

İndi də o günlər yada düşəndə,
Tökülür üsdümə mənim qüssə, qəm.
Pozmuşam adını mən də hər yerdən,
Təkcə ürəyimdən poza bilmirəm.

Bu böyük arzunu, ürək sözünü,
Bir parça kağıza yazmaq olarmı?
Mənki istəmirəm niyə olmasın?
Ürək istəyəni pozmaq olarmı?

***Cəmil Əkbər*** 1955 - oktyabr

[30] Sanki qıçlarıma zəncir vurdular.

## 48. İNSANLAR DOSTLAŞARSA

Kef üsdünə kef gələr,
İnsanlar dostlaşarsa.
Həm işləyər, dincələr,
İnsanlar dostlaşarsa.

Bilməzlər dərdi-qəmi,
Artıq olar həmdəmi,
Gələr azadlıq dəmi,
İnsanlar dostlaşarsa.

Qəm-qüssələr yad olar,
Könüllər də şad olar,
Hərkəsə imdad olar,
İnsanlar dostlaşarsa.

Arzu, əməl birləşər,
Fikir, xəyal cəmləşər,
Bağda bülbül ötüşər,
İnsanlar dostlaşarsa.

Varlı-kasıb tapılmaz,
Vicdan-məslək satılmaz,
Qaşqabaqlar çatılmaz,
İnsanlar dostlaşarsa.

Millətlər qardaş olar.
Ürək bir sirdaş olar,
Mehriban yoldaş olar,
İnsanlar dostlaşarsa.

Ölüm-itim azalar,[31]
Ürəklərdə yaz olar,
Könüllər pərvaz olar,
İnsanlar dostlaşarsa.

---

[31] Ölüm, qırğın azalar.

Dünyada sərvət artar,
Qollarda qüvvət artar,
Könüldə mürvət artar,
İnsanlar dostlaşarsa.

Tapılmaz ara vuran,
Ona-buna tor quran,
Nə də pusquda duran,
İnsanlar dostlaşarsa.

Əzilən-əzən olmaz,
Avara gəzən olmaz,
Ürəyi üzən olmaz,
İnsanlar dostlaşarsa.

Bağçalar barlı olar,
Qamət vüqarlı olar,[32]
Kasıb da varlı olar,
İnsanlar dostlaşarsa.

***Cəmil Əkbər*** 25. 07 – 1963

## 49. DÜŞMÜŞƏM

Özümdə bilmədən nəcürə, necə?
Zəmanənin ağuşuna düşmüşəm.
Axşammı, sabahmı, gündüzmü, gecə?
Çalaçuxur koğuşuna düşmüşəm.

Gün doğdu üzümə, hayandan gəldim,
Şəki, Şamaxıdan, Şirvandan gəldim,
Qarabağ, ya Mildən, Muğandan gəldim,
Bilməm kimin çağrışına düşmüşəm?

[32] Baş da vüqarlı olar.

Dövranım hər zaman üzə gülmədi,
Verib kef-damağı, bizə gülmədi,
Yoluma baxmadı, üzə gülmədi,
Enişinə, yoxuşuna düşmüşəm.

Könül diyarımı qar aldı, getdi,
Tərlan xəyalımı sar aldı, getdi,
Məhəbbət bağımı xar aldı, getdi,
Tufan-boran, sərt qışına düşmüşəm.

Düşünüb dərk edən, qananım yoxdur,
Ruhumu oxşayan cananım yoxdur,
Acıyıb halıma yananım yoxdur,
Bilməm kimin qarğışına düşmüşəm?

Yaman gözlər qoy tutulsun, kor olsun,
Gen dünyası qoy başına dar olsun,
El içində xəcil olsun, xar olsun,
Bəd gözlərin baxışına düşmüşəm.

Üsdümə bir gilə nur süzülmədi,
İnci səpələnib, dür süzülmədi,
Sədəf süzülmədi, zər süzülmədi,
Çalpoyuna, yağışına düşmüşəm.

Nə fəhmin, fərasətin var Cəmil,
Nə hünərin, cərasətin var Cəmil,
Nə bacarıq, məharətin var Cəmil,
Zər gətirib, naxışına düşmüşəm.

***Cəmil Əkbər*** 23. 01 – 1991

## 50. YOX İSƏ

Heçkəsdən incimə, heçkəsdən küsmə,
Öz fəhmin, fərasətin yox isə.
Heçkəsdən usanıb, əlini kəsmə,
Öz hünərin, cəsarətin yox isə.

Heçkəsdən nə sovqat, nə  pay gözləmə,
Nə yemək, nə içmək, nə çay gözləmə,
Nə payız, nə də qış, nə yay gözləmə,
Öz bacarıq, məharətin yox isə.

Kimdi el içində tanıyan səni?
Salıb imtahana, sınayan səni,
Edib məzəmməti, qınayan səni,
İnsanlıqda ləyaqətin yox isə.

Qəlbini çamırlıq, qara lil basar,
Bataqlıq, üfunət, qara gil basar,
Verəndöy fürsəti, yaxşı bil basar,
Nəcib arzun, pak niyyətin yox isə.

Çətinliyi qaldırmazsan aradan,
Çıxarmazsan, götürməzsən sıradan,
Beylə qərar verib özü yaradan,
Yenilməyən mətanətin yox isə.

Umub-küsmə hər yetəndən əzizim,
İstəməynən sürmə, vəsmə, əzizim,
Ülfət-ünsiyyəti kəsmə əzizim,
Azdan-çoxdan ənaətin yox isə.

Cəmil Əkbər əzəl gündən belədir,
Birisi ağadır, biri kölədir,
Kim deyərki hamı sənə lələdir,
Əhdin, andın, sədaqətin yox isə.

***Cəmil Əkbər***   3. 02 – 1991

## 51. SUALLAR

Hansı cəllad əliylə nifaq düşdü araya?
Dərdimizi artırıb, duz səpdilər yaraya?
Hansı cəllad əliylə dava-dalaş salındı?
Bu bəşərin içinə, qorxu, təlaş salındı?
Əsəbimiz korlandı, al-qanımız qaraldı,

Zülmət çökdü yerlərə, gen dünyamız daraldı?
Hansı cəllad əliylə belə fərman yazıldı?
Beylə “Loğman” tapıldı, beylə dərman yazıldı?
Qəsd edildi bəşərə, cinayətlər edildi,
Hansı cəllad əliylə alqanlara bulandı?
Düşüb eniş-yoxuşa, dağı-daşı dolandı,
Hansı namərd əlləri bizi saldı zülmətə?
Bizi saldı azara, bizi saldı hillətə,
Fitnə-fəsad işlədib, qarışdırdı aranı,
Dümsükləyib, toxunub, qövr etdirdi yaranı,
Hansı namərd əlləri bu dövranı puç etdi?
Bu büsatı puç etdi, bu qurğunu puç etdi?
Yaman qatdı aranı, ülfətləri puç etdi.
Hansı namərd əlləri qurulanı dağıtdı?
Gör haçandan süzülüb, durulanı dağıtdı?

***Cəmil Əkbər*** 5. 01- 1989

## 52. YER QALIB

Şeirimdə nəqədər vəsf olmamış yer qalıb,
Neçə-neçə gör hələ şərh olmamış sirr qalıb.
Şeirimdə nəqədər vəsf olmamış gözəl var?
Yazılmamış dastanlar, neçə-neçə qəzəl var.
Vəsf olmamış nəqədər el-oba var, mahal var,
Neçə-neçə nurani, neçə-neçə cahal var.
Deyiləsi sözüm var, söylənəsi fikir var,
Ediləsi qayğılar, çəkiləsi zikir var.
Gör nəqədər kef-damaq, nəqədər cah-calal var?
Gör nəqədər qəm-qüssə, nəqədər də məlal var?
Ürəyimdə nəqədər yazılası sözüm var?
Salınası yolağım, keçiləsi izim var.
Gör nəqədər borcluyam, obalara, ellərə?
Bağda fəqan eyləyən, bülbüllərə, güllərə,
Mən borcluyam nəqədər, məni vurğun edənə,
Məni haldan salana, məni yorğun edənə.
Gör nəqədər, nəqədər deyilməmiş sözüm var?
Həzm olmamış nəqədər, yeyilməmiş sözüm var?
Dərk olmamış sözüm var, duyulmamış sözüm var?

Neçə kirli-pasaqlı yuyulmamış sözüm var?
Törpü, balta dəyməmiş, oyulmamış sözüm var,
Öz yerinə salınıb, qoyulmamış sözüm var.
Şeirimdən nəqədər bəhrələnən olubdur,
Sancı düşüb qarnına, qəhərlənən olubdur.
Fərəhlənib sevinən, öyünən də olubdur,
Köksü dolu ürəkdə, döyünən də olubdur.
İçin-için inləyən, qırılan da olubdur,
Həsəd çəkib ölənlər, darılan da olubdur.
Şeirimdən inciyən, küsənlər də olubdur,
Qorxusundan titrəyib, əsənlər də olubdur.
Şeirimdə nəqədər gediləsi yol qalıb?
Çəkiləsi zülallar, şirə qalıb, bal qalıb?
Yazılmamış qalıbdır, gör nəqədər diləkdən?
Tutmamışdır o hələ, gör nəqədər biləkdən?
Şeirimdə oqədər vəsf olmamış yer qalıb?
Deyiləsi fikirlər, açılmamış sir qalıb?
Gediləsi yollar var, gəlinəsi izlər var,
Üyünəsi dənlər var, ələnəsi sözlər var.
Şeirimdə nəqədər məzmunlar var, məna var?
Dərk edənə, qanana, dünya dolu dünya var.
Şeirimdə nəqədər açılmamış çiçək var?
Açılmamış qönçələr, neçə-neçə dibçək var?
Şeirimdə nəqədər, neçə-neçə dağ yatır,
Neçə-neçə gülüstan, neçə-neçə bağ yatır?
Gör nəqədər qərənfil, lalə hələ açmayıb?
Şəbnəm hələ açmayıb, jalə hələ açmayıb?
Şeirimdə nəqədər, inci durur, ləl durur?
Neçə-neçə qərənfil, lalə, nərgiz, gül durur?
Şeirimdən çoxları bəhrəsini götürdü,
Baltasını sovlayıb, dəhrəsini götürdü,
Bir çoxuna sözlərim zülal oldu, bal oldu,
Bəzisinə nədənsə yetişməmiş kal oldu.
Acı, zəqqum dad oldu, zəhər oldu şeirim,
Qüssə oldu şeirim, qəhər oldu şeirim.
Təpik oldu şeirim, şillə oldu şeirim,
Mərmi oldu şeirim, güllə oldu şeirim.
Çoxlarına yaradı, gərək oldu şeirim,
Həvəs oldu şeirim, ürək oldu şeirim.

Dar günündə, məqamda dirək oldu şeirim,
Fəhm oldu şeirim, zirək oldu şeirim.
Mən şeirimi yazanda insan durdu önümdə,
Qanan durdu hərzaman, nadan durdu hərzaman,
Cahillikdən tamını dadan durdu hərzaman,
Damla durdu hərzaman, ümman durdu hərzaman.

***Cəmil Əkbər***

## 53. TANIMAMIŞIQ

Nəqədər gözləri kor olmuşuqki?
İncini, zərləri tanımamışıq.
Nəqədər qulağı kar olmuşuqki?
Köhləni, nərləri tanımamışıq.

Nəqədər qəflətdə yatıb qalmışıq?
Cəhalət gölünə batıb qalmışıq?
Mərdləri namərdə satıb qalmışıq?
Nurani pirləri tanımamışıq.

Nəqədər kamaldan küt olmuşuq biz?
Müqəvva olmuşuq, büt olmuşuq biz?
Hüryan doğulmuşuq, lüt olmuşuq biz?
Möcüzə sirləri tanımamışıq.

Nəqədər yaxşıya pisdi deyildi?
Bədxahdı deyildi, nəsdi deyildi?
Höcətdi, inaddı, tərsdi deyildi?
İgid ərənləri tanımamışıq.

Nəqədər qaraya ağdı demişik?
Kiçik təpələrə dağdı demişik?
Kol-kosa meşədi, bağdı demişik?
Ləkəni, kirləri tanımamışıq.

Sanmışam hamıdan kamallıyıq biz,
Əqidə, məsləkli, amallıyıq biz,
Çəkidə tutarlı, samballıyıq biz,
Kərgədan, şirləri tanımamışıq.

Sanmışıq hər şeyin biləndəriyik,
Alimi, loğmanı, qələndəriyik,
Sərrafı, xarratı, çilingəriyik,
Karları, korları tanımamışıq.

Nəqədər kol-kosa peyvənd vuruldu?
Tutmadı calağı, səyvənd vuruldu?
Kütbeyin, kəmağıl, keyvənd vuruldu?
Cılızı, cırları tanımamışıq.

Nəqədər ilqara dönüklər oldu?
Vicdanı, məsləyi sönüklər oldu?
Hər yola, hər səmtə yönüklər oldu?
Mətanət əhlini tanımamışıq.

***Cəmil Əkbər*** 15.02 – 1991

## 54. İŞİNDƏN

İnsanoğlu əl götürmür,
Görən niyə şər işindən?
Bağlar salıb gül götürmür,
Fayda almır tər işindən.

Əl atırlar pisliklərə,
Höcətliyə, tərsliklərə,
Bədxahlığa, nəsliklərə,
Xəbər vermir zər işindən.

Hamı olub dəllal, baqqal,
Həya bilmir sırtıq, naqqal,
Çoxalıbdı tülkü, çaqqal,
Danışmayır nər işindən.

Hamı indi ədalanıb,
Yerli-yersiz sədalanıb,
Cılızlaşıb, gədalanıb,
Yapışan yox ər işindən.

Dəm vururlar siyasətdən,
Əsir-coşur bədahətdən,
Böyük-kiçik şəxsiyyətdən,
Fayda vermir hər işindən.

Qalmayıbdır üzdə həya,
Halal süfrə, təmiz maya,
Təlim verən düzgün dayə,
Utanan yox xər işindən.

Çoxları verib əl-ələ,
Salıbdır elə vəl-vələ,
Nə deyim, danışım belə?
Baş açılmır sirr işindən.

Ha deyirsən bilə-bilmir,
Nə utanıb ölə bilmir,
Nə sevinib gülə bilmir,
İlham alır cır işindən.

***Cəmil Əkbər***

## 55. BİR TƏRƏFDƏ

Haçandan bəridir çalxanır bəşər?
Yağı bir tərəfdə, şor bir tərəfdə.
Didişir, vuruşur xeyir ilə şər?
Gücsüz bir tərəfdə, zor bir tərəfdə.

Birisi ərini inkar eyləyir,
İncidib, bezdirir, zinhar eyləyir,
Çıxardıb məzhəbdən xünkar eyləyir,
Hiylə bir tərəfdə, tor bir tərəfdə.

Birisi dağıdır, birisi qurur,
Birisi yorulur, birisi yorur,
Birisi dayanıb, birisi durur,
Arif bir tərəfdə, kor bir tərəfdə.

Birisi gözəldir, birisi çirkin,
Birisi sadədir, birisi xudbin,
Birisi bədbindir, birisi nikbin,
Zülmət bir tərəfdə, nur bir tərəfdə.

Bir yanda həya var, bir yanda ismət,
Bir yanda kef-damaq, bir yanda zillət,
Bir yanda hökm edir, bir yanda minnət,
Namus bir tərəfdə, ar bir tərəfdə.

Kimi ad qazanıb, sınanıb gedir,
Kimi el içində qınanıb gedir,
Sayılıb, seçilib, tanınıb gedir,
Dövlət bir tərəfdə, var bir tərəfdə.

Fərqi var heyvanın, fərqi var quşun,
Fərqi var kotanın, fərqi var xışın,
Fərqi var baharın, fərqi var qışın,
Tərlan bir tərəfdə, sar bir tərəfdə.

İnsanam deyənin dəlisi də var,
Qansoran cəlladı, zəlisi də var,
Nökəri varsa da, valisi də var,
Əqrəb bir tərəfdə, mar bir tərəfdə.

Biri digərindən aralı gəzir,
Qəlbi xoflu gəzir, qaralı gəzir,
Alıbdır zərbəni yaralı gəzir,
Peyvənd bir tərəfdə, cır bir tərəfdə.

***Cəmil Əkbər*** 26.05 - 1990

## 56. BİR TƏRƏFDƏ

Qəribədir təbiətin işləri,
Yaxşı bir tərəfdə, pis bir tərəfdə.
Eşqin, andın, sədaqətin işləri,
Bədxah bir tərəfdə, nəs bir tərəfdə.

Hərəsi bir yana səsləyir məni,
Böyüdür, becərir, bəsləyir məni,
Biri tərifləyir, pisləyir məni,
Namərd bir tərəfdə, mərd bir tərəfdə.

Biri barış deyir, biri küs deyir.
Biri danış deyir, biri sus deyir.
Birisi aş deyir, biri kəs deyir.
Əyri bir tərəfdə, düz bir tərəfdə.

Birisi get deyir, biri gəl deyir,
Biri öyrən deyir, biri bil deyir.
Biri yaşa deyir, biri öl deyir,
Qohum bir tərəfdə, yad bir tərəfdə.

Biri yarat deyir, biri qur deyir,
Biri dayan deyir, biri dur deyir,
Biri otur deyir, biri dur deyir,
Xeyir bir tərəfdə, şər bir tərəfdə.

Hərəsi bir yandan yolumu gözlər,
Sağıma boylanıb, solumu gözlər,
Ayımı, günümü, ilimi gözlər,
Bahar bir tərəfdə, qış bir tərəfdə.

Hərəsi biryana çəkhaçəkdədir,
Qəlbimin bəndini sökhasökdədir,
Gözümün yaşını tökhatökdədir,
Ömür bir tərəfdə, yaş bir tərəfdə.

Hərə bir tərəfdən çatılıb gedib,
Dəyər dəyməzinə satılıb gedib,
Nəşədən, damaqdan atılıb gedib,
Qabaq bir tərəfdə, qaş bir tərəfdə.

***Cəmil Əkbər***

## 57. DARIXMA!

Beylə getməz bu işlərin axırı,
Ləl dəyəri itən deyil, darıxma!
Çoxlarının açılacaq paxırı,
Hil dəyəri itən deyil, darıxma!

Həşəratlar girsələr də qəsdinə,
Hücum çəkib düşsələr də üsdünə,
Dəysələr də xatirinə, şəsdinə,
Fil dəyəri itən deyil, darıxma!

Tikan, qanqal əl-ayağa batsa da,
Qan tökməklə muradına çatsa da,
Qan qaraldıb günahlara batsa da,
Gül dəyəri itən deyil, darıxma!

Öz-özünə öyünməsin danalar,
Kölgəsiylə sevinməsin danalar,
Qoy görsünlər nələr doğur analar?
Kəl dəyəri itən deyil, darıxma!

Düha sahibləri yaşamalıdır,
Ellərin yükünü daşımalıdır,
Kim deyir onlara müəmmalıdır?
Kol dəyəri itən deyil, darıxma!

Qədəklər, sətinlər bahalaşsa da,
Cahillər, nadanlar dühalaşsa da,
Qəpiklər bazarda şahalaşsa da,
Şal dəyəri itən deyil, darıxma!

Xidmət sahibləri yaddan çıxarmı?
Damaqdan düşərmi, daddan çıxarmı?
Əsrlər keçsə də dəbdən çıxarmı?
Dil dəyəri itən deyil, darıxma!

Harda olsan ədaləti tapdama,
Doğru-düzlük, həqiqəti tapdama,
İnsanlığı, ləyaqəti tapdama,
Yol dəyəri itən deyil, darıxma!

Güzarımız düşər olsa Muğana,
Gözəl diyar Şamaxıya, Şirvana,
Kür sahili Yevlax, Zərdab, Salyana,[33]
Mil dəyəri itən deyil, darıxma!

Ünsiyyət-ülfəti dərin eyləsən,
Səmimi, mehriban, şirin eyləsən,
Sözünü car çəkib, bəyan eyləsən,
Bal dəyəri itən deyil, darıxma!

Cəmil Əkbər dəyişməynən rəngini,
Möhkəm saxla haqq-ədalət səngini,[34]
Yeri gəlcək sən səsləndir zəngini,
Çal dəyəri itən deyil, darıxma!

***Cəmil Əkbər***

## 58. KƏSLƏRİN

Baxmaq istəmirəm gözünə inan,
Özündən dəm vurub basan kəslərin.
Dinləmək istərəm sözünü bir an,
Danışıb-dinməyən, susan kəslərin.

Oturmaq istərdim, durmaq istərdim,
Axtarıb halını sormaq istərdim,
Özümü uğrunda yormaq istərdim,
İnciyən kəslərin, küsən kəslərin.

Qoymazdım qəm yeyə, ürək verərdim,
Süfrəyə çağırıb çörək verərdim,
Yapışıb qolundan kömək verərdim,
Qorxudan titrəyib-əsən kəslərin.

İstərdim yetişib dadına çatam,
Ağır yüklərini üstündən atam,
Qəlbini şad edib savaba batam,
Ümidi həryandan kəsən kəslərin.

---

[33] Kür sahili el-obaya Salyana.
[34] Möhkəm saxla sən ədalət yükünü.

Azaldıb kəsəydim yalını biraz,
Peysərdən yoğunu, qalını biraz,
Pozardım kefini-halını biraz,
Sinirə bilməyən, qusan kəslərin.

Mən Cəmil Əkbərin ürəyi təmiz,
Arzusu, istəyi, diləyi təmiz,
Qayğısı, yardımı, köməyi təmiz,
Qovardım qapıdan pusan kəslərin.

***Cəmil Əkbər*** 9. 03 – 1993

## 59. QANDIRA BİLMƏDİM QANMAYANLARI

Ha züy tutdum, ha zurnamı çaldımsa,
Qandıra bilmədim qanmayanları.
Ha küsdümsə, ha arnamı aldımsa,
Qandıra bilmədim qanmayanları.

Ha danışdım, fikirləşdim düz dedim,
Dərin dedim, dayaz dedim, üz dedim,
Elə sandım, ləyaqətli söz dedim,
Qandıra bilmədim qanmayanları.

Çənə vurub danışmaqdan yoruldum,
Hey küsməkdən, barışmaqdan yoruldum,
Kef-halını soruşmaqdan yoruldum,
Qandıra bilmədim qanmayanları.

***Cəmil Əkbər*** 1993

## 60. İLİŞSİN O

Özgəsinə dəysə xətam,
Qoy özümə ilişsin o.
Nə yarımçıq, nədəki tam,
Qoy dizimə ilişsin o.

Olsam əgər mərdimazar,
Özgəsinə versəm azar,
Yer verməsin qoy dar məzar.
Qoy gözümə ilişsin o.

Olsam əyər qəlbiqara,
İnsan hara, de mən hara?
Xain çıxsam düz ilqara,
Qoy sözümə ilişsin o.

***Cəmil Əkbər*** 30.03 – 1993

## 61. İTİRMİŞİK BİZ

Bütün millət qardaşlığa çalışır,
Gör nələr, gör nələr itirmişik biz?
Əməkdaşlıq, yoldaşlığa çalışır,
Gör nələr, gör nələr itirmişik biz?

Gözəl səadətin yolçusu olduq,
Ülvi-ləyaqətin yolçusu olduq,
Haqqın-həqiqətin yolçusu olduq,
Gör nələr, gör nələr itirmişik biz?

Bəşər övladına qardaşıq dedik,
Həmkarıq, həmdəmik, sirdaşıq dedik,
Həmyaşıd, tay-tuşuq, çağdaşıq dedik,
Gör nələr, gör nələr itirmişik biz?

Seyredib dünyanı, elləri gəzdik,
Dolandıq bağları, gülləri gəzdik,
Şirin ləhcələri, dilləri gəzdik,
Gör nələr, gör nələr itirmişik biz?

İnsan övladıyla verdik əl-ələ,
Zülmət dünyasına saldıq vəlvələ,
Çoxunu danışıb demirəm hələ,
Gör nələr, gör nələr itirmişik biz?

Hamı birbirinə can deyərdilər,
Anlayıb, dərk eylə, qan deyərdilər,
Süfrə açardılar, nan deyərdilər,
Gör nələr, gör nələr itirmişik biz?

Sevdik həmrəyliyi, beynəlmiləli,
Nəydi məchul qalan, de nə hiyləli?
Nəydi bilinməyən, nəydi şübhəli?
Gör nələr, gör nələr itirmişik biz?

***Cəmil Əkbər*** 20. 03 - 1993

## 62. MƏHV EDƏK

Gəlin qovaq aramızdan fitnə-fəsad olmasın,
Kamalından kəm-kəsirlər, ağlı-kasad olmasın.
Həmrəy olaq, əlbir olaq, cəhaləti məhv edək,
İşimizə zərbə vuran qəbahəti, məhv edək.
Yer olmasın bu həyatda xainlərə, xəbisə,
Nanəcibə, naxələfə, nanıkora, naqisə.
İşgəncəni, dəhşətləri, müsibəti məhv edək,
Dedi-qodu, giley-güzar, şikayəti məhv edək.
Sinələrdə qəm-kədərdən dərdlənməsin ürəklər,
Harda varsa boğulmasın, nəcib arzu-diləklər.
Son qoyulsun qəsd-qərəzə, küdurəti məhv edək,
Gör haçandan miras qalan, ədavəti məhv edək.
Yer üzündə çəkişmələr, dava-dalaş olmasın,
Səksəkələr, vahimələr, qorxu-təlaş olmasın.
İnsanlığa qənim çıxan fəlakəti məhv edək,
Ehtiyacı, yoxsulluğu, zəlaləti məhv edək.
Üstümüzdən qoy çəkilsin qara bulud, dumanlar,
Birbirindən incişənlər, küsüşənlər, umanlar.
Zəmanədə meydan açan rəzaləti məhv edək,
Bədnamçılıq, rüsvayçılıq, xəcaləti məhv edək.
Ünsiyyətdə olmayaydı əyrilikdən nişanə,
Laqeyidlik, biganəlik, qeyrilikdən nişanə.
Avamlıqdan zühr eyləyən xəyanəti məhv edək,
Saxta-saxta uydurulan, bəyanatı məhv edək,
Birdəfəlik yox edilə, yalan-yanlıc hərnəvar,

Çıxmayaydı qarşımıza xəta-bəla hərnəvar.
Ləyaqətə qəsd eyləyən həqiqəti məhv edək,
Uydurulan şeirləri, nəqəratı məhv edək.
İnsanoğlu yer üzündə qoy asudə dolansın,
Çır köklərə peyvənd olsun, yaxşı şitil calansın.
El-obanı zəlil qoyan "fərasəti"məhv edək,
"Hünərləri", "zəfərləri", "cəsarəti" məhv edək.

***Cəmil Əkbər*** 22.11 – 1998

## 63. ZƏHMƏTDİR

Biryolluq məhv olub itib-gedərdik,
Bizə bu həyatı verən zəhmətdir.
Qərq olub dəryaya, batıb gedərdik,
Bizə bu cürəti verən zəhmətdir.

Bu adı, bu şanı, bu şərafəti,
Bu dözüm, bu durum, bu dəyanəti,
Sədaqət, səxavət, bu kəraməti,
Bizə ülviyyəti verən zəhmətdir.

İnsanlıq naminə hər keyfiyyəti,
Bu məna, bu məzmun, bu məziyyəti,
Bu yöndəm, bu görkəm, bu şəxsiyyəti,
Bizə ləyaqəti verən zəhmətdir.

Gözəl arzuları, nəcib diləyi,
İstəklə döyünən bu saf ürəyi,
Bu halal neməti, halal çörəyi,
Bizə bərəkəti verən zəhmətdir.

Bükülməz, qatlanmaz biləyi, qolu,
Düz gedər, əyilməz sonadək yolu,
Dövləti, sərvəti, altunu, pulu,
Bizə bu qüvvəti verən zəhmətdir.

Qaranlıq gecədə parlayan ayam,
Nütfədən düz oldum, halaldı mayam,
Övlad atasıyam, qoca babayam,
Bizə bu hikməti verən zəhmətdir.

Dağlardan yön alan şəffaf bir çayam,
Sağlamdı əməlim, sağlamdı qayəm,
Üzümdən, gözümdən görünür həyam,
Bizə bu isməti verən zəhmətdir.

Cəmiləm, heç kimə etmədim pislik,
Nə xainlik, nə paxıllıq, nə nəslik,
Nə qəddarlıq, nə zalımlıq, nə tərslik,
Bizə bu qeyrəti verən zəhmətdir.

***Cəmil Əkbər*** 25. 12 - 1980

## 64. ZƏHMƏTİNKİDİR

Biryolluq məhv olub, itib-gedərdik,
Bu dövran, bu həyat zəhmətinkidir,
Dəryalar dibində batıb gedərdik,
Bu məzmun, bu hikmət zəhmətinkidir.

Bu ad da, bu san da, bu şərafət də,
Bu ədəb-ərkan da, bu mərifət də,
Nəşələr, məclislər, bu ziyafət də,
Ülvi-ləyaqət də zəhmətinkidir.

İnsanlıq naminə keyfiyyətimiz,
Mənalar, məzmunlar, məziyyətimiz,
Dözüm də, durum da, qətiyyətimiz,
Cürət, cəsarət də zəhmətinkidir.

Müqəddəs arzular, nəcib diləklər,
Ülvi-məhəbbətlər, zərif ürəklər,
Halaldan qismətlər, o duz-çörəklər,
Hərcürə nemət də zəhmətinkidir.

Qatlanmaz biləklər, bükülməz qollar,
İtməyən cığırlar, azmayan yollar,
Hərcürə var-dövlət, hərcürə mallar,
Gözəllik, zinət də zəhmətinkidir.

***Cəmil Əkbər***

## 65. AYRILIQ

Qəlbimin telləri bəmə köklənir,
Qərq olur hicrana, qəmə köklənir,
“Yetim segah” üstə simə köklənir,
Hər yada düşəndə yenə ayrılıq.

Elə bir od qoyub, yandırıb yaxır,
Car olub sinəmdən qara qan axır,
Gözlərim zillənir, yollara baxır,
Nəyaman qəsd edir mənə ayrılıq?

Nəqədər çəkəcək bu qəm, bu nisgil?
Kim onu edibdir bizlərə vəkil?
Utan sözlərimdən, kənara çəkil,
Bəlkə cavab verə, dinə ayrılıq.

Sinəm üstə qövr eyləyir sızıltı,
Baş qaldırır min bir yerdən inilti,
Kəsməyir, susmayır bir an gizilti,
Dərdimi azaltmır kinə ayrılıq.

Nəqədər həsrətlər çəkdirəcəkdir?
Könüllər mülkünü sökdürəcəkdir,
Vuraraq qamətlər bükdürəcəkdir?
Bəlkə bir çəkilə genə, ayrılıq.

Arzular qovuşa, dilək bir ola,
Nəbizlər bir vura, ürək bir ola,
Süfrələr bir ola, çörək bir ola,
Salmaya heç yerdə binə ayrılıq.[35]

***Cəmil Əkbər*** 25. 11 –1980

[35] Bəlkə salanmaya binə, ayrılıq.

## 66. QORXMAYIN!

Dünyaya gələnlər gedirlər bir-bir,
Deyən vaxtım çatha-çatdı, qorxmayın!
Nəşəmiz cüzidir, qəmimiz min bir,
Ömür-günüm bitha-bitdi qorxmayın!

Günlər keçirmişəm əfi ilanla,
Gicbəsər, sərsəri, sarsaq, nadanla,
Dərdimi, qəmimi qanmaz adamla,
Qəlbim onu atha-atdı qorxmayın!

Könlüm qan ağlayır, ruhum söyünmür,
Qərq olub kədərə, daha öyünmür,
Eşq-məhəbbətlə vurub döyünmür,
Eləbilki yatha-yatdı qorxmayın!

Ölüb gedir, azalıbdır tay-tuşum,
Qəmi çəkmə, dərdi yemə qardaşım,
Gündən-günə zəifləyir yaddaşım,
Olan-qalan itha-itdir qorxmayın!

Matəmə batmasın nə oğlum, qızım,
Sönməsin həyatda tale ulduzum,
Çıxmasın yaddaşdan, gəlsin avazım,
Ömür sona yetha-yetdi qorxmayın!

Günlər keçir, gəlib-gedir karvanım,
Gündən-günə qəm-qüssədir hər anım,
Gizli deyil, nə danışım, nə danım?
Cəmil burdan gethagetdi qorxmayın!

***Cəmil Əkbər*** 20. 12 – 1980

## 67. ZƏMANƏ İNSANI NƏGÜNƏ QOYUR?

İxtiyar, sədarət gedir əllərdən,
Zəmanə insanı nəgünə qoyur?
Düha sahibi də düşür dillərdən,
Zəmanə insanı nəgünə qoyur?

Əvvəlki ənənə, nə vərdiş qalır,
Nə hərəkət qalır, nə gərdiş qalır,
Nə xeyir-bərəkət, nə də iş qalır,
Zəmanə insanı nəgünə qoyur?

Alıb qüdrətini karsız eyləyir,
Ulğun ağacıtək barsız eyləyir,
İqtidarsız, ixtiyarsız eyləyir,[36]
Zəmanə insanı nəgünə qoyur?

Artırıb dərdini, qəddini əyir,
Toxunub hissinə, qəlbinə dəyir,
Qocalıq çağından kim görüb xeyir?[37]
Zəmanə insanı nəgünə qoyur?

Çəkilir günbəgün gözlərin nuru,
Qolların taqəti, dizlərin giri,
Tərk edir bədəni, qayıtmır geri,
Zəmanə insanı nəgünə qoyur?

Dəyişir hamının fürsəti, çəmi,
Qalmayır dost-tanış, könül həmdəmi,
Quruyur bostanlar, biçilir zəmi,
Zəmanə insanı nəgünə qoyur?

Tutulur qabaqlar, qaşlar yerbəyer,
Ağarır saqqallar, başlar yerbəyer,
Dağılır xəyallar, huşlar yerbəyer,
Zəmanə insanı nəgünə qoyur?

Nəqədər gözəllər çirkinləşirlər,
Düşüb eşq-həvəsdən bədbinləşirlər,
Təşvişə düşürlər, gərginləşirlər,
Zəmanə insanı nəgünə qoyur?

---

[36] Qohumsuz, qardaşsız, yarsız eyləyir.
[37] Qocalıqdan kimsə görməyib xeyir?

Usanıb əlçəkir qardaş-qardaşdan,
Həmkarlar-həmkardan, yoldaş-yoldaşdan,
Tay-tuşlar tay-tuşdan, çağdaş-çağdaşdan,
Zəmanə insanı nəgünə qoyur?

Vətəndən didərgin, qaçqın eyləyir,
Özgə diyarlara sürgün eyləyir,
Qırıb qol-qanadın küsgün eyləyir,
Zəmanə insanı nəgünə qoyur?

Çox mənəm deyəni fəqir eyləyir,
Qapıda-bacada səqir eyləyir,
Salıb nüfuzunu təhqir eyləyir,
Zəmanə insanı nəgünə qoyur?

Ay Cəmil, açılan bir zaman solur,
Bir zaman boşalır, bir zaman dolur,
Bir yandan verirsə, bir yandan alır, [38]
Zəmanə insanı nəgünə qoyur?

***Cəmil Əkbər*** 16. 09 -1996

## 68. SƏBR EYLƏ!

Hər şeyin əvvəli olduğu kimi,
Axırı da gələcəkdir səbr eylə!
Toplanıb biryerə olduğu kimi,
Olasılar olacaqdır səbr eylə!

Gül-çiçək nəqədər açılır-açsın,
Ətiri ellərə saçılır-saçsın,
Qaçanlar qoy qaçsın, uçanlar-uçsun,
Məqamında enəcəkdir səbr eylə!

Hər meyvənin adı başqa olsa da,
Tamı başqa, dadı başqa olsa da,
Öz faydası, öz imdadı olsa da,
Çaxırı da olacaqdır səbr eylə!

---

[38] Çoxları fikirə-xəyala dalır.

İnanmakı belə gedər bu dövran?
Axıb-daşan selə düşər bu karvan?
Ömürboyu yolu çaşar bu sarvan?
Paxırı da çıxacaqdır səbr eylə!

Yayılacaq inləyənin naləsi,
Yaraları simləyənin gur səsi,
Kiriyən döy məzlumların dəstəsi,
Hay-həşiri gələcəkdir səbr eylə!

Həsəd çəkmə cah-calalı olana,
El varıyla gözələnib dolana,
Zurnasında min bir hava çalana,
Gethagedi olacaqdır səbr eylə!

Bu dünya çox görüb gəlib-gedəni,
İgidləri, kişiləri, gədəni,
Qarnı yoğun, cibi dolu dədəni,
Vurhavuru olacaqdır səbr eylə!

Hərkəsdəni dindirəcək amanı,
Öz yerinə göndərəcək zamanı,
Tökəcəkdir qabağına samanı,
Axuru da olacaqdır səbr eylə!

İgidəm deyənin əli boş qalmaz,
Çəməni, çiçəyi, çölü boş qalmaz,
Obası, oymağı, eli boş qalmaz,
Zaman gələr dolacaqdır səbr eylə!

Cəmil Əkbər qəmlər səni yıxmasın,
Qan qaraldıb ürəyini sıxmasın,
Hökm eyləyib axırına çıxmasın,
İlhamını alacaqdır səbr eylə!

***Cəmil Əkbər*** 25.09 – 1996

## 69. DƏYİŞDİ

Zəmanəmiz bir gör nəgünə düşdü?
Ədalət də, həqiqət də dəyişdi.
Dolaşıb kələfi, düyünə düşdü,
İqtidar da, sədarət də dəyişdi.

Dünyamızı başdan-başa bic alıb,
Sərsərilər, kəmağıllar, gic alıb,
İlqarına-imanına kəc olub,
Təlimat da, qiraət də dəyişdi.

Yaxşı danışırsan, pis anlayırlar,
Çevirib tərsinə nəs anlayırlar,
Qızılı, gümüşü mis anlayırlar,
İbadət də, itaət də dəyişdi.

İndi başqa dövran, başqa zamandır,
Başqa dəyirmandır, başqa xırmandır,
Övladı-bəşərin halı yamandır,
Şəriət də, təriqət də dəyişdi.

Oğrular, əyrilər varlı dolanır,
Hamıdan tutarlı, karlı dolanır,
Yekəxana, çox vüqarlı dolanır,
Bacarıq da, məharət də dəyişdi.

Gör nəqədər zirvələrdən endilər?
Məhbəslərdə, zindanlarda dindilər?
İlqarından, imanından döndülər?
İnsanlıq da, ləyaqət də dəyişdi.

Gözəl zəmanədən əsər qalmadı,
Qanundan, qaydadan səmər qalmadı,
Düşdü öz soyundan kəsər qalmadı,
Külli-aləm, cəmiyyət də dəyişdi.

Dəbdən götürüldü yoldaş sözləri,
Mehriban, səmimi qardaş sözləri,
Ürək bir, dilək bir sirdaş sözləri,
Müraciət, xitabət də dəyişdi.

Üzdə-gözdə həyamızı itirdik,
Vicdan, məslək, qayəmizi itirdik,
Dünyagörmüş dayəmizi itirdik,
Sədaqət də, səxavət də dəyişdi.

Ünsiyyət-ülfətdə hörmət qalmadı,
Kəramət qalmadı, mürvət qalmadı,
Mənəvi gözəllik, sərvət qalmadı,
Ədəb-ərkan, nəzakət də dəyişdi.

Saxtalıq çoxaldı, yalan çoxaldı,
Dağıntı, söküntü, talan çoxaldı,
Züy tutub, nağara çalan çoxaldı,
Vermək üçün bəyanat də dəyişdi.

İtirib qiymətin, söz də söz deyil,
Yolaq yolaq deyil, iz də iz deyil,
Oğul-oğul deyil, qız da, qız deyil,
Dözüm-durum, dəyanət də dəyişdi.

Başqa çəmənlikdir, başqa ormandır,
Başqa təbiblərdir, başqa dərmandır,
Başqa din-məzhəbdir, başqa imandır,
Məharət də, fərasət də dəyişdi.

Ünsiyyət-ülfətdə cəhalət artıb,
Küdurət çoxalıb, ədavət artıb,
Xətalar, bəlalar, qəbahət artıb,
Ehtiram da, mərhəmət də dəyişdi.

***Cəmil Əkbər*** 23.12 -1995

## 70. BOĞULMAQDADIR

Saxtalıq çoxalıb, yalanlar artıb,
Ədalət, həqiqət boğulmaqdadır.
Qondarma, uydurma planlar artıb,
Saf arzu, pak niyyət boğulmaqdadır.

Qal-qovğa kəsilmir, qurtarmır dava,
Qaralır buludlar, açılmır hava,
Dünya düzələnə oxşamır tova,
Kürrüyei-kainat boğulmaqdadır.

Fərmanlar, qərarlar, sözlər dəyişir,
Cığırlar, yolaqlar, izlər dəyişir,
Baxışlar, nəzərlər, gözlər dəyişir,
İnsanlıq, ləyaqət boğulmaqdadır.

Nəqədər yaxşıya, pisdi deyirlər?
Höcətdi, inaddı, tərsdi deyirlər?
Zalımdı, bədxahdı, nəsdi deyirlər?
Ülviyyət, qüdsiyyət boğulmaqdadır.

Ünsiyyət-ülfətdə çirkinlik artır,
Lovğa, yekəxana, xudbinlik artır,
Özündən bədgüman, nikbinlik artır,
Nəzakət, fəzilət boğulmaqdadır.

Alimi, Loğmanı gözdən salırlar,
Çıxarıb yolundan, izdən salırlar,
Gün çeşdə çıxmamış tezdən salırlar,
Şan-şöhrət, şərafət boğulmaqdadır.

Kütbeyin, kəmağıl ucala bilir,
Sürüb dövranını, qocala bilir,
Zəfərlər çalaraq, bac ala bilir,
Bacarıq, məharət boğulmaqdadır.

Kamal sahibləri dallarda qalır,
İlişib tikana kollarda qalır,
Üzülüb qatardan yollarda qalır,
Fərasət, cəsarət boğulmaqdadır.

Abırsızlar, həyasızlar oqədər,
Əqidəsiz, qayəsizlər oqədər,
Təlimi kəm, dayəsizlər oqədər,
Kəramət, mərhəmət boğulmaqdadır.

Nanəcib, namərdlər, naqislər artıb,
Paxıllar, xainlər, xəbislər artıb,
Ellərin varına hərislər artıb,
El-oba, məmləkət boğulmaqdadır.

Dadmal çoxalıb, əniklər artıb,
Hər səmtə üz tutan yönüklər artıb,
İlqara-imana dönüklər artıb,
Sədaqət, səxavət boğulmaqdadır.

Kiriyib susana, dinənlərə bax,
Qaralıb, qarsıxıb, sönənlərə bax,
Zirvədən aşağı enənlərə bax,
Dəyanət, qətiyyət boğulmaqdadır.

Cəmil Əkbər, söz-söhbətə baxan yox,
Din-məzhəbə, təriqətə baxan yox,
Quran, kitab, şəriətə baxan yox,
Azadlıq, səadət boğulmaqdadır.

***Cəmil Əkbər*** 7. 03 - 1995

## 71. ATARLAR

Məqsəd ülvi yaşamaq, səadətə qovuşmaq,
Xətalardan, bəladan, uzaqlaşmaq, sovuşmaq.
İstəyimiz müqəddəs, yolumuz haqq yoludur,
Onun keşməkeşləri ululardan uludur,
Səadətin yolları hünər ilə doludur,
Neçə-neçə qələbə, zəfər ilə doludur,
Alınası müfdədir, nəmər ilə doludur,
Gələcəyə uğurlu səfər ilə doludur.
Məqsədimiz, arzumuz, məhəbbətdən güc alır,
Xeyirxahlıq, fəzilət, nəzakətdən güc alır,
Dözüm, durum, dəyanət, qətiyyətdən güc alır,
Bacarıqdan, fəhmdən, fərasətdən güc alır,
Etibardan, inamdan, mərhəmətdən güc alır,
O xətirdən, hörmətdən, ləyaqətdən güc alır,
Ədəb-ərkan gözləyib, mərifətdən güc alır,
Doğruluqdan, düzlükdən, həqiqətdən güc alır,

Bu hünərdən, zəfərdən, bu zəhmətdən güc alır.
Bu məramla, minvalla, xoş günlərə çıxırıq,
Hünərlərin, zəfərin, əllərini sıxırıq.
Zalım, xalqı çaşdırıb gəl döndərmə bu yoldan,
Vurub salma aşağı, gəl endirmə bu yoldan.
Gəl bu gözəl ülfəti, ünsiyyəti korlama,
Nahaq yerdən bu xalqın əsəbini zorlama.
Hiylə, məkr işlədib, düzü tərsə yozma gəl,
Doğru yoldan uzaşıb, əyri yola azma gəl.
Fitnə-fəsad işlədib, salma bizi fellərə,
Yerli-yersiz sözlərlə, salma bizi dillərə.
Haqq yolunu danaraq, ona qara yaxma gəl,
Qanımızı qaraldıb, qəlbimizi sıxma gəl.
Utan eldən-obadan, yaxşılara pis demə,
Mərd igidə şər atıb, bədxah demə, nəs demə.
Hərzə-hədyan söyləyib, gəl çaşdırma bəşəri,
Yalan-yanlıc danışıb, dolaşdırma bəşəri.
Bəd yollardan uzaq ol, davası var bil onun,
Zəfərlərə qarışan, havası var bu yolun,
Ərşə çıxan ah-vayı, naləsi var bu yolun.
Sərsəm fikir-xəyalla yerə zülmət çökəcək,
Bilən yoxdu yerlərə nə səpilib, bitəcək?
Göylər ahı-naləyə, yerlər qana boyanar,
Onda gör ki, arxanda, kimlər durub dayanar.
Zalım, çəkmə bəşəri doğru yoldan kənara!
Adət edib getdiyi, öz yolundan kənara!
Demə dövrü-zəmanə yaman keçib əlimə,
Hamı düşüb toruma, ilişibdir felimə.
Eylə sanma bu xilqət, sənə təzim edəcək,
Sən göstərən yollarla addımlayıb gedəcək.
İnsaf eylə bu xalqı, birbirinə qırdırma,
Sussayıb al-qanına, iliyini vurdurma.
Bir gün görər bu bəşər, əyri kimdir, düz kimdir?
Fikirlərdə, xəyalda dərin kimdir, üz kimdir?
Kimdi doğru gedənlər, kimdi əyri gedənlər,
Görən kimdi səmimi, kimdi qeyri gedənlər.
Kimdi xalqın varını, harın-harın yeyənlər?
Dərə xəlvət, tülkü bəy, sinəsinə döyənlər.
Bəşər bir gün duyacaq, kələyini biclərin,

Qanıracaq qolunu, biləyini giclərin.
Yolacaqdır qanadın, lələyini hərkəsin,
Biləcəkdir fikrini, kələyini hərkəsin.
Bu bəşəri aldadıb barmağına dolama,
Çəngəlinə keçirib, qarmağına dolama.
Bədəməldən, işlərdən, bezəcəkdir bu bəşər,
Xirtdəyindən yapışıb, üzəcəkdir bu bəşər.
Zaman gəlib oyanıb pisə-pisdir deyəcək,
Bədxahlara, zalıma, nəsə-nəsdir deyəcək.
Xalqa sitəm edənin kəc məramı bilinər,
Sərsəm fikri, xəyalı, öc məramı bilinər.
Məqam gəlib yetişər, qaralanıb silinər,
Bostan kimi, dərilib uralanıb silinər.
Tapılacaq müqəssir, tezi-geci bir zaman,
Bilinəcək qüvvəsi, olan gücü bir zaman.
Gələr bir gün məqamı, bədəməllər bilinər,
Hər xətası, bəlası, yer üzündən silinər.
Əvvəl-axır tapılıb, yaxasından tutarlar,
Süpürülüb, silinib, zibilliyə atarlar.

***Cəmil Əkbər*** 5. 03 – 1992

## 72. ONU BİL!

Ləyaqət əhlinə darılma əsla,
Pul versən də alanmazsan onu bil!
Ona layiq ləyaqətin olmasa,
Qulluğunda qalanmazsan onu bil![39]

Əlini atmaynan belə, külüngə,
Bir yığın sümüksən, yoxsa ələngə,
Bənzətmə özünü şirə, pələngə,
Olmamısan, olanmazsan onu bil!

Onu-bunu barmağına dolasan,
Var-halını pay-püş edib, talasan,
Kür-Arazı üsdünə də calasan,
Ha axsa da dolanmazsan onu bil![40]

---

[39] *II variant* Gözəlliyi harda görsən darılma,
Pul verməklə alanmazsan onu bil.
Həsəd çəkib, gəl içindən qırılma,
Ha köklənsən çalanmazsan onu bil!

Eşitsən sözümü budur həqiqət,
Dinləyib özünə götür nəsihət,
Səndən Habil olmaz, nə də Ədalət,
Ha köklənsən çalanmazsan onu bil!

Gözəl vətəninə vurulanmasan,
Çalxanıb içindən durulanmasan,
Yeriyib, yüyürüb yorulanmasan,
İlhamını alanmazsan onu bil!

El dərdini anlamasan, duymasan,
Yaxınlaşıb, şərik olub uymasan,
Varlığını bu yollarda qoymasan,
Xəyallara dalanmasan onu bil!

İçən yoxsa şərbətini, camını,
Çəkən yoxsa zülalını, şamını,
Dadan yoxsa ləzzətini tamını,
Peyvənd olub calanmasan onu bil!

Bu el-oba xidmətini görməsə,
Məzmununu, hikmətini görməsə,
Arzu-istək, niyyətini görməsə,
Könüllərə dolanmazsan onu bil!

Gəl Cəmili bezikdirib yorma sən,
Qərəzində, qisasında durma sən,
Al-qanını zəli kimi sorma sən,
Ha sorsan da sulanmazsan onu bil!

***Cəmil Əkbər*** 7.07 – 1998

---

[40]*II variant* Onu-bunu barmağına dolama!
El varını şülən çəkib, talama!
Cır budağı peyvənd edip çalama!
Ha dolasan da dolanmazsan onu bil.

## 73. VER DEDİKCƏ VER

Qadir Allah budur səndən diləyim,
Ləyaqət əhlinə ver dedikcə ver.
Yetiş harayına, gəl ol köməyim,[41]
Şərafət əhlinə ver dedikcə ver.

İşimiz düşməsin naqis kəslərə,
Paxıla, xainə, xəbis kəslərə,
Tamahkar, acgözə, həris kəslərə,
Səxavət əhlinə ver dedikcə ver.[42]

İlqara-imana dönük olmasın,
Vicdanı-məsləyi sönük olmasın,
Hər səmtə üz tutan yönük olmasın,
Sədaqət əhlinə ver dedikcə ver.

Biz fəda getməyək ziyankarlara,
Araqarışdıran fitnəkarlara,
Bəşər övladına sitəmkarlara,[43]
Fəzilət əhlinə ver dedikcə ver.

Meydan verilməsin nadan kəslərə,
Təlimdən yarımçıq dadan kəslərə,
Yolunu tərsinə adan kəslərə,
Mərhəmət əhlinə ver dedikcə ver.

Ünsiyyət məqamı yalan olmasın,
Züy tutub, nağara çalan olmasın,
Haqsızlıq əlindən solan olmasın,
Ədalət əhlinə ver dedikcə ver.

---

[41] Qoyma dara düşüm, gəl ol pənahım.

[42] *II variant* Fürsəti verməynən naqis əllərə,
Xain, mərdimazar, xəbis əllərə,
Tamahkar, acgözə, həris əllərə,
Səxavət əhlinə ver dedikcə ver.

[43] Qəddar, zalımlara, sitəmkarlara.

Qoyma məharəti boğulub getsin,
Bağların yerində kol-koslar bitsin,
Mərd igid arada-bərədə itsin,
Fərasət əhlinə ver dedikcə ver.

Kamal sahibləri ucala bilsin,
Zəfərlər çalaraq bac ala bilsin,
Səksənə, doxsana qocala bilsin,
Kəramət əhlinə ver dedikcə ver.

Aralıqda kin-küdurət olmasın,
Xəta-bəla, nə ədavət olmasın,
Giley-güzar, nə şikayət olmasın,
Məhəbbət əhlinə ver dedikcə ver.

Hiyləgər, dələduz, biclər olmasın,
İlqara-imana kəclər olmasın,
Qanuna-qaydaya öclər olmasın,
Həqiqət əhlinə ver dedikcə ver.

Abırsızı, həyasızı xar eylə,
Əqidəsiz, qayəsizi xar eylə,
Təlimi kəm, dayəsizi xar eylə,
Nəzakət əhlinə ver dedikcə ver.

Qoyma ortalığı qatanlar olsun,
Mərdləri-namərdə satanlar olsun,
İnsafı-mürvəti atanlar olsun,
Mərifət əhlinə ver dedikcə ver.

Tanrım, sən unutma Cəmil Əkbəri,[44]
Vermə qəm-qüssəni, dərdi-kədəri,
Uzaq et başından qovğa, xətəri,
Saf-niyyət əhlinə ver dedikcə ver.

***Cəmil Əkbər*** 31.03 - 1995

[44] Unutma amandır Cəmil Əkbəri.

## 74. SƏMƏD VURĞUNA[45]

Ey böyük sənəkar, ölməz nəğməkar,
Bu eldə nə qədər haqq-sayın var?
Sən nədən yazdınsa birinci oldun,
Sənət dünyasında sən inci oldun.
Hər nədən yazdınsa düşdü dillərə,
Gəzdi söz-söhbətin eldən-ellərə.
Şeirindir min şölə saçan həryanda.
İz salıb könüldə, qalıb cahanda,
Nəqədər gəzdinsə bütün dünyanı,
Sevdin ana yurdun Azərbaycanı.
Sən öz ilhamını Lenindən aldın,
Azadlıq, səadət günündən aldın.
Getməyir dağlardan ayaq izlərin,
Çıxmır ürəklərdən şirin sözlərin.
Əsl övlad oldun Azərbaycana,
Şan-şöhrət yarandın bizim cahana.
Neçə əsər yazdın zəmanəmizə,
Nəqş oldu tarixə, salnaməmizə.
Şeirdən möhtəşəm bir saray qurdun,
Ömrünü şərəflə sən başa vurdun.
Hərzaman mərdliklə dedin sözünü,
Uymadın böhtana, yazdın düzünü.
Dedinki ucalır düzlüklə hərkəs,
Əməkdir hərşeydən bizə müqəddəs.
Hər xalqın yanında hörmət qazandın,
Ölməyən əbədi şöhrət qazandın.
Sən nədən yazdınsa, gəldi ürəkdən,
Od aldın ürəkdən, yandın ürəkdən.
Dedinki ürəksiz deyilən sözlər,
Könüllər mülkündə salmayır izlər.
Şeirin bahadırı oldun şair, sən,
Nəsillər dərs alır bu gün də səndən.
Sən damla olmadın, sən ümman oldun,
Şairlər içində komandan oldun.

***Cəmil Əkbər*** 18.05-1976

[45] "Səməd Vurğuna" başlıqlı şeir "Kirovabad kommunisti" qəzetinin 18 may 1976-cı il № 97 (8170) sayının 3-cü səhifəsində çap olunmuşdur.

## 75. HAÇANDI?

Dünyanın qəribə nə gərdişi var,
Biri qalxır, biri enir haçandı?
Tükənmək bilməyən bir vərdişi var,
Biri susur, biri dinir haçandı?

Müddətdir dövr edir, zəmanə, həyat,
Kimiyə müsibət, kimiyə büsat,
Tapıb bir çarəni, deyən yox heyhat,
Biri yanır, biri sönür haçandı?

Yerli gedir, yersiz gəlib yer tutur,
Zərli gedir, zərsiz gəlib zər tutur,
Ərli gedib, ərsiz gəlib yar tutur,
Dönməz dönmür, dönən dönür haçandı?

Əzəni var, dözəni var dünyanın,
Bezdirəni, bezəni var dünyanın,
Yatanı var, gəzəni var dünyanın,
Qorxmaz qorxmur, sinən sinir haçandı?[46]

Biri qanmır, biri qanır neyləyək?
Biri anmır, biri anır neyləyək?
Biri danmır, biri danır neyləyək?
Qanmaz qanmır, qanan qanır haçandı?

Ay Cəmil, əl atma sirri-əlaya,
Xərcləmə bu işə, sərf etmə mayə,
Yoxdu oxuduğun kitabda ayə,
Yazan-yazır, yozan-yozur haçandı?

***Cəmil Əkbər*** 28. 09 – 1987

[46] Qorxan qorxur, sinən sinir haçandı?

## 76. AY ETİBARSIZ?

Necə unudursan əhdi-vəfanı?
Hardadır vicdanın, ay etibarsız?
Necə sürmək olar zövqü-səfanı?
Hanı yol-ərkanın, ay etibarsız?

Dönüklük eyləyib necə gəzirsən?
Necə tablaşırsan, necə dözürsən?
Necə hiss edirsən, necə sezirsən?
Çoşmurmu bəs qanın, ay etibarsız?

Əzəldən obaya, elə bağlıyam,
Səmimi söhbətə, dilə bağlıyam,
Ətiri-kainat, gülə bağlıyam,
İncidir tikanın ay etibarsız?

Sözüm haqdan gəlir, yalan ha deyil?
Dağılan, sökülən, talan ha deyil?
Xəzana düşsə də solan ha deyil?
Yoxdurmu gümanın ay etibarsız?

Bildinmi nəqədər qəlbimə dəydin?
Vurub qamətimi əydikcə-əydin?
Qəhər məni boğdu, alqumaş geydin?
Hanı din-imanın ay etibarsız?

Cəmili etmisən dəli-divanə,
Odur ki, hər şeyə oldu biganə,
Mənə yalan oldu vallah pərvanə,
Daşdırmı bəs canın ay etibarsız?

***Cəmil Əkbər*** 1.08 – 1998

## 77. KEÇƏN GÜNLƏRİM

Kefi də çəkmişəm, qəm də görmüşəm,
Ay keçən günlərim, keçən günlərim.
Əyərlər, əksiklər, kəm də görmüşəm,
Ay keçən günlərim, keçən günlərim.

Nə qədər vaxt-vədə hədərə getdi,
Qərq oldu dərd-azar, kədərə getdi,
Düşdü işgəncəyə qəhərə getdi,
Ay keçən günlərim, keçən günlərim.

Atalar görmüşəm, ana görmüşəm,
Dərk eyləyib qana-qana görmüşəm,
Yada salıb yana-yana görmüşəm,
Ay keçən günlərim, keçən günlərim.

Vəfalı, vəfasız yar da görmüşəm,
Qoynunda bəslənən nar da görmüşəm,
Bağbanlar bəsləyən bar da görmüşəm,
Ay keçən günlərim, keçən günlərim.

Halal sərvəti də, varı da gördüm,
Almanı, heyvanı, narı da gördüm,
Namusu, qeyrəti, arı da gördüm,
Ay keçən günlərim, keçən günlərim.

Nəola qayıdıb əlimə gələ,
Qona bağlarıma gülümə gələ,
Əvvəlki imkanlar selimə gələ,
Ay keçən günlərim, keçən günlərim.

Qəlbimin başında izin qalıbdır,
Odun sönməmişdir, közün qalıbdır,
Çoxun olmasa da, azın qalıbdır,
Ay keçən günlərim, keçən günlərim.

Sən mənə nə qədər əzizsən-əziz?
Müqəddəs, ülvisən, təmizsən-təmiz?
Dəryasan, ümmansan, dənizsən-dəniz?
Ay keçən günlərim, keçən günlərim.

Daim xəyalımda izin qalacaq,
Hənirin sönəndöy, közün qalacaq,
Ruhumu oxşayan sazın qalacaq,
Ay keçən günlərim, keçən günlərim.

Sən Cəmil Əkbərə xəyalsan, nəsən?
Qüssəsən, kədərsən, məlalsan nəsən?
Varımsan, yoxumsan, halımsan nəsən?
Ay keçən günlərim, keçən günlərim.

***Cəmil Əkbər*** 16. 02 – 1998

## 78. İNSANLIĞA SƏSLƏYİR

Məni odur ağrıdan, məni odur incidən,
Məni odur sızladan, məni odur göynədən.
Varlığımı sarsıdan, inildədən, sozaldan,
Fikirimi dağıdan, yerbəyerdən azaldan.
Dünən qurulanları, bu gün talan edirlər,
Dünən doğru olanı, bu gün yalan edirlər.
Dünən səcdə olana, bu gün təpik atırlar,
Künc-bucaqda qalana, bu gün çəpik çalırlar.
Dünən təzim olunan, bu gün yada salınmır,
Xatirəsi yad olub, bir könülü alınmır.
Dünən yoldaş olanlar, bu gün yoldaş sayılmır,
Yaxın sirdaş olanlar, bu gün sirdaş sayılmır.
Dünən zilə köklənib, zil üstündə ötənlər,
Bu gün pəsə düşübdür, bəm üstündə inləyir.
Düşüb əyər-əksiyə, kəm-kəsirdə dinləyir,
Yaraları qövr edib, gör necə də simləyir?
Dünən karlı görünən, bu gün karsız görünür,
Qol-butaqlı görünən, bu gün barsız görünür.
Bu məramla, qərarla, gör nə qədər vədəsiz,
Mərd igidə deyilir, az danışın gədə, siz!
Xəzanlara qərq olub, qönçələrdə solan var,
Gözü-könlü həsrətdə, yolda-izdə qalan var.
Heyif dövrü-zamanda, nanəcib var, naqis var,
Xainlərlə xəbislər, şeytanlar var, iblis var.
Məni odur incidən, dərdə salıb bezdirən,
Müsibətə, dəhşətə, hər əzaba dözdürən.
Məni o qəmləndirir, içməmiş dəmləndirir,
İşgəncədə inlədir, gör nələri dinlədir?
Ədəb-ərkan pozulur, düz tərsinə yozulur,
Ayaq altdan qazılır, bəxtə qara yazılır.
İnsaf-mürvət, kəramət, səxavət də danılır,

İnsanlıq gözdən düşür, ləyaqət də danılır.
Dünən üzə gülənlər, bu gün üzə gülməyir,
Tökülür sir-sifəti, qaşı-gözü gülməyir.
Sədaqətdən dəm vuran, bu gün dönük çıxırlar,
Vicdanları, məsləyi, yaman sönük çıxırlar.
Min bir səmtə üz tutub, gedib yönük çıxırlar,
El varına-halına, yaman ənik çıxırlar.
Dünən alim sayılan, bu gün nadan sayılır,
Tərbiyədən kəm-kəsir, azca dadan sayılır.
Məni budur ağrıdan, məni budur bezdirən,
Hər əzaba salaraq, çətinliyə dözdürən.
Yoxdur ayrı əngəlim, incikliyim, bezarım,
Yoxdur özgə fikirim, dərdi-sərim, azarım,
Yoxdur özgə kədərim, qəmim, qüssəm, qəhərim,
O səbəbdən qırılır, qol-qanadım, şahpərim.
Yerbəyerdən pozulur, məhəbbətim azalır,
Sağlam fikir arzular, pak niyyətim azalır.
Aşıb-daşır həryanda, giley-güzar, qeybət də,
Törədilən xətalar, bəlalar da, dəhşət də.
Yeri-göyü bürüyür, davalar da, dalaş da,
Çəkişmələr, didişmə, həyəcan da, təlaş da.
O səbəbdən pozulur, yer üzündə bu bəşər,
Hey vuruşur, çəkişir, ara vermir, xeyir-şər.
Bu minvalla, məramla, məmləkət gözdən düşür,
Bu hökümlə, qərarla, cəmiyyət gözdən düşür.
Xətir-hörmət pozulur, səmimiyyət qalmayır,
Təmiz arzu-istəklər, ülvi niyyət qalmayır,
Zəfərlərin təblini, çalasılar çalmayır.
Olasılar olmayır, olmayası olurlar,
Dolasılar boş qalır, dolmayası-dolurlar,
Solasılar gül açır, solmayası solurlar.
Gedəsilər getməyir, gələsilər gəlməyir,
Ağlayası ağlamır, güləsilər gülməyir.
Qalasılar qalmayır, qalmayası qalırlar,
Xətir-hörmət nə varsa, almayası alırlar.
Neyləyimki mən yazıq, çalmayası çalırlar?
Gör kimlərdi gülənlər, gör kimlərdi ağlayan?
Gör kimlərdi yas tutan, başa qara bağlayan?
Sulanası sulanıb, bitəsilər bitməyir,

Tapılası tapılıb, itəsilər itməyir.
Susasılar kirimir, susmayası susurlar,
Canavarlar sinirir, qusmayası qusurlar.
Enəsilər dururlar, enməyəsi enirlər,
Alışası alışmır, sönməyəsi sönürlər.
Yatasılar yatmayır, ayılası ayılmır,
El içində seçilib, sayılası sayılmır,
Adı-sanı, şöhrəti, yayılası yayılmır.
Gör həyatda nəqədər ləyaqətlər puç olur,
Dözüm-durum qalmayır, dəyanətlər heç olur.
Üzəsilər üzməyir, batmayası batırlar,
Oyanası oyanmır, yatmayası yatırlar.
Yıxılanın qolundan tutasılar tutmayır,
Dar günündə, məqamda, harayına çatmayır.
Gecələri gündüzə qatasılar qatmayır,
O səbəbdən çoxları, muradına çatmayır.

***Cəmil Əkbər*** 19. 09 – 1997

## 79. KÜSMÜŞƏM

Məni qınamasın dostlar, tanışlar,
Bu dövrandan, o zamandan küsmüşəm.[47]
Qəzəblər, qisaslar, o sərt baxışlar,
Bu sarvandan, o karvandan küsmüşəm.[48]

Satanlar-satırlar, alanlar alır,
Saralan-saralır, solanlar-solur,
Gözləri əllərdə qalanlar-qalır,
Bu bazardan, o dükandan küsmüşəm.[49]

Bezdirib zəhlələr tökənlər-tökür,
Sinəyə dağ-düyün çəkənlər-çəkir,
Dağıdan-dağıdır, sökənlər-sökür,
Bu fürsətdən, o imkandan küsmüşəm.[50]

---

[47] Bu dövrandan, bu zamandan küsmüşəm.
[48] Bu sərvandan, bu karvandan küsmüşəm.
[49] Bu bazardan, bu dükandan küsmüşəm.
[50] Bu fürsətdən, bu imkandan küsmüşəm.

Qəm-kədər çəkmədən gəzmək çətindir,
Səbr edib, tablaşıb, dözmək çətindir,
Dərya çox dərindir, üzmək çətindir,[51]
Bu lövbərdən, o sükandan küsmüşəm.[52]

Toxunub qəlbimə dəyənlər-dəyir,
Qazanan-qazanır, yeyənlər-yeyir,
Düzəldən düzəldir, əyənlər-əyir,
Bu sərsəri, o nadandan küsmüşəm. [53]

***Cəmil Əkbər*** 5.05 – 1996

## 80. İNCİMƏSİNLƏR

Oxuyanlar, eşidənlər, bilənlər,
Açıq söhbətimdən inciməsinlər.
İrad tutub hərzə-hərzə gülənlər,
Qəzəb, hiddətimdən inciməsinlər.

Söz acı olsa da, şirin anlasın,
Məzmunu-mətləbi dərin anlasın,
Dərk etsin məchulu, sirrin anlasın,
Haqdan, həqiqətdən inciməsinlər.

Sözlərim, söhbətim qəlbə dəyməsin,
Şah vüqarı, qamətləri əyməsin,
Eşidib bilənlər ona söyməsin,
Saf arzu-niyyətdən inciməsinlər.

Mənki sözlərimdən xalı toxudum?
Qırmızı bəzədim, alı toxudum?
Tirməni, atlası, şalı toxudum?
Məna-məziyyətdən inciməsinlər.

Hər sözüm-söhbətim ürəkdən gəlib,
Xoş arzu, istəkdən, diləkdən gəlib,
Elimə, xalqıma köməkdən gəlib,
Nəzər diqqətimdən inciməsinlər.

[51] Dərya təlatümlü, üzmək çətindir,
[52] Bu lövbərdən, bu sükandan küsmüşəm.
[53] Sərsəridən, bu nadandan küsmüşəm.

İstədimki qanmayanı qandırım,
Çəkib bəd işlərdən tez usandırım,
Hər könül mülkündə çıraq yandırım,
Nicat, nüsrətimdən incimənsinlər.

Sözlərim xalqıma xidmət üçündür,
Mənadır, məzmundur, hikmət üçündür,
Heçkəs sanmasınki nifrət üçündür,
Onun töhmətindən incimənsinlər.

Sözlərim gəlməsin heç kimə acı,
Ona qulaq assın, hər ana, bacı,
Hamının sözlərə vardır möhtacı,
Onun möhnətindən incimənsinlər.

Sözlər ərməğandır qanan kəslərə,
Böyüyü-kiçiyi sanan kəslərə,
Məqamı gələndə anan kəslərə,
Ülvi-məhəbbətdən incimənsinlər.

Vətənim naminə sözümü dedim,
Doğrusunu dedim, düzünü dedim,
Əllisini dedim, yüzünü dedim,
Bu nəcib xidmətdən incimənsinlər.

***Cəmil Əkbər*** 10. 06 – 1998

## 81. SƏN BACARDIN, MƏN BACARMADIM

Məqamı gələndə əyilə bildin,
Onu sən bacardın, mən bacarmadım.
Nifrətlə yad olub söyülə bildin,
Onu sən bacardın, mən bacarmadım.

Vicdanı-məsləyi ata da bildin,
Yaxşını-yamana qata da bildin,
Mərdləri-namərdə sata da bildin,
Onu sən bacardın, mən bacarmadım.

Abırı-isməti, həyanı atdın,
Halaldan kəsb olan mayanı atdın,
Namuslu, qeyrətli dayəni atdın,
Onu sən bacardın, mən bacarmadım.

Yolunu-izini azan sən oldun,
Ünsiyyət-ülfəti pozan sən oldun,
Doğrunu əyriyə yozan sən oldun,
Onu sən bacardın, mən bacarmadım.

Zaman dəyişdikcə dəyişdi halın,
Süzüldü bəhməzin, zülalın, balın,
Yeyildi dəymişin, töküldü kalın,
Onu sən bacardın, mən bacarmadım.

Mərhaba, üz-gözə irişə bildin,
Soxulub irəli, girişə bildin,
Civətək həryana sürüşə bildin,
Onu sən bacardın, mən bacarmadım.

Qarışqa yanında filə dönmüsən,
Kökəlib nəyaman hilə dönmüsən?
Çıxıb hədəqədən zilə dönmüsən,
Onu sən bacardın, mən bacarmadım.

Min sifət göstərdin bir an içində,
Bir məkan, bir zaman, dövran içində,
Yeyib eşələndin xırman içində,
Onu sən bacardın, mən bacarmadım.

Tamaha qul olub satıla bildin,
Nəfs bazarına qatıla bildin,
Məhəbbət mülkündən atıla bildin,
Onu sən bacardın, mən bacarmadım.

Bilmədin xətir nə, hörmət nə imiş?
Ar-namus nə imiş, qeyrət nə imiş?
Şərafət nə imiş, şöhrət nə imiş?
Onu sən bacardın, mən bacarmadım.

***Cəmil Əkbər*** 2. 05 - 1989

## 82. SEÇƏNMƏMİŞƏM

İlahi, nəyaman küt doğulmuşam?
Yaxşını yamandan seçənməmişəm.
Ağıldan, kamaldan qıt doğulmuşam?
Tüstünü dumandan seçənməmişəm.

Kar olub qulağım, yumulub gözüm,
Yorulub qollarım, tutulub dizim,
De, belə dərdlərə mən necə dözüm?
Damlanı ümmandan seçənməmişəm.

Hər yetən kəslərə bəli demişəm,
Ellərə, obaya vali demişəm,
İnsan övladının ləli demişəm,
Loğmanı, nadandan seçənməmişəm.

Hamını özümə qardaş bilmişəm,
Mehriban, səmimi yoldaş bilmişəm,
Tay-tuş anlamışam, çağdaş bilmişəm,
Qanmazı-qanandan seçənməmişəm.

Gözələm deyənə nökər olmuşam,
Qoşulub furqona, təkər olmuşam,
Nəyaman bu qədər bekar olmuşam?
Bəsdini Tamamdan seçənməmişəm.

Aldandım, inandım yağlı sözlərə,
Qatı açılmamış zağlı sözlərə,
Boğçası, düyünü bağlı sözlərə,
Məkanı zamandan seçənməmişəm.

Yalançı hay-küyə qarışıb başım,
Dağılıb fikirim, xəyalım, huşum,
Yetmişdən o yana addayıb yaşım,
Alimi çobandan seçənməmişəm.

Sözlərim, söhbətim elimdə qaldı,
Çox deyə bilmədim dilimdə qaldı,
Taxılım xırmanda, belimdə qaldı,
Arpanı samandan seçənməmişəm.

Nələr gəldi bu bəlalı başıma?
Düyün düşdü qabağıma, qaşıma,
Qayçı dəydi ömür-günə, yaşıma,
Bazarı dükandan seçənməmişəm.

Cəmil Əkbər varmayıbdı dərinə,
O səbəbdən bəla gəlir sərinə,
Hərkəsdəni qoyanmadı yerinə,
Yezidi imamdan seçənməmişəm.

***Cəmil Əkbər*** 17. 07 – 1998

## 83. HƏDƏR

Alan-almağında, satan-satmaqda,
Amandır ağrıtma başını hədər.
Üzən-üzməyində, batan-batmaqda,
Axıtma gözünün yaşını hədər.

Dirilən-dirilib, ölən-öləcək,
Eşidən-eşidib, bilən-biləcək,
Gedənlər gedəcək, gələn gələcək,
Çatma qabağını, qaşını hədər.

Cücərən-cücərib, bitən-bitəcək,
Tapılan-tapılıb, itən-itəcək,
Qaçanlar-qaçacaq, tutan-tutacaq,
Dağıtma fikrini, huşunu hədər.

Din-məzhəb itibdir, ara qarışıb,
Köpək qurdla, qurd köpəklə barışıb,
Yalquzaqlar sürülərə sırışıb,
Qabartma köksünü, döşünü hədər.

Ağlasan da, gülsəniz də belədir,
Gözyaşını silsəniz də belədir,
Qalsanız da, ölsəniz də belədir,
Gödəltmə ömrünü, yaşını hədər.

Əzilən-əzilir, əzənlər-əzir,
İnciyən-inciyir, bezənlər-bezir,
Darıxan-darıxır, dözənlər-dözür,
Qırırlar, tökürlər qoşunu hədər.

Nanəcib-nakəslə oturub-durma!
Ağrıdıb dilini, halını sorma!
Kişi ha deyildir hər bığıburma?
Qoyma yaxınına, naşını hədər.

Naxələf hardasa gözündən vurun,
Dilindən yapışın, sözündən vurun,
Başına tuşlayıb, dizindən vurun,
Böyüdüb-bəsləmə leşini hədər.

Cəmil Əkbər çox görübdür beləsin,
Tanımayıb, seçənməyib hiyləsin,
İnsaf edib çox götürüb şələsin,
Əbəsdir, yedirtmə aşını hədər.

***Cəmil Əkbər*** 20. 12 – 1995

## 84. YERSİZ TƏLƏBLƏR

Gör nəqədər ədavətə baissən?
Ay haqsız iddia, yersiz tələblər.
Xətalara, xəsarətə baissən?
Ay haqsız iddia, yersiz tələblər.

Nəqədər qəlbləri yaraladınız,
Qılıncsız, qalxansız paraladınız,
Qardaşı-qardaşdan araladınız,
Ay haqsız iddia, yersiz tələblər.

Nəqədər igidi zora saldınız,
Kəməndə atdınız, tora saldınız,
Özü də bilmədi hara saldınız?
Ay haqsız iddia, yersiz tələblər.

Nəqədər qapılar bağlatmısınız,
Sinələr üstünü dağlatmısınız,
Analar-bacılar ağlatmısınız,
Ay haqsız iddia, yersiz tələblər.

Nəqədər başların bəlası oldun?
Araqarışdıran çalası oldun?
Əvvəli-axırı solası oldun?
Ay haqsız iddia, yersiz tələblər.

İnsanı yolundan döndərən sənsən,
Zirvədən aşağı endirən sənsən,
Yanan çıraqları söndürən sənsən,
Ay haqsız iddia, yersiz tələblər.

Əlindən nəqədər dolaşdı getdi,
Ağı-qarasına bulaşdı getdi,
Öcəşdi, vuruşdu, dalaşdı getdi,
Ay haqsız iddia, yersiz tələblər.

Bəşər övladını pozduran sənsən,
Dağları-daşları gəzdirən sənsən,
Salıb müsibətə dözdürən sənsən,
Ay haqsız iddia, yersiz tələblər.

Mən Cəmil Əkbəri saldırdın haldan,
Düşürdün nəzərdən, saldırdın dildən,
Endirdin qüvvədən, saldırdın əldən,
Ay haqsız iddia, yersiz tələblər.

***Cəmil Əkbər*** 20.08 – 1987

## 85. ŞAİR QOCALDI

Deyirlər şairi qocaldan nədir?
Qəbahət gördükcə şair qocaldı.
İncidib, sarsıdıb, sozaldan nədir?
Cəhalət gördükcə şair qocaldı.

Ədalət naminə yazıb-yaradır,
Ağa-ağdı deyir, qara-qaradır,
Ülfəti pozduran, puldu-paradır,
Xəyanət gördükcə şair qocaldı.

Onu gümrah edən mehri-ülfətdir,
Duzlu-məzhəkəli, şirin söhbətdir,
Mehriban olmaqdır, səmimiyyətdir,
Ədavət gördükcə şair qocaldı.

Ona ilham verən məhəbbətdi bil,
Hər yerdə, hərzaman şərafətdi bil,
İnsanlıq naminə əlamətdi bil,
Zəlalət gördükcə şair qocaldı.

Onlar istəyir ki, mərhəmət olsun,
Ətiri-gülüstan, təravət olsun,
Hər ocaq başında hərarət olsun,
Xəcalət gördükcə şair qocaldı.

Arzusu budurki, dava olmasın,
Zəhərə qarışan hava olmasın,
Araqarışdıran yava olmasın,
Cinayət gördükcə şair qocaldı.

Əzəldən xoşlamır əzilən olsun,
Qatardan ayrılıb üzülən olsun,
İnləyib, sızlayıb sozalan olsun,
Şikayət gördükcə şair qocaldı.

Saxta astarlardan, saxta üzlərədən,
Saxta baxışlardan, saxta gözlərdən,
Saxta danışıqdan, saxta sözlərdən,
Bəyanat gördükcə şair qocaldı.

Şairlər istəyir şöhrət bol olsun,
Kəramət bol olsun, mürvət bol olsun,
Xətirlər çoxalsın, hörmət bol olsun,
Hörmət görməyəndə şair qocaldı.

Onu məftun edən alagözlərdir,
Şirin kəlamlardır, şirin sözlərdir,
Billur buxaqlardır, lalə üzlərdir,
Küdurət gördükcə şair qocaldı.

Onlar xoşlamayır çirkinlik olsun,
Lovğa, yekəxana, xudbinlik olsun,
İztirab törənən bədbinlik olsun,
Pis adət gördükcə şair qocaldı.

Onlar istəyir ki, səadət olsun,
Azadlıq bəxş olsun, bəraət olsun,
Harda yaxşılıq var, sirayət olsun,
Əziyyət gördükcə şair qocaldı.

Şairlər istəyir yer üzü gülsün,
Hər kəlmə, hər cümlə, hər sözü gülsün,
Karvanlar çaşmasın, yol-izi gülsün,
Müsibət gördükcə şair qocaldı.

***Cəmil Əkbər*** 5.02 -1996

## 86. SIĞMIR

Çoxalıb gədələr, oqədər artıb,
Obaya-oymağa, nə elə sığmır.
Vicdanı zədələr oqədər artıb,
Nə evə-eşiyə, nə çölə sığmır.

Xainlik-xəbislik verib əl-ələ,
Salıb ünsiyyətə yaman vəlvələ,
Qoymurki insanlıq əmələ gələ,
Dəryayi-ümmana, nə gölə sığmır.

Hiyləgər, dələduz, bic də çoxalıb,
İlqara-imana kəc də çoxalıb,
Sərsəri, kəmağıl, gic də çoxalıb,
Töksən də Kür, Araz, nə Nilə sığmır.

Saxtalıq həryanda tüğyan eyləyir,
Yolçunu-yolundan giryan eyləyir,
Yön alıb həryana, cəryan eyləyir,
Nə Muğan, Şirvana, nə Milə sığmır.

Bürüyüb həryanı alaqarğalar,
Mat qalıb bu işə qaraqarğalar,
Kəsibdir səsini niyə qırğılar?
Sığışmır bağçaya, nə kola sığmır.

Qiymətlər oqədər bahalaşıbkı,
Qəpiklər böyüyüb şahalaşıbkı,
Nadanlar, cahillər dahiləşibki,
Nə sözə-söhbətə, nə dilə sığmır.

Lovğa-yekəxana ədəbaz artıb,
Təlxəklik eyləyən kəndirbaz artıb,
Dondan-dona düşən modabaz artıb,
Tufana, borana, sazağa sığmır.

Kasıblar çoxalıb, kalanlar artıb,
Xəzana qərq olan, solanlar artıb,
Əllərdə-ayaqda qalanlar artıb,
Nə günə, nə aya, nə ilə sığmır.

Meydan verilibdir varlı-hallıya,
Dövlətli, sərvətli cah-calallıya,
Sərsəm düşüncəli min xəyallıya,
Nə xəzə bürünmür, nə tülə sığmır.

Cəmil Əkbər beləsinə nə desin,
Ağasına-köləsinə nə desin,
Dayəsinə, lələsinə nə desin,
Qucağa yerləşmir, nə ələ sığmır.

***Cəmil Əkbər*** 24.05 – 1992

## 87. SIĞMIRAM!

Dövrü-zəmanəmiz elə pozulub,
Zaman mənə, mən zamana sığmıram!
Ədalət, həqiqət elə yozulub,
Cahan mənə, mən cahana sığmıram!

Göylərə yüksəlib ahlar-amanlar,
Çoxalıb həryanda küsüb-umanlar,
Bürüyüb dağları qara dumanlar,
Duman mənə, mən dumana sığmıram!

Tutan deyil yaxşı ilə pisinki,
Xeyirxahla, bədxahınkı, nəsinki,
Mülayimlə-höcətinki, tərsinki,
Yaman mənə, mən yamana sığmıram!

Elə köklənmişəm, elə çalmışam,
Şair olub xəyallara dalmışam,
Elə çalxanmışam, elə dolmuşam,
Umman mənə, mən ummana sığmıram!

Ay Cəmil, hərənin öz yeri vardır,
Öz pünhan işləri, öz sirri vardır,
İncisi, sədəfi, öz zəri vardır,
Nadan mənə, mən nadana sığmıram!

***Cəmil Əkbər*** 29. 05 – 1994

## 88. QINAMIRAM

Ha danladım, qınadım, ha məzəmmət eylədim,
Nə nəsihət anladın, nə götürdün öyüdü!
Ha yalvardım-yaxardım, çox da minnət eylədim,
Nə bağ salıb, becərdin, nə bitirdin söyüdü!

Bircə nəzər salmadın, yol-ərkana, məssəbə,
Xəyalında bu olub, necə çatım mənsəbə.
Oyan-buyan nə lazım, qoy düz keçim mətləbə,
Nə molladan dərs aldın, nə eşitdin seyidi!

Nə ölənə yaradın, nə qalana yaradın,
Nə gedənə yaradın, nə gələnə yaradın,
Nə ağlayan tanıdın, nə gülənə yaradın,
Nə diridən çəkindin, nə pəsindin meyidi!

Ha yüyürdün, ha yortdun, ha vurnuxdun, çalışdın,
Ha isinib qızışdın, ha od alıb alışdın,
Torpaqlara tər töküb, toz-torpağa qarışdın,
Nə keşnişdən baş açdın, nə tanıdın şüyüdü!

Doğru fikri əyriyə ha çevirdin, ha yozdun,
Ünsiyyəti-ülfəti korlayaraq ha pozdun,
Ha dərk etdin, öyrəndin, ha düşündün, ha yazdın,
Nə tumları anladın, nə tanıdın çiyidi!

Hər yetənlə oturub, hər yetənlə durdun da,
Qayğısını çəkərək, əhvalını sordun da,
Əbəs yerə cəhd edib, sən özünü yordun da,
Nə gədanı seçmədin, nə tanıdın iyidi!

***Cəmil Əkbər*** 23. 12 – 1987

## 89. VİCDANIKƏM OLANLAR

Əli-ələ verdilər, dili-dilə verdilər,
Hiylələri-hiyləyə, feli-felə verdilər,
Himi-himə verdilər, cimi-cimə verdilər,
Səsi-səsə verdilər, ünü-ünə verdilər.
Orda başa çəkildi, burda başa çəkildi,
Cəhənnəmdə, cənnətdə, gorda başa çəkildi.
Beylə keçdi ayları, beylə keçdi günləri,
Beylə keçdi dövranı, beylə keçdi illəri.
Yerlibazlıq çoxaldı, qohumbazlıq çoxaldı,
Nəsilbazlıq yarandı, tayfabazlıq çoxaldı.
Lovğalıqlar baş aldı, ədəbazlıq baş aldı,
Modabazlıq baş aldı, hoqqabazlıq baş aldı,
Əxlaqsızlıq çoxaldı, arvadbazlıq baş aldı.
Həyasızlıq, sırtıqlıq, ayaq aldı, yeridi,
Abırsızlıq, şıltaqlıq, eli tamam bürüdü.
Hiyləgərlik yayıldı, müftəxorluq yayıldı,
Oğru-əyri çoxaldı, ziyankarlıq yayıldı.
Gör bir nələr eylədi, vicdanı-kəm olanlar,
Taxtabiti yuvası, anadan dəm olanlar.

Birbirinə söykənib, yaman həyan oldular,
Başqasını yad bilib, ilan, çayan oldular.
Çaldı-çapdı bu eli, xalqı talan eylədi,
Yerlilərdən kim varsa, onu kalan eylədi.
Bir-birilə fəxr edib, qürrələndi, öyündü,
Arxalandı dayıya, nəkivarsa söyündü?
Əl-ayağı tutduqca, vəzifəyə soxuldu,
Əfi-ilan nəki var çalıb-çapan çoxaldı.
Ayağının altını, seçənmədi gözləri,
Bir-birinin yanında daşdan keçdi sözləri.
Xalqı bədnam eyləyib, pis günlərə qoydular,
İflic etdi hamını, nəs günlərə qoydular.
İnsaf-mürvət tükəndi, namus-qeyrət qalmadı,
Ünsiyyətdə-ülfətdə, təmiz hörmət qalmadı.
Ədalətdən soraq yox, həqiqətdən əlamət,
Kəramətdən nişanə, sədaqətdən məlumat.
Doğru döndü yalana, oğru döndü kalana,
Çoban oldu "münəccim", alim döndü çobana.
Çirkin döndü gözələ, gözəl döndü çirkinə,
Xudbin döndü sadəyə, sadə döndü xudbinə.
Ağa qara deyildi, qaraya ağ deyildi,
Bağlar kol-kos göründü, kol-kosa bağ deyildi.
Beylə büsat eylədi, vicdanıkəm olanlar,
Taxtabiti yuvası, anadan dəm olanlar.

***Cəmil Əkbər*** 26.08 - 1988

## 90. ELƏ BAĞLIDIR

El-obaya bağlıdır, hər kefimiz, qəmimiz,
Bu kök üstə köklənib, hər zilimiz, bəmimiz.
Bəşər oğlu güləndə, mən də gülə bilmişəm,
Gözyaşını siləndə, mən də silə bilmişəm.
O düşəndə zəhmətə, mən də kədərlənmişəm,
İçin-için inləyib, mən də qəhərlənmişəm.
Onun üzü güləndə, mən də dağa dönmüşəm,
Qönçələrim gül açıb, barlı-bağa dönmüşəm.
O zirvədən enəndə, mən də endim onunla,
O qaralıb sönəndə, mən də söndüm onunla,
O yaradıb quranda, mən də qurdum onunla,
O oyanıb duranda, mən də durdum onunla.

O səmaya uçanda, mən də qanad almışam,
İşlərində, gücündə, mən də nicat almışam,
O çəkəndə əzabı, mən də düşdüm fəryada,
Üzüb çıxa bilmədim, gəmim qaldı dəryada.
O düşəndə çətinə, mən də dara düşmüşəm,
İlişərək kəməndə, mən də tora düşmüşəm.
O çovğuna düşəndə, mən də qara düşmüşəm,
Gədiklərdə bataraq, mən də tara düşmüşəm.
Ondan ayrı kənarda, bir an beylə olmadım,
Bəyə, xana, soltana, gedib kölə olmadım.
Nədən yazdım, dedimsə, söhbətim də onundur,
Gileylərim, güzarım, möhnətim də onundur.
Olan-qalan nə varsa, hörmətim də onundur,
Nəcib arzu-istəyim, niyyətim də onundur.
Nəzərlərim, baxışım, diqqətim də onundur,
Ürəkdəki təpərim, riqqətim də onundur.
Dəhşətim də onundur, heyrətim də onundur,
İşlədiyim peşə də, sənətim də onundur,
Nəki şərəf-şanım var, şöhrətim də onundur.
Nədən yazdım, dedimsə, cümlələrim onundur,
Yazılarım, pozum da, kəlmələrim onundur,
Arğaclar da, əriş də, ilmələrim onundur,
Müxəmməsdə, qoşmada, bölmələrim onundur.
Qəzəllərim, gəraylım, dastanım da onundur,
Becərilən, bəslənən, bostanım da onundur.
Eldən aldım qüvvəti, dizimdəki taqəti,
Ürəkdəki həyəcan, gözümdəki heyrəti.
Fikrimdə, xəyalımda, sözümdəki nuru da,
Mərd-mərdanə gəzdiyim vüqarı, qüruru da,
Eldən aldıb topladım, kamalımda cövhəri,
Əqidəmdə, məsləkdə, amalımda cövhəri.

***Cəmil Əkbər***

## 91. HEÇ XOŞLAMADIM

Hayana baxırsan yaltaq bürüyüb,
Mən belə dünyanı heç xoşlamadım.
Abırsız, ismətsiz sırtıq bürüyüb,
Mən belə dünyanı heç xoşlamadım.

Cahili, qanmazı, nadanları var,
Yolunu tərsinə adanları var,
Təlimdən kəm-kəsir dadanları var,
Mən belə dünyanı heç xoşlamadım.

Ünsiyyət-ülfətdə yalan oqədər,
Dağıntı, söküntü, talan oqədər,
İblislər, əqrəblər, ilan oqədər,
Mən belə dünyanı heç xoşlamadım.

Ləyaqət əhlinə pisdi deyirlər,
Zalımdı, bədxahdı, nəsdi deyirlər,
Qızıla, gümüşə misdi deyirlər,
Mən belə dünyanı heç xoşlamadım.

Bu qədər qulağı kar olan varmış,
Gözləri görsədə kor olan varmış,
Tərlan yuvasında sar olan varmış,
Mən belə dünyanı heç xoşlamadım.

Nəqədər istəsən dönükləri var,
Vicdanı-məsləyi sönükləri var,
Hər səmtə üz tutan yönükləri var,
Mən belə dünyanı heç xoşlamadım.

Söz də kar eyləmir qəlbidaşlara,
Filə hücum çəkən alabaşlar,
Ağıldan dayaza, fikri çaşlara,
Mən belə dünyanı heç xoşlamadım.

Bürüyüb həryanı bic oğlu biclər,
İlqara, imana kəc oğlu kəclər,
Haqqa-ədalətə öc oğlu öclər,
Mən belə dünyanı heç xoşlamadım.

Haçandır törəyir qal-qovğa, dava,
Zəhərə qarışır tərtəmiz hava,
Çoxalır sərsəri, gicbəsər, yava,
Mən belə dünyanı heç xoşlamadım.

Abırsızı, həyasızı azalmır,
Əqidəsiz, qayəsizi azalmır,
Tərbiyəsi kəm dayəsi azalmır,
Mən belə dünyanı heç xoşlamadım.

Dövrü-zəmanənin vəfası yoxdur,
İnsanın-insana cəfası çoxdur,
Sözü tikan, fikri, qafası oxdur,
Mən belə dünyanı heç xoşlamadım.

Cəmiləm istərəm ürək saf olsun,
Arzular saf olsun, dilək saf olsun,
Əsirsə qoy əssin, külək saf olsun,
Bulanlıq dünyanı heç xoşlamadım.
Mən belə dünyanı heç xoşlamadım.

***Cəmil Əkbər*** 30. 10 – 1995

## 92. MƏFTUNAM

Əzəl gündən, ibtidadan, haqsızlıqla yox aram,
Harda varsa doğru-düzlük, həqiqətə məftunam.
Biganəni, laqeyidi harda görsəm sızlaram,
Qoyn bilsin bunu hamı, ədalətə məftunam.
Cahillərdən, nadanlardan usanmışam, bezmişəm,
İnsanlığa rövnəq verən, ləyaqətə məftunam.
Çoxlarının hədər yerə cəfasına dözmüşəm,
Harda varsa mehri-ülfət, ünsiyyətə məftunam.
Uzaq durub, gen dolandım, xəbislərdən əbədi,
Ədəb-ərkan, mərifətə, nəzakətə məftunam.
Haqq-sayı sümürəndən, udanlardan uzağam,[54]
Səxavətə, kəramətə, sədaqətə məftunam.
Xainlikdən, xəbislikdən, küdurətdən gendəyəm,[55]
Könüllərə ilham verən, məhəbbətə məftunam.
Ha çalışdım uzaq olum, davalardan-dalaşdan,
Gözəl günlər, xoş dövranlar, səadətə məftunam.
Ellər bunu yaxşı bilir, tək əlin də səsi yox,

---

[54] Haqq-sayı sümürəndən, udanlardan usandım.

[55] Xainlikdən, xəbislikdən, küdurətdən qaçmışam.

Bəşər oğlu bu xilqətə, cəmiyyətə məftunam.
Zalımlığı, qəddarlığı, ömürboyu sevmədim,
Xeyirxahlıq, fəzilətə, bu adətə məftunam.
Soyuqluqda həyat donur, cana gəlmir təbiət,[56]
Ürəklərə təpər verən, hərarətə məftunam.
Cəmil Əkbər mütilikdən, birdəfəlik uzaq ol,[57]
Bacarığa, fərasətə, məharətə məftunam.

***Cəmil Əkbər*** 24.10 -1993

## 93. GƏLİNLƏR!

Taleyinin günəşini o doğub,
Qaynanayla iyəşməyin gəlinlər!
Məhəbbətin atəşini o doğub,
Qaynanaya sataşmayın gəlinlər!

Gecə-gündüz qayğı çəkən atadır,
Təbiətdən bəxş olunmuş ətadır,
Sanmayın ki, başınıza xətadır,
Qaynatayla öcəşməyin gəlinlər!

Qardaşları birbirindən ayırma,
Zəhlə töküb canlarına doyurma,
Su çıxmayan arxa cuvar buyurma,
Baldızlarla deyişməyin gəlinlər!

Abır-həya, isməti də gözləyin,
Təmiz adı, xisləti də gözləyin,
Ar-namusu, qeyrəti də gözləyin,
Qonşularla ötüşməyin gəlinlər!

Sadiq olun sizi sevən ərlərə,
Qəsd etməyin igidlərə, nərlərə,
Qiymət verin incilərə, zərlərə,
Hər yetənlə sevişməyin gəlinlər!

---

[56] Soyuqluqda su da donur, cana gəlmir təbiət.
[57] Cəmil Əkbər mütilikdən, birdəfəlik kənardır.

Cəmil Əkbər sizə tutub üzünü,
Yazdı bu şeiri, dedi sözünü,
İtirmə əqlini, yumma gözünü,
Eltilərlə çəkişməyin gəlinlər!

***Cəmil Əkbər*** 26. 10 – 1987

## 94. SEÇİLƏNMƏYİB

Dünyada nəqədər səhv edilibdir,
Yaxşılar-yamandan seçilənməyib.
Nəqədər istedad məhv edilibdir,
Tüstülər-dumandan seçilənməyib.

Nəqədər fürsəti vermişik fota,
Qəflət yuxusunda hey yata-yata,
Aranı-bərəni hey qata-qata,
Məkan da, zaman da seçilənməyib.

Əlinin yerinə Vəli qoyulub,
Aqilin yerində dəli qoyulub,
Yalan ha deyildir, bəli qoyulub,
Qananlar-qanmazdan seçilənməyib.

Bəşər övladını gözü aldadıb,
Cığırı, yolağı, izi aldadıb,
Oğulu aldadıb, qızı aldadıb,
Arpa da samandan seçilənməyib.

Dünyada nəqədər küt olub bəşər,
Müqəvvasayağı büt olub bəşər,
Əqildən, kamaldan lüt olub bəşər,
Dəniz də, ümman da seçilənməyib.

Cahanda nəqədər davalar olub,
Zəhərə qarışmış havalar olub,
Əqli-kəmlər olub, yavalar olub,
Qananlar nadandan seçilənməyib.

Nəqədər yaxşıya pisdi deyilib?
Höcətdi, inaddı, nəsdi deyilib?
Qızıla, gümüşə misdi deyilib?
İncilər sədəfdən seçilənməyib.

Görən gözlər görə-görə kor olub,
Qulaqlar da eşitməyib kar olub,
O səbəbdən bu gen dünya dar olub,
Mərdlər də namərddən seçilənməyib.

Nəqədər yaşadıq, yaratdıq qurduq?
Çalışdıq, vuruşduq özünü yorduq?
Məclislər başında oturduq, durduq?
Doğrular yalandan seçilənməyib.

Dünyada nəqədər keylər var imiş?
Gicbəsər, kəmağıl, səylər var imiş?
Yalançı, qondarma bəylər var imiş?
Gözəllər çirkindən seçilənməyib.

Məhəl qoyulmayıb kamala, başa,
Tutulan qabağa, çatılan qaşa,
Sarsılan xəyala, dağılan huşa,
Sadələr xudbindən seçilənməyib.

Baş aça bilmədik divanəlikdən,
Əhli-kef, laqeyid biganəlikdən,
Odlara qərq olan pərvanəlikdən,
Bədbinlər nikbindən seçilənməyib.

Nəqədər olubdur vədəsiz ölən?
Bədəni sağikən zədəsiz ölən?
Əl-ayaqda səssiz-sədasız ölən?
Girlilər girsizdən seçilənməyib.

Həyatda nəqədər bezən olubdur?
Səbr edib, tablaşıb, dözən olubdur?
Avara dolanan gəzən olubdur?
Fərlilər-fərsizdən seçilənməyib.

Dünya cənnət olub varlı-hallıya,
Dövlətli, sərvətli cah-calallıya,
Hiyləgər, dələduz, bic xəyallıya,
Arlılar-arsızdan seçilənməyib.

Hər yetən gədəyə ləl də verildi,
Dəstələr bağlandı, gül də verildi,
Mixək də, darçın da, hil də verildi,
Kişilər gədadan seçilənməyib.

Bu qədər deyinmə ay Cəmil Əkbər,
Öldürər səni də, çəkmə qəm, kədər,
Deyinmə qardaşım havayı, hədər,
Ayaqlar başlardan seçilənməyib.

***Cəmil Əkbər*** 9. 2 - 1992

## 95. HEYİF

Dünyada nəqədər söz deyilsə də,
Yol tapa bilmədi key başa, heyif.
Atılıb hədəfə düz deyilsə də,
Çatmadı kəmağıl, səy başa heyif.

Qaldı kitablarda əsər etmədi,
Bir fayda vermədi, səmər etmədi,
Ovxara gətirib, kəsər etmədi,
Sərsəri, kütbeyin, zay başa heyif.

Addımbaşı qanımızı qaraltdı,
Gen dünyanı başımıza daraltdı,
Xəzan olub bağımızı saraltdı,
Nə deyim, danışım, çiy başa heyif.

Nəqədər vaxt keçib, zaman ötdüsə,
Qaralıb buludlar, duman ötdüsə,
Xəyal aləmindən güman ötdüsə,
Düşüncə gəlmədi piy başa heyif.

***Cəmil Əkbər*** 6.11 -1993

## 96. GƏZDİ

Nəqədər istədim yoldaşlıq olsun,
Gəlmədi yaxına, aralı gəzdi.
Dostluq, mehribanlıq, qardaşlıq olsun,
Oralı axtardı, buralı gəzdi.

Şeytanlar, iblislər aranı vurdu,
Min hiylə işlədib, torunu qurdu,
Gizlənib, xəlvətdə kənarda durdu,
Qəlbi xoflu gəzdi, qaralı gəzdi.

Biri digərinin qəlbinə dəydi,
Sandıki, əzəldən bəy oğlu bəydi,
Bədəməl önündə gözünü döydü,
Aldı zərbəsini, yaralı gəzdi.

Sanmadı insanı bir yoldaş kimi,
Nə tay-tuş, həmfikir, nə çağdaş kimi,
Nə vətən övladı, vətəndaş kimi,
Axtardı, aradı, haralı gəzdi.

İnsan bir-birini əzdi qurtardı,
İncidi-incitdi, bezdi qurtardı,
Əlini-əllərdən üzdü qurtardı,
Dərildi bostantək, uralı gəzdi.

***Cəmil Əkbər*** 6. 06 – 1993

## 97. GƏZİRSƏN

Əzəl gündən mətləbini desənə,
Aralığı qata-qata gəzirsən.
Qoy versinlər zəhər sənə, yesənə,
İnsafını ata-ata gəzirsən.

Bir yaxşı söz eşidən yox dilindən,
Bir yaxşı iş heç görən yox əlindən,
Xoş ətiri qoxuyan yox gülündən,
Günahlara bata-bata gəzirsən.

Bilmirsənmi yaxşı nədir, pis nədir?
Xeyirxah kim, bədxah kimdir, nəs nədir?
Qızıl nədir, gümüş nədir, mis nədir?
Ucuz-baha sata-sata gəzirsən.

Xəbərin yox dayazlardan dərindən,
İstilərdən, bürkülərdən, sərindən,
Əməlinin zərərindən, şərindən,
Qəflətlərdə yata-yata gəzirsən.

Qoruq yoxdur, qaytaq yoxdur sözündə,
Abır yoxdur, həya yoxdur üzündə,
Heç bir günah görməyirsən özündə,
Qırıq neytək ötə-ötə gəzirsən.

Kimdi deyən yaradansan, quransan?
Gecə gec yatansan, tezdən duransan?
Xalq şəninə hey özünü yoransan?
Ona-buna bata-bata gəzirsən.

Bədxahlıqdan çox almışıq sədanı,
Yersiz-yersiz sorağını, ədanı,
Səni doğan özü alsın qadanı,
Şər işləri tuta-tuta gəzirsən.

Əməllərin tay-tuşlara bəllidir,
Qohumlara, qardaşlara bəllidir,
Həmkarlara, sirdaşlara bəllidir,
Başın dolu xəta-xəta gəzirsən.

Hərbir kəsin əsəbini korladın,
Qan qaraldıb hissimizi zorladın,
Onu-bunu bəyənmədin xorladın,
Qaş-qabağı çata-çata gəzirsən.

Cəmiləm istərəm demiyəm adın,
Bilsələr utanar qohumun, yadın,
Ərşə çıxar ah-amanın, fəryadın,
Kol-kos kimi bitə-bitə gəzirsən.

***Cəmil Əkbər*** 6.06 – 1989

## 98. QƏLBİNİ!

İncitmə qardaşım incə qəlbimi,
Qısqayıb atmayın küncə qəlbimi,
Qoymuşam zamandır dincə qəlbimi,
Toxunub qırarlar əyyaş qəlbini!

Gəl qanmaz anlama, qanan qəlbimi,
Axtarıb, arayıb, anan qəlbimi,
Eşqin atəşinə yanan qəlbimi,
Toxunub qırarlar o daş qəlbini!

Məhəbbət naminə doludur qəlbim,
Dərya, dəniz kimi suludur qəlbim,
Dünya incisinin ləlidir qəlbim,
Toxunub qırarlar o boş qəlbini!

Əqidəm, məsləyim yerbəyer düzdür,
Xətirim, hörmətim pakdır, təmizdir,[58]
Bu həyat karvanı yaman qəlizdir,
Toxunub qırarlar o çaş qəlbini!

Sağlamdır düşüncəm, durudur qəlbim,
Şəffafdır, parlaqdır, qurudur qəlbim,
Odlu, hərarətli, nurludur qəlbim,
Yandırıb-yaxarlar o yaş qəlbini!

***Cəmil Əkbər***

## 99. MEHRİBAN

Ay əziz İlqarım, ay Şəkər xanım,
Yaşayın mehriban, qurun mehriban.
And-aman edirəm siz mənim canım,
Oturun mehriban, durun mehriban.

[58] Əməlim sözümlə bil üzbəüzdür.

Həyatda mənanı zəhmətdə görün,
Xalqına etdiyin xidmətdə görün,
Şərafətdə görün, şöhrətdə görün,
Dövranını yaxşı sürün mehriban.

Qəzəb nədir, hiddət nədir bilməyin,
Qüssə nədir, möhnət nədir bilməyin,
Cəza nədir, şiddət nədir bilməyin,
Ömür-günü başa vurun mehriban.

Birbirinə az da olsa qəsd etmə,
Yeməmişdən, içməmişdəm məsd etmə,
Cahilliyi özün üçün dost etmə,
Düz düşünüb, doğru görün mehriban.

Halal zəhmətinlə nə tapsan geyin,
Ədalan, sədalan, lovğalan, öyün,
Biri-birinizi hörmətlə sevin,
Alqumaş, zərxara bürün mehriban.

Bir-birinin xatirinə dəyməyin,
Vaxt-vədəsiz qamətini əyməyin,
Bəd danışıb ünvanına söyməyin,
Düşünün, dərk edin, görün mehriban.

Məhəbbətdən dürlü-dürlü bağ salın,
Becərin, bəsləyin qeydinə qalın,
Onun meyvəsindən min ilham alın,
Əyib budağını, dərin mehriban.

Oxuyub, öyrənib faydalanın siz,
Onun kölgəsində daldalanın siz,
Bir xeyir götürüb qaydalanın siz,
Mənə də bir fayda verin mehriban.

***Cəmil Əkbər*** 2. 12 – 1991

## 100. DÜNƏN BU GÜN

Dünən gör kim idik, bu gün gör kimik?
İndi kökdən düşən, qırıq simlərik.
Dünən yoldaş idik, qardaş idik biz,
Həryanda həmfikir, sirdaş idik biz.
Fikirdə, xəyalda əlbir idik biz,
Sözlə bütöv idik, dilbir idik biz.
Yetişib çatırdı əlimiz-ələ,
Salırdıq aləmə yaman vəlvələ.

Könül diyarında mürvət var idi,
Mənəvi gözəllik, sərvət var idi.
Hamı birbirinə dada çatırdı,
Qohuma-qardaşa, yada çatırdı.

Hayana baxırdın səadət idi,
Gözəl ənənəydi, xoş adət idi.
Mehri-ülfət idi, hərəkət idi,
Düha sahibinə ibadət idi.

Qəpik də, quruş da işə düşürdü,
Ürəyə yatırdı, döşə düşürdü.
Hamı qatlanırdı zəhmətə, işə,
Heçkəs düşməyibdi qorxu-təşvişə,
Yaraşıq verirdi dövrü-gərdişə.
Xidmətdən gəlirdi bəşərin səsi,
İncidə bilməzdi heçkəs-heçkəsi.
Sözlərdə-söhbətdə yalan az idi,
Dağılan, sökülən, talan az idi.
Saralan az idi, solan az idi,
Gözləri qan-yaşla dolan az idi.
O zaman kim idik, indi gör kimik?
Dünən gör kim idik, bu gün gör kimik?

İndi qurşanmışıq alış-verişə,
Yaramır iş-gücə, nə sənət, peşə.
Ünsiyyət pozulub, ülfət pozulub,
Danışıq pozulub, söhbət pozulub,

Cəmiyyət çaşıbdır, millət pozulub,
Nəzarət pozulub, diqqət pozulub.

Hər addımbaşında qəbahət artıb,
Küdurət çoxalıb, ədavət artıb,
Gileylər, güzarlar şikayət artıb,
Xainlik, xəbislik, xəyanət artıb.
Dünən gör kim idik, bu gün gör kimik?
İndi kökdən düşən, qırıq bir simik.

O zaman ülfətdə vəfa var idi,
Sürməyə nə gözəl səfa var idi.
Kamal işləyirdi, baş işləyirdi,
Kotan işləyirdi, xış işləyirdi,
Xəyal işləyirdi, huş işləyirdi,
Payız nə, yaz nədir, qış işləyirdi.

İndiki zamanda kütləşib hamı,
Dönüb müqəvvaya, bütləşib hamı.
Hamı bir-birini soyha-soydadır,
Düşüb qan-qarğışa, ahı-vaydadır.
Biri zəhər yeyir, biri bal yeyir,
Biri dəymiş yeyir, biri kal yeyir.

O zaman kim idik, bu gün gör kimik,
İnləyən, sızlayan, qırıq bir simik,
O zaman eyləydik, bu gün beyləyik,
Onda doğru-dürüst, indi hiyləyik.

***Cəmil Əkbər***

## 101. ÇATMAYAN

Yer üzündə nə desəniz bəs eylər,
Ədalətdi, həqiqətdi çatmayan.
Nə içsəniz, nə yesəniz bəs eylər,
Ehtiramdı, nəzakətdi çatmayan.

Dünyada oqədər çağdaş görmüşəm?
Həmkarlar, həmdəmlər, sirdaş görmüşəm?
Vəfalı, vəfasız yoldaş görmüşəm?
Sədaqətdi, səxavətdi çatmayan.

Nanəciblik, naqisliklər oqədər?
Xainliklər,  xəbisliklər oqədər?
Tamahkarlıq, harisliklər oqədər?
Təmiz arzu, saf niyyətdir çatmayan.[59]

Yekəxana, ədəbazlar oqədər?
Kəndirbazlar, oyunmazlar oqədər?
Bədgümanlar, hoqqabazlar oqədər?
Ədəb-ərkan, mərifətdi çatmayan.

Alimləri, loğmanları az deyil,
Küsənləri, umanları az deyil,
Haqq görüncə gözyumanlar az deyil,
İnsanlıqdı, ləyaqətdi çatmayan.[60]

Hayana baxırsan dəllal çoxalıb,
Sələmçi tacirlər, baqqal çoxalıb,
Həyasız, ismətsiz naqqal çoxalıb,
Kəllədarlar, ziraətdi çatmayan.

Əyri yolla vara çatan çoxalıb,
Şər danışıb, araqatan çoxalıb,
Orda-burda bəd iş tutan çoxalıb,
Xeyirxahlıq, fəzilətdi çatmayan.

---

[59] *II variant*

Nanəciblər, naqislərdən doymuşuq,
Xainlərdən, xəbislərdən doymuşuq,
Tamahkarlar, harislərdən doymuşuq.
Təmiz arzu, saf niyyətdir çatmayan.

[60] *II variant*

Nə alimlər, nə loğmanlar az deyil,
Nə küsənlər, nə umanlar az deyil,
Görə-görə gözyumanlar az deyil,
İnsanlıqdı, ləyaqətdi çatmayan.

Oqədərdi adı-sanı olanlar,
Daşı-qaşı, gövhər-kanı olanlar,
Bir-bir deyim, sən də tanı, olanlar,
Şan-şöhrətdi, şərafətdi çatmayan.

Vətənimin nazirləri oqədər?
Vəkilləri, vəzirləri oqədər?
Döşürməyə hazırları oqədər?
İqtidardı, sədarətdi çatmayan.

Hayana baxırsan dava-dalaşdır,
Həyəcan, səksəkə, qorxu təlaşdır,
Tutulan qabaqdır, çatılan qaşdır,
İnsaf-mürvət, kəramətdi çatmayan.

Giley-güzar, şikayətdən bezmişik,
İçin-için özümüzü üzmüşük,
Sinə gərib hədər yerə dözmüşük,
Məna dolu məziyyətdi çatmayan.

Abırsız, ismətsiz sırtıqlar artıb,
Ellərin varına ortaqlar artıb,
İnsan cərgəsində artıqlar artıb,
Şücaətdi, fərasətdi çatmayan.

Qəlbimizi sızıldadır zədələr,
Yerli-yersiz qorxu, hürkü, hədələr,
İpə-sapa yatmayırlar gədələr,
İbadətdi, itaətdi çatmayan.

Gör nəqədər tay-tuş, çağdaş gedibdir?
Vəfalı dost-tanış, yoldaş gedibdir?
Həmkarlar, həmdəmlər, sirdaş gedibdir?
Həmdərd əhli, həmsöhbətdi çatmayan.

Gör nəqədər ürəklərdə kin yatır?
İblis, əqrəb, şeytan yatır, cin yatır?
Qulqaları dəng eyləyən ün yatır?
Ülvi istək, məhəbbətdi çatmayan.

Yersiz sözdən qulağımız dəng olub,
Gücdən düşüb, haldan düşüb, təng olub,
Gör nəqədər qərar çıxır, zəng olub?
Doğru-düzgün bəyanatdı çatmayan.

Doğulub törəyən, yeyənlər artır,
Bəzənib, düzənib geyənlər artır,
Düzələn işləri əyənlər artır,
Süfrəmizdə bərəkətdi çatmayan.

Bəşər oğlu pis günləri çox görüb,
Bədxah günü, nəs günləri çox görüb,
Höcət, inad, tərs günləri çox görüb,
Gözəl günlər, səadətdi çatmayan.

***Cəmil Əkbər*** 5. 08 – 1996

## 102. LƏYAQƏTLƏNİB

Sağlığında bir yol kara gəlməyən,
Öləndə nəyaman ləyaqətlənib?
Yetişib meyvəsi bara gəlməyən,
Öləndə nəyaman lətafətlənib?

Hamıdan eybəcər, çirkin görünən,
Lovğa, yekəxana, xudbin görünən,
Tərini tökmədən, nikbin görünən,
Öləndə nəyaman məlahətlənib?

Sağikən xeyirə, şərə yaramaz,
Yaran qövr etsədə gəlib sarımaz,
Ülfət edib dost-tanışı aramaz,
Öləndə nəyaman səxavətlənib?

Adı-sanı el-obada tanınmaz,
Yüz il keçsə yada düşməz, unanmaz,
Abır edib, həya edib utanmaz,
Öləndə nəyaman məharətlənib?

Ünsiyyət-ülfəti soyuq olanlar,
Bir quru müqəvva, oyuq olanlar,
İnsan qiyafədə toyuq olanlar,
Öləndə nəyaman hərarətlənib?

Məsləyi, vicdanı sönük olanlar,
İlqara, imana dönük olanlar,
Hər səmtə üz tutub yönük olanlar,
Öləndə nəyaman sədaqətlənib?

Sağikən hamıdan xəsis olanlar,
Nanəcib, naxələf xəsis olanlar,
Tamahkar olanlar, həris olanlar,
Öləndə nəyaman şərafətlənib?

Sağikən bir dəfə haya gəlməyən,
Döyüb sinəsinə vaya gəlməyən,
Sadə ünsiyyətə, çaya gəlməyən,
Öləndə nəyaman fərasətlənib?

Sağlığında bir yol yada düşməyən,
Bir tama gəlməyən, dada düşməyən,
Qohum ünvanına, yada düşməyən,
Öləndə nəyaman nəzarətlənib?

Ömründə xalqına yaramayanlar,
Dar günə düşəndə aramayanlar,
Telini düzəldib daramayanlar,
Öləndə nəyaman xəcalətlənib?

Sağikən qəlbləri abad etməyən,
Yetib dar günlərdə imdad etməyən,
Həyəcana düşüb, fəryad etməyən,
Öləndə nəyaman cəsarətlənib?

***Cəmil Əkbər*** 20. 09 – 1996

## 103. XƏBƏR YOX

Aman Allah nə zəmanə gəlibdir?
Haq-divandan, ədalətdən xəbər yox.
Nə laqeyid, nə biganə gəlibdir?
Doğru-düzlük, həqiqətdən xəbər yox.

Ayıran yox yaxşıları pislərdən,
Xeyirxahı bədxahlardan, nəslərdən,
Mehribanı inadlardan, tərslərdən,
İnsanlıqdan, ləyaqətdən xəbər yox.

Ünsiyyət-ülfətlər pozulub gedir,
Doğruluq tərsinə yozulub gedir,
Xətir də, hörmət də azalıb gedir,
Ədəb-ərkan, nəzakətdən xəbər yox.

Söz əsər etməyir başıboşlara,
Vicdanıkəmlərə, qəlbidaşlara,
Yaltaq tulalara, alabaşlara,
Saf arzudan, pak niyyətdən xəbər yox.

Vicdanlar, məsləklər keyləşib yaman,
Beyinlər, idraklar səyləşib yaman,
Hatəmlər cırlaşıb, göyləşib yaman,
Sədaqətdən, səxavətdən xəbər yox.

Xəta-bəla götürülmür aradan,
Azaldılıb çıxardılmır sıradan,
Eləbilki qəsd edibdir yaradan?
Mehri-ülfət, fəzilətdən xəbər yox.

İnsan bir-birinin qəlbinə dəyir,
Vurub qamətini, qəddinin əyir,
Xidmət etməmişdən döşürüb yeyir,[61]
Tər tökməkdən, nə zəhmətdən xəbər yox.

---

[61] Bədəməl önündə gözünü döyür.

Cahil sərsərilər, nadan çoxalıb,
Yolunu tərsinə adan çoxalıb,
Təlimdən yarımçıq dadan çoxalıb,
Zəriflikdən, məlahətdən xəbər yox.

Qərq olmuşuq küdurətə, nifrətə,
İçin-için qövr eyləyən hiddətə,
Nə deyəsən, danışasan millətə?
Qoçaqlıqdan, məharətdən xəbər yox.

Alim də, loğman da ələ salınır,
Fitnəyə, fəsada, felə salınır,
Qəsd-qərəzlə, bilə-bilə salınır,
Nə təlimdən, qiraətdən xəbər yox.

Mərd igid yerində yaltaq çoxalıb,
Hiyləgər, təlxəklər, şıltaq çoxalıb,
Həyasız, abırsız, sırtıq çoxalıb,
Fərasətdən, cəsarətdən xəbər yox.

İnsan bir-birini öldürür, qırır,
Çəkib sinəsinə dağ-düyün vurur,
Töküb zəhləsini bezdirir, yorur,
Məna-məzmun, məziyyətdən xəbər yox.

***Cəmil Əkbər*** 29. 05 – 1994

## 104. BU DA BİRCÜR BƏYANATDIR

Əyrilik də reallıqdır, o da bircür "ləyaqətdir"
Saxtalıq da, sünilik də, o da bircür hərəkətdir.
Doğruluq da reallıqdır, o da bircür məziyyətdir,
Nikbinlik də reallıqdır, o da bircür fərasətdir,
Qəmginlik də, bədbinlik də, o da bircür rəzalətdir,
Xainlik də, xəbislik də, o da bircür fəlakətdir.
Alış-veriş reallıqdır, o da bircür məharətdir,
Qorxaqlıq da, qısqanclıq da, o da bircür "cəsarətdir".
Qəlbə dəymək, qanqaraltmaq, o da bircür xəsarətdir.
Nanəciblik, namərdlik də, o da bircür qəbahətdir,
O da bircür kin-küdurət, o da bircür ədavətdir.

Ünsiyyətdə kobudluq da, o da bircür "nəzakətdir",
O da bircür avamlıqdır, o da bircür xəyanətdir.
Savadsızlıq, bilgisizlik, o da bircür qiraətdir,
Avamlıqdan miras qalıb, o da bircür siraətdir.
Məzlumluq da, məsumluq da, o da bircür "dəyanətdir".
Mərd igidə yaraşmayan bir xəbərdir, bəyanatdır.
Giley-güzar, dedi-qodu, o da bircür şikayətdir,
O da bircür məlumatdır, o da bircür hekayətdir.
Yaltaqlıq da, şıltaqlıq da, o da bircür fəzilətdir,
O da bircür peşmançılıq, o da bircür xəcalətdir.
Dönüklük də reallıqdır, o da bircür "qətiyyətdir",
O da bircür qulluq etmək, o da bircürə xidmətdir.
Şər danışmaq, böhtan demək, o da bircürə niyyətdir,
İnsanlığa, ləyaqətə o da bircür xəyanətdir.
Biganəlik reallıqdır, o da bircürə diqqətdir,
O da bircürə təpərdir, o da bircürə riqqətdir.
Divanəlik reallıqdır, o da bircürə hikmətdir,
O da bircürə xilqətdir, o da bircürə xislətdir.
Dava-dalaş reallıqdır, o da bircür cəmiyyətdir,
O da bircür el-obadır, o da bircür məmləkətdir.
Üfunət də reallıqdır, o da bircür "təravətdir",
O da bircür zəriflikdir, o da bircür "məlahətdir".
Zalımlıq da reallıqdır, o da bircür "səxavətdir",
O da bircür ehtiramdır, o da bircür sədaqətdir.
Ad da, san da reallıqdır, o da bircür şərafətdir,
Cəmil Əkbər şeir yazdı, bu da bircür zərafətdir.
Bu da bircür bacarıqdır, o da bircür məharətdir,
Bu da bircür xəbərdarlıq, bu da bircür bəyanatdır.

***Cəmil Əkbər*** 5. 11 – 1993

## 105. KƏSMƏ!

İlahi hər nədən kəsirsənsə kəs,
Amandır xətiri-hörməti kəsmə!
Kimdən inciyirsən, küsürsənsə küs,
Amandır insafı-mürvəti kəsmə!

Başı uca gəzək, üzü ağ gəzək,
Fikiri, xəyalı, sözü dağ gəzək,
Səksəndə, doxsanda canı sağ gəzək,
Amandır kef-damaq, ləzzəti kəsmə!

Bəşərin övladı həyalı olsun,
Əqidə, məsləkli, qayəli olsun,
Qədəmi uğurlu, sayəli olsun,
Amandır abırı-isməti kəsmə!

İnsanam deyəni kamallı elə,
Əqidəli elə, amallı elə,
Mənəvi çəkidə samballı elə,
Amandır nəzəri-diqqəti kəsmə!

Ürəklərdə qoy məhəbbət var olsun,
Ünsiyyətdə qoy qəbahət xar olsun,
Birdəfəlik cəhalətə ar olsun,
Amandır təpəri, riqqəti kəsmə!

Ellərdə-obada bərəkət olsun,
Sədaqət yaşasın, səxavət olsun,
Vətənim qüdrətli məmləkət olsun,
Amandır hər nazı-neməti kəsmə!

Yaşayıb dünyada qürurla gəzək,
Qürurla düşünüb, qürurla sezək,
Qürurla dayanıb, qürurla dözək,
Amandır şərəfi-şöhrəti kəsmə!

Qoyma dünyamızda əngəllər ola,
Qal-qovğa törədən cəncəllər ola,
Yatar-yeriməzlər, tənbəllər ola,
Amandır zəhməti, xidməti kəsmə!

Ellərin üstündən gözünü çəkmə,
Söndürüb odunu, közünü çəkmə,
Tamını azaldıb, duzunu çəkmə,
Amandır namusu, qeyrəti kəsmə!

Nəolar eşitsən Cəmil Əkbəri,
Didməsin qəlbini qəmin neştəri,
Tapsın sözlərinə layiq müştəri,[62]
Amandır nicatı, nüsrəti kəsmə!

***Cəmil Əkbər*** 25. 01 – 1995

## 106. CIRLAŞIB

Qınamasın məni dövrü-zəmanə,
Ədalət də, həqiqət də cırlaşıb.
Aqillər yerinə gəlib divanə,
Ülvi-istək, məhəbbət də cırlaşıb.

Eləbil dünyanın axırı gəlib,
Sürtülüb qalayı, paxırı gəlib,
Azalıb insanı, naxırı gəlib,
Ülfətlər də, ünsiyyət də cırlaşıb.

Azalıbdır söz-söhbətin əsəri,
Yox kimsəyə bir faydası, səməri,
Düşübdür soyundan yoxdur kəsəri,
Öyüd sənə, nəsihət də cırlaşıb.

Zəkalı başlar da keyləşib indi,
İtirib əqlini səyləşib indi,
Sanki cəhalətdə əyləşib indi,
İnsanlıq da, ləyaqət də cırlaşıb.

Baxan yoxdu düz də desən sözünə,
Dərin, dayaz, üz də desən sözünə,
Səksən, doxsan, yüz də desən sözünə,
Giley-güzar, söz-söhbət də cırlaşıb.

Qanunu-qaydanı pozdular yaman,
Doğrunu-tərsinə yozdular yaman,
Ayaqlar altından qazdılar yaman,
Şəxsiyyət də, cəmiyyət də cırlaşıb.

[62] Qoy yazsın-yaratsın, versin xəbəri.

Yaxşılar azalıb, yamanlar artıb,
Ah-nalə çoxalıb, amanlar artıb,
İnciyib-küsənlər, umanlar artıb,
Sədaqət də, səxavət də cırlaşıb.

Hər yetəni iqtidarda görürük,
Cah-calalda, küllü-varda görürük,
Cəfakeşi, intizarda görürük,
İnsaf-mürvət, kəramət də cırlaşıb.

Alimlər, loğmanlar gözdən salınıb,
Yolundan qovulub, izdən salınıb,
Gün çeşdə qalxmamış tezdən salınıb,
Şan-şöhrət də, şərafət də cırlaşıb.

Zəkalı başlara pisdi deyirlər,
Qızıl yox, gümüş yox misdi deyirlər,
Bədxahdı, zalımdı, nəsdi deyirlər,
Bacarıq da, məharət də cırlaşıb.

Hiyləgər, dələduz, bic əyyamıdır,
Sərsəri, kəmağıl, gic əyyamıdır,
İlqara, imana kəc əyyamıdır,
İgidlik də, cəsarət də cırlaşıb.

***Cəmil Əkbər*** 24. 01 – 1995

## 107. AMAN!

İnsanoğlu düz dur, dolan,
Zəhlələri tökmə aman!
Zəhmət çəkib düz qur, dolan,
Əzabını çəkmə aman!

Düz fikirləş, doğru danış,
Tez-tələsik küsmə, barış,
Xeyrə qarış, şərə qarış,
Qamətini bükmə aman!

Yeriyəndə şaxla yeri,
Əriyəndə şamtək əri,
Yersiz dinmə, lal ol, kiri!
Kəkələyib səkmə aman!

Qananları qandırma gəl,
Vicdanını dandırma gəl,
Könülləri sındırma gəl, [63]
Sonra onu tikmə aman!

Bişir-düşür de sözünü,
Yanılmaynan yol-izini,
Özgələrdən çək gözünü,
Şər toxumu səpmə aman!

Abır saxla, həya saxla,
Məslək saxla, qayə saxla,
Halal zəhmət, mayə saxla,
Anaları ....... aman!

Onu-bunu zəhərləmə,
Dərdə salıb qəhərləmə,
Yerli-yersiz hərifləmə,
Buludtəki çökmə aman!

Günəş olub nurunu səp,
Hənirini, qorunu səp,
Yağını səp, şorunu səp,
Qəlb evimi sökmə aman!

***Cəmil Əkbər*** 2. 05 – 1988

## 108. HAÇANDAN BƏRİDİR?

Dünya sənin işin qandır,
Nə vaxtdan bəridir-bəri.
Ah-nalədir, ya fəqandır,
Haçandan bəridir-bəri?

---

[63] Od-ocaqsız yandırma gəl.

Bir yanda kef, bir yanda qəm,
Bir yan zilsə, bir yanda bəm,
Bir yan ağlar, gözündə nəm,
Haçandan bəridir-bəri?

Biri asır, biri kəsir,
Biri coşur, biri əsir,
Biri yeyir, biri qusur,
Haçandan bəridir-bəri?

Biri vurur, biri çalır,
Biri gedir, biri qalır,
Biri satır, biri alır,
Haçandan bəridir-bəri?

Biri durur, biri yatır,
Biri üzür, biri batır,
Biri tutur, biri atır,
Haçandan bəridir-bəri?

Bir yan əzab, bir yan zillət,
Bir yan cəza, bir yan töhmət,
Bir yan hillət, bir yan cənnət,
Haçandan bəridir-bəri?

Kimiyə gen, kimiyə dar,
Kimi kordur, kimi də kar,
Kimiyə var, kimiyə ar,
Haçandan bəridir-bəri?

Çoxlarını yola salıb,
Sağa salıb, sola salıb,
Qaja salıb, qola salıb,
Haçandan bəridir-bəri?

Yer üzündə dava durur,
Zəhərlənmiş hava durur,
Kəmağıllar, yava durur,
Haçandan bəridir-bəri?

Cəmil Əkbər belə gördü,
Ağa gördü, kölə gördü,
Gədə gördü, lələ gördü,
Haçandan bəridir-bəri?

***Cəmil Əkbər*** 18. 08 – 1992

## 109. DANANMARAM

Hər nəyimi dansam da mən,
Mürvətimi dananmaram.
Oda düşüb yansam da mən,
Qeyrətimi dananmaram.

Dərk eyləyib qananları,
Eşq oduna yananları,
Məcnunları, Sənanları,
Şöhrətimi dananmaram.

Hara getsəm, harda olsam,
Çətində də, darda olsam,
İlişərək torda olsam,
Riqqətimi dananmaram.

Dönə-dönə əzilsəm də,
Çöpə dönüb üzülsəm də,
Tapdalanıb nəzilsəm də,
Xislətimi dananmaram.

Düzü-tərsə yozanlara,
Şər-böhtanı yazanlara,
Ünsiyyəti pozanlara,
Hiddətimi dananmaram.

Göz yummaram naqislərə,
Xainlərə, xəbislərə,
Hər yetirən varislərə,
Nifrətimi dananmaram.

Gün keçdi qaralı-ağlı,
Ürək dərdli, sinə dağlı,
Qapısı-bacası bağlı,
Həsrətimi dananmaram.

Çox görmüşəm yaxşı-yaman,
Dağ başında tüsdü, duman,
Ondan, bundan küsüb-uman,
Zillətimi dananmaram.

Nadanlardan aldım yara,
Ha getdimsə ora-bura?
Tapmadım dərdimə çara,
Zülmətimi dananmaram.

Harda olsam yadımdadır,
Odu mənim odumdadır,
Ünvanımda, adımdadır,
Millətimi dananmaram.

Dərrakəm var, başım vardır,
Xəyalım var, huşum vardır,
Tayım vardır, tuşum vardır,
Ülfətimi dananmaram.

Harda olsam həyalandım,
Təmiz süddən mayalandım,
Qüvvət aldım, sayələndim,
İsmətimi dananmaram.

Dadlı-duzlu şeir yazdım,
Məhəbbətə dair yazdım,
Verib xalqa xeyir yazdım,
Söhbətimi dananmaram.

Bu yollarda qəm də yedim,
Kökdən düşüb, bəm də yedim,
Dadar-doymaz, kəm də yedim,
Möhnətimi dananmaram.

Ondan-bundan bezmişəm də,
Cəfasına dözmüşəm də,
Əllərimi üzmüşəm də,
Heyrətimi dananmaram.

Haqq yolunda çəkdim cəfa,
Çoxlarında gördüm vəfa,
Azdan-çoxdan sürdüm səfa,
Zəhmətimi dananmaram.

Çoxlarına dərs demişəm,
Acıq verib, pis demişəm,
İçin-için hirs yemişəm,
Xidmətimi dananmaram.

Adım Cəmil, babam Əkbər,
Nə qəm çəkməm, nə də kədər,
Ömür-günü verməm hədər,
Hikmətimi dananmaram.

***Cəmil Əkbər*** 12. 08-1992

## 110. GÖZLƏ!

El səni böyüdüb, el başa çəkib,
Zəhmət çək eloğlu, eli də gözlə![64]
Xeyrini danışıb, dil başa çəkib,
Hədyan söyləməynən, dili də gözlə!

Abırlı, həyalı, xətirli dolan,
Təravətli dolan, ətirli dolan,
Şaxəli hərlənib, çətirli dolan,
Bülbültək bağlarda gülü də gözlə![65]

Zəhmət başa çəkib, əl başa çəkib,
Sanma ki, fitnələr, fel başa çəkib,
Taleyin gətirib, yel başa çəkib,
Zəhməti, qayğını, əli də gözlə![66]

---

[64] Elləri yaşadıb, eli də gözlə!

[65] Şeyda bülbültəki gülü də gözlə!

[66] *II variant* Sanmaki fitnələr, fel kömək edib,
Küləyin gətirib, yel kömək edib,
Zəhmət başa çəkib, əl kömək edib,
Ayağı işlədib, əli də gözlə!

Həftələr böyüdüb, il başa çəkib,
Nizamla kökləyib zil başa çəkib,
Öyrənib, agah ol, bil başa çəkib,
Xoş keçən ayları, ili də gözlə!

Bu dünya yaranıb əzəldən belə,
Vaxtını, fürsəti verməynən yelə,
Aldanma qardaşım, daş-qaşa, lələ,
Sərraf bazarında ləli də gözlə!

Sanmaki  kefinin çağ zamanıdır?
Əriyib yağının, dağ zamanıdır?
Ülfət-ünsiyyətin sağ zamanıdır?
Daşqını, tufanı, seli də gözlə!

Demə ki, dünyada Ağanəzərəm,
Belə dolanaram, elə gəzərəm,
Beylə döyəcləyib, elə əzərəm,[67]
Düşərsən gölətə, gölü də gözlə!

Sanmaki ürəklər safdı, təmizdir,
Hamı mehribandır, doğma, əzizdir,
Münasibətlər də yaman qəlizdir,
Batarsan palçığa, lili də gözlə!

Qohumu-qardaşı özünü güdmə,
Oğlunu düşünüb, qızını güdmə,
Ərkinə güvənib, nazını güdmə,
Evdə yaşasan da, çölü də gözlə!

Deməki hamını əzib gedərəm,
Onun zərbəsinə dözüb gedərəm,
Çəkib xirtdəyini üzüb gedərəm,
Əjdaha, begomont, fili də gözlə![68]

---

[67] 1) Qarışqa nədirki, fili əzərəm. 2) Kərgədan nədirki, fili əzərəm.

[68] *II variant* Deməki zorluyam əzib gedərəm,
Çəkib xirtdəyini üzüb gedərəm,
Onun əzabına dözüb gedərəm,
Əjdaha, begomont, fili də gözlə!

Aldanma qolunda zor olan vaxtı,
Əlində qalxanın, tor olan vaxtı,
Cibində pul-para, var olan vaxtı,
Gözləri kor edən külü də gözlə!

Artırmaynan araq, konyak, çaxırı,
Belə getsə yaxşı olmaz axırı,
Azaltmayın sürüləri, naxurı,
Höyürə gətirib, dölü də gözlə!

***Cəmil Əkbər*** 20. 07 -1987

## 111. GÖZLƏYƏ

Hərkəs gərək öz yoluyla düz gedə,
Ədaləti, həqiqəti gözləyə.
Yorulmaya, ərinməyə, tez gedə,
İnsanlığı, ləyaqəti gözləyə.

Aldanmaya nə nəfsinə, tamaha,
Yol verməyə qəbahətə, günaha,
Nə qarğışa, ah-naləyə, nə aha,
Sədaqəti, səxavəti gözləyə.

Öz qəlbindən məhəbbəti atmaya!
Qərq olaraq qəflətlərdə yatmaya!
Mərd igidi namərdlərə satmaya!
İnsaf, mürvət, kəraməti gözləyə.

***Cəmil Əkbər***

## 112. GÖZLƏYİR

Nəqədərki bu dünyada nadan var?
Bu bəşəri fəlakətlər gözləyir.
Yollarını tərsəməssəb atan var?
Bu bəşəri zəlalətlər gözləyir.

Nəqədərki qəflətlərdə yatan var?
Şər danışıb, aralığı qatan var?
Namusunu, qeyrətini satan var?
Bu bəşəri müsibətlər gözləyir.

Nəqədərki qəbahətə uyuruq?
Kin-küdurət, ədavətə uyuruq?
Paxıllığa, xəyanətə uyuruq?
Bu bəşəri çox dəhşətlər gözləyir.

Nəqədərki qal-qovğa var, cəncəl var?
İşimizdə, gücümüzdə əngəl var?
Sıramızda, aramızda tənbəl var?
Bu bəşəri məşəqətlər gözləyir.

Nəqədərki düşünən az, qanan az?
Eşq oduna alışan az, yanan az?
Böyük, kiçik pəsinən az, sanan az?
Bu bəşəri səfalətlər gözləyir.

Nəqədərki insanoğlu anlamır?
Öz-özünü məzəmmətlə danlamır?
Kötəkləmir, qırmanclamır, yanlamır?
Bu bəşəri cinayətlər gözləyir.

Nəqədərki öz işini görən yox?
Öz borcunu qaytaran yox, verən yox?
Bağlar salıb meyvəsini dərən yox?[69]
Bu bəşəri cəhalətlər gözləyir.

Nəqədərki gedən yoxdur düzünə,
Baxan yoxdur nə ağına, bozuna,
Qayğı yoxdur öz oğluna qızına,
Bu bəşəri rəzalətlər gözləyir.

---

[69] El-obanın qılığına girən yox.

Bəşər oğlu öz yoluna gəlməsə,
Doğru fikir, düz yoluna gəlməsə,
Gecikərsə tez yoluna gəlməsə,
Bu bəşəri bəyanatlər gözləyir.

Hərkəs gərək öz yoluna düzələ,
Fəsli-bahar, yaz yoluna düzələ,
Oğul nədir, qız yoluna düzələ,
Bu bəşəri hekayətlər gözləyir.

***Cəmil Əkbər*** 21. 12 -1997

## 113. ÖZÜNÜ GÖZLƏ!

Demə qocalanda düşərəm başa,
Sevilib, seçilib, gələrəm xoşa,
Düşərəm sevdaya, həvəsə, coşa,
Çalış gəncliyində özünü gözlə!

Demə döyüşlərdə sağ qalaram mən,
Zəfərlər təblini hey çalaram mən,
Asaram, kəsərəm, hay salaram mən,
Çalış dincliyində özünü gözlə!

Ülvi əməllərdən çəkinmə əsla!
Səksənib, diksinib, pəsinmə əsla!
Hərkəsin oduna isinmə əsla!
Adi xətalardan özünü gözlə!

Doğru yol getməklə azan kimdiki?
Ayağı altından qazan kimdiki?
Adını dəftərdən pozan kimdiki?
Yanakı yollardan özünü gözlə!

Bacarsan mərdlərlə oturun, durun,
Çalışın, yaşayın, yaradın, qurun,
Zəfərin topunu qapıya vurun,
Namərdlə ülfətdən özünü gözlə!

***Cəmil Əkbər*** 15. 09 – 1978

## 114. ÖZÜNÜ GÖZLƏ!

Günəş yanmağından qorxma dünyada,
Çınqı yanğısından özünü gözlə!
Əjdaha, begemont, nə fildən qorxma,
Mikrob danəsindən özünü gözlə!

Çəkinib qorxmayın şir savaşından,
Pələng savaşından, nər savaşından,
İgid savaşından, ər savaşından,
Tülkü hiyləsindən özünü gözlə![70]

Arif adamlarla yol getmək olar,
Sağları tanıyıb, sol getmək olar,
Qajları ayırıb, qol getmək olar,
Nadan kəlləsindən özünü gözlə!

Qorxma davalarda topun səsindən,
Bombadan, mərmidən, ya gülləsindən,
Şahın qəzəbindən, məhkəməsindən,
Elin şilləsindən özünü gözlə!

Çıxmaynan heç zaman mərdin sözündən,
Amandır bir an da düşmə gözündən,
Yayınma oğlundan, bərk tut qızından,
Namərd tələsindən özünü gözlə!

---

[70] *II variant* Tanınıb, seçilib, sayıl dünyada,
Car olub ellərdə yayıl dünyada,
Qərq olma qəflətə, ayıl dünyada,
Tülkü hiyləsindən özünü gözlə!

*III variant* Tükün ürpəşməsin şir savaşından,
Meydana girəndə nər savaşından,
Diksinib çəkinmə ər savaşından,
Tülkü hiyləsindən özünü gözlə!

*IV variant* Heç zaman qorxmaynan nər savaşından,
Kişi savaşından, ər savaşından,
Pələng savaşından, şir savaşından,
Tülkü hiyləsindən özünü gözlə!

Böyük əməllərdən xətər gözləmə,
Qəm-qüssə gözləmə, kədər gözləmə,
Nə fitnə gözləmə, nə şər gözləmə,
Kiçicik xətadan özünü gözlə!

Doğru yol-ərkandan azan kimdiki?
Ayaqlar altından qazan kimdiki?
Bədinə danışan, yozan kimdiki?
Əyri keçidlərdən özünü gözlə!

Mərd igid vursa da ölməkdən qorxma,
Asmaqdan, kəsməkdən, bölməkdən qorxma,
Saralmaqdan qorxma, solmaqdan qorxma,
Xainin daşından özünü gözlə!

Zirvələrə ucalanda öyünmə,
Zəfər çalıb bac alanda sevinmə,
Zaman gəlib qocalanda deyinmə,
Enən pilləsindən özünü gözlə!

Cəmil, mərd xətası olmaz dünyada,
Həyat yollarında qoymaz piyada,
Salmaz bir kimsəni aha-fəryada
Şeytan fitnəsindən özünü gözlə![71]

***Cəmil Əkbər*** 15. 09-1978

## 115. ÖZÜNÜ GÖZLƏ!

Xof etmə dünyada gözü toxlardan,
Acgözdən, hərisdən özünü gözlə!
Könüllər  mülkündə izi çoxlardan,
Tamahdan, nəfsdən özünü gözlə!

Aralı dolanma pak ürəklidən,
Sağlam fikirlidən, saf diləklidən,
Halal süfrəlidən, duz-çörəklidən,
Xaindən, xəbisdən özünü gözlə!

[71] Namərd fitnəsindən özünü gözlə.

Çəkinib qısqanma əsilzadədən,
Dildə dastan olan nəsilzadədən,
Bahar təbiətli fəsilzadədən,
Nanəcib-naqisdən özünü gözlə!

Uzaqda dolanma kamal əhlindən,
Əqidə əhlindən, amal əhlindən,
Mənəvi çəkidə sambal əhlindən,
Bədəsil, bədcinsdən özünü gözlə!

Xətası yetişməz hünər əhlindən,
Vicdanlı, məsləkli, təpər əhlindən,
Uğurlu yollara səfər əhlindən,
Qeyrətsiz varisdən özünü gözlə!

Ay Cəmil, hərkəslə yoldaşlıq etmə!
Həmkarlıq, həmdəmlik, sirdaşlıq etmə!
Heyifdir vaxt, zaman qardaşlıq etmə!
Simicdən, xəsisdən özünü gözlə!

***Cəmil Əkbər*** 23. 07 -1995

## 116. GÖZLƏYƏN?

Dövran yaman dəyişib, zaman yaman dəyişib,
Kimdir xətir gözləyən, kimdir hörmət gözləyən?
Nə danışıb deyəsən, vermir aman dəyişib,
Kimdir insaf gözləyən, kimdir mürvət gözləyən?

Baxan yoxdur abıra, baxan yoxdur həyaya,
Nə əqidə, məsləyə, baxan yoxdur qayəyə,
Alan yoxdur təlimi, baxan yoxdur dayəyə,
Kimdir abır gözləyən, kimdir ismət gözləyən?

Nə şan-şöhrət, şərafət, nə də bir ad qalıbdır?
Azalıbdır damaqda, nə də bir dad qalıbdır?
Nə qeyrətli bir qohum, nə də bir yad qalıbdır?
Kimdir şərəf gözləyən, kimdir şöhrət gözləyən?

Hamı verir peysərə, atıbdılar arını,
Yeyib-içib kef edib, yoğnudubdur qarnını,
Çalıb-çapıb talayır, el-obanın varını,
Kimdir namus gözləyən, kimdir qeyrət gözləyən?

Nə dövləti sayan var, nə hökməti sayan var,
Nə zəhmətə baxan var, nə xidməti sayan var,
Nə mənanı-məzmunu, nə hikməti sayan var,
Kimdir dəyər anlayan, kimdir qiymət gözləyən?

Hamı alim biəməl, hamı qələndər olub,
Hamı yolu göstərən, hamı ələmdar olub,
Oda yanan pərvanə, hamı Səməndər olub,
Kimdir nəsihət alan, kimdir söhbət gözləyən?

Buminvalla, məramla hara gedir bu bəşər?
Dağılacaq yerbəyer, olacaqdır dərbədər,
Əzabların içində inləyəcək sərbəsər,
Kimdir məna anlayan, kimdir hikmət gözləyən?

***Cəmil Əkbər*** 4. 02 – 1993

## 117. GÖZLƏMƏ!

*I variant*

Elini, obanı anmadıqda sən,
Ellərdən, obadan hörmət gözləmə!
Eşqin atəşinə yanmadıqda sən,
Gözələm deyəndən mürvət gözləmə![72]

[72] *II variant*

Xalqını axtarıb anmadıqda sən,
Onlardan özünə hörmət gözləmə!
Eşqin atəşinə yanmadıqda sən,
Gözələm deyəndən mürvət gözləmə!

*III variant*

Xalqını yad edib anmadıqda sən,
Onlardan nə xətir-hörmət gözləmə!
Eşqin atəşinə yanmadıqda sən,
Gözələm deyəndən mürvət gözləmə!

Gəl özünü bir alışdır zəhmətə,
Düçar olma dərdə, qəmə, möhnətə,[73]
Qulluq edib, qul olmasan sənətə,
Özgədən özünə sərvət gözləmə![74]

Yükünü daşıyıb çəkə bilməsən,
Yerini şumlayıb əkə bilməsən,
Tərini torpağa tökə bilməsən,
Özgədən özünə nemət gözləmə!

İnsanı arzuya çatdırır əmək,
Daha nə lazımdır artıq söyləmək?
Məndən söyləməkdir, səndən dinləmək,
Uyub yağlı dilə şöhrət gözləmə![75]

Sərraflıq igidin gözündə gərək,
Qüvvət qollarında, dizində gərək,
Qeyrət hərkəsdənin özündə gərək,
Özgədən özünə qeyrət gözləmə!

Nanəcibdən, naxələfdən, naqisdən,
Paxıllardan, xainlərdən, xəbisdən,
Acgözlərdən, tamahkardan, hərisdən,
Şərafət gözləmə, şöhrət gözləmə!

Hiyləgər, dələduz, bic oğlu bicdən,
İlqara, imana kəc oğlu kəcdən,
Haqqa-ədalətə öc oğlu öcdən,
Doğru-dürüst nə bəyanat gözləmə!

---

[73] Tezi-geci düşəcəksən möhnətə.

[74] *II variant* Alışmasan, qatlaşmasan zəhmətə,
Tezi-geci düşəcəksən möhnətə,
Qulluq edib, qul olmasan sənətə,
Özgədən özünə sərvət gözləmə!

*III variant* Alışmasan, qatlaşmasan zəhmətə,
Qulluq edib, qul olmasan sənətə,
Düşəcəksən tezi-geci möhnətə,
Özgədən özünə sərvət gözləmə!

[75] Yatıb kölgələrdə şöhrət gözləmə!

Tərbiyədən alayarı dadandan,
Yollarını tərsəməssəb adandan,
Lovğa, yekəxana olan adamdan,[76]
Ədəb-ərkan, nə mərifət gözləmə!

Çalış ki, dövranın kef ilə keçsin,
Gəlirlə, qazancla, nəf ilə keçsin,
Tar, kamanla, sazla, dəf ilə keçsin,
Dərd qüssə, qəm-kədər, möhnət gözləmə!

Nütfədən mayası, qanı zayların,[77]
Hüceyrə, nüvəsi, geni zayların,
Zülalı kəm-kəsir, şanı zayların,
Xeyirxahlıq, nə mərhəmət gözləmə!

İlqara-imana dönük olandan,
Vicdanı, məsləyi sönük olandan,
Hər səmtə üz tutub yönük olandan,
Nə sədaqət, nə səxavət gözləmə!

Dərrakəsiz gicbəsərdən, dəlidən,
Damarlardan qanı soran zəlidən,
Kəramətsiz, mərhəmətsiz validən,
İnsaf-mürvət nə kəramət gözləmə!

Əzəl gündən kimin paksa mayası,
Kamildirsə təlim verən dayəsi,
Əksik olmaz üstümüzdən sayəsi,
Güman edib nə xəyanət gözləmə!

Ümid olma sərsəriyə, giclərə,[78]
Dələduza, hiyləgərə, biclərə,
İnadkara tərsəməssəb öclərə,
Cahildən, nadandan hikmət gözləmə!

---

[76] Haqq-sayı sümürərək udandan.

[77] Mayası xarabın, qanı zayların.

[78] Gəl uymaynan sərsəriyə, giclərə.

Lənət gəlsin pis adamın gözünə,
Tay-tuşuna, oxşadığına, özünə,
Ar-namusu gözləməyən qızına,
Cəmil, bədəsildən həmdərd gözləmə![79]

***Cəmil Əkbər*** 20. 08 – 1964

## 118. GÖZLƏMƏ!

*II variant*

Nəqədərki gic fikirlər başdadı?
Nə azadlıq, nə səadət gözləmə!
Sərsəm xəyal, bic fikirlər huşdadı?
Nə ədalət, nə həqiqət gözləmə!

Seçən yoxdu yaxşıları pislərdən,
Qızılları, gümüşlərdən, mislərdən,
Xeyirxahı bədxahlardan nəslərdən,
Nə insanlıq, nə ləyaqət gözləmə!

Nəqədərki ilqarına dönük var?
El malını talan edən ənik var?
Min bir səmtə üz tutan var, yönük var?
Nə səadət, nə səxavət gözləmə!

Nəqədərki aramızda nadan var?
Tərbiyədən ala-yarı dadan var?
Haqq-sayı gözgörəti udan var?
İnsaf, mürvət nə kəramət gözləmə!

Nəqədərki qəbahətlər yaşayır?
Avamlıqlar, cəhalətlər yaşayır?
Pis ənənə, pis adətlər yaşayır?
Abad olan bir məmləkət gözləmə!

İnsanoğlu bir-birini əzirsə,
İncidirsə, inciyirsə bezirsə,
Müsibətə, işgəncəyə dözürsə,
Ülvi istək nə məhəbbət gözləmə!

---

[79] 1) Namərddən özünə həmdərd gözləmə! 2) Namərddən, nakəsdən həmdərd gözləmə!

Nəqədərki pozulubdur zəmanə?
Tərsəməssəb yozulubdur zəmanə?
İnildəyir, sozalıbdır zəmanə?
Nə gözəllik, nə lətafət gözləmə!

***Cəmil Əkbər*** 20. 02 – 1999

## 119. GÖZLƏMƏ!

Hər yetirən gözəllərdən, göyçəkdən,
Bəslənilən, becərilən dibçəkdən,
Hər ağacda qönçələnən çiçəkdən,
Ətri-ənbər, təravəti gözləmə!

Hər sinədə məskən salan ürəkdən,
Ömür sürüb, gün keçirən diləkdən,
Vuran-tutan hər qollardan, biləkdən,
Dözüm-durum, qətiyyəti gözləmə!

Hər insanoğluyla oturma, durma!
Etimad qazanmır hər bığıburma!
Hədərdir, yolunda özünü yorma!
Ədəb-ərkan, mərifəti gözləmə!

Hər yetirən nanəcibdən, naqisdən,
Acgözlərdən, tamahkardan, naqisdən,
Əsli-zatı bilinməyən varisdən,
Ülvi istək, məhəbbəti gözləmə!

Hər yetirən tulalardan, çaqqaldan,
Vicdanını alan, satan baqqaldan,
Abırsızdan, həyasızdan, naqqaldan,
Abır, həya, nə isməti gözləmə!

Hiyləgərdən, dələduzdan, biclərdən,
İlqarına, imanına kəclərdən,
Sərsəridən, kəmağıldan, giclərdən,
İnsaf-mürvət, kəraməti gözləmə!

İdrakı kəm, kamalı kəm gədədən,
Məsləyi kəm, amalı kəm gədədən,
Çəkisi kəm, sambalı kəm gədədən,
Cəsarəti, qətiyyəti gözləmə!

Halal süddən, mayasından kəmlərdən,
Əqidədən, qayəsindən kəmlərdən,
Əzəl gündən dayəsindən kəmlərdən,
Sağlam arzu, pak niyyəti gözləmə!

İdrakından, düşüncədən kütlərdən,
İnsanlıqdan, ləyaqətdən qıtlardan,
Karsız-karsız müqəvvadan, bütlərdən,
Fərasəti, məharəti gözləmə!

Avamlardan, cahillərdən, nadandan,
Addımını tərsəməssəb adandan,
Tərbiyədən alayarı dadandan,
Xeyirxahlıq, fəziləti gözləmə!

***Cəmil Əkbər*** 12. 04 – 1994

## 120. MƏNİ ORDA GÖZLƏMƏYİN!

*I variant*

O yerdəki ədalar var,
Görməmiş var, gədalar var,
Yersiz-yersiz sədalar var,
Məni orda gözləməyin!

O yerdəki yoxdur hörmət,
Yoxdur insaf, yoxdur mürvət,
Yoxdur məna, yoxdur hikmət,
Məni orda gözləməyin!

O yerdəki yox ədalət,
Yox doğruluq, yox həqiqət,
Xalqı boğar bil cəhalət,
Məni orda gözləməyin![80]

---

[80] *II variant*

O yerdəki yoxdur zəhmət,
Yox mərifət, yox ləyaqət,
Yox ədalət, yox həqiqət,
Məni orda gözləməyin!

O yerdəki yoxdur qeyrət,
Yoxdur istək, yox məhəbbət,
Yox sədaqət, yox səxavət,
Məni orda gözləməyin!

O yerdəki vardır kələk,
Gözə dəymir huri-mələk,
Daşa dəyir arzu-dilək,
Məni orda gözləməyin!

***Cəmil Əkbər*** 15. 06 – 1978

## 121. MƏNİ ORDA GÖZLƏMƏYİN!

*II variant*

O yerdəki nadan varsa?
Məni orda gözləməyin.
Yolu tərsə adan varsa?
Məni orda gözləməyin![81]

O yerdəki hərislik var?
Namərdlik var, naqislik var?
Xainlik var, xəbislik var?
Məni orda gözləməyin![82]

---

*III variant* O yerdəki yox həqiqət,
Nəcib arzu, gözəl niyyət,
Xeyirxahlıq, xoş ünsiyyət,
Məni orda gözləməyin!

[81] *II variant* O yerdəki nadanlar var?
Haqq-sayı udanlar var?
Yeyib-içib dadanlar var?
Məni orda gözləməyin!

[82] *II variant* Acgözlük var, hərislik var,
Xainlik var, xəbislik var,
Şeytanlıq var, iblislik var,
Məni orda gözləməyin!

*III variant* O yerdəki vardır pislik,
Var acgözlük, var hərislik,
Var bədxahlıq, var naqislik,
Məni orda gözləməyin.

O yerəki yox ləyaqət,
Yox sədaqət, yox səxavət,
Yoxdur insaf, yoxdur mürvət, [83]
Məni orda gözləməyin!

O yerdəki yoxdur zəhmət,
Yoxdur dəyər, yoxdur qiymət,
Etmə xahiş, etmə minnət,
Məni orda gözləməyin!

O yerdəki xəyanət var?
Xətalar var, cinayət var?
Ədavət var, şikayət var?
Məni orda gözləməyin!

O yerəki yox məhəbbət,
Ədəb-ərkan, ya mərifət,[84]
Yoxdur abır, yoxdur ismət,
Məni orda gözləməyin!

O yerdəki yalan vardır,
Əl-ayaqda qalan vardır,
Harınlaşmış kalan vardır,
Məni orda gözləməyin!

O yerdəki səfalət var?
Avamlıq var, cəhalət var?
Əməlindən xəcalət var?
Məni orda gözləməyin!

O yerdəki baqqallar var,
Tülkülər var, çaqqallar var,
Boşboğazlar, naqqallar var,
Məni orda gözləməyin!

Yaxşı pisə qarışırsa,
Namərd mərdlə vuruşursa,
Köpək qurdla barışırsa,
Məni orda gözləməyin!

---

[83] İnsaf, mürvət, ya mərhəmət.
[84] Yox etibar, yox sədaqət.

Sayan yoxsa ağsaqqalı,
Dərdbiləni, əhli-halı,
Kim kəsəcək qeylü-qalı?
Məni orda gözləməyin!

Pozularsa qanun-qayda,
Ya payızda, yazda, yayda,
Ondan bizə olmaz fayda,
Məni orda gözləməyin!

Meydan açsa başıboşlar,
Vicdanı kəm, qəlbidaşlar,
Filə hürsə alabaşlar,
Məni orda gözləməyin![85]

Yaxşı pisə qarışırsa,
Ayaq başla vuruşursa,[86]
Namərd mərdlə barışırsa,[87]
Məni orda gözləməyin!

Şor da birsə, yağ da birsə,
Təpə-dərə, dağ da birsə,
Kol da, kos da, bağ da birsə,
Məni orda gözləməyin!

Əxlaqsızlar anadırsa,
Mərd igidlər zinadırsa,
Ev eşiksə, binadırsa,
Məni orda gözləməyin!

Tülkü "mömin", şeytan "mələk",
İşlədirsə hiylə, kələk,
Daşa dəyər arzu, dilək,[88]
Məni orda gözləməyin!

---

[85] *II variant* Filə dönsə alabaşlar,
Qarnı dolu, başıboşlar,
Vicdanı kəm, qəlbi daşlar,
Məni orda gözləməyin.

[86] Namərd mərdlə vuruşursa.

[87] Ayaq başla yarışırsa.

[88] Bəd əsəcək tufan, külək.

İnsanoğlu soyulursa,
Mal yerinə qoyulursa,
Günah pulla yuyulursa,
Məni orda gözləməyin!

***Cəmil Əkbər*** 15. 06 – 1978

## 122. MƏNİ ORDA TAPARSINIZ!

O yerdəki gözəllik var?
Məni orda taparsınız.
Nəciblik var, zəriflik var?
Məni orda taparsınız![89]

Ədəb-ərkan, mərifət var?
Etibar var, sədaqət var?
Duzlu-duzlu zərafət var?
Məni orda taparsını![90]

Gəzin məni məhəbbətlə,
Ən müqəddəs ünsiyyətlə,
Saf arzuyla, pak niyyətlə,
Məni orda taparsınız!

---

[89] *II variant* O yerdəki gözəllik var?
Zəriflik var, incəlik var?
Həssaslıq var, nəciblik var?
Məni orda taparsınız!
*III variant* O yerdəki zəriflik var?
Nəciblik var, incəlik var?
Könül açan gözəllik var?
Məni orda taparsınız!

[90] *II variant* Harda ədəb, mərifət var?
Sədaqət var, səxavət var?
Ünsiyyətdə ləyaqət var?
Məni orda taparsınız!
*III variant* O yerdəki, var mərifət,
Təmiz ülfət, saf da niyyət,
Var nəzakət, var lətafət,
Məni orda taparsınız!
*IV variant* O yerdəki, mərifət var,
Şan-şöhrət var, şərafət var,
Duzlu-duzlu zərafət var,
Məni orda taparsınız!

O yerdəki sədaqət var?
Xeyirxahlıq, səxavət var?
İnsaf-mürvət, kəramət var?
Məni orda taparsınız!

O yerdəki qanan vardır?
El dərdinə yanan vardır?
Axtaran var, anan vardır?
Məni orda taparsınız!

O yerdəki telli saz var?
Tuti dilli xoşavaz var?
Bahar fəsli güllü yaz var?
Məni orda taparsınız!

O yerdəki ədalət var?
Doğruluq var, həqiqət var?
Ünsiyyətdə ləyaqət var?
Məni orda taparsınız![91]

O yerdəki zəhmət vadır?
İnsaf vardır, mürvət vardır?
Dəyərlərə qiymət vardır?
Məni orda taparsınız![92]

---

[91] *II variant*

O yerdəki ədalət var?
Doğru-düzlük, həqiqət var?
Vicdan, məslək, ləyaqət var?
Məni orda taparsınız!

*III variant*

O yerdəki ədalət var?
Doğru-düzlük, həqiqət var?
İnsanlıqda ləyaqət var?
Məni orda taparsınız!

[92] *II variant*

O yerdəki zəhmət vadır?
Xətir vardır, hörmət vardır?
Dəyərə düz qiymət vardır?
Məni orda taparsınız!

*III variant*

O yerdəki zəhmət vadır?
Sağlam arzu, niyyət vardır?
Sərraf vardır, qiymət vardır?
Məni orda taparsınız!

Axtar məni ürəklərdə,
Nəcib arzu diləklərdə,
Gilavari küləklərdə,[93]
Məni orda taparsınız!

Haqsızlıqla yoxdur aram,
O boğulsa sızıldaram,
Haq yanında mən də varam,
Məni orda taparsınız![94]

Soruş məni ümmanlardan,
Dağ başında dumanlardan,
Ötüb-keçən zamanlardan,
Məni orda taparsınız![95]

Amalımız ədalətdir,
Doğruluqdur, həqiqətdir,
Bunsuz dünya fəlakətdir,
Məni orda taparsınız!

***Cəmil Əkbər*** 15. 06 – 1978

## 123. BƏSLƏMƏ!

Qəlbində yaşayan məhəbbət olsun,
Faydası yox, kin-küdurət bəsələmə!
Yaşayan sədaqət, səxavət olsun,
Heçkimsəyə gəl ədavət bəsləmə!

---

*IV variant* Xidmət varsa zəhmət varsa
İnsaf varsa, mürvət varsa,
Dəyərə düz qiymət varsa,
Məni orda taparsınız!

[93] Sərin xəzri küləklərdə.

[94] *II variant* Yalan sözlə yoxdur aram,
Haqq boğulsa sızıldaram,
Haqq hardasa, orda varam,
Məni orda taparsınız!

[95] *II variant* Məni axtar dumanlarda,
Dənizlərdə, ümmanlarda,
Ötüb-keçən zamanlarda,
Məni orda taparsınız!

Gözəlliyə meyil çoxdur çirkindən,
Sadəlik ki, layiqlidir xudbindən,
Nikbinlik ki, daha xoşdur bədbindən,
Səməri yox, gəl cəhalət bəsləmə!

Qoy qəlbində cövlan etsin qananlar,
Eşq oduna qərq olanlar, yananlar,
Kərəm, Məcnun, Fərhad ilə Sənanlar,
Özgə fikir, özgə halət bəsləmə!

Gecə də, gündüz də zəhmətdən yapış,
Xalqına qayğıdan, xidmətdən yapış,
Ən şirin sözlərdən söhbətdən yapış,
Yaddaşında özgə qələt bəsləmə!

Yerin-göyün dayağıdır məhəbbət,
İnsanlığın mayağıdır ləyaqət,
Ürəklərin oyağıdır nəzakət,
Özgə xülya, özgə niyyət bəsləmə!

Gəl qardaşım ədalətlə dolanaq,
Doğruluqla, həqiqətlə dolanaq,
Ədəb-ərkan, mərifətlə dolanaq,
Dava-dalaş, nə məşəqqət bəsləmə!

Mehri-ülfət, səmimiyyət var olsun,
Bəşər oğlu, bu cəmiyyət var olsun,
Sağlam fikir, ülvi-niyyət var olsun,
Qisas-qərəz, nə də hiddət bəsləmə!

Bədxasiyyət ürəkləri çürüdür,
Od-ocaqsaz diləkləri əridir,
Çoxlarını haldan salıb kiridir,
Yaddaşlarda gəl qəbahət bəsləmə!

***Cəmil Əkbər*** 11. 02 – 1991

## 124. DƏRS ALAQ

Gəl ay qardaş, gədalığa son qoyaq,
Ədəb-ərkan, nəzakətdən dərs alaq.
Dambatlığa, ədalığa son qoyaq,
Nəciblikdən, mərifətdən dərs alaq.

Fitnə-fəsad yalanlara uymayaq,
Hər zurnanı çalanlara uymayaq,
Onu-bunu ağlar günə qoymayaq,
Ədalətdən, həqiqətdən dərs alaq.

Hər yetənlə oturmayaq, durmayaq,
Kef-halını xəbər alıb sormayaq,
Heçkimsəni bezikdirib yormayaq,
Sağlam ülfət-ünsiyyətdən dərs alaq.

Qəlbimizdə yaşamasın küdurət,
Dedi-qodu, giley-güzar, ədavət,
Nə xainlik, nə xəbislik, xəyanət,
Gül-çiçəkdən, təravətdən dərs alaq.

Cahillikdən, nadanlıqdan uzaşaq,
Cəhalətdən, avamlıqdan uzaşaq,
Naşılıqdan bu xamlıqdan uzaşaq,
İnsanlıqdan, ləyaqətdən dərs alaq.

Acgözlükdən, hərislikdən əlçəkin!
Nanəciblik, naqislikdən əlçəkin!
Höcətlikdən, bu tərslikdən əlçəkin!
Sədaqətdən, səxavətdən dərs alaq.

Qəlbimizdə yaşamasın çamırlıq,
Üfunətli nə bataqlıq, mamırlıq,
Qara bulud, duman, çisgin, yağmurluq,
Saf arzudan, pak niyyətdən dərs alaq.

Qoşulmayaq fitnələrə, fellərə,
Aldanmayaq yalan, yanlıc dillərə,[96]
Rast gəlməyək diş qıcayan əllərə, [97]
İnsaf-mürvət, mərhəmətdən dərs alaq.

---

[96] Aldanmayaq yalan, palan dillərə.
[97] Qərq olmayaq aşıb-daşan sellərə.

Deməsinlər ustadınız xam olub,
Tərbyəniz əzəl başdan kəm olub,
Başımızda duman olub, dəm olub,
Məna-məzmun bu hikmətdən dərs alaq.[98]

Unutmaki, dahilər də dərs alıb?
Münəccimlər, loğmanlar da dərs alıb?
Ariflər də, qananlar da dərs alıb?
By bəşərdən, cəmiyyətdən dərs alaq.

***Cəmil Əkbər*** 8. 09 – 1988

## 125. ÇATANMAZ

İlahi, nəqədər əzizdir nəvə,
Ona şirinlikdə bal da çatanmaz.
Evimdə, olsada on beş min gəvə,
Qırmızı, çəhrayı, al da çatanmaz.

Onun təbəssümlə baxan gözünə,
Yandırıb qəlbimi yaxan sözünə,
Lalətək açılmış qönçə üzünə,
Tirmə də, qumaş da, şal da çatanmaz.

Dünyada nəqədər varım olsa da,
Çiçək, çəmən novbaharım olsa da,
Sədarətim, ixtiyarım olsa da,
Dövlət də, sərvət də mal da çatanmaz.

Qəlbimdə baqidir, Şəhlanın adı,
Şəhlanın ləzzəti, Şəhlanın dadı,
Şəhlanın çınqısı, Şəhlanın odu,
Dəymiş də, sütül də, kal da çatanmaz.

Onun bərabəri, tayı nə imiş?
Sovqatı nə imiş, payı nə imiş?
Həşiri nə imiş, hayı nə imiş?
İnci də, sədəf də, ləl də çatanmaz.

---

[98] Öyüd sənə, nəsihətdən dərs alaq.

Dünyaya verməzdim gözünü əsla,
Bir kəlmə “bağışla” sözünü əsla,
Mənə eylədiyi nazını əsla,
Çəmən də, çiçk də, gül də çatanmaz.

Nəqədər istərdim onun xətrini,
Könlümdə iz salan dərin sətrini,
Mən hardan alacam onun ətrini?
Daraçın da, mixək də, hil də çatanmaz.

Yaman qəsd eylədi o zalım fələk,
Nəqədər qansızdı, haradan bilək?
Bilmirəm bəd əsdi hayandan külək?
Nəqədər getsəm də, yol da çatanmaz.

Quruyan deyildir gözümün yaşı,
Oğlumun, gəlnimin, qızımın yaşı,
Bəm üstə inləyən sazımın yaşı,
Kür, Araz nədir ki, Nil də çatanmaz.

Bu dərd sarsıdıbdır Cəmil Əkbəri,
Köç etdi dünyadan dillər əzbəri,
Oxu sinəmdəki qara dəftəri,
Almaqla-satmaqla pul da çatanmaz.

***Cəmil Əkbər*** 23. 09 - 1992

## 126. ƏSƏR YOX!

Mövqeyini dəyişmisən a dostum,
O əvvəlki ləyaqətdən əsər yox!
Yayınmısan, süyüşmüsən a dostum,
O əvvəlki həqiqətdən əsər yox!

Hara getdi igidlərin vəfası,
Zəhmət çəkib çəkdikləri cəfası,
Sürdükləri dövranları, səfası,
O əvvəlki cəsarətdən əsər yox!

Dəyişmisən o əzəlki formanı,
Kurortunu, həkimini, dərmanı,
Doldurmusan xurcununu, torbanı,
O əvvəlki xislətindən əsər yox!

Çap olunan əsərini görmürəm,
Kamalının səmərini görmürəm,
Qılıncının kəsərini görmürəm,
O əvvəlki fərasətdən əsər yox!

Dadanmısan hər gələni soymağa,
Son gününə toplamağa, qoymağa,
Onun-bunun gözlərini oymağa,
O əvvəlki məziyyətdən əsər yox!

Söylə görüm harda qaldı amalın?
Görmürsənmi düz işləmir kamalın?
O səbəbdən gözdən düşüb camalın,
O əvvəlki hikmətindən əsər yox!

İgid gərək əqidəsin atmasın,
Ucuz alıb onu baha satmasın,
Qərq olaraq qəflətlərdə yatmasın,
O əvvəlki sədaqətdən əsər yox!

Keyləşibdir, kütləşibdir başın da,
Açılmayır qabağın da, qaşın da,
Beylə hala bağrı çatlar daşın da,
O əvvəlki səxavətdən əsər yox!

Qalmamışdır dəyanətin, tutarın,
Əqidəndən karvan gedən qatarın,
Aman Allah saxla bundan betərin,
O əvvəlki hörmətindən əsər yox!

Vaxt var idi dost-aşnanı sanardın,
Məhəbbətin eşq oduna yanardın,
Könüllərdən keçənləri qanardın,
O əvvəlki mürvətindən əsər yox!

***Cəmil Əkbər***

## 127. YOX ARAM!

Elə sanma mən hamıya bədxaham,
İnsafını atanlarla yox aram!
Aşiq olub mən hamıya müştaqam,
Aralığı qatanlarla yox aram!

Sərvaxtların, oyaqların dostuyam,
Məzlumlara dayaqların dostuyam,
Kəhkəşanın, mayaqların dostuyam,
Qəflətlərlə yatanlarla yox aram!

Nazı-nemət, vara-hala dövlətə,
Daşa-qaşa, kef damağa, sərvətə,
Ada-sana, vəzifəyə, şöhrətə,
Min sifətlə çatanlarla yox aram!

Dağıdanla, talayanla, sökənlə,
Böhtan deyib, şər toxumu əkənlə,
Bezikdirib zəhlələri tökənlə,
Min günaha batanlarla yox aram!

Saxta-saxta ülfətlərlə, məramla,
Saxta hökmlərlə, saxta qərarla,
Saxta eyhamlarla, saxta aramla,
Şan-şöhrətə çatanlarla yox aram!

Mərd igidi görə-görə görməyən,
Dəyərini, qiymətini verməyən,
Bağlar salıb meyvəsindən dərməyən,
Namərd işlər tutanlarla yox aram!

Mən Cəmiləm ürəyimdə mürvətim,
Müqəddəsdir bu tükənməz sərvətim,
Qoy yaşasın el içində hörmətim,
Varlığını satanlarla yox aram!

***Cəmil Əkbər*** 1. 10 – 1987

## 128. BUNDAN ARTIQ NƏ VERƏYDİ O BİZƏ?

İlahi baş verib, göz verib bizə,
Bundan artıq nə verəydi o bizə?
Yol-ərkan qoyubdur, iz verib bizə,
Bundan artıq nə verəydi o bizə?

Deyib-danışmağa söz verib bizə,
Abırlı-ismətli üz verib bizə,
Oğul bəxş eyləyib, qız verib bizə,
Bundan artıq nə verəydi o bizə?

İnsanam deyənə kamal veribdir,
Əqidə bəxş edib, amal veribdir,
Mənəvi zənginlik camal veribdir,[99]
Bundan artıq nə verəydi o bizə?

Düşüncə, dərrakə, baş da veribdir,
Fikir də, xəyal da, huş da veribdir,
İnci də, sədəf də, daş da veribdir,
Bundan artıq nə verəydi o bizə?

Ayaq da veribdir, əl də veribdir,
Deyib danışmağa dil də veribdir, [100]
Çəmən də, çiçək də, gül də veribdir,
Bundan artıq nə verəydi o bizə?

Fəhm-fərasət də, bilik də verib,
Yorulmaz qollara bilək də verib,
Ən nəcib arzular, dilək də verib,[101]
Bundan artıq nə verəydi o bizə?

İnsan övladına əmək də verib,
Qayğı da, yardım da, kömək də verib,
İsti də, soyuq da, külək də verib,
Bundan artıq nə verəydi o bizə?

---

[99] El-oba, məmləkət, mahal veribdir.
[100] Mətləb qandırmağa dil də veribdir.
[101] Nəcib arzular da, dilək də verib.

Abır da, həya da, ar da veribdir,
Alma da, heyva da, nar da veribdir,
Qohum da, qardaş da, yar da veribdir,
Bundan artıq nə verəydi o bizə?

İlahi bizlərə can da veribdir,
Damar da veribdir, qan da veribdir,
Zülal da veribdir, şan da veribdir,
Bundan artıq nə verəydi o bizə?

Nəqədər ömür var, ona borcluyuq,
Əvvəli-axırı, sona borcluyuq,
Uğrunda verməyə cana borcluyuq,
Bundan artıq nə verəydi o bizə?

Düşünən, dərk edən beyin də verib,
Yaddaş, hafizə də, zehin də verib,
Nəzərə almağa eyin də verib,
Bundan artıq nə verəydi o bizə?

Torpaq da, səma da, od da veribdir,
Hava da, bulud da, su da veribdir,
Nəşə də, damaq da, dad da veribdir,
Bundan artıq nə edəydi o bizə?

İlahi bizlərə ürək veribdir,
Ömrə sütun verib, dirək veribdir,
Hamıya yar olmaq, gərək veribdir,
Bundan artıq nə edəydi o bizə?

Mən onun yolunda əbədi varam,
Nə koram, nə lalam, nədəki karam,
Onunla sağalır sızlayan yaram,
Bundan artıq nə verəydi o bizə?

***Cəmil Əkbər*** 16-27 / 06 – 1992

## 129. MEYDANINA

Görənlərdən, bilənlərdən ayıbdır,
Gədələr girməsin ər meydanına.
Gedənlərdən-gələnlərdən ayıbdır,
Dayçalar girməsin nər meydanına.

Deməsin hamıdan biləndər mənəm,
Alimi-loğmanam, qələndər mənəm,
Odlara alışan Səməndər mənəm,
Nadanlar girməsin zər meydanına.

Hərkəsin peşəsi, öz sənəti var,
Öz işi, öz gücü, öz adəti var,
Fəhmi-fərasəti, cəsarəti var,
Cahil soxulmasın pir meydanına.

Hünər meydanıdır dünya əzəldən,
Belə qərar tutub min il, yüz ildən,
Əsrdən-əsrə özü düzəldən,
Naşılar girməsin sirr meydanına.

Girsədə meydana, meydan boş qalar,
Dolaşıb fikiri lap çaşbaş qalar,
Qəlbdə nisgil qalar, gözdə yaş qalar,
Cələflər girməsin zor meydanına.

Meydana girsə də iş görə bilməz,
Payıza yetişib, qış görə bilməz,
Hünərdən, zəfərdən heş[102] görə bilməz,
Sısqalar girməsin gur meydanına.

Ay Cəmil, hərənin bəyanatı var,
Dözümü-durumu, dəyanəti var,
Zəhməti, xidməti, şərafəti var,
Tülkülər girməsin şir meydanına.

***Cəmil Əkbər*** 19.08 -1991

---

[102] heş – heç

## 130. KEÇİB

Nəqədər yatmışam, qalmışam dala,
Dolanıb üstümdən, yay gəlib keçib.
Uymadım dövlətə, uymadım mala,
Üstümdən nəqədər, ay gəlib keçib.

Nəqədər qəflətdə yatıb qalmışam?
Aldanıb xülyaya, batıb qalmışam,
Onun ətəyindən tutub qalmışam,
Üstümdən addayıb, zay gəlib keçib.

Aldandım nəyaman yağlı dillərə,
Düşdüm daşqınlara, axdım sellərə,
Qərq oldum ümmana, batdım göllərə,
Baxmadım həşirə, hay gəlib keçib.

Namusdan, qeyrətdən, ardan danışdım,
Vəfalı dost-tanış, yardan danışdım,
Doğru sözdən, düz ilqardan danışdım,
Üstümdən nəqədər, nay gəlib keçib.

Meylimi salmadım tamaha sarı,
Xətaya, bəlaya, günaha sarı,
Qarğışa, naləyə, nə aha sarı,
Üstümdən nəqədər, pay gəlib keçib.

Nəqədər haqq-say getdi dünyadan,
Uzaşdı gözlərdən, itdi dünyadan,
Yaxşı da, yaman da ötdü dünyadan,
Nəqədər sanasan, say gəlib keçib.

***Cəmil Əkbər***

## 131. OĞLUSAN

***Oğlum Müzadil İmamverdiyevə***

Sanma ki, mən səni tanımamışam,
Sən xətir oğlusan, hörmət oğlusan.
Məqamı gələndə sınamamışam,
Sən insaf oğlusan, mürvət oğlusan.

Halal süfrəmizdən mayalanmısan,
Əqidə almısan qayələnmisən,
Gəlindən, qızdan da həyalanmısan,
Ar-namus oğlusan, qeyrət oğlusan.

Sədaqətdən, səxavətdən yarandın,
Ədəb-ərkan, mərifətdən yarandın,
İnsanlıqdan, ləyaqətdən yarandın,
Şərafət oğlusan, şöhrət oğlusan.

Bədəməldən, bəd sözlərdən uzaq ol!
Bəd yolaqdan, bəd izlərdən uzaq ol!
Bəd nəzərdən, bəd gözlərdən uzaq ol!
Cəsarət oğlusan, cürət oğlusan.

Arzu-istək, diləyimin barısan,
Can-ciyərim, ürəyimin barısan,
Zəhmətimin, əməyimin barısan,
Ülvi-istək, saf məhəbbət oğlusan.

Sənə zəhmət çəkən Cəmildi atan,
Adı çəkiləndə nə qısqan, utan,
Olubdu dar gündə haraya çatan,
Qayğılar, xidmətlər, zəhmət oğlusan.

***Cəmil Əkbər*** 21. 09 – 1987

## 132. SƏN DƏ ONUNSAN!

İnsanoğlu gəl heçkəsə darılma,
O da səninkidir, sən də onunsan!
Həsəd çəkib gəl içindən qırılma,
O da səninkidir, sən də onunsan!

Hamının varını gəl mənimsəmə,
Oxuyub, öyrənib, bil mənimsəmə,
Utanıb, qızarıb, öl mənimsəmə,
O da səninkidir, sən də onunsan!

Gəl insanoğlunu incitmə qardaş,
Yalvardıb, yaxardıb, yoncutma qardaş,
Verərək qəhəri soncutma qardaş,
O da səninkidir, sən də onunsan!

Onun nə məzmunu, hikməti varsa?
Bəzəyi-düzəyi, zinəti varsa?
Dəyəri-dəyməzi, qiyməti varsa?
O da səninkidir, sən də onunsan!

Kimin nə məsləyi, qayəsi varsa?
Arxası, köməyi, sayəsi varsa?
Abırı-isməti həyası varsa?
O da səninkidir, sən də onunsan!

Kimin nə qüssəsi, nə qəmi varsa?
Nə zili, nə pəsi, nə bəmi varsa?
Nə kefi, nəşəsi, nə dəmi varsa?
O da səninkidir, sən də onunsan!

Kimin nə şərəfi-şöhrəti varsa?
Çəkdiyi kədəri, möhnəti varsa?
İnsafı, vicdanı, mürvəti varsa?
O da səninkidir, sən də onunsan!

Demə o haralı, mən haralıyam?
O sağlam, gümrahdır, mən yaralıyam,
O yaxın, mən uzaq, çox aralıyam,
O da səninkidir, sən də onunsan!

Gedib kənarlarda aralı gəzmə!
Qəlbi xoflu gəzmə, qaralı gəzmə!
Oralı axtarma, buralı gəzmə!
O da səninkidir, sən də onunsan!

Parçalana-parçalana məhv olduq,
Haçalana-haçalana məhv olduq,
Saçılana-saçılana məhv olduq,
O da səninkidir, sən də onunsan!

Gəlin yaxınlaşaq əl-ələ verək,
Salıb avamlığa vəl-vələ verək,
Cahil dünyasına zəl-zələ verək,
O da səninkidir, sən də onunsan!

İnsanam deyəndə məhəbbət gərək,
Əhdi-peyman gərək, sədaqət gərək,
Kəramət bəxş ola, mərhəmət gərək,
O da səninkidir, sən də onunsan!

İnsansan-insanı gəl yaxşı tanı,
Korlama əsəbi, qaraltma qanı,
Çox asıb-kəsənlər özün de hanı?
O da səninkidir, sən də onunsan!

Yaşatma qəlbində gəl ədavəti,
Bədəməl törətmə, çək xəcaləti,
Bataqlıq, çamırlıq, nə üfunəti,
O da səninkidir, sən də onunsan!

Çalışın dünyada pislik etməyin,
Paxıllıq, xainlik, nəslik etməyin,
Höcətlik, inadlıq, tərslik etməyin,
O da səninkidir, sən də onunsan!

Nə olsun o kasıb, sən də varlısan?
O cəlif, zəifdir, sən tutarlısan,
Onun qüvvəsi yox, sənsə karlısan,
O da səninkidir, sən də onunsan!

Onun kədərini özününkü bil,
Onun nəşəsini özününkü bil,
Onun əzabını özününkü bil,
O da səninkidir, sən də onunsan!

Yıxılan kəslərin qolundan tutun,
Sağından yapışın, solundan tutun,
Calayıb cırını, kolundan tutun,
O da səninkidir, sən də onunsan!

Hamı birbirinə dayaq olmalı,
Yatıbsa qəflətdə oyaq olmalı,
Zəhmətdə, xidmətdə mayaq olmalı,
O da səninkidir, sən də onunsan!

Gəl Cəmil Əkbəri bezdirmə qardaş,
Əzab-əziyyətə dözdürmə qardaş,
Salıb dağa-daşa gəzdirmə qardaş,
O da səninkidir, sən də onunsan!

***Cəmil Əkbər*** 21.11 – 1989

## 133. YARADIB!

Qadir mövlam bu qızları verəndə,
Abır üçün, ismət üçün yaradıb!
Xətir edib möhübləri görəndə,
İnsaf üçün, mürvət üçün yaradıb!

Nəcib, incə xisləti var əzəldən,
Beylə verib qərarını gözəldən,
Kim doyubki, haqq yaratmış özəldən?
Hörmət üçün, izzət üçün yaradıb!

Onun adı müqəddəsdir, “anadır”,
Məhəbbətə sütun olan binadır,
Könüllərdə pərvaz edən sonadır,
Şərəf üçün, şöhrət üçün yaradıb!

İgid olub qədirini bilənə,
Düşüb elə, dağa-daşa gələnə,
Lazım gəlsə uğrunda da ölənə,
Namus üçün, qeyrət üçün yaradıb!

Səbrin ola nazını da çəkəsən,
Çoxunu da, azını da çəkəsən,
Söhbətini, sözünü də çəkəsən,
Ədəb üçün, mərfət üçün yaradıb!

***Cəmil Əkbər*** 15. 01 -1989

## 134. ÜRƏYİNİZ DƏMİRDİMİ, DAŞDIMI?

*(Kəlbəcərli dostlara)*

Gözəl diyar nə pis günə qalıbdır?
Ürəyiniz dəmirdimi, daşdımı?
Nə səbəbdən nəs günlərə qalıbdır,
Ürəyiniz dəmirdimi, daşdımı?

Var-halınız şülən oldu, talandı,
Bağrım başı od-ocaqsız qalandı,
Koroğlular məgər indi yalandı?
Ürəyiniz dəmirdimi, daşdımı?

Hansı namərd sizə tələni qurdu?
Satdı yal-yamacı, bələni verdi?
Çəkilib yayındı, kənarda durdu?
Ürəyiniz dəmirdimi, daşdımı?

Bir güllə atmamış, çəkildi ordu,
Düşmənlər taladı bu gözəl yurdu,
Qırın xainləri, qalmasın qurdu,
Ürəyiniz dəmirdimi, daşdımı?

İnsan Vətənini qoyub qaçarmı?
Qanad alıb yad ellərə uçarmı?
Halal evdən, yad bir evə köçərmi?
Ürəyiniz dəmirdimi, daşdımı?

Əzəldən deyirlər anadır Vətən,
Ona sahib olmaz hər yolnan ötən,
Ona daş atmasın hər əli tutan,
Ürəyiniz dəmirdimi, daşdımı?

Övlad anasından aralı gəzməz,
Qəlbi xoflu gəzməz, qaralı gəzməz,
Qaçıb dar ayaqda əlini üzməz,
Ürəyiniz dəmirdimi, daşdımı?

Budumu Vətənə məhəbbətiniz?
Əhdiniz, andınız, sədaqətiniz?
Çoxdanmı var imiş ədavətiniz?
Ürəyiniz dəmirdimi, daşdımı?

Kimə tapşırdınız o, doğma yurdu?
Kim sizi aldatdı, hiyləni qurdu?
Çəkib sinələrə dağ-düyün vurdu?
Ürəyiniz dəmirdimi, daşdımı?

Satılmaz heç zaman Vətən torpağı,
Qaytarıb tapılmaz itən növrağı,
Niyə sönsün Kəlbəcərin çırağı?
Ürəyiniz dəmirdimi, daşdımı?

Sizdən ayrı qəribsəyir o dağlar,
"Vəfasına" gülümsəyir o dağlar,
Təpikləyir, dümsükləyir o dağlar,
Ürəyiniz dəmirdimi, daşdımı?

Bumudur dağların xətir-hörməti?
Saf eşqi, saf andı, pak məhəbbəti?
Ətiri-gülüstan ol təravəti?
Ürəyiniz dəmirdimi, daşdımı?

Dumana qərq olub dağların başı,
Tutulub qabağı, çatılıb qaşı,
Qəsd etdi, zülm etdi, de hansı naşı?
Ürəyiniz dəmirdimi, daşdımı?

Xəzan vurdu çəmənliklər soldular,
Boylanmaqla gözləri də doldular,
Üz cıraraq, saçlarını yoldular,
Ürəyiniz dəmirdimi, daşdımı?

Beylə karvan olmaz, beylə köç olmaz,
Beylə didərginlik, qaçhaqaç olmaz,
Beylə güman olmaz, beylə suç olmaz,
Ürəyiniz dəmirdimi, daşdımı?

Beylə fərarilik sizə yaraşmaz,
Vətən övladına, bizə yaraşmaz,
Nə qaşa-qabağa, gözə yaraşmaz,
Ürəyiniz dəmirdimi, daşdımı?

Gör kimə qalıbdır loğman bulaqlar?
Sağalmaz dərdlərə dərman bulaqlar,
Bir deyil, beş deyil orman bulaqlar,
Ürəyiniz dəmirdimi, daşdımı?

Boynunu bükübdür "Ceyran bulağı",
Aləmi mat qoyan, heyran bulağı,
Verməsin yadlara dövran bulağı,
Ürəyiniz dəmirdimi, daşdımı?

Qayada kəkliklər bəs kimə qaldı?
Meşədə əliklər bəs kimə qaldı?
Tərlanlar, tüləklər bəs kimə qaldı?
Ürəyiniz dəmirdimi, daşdımı?

Bu torpaqdan güc alanlar hardadır?
Şan-şöhrətlə ucalanlar hardadır?
Zəfər çalıb, bac alanlar hardadır?
Ürəyiniz dəmirdimi, daşdımı?

Gəlməyir sorağı ər kişilərin,
İgid kişilərin, nər kişilərin,
Pələng kişilərin, şir kişilərin,
Ürəyiniz dəmirdimi, daşdımı?

Gəlməyir Qurbanın, Abbasın səsi,
İsgəndər, Eldarın, Əvəzin səsi,
Şamilin, Qənbərin, Təhməzin səsi,
Ürəyiniz dəmirdimi, daşdımı?

Oyansa babalar, nə deyərsiniz?
Papaq əvəzinə nə geyərsiniz?
Çörək əvəzinə nə yeyərsiniz?
Ürəyiniz dəmirdimi, daşdımı?

Nə deyib-danışaq Dədə Şəmşirə,
Dağlar pələnginə, qocaman şirə,
O necə səbr edir, bu hay-həşirə?
Ürəyiniz dəmirdimi, daşdımı?

Babaların məzarından utanın,
Əyilməyən vüqarından utanın,
Əhdi-peyman, ilqarından utanın,
Ürəyiniz dəmirdimi, daşdımı?

Hayana sığındın ay Vətənoğlu?
Yaraşmır bu ada, ay Vətən oğlu,
Qaçıb Kəlbəcərdən ay itən oğlu,
Ürəyiniz dəmirdimi, daşdımı?

Necə hərlənirsiz, necə gəzirsiz?
Necə düşünürsüz, necə sezirsiz?
Necə tablaşırsız, necə dözürsüz?
Ürəyiniz dəmirdimi, daşdımı?

Harda qaldı heyrət belə, ar belə?
Zəhmət ilə qazanılan var belə?
Niyə oldu tərlan, şahin sar belə?
Ürəyiniz dəmirdimi, daşdımı?

Necə dayanırsız, durursuz qardaş?
Necə yaradırsız, qurursuz qardaş?
Necə seyr eyləyib, görürsüz qardaş?
Ürəyiniz dəmirdimi, daşdımı?

Beylə müsibətə dözmək çətindir,
Qürurla dolanmaq, dözmək çətindir,
Bu qədər tənəyə dözmək çətindir,
Ürəyiniz dəmirdimi, daşdımı?

Səbəb nədir heç çıxmayır səsiniz?
Pərən düşüb, pozulubdur dəsiniz,
Kimlər oldu bədxahınız, nəsiniz?
Ürəyiniz dəmirdimi, daşdımı?

Necə dözürsünüz eldən aralı?
Çəməndən, çiçəkdən, güldən aralı?
Dağlar şəlaləsi seldən aralı?
Ürəyiniz dəmirdimi, daşdımı?

***Cəmil Əkbər*** 2. 06 – 1993

## 135. TƏZADLIQ

Deyirlər dünyanın iki üzü var,
Birisi gecədir, biri gündüzdür.
İki söhbəti var, iki sözü var,
Birisi yalandır, biri dümdüzdür.

Dünyanın iki cür növrağı vardır,
Yayılan sədası, sorağı vardır,
Elləri-obası, yaylağı vardır,
Biri münbitlidir, biri şorandır.

Dünyanın iki cür insanı vardır,
Cahili, qanmazı, qananı vardır,
Təlim dadmayanı, dadanı vardır,
Birisi yaxşıdır, birisi pisdir.

Üzük də üzükdür, onun qaşı var,
Vətən torpağı var, Vətən daşı var,
Hər yerin özünün vətəndaşı var,
Birisi xeyirxah, birisi nəsdir.

Dünyanın iki cür qapısı vardır,
Birisi genişdir, birisi dardır,
Biri cevizdəndir, birisi şamdır,
Kimiyə açıqdır, kimiyə bağlı.

Dünyada iki cür bucaq görmüşəm,
İstəkli-istəksiz qucaq görmüşəm,
Tüstülü-tüstüsüz ocaq görmüşəm,
Birisi çörəkli, biri çörəksiz.

Dünyada iki cür yoldaş görmüşəm,
İki cür dost-tanış, sirdaş görmüşəm,
Tay-tuşluq eyləyən, çağdaş görmüşəm,
Birisi gərəkli, biri gərəksiz.

Dünyada iki cür adam olubdur,
Yolunu-izini adan olubdur,
Ya arif olubdur, nadan olubdur,
Birisi ürəkli, biri ürəksiz.

***Cəmil Əkbər***

## 136. ÇALIR

Hərə bir diyarda, hərə bir yerdə,
Əyməyən-əyməyir, əyənlər-əyir.
Hərə bir kamalda, hərə bir sərdə,
Deməyən-deməyir, deyənlər-deyir.

Hərənin bircürə qarışıb başı,
Sarsıyıb xəyalı, dağılıb huşu,
Düz çəkmir vicdanda tərəzi daşı,
Görməyən-görməyir, görənlər-görür.

Hərə bəslədiyi bağından dərir,
Dərib meyvəsini, kölgədə sərir,
Hərə öz borcunu bircürə verir,
Verməyən-verməyir, verənlər verir.

Hərə bu dünyada bircürə gəzir,
Bircürə dərk edir, seyredib sezir,
Bircürə tablaşıb, bircürə dözür,
Dözməyən-dözməyir, dözənlər-dözür.

İnsanam deyənə hörmət edilir,
Kəramət edilir, mürvət edilir,
Qayğı göstərilir, xidmət edilir,
Danmayan-danmayır, dananlar-danır.

Nəqədər insanlar vədəsiz ölür,
Azarsız, bezarsız, zədəsiz ölür,
Atasız, anasız, dədəsiz ölür,
Ölməyən-ölməyir, ölənlər-ölür.

Hərə bu dünyada bircürə olur,
Bircürə boşalır, bircürə dolur,
Bircürə açılır, bircürə solur,
Solmayan-solmayır, solanlar-solur.

Hərə bu dünyanı bircürə qanır,
Qəlbi vicdanının oduna yanır,
Bircürə bezikib, bircür usanır,
Qanmayan-qanmayır, qananlar-qanır.

Hərə öz adəti, vərdişindədir,
Gəşd edir dövranı, gərdişindədir,
Həyəcan, səksəkə, təşvişindədir,
Danmayan-danmayır, dananlar-danır.

Hərə bu dünyanı bircürə duyur,
Günahı, savabı bircürə yuyur,
Aldanıb nəfsinə bircürə uyur,
Duymayan-duymayır, duyanlar-duyur.

Hərə bu dünyada bircürə qalır,
Bircürə düşünüb, xəyala dalır,
Zəmanə sazını kökləyib çalır,
Çalmayan-çalmayır, çalanlar çalır.

***Cəmil Əkbər*** 26. 05 -1993

## 137. SEÇƏN AZ OLUB

Dünyada nəqədər səhv edilibdir,
Yaxşını yamandan seçən az olub.
Nəqədər istedad məhv edilibdir,
Tüstünü dumandan seçən az olub.

Nəqədər fürsəti vermişik fota,
Qəflət yuxusunda hey yata-yata,
Aranı-bərəni hey qata-qata,
Məkanı-zamandan seçən az olub.

Əlinin yerinə Vəli qoyulub,
Aqilin yerinə dəli qoyulub,
Yalan ha deyildir, bəli qoyulub,
Qananı-qanmazdan seçən az olub.

Bəşər övladını gözü aldadıb,
Cığırı-yolağı, izi aldadıb,
Oğulu aldadıb, qızı aldadıb,
Arpanı-samandan seçən az olub.

Dünyada nəqədər küt olub bəşər?
Müqəvvasayağı büt olub bəşər?
Əqildən-kamaldan lüt olub bəşər?
Dənizi ümmandan seçən az olub.

Odurki, dünyada davalar olub,
Zəhərə qarışmış havalar olub,
Əqli-kəmlər olub, yavalar olub,
Qananı-nadandan seçən az olub.

Nəqədər yaxşıya pisdi deyilib,
Höcətdi, inaddı, nəsdi deyilib,
Qalaya-gümüşə misdi deyilib,
İncini-sədəfdən seçən az olub.

Görən gözlər görə-görə kor olub,
Qulaqlar da eşitməyib kar olub,
O səbəbdən gen dünya da dar olub,
Mərdləri-namərddən seçən az olub.

Nəqədər yaşadıq, yaratdıq, qurduq,
Çalışdıq, vuruşduq, özünü yorduq,
Məclislər başında oturduq-durduq,
Doğrunu-yalandan seçən az olub.

Dünyada nəqədər keylər var imiş?
Gicbəsər, kəmağıl, səylər var imiş?
Yalançı, qondarma bəylər var imiş?
Gözəli-çirkindən seçən az olub.

Məhəl qoyulmayıb kamala, başa,
Tutulan qabağa, çatılan qaşa,
Sarsılan xəyala, dağılan huşa,
Sadəni xudbindən seçən az olub.

Baş aça bilmədik divanəlikdən,
Əhli-kef, laqeyid, biganəlikdən,
Odlara qərq olan pərvanəlikdən,
Bədbini-nikbindən seçən az olub.

Nəqədər olubdur vədəsiz ölən?
Bədəni sağikən, zədəsiz ölən?
Əllərdə-ayaqda dədəsiz ölən?
Kirlini-kirsizdən seçən az olub.

Həyatda nəqədər bezən olubdur?
Səbr edib, tablaşıb, dözən olubdur?
Avara dolanan, gəzən olubdur?
Fərlini-fərsizdən seçən az olub.

Dünya cənnət olub varlı-hallıya,
Dövlətli, sərvətli cah-calallıya,
Hiyləgər, dələduz, bic xəyallıya,
Arlını-arsızdan seçən az olub.

Hər yetən gədəyə ləl də verildi,
Dəstələr bağlandı gül də verildi,
Mixək də, darçın da, hil də verildi,
Kişini gədədən seçən az olub.

Bu qədər deyinmə ay Cəmil Əkbər,
Öldürər səni də, çəkmə qəm-kədər,
Şikayət eyləmə havayı, hədər,
Ayağı-başlardan seçən az olub.

***Cəmil Əkbər*** 9. 02 – 1992

## 138. VARİSİYİK

Qoy eşitsin bütün aləm, harda varsa səsimizi,
Bilməyən də, yaxşı bilsin, tanısınlar dəsimizi.
Əzəl gündən məramımız, səadətə qovuşmaqdır,
Sağlam fikir, düşüncəyə, saf-niyyətə qovuşmaqdır.
İstədik ki, ünsiyyətdə cəhalətə son qoyulsun,

Avamlığa, nadanlığa, qəbahətə son qoyulsun.
Əzəl gündən biz sadiqiq, əhd-peymandan dönəndöyük,
Müdriklərdən dərs almışıq, hər yetənə enəndöyük,
Tutduğumuz doğru yoldur, əyri yolla gedəndöyük,
Məramımız xeyirxahlıq, ayrı mətləb güdəndöyük.
Doğruluqdur, düzgünlükdür əqidəmiz, amalımız,
Dühalardan əxz olubdur, bu mənəvi camalımız.
Seyrə çıxıb bu həyatı dərk etmişik, anlamışıq,
Yol-izini azanları, dönə-dönə danlamışıq.
Məqamında danlamışıq, orda-burda sinməmişik,
Qaralaraq, qarsıxaraq, yarı yolda sönməmişik.
Əzəl gündən, ibtidadan, ədalətin varisiyik,
Doğru sözün, düz ilqarın, həqiqətin varisiyik.
İdrakımız idrakların elitası, cövhəridir,
Sərrafların bazarında incisidir, gövhəridir.
Poladdan da mətinik biz, yeniləndöy iradəmiz,
Əssə külək, qopsa tufan, pozulandöy əqidəmiz.
Bu yollarda eniş də var, yoxuş da var dözməliyik,
Seyrə çıxıb el-obanın, hər dərdini sezməliyik.
Biz günəşdən nur almışıq, dumanları yaracağıq,
Çox nadanın, cahillərin, ümidini qıracağıq.
Hünər, zəfər meydanında çoxlarını yoracağıq,
Gələr məqam, geçər dövran, nələr-nələr quracağıq?
Çox danışan susacaqdır, çox susanlar danışacaq,
Hələ çoxu küsəcəkdir, hələ çoxu barışacaq.
Hələ çoxu məqam gəlib saralacaq, solacaqdır,
İntizarla, həsrətlərlə gözü yolda qalacaqdır.
Düşünərək, dərk edərək hamı bunu bilməlidir,
Əlçəkərək fitnə-feldən, kor gözünü silməlidir,
Doğulsaq da bircə evdə, bir şəhərdə, ya bir kənddə,
Bir küçədə, ya dölmədə, ya dalanda, ya da tində.
Doğma yurdun, bu vətənin, cəmaətin varisiyik,
Tək-tək insanın deyilik, cəmiyyətin varisiyik,
Ədəb-ərkan gözləyirik, nəzakətin varisiyik,
Sağlam fikir, düşüncənin, pak niyyətin varisiyik.

***Cəmil Əkbər*** 14. 03 – 1994

## 139. ƏSL İNSAN

***Əsl insan*** odur bilin, sevgisində yanılmayıb,
Fikirləşir, düz danışır, kəlməsində yanılmayır.
Düz düşünüb, düz anlayır, cümləsində yanılmayıb,
Düzgün vurur  naxışları, kəlməsində yanılmayıb.
Aşıb-daşıb istəkləri, məhəbbəti bar gətirir,
Etibarı, düz ilqarı, sədaqəti bar gətirir.
Doğruluqdan, düzgünlükdən, həqiqətdən dönə bilmir,
Ədəb-ərkan, mərifətdən, ləyaqətdən dönə bilmir.
Hatəm kimi adı-sanı, səxavəti boldu onun,
Tükənməyir insaf-mürvət, kəraməti boldu onun.
İxtiyarı-iqtidarı, sədarəti bar gətirir.
Qoçaqlığı, zirəkliyi, fərasəti bar gətirir.
***Əsl insan*** o kəsdir ki, şərafətli ad qazanır,
Gül-çiçəktək zərif-incə, məlahətli ad qazanır.
Seyrə çıxır, uzaq görür, addımbaşı yanılmayıb,
Bəd işlərə, əməllərə üz çevirib yollanmayıb.
Onun-bunun kölgəsində bəslənməyib, daldanmayıb,
Min sifətə düşə-düşə təlxək kimi tullanmayıb.
Hünəriylə, zəfərilə, zəhmətilə bac almışdır,
El-obaya qayğısıyla, xidmətiylə qocalmışdır.
Saf arzusu, istəyilə, niyyətiylə, ucalmışdır,
Baxışları, nəzəriylə, diqqətiylə güc almışdır.
Könüllərdən silinməyib, şərafətli adı qalıb,
Qaralmayıb, qarsıxmayıb, yanar közü-odu qalıb.
Hər sözünün-söhbətinin əsəri var, kəsəri var,
Oxuyana-bilənlərə, faydası var, səməri var.
Dövran keçib, vaxt ötsədə, yolu-izi silinməyir,
Tarixlərə həkk olunub, heç bir sözü silinməyir.
O çıxmayır yaddaşlardan, zaman-zaman yada düşür,
Vədə gəlib, vaxt yetişir tama  gəlir, dada düşür.
Ömürboyu ellər ondan fayda görüb, bəhrələnib,
Boy ataraq qol-budağı, yüz yerindən pöhrələnib.
***Əsl insan*** o şəxsdir ki, ölübsə də o yaşayır,
Əsrlərədn-əsrlərə, xoş xəbərlər o daşıyır.
Çox gül-çiçək saralsada, beylə güllər saralmayır,
Beylə inci, beylə sədəf, beylələllər saralmayır.
Ha işləsə, çalışsada, beylə qollar yorulmayır,

Ha yol getsə, mənzil kəssə beylə yollar yorulmayır.
Qoy eşq olsun, bu qüvvətə, bu qüdrətə min ehtiram,
El-obada dildə qalan, bu sərvətə min ehtiram.
Şan-şöhrətə, ləyaqətə, şərafətə, min ehtiram,
Beylə bağa, beylə gülə, təravətə min ehtiram,
Beylə oda, beylə közə, hərarətə min ehtiram,
Bacarığa, qoçaqlığa, məharətə min ehtiram,
Bu insafa, bu mürvətə, kəramətə min ehtiram,
Bu qürura, iftixara, əzəmətə min ehtiram!

***Cəmil Əkbər*** 14. 02 – 1994

## 140. AY MÜDİR QAĞA

Bizi də cahana Xaliq göndərib,
Səmtimizi bu diyara döndərib,
Siz hardan oldunuz, böylə şoqərib?
Qoy biz də dolanaq, ay müdir qağa.

Mərd igidlər çox yaşasa ar deyil,
Qocalsada, el içində xar deyil,
Sizlər tərlan, biz bəndələr sar deyil,
Qoy biz də dolanaq, ay müdir qağa.

Bu eli-obanı azca talayın,
Kələk gəlib az barmağa dolayın,
Bir eşidin rəiyyətin harayın,
Qoy biz də dolanaq, ay müdir qağa.

Addımbaşı qəbahətdən ayılın,
Kin-küdurət, ədavətdən ayılın,
Avamlıqdan, cəhalətdən ayılın,
Qoy biz də dolanaq, ay müdir qağa.

Bizim də sinədə ürək yaşayır,
Sağlam arzularla dilək yaşayır,
Deyirlər çiyində mələk yaşayır,
Qoy biz də dolanaq, ay müdir qağa.

Az bizdən uzaqda, aralı gəzin,
Qəlbi xoflu gəzin, qaralı gəzin,
Oralı axtarıb, buralı gəzin,
Qoy biz də dolanaq, ay müdir qağa.

Demə o ögeyim, bu qardaşımdır,
O özgə bir şəxsdir, bu sirdaşımdır,
Həmyerlim, tay-tuşum, ya çağdaşımdır,
Qoy biz də dolanaq, ay müdir qağa.

Bəlkə biz də azdan-çoxdan qanırıq,
El dərdindən alışırıq, yanırıq,
Haqq-sayı yad eyləyib, anırıq,
Qoy biz də dolanaq, ay müdir qağa.

Demə bu zamanda ağa Nəzərəm,
Beylə gəşt eyləyib, elə gəzərəm,
Bir yumruğa çoxlarını əzərəm,
Qoy biz də dolanaq, ay müdir qağa.

Təkcə sənin yaşamağın hünər döy,
Qələbə döy, təntənə döy, zəfər döy,
Gələcəyə çox uğurlu səfər döy,
Qoy biz də dolanaq, ay müdir qağa.

Müdir gərək el-obanı girləsin,
Gecə-gündüz zəhmət çəkib tərləsin,
Sürüləri, naxırları hərləsin,
Qoy biz də dolanaq, ay müdir qağa.

Sərdaram deyənə kamal yaraşır,
Mənəvi gözəllik, camal yaraşır,
El-oba yaraşır, mahal yaraşır,
Qoy biz də dolanaq, ay müdir qağa.

Tək özünü düşünməklə iş aşmır,
Bahar gedib, payız gəlib, qış aşmır,
Fikir-xəyal tez dolaşar, huş aşmır,
Qoy biz də dolanaq, ay müdir qağa.

Yaşadığın mahalını unutma,
Qocasını, ahalını unuma,
Körpəsini, cahalını unutma,
Qoy biz də dolanaq, ay müdir qağa.

Zəhmət çəkib rəiyyəti bir düşün,
Ellər çəkən əziyyəti bir düşün,
Külli-aləm, cəmiyyəti bir düşün,
Qoy biz də dolanaq, ay müdir qağa.

Nəzər salıb uzaqları seyr eylə,
Məzlumları, yazıqları seyr eylə,
Boran-tufan, sazaqları seyr eylə,
Qoy biz də dolanaq, ay müdir qağa.

Ayaq hərlənməsə baş nəyə lazım?
Üzüksüz dəyərli qaş nəyə lazım?
Fikirsiz, xəyalsız, huş nəyə lazım?
Qoy biz də dolanaq, ay müdir qağa.

Butaqlar olmasa kök nəyə lazım?
İgidlər arxasız, tək nəyə lazım?
İnan sözlərimə şəkk nəyə lazım?
Qoy biz də dolanaq, ay müdir qağa.

El gücünə sel gücüdür deyiblər,
Qasırğadır, yel gücüdür deyiblər,
Oxu-öyrən, bil gücüdür deyiblər,
Qoy biz də dolanaq, ay müdir qağa.

Kamalından zəhmət çəkib nuru tök,
Ləl-cəvahir, hərnəvarsa dürü tök,
İnci-sədəf, yaqutu tök, zəri tök,
Qoy biz də dolanaq, ay müdir qağa.

Arxalı köpəklər qurd basan olur,
İşlər çətinləşmir, çox asan olur,
Rəiyyət inciyib, çox küsən olur,
Qoy biz də dolanaq, ay müdir qağa.

***Cəmil Əkbər*** 5.02 – 1998

## 141. CALANIB

Nəvələr də nədənsə, babasına lağ edir,
Öz yurdunu bəyənmir, yuvasına lağ edir.
Utanmayır, qızarmır, həddi aşıb ağ edir,
İpə-sapa yatmayır, yaman coşub ağ edir.
Yeyib-içir müftəcə, kef-damağın çağ edir,
Hardan gəlir qoy gəlsin, müftəsini dağ edir.
*Köhnə genə ay aman, təzə genlər calanıb,*
*Oğulsansa gəl baş aç, məzə genlər calanıb!*

Arvad-uşaq, gəlinlər, ağsaqqalı pəsinmir,
Dünyagörmüş qocanı, əhli-halı pəsinmir.
Utanan yox abırdan, utanan yox həyadan,
Utanan yox məsləkdən, utanan yox qayədən,
Utanan yox xətirdən, utanan yox hörmətdən,
Utanan yox insafdan, utanan yox mürvətdən.
*Köhnə genə ay aman, təzə genlər calanıb*
*Böyük-kiçik sanmayan, məzə genlər calanıb.*

Eşitməyir sözləri, bilməyənlər-bilənlər,
Nə oturan, nə duran, nə gedənlər, gələnlər.
Babasından halı döy, səbəb nədir nəvələr?
Sarvanını tanımır, otuz illik dəvələr.
Atalara bənzəmir, gedə-gedə balalar,
Analara bənzəmir, qız-gəlinlər, analar,
Xalalara bənzəmir, gedə-gedə xalalar,
Dayılara bənzəmir, gedə-gedə dayılar,
Bibilərə bənzəmir, gedə-gedə bibilər.
Əmilərə bənzəmir, gedə-gedə əmilər.
*Köhnə genə ay aman, təzə genlər calanıb,*
*Çək ləzzətin gör indi, məzə genlər calanıb.*

Ürəyimdə hökmedən, odum-közüm azalıb,
Danışmağa-dinməyə, daha sözüm azalıb,
Əhdim-andım, ilqarım, dəyanətim azalıb,
Fərasətim tükənib, məharətim azalıb.
Dəyişibdir ənənə, dəyişibdir xasiyyət,
Dəyişibdir adətlər, dəyişibdir ünsiyyət.

Könüllərə nəqş olan izimizdən xəbər yox,
Neçə-neçə mərd oğul, qızımızdan xəbər yox.
Sözə qoyduq çoxunu, qeyrətinə lağ etdik,
Gözə qoyduq çoxunu, hörmətinə lağ etdik,
Xidmətini danaraq, zəhmətinə lağ etdik,
Mənasını yozaraq, hikmətinə lağ etdik.
*Köhnə genə ay aman, təzə genlər calandı,*
*O səbəbdən ünsiyyət, bərbad oldu, talandı!*
*Köhnə genə ay aman, təzə genlər calandı,*
*Yerə-göyə sığmayan, məzə genlər calandı.*

Oğul gərək dayansın, göz görməyən genlərə,
Yol tanıyıb bilməyən, iz görməyən genlərə.
*Köhnə genə ay aman, təzə genlər calanıb,*
*Məni heyrətə salan, məzə genlər calanıb.*

***Cəmil Əkbər***

## 142. ÇATANMIR

Səndən Alı olmaz, məndən Ələsgər,
Cəhd etsək də, ustadlara çatanmır.
Yesək də qəm-qüssə, çəksək də kədər,
Bu ünvana, bu adlara çatanmır.

Hərkəsin öz gücü, öz qüdrəti var,
Fəhm-fərasəti, öz cüdrəti var,
Hünər meydanında cəsarəti var,
Ha çalışsa imdadlara çatanmır.

Hər insanoğlunun öz ürəyi var,
Arzusu, istəyi, öz diləyi var,
Qayğısı, yardımı, öz köməyi var,
Hər yetirən fəryadlara çatanmır.

Xain, xəbis dolansada haralar,
Silinməyir qəlbindəki qaralar,
Gül açanmaz, qönçəsində saralar,
Nəcib arzu, xoş murada çatanmır.

Cəmil Əkbər hər yetirən gədələr,
Vicdanı kəm-kəsir, qəlbi zədələr,
Bığları burmalar, lovğa dədələr,
Qohum-qardaş, nə yadlara çatanmır.

***Cəmil Əkbər*** 4.02 -1998

## 143. OXU ŞEİRİMİ

Bir gün bu dünyadan köçəcəm mən də,
Dövran oxu, zaman oxu şeirimi.
Əcəl şərbətini içəcəm mən də,
Sarvan oxu, karvan oxu şeirimi.

Oxuyub bilənin gərəyi olar,
Yetişib dadına gərəyi olar,
Əyilən sütuna dirəyi olar,
Alim oxu, çoban oxu şeirimi.

Məqamı gəldikcə kara yetişər,
Qönçəsi açılar, bara yetişər,
İxtiyara, iqtidara yetişər,
Dağlar oxu, duman oxu şeirimi.

Sağalmaz dərdlərə dərman taparsız,
Qərarı düz verən fərman taparsız,
Könül diyarında orman taparsız,
Təbib oxu, loğman oxu şeirimi.

Zirvəyə yüksəlib ucalmaq üçün,
Şərəflə yaşayıb qocalmaq üçün,
Ellərdən-obadan güc almaq üçün,
Cahil oxu, nadan oxu şeirimi.

İnsan bir-birini qırmamaq üçün,
Sinəyə dağ-düyün vurmamaq üçün,
Qərəz-qisasında durmamaq üçün,
Qoca oxu, cavan oxu şeirimi.

Sözlərimin təravəti solan döy,
Künc-bucaqda, səs-səmirsiz qalan döy,
Gözü yolda, könlü xəstə olan döy,
Böyük-kiçik sanan oxu şeirimi.

Onun bir kəlməsi yaddaşda qalsın,
Həmyaşıd tay-tuşda, çağdaşda qalsın,
Həmkarda, həmdəmdə, sirdaşda qalsın,
Haqq-sayı anan oxu şeirimi.

Sözlərimdə səadətin səsi var,
Doğru-düzlük, həqiqətin səsi var,
Sədaqətin, səxavətin səsi var,
Aşkar oxu, pünhan oxu şeirimi.

Eşqin-andın, məhəbbətin naminə,
Ətri-ənbər, təravətin naminə,
İnsanlığın, ləyaqətin naminə,
Aşiq oxu, canan oxu şeirimi.

Yaxın-uzaq el-obamız dinləsin,
Diyar-diyar yurd-yuvamız dinləsin,
Hər künc-bucaq, hər sobamız dinləsin,
Şirvan oxu, Muğan oxu şeirimi.

Təravətli gülləri var sözümün,
İncisi var, lələri var sözümün,
Daşqını var, selləri var sözümün,
Kərəm oxu, Sənan oxu şeirimi.

Hər kəlməsi ürəyimdən keçibdir,
Nəcib arzu-diləyimdən keçibdir,
Xəlbirimdən, ələyimdən keçibdir,
Dərya oxu, ümman oxu şeirimi.

Nə istəsən dərdə-dərman taparsan,
Xətalardan, bəlalardan saparsan,
Özün üçün bürcü-qala yaparsan,
Yaxşı oxu, yaman oxu şeirimi.

Mən Cəmil Əkbərəm söz ustasıyam,
Fəhmin-fərasətin öz ustasıyam,
Yanılmaq bilmərəm, düz ustasıyam,
Cümlə-cahan, həryan oxu şeirimi.

***Cəmil Əkbər*** 4. 04 - 1998

## 144. NAQİSSƏN!

Nifrət olsun səni doğan anaya.
Naxələfsən, nanəcibsən, naqissən!
Səni doğdu, bizi saldı bəlaya,
Naxələfsən, nanəcibsən, naqissən!

Sığışmırsan nə ellərə, obaya,
Bizi saldın qal-qovğaya, davaya,
Nə bəlasan doğulduğun yuvaya,
Naxələfsən, nanəcibsən, naqissən!

Mən düzünə, sən tərsinə çəkmisən,
Yer şumlayıb, nə toxumdu səpmisən?
Qazanına nə doğrayıb tökmüsən?
Naxələfsən, nanəcibsən, naqissən!

Ha çağırdım harayıma gəlmədin,
Ürəyimdən keçənləri bilmədin,
Gözündəki dumanını silmədin,
Naxələfsən, nanəcibsən, naqissən!

Deyib-danışmaqla söz əsər etmir,
Küsüb barışmaqla üz əsər etmir,
Çatıb qulağına tez əsər etmir,
Naxələfsən, nanəcibsən, naqissən!

Görüb tanıyanlar bezirlər səndən,
Dolanıb kənarda gəzirlər səndən,
Əlini-əlindən üzürlər səndən,
Naxələfsən, nanəcibsən, naqissən!

Yaxşı da gözündə yamana dönür,
Günəş də gözündə dumana dönür,
Qanan da yanında samana dönür,
Naxələfsən, nanəcibsən, naqissən!

Hiyləgər, dələduz, bicdən törədin,
İlqara-imana kəcdən törədin,
Haqqa-ədalətə öcdən törədin,
Naxələfsən, nanəcibsən, naqissən!

Səndə olan əlamətə nə deyim?
Kəc xəyala, gic niyyətə nə deyim?
Arzu-istək, məhəbbətə nə deyim?
Naxələfsən, nanəcibsən, naqissən!

Gör nəqədər bezdimisən Cəmili?
Dağı-daşı gəzdirmisən Cəmili?
Min əzaba dözdürmüsən Cəmili?
Naxələfsən, nanəcibsən, naqissən!

***Cəmil Əkbər*** 21. 06 – 1998

## 145. OLACAQLAR

Hər adamdan yoldaşlığı gözləmə!
Mehri-ülfət qardaşlığı gözləmə!
Həmdəmliyi, sirdaşlığı gözləmə!
Bizi yada salasılar-salacaq.

Hərkəsdənin deyiləsi sözü yox,
El içinə çıxılası üzü yox,
Könüllərdə qalmaq üçün izi yox,
Yaddaşlarda qalasılar-qalacaq.

Hər fərsizdən fərasəti gözləmə,
Hünərləri, cəsarəti gözləmə,
Bacarığı, məharəti gözləmə,
Zəfərləri çalasılar-çalacq.

Şərafət gərəkdir şöhrət əhlinə,
Ar-namus əhlinə, qeyrət əhlinə,
Mənəvi gözəllik, sərvət əhlinə,
İlhamını alasılar-alacaq.

Hər sinə altında məhəbbət olmur,
İnsaf-mürvət olmur, kəramət olmur,
Mehri-ülfət olmur, mərhəmət olmur,
Qayğımıza qalasılar-qalacaq.

Gədələrin mərhəməti çatışmır,
Ədəb-ərkan, nəzakəti çatışmır,
Xeyirxahlıq, fəziləti çatışmır,
Ənaəti olasılar-olacaq.

Kim getmirsə ədalətin yolunca,
Sədaqətin, səxavətin yolunca,
Doğru-düzlük, həqiqətin dalınca,
Saçlarını yolasılar-yolacaq.

Sözüm yoxdur düşünənə qanana,
Xətir-hörmət, haqq-sayı anana,
Böyük-kiçik pəsinənə, sanana,
Dəryatəki dolasılar-dolacaq.

Gecə-gündüz kədər çəkib, qəm yemə,
İnildəyib, sızıldayıb bəm yemə,
Ədəb-ərkan, mərifətdən kəm yemə,
Xəzan vurub solasılar-solacaq.

Gedənlərə, gələnlərə darılma!
İçin-için çürükləyib qırılma!
Onun-bunun əl-qoluna sarılma!
Sevinəsi, güləsilər güləcək.

Sözlərim yayılsın, çatsın həryana,
Səs salsın Muğana, Milə, Şirvana,
İşləsin iliyə, qoy keçsin qana,
Eşidəsi, biləsilər-biləcək.

Yığılsın başıma sözü qananlar,
Haqqı-ədaləti, düzü qananlar,
Dərini, dayazı, üzü qananlar,
Qədir bilib gələsilər-gələcək.

Mənim sözüm ədaləti car çəkir,
Doğru-düzlük, həqiqəti car çəkir,
Saf arzunu, pak niyyəti car çəkir,
Dərk eyləyib qanasılar-qanacaq.

İstərdim ki, həqiqəti anlayaq,
İnsanlığı, ləyaqəti anlayaq,
Harda varsa cəhaləti danlayaq,
Xatırlayıb anasılar-anacaq.

***Cəmil Əkbər*** 24. 12 – 1999

## 146. BU GÜN DƏ BELƏ

Zəmanə dəyişdi, alimləri də,
Dünən elə yazdı, bu gün də belə.
Dəyişdi şairi, nasirləri də,
Dünən elə çoşdu, bu gün də belə.

Dəyişdi cavanı, qocaları da,
Vəziri, vəkili, xocaları da,
Zirvədə hamıdan ucaları da,
Dünən elə dedi, bu gün də belə.

Dəyişdi donunu fəhlə qardaşım,
Muzdurluq eylədi kəndli qardaşım,
Dondan-dona düşən fəndli qardaşım,
Dünən elə gördu, bu gün də belə.

Dəyişdi hakim də, polis də donu,
Nanəcib, naxələf, naqis də donu,
Tamahkar, acgöz də, həris də donu,
Dünən elə oldu, bu gün də belə.

Dəyişdi toylarda çalınan tar da,
Etibar, etiqad, inam, ilqar da,
Vicdan da, namus da, qeyrət də, ar da,
Dünən elə çaldı, bu gün də belə.

Dəyişdi düşüncə, dəyişdi kamal,
Dəyişdi əqidə, dəyişdi amal,
Dəyişdi el-oba, dəyişdi mahal,
Dünən elə gördu, bu gün də belə.

Dəyişdi sağlam da, xəstə olan da,
Boydan uzun olan, bəstə olan da,
Düşüb hay-həşirə, səsdə olan da,
Dünən elə gəzdi, bu gün də belə.

Dəyişdi qəlblərdə izi olan da,
Alovu, həniri, közü olan da,
Dillərdə car olub, sözü olan da,
Dünən elə söndü, bu gün də belə.

Dəyişdi dərə də, təpə də dağ da,
Hər gün yesələr də, yağ ilə bal da,
Öldülər xəstə də, dərdlədi sağ da,
Dünən elə getdi, bu gün də belə.

***Cəmil Əkbər*** 25. 12 – 1999

## 147. HƏR ŞEY

Hər şey dəyişsə də, yeniləşsə də,
Ədalət, həqiqət yeniləşməsin!
Hər şey kök atsa da, qətiləşsə də,
Avamlıq, cəhalət qətiləşməsin!

Hər şey təzələnib yeniləşsə də,
Sədaqət, səxavət yeniləşməsin!
Hər şey saxtalaşıb, süniləşsə də,
Saf ülfət-ünsiyyət süniləşməsin!

Hər şey püxtələşib təkmilləşsə də,
Dünyada məhəbbət təkmilləşməsin!
Əl-ələ versə də, yekdilləşsə də,
Bəd fikir, bəd xəyal yekdilləşməsin!

Hər şey kök tutsa da mətinləşsə də,
Paxıllıq, xəyanət mətinləşməsin!
Hər şey bu dünyada çətinləşsə də,
Yaşamaq-yaratmaq çətinləşməsin!

Hər şey gözəlləşib asanlaşsa da,
Bəd arzu, bədniyyət asanlaşmasın!

Hər şey eşələnib dərinləşsə də,
Ədavət, küdurət dərinləşməsin!
Günəş qürub edib sərinləşsə də,
Nə ülfət-ünsiyyət sərinləşməsin.

Hər şey pəh-pəh ilə bəslənilsə də,
Paxıllıq, xəyanət bəslənilməsin!

Hər şey zəhmət ilə becərilsə də,
Küdurət, ədavət becərilməsin!

Hər şey dəyişsə də, yeniləşsə də,
Dədələr, babalar yeniləşməsin!

Hər şey kök atsa da, ciddiləşsə də,
Nə qisas, intiqam ciddiləşməsin!

Hər şey bu dünyada kasadlaşsa da,
Nə insaf, nə mürvət kasadlaşmasın!
Qəhətə çıxsa da, cılızlaşsa da,
Bacarıq, məharət cılızlaşmasın!

Hər şey bu dünyada azğınlaşsa da,
İnsanam deyənlər azğınlaşmasın!
İtirib ağlını pozğunlaşsa da,
Ustadam deyənlər pozğunlaşmasın!

Hamı bu dünyadan köçüb getsə də,
Dünyada ləyaqət köçüb getməsin!
Əcəlin şərbətin içib getsə də,
Nə şöhrət, şərafət köçüb getməsin!

***Cəmil Əkbər***

## 148. VURĞUNDUR

Əsl insan, ali insan odur ki?
Sədaqətə, səxavətə vurğundur.
Böyük insan, vali insan odur ki?
Sağlam istək, pak niyyətə vurğundur.

Düz hərlənib, düz oturub, düz durub,
Düz eşidib, düz anlayıb, düz görüb,
Düz işləyib, düz yaradıb, düz qurub,
Ədalətə, həqiqətə vurğundur.

Halaldı zəhməti, süfrəsi, nanı,
Çəkdiyi zülalı, düzdüyü şanı,
Ülvidi vicdanı, təmizdi qanı,
Səxavətə, kəramətə vurğundur.

Qədəmi uğurlu, üzü nurludur,
Hökmü-sədarəti, sözü zorludur,
Ocağı istidir, közü qorludur,
Ədəb-ərkan, mərifətə vurğundur.

Aldanmayıb bu dünyanın malına,
Dəymişinə, sütülünə, kalına,
Nəzər salıb əvvəl-axır yoluna,
Ülviyyətə, ləyaqətə vurğundur.

Tamaha qapılıb, yolu azmayıb,
Sağa nəzər salıb, solu azmayıb,
Keçidi, qajları, qolu azmayıb,
İnsanlığa, cəmiyyətə vurğundur.

Cəmil Əkbər nəzər salıb həyata,
Zəmanəyə, bu dövrana, büsata,
Getməsə də İstambula, Herata,
Tək ülfətə, ünsiyyətə vurğundur.

***Cəmil Əkbər***

## 149. DOLUB

Könüllərdə məhəbbətin yerinə,
Çoxalıb nəyaman küdurət dolub?
Əhdin-andın sədaqətin yerinə,
Xainlik, xəbislik, ədavət dolub?

Ədəb-ərkan mərifətin yerinə,
Tərbiyənin, fərasətin yerinə,
Bacarığın, məharətin yerinə,
Avamlıq, nadanlıq, cəhalət dolub.

Pak ülfətin-ünsiyyətin yerinə,
Öyüd sənə, nəsihətin yerinə,
Gözəl, incə xasiyyətin yerinə,
Paxıllıq, xəyanət, qəbahət dolub.

Doğru-düzlük həqiqətin yerinə,
Sədaqətin, səxavətin yerinə,
Xoş rəftarın, nəzakətin yerinə,
Gileylər-güzarlar, şikayət dolub.

Yazılan fitnəyə, böhtanlara bax,
İblis, əzrailə, şeytanlara bax,
Züy tutub nağara çalanlara bax,
Saxta məlumatlar, bəyanat dolub.[103]

İnsanlığın, ləyaqətin yerinə,
Xeyirxahlıq, fəzilətin yerinə,
Saf arzunun, pak niyyətin yerinə,
Yalan-palan, saxta hekayət dolub.

***Cəmil Əkbər*** 30.12-1999

---

[103] *II variant* Azalıbdır ədalətin sorağı,
İnsaf-mürvət, kəramətin sorağı,
Zərifliyin, məlahətin sorağı,
Saxta məlumatlar, bəyanət dolub.

## 150. ARAMA!

Düşmən sənin  öz içində dolanır,
Gedib onu uzaqlarda arama!
Yeyib-içir daxilində sulanır,
Qasırğada, sazaqlarda arama!

Nə günah var zalımlardan törəyir,
Aşıb-daşan, dolanlardan törəyir,
Qabırğası qalınlardan törəyir,
Məzlumlarda, yazıqlarda arama!

Zibillikdə eşələnir sərçələr,
Dən döşürür elə-belə dirçələr,
Tərlanların məskənidir zirvələr,
Qarğa kimi duzaxlarda arama!

***Cəmil Əkbər***

## 151. GÖRƏNMƏDİM

Qabırğası qalınlarda,
Nəzakəti görənmədim.
Cəhalətdə solanlarda,
Fəziləti görənmədim.

Ha boylandım hər ürəkdə,[104]
Hər arzuda, hər diləkdə,
Hər xəlbirdə, hər ələkdə,
Məhəbbəti görənmədim.

Orda-burda hər oğulda,
İgidsayaq nər oğulda,
Cavan, cahil pir oğulda,
Məharəti görənmədim.

Hər oxuyub yazanlarda,
Hər çağıran ozanlarda,
Düzü tərsə yozanlarda,
Ədaləti görənmədim.

---

[104] Boylansamda hər ürəkdə.

Fikirləri çaş olandan,
Sinəsində daş olandan,
Hər üzüyə qaş olandan,
Keyfiyyəti görənmədim.

Hər güllərdə, çiçəklərdə,
Hər gözəldə, göyçəklərdə,
Hər bəslənən dibçəklərdə,
Təravəti görənmədim.

Hər yoldaşda, hər tay-tuşda,
Hər bacıda, hər qardaşda,
Hər arkadaş, hər sirdaşda,
Sədaqəti görənmədim.

Gələnlərdə, gedənlərdə,
Onu-bunu güdənlərdə,
Hər yaxşılıq edənlərdə,
Ləyaqəti görənmədim.

***Cəmil Əkbər*** 29. 12 - 1999

## 152. GÖRƏNMİR

İnsanoğlu gör haçandan kor qalıb,
Doğru-düzlük, həqiqəti görənmir.
Ha deyirsən eşitməyir, kar qalıb,
İnsanlığı, ləyaqəti görənmir.

Törədilən davalarda boğulur,
Zəhərlənmiş havalarda doğulur,
Pünhan-pünhan zühr eyləyib doğulur,
Ədəb-ərkan nəzakəti görənmir.

Birbirinə qəsd etməkdən həzz alır,
İçməmişdən məst etməkdən həzz alır,
Astarını üst etməkdən həzz alır,
Xeyirxahlıq, fəziləti görənmir.

Gözləməyir namusunu, arını,
Görən yoxdur faydasını, karını,
Yoğnudurlar peysərini, qarını,
Əzab çəkən cəmaəti görənmir.

Orda-burda vaxt-vədəsiz olurlar,
Ona-buna yerli-yersiz gülürlər,
Tər qönçədə saralırlar, solurlar,
Əvvəl-axır, nihayəti görənmir.

Birbirinə əzab verir, bezdirir,
Eniş-yoxuş, dağı-daşı gəzdirir,
Hər zülümə, müsibətə dözdürür,
İnsaf-mürvət, kəraməti görənmir.

İlqara-imana dönüklər artır,
Vicdanı-məsləyi sönüklər artır,
Zəhmətsiz var-hala əniklər artır,
Sədaqəti, səxavəti görənmir.

Ünsiyyətlər gündən-günə korlanır,
Olan-qalan hissiyyatlar zorlanır,
El-obaya yarayanlar xorlanır,
Ehtiramı, mərhəməti görənmir.

Xəbis ürək küdurətlə doludur,
Kin, nifrətlə, ədavətlə doludur,
Qəbahətlə, xəyanətlə doludur,
Ülvi-istək, məhəbbəti görənmir.

Yerə sığmır nanəcibin ədası,
Qulaqları dəng eyləyir sədası,
Düzələn döy nadanların gədası,
Pis vərdişi, nəs adəti görənmir.

Düşüb çamırlığa batan oqədər,
Qərq olub qəflətdə yatan oqədər,
Şər deyib aranı qatan oqədər,
Xoş günləri, səadəti görənmir.

Düşünüb, dərk edib anlaya bilmir,
Özünə ərk edib danlaya bilmir,
Kötəkləyə bilmir, yanlaya bilmir,
Şan-şöhrəti, şərafəti görənmir.

Şər deyib aranı qatmasa olmur,
Qaşları-qabağı çatmasa olmur,
Mərdləri-namərdə satmasa olmur,
Ünsiyyətdə nəzakəti görənmir.

Gecə-gündüz hey özünü düşünür,
Ləpirini, öz izini düşünür,
Öz oğlunu, öz qızını düşünür,
Yaşadığı cəmiyyəti görənmir.

Pisin oğlu pislik ilə dolanır,
Nəsin oğlu nəslik ilə dolanır,
Tərsin oğlu tərslik ilə dolanır,
Pak arzunu, saf niyyəti görənmir.

Bir-birinin anasını ağladır,
Qapısını-bacasını bağladır,
Od-ocaqsız sinəsini dağladır,
Ehtiramı, mərhəməti görənmir.

İnsan bir-birini qırdı, qurtardı,
İncidib, bezdirib yordu qurtardı,
Çəkib şirəsini sordu qurtardı,
Müsibəti, fəlakəti görənmir.

Sədaqətlə, səxavətlə dolanmır,
İnsaf-mürvət, kəramətlə dolanmır,
Ülvi-istək, məhəbbətlə dolanmır.
Tüğyan edən qəbahəti görənmir.

Onu-bunu bezdirməkdən utanmır,
Əzablara dözdürməkdən utanmır,
Dağı-daşı gəzdirməkdən utanmır,
Nadanlığı, cəhaləti görənmir.

Cəmil Əkbər əzəl gündən belədir,
Səbəb nədir, yaxşı-pisə kölədir?
Kişi oğlu gədələrə pilədir,
Cahil, nadan mərifəti görənmir.

***Cəmil Əkbər*** 22. 08 – 1996

## 153. ALMIŞAM

Gəl sən mənə yalan-yanlıc öyrətmə,
Mən dərsimi həqiqətdən almışam.
Dava-dalaş, qalxan-qılınc öyrətmə,
Mən dərsimi sədaqətdən almışam.

Gəl sən mənə fitnə-fəsad danışma,
Huşu sərsəm, əqli-kasad danışma,
Evlər yıxıb, könlü abad danışma,
Mən dərsimi səxavətdən almışam.

Sığınmışam, Peyğəmbərə, imama,
Könlüm getməz, bir anlığa gümana,
Mən düşsəm də, bu yollarda dumana,
Mən dərsimi kəramətdən almışam.

Heçkimsəyə fitnə-fəsad demərəm,
Fikri çaşqın, əqli-kasad demərəm,
Damağı çağ, könlü abad demərəm,
Mən dərsimi ədalətdən almışam.

Əzəl gündən mən sevmişəm öyüdü,
Molla, qazı, müştehidi, seyidi,
Sevməmişəm nə ulğunu, söyüdü,
Mən dərsimi nəsihətdən almışam.

Çox görmüşəm tənhalığı, təkliyi,
Dağda-daşda fəqan edən kəkliyi,
Adsız-sansız, mənsiz olan mənliyi,
Mən dərsimi cəmiyyətdən almışam.

Gəlməmişəm bu dünyaya bir anlıq,
Salmamışam ürəklərə qaranlıq,
Etməmişəm birkimsəyə yamanlıq,
Mən dərsimi nihayətdən almışam.

Nifrət etdim hər böhtana, hər şərə,
İnanmadım hər möminə, hər pirə,
Cəfa çəkib, sinə gərdim min kərə,
Mən dərsimi bu hikmətdən almışam.

Üz tutmadım, hər cığıra, hər yola,
Hər bağçaya, hər bostana, hər kola,
Qoşulmadım hər qovğaya, hər qala,
Mən dərsimi ləyaqətdən almışam.

***Cəmil Əkbər*** 30. 03 – 1987

## 154. ÖZÜMƏ

Aman Allah nə bəlalı başım var,
Öz çörəyim qənim oldu özümə.
Nə cəncəlli, xəsarətli işim var,
Öz köməyim qənim oldu özümə.

Hər yetən kəsləri sevə bilmədim,
Yazıb tərifini deyə bilmədim,
Bəsləyib boyunu öyə bilmədim,
Öz ürəyim qənim oldu özümə.

Kimə nələr etdim yadda qalmadı,
Silindi ünvandan adda qalmadı,
Damaqda qalmadı, dadda qalmadı,
Öz əməyim qənim oldu özümə.

Çalışdım, vuruşdum var qəhəd oldu,
Bağımda yetişən bar qəhəd oldu,
Vəfalı dost-tanış, yar qəhəd oldu,
Öz gərəyim qənim oldu özümə.

İstədim hamıya səadət olsun,
Gözəl ənənələr, xoş adət olsun,
Kiçikdən-böyüyə  ibadət olsun,
Öz diləyim qənim oldu özümə.

Yayındım xətadan qaça bilmədim,
İdrakdan ziyamı saça bilmədim,
Qalxıb ənginlikdə uça bilmədim,
Öz lələyim qənim oldu özümə.

Ürəkdən keçəni söyləyənmirəm,
Tərsinə gedəni əyləyənmirəm,
Yaxşını-yamandan ələyənmirəm,
Öz ələyim qənim oldu özümə.

Bilmirəm nə fikir başıma gəldi?
Düşdü xəyalıma, huşuma gəldi?
Çıxdı qənşərimə, tuşuma gəldi?
Öz kamalım qənim oldu özümə.

Cəmil Əkbər qınamayır heçkəsi,
Bərkdə-boşda sınamayır heçkəsi,
Saya salıb unamayır heçkəsi,
Öz kələyim qənim oldu özümə.

***Cəmil Əkbər*** 25. 06 – 1998

## 155. HƏRƏ BİR YANDAN

El-obanı talayırlar ay aman,
Hərə bir tərəfdən, hərə bir yandan.
Hamı qapaqapdır, hamı əlaman,
Hərə bir tərəfdən, hərə bir yandan.

Düzələsi bir iş varsa əyirlər,
Qapazlayıb təpəsinə döyürlər,
Atasına-anasına söyürlər,
Hərə bir tərəfdən, hərə bir yandan.

Ədalətin əleyhinə gedirlər,
Ayaq altda tapdalayıb didirlər,
Hərkəs gedib öz xeyrini güdürlər,
Hərə bir tərəfdən, hərə bir yandan.

Yaxşılara pis deyənlər tapılır,
Xeyirxaha nəs deyənlər tapılır,
Höcət, inad, tərs deyənlər tapılır,
Hərə bir tərəfdən, hərə bir yandan.

El xeyrinə çalışanlar azalıb,
Bəhsə düşüb yarışanlar azalıb,
Od alanlar, alışanlar azalıb,
Hərə bir tərəfdən, hərə bir yandan.

El varına qəsd edənlər çoxalıb,
Ərk edənlər, şəsd edənlər çoxalıb,
Onu-bunu məsd edənlər çoxalıb,
Hərə bir tərəfdən, hərə bir yandan.

Fürsət tapıb indi oğru-əyrilər,
Finişdədir, yarışdadır qeyrilər,
Qazanmamış, yaratmamış yeyirlər,
Hərə bir tərəfdən, hərə bir yandan.

Doğrulara əyri deyən çoxalıb,
Xeyri deyil, şəri deyən çoxalıb,
Hara oldu, yeri deyən çoxalıb,
Hərə bir tərəfdən, hərə bir yandan.

Hamı öz işində dəllallıq edir,
Möhtəkirlik edir, baqqallıq edir,
Tülkülük nədir ki, çaqqallıq edir,
Hərə bir tərəfdən, hərə bir yandan.

Quyruğunu  bulayanlar çoxalıb,
Onu-bunu dolayanlar çoxalıb,
Siniləri yalayanlar çoxalıb,
Hərə bir tərəfdən, hərə bir yandan.

İnsanoğlu öz yolunu azıbdır,
Doğru fikir, düz yolunu azıbdır,
Ünsiyyəti-ülfətləri pozubdur,
Hərə bir tərəfdən, hərə bir yandan.

Ay Cəmil fikirlər dolaşıb yaman,[105]
Ağı-qarasına bulaşıb yaman,
İpi-ilməsinə culaşıb yaman,
Hərə bir tərəfdən, hərə bir yandan.

***Cəmil Əkbər*** 17. 05 -1990

## 156. YER YEDİ

Tamahına uymasınlar gədələr,
Acgöz, hərisi də yedi, yer yedi.
Vicdanı kəm-kəsir, qəlbi zədələr,
Sultanı da, xaqanı da yer yedi.

Birkəs yaxasını qurtaranmadı,
Vaxtını uzadıb artıranmadı,
Əcəl köhlənini yatıranmadı,
Çəkib öz qoynuna yedi, yer yedi.

Çox mənəm deyənin atıldı daşı,
Tutuldu qabağı, çatıldı qaşı,
Gödəldi ömürü, kəsildi yaşı,
Çəkib caynağına yedi, yer yedi.

Nə sadəni, nə xudbini qoymadı,
Nə qəmgini, nə nikbini qoymadı,
Nə gözəli, nə çirkini qoymadı,
Döşürdü, sümürdü yedi, yer yedi.

Dünyaya gələnlər qalmadı getdi,
Şirin xəyallara dalmadı getdi,
İsrafil surunu çalmadı getdi,
Məqamı gəldikcə yedi, yer yedi.

---

[105] Fikirlər, xəyallar dolaşıb yaman.

Boş qaldı yurdları ulu şahların,
Evləri, eşiyi dolu şahların,
Çatmadı haraya pulu şahların,
Susdurdu, kiritdi yedi, yer yedi.

İstədim qəflətdən ayılsın hamı,
Seçilsin, tanınsın sayılsın hamı,
Ellərə-obaya yayılsın hamı,
Basıb dar məzara yedi, yer yedi.

Dünyaya gələnlər, gəldi də getdi,
Ağladı, sızladı güldü də getdi,
Oxudu, öyrəndi, bildi də getdi,
Çəmil Əkbəri də yedi, yer yedi.

***Cəmil Əkbər*** 10-18 // 04 -1998

## 157. QƏLBİMƏ DƏYƏN OLMASIN

***Qəlbə dəyən olanda,*** kef-damaq da pozulur,
Deyib gülmək, şənlənmək, oynamaq da pozulur.
Ünsiyyətdə-ülfətdə verəmmirəm payımı,
Sədaqətim tükənir, səxavətim azalır,
Qəbahətə dözəmmir, inildəyir ürək də.
Mərhəmət də tükənir, kəramət də azalır,
Qəlbə dəyən olanda, baş da yaman ağrıyır,
Damaqlar da yerbəyer, diş də yaman ağrıyır.
İnsan yaman sarsılır, gələ bilmir özünə,
Dağlar da gözdən düşür, baxammıram düzünə.
Əsəblər də korlanır, qaşqabaqlar tökülür,
Dözə bilmir dərdlərə, dağ qamət də bükülür.
Dərdi-qəmin əlindən, ürək belə sıxılır,
Uçur evlər-eşiklər, dirək belə yıxılır.
***Qəlbə dəyən olanda,*** kin-küdurət çoxalır,
Tüğyan edir qəzəb də, ədavət də çoxalır.
Bu naməni yazdım ki, dəyməsinlər qəlbimə,
Qürurumu sarsıdıb, dəyməsinlər şəsdimə.
Kim qəlbimə toxunsa, onu ağ gün görməsin,
Olsun illər xəstəsi, onu sağ gün görməsin.

Gəzəmməsin salamat, onun qəlbi qırılsın,
Dərd bağlasın sinəsi, dağ-düyünlər vurulsun.
Kim qəlbimə toxunsa, qoy səması daralsın,
Dolu döysün zəmisin, yerbəyerdən saralsın.

***Cəmil Əkbər*** 22. 02 – 1998

## 158. DÜŞMÜŞÜK?

Aman Allah görəsən, nə günahdı etmişik?
Nə hiylədi, məkrdi, nə kələkdi düşmüşük?
Nabələdlik eyləyib, hansı yolla getmişik?
Qasırğaya, tufana, nə küləkdi düşmüşük?
Görəsən yerdən göyə, nə baladır gəlibdir?
İşgəncəyə, zülümə, müsibətə düşmüşük.
Qəm-kədərin əlində, ürəyimiz dəlinir,
Müsibətə rast gəlib, nə dəhşətə düşmüşük?
Kələf yaman dolaşıb, heç bilmirəm neyləyim?
Necə dərddi-məlaldı, nə hillətdi düşmüşük?
Bu dərd məni öldürür, kimə bəyan eyləyim?
Nə qiyamət günüdür, fəlakətdi düşmüşük?
Ha deyirsən sözünü, qanmayanlar qanmayır,
Avamlığa qərq olub, cəhalətdi düşmüşük.
Haqq-sayı yad edib, anmayanlar-anmayır,
Necə ağır zəmanə, nə zülmətdi düşmüşük?
Ara vermir qal-qovğa, dava-dalaş kəsməyir,
Davam edir küdurət, ədavətdi düşmüşük.
Nə həyəcan, səksəkə, nə təlaşdı kəsilmir?
Nə paxıllıq, xainlik, xəyanətdi düşmüşük?
İnsanoğlu dərk edib, bir-birini anlamır,
Nə gileydi, güzardı, şikayətdi düşmüşük?
Bir utanıb, qızarıb, öz-özünü danlamır,
Nə dastandı yazılır, hekayətdi düşmüşük?
Ömrümüz-günümüz də, davalarda çürüyür,
Bu nə dərddi-azardı, nə zülmətdi düşmüşük?
Od-ocaqsız yanaraq, için-için əriyir,
Nə əzabdı çəkirik, nə hillətdi düşmüşük?
Xətir-hörmət gözlənib, böyük-kiçik sanılmır,
Nə işgəncə, iztirab, məşəqqətdi düşmüşük?

Buminvalla, məramla görən hara gedirik?
Xəstəliyə yoluxub, xəsarətdi düşmüşük.
Cəmil Əkbər nəüçün bu günlərə qalıbdır?
Bu möhnətdi dözürük, həqarətdi düşmüşük?
Necə yaxa qurtaraq gicinoğlu giclərdən?
Hiyləgərlər, dələduz, bicinoğlu biclərdən.
Necə müdhiş mənzərə, fəlakətdi düşmüşük?
Nə gərdişi-zəmanə, şəraitdi düşmüşük?

***Cəmil Əkbər*** 14. 07 – 1998

## 159. AZARIM

Hara gedim görəsən, orda ədalət olsun?
O yerlərdə doğruluq, orda həqiqət olsun,
Orda sədaqət olsun, orda səxavət olsun,
İnsaf, mürvət, kəramət, orda mərhəmət olsun.
Ədəb- ərkan yaşasın, orda nəzakət olsun,
Ürəklərdə eşq-həvəs, orda məhəbbət olsun.
Orda xətir var ola, orda hörmət var ola,
Orda nicat var ola, orda nüsrət var ola.
Hara gedim bilmirəm, orda dəhşət olmasın?
Nə gileylər, güzarlar, nə də qeybət olmasın?
Qəm-qüssələr azalsın, orda kədər olmasın?
İşgəncələr, cəzalar, orda qəhər olmasın?
Şər-böhtanı danışan, araqatan olmasın?
Xalqı müflis eyləyib, vara çatan olmasın?
Saxta sözlər, fikirlər, orda yalan olmasın?
Xəzanlara qərq olan, orda solan olmasın?
Hiyləgərlər, dələduz, orda biclər olmasın?
İlqarına-imana orda kəclər olmasın?
O yerlərdə avamlar, cahil, nadan olmasın?
Yollarını, izini tərsə adan olmasın?
O yerlərdə kədərli, dərdli, qəmli olmasın?
Ürəkləri niskilli, gözü nəmli olmasın?
Varmı görən elə yer, qəbahətlər olmasın?
Kin-küdurət olmasın, ədavətlər olmasın?
İnsanlardan-insana, xəyanətlər olmasın?
Qəsd-qərəzlə deyilən, bəyanatlər olmasın?

Əhli-keflər, laqeyid, biganələr olmasın?
Elə, xalqa zülm edən, divanələr olmasın?
Hara gedim görəsən, orda azğın olmasın?
Ağzı qara canavar, orda quzğun olmasın?
Fitnə-fəsad törədən, dələduzlar olmasın?
Vicdanı kəm-kəsirlər, qəlbi buzlar olmasın?
Qal-qovğadan törəyən, orda dava olmasın?
Zəhərlərə qərq olan, orda hava olmasın?
Müsibətdən törəyən, nə dəhşətlər olmasın?
Vahimələr, səksəkə, nə də heyrət olmasın?
İnildəyən ürəklər, ağaran baş olmasın?
Buludtəki tutulan, çatılan qaş olmasın?
Hara gedim görəsən, azğınları görməyim?
Ünsiyyətdə-ülfətdə pozğunları görməyim?
Nanəcib, nadürüstü, naqisləri görməyim?
Mənfurları, rəzili, xəbisləri görməyim?
Tamahkiri, acgözü, hərisləri görməyim?
Paxılları, xaini, o pisləri görməyim?
Nəolaydı düşəydi, o yerlərə güzarım,
Bəlkə şəfa tapaydı, qurtaraydı azarım.

***Cəmil Əkbər*** 8. 06 - 1998

## 160. UZAQSA

İnsan dedikləri nə pis olarmış,
Ülvi-istək, məhəbbətdən uzaqsa.
Nanəcib, naxələf, naqis olarmış,
Sədaqətdən, səxavətdən uzaqsa.

Vətənə, xalqına xidməti olmaz,
Düşər el gözündən, qiyməti olmaz,
Yaratmaq eşqiylə zəhməti olmaz,
Saf arzudan, pak niyyətdən uzaqsa.

Nəqədər çalışsa ucala bilməz,
Zəfər dünyasından bac ala bilməz,
Toplayıb özünə güc ala bilməz,
Bacarıqdan, məharətdən uzaqsa.

Şan-şöhrətə, şərafətə çatanmaz,
İnsaf-mürvət, mərhəmətə çatanmaz,
Din-imana, şəriətə çatanmaz,
Ədəb-ərkan, nəzakətdən uzaqsa.

Hamı onu cəllad kimi tanıyar,
Məzəmmətlə nifrət edib, qınayar,
Qəzəb ilə, hiddət ilə yanıyar,
Xeyirxahlıq, fəzilətdən uzaqsa.

Mənliyi itərək pozulub gedər,
Xətiri-hörməti azalıb gedər,
İnləyib, sızlayıb, sozalıb gedər,
İnsanlıqda ləyaqətdən uzaqsa.

Cəmil, gör nəqədər getdi, qalmadı?
Zaman keçdi, tarix yada salmadı?
Soraqlayıb, bir halı da olmadı?
Doğru-düzgün bəyanatdən uzaqsa.

***Cəmil Əkbər*** 20. 05 – 1997

## 161. UZAQSAN

Nə korsan, nə karsan a millətoğlu?
İnsaf-mürvət, kəramətdən uzaqsan.
Müsibət, işgəncə, a zillətoğlu?
Doğru, düzlük həqiqətdən uzaqsan.

Nəzamandı cəhalətdə qalmısan?
Kin-küdurət, ədavətdə qalmısan?
Paxıllıqda, xəyanətdə qalmısan?
Ünsiyyətdə ləyaqətdən uzaqsan.

Yersiz lovğalanıb, ədalanırsan,
İtirib əqlini gədalanırsan,
Nifrətlə yad olub sədalanırsan,
Ədəb-ərkan, nəzakətdən uzaqsan.

İlqara-imana dönük çıxırsan,
Vicdana-məsləyə sönük çıxırsan,
Min səmtə üz tutub, yönük çıxırsan,
Sədaqətdən, səxavətdən uzaqsan.

Qəlbin dolu çamırlıqdı a yazıq,
Üfunətdi, mamırlıqdı a yazıq,
Gecə-gündüz yağmurluqdu a yazıq,
Ətri-ənbər, təravətdən uzaqsan.

Əsəblər korlayıb qana sussadın,
Zülala dadandın, şana sussadın,
Cəsədə soxuldun, cana sussadın,
Xeyirxahlıq, fəzilətdən uzaqsan.

Nanəciblik, naqislikdə ad aldın,
Xainlikdə, xəbislikdə ad aldın,
Acgözlükdə, hərislikdə ad aldın,
Saf arzudan, pak niyyətdən uzaqsan.

Gecə-gündüz hey özünü düşündün,
Öz ərkini, öz nazını düşündün,
Öz oğlunu, öz qızını düşündün,
El-obadan, cəmiyyətdən uzaqsan.

Sənin qəlbin nifrət ilə doludur,
Qəzəb ilə, hiddət ilə doludur,
Giley-güzar, qeybət ilə doludur,
Ülvi istək, məhəbbətdən uzaqsan.

***Cəmil Əkbər*** 14. 11- 1997

## 162. OLANMIRAM

Neyləyimki, əzəl gündən beləyəm,
Mən belə olmuşam, sən olanmıram.
Öz xalqıma ömürboyu köləyəm,
Dərdi-qəm əlindən şən olanmıram.

İstərdim hamının yanında olum,
Damarında olum, qanında olum,
Zülanında olum, şanında olum,
Gedib uzaqlarda gen olanmıram.

İstərdim ziyamı salım həryana,
Məsləyi, qayəni salım həryana,
Abırı, həyanı salım həryana,
Ünsiyyət-ülfətdə çən olanmıram.

İstərdim hamının gərəyi olum,
Dar gündə arxası, köməyi olum,
Damının sütunu, dirəyi olum,
Hərkəsə üyünən dən olanmıram.

İstərdim kəhkəşan bir ulduz olam,
Alov olmasam da, qığılcım olam,
Hamıya çatası bir əlac olam,
Çatmayır qüdrətim, gün olanmıram.

Mən Cəmil Əkbərəm belə canlıyam,
Şair təbiətli, həyəcanlıyam,
Mehri-ülfətliyəm, istiqanlıyam,
Başqa təbiətli qan olanmıram.

***Cəmil Əkbər*** 24. 09 – 1990

## 163. ZORNAN

Zalımlar məzluma imdad etməyir,
Bezdirib zəhləsin tökürlər zornan.
Məgər torpağında taxıl bitməyir?
Nədənsə tənbəki əkirlər zornan.

Dərk etmək istəmir insan-insanı,
Üzüb ürəyini, alırlar canı,
Hayanda qalıbdır, bəs mürvət hanı?
Əyib qamətini bükürlər zornan.

Eşitmir, anlamır həmdəm-həmdəmi,
Azaldır sevinci, artırır qəmi,
Car edib gözündən axıdır nəmi,
Dağı sinəsinə çəkirlər zornan.

İnsanlıq eşqiylə vuran qəlblərin,
Yaşayıb, yaradan, quran qəlblərin,
Elin xidmətində duran qəlblərin,
Dağıdıb bəndini sökürlər zornan.

Haçandan bəridir fəqir yazıqlar,
Əlacsız, çarəsiz, səqir yazıqlar,
Söyülüb, döyülən təhqir, yazıqlar,
Zülmün kotanını çəkirlər zornan.

Ey Cəmil, bu dövran belə də getməz,
Səbr edib, tablaşıb kölə də getməz,
Bu ahlar, nalələr yelə də getməz,
Diz çöküb, baş əyib, çökürlər zornan.

***Cəmil Əkbər*** 3. 08 – 1987

## 164. BİR ZAMAN

Bir zaman bu oldu, arzumuz bizim,
Fikir, diləyimiz, sözümüz bizim.
Hamı təhsil alsın, savadlı olsun,
İqtidar sahibi, imdadlı olsun.
Oxuduq, öyrəndik, savad da aldıq,
Şərəfli-şöhrətli bir ad da aldıq.
Kimi alim oldu, kimi mühəndis,
Kimi müsbət oldu, kimi də naqis.
Kimi Hatəm oldu, kimisi xəsis,
Kimi xain oldu, kimi də xəbis.
Kimi həkim oldu, kimi aqranom,
Diplomlar yazıldı, neçə-neçə tom.
Kimisi müğənni, kimi bəstəkar,
Kimi çoban oldu, kimi sənətkar.
Oxuyan çoxaldı, yazan çoxaldı,
Ülfət-ünsiyyəti pozan çoxaldı,

Doğrunu əyriyə yozan çoxaldı,
Yolunu-izini azan çoxaldı.
Çoxları üz tutdu şəhərə sarı,
Nə deyib qınayaq, nə deyək barı?
Təhsil də, təlim də moddan salındı,
Damaqdan salındı, daddan salındı,
Şərəfli-şöhrətli addan salındı.
Əhali çoxaldı, şəhər böyüdü,
Şəhər böyüdükcə, qəhər böyüdü.
Ehtiyac çoxaldı, tələbat artdı,
Ölənlər, itənlər, tələfat artdı.
Avamlıq çoxaldı, cəhalət artdı,
Nadanlar artdıqca qəbahət artdı.
Qazanan azaldı, yeyənlər artdı,
Danışan çoxaldı, deyənlər artdı,
Bəzənən, düzənən, geyənlər artdı,
Özünü dartanlar, öyənlər artdı.
Becərən azaldı gen tarlaları,
Firavan çölləri, şen tarlaları.
Çoxaldı hökmedən quruca bəylər,
Sular bulansa da duruca bəylər.
Qanlara sussayan zəlilər artdı,
Əqli-kəm, sərsəri, dəlilər artdı.
Ünsiyyət korlandı, ülfət pozuldu,
Fikirlər sarsıldı, söhbət pozuldu.
Nəqədər artdıqca savad alanlar,
Hörmətli, izzətli bir ad alanlar.
Heyif ki, düşünən, qanan azaldı,
Dərk edib anlayan insan azaldı.
Vətəni, xalqını duyan olmadı,
Yetib imdadına həyan olmadı,
Tamahdan, nəfsdən doyan olmadı,
Onu bir yoluna qoyan olmadı.
Bəşəri yolundan döndərdi tamah,
Onu zülmətlərə göndərdi tamah.
Çox dolu payları əndərdi tamah,
Çox yanan şamları söndürdü tamah.
Əfsus, tamahını boğan az oldu,
Mərdanə doğulan, doğan az oldu.

Kəsib qabağını nadürüstlərin,
Əqildən, kamaldan o şikəstlərin.
Bir deyən olmadı dayanın biraz,
Yatmayın qəflətdə, oyanın biraz.
Bir zaman dedilər, bol olsun üzüm,
Bol olsun dəyanət, bol olsun dözüm.
Taxılı üzümlə əvəz eylədik,
Bu xalqa, millətə zülm eylədik.
Gör nəyi nə ilə peyvənd eylədik,
Heç deyən olmadı, səyvənd eylədik.
Baltanı götürüb meşəni qırma,
Sağlam təbiəti, guşəni qırma.
İnəyi kəsdilər ət olsun deyə,
Pambığı əkdilər çit olsun deyə.
Bir deyən olmadı inək süd verir,
İnək bala verir, inək yağ verir.
İnəyi kəsənin əli kəsilsin,
Dodağı  kəsilsin, dili kəsilsin.
Bir deyən olmadı  malı bəsləyin,
Dəymiş yeyilsə də, kalı bəsləyin.
Dananı böyüdün, öküz eyləyin,
Beçəni böyüdün, xoruz eyləyin,
Dayçanı böyüdün, köhlən eyləyin,
Əkini-səpini qaydaya salın,
Yeməyi-içməyi qaydaya salın.
Kəsməyin kökünü körpəliklərin,
Şıvırtı, pöhrənli meşəliklərin.
Kəsməyin kökünü qırqovulların,
Burmayın qolunu mərd oğulların.
Tarlanı bürüyüb ala basmasın,
Çuxurlar, xəndəklər, çala basmasın.
Becərin, bəsləyin məhsul bol olsun,
Yesinlər, içsinlər nəsil tox olsun.

Qoyun-quzuların sonuna çıxdıq,
Məhsula, nemətə həsrətlə baxdıq.
Dananı, buzovu, inəyi qırdıq,
Əti, yağı, südü, çörəyi kəsdik,
Ciyəri doğradıq, ürəyi kəsdik.

Hər şey insanlardan qayğı istəyir,
Tər tökmək istəyir, yardım istəyir.
Hər şey insanlardan ürək istəyir,
Dadına yetişmək, kömək istəyir.
Hər şey insanlardan bilik istəyir,
Xoş arzu, xoş istək, dilək istəyir.
Hər şey insanlardan fərasət dilər,
Qoçaqlıq, zirəklik, cəsarət dilər.
Hər şey insanlardan məharət dilər,
Sədaqət, səxavət, kəramət dilər.
Hər şey insanlardan ləyaqət dilər,
Doğruluq, düzgünlük, həqiqət dilər.
Xeyirxahlıq dilər, fəzilət dilər,
Nəciblik, zəriflik, məlahət dilər.
Hər şey insanlardan hörmət gözləyir,
Kəramət gözləyir, mürvət gözləyir.
Nəzakət gözləyir, diqqət gözləyir,
Yol-ərkan gözləyir, ismət gözləyir,
Yaxşılıq, gözəllik, hikmət gözləyir.

***Cəmil Əkbər*** 17. 10 - 1992

## 165. BİRAZ ODUR, BİRAZ BUDUR

Yer üzünü dolandıran,
Vallah, billah ədalətdir.[106]
Cıra peyvənd calandıran,
Doğruluqdur, həqiqətdir.

Dünyamızı varlı edən,
İnsanları karlı edən,
Bağımızı barlı edən,
Sədaqətdir, səxavətdir.

Ünsiyyəti dadlı edən,
Qəlbimizi odlu edən,
İgidləri adlı edən,
İnsaf, mürvət, kəramətdir.

---

[106] Hamı bilsin ədalətdir.

Üzümüzü ağ eyləyən,
Sinəmizi dağ eyləyən,
Kefimizi cağ eyləyən,
İnsanlıqdır, ləyaqətdir.

Bizə doğru yolgöstərən,
Ədəb-ərkan bol göstərən,
Zülal, şərbət, bal göstərən,
Saf arzudur, pak niyyətdir.

Qolumuzdan tutanımız,
İmdalara çatanımız,
Dərdi-qəmi atanımız,
Dözüm-durum, dəyanətdir.

***Cəmil Əkbər***

## 166. HƏLƏ LOVĞALANMA

Hələ lovğalanma, ədalanma sən!
Aldığın borcları verənməyirsən.
Nifrətlə yad olub gədalanma sən!
Saldığın bağları dərənməyirsən.

Deməki eşidib, düz görürəm mən,
Hamıdan sərvaxtam, tez görürəm mən,
Əlli anlayıram, yüz görürəm mən,
Yaxını-uzağı görənməyirsən.

Nifrətlə yad olub sədalanırsan,
Çox yersiz, yuvasız ədalanırsan,
Kölgeydə yatırsan, daldalanırsan,
Məhəbbət bağını görənməyirsən.

Yataraq a yazıq qəflətdə qaldın,
Sanmaki qələbə, zəfərlər çaldın,
Düşünüb dərk etdin, xəyala daldın,
Möhüblər düzərək hörənməyirsən.

***Cəmil Əkbər***

## 167. KORLANDI

Qanmazlar əlində qanan yazığın,
Əsəbi korlandı, qanı korlandı.
Ellərin dərdinə yanan yazığın,
Keçmədi xoş günü, anı korlandı.

Nanəcibin, naqislərin əlindən,
Xainlərin, xəbislərin əlindən,
Tamahkirin, hərislərin əlindən,
Mərd igidin gövhər-kanı korlandı.

Hiyləgərlər, dələduzlar əlindən,
Soyuqqanlı, qəlbi buzlar əlindən,
Fitnə-fəsad, kələkbazlar əlindən,
Haqq-ədalət, yol-ərkanı korlandı.

Sarsıldı insanın dağıldı huşu,
Tutuldu qabağı, çatıldı qaşı,
Pozuldu növrağı, sərt keçdi qışı,
Varlığı puç oldu, canı korlandı.

Qarışdı zəhərə hər ayı, ili,
İncisi, əşrəfi, yaqutu, ləli,
Dağıldı xırmanı, puç oldu vəli,
Şərəfi, şöhrəti, şanı korlandı.

Keçdi günlər dava-dalaş içində,
Min həyəcan, min bir təlaş içində,
Giley-güzar, qovğa, savaş içində,
Süfrəsi qərq oldu, nanı korlandı.

***Cəmil Əkbər*** 20.01 – 1987

## 168. VƏZİFƏ OLMAYANDA

Vəzifə olmayanda, ləyaqət də ağlayır,
Ədalət yas saxlayır, həqiqət də ağlayır.
Sevinclər kədərlənir, məhəbbət də ağlayır,
Səxavət də, kəramət, mərhəmət də ağlayır.
Xətir-hörmət ağlayır, insaf-mürvət ağlayır,
Ar-namus gözdən düşür, abır-ismət ağlayır.

Vəzifə olmayanda, qanan da gözdən düşür,
Gözəl də gözdən düşür, canan da gözdən düşür.
Yazıq Kərəm neyləsin, Sənan da gözdən düşür,
Nakam qalır Fərhad da, Məcnun da gözdən düşür.

Vəzifə olmayanda, insan da gözdən düşür,
Anmayanlar bir yana, anan da gözdən düşür.
Müdriklər gözdən düşür, pürani gözdən düşür,
Ağsaqqal gözdən düşür, nurani gözdən düşür.

Vəzifə olmayanda, arif də gözdən düşür,
Lap üləma olsada, sərraf da gözdən düşür.
Mərd igid yaddan çıxır, Koroğlu gözdən düşür,
Dəyanətli olsada, zor oğlu gözdən düşür.

İnsanlıqla vəzifə, gərək qoşa yaşaya,
Onlar verib əl-ələ, tam baş-başa yaşaya.
İnsanlıq olmayanda, vəzifə gözdən düşür,
Vəzifə olmayanda, insanlıq gözdən düşür.
Tək əldən səs çıxmayır, el də bunu deyibdir,
Yadda yaxşı saxlayın, dil də bunu deyibdir.

İnsanlıq olmayanda, vəzifəyə gülürlər,
Təxti-taca, ad-sana, o rütbəyə gülürlər.
Şan-şöhrətə gülürlər, müqəvvaya gülürlər,
Vurhavura gülürlər, qal-qovğaya gülürlər.
Dəbdəbəli hay-küyə, o nadana gülürlər,
O cahilə gülürlər, o adama gülürlər.

İnsanlıq olmayanda, vəzifə də ağlayır,
Başa qara bağlayəb, matəmini saxlayır.
Saraylar da ağlayır, tacı-təxt də ağlayır,
El oba da yas tutub, camaat də ağlayır.
Alimlər də ağlayır, loğmanlar da ağlayır,
Yaxşılar da ağlayır, yamanlar da ağlayır.
Qanmazlar da ağlayır, qananlar da ağlayır,
Dənizlər də, çaylar da, ümmanlar da ağlayır.

İnsanlıq olmayanda mərifət gözdən düşür,
Ədəb-ərkan bir yana, təriqət gözdən düşür.
Eniş-yoxuş görünmür, yaxşı-yaman tanınmır,
İnsaf-mürvət görünmür, nə din-iman tanınmır.
Qiymət yoxdur xidmətə, qiymət yoxdur zəhmətə,
Hörmət yoxdur hörmətə, hörmət yoxdur hikmətə.
Heç dəyər yox kişiyə, nuraniyə qocaya,
Adda-sanda ucaya, mövqeyində ucaya.
Hörmət yoxdur igidə, hörmət yoxdur  kişiyə,
Qiymət yoxdur aslana, qiymət yoxdur pişiyə.

İnsanlıq olmayanda haqq-ədalət tapdanır,
Ünsiyyətdə-ülfətdə, hər ləyaqət tapdanır.
İstək-arzu tapdanır, saf məhəbbət tapdanır,
İlqar-iman tapdanır, saf sədaqət tapdanır.
Hər nəzakət tapdanır, ləyaqətlər tapdanır,
Gözəlliklər məhv olur, təravətlər tapdanır.
Yaxşılar gözdən düşür, pisə meydan açılır,
Paxıllara, xainə, nəsə meydan açılır.
Hökm eyləyir ay aman, nabələdlər naşılar,
Hökm eyləyir yelbeyin, ərli-ərsiz xoşular.
Hökm eyləyir ay aman, sərsərilər, dəngəsər,
Kütbeyinlər, kəmağıl, gicbəsərlər müxtəsər.

***Cəmil Əkbər*** 1982

## 169. ƏLVİDALAŞIR

Naşılar yanında, pul bazarında,
Ədalət, həqiqət əlvidalaşır.
Əxlaqsız yanında, dul bazarında,
Etibar, sədaqət əlvidalaşır.

Acgözlər, tamahkar, həris yanında,
Namərdlər, nanəcib, naqis yanında,
Paxıllar, xainlər, xəbis yanında,
Ülviyyət, ləyaqət əlvidalaşır.

Cahillər yanında, nadan yanında,
Ellərin malını dadan yanında,
Dağıdıb talayan, udan yanında,
Səxavət, kəramət əlvidalaşır.

Kütbeyinlər, qanmazların yanında,
Böyük-kiçik sanmazların yanında,
Haqq-sayı anmazların yanında,
Şəxsiyyət, ləyaqət əlvidalaşır.

Xətirsizin, hörmətsizin yanında,
Abırsızın, ismətsizin yanında,
İnsafsızın, mürvətsizin yanında,
Xoş arzu, xoş niyyət əlvidalaşır.

Məsləksizlər, qayəsizlər yanında,
Xeyir-şərdə sayəsizlər yanında,
Tərbiyəsiz dayəsizlər yanında,
Doğru söz, düz ölçü əlvidalaşır.

***Cəmil Əkbər*** 8. 04 – 1982

## 170. NƏQƏDƏR?

Yalan arzuları, yalan diləyi,
Nəqədər eşidib, nəqədər deyək?
Haram tikələri, haram çörəyi,
Nəqədər qazanıb, nəqədər yeyək?

Saxta baxışları, saxta gözləri,
Saxta cığırları, saxta izləri,
Saxta əməlləri, saxta sözləri,
Necə tərif edək, nəqədər öyək?

Dünyada nəqədər tamah eyləyək?
Əyrilik, qeyrilik, günah eyləyək?
Kiməsə baş əyib, "pənah" eyləyək?
Düz yolu, ərkanı nəqədər əyək?

Nəqədər çalarlar zurnanı, fiti?
Bu bazar, bu dükandöy müvəqqəti,
Tapmırıq ən sadə sətini, çiti,
"Qabardin", "Metro"nu nəqədər geyək?

Nəqədər giclərə kamallı deyək?
Vicdanlı, məsləkli, amallı deyək?
Yöndəmli, görkəmli, camallı deyək?
Necə nifrət edib, bəs necə söyək?

***Cəmil Əkbər*** 10.04 - 1982

## 171. QALMAYIR

Bu dünya belədir əzəldən bəri,
Nə gedənə, nə qalana qalmayır.
Zəhmət çəkib töksələr də qantəri,
Nə kasıba, nə kalana qalmayır.

Dəyişir zəmanə, dəyişir həyat,
Əbədi deyildir nə toy, nə büsat,
Tapılmır çarəsi, tapılmır heyhat,
Nə ağlayan, nə gülənə qalmayır.

Çirkinlər də gedir, canan da gedir,
Yanmayan da gedir, yanan da gedir,
Qanmayan da gedir, qanan da gedir,
Nə nadana, nə bilənə qalmayır.

İstər zurna götür, istər dəf götür,
İstər əzab götür, istər kef götür,
İstər qazanc götür, istər nəf götür,
Dinləyənə, nə çalana qalmayır.

***Cəmil Əkbər*** 16.04 – 1982

## 172. OĞLUYAM

Yalanla-yanlışla olmayıb aram,
Ədalətin, həqiqətin oğluyam.
Saxtalıq görəndə sızlayıb yaram,
Xoş arzunun, xoş niyyətin oğluyam.

Davadan-dalaşdan uzaq olmuşam,
Həyəcan, təlaşdan uzaq olmuşam,
O başdan, bu başdan uzaq olmuşam,
Azadlığın, səadətin oğluyam.

Zəhmətlə, xidmətlə yaşa dolmuşam,
Kamala çatmışam, başa dolmuşam,
Xəyala getmişəm, huşa dolmuşam,
Dözüm-durum, dəyanətin oğluyam.

Qəlbimdə olmayıb kinim-küdrətim,
Kimsəyə artmayıb qəzəb-hiddətim,
Heçkəsdən ummağa yoxdu minnətim,
Ülvü-istək, məhəbbətin oğluyam.

Etməmişəm birkimsəyə yamanlıq,
Salmamışam yol-izinə qaranlıq,
Sanmamışam mən özümü bir anlıq,
Əvvəl-axır, nihayətin oğluyam.

Bəşərin anası anamdır mənim,
Nurani babası babamdır mənim,
Zəhmətkeş atası, atamdır mənim,
Mən Cəmiləm cəmiyyətin oğluyam.[107]

***Cəmil Əkbər***

## 173. ARALI DÜŞMƏK

Nəqədər ağırdı, ellər ay ellər?
Yurdundan-yuvadan aralı düşmək.
A dağlar, dərələr, sellər a sellər?
Elindən, obadan aralı düşmək.

Nəqədər çətindi, kədərlidi bu?
Nəqədər ziyanlı, xətərlidi bu?
Nəqədər kitablı, sətirlidi bu?
Bağından-gülündən aralı düşmək.

---

[107] *II variant* Tək atadan, tək anadan olsam da,
Bu təməldən, bu binadan olsam da,
Qüvvət alıb dərya kimi dolsam da,
Mən bəşərin, cəmiyyətin oğluyam.

Nəqədər mürəkkəb, çətindir-çətin?
Çəkirsən dərdini, tökürsən ətin?
Nəqədər olsan da dözümlü, mətin?
Damından-daşından aralı düşmək.

Bu qədər hicrana dözmək olarmı?
Dostlardan aralı gəzmək olarmı?
Əlini-əllərdən üzmək olarmı?
Nəqədər ağırdır aralı düşmək?

Nəqədər müşgüldür, kamalsız işdir?
Əqidəsiz işdir, amalsız işdir?
Eybəcər, bədheybət, camalsız işdir?
Ocaqdan, sobandan aralı düşmək.

Mümkünmü  dostluğun tərkinə varmaq?
Ülfət-ünsiyyətin qəsdinə durmaq,
Dostluq tellərini qoparmaq, qırmaq,
Olduğun məkandan aralı düşmək.

Nəqədər çətindi, ayrılıq anı?
Korlayır əsəbi, qaraldır qanı,
Yandırır cəsədi, cismini, canı,
Düşüb bəd xəyala, haralı düşmək?

Nəqədər çətindi, ülfəti kəsmək?
Danışığı kəsmək, söhbəti kəsmək?
Gileyi-güzarı, qeybəti kəsmək?
Qəlbi xain düşmək, qaralı düşmək?

Nəqədər çətindi, dostluğu pozmaq?
Doğrunu çevirib tərsinə yozmaq?
Əqlini itirmək, yolunu azmaq?
Oralı axtarıb, buralı düşmək?

Bu dərdi çəkməkdən üzülür Cəmil,
Tökülür cunaya, süzülür Cəmil,
Əriyir, çürüyür, nəzilir Cəmil,
Tapmayır bir əlac, yaralı düşmək?

***Cəmil Əkbər***

## 174. SƏBR ELƏ!

Hər şeyin əvvəli olduğu kimi,
Axırı da gələcəkdir, səbr elə!
Toplanıb biryerə dolduğu kimi,
Axırı da olacaqdır, səbr elə!

Gül-çiçək nəqədər acırsa-açsın,
Yayılıb ətiri, ellərə çatsın,
Qaçanlar qoy qaçsın, uçanlar-uçsun,
Məqamında enəcəkdir, səbr elə!

Hər meyvənin adı başqa olsa da,
Tamı başqa, dadı başqa olsa da,
Öz faydası, öz imdadı olsa da,
Çıxarı da düzələcək, səbr elə!

İnanmakı beylə gedər bu dövran,
Aşıb-daşan selə gedər bu karvan,
Ömürboyu yolu çaşar bu sarvan,
Paxırı da çıxacaqdır, səbr elə!

Yayılacaq inləyənin sədası,
Yaraları simləyənin sədası,
Kiriyəndöy məzlumların sədası,
Naxırı da olacaqdır, səbr elə!

Həsəd çəkmə cah-calalı olana,
El varıyla gözələnib dolana,
Zurnasında min bir hava çalana,
Çıxarı da olacaqdır, səbr elə!

Bu dünya çox görüb gəlib-gedəni,
İgidləri, kişiləri, gədəni,
Qarnı yoğun, cibi dolu dədəni,
Yaxarı da olacaqdır, səbr elə!

Hərkəsdəni dindirəcək zamanı,
Öz yerinə göndərəcək zamanı,
Tökəcək önünə arpa-samanı,
Axuru da olacaqdır, səbr elə!

İgidəm deyənin əli boş qalmaz,
Fikirləri, xəyalları çaş qalmaz,
Obası-oymağı, eli boş qalmaz,
Zaman gələr, dolacaqdır səbr elə.

Cəmil Əkbər, qəmlər səni yıxmasın,
Qan qaraldıb ürəyini sıxmasın,
Hökmeyləyib axırına çıxmasın,
İlhamını alacaqdır, səbr elə.

***Cəmil Əkbər*** 25. 09 - 1996

## 175. ARALANMIŞAM

Söz-söhbətdə yalanları görəndə,
İnsanam deyəndən qaralanmışam.
Onu-bunu çalanları görəndə,
Yanında durmayıb aralanmışam.

Oqədər cahilə əl uzatmışam,
Min bir çiçək dərib, gül uzatmışam,
Qarışqa böyüdüb, fil uzatmışam,
Dərilib bostantək, uralanmışam.

Nanəcib oqədər qəlbimə dəydi,
Vurub qamətimi yay kimi əydi,
Gedib kənarlarda gözünü döydü,
Neştərsiz, xəncərsiz yaralanmışam.

Nə deyim namərdin kəc rəftarına?
Sərsəri, kəmağıl, gic rəftarına?
Haqqa-ədalətə öc rəftarına?
Çatlayıb içimdən paralanmışam.

Nə tayım, nə tuşum, nə çağdaş qalıb,
Nə həmkar, nə həmdəm, nə yoldaş qalıb,
Nə bacı, nə qardaş, nə sirdaş qalıb,
Ayrılıb qatardan sıralanmışam.

Nə haqqa baxan var, nə həqiqətə,
Nə fəhmə baxan var, nə fərasətə,
Yaxşılıq, yamanlıq, nə ləyaqətə,
Dillərdə-dodaqda haralanmışam?

Cəmiləm sevmişəm beynəlmiləli,
Nədir pünhan qalan, nədir şübhəli?
O vaxt dediklərin indi gülməli,
Oralı sayılıb, buralanmışam.

***Cəmil Əkbər*** 29. 05 – 1993

## 176. NƏFAYDA?

Hərkimsədə abır gərək, ar gərək,[108]
Abır yoxsa, ismət yoxsa nəfayda?
Vəfalı dost, bir mehriban yar gərək,[109]
Namus yoxsa, qeyrət yoxsa nəfayda?

İnsan gərək bir-birini əzməyə,[110]
Zora salıb ürəyini üzməyə,
Əzab verib bezdirməyə, bezməyə,
İnsaf yoxsa, mürvət yoxsa nəfayda?

Hərkəs gərək düz otura, düz dura,[111]
Düz çalışıb, düz yaradıb, düz qura,[112]
Karvanını axıracan düz sürə,[113]
Sağlam fikir, niyyət yoxsa nəfayda?

---

[108] Hərbirkəsdə abır gərək, ar gərək.
[109] Vəfalı dost, bir namuslu yar gərək.
[110] İnsan olan bir-birini əzməyə.
[111] 1)Hərkəs gərək düz oturub, düz dura.2) Hərkəs gərək düz dolanıb, düz dura.
[112] Düz yaşayıb, düz yaradıb, düz qura,
[113] Karvanını mənzilinə düz sürə.

Təpər gərək hər kəsdənin canında,
Damarında, genlərində, qanında,
Şəkər ola, zülal ola, şanında,
Həvəs yoxsa, riqqət yoxsa nəfayda?

Hərkəsdəyə halal maya gərəkdir,
Saf əqidə, əsil qayə gərəkdir,
Kamil ustad, gözəl dayə gərəkdir,
Məna yoxsa, hikmət yoxsa nəfayda? [114]

Hərkəs gərək öz adıyla tanına,
Öz hünəri, öz oduyla tanına,
Çətinlikdə, bərkdə-boşda sınana,
Qüvvət yoxsa, taqət yoxsa nəfayda?

Hərkəs gərək bəd əmələ yad ola,
Baxıb-baxıb öz işiylə şad ola,
Zəhmət çəkib bir şərəfli ad ala,
Şərəf yoxsa, şöhrət yoxsa nəfayda?

Hərkəs gərək düzgün seçə yolunu,
Gündüzlər, günorta, gecə yolunu,
Qət eyləyib doğru keçə yolunu,
Fəhm yoxsa, diqqət yoxsa nəfayda[115]?

Hərkəs gərək əməlindən yarıya,
Bünövrəsi, təməlindən yarıya,
Qismətindən, taleyindən yarıya,
Nicat yoxsa, nüsrət yoxsa nəfayda?

---

[114] *II variant* Hərkimsəyə halal mayə gərəkdir,
Saf əqidə, sağlam qayə gərəkdir,
Əzəl gündən kamil dayə gərəkdir,
Məna dolu hikmət yoxsa nə fayda?

[115] *II variant* Doğru gedə, düzgün seçə yolunu,
Həm gündüzlər, həm də gecə yolunu,
Qət eyləyib belə keçə yolunu,
Fəhm yoxsa, diqqət yoxsa nə fayda?

İnsan gərək kamal ilə dolansın,
Vicdan, məslək, amal ilə dolansın,
Tutar ilə, sambal ilə dolansın,
Amal yoxsa, camal yoxsa nəfayda?[116]

Hərkəs gərək qiymət versin özünə,[117]
Yolağına, cığırına, izinə,
Kəlməsinə, cümləsinə, sözünə,
Xətir yoxsa, hörmət yoxsa nəfayda?[118]

Hərkəs gərək zəhmətiylə dolana,
Qayğısıyla, xidmətiylə dolana,
Sağlam fikir, niyyətiylə dolana,
Dəyərlərə qiymət yoxsa nəfayda?

Ülfət ola təmənnasız, qərəzsiz,
Hörmət ola, xidmətlərə əvəzsiz,
Şabalıdsız, qoz-fındıqsız, çərəzsiz,
Pak ünsiyyət, ülfət yoxsa nəfayda?

Gəl ey Cəmil, axıtma gözyaşını,
Nahaq yerə çox ağrıtma başını,
Ona-buna turşutma göz-qaşını,
Öz-özünə hiddət yoxsa nəfayda?

***Cəmil Əkbər***

## 177. ÖYRƏNDİM MƏN

Hara getdim, harda oldum,
Ədaləti öyrəndim mən.
Çətinlikdə, darda oldum,
Həqiqəti öyrəndim mən.

---

[116] *II variant* Hərkəs gərək kamal ilə dolana,
Əqidəylə, amal ilə dolana,
Ən müqəddəs camal ilə dolana,
Beylə məna, hikmət yoxsa nə fayda?

[117] Qiymət qoya özgələrə, özünə.

[118] Sərraf yoxsa, qiymət yoxsa nə fayda?

Oturanda, duranda da,
Yaradanda, quranda da,
Hey özümü yoranda da,
Ləyaqəti öyrəndim mən.

Atalardan, babalardan,
Oymaqlardan, obalardan,
Doğma yurddan, yuvalardan,
Fəziləti öyrəndim mən.

Yetmək üçün imdadlara,
Qulaq asdım ustadlara,
Təzim etdim bu adlara,
Nəzakəti öyrəndim mən.

Mərd igiddən, ər kişidən,
Dəyanətli nər kişidən,
Bərk ayaqda, zor kişidən,
Sədaqəti öyrəndim mən.

Hatəm kimi gözü toxdan,
Oğlu toxdan, qızı toxdan,
Pürkamalı, ağlı çoxdan,
Səxavəti öyrəndim mən.

Xətirlidən, hörmətlidən,
İnsaflıdan, mürvətlidən,
Abırlıdan, ismətlidən,
Mərhəməti öyrəndim mən.

Ar-namuslu, qeyrətlidən,
Şərafətli, şöhrətlidən,
Cəsarətli, cürətlidən,
Dəyanəti öyrəndim mən.

Tək özümü düşünmədim,
Bədəməldən diksinmədim,
Nə qorxmadım, səksənmədim,
Cəmiyyəti öyrəndim mən.

Nuranidən, pürkamaldan,
Dərdbiləndən, əhli-haldan,
Dünya görmüş ağsaqqaldan,
Nəsihəti öyrəndim mən.

Cəmil Əkbər hey oxudu,
Ətiri-ənbər qoxudu,
Ülfətdə xana toxudu,
Bu hikməti öyrəndim mən.

***Cəmil Əkbər*** 4. 12 – 1997

## 178. İTİRMİŞƏM

Uyuyub qalaraq qəflət içində,
Nəqədər vaxtımı boş itirmişəm.
İmkanı, fürsəti verərək əldən,
Bərəlgə buraxıb, qaş itirmişəm.

Dövlətə, sərvətə, vara uymayıb,
Vəfalı dost-tanış, yara uymayıb,
Gülüstanda çəmənzara uymayıb,
Altun itirmişəm, daş itirmişəm.

Qüssələr, kədərlər, qəmlər içində,
Əyərlər, əksiklər, kəmlər içində,
Pəsdə inildəyib, bəmlər içində,
Ömür-gün çürüdüb, yaş itirmişəm.

Dolandı həftələr, aylar ötüşdü,
Bahardan addayıb, yaylar ötüşdü,
Sel suya qarışdı, çaylar ötüşdü,
Payız itirmişəm, qış itirmişəm.

Aldanıb inandım yağlı sözlərə,
Qatı açılmamış zağlı sözlərə,
Sirri məchul qalan bağlı sözlərə,
Kotan itirmişəm, xış itirmişəm.

Dövrü-zəmanəmiz dolaşıb yaman,
Ağı-qarasına bulaşıb yaman,
İpi-ilməsinə culaşıb yaman,
Fikirə qərq olub, huş itirmişəm.

Fəsillər dalınca, fəsillər keçdi,
Nəsillər dalınca, nəsillər keçdi,
Əkbərlər dolandı, Cəmillər keçdi,
Nəqədər təəssüf, kaş itirmişəm?

Nəqədər var-hala əlim çatmadı?
Dəhanım yetişib, dilim çatmadı?
Gözəlcə mahalım, elim çatmadı?
Dəmə qoyulmamış, aş itirmişəm.

Şikara çıxanda sərçə ovladım,
Hay-küy salıb, orda-burda qovladım,
Gör bir nəyə bıçağımı sovladım?
Tərlantək, şahintək quş itirmişəm.

Nəüçün ölməyib, diri qalmışam?
Öz-özümün dərdi-səri qalmışam,
Taylardan, tuşlardan geri qalmışam,
Nəqədər tutarlı iş itirmişəm?

Gərdişi-zamana söz deyənmədim,
Qəlbimdən keçəni düz deyənmədim,
Yaman gecikmişəm, tez deyənmədim,
Xəyallar içində baş itirmişəm.

Vaxtında ayılıb görə bilmədim,
Salınan bağlardan dərə bilmədim,
Var-hal dəryasına girə bilmədim,
Nəyaman qalmışam, çaş itirmişəm?

Məhəbbət şahinim odlara yandı,
Aldandı xallara, ladlara yandı,
Hərcayı gözələ, yadlara yandı,
Üzüyə layiqli qaş itirmişəm.

İnciyib-küsürəm öz həvəsimdən,
Cəmiltək nadanla, bəhsəbəsimdən,
İbrət götürmüşəm həyat dərsimdən,
İkilər alaraq, beş itirmişəm.

***Cəmil Əkbər*** 16-17 // 12 – 1997

## 179. QƏNİMİMDİR

Qoyun deyim, siz də bilin, kimdi ah-zar etdiyim,
Harda varsa azca-çoxca qənimimdir nadanlar.
Əllərindən xəstə düşüb, beylə güzar etdiyim,
Harda acsa, harda toxsa, təlimdən kəm dadanlar.

Orda-burda, dar məzarda, daha görün harda var,
Tufandamı, sazaqdamı, qasırğada, qarda var,
Azadlıqda, bəraətdə, ilişikdə torda var,
Qənimimdir, düşmənimdir, haqq-sayı udanlar.

Məni yaman incidəndi, haldan salıb bezdirən,
Çətinlikdə inildədən, əzablara dözdürən,
Başımıza oyun açıb, dağı-daşı gəzdirən,
Qatilimdi, qəddarımdı, yolu tərsə adanlar.

***Cəmil Əkbər*** 5.05 – 1997

## 180. YOLLARDA

Niyə gəlib sən çıxmadın?
Gözüm yollarda-yollarda.
Gəlib halıma baxmadın,
Sözüm yollarda-yollarda.

Ha boylandım sağa-sola,
Bülbül kimi güllü bağa,
Canımı verdim sadağa,
İzim yollarda-yollarda.

Yana-yana sönüb getdim,
Qana-qana donub getdim,
Zirvələrdən enib getdim,
Özüm yollarda-yollarda.

Əqlim getdi, huşum çaşdı,
Xəyalım dağ-daş dolaşdı,
Səbr kasam aşdı-daşdı,
Dözüm yollarda-yollarda.

***Cəmil Əkbər*** 1981

## 181. ODUR BİL!

Meydan verilibdir nadan kəslərə,
Zəmanənin pasibanı odur bil!
Təlimdən kəm-kəsir dadan kəslərə,
Etiqadı, din-imanı odur bil!

Baxan yoxdur dərrakəyə, kamala,
Vicdan, məslək, əqidəyə, amala,
Gözəlliyə, bu mənəvi camala,
Zəmanənin kəhkəşanı odur bil!

Dəyib-dolaşmayın bicoğlu bicə,
İlqara, imana, kəcoğlu kəcə,
Haqqa, ədalətə, öcoğlu öcə,
Zəmanənin qəhrəmanı odur bil!

Uzaqda dolanıb, gendə gözləyin,
Dalanda, döngədə, tində gözləyin,
Dağlarda, daşlarda, çəndə gözləyin,
Zəmanənin zərəfşanı, odur bil!

Yeyib-içib kef edirlər, edirlər,
Çalıb-çapıb nəf edirlər edirlər,
Bir deyən yox səhv edirlər edirlər,
Zəmanənin kərgədanı odur bil!

***Cəmil Əkbər***

## 182. NƏDİRKİ?

Tərbiyəsi kəm olana,
Təlim nədir, söz nədirki?
Anasından dəm olana,
İşarə nə, göz nədirki?

Hesabını bilməzlərə,
Bədəsilə, bəd üzlərə,
Qəlbiqara, bəd gözlərə,
Əyri nədir, düz nədirki?

Ha desən də sözqanmaza,
Mətləbini düzqanmaza,
Utanmaza, qızarmaza,
Dərin nədir, üz nədirki?

Cahillərə, nadanlara,
Yolu tərsə adanlara,
Haqq-sayı udanlara,
Səksən, doxsan, yüz nədirki?

Təlimdən düz dadmayana,
Sözü dürüst atmayana,
Ha desən də qanmayana,
Palan, noxta, biz nədirki?

Dadbilməzə, tamqanmaza,
Ha desən də anlamaza,
Əhli-kefə, şeydabaza,
Yolaq, keçid, iz nədirki?

***Cəmil Əkbər***

## 183. TAPILAR

Ay zəlilər az sussayın qanıma,
Sənin də qanını soran tapılar.
Xələl vurma şövkətimə, şanıma,
Sənin də qolunu buran tapılar.

Yol verməyin bir bu qədər günaha,
Qulluq etmə ömürboyu tamaha,
Nəzər salın siz uğurlu sabaha,
Sənin də qəsdinə duran tapılar.

İncidərlər, bezdirərlər səni də,
Dağı-daşı gəzdirərlər səni də,
Müsibətə dözdürərlər səni də,
Səni də yollarda yoran tapılar.

Dərdləyər ürəyin, ağrıyar başın,[119]
Tutular qabağın, çatılar qaşın,
Matəmə qərq olar qohum-qardaşın,
Gedib iliyini vuran tapılar.

Artırarlar kədərini, qəmini,
Əyərini, əksiyini, kəmini,
Vaxt yetişər, dolu döyər zəmini,
İşini tərsinə buran tapılar.

Sən mənim qəsdimə durduğun kimi,
Töküb zəhləsini yorduğun kimi,
Pusquda torunu qurduğun kimi,
Sənə də torunu quran tapılar.

Bu gözəl dünyadan bezib gedərsən,
Dağları-daşları gəzib gedərsən,
Əlini-əllərdən üzüb gedərsən,
Vurub sümüyünü qıran tapılar[120].

Bu dövrü-zəmanə beylə gedənməz,
Qananlar-qanmaza kölə gedənməz,
Gözgörəti, bilə-bilə gedənməz,
Gəlib üz-gözünü cıran tapılar.

Düşərsən qarğışa, naləyə, aha,
Satma ucuz malı həddindən baha,
Nə deyim qanasan, bəsindir daha?!
Sinənə dağ-düyün vuran tapılar.

---

[119] Ayrılıb bədəndən üzülər başın,

[120] *II varıant* Sorular damardan quruyar qanın,
İnləyib sızlayar, ağrıyar canın,
İllərlə döşəyə döşənər yanın,
Vurub sümüyünü qıran tapılar.

Cəmil Əkbər girmə insan qəsdinə,
Qeyizlənib ayaq alma üsdünə,
Toxunmaynan heysiyyata, şəsdinə ,
Sənin də şəsdini qıran tapılar.

***Cəmil Əkbər*** 1.10 – 1999

## 184. BİGANƏSƏN

Qulaqların karmı olub?
Ədalətə biganəsən.
Gözlərinə tormu gəlib,
Həqiqətə biganəsən.

Vuran qəlbin daşa dönüb,
Görən gözün çaşa dönüb,
Yazın-yayın qışa dönüb,
Fəzilətə biganəsən.[121]

Unudursan haqq-sayı,
Dürlü-dürlü sovqat, payı,[122]
A zağada yatan ayı?
Ləyaqətə biganəsən.

Tanımırsan abır-həya,
Vicdan-məslək, məram, qayə,
Görməmisən kamil dayə,[123]
Nəzakətə biganəsən.[124]

Qəflətlərdə yatıb-qaldın,
Çamırlığa batıb-qaldın,
Şər işlərdən tutub-qaldın,[125]
Şərafətə biganəsən.

---

[121] *II varıant* Qəlbin niyə dönüb daşa?
Görən gözün dönüb çaşa,
Oxşayırsan qarlı qışa,
Fəzilətə biganəsən.

[122] Payız, qışı, yazı-yayı.

[123] Gözəl ustad, kamil dayə.

[124] Məharətə biganəsən.

[125] İnsafını atıb qaldın.

Gözləmirsən ədəb-ərkan,
Verməyirsən bizə imkan,
Əlindədir indi sükan,
Mərhəmətə biganəsən.

İlqarından dönüb getdin,
Mövqeyindən enib getdin,
Alışmamış sönüb getdin,[126]
Sədaqətə biganəsən.

Addımbaşı qəlbə dəydin,
Vurub qamətini əydin,
Elə sandın təzə bəydin,
Mərifətə biganəsən.

El-obanı pəsinmədin,
Nə qorxmadın, diksinmədin,[127]
Bədəməldən çəkinmədin,[128]
Şəriətə biganəsən.

Könülgahın buz bağlayıb,
Qalaq-qalaq duz bağlayıb,
Gecikməyib tez bağlayıb, [129]
Məhəbbətə biganəsən.

Daha yoxdu sənlə aram,
Daim qövr eyləyir yaram,
Mərd igidlə varam, varam,
Nəzakətə biganəsən.

Anan doğub xəbis səni,
Acgöz səni, həris səni,
Nə eybəcər, nə pis səni,
Səxavətə biganəsən.

***Cəmil Əkbər*** 28. 09 – 1993

---

[126] Orda-burda sinib getdin.
[127] Qorxub-ülküb səksənmədin.
[128] Ürpənmədin, diksinmədin.
[129] Vaxt-vədəsiz tez bağlayıb.

## 185. QANINDADIR

Birbirinə hiylə, kələk,
İnsanların qanındadır.
Şaxta, rüzgar, tufan, külək,
Əbədilik canındadır.

Acgözlükdə, hərislikdə,
Xainlikdə, xəbislikdə,
Əksiklikdə, naqislikdə,
Nüvəsində, genindədir.

Birbirinə qəsd eyləmək,
İçməmişdən məsd eyləmək,
Astarını üst eyləmək,
Fürsətində, çəmindədir.

Vara-hala tamah etmək,
Gündə min bir günah etmək,
Qüssə yemək, ah-vay etmək,
Süfrəsində, nanındadır.

Avamlığı edib peşə,
Bir-birini çəkir şişə,
Asır-kəsir bil həmişə,
Urvasında, unundadır.

Günü keçir küdurətdə,
Qəsd-qərəzdə, ədavətdə,
Paxıllıqda, xəyanətdə,
Görünür ki, zatındadır.

Ədəbazın modası da,
Sığmır yerə ədası da,
Yerli-yersiz sədası da,
Yerin yeddi qatındadır.

Qan qaraltmaq, zəhlə tökmək,
Qəddi əymək, qamət bükmək,
Əzab vermək, əzyət görmək,
Bu xilqətin şənindədir.

Yol-ərkanı düz görməmək,
Cığır salıb, iz görməmək,
Tez anlayıb, tez görməmək,
Cəhalətin əlindədir.

Asan işi qəliz etmək,
Nadanları əziz etmək,
Min günahı təmiz etmək,
Yaramazın dilindədir.

Cəmil istər ha danlasın,
Kötəkləsin ha yanlasın,
Ha düşünsün, ha anlasın,
Hərə öz fitnəsindədir.

***Cəmil Əkbər*** 12. 07 - 1987

## 186. ZİRVƏDƏDİR

Baş əyirəm o şəxsə ki,
Zəhmətində zirvədədir.
O insana, o kəsə ki,
Xidmətində zirvədədir.

O hamıdan kamallıdır,
Əqidəli, amallıdır,
Mənən gözəl camallıdır,
Söhbətində zirvədədir.

Abırlıdır, ismətlidir,
Saf arzulu, niyyətlidir,
Biganə döy, diqqətlidir,
Şan-şöhrətdə zirvədədir.

Diləyinə-dilək çatmır,
Ürəyinə-ürək çatmır,
Köməyinə-kömək çatmır,
Cürətində zirvədədir.

Hər yetəni pəsinməyir,
Qorxub-ülküb səksənməyir,
Ürpəşməyir, diksinməyir,
Qeyrətində zirvədədir.

Billur kimi ürəyi var,
Gilavarı küləyi var,
Halal süfrə, çörəyi var,
Hörmətində zirvədədir.

Abırlıdır, həyalıdır,
Əqidəli, qayəlidir,
Qədəmləri sayəlidir,
Mürvətində zirvədədir.

Mən heyranam o insana,
O təbibə, o loğmana,
Düz eşidib, düz qanana,
Hikmətində zirvədədir.

O hamıdan diqqətlidir,
Hünərlidir, riqqətlidir,
Dözümlüdür, qüdrətlidir,
Surətində zirvədədir.

Baş əyirəm zər insana,
İgidlərə, ər insana,
Dəyanətli hər insana,
Riqqətində zirvədədir.

***Cəmil Əkbər*** 14. 11 – 1993

## 187. QIZIL GÜL

Ha qoxladım ay qızıl gül,
Ətirindən doyanmadım.
Ay zərif gül, ay gözəl gül,
Özgə gülə uyanmadım.

Ötdü-keçdi aylar, illər,
Gəldi-getdi çox nəsillər,
Oxudu şeyda bülbüllər,
Yatıb qaldım, oyanmadım.

Ha yüyürdüm gəlib çatam,
Gecəni-gündüzə qatam,
Dərib-dərib dəstə tutam,
Son günümə qoyanmadım.

Gah boşalıb dolub getdim,
Xəyallara dalıb getdim,
Yolda-izdə qalıb getdim,
Al şəfəqə boyanmadım.

Çoxdu xətam, təqsirkaram,
Qövr eyləyir köhnə yaram,
Kim deyir ki, bəxtiyaram?
Günahımı yuyanmadım.

Axtar-ara, gəz Cəmili,
Dərin, dayaz, üz Cəmili,
İlqarına düz Cəmili,
Gəlib-getdim dayanmadım.

***Cəmil Əkbər*** 28. 01 - 1994

## 188. HƏNGAMƏ

Sərsərilər, dəngəsər,
Yelbeyinlər, gicbəsər,
“İş gördülər” müxtəsər,
Ev yıxdılar sərbəsər,
Əli-ələ verdilər,
Dili-dilə verdilər,
Feli-felə verdilər,
Eli selə verdilər,
Elə-belə verdilər,
Sonra yelə verdilər.

Yaman saldı vəlvələ,
İşlər döndü əngələ.
Çox asdılar, kəsdilər,
İncişdilər, küsdülər.

Qanan qanmaz sayıldı,
Lap utanmaz sayıldı.
Cahil pirə sataşdı,
Tülkü şirə sataşdı,
Nadan zərə sataşdı,
Arvad ərə sataşdı.
Arvad ərlə tutaşdı,
Qoduq nərlə tutaşdı.
Ayaq başa lağ etdi,
Həyasızlıq ağ etdi.
Qurd köpəklə barışdı,
Sürülərə yol aşdı,
Dağı-daşı dolaşdı,
Düz alqana bulaşdı.
Qəsd eylədi qoyuna,
Vay tutuldu toyuna.
Yedi-içdi kef etdi,
Çalıb-çapıb nəf etdi.
Çaqqal hinə soxuldu,
Toyuq-cücə boğuldu.
Neçə qanlar töküldü,
Neçə canlar söküldü.
Neçə ürək daş oldu,
Gözdən axan yaş oldu,
Neçə könül çaş oldu,
Neçə ayaq, baş oldu.
Əyriyə düz deyildi,
Əlliyə yüz deyildi.
Yedi-içdi kalanlar,
Əqrəb, iblis, ilanlar.
Ərşə çıxdı sədalar,
Lovğalıqlar, ədalar.
Neçə al-qan qaraldı?
Gül çiçəklər saraldı?

Neçə qapı bağlandı?
Neçə sinə dağlandı?
Neçə gədə yağlandı?
Yedi-içdi, buğlandı?
Neçə əsəb korlandı?
Neçə könül zorlandı?
Qoy dəyməsin hirsinə,
Nəsilinə, cinsinə,
Xatirinə, hissinə.
Qaraya ağ deyildi,
Kol-kosa bağ deyildi.
Çox çəksədə bu halət,
Qopar bir gün qiyamət.
Əzilənlər çoşdular,
Qaynadılar, daşdılar.
Elin gözü tərəzi,
Gördü qəsdi-qərəzi.
Tanışdılar gici də,
Dələduzu, bici də.
Acgözləri, hərisi,
Nanəcibi, naqisi.
Bədxahı da, nəsi də,
Zalım, qəddar, pisi də.
Yaxasından tutdular,
Zibilliyə atdılar.
Xalqın canı qurtardı,
Ah-amanı qurtardı.

***Cəmil Əkbər***

**189. OGÜNDƏN**

Məhəbbət yolunu azandan bəri,
Düşmüşəm çətinə, dara ogündən.
Çalışıb vuruşub töksəm də təri,
Tapılmır dərdimə çara ogündən.

Sevdiyim gözələ dönük çıxandan,
Eşqimə, andıma sönük çıxandan,
Hər səmtə üz tutub, yönük çıxandan,
Dəyibdi qəlbimə yara ogündən.

Haçandan özümə gələ bilmirəm?
Ürəkdən sevinib, gülə bilmirəm,
Biryolluq can verib ölə bilmirəm,
Düşsəmdə məzara, gora ogündən.

Çaşmışam yolumu əzəl günümdən,
Gənclik çağlarımdan, gözəl günümdən,
Gəlha-gəl günümdən, xəzəl günümdən,
Olubdu günlərim qara ogündən.

Qəflət yuxusunda yatıb qalmışam,
Üfunət gölünə batıb qalmışam,
Qaşımı, qabağı çatıb qalmışam,
Gəlmişəm amana, zara ogündən.

Eşidən-eşitsin, biləsi-bilsin,
Ağlayan-ağlasın, güləsi-gülsün,
Yaşayan-yaşasın, öləsi-ölsün,
Alışıb yanıram nara, ogündən.

İnləyir, sızlayır, qövr edir yaram,
Yediyim, içdiyim olubdur haram,
Nitqidən lal oldum, qulağı karam,
Qərq oldum borana, qara ogündən.

Qanadı qırılmış bir quşa döndüm,
Yeməmiş, içməmiş sərxoşa döndüm,
İtirib əqlimi bihuşa döndüm,
Uymuşam bayquşa, sara ogündən.

Qəlbimdəm keçəni bilən olmadı,
Axan gözyaşımı silən olmadı,
Ruhumu oxşayıb gülən olmadı,
Düşmüşəm xəzana, xara ogündən.

Hər addımbaşında qaraldı qanım,
Korlandı əsəbim, üzüldü canım,
Nəüçün gizlədim, nəüçün danım?
Uymadım dövlətə, vara ogündən.

Cəmiləm bəd gəldi güzarım mənim,
Sevda məqamında bazarım mənim,
Odur ki, sağalmır azarım mənim,
İlişib düşmüşəm tora ogündən.

***Cəmil Əkbər*** 22. 10 – 1995

## 190. BAKIMIN

Nə müddətdir bulud çöküb üsdünə,
Açılmır qabağı-qaşı Bakımın.
Hansı namərd girib onun qəsdinə,
Dəyibdi qəlbinə naşı, Bakımın.

Qara bulud kimi necə dolubdur,
Açmamışdan qərənfillər solubdur,
Gözləri eləbil yolda qalıbdır,
Kəsilmir, qurumur yaşı Bakımın.

Tar-kamanı sızıldayır, inləyir,
Elim, xalqım naləsini dinləyir,
Qövr eyləyib, yaraları simləyir,
Dağılıb sərindən huşu Bakımın.

Beynəlmiləl şəhər millətçi olub,
Qapıçı, gözətçi, xidmətçi olub,
Yalvarıb-yaxaran, minnətçi olub,
Gəlmir buminvala xoşu Bakımın.

Şərəfinə dastan deyən azalıb,
Yaxın bilib dostam deyən azalıb,
Baxıb dönüklüyə, baxıb sozalıb,
Sızlayır torpağı-daşı Bakımın.

Kəcinə çəkirlər, ara qatırlar,
Vicdanını, məsləyini satırlar,
Namərdliklə məqsədinə çatırlar,
Axsayır, büdrəyir işi Bakımın.

Hansı iblislərin felinə düşdü?
İnandı sözünə, dilinə düşdü?
Şəhidlər qanının gölünə düşdü?
Qərq oldu matəmə qışı Bakımın.

Şeyda bülbülləri fəqan eyləmir,
Tuti avazını bəyan eyləmir,
Yadları özünə həyan eyləmir,
Susubdur yerbəyer quşu Bakımın.

Dözməyib bu dərdə qocaman şəhər,
Çəkibdir nəqədər qüssə-qəm kədər,
Gördü haqsızlığı, gördü nəqədər,
Ağardı saçları, başı Bakımın.

***Cəmil Əkbər*** 4. 03 – 1990

## 191. ÇƏKİLƏNDƏDİR

Sanmakı hamıdan kamallı sənsən,
Kamal, el gözündə çəkiləndədir.
Məsləkli, vicdanlı amallı sənsən,
Amal, el gözündə çəkiləndədir.

Hamıdan hörmətli, izzətli sənsən,
Kəramət əhlisən, mürvətli sənsən,
Abırlı, həyalı, ismətli sənsən,
Hörmət, el gözündə çəkiləndədir.

Deməki hamıdan şöhrətli mənəm,
Namuslu, vicdanlı, qeyrətli mənəm,
Məzmunlu, mənalı, hikmətli mənəm,
Şöhrət, el gözündə çəkiləndədir.

Hamıdan dövlətli, varlıyam demə!
Çətində, dar gündə karlıyam demə!
Əyir butaqlarım, barlıyam demə!
Dövlət, el gözündə çəkiləndədir.

Sanmakı hamıdan səxavətlisən,
İgidsən, qoçaqsan, fərasətlisən,
Odlu-alovlusan, hərarətlisən,
Səxa, el gözündə çəkiləndədir.

Deməki  hamıdan xidmətim çoxdur,
Ən gözəl vərdişim, adətim çoxdur,
Dəyər, kəmiyyətim, qiymətim çoxdur,
Qiymət, el gözündə çəkiləndədir.

Sanmakı hər şeyin biləndərisən,
Alimi, loğmanı, qələndərisən,
Sərrafı, xarratı, çilingərisən,
Qüdrət, el gözündə çəkiləndədir.

Deməki hamıdan düz gedən mənəm,
Sürəti artıran, tez gedən mənəm,
Qət edib saatda yüz gedən mənəm,
Sürət, el gözündə çəkiləndədir.

Hər yetən gədaya əda yaraşmır,
Lovğalıq eyləmək, səda yaraşmır,
Ünvanına, nə də ada yaraşmır,
Səda el gözündə çəkiləndədir.

Deməki dünyada şir, aslanam mən,
Barlı-bərəkətli bir bostanam mən,
Dillərdə car olan bir dastanam mən,
Dastan, el gözündə çəkiləndədir.

Ey Cəmil, həmişə elə arxalan,
Hikmətli sözlərə, dilə arxalan,
Zəhmətə arxalan, ələ arxalan,
Hikmət, el gözündə çəkiləndədir.

***Cəmil Əkbər*** 6. 10 -1985

## 192. A QOHUMBALA

Gündə dava-dalaş, gündə qalmaqal,
Salmasan olmayır, a qohumbala.
Verməsən ürəyə hər qüssə, zaval,
Almasan olmayır a qohumbala.

Bilmirsən nəüçün salırsan dava?
Pozulur ünsiyyət, korlanır hava,
Utanıb-qızarıb demirsən tova,
Olmasan-olamyır a qohumbala.

Həddi-hüdudunu aşırsan biraz,
Qaynayıb, qıcqırıb daşırsan biraz,
Kükrəyib əsirsən, coşursan biraz,
Dolmasan olmayır a qohumbala.

Beylə getsə dərd-qəm səni üzəcək,
Ata-ana, qardaş-bacı bezəcək,
Eylə sanma möhübünü düzəcək,
Solmasan-olamyır a qohumbala.

İncitmə, bezdirmə doğma qardaşı,
Həmkarı, həmdəmi, yaxın sirdaşı,
Həmyaşıd, tay-tuşu, nə də çağdaşı,
Çalmasan olamyır a qohumbala.

Xətir-hörmət, haqq-sayı yada sal,
Dürlü-dürlü sovqat, payı yada sal,
Mixək, darçın, hili, çayı yada sal,
Salmasan olamyır a qohumbala.

İnsan olan ürəklərdə yer tutar,
Xoş arzuda, diləklərdə yer tutar,
Huri-qılman, mələklərdə yer tutar,
Qalmasan olamyır a qohumbala.

Şirin-şəkər xəyallara dal biraz,
Könül açan havalardan çal biraz,
Ayaq saxla, dayan biraz, qal biraz,
Dalmasan olamyır a qohumbala.

***Cəmil Əkbər*** 1. 07 – 1990

## 193. GÖZƏLLƏRƏ ÖYÜD

Çox öyünüb mənimdir demə dövran,
Bal yerinə şirindir demə ayran,
Çox mənəm deyəni yola salmışdır,
Heç zaman unutma, bu qoca dövran.

Sən cəllad deyilsən, tökmə qanımı,
Qəsd eyləyib gəl sən alma canımı,
Pis işdən fayda yox, heç insanlığa,
Gəl dağıtma könül xanimanını.

Bilirsən gözəlim qəlbdə yerin var,
Sinəmdə hicranın, dərdi-sərin var,
Uyma gözəlliyə, xoş əndamına,
Məhv olur görürsən küllü-ixtiyar.

Həyat nəyə gərək gözəlsiz, qızsız?
Aşiq ruha gələr məgərki sizsiz?
Çox da mənəm-mənəm daha deməyin,
Heç gözəl olmaz ki, bilin əvəzsiz.

Eşidin sözünü, bilin aşiqin,
Mən Məcnunsayağı sizə məşuqəm,
Aşiqlər olmasa nəyə gərəkdir?
Bürüyər könlünü qüssə-qəm, kədər.

***Cəmil Əkbər*** 1956

## 194. BİZİM YERLƏR

Səni görcək könül gülür,
Bizim yerlər, bizim yerlər.
Çiçəyin xalı sərilir,
Bizim yerlər, bizim yerlər.

Bağlarımız bar bitirir,
Alma, heyva, nar yetirir,
Namus, qeyrət, ar gətirir,
Bizim yerlər, bizim yerlər.

Səfasıza verir səfa,
Vəfasıza verir vəfa,
Xəstələrə verir şəfa,
Bizim yerlər, bizim yerlər.

Başın nələr keçirmişdir,
Qoç igidlər yetirmişdir,
Vaxtsız övlad itirmişdir,
Bizim yerlər, bizim yerlər.

Cəmil, yolun haqq yoludur,
Qolumuz polad qoludur,
Köksün vüqarla doludur,
Bizim yerlər, bizim yerlər.

***Cəmil Əkbər*** 1956

## 195. DUEL YERİ

Xalq unutmur mərd oğlunu,
Gözləyir hər an yolunu,
Hey axtarır, araşdırır,
Ona şeir quraşdırır.

Mən soruşdum o torpaqdan,
Şair ölmüş hansı vaxtdan?
Nə daş dindi, nə də torpaq,
Nə gül dindi, nə də yarpaq.

Eləbilki qəsd etmişdir,
Qoç igidin itirmişdir,
Şairə xəyanət etmiş,
Böyük bir cinayət etmiş.

Mən soruşdum o torpaqdan,
Şair ölübki nahaqdan?
Yer sükuta dalıb necə?
Həm gündüzlər, həm də gecə,

Sanki torpaq dilə gəldi,
Rişxənd ilə bizə güldü,
Söylədi mən öldürmədim,
Yanan şamı söndürmədim.

Mən sizə sərvət verirəm,
Yeməyə nemət verirəm,
Təqsir insanın özündə,
Xain qəlblərin gözündə.

Mən soruşdum o torpaqdan,
Şair ölüb cavan vaxtdan?
Sanki gül də gəldi dilə,
Onlar da güldülər elə.

Dedi: Bizdə nə təqsir var,
Sizdədir külli-ixtiyar,
Gah asırsız, gah kəsirsiz,
Sonra da tel-tel əsirsiz.

Dedim torpaq salam verin,
Şairə salam göndərin.
Nə daş dindi, nə də torpaq,
Nə gül dindi, nə də yarpaq.

***Cəmil Əkbər*** 1956

## 196. DEYƏMMƏRƏM

Haqq kiriyib, nahaq dinib,
Ağa qara deyəmmərəm,
Üzə gülüb, dalda sinib,
Tama para deyəmmərəm.

Bilə-bilə, qana-qana,
Ədaləti dana-dana,
Düzü qoyub yana-yana, [130]
Ora-bura deyəmmərəm.[131]

Xainlərə, xəbislərə,
Acgözlərə, hərislərə,
Bədxahlara, bədcinslərə,
"Uyma sara" - deyəmmərəm.

---

[130] Haqqı qoyub yana-yana.

[131] *II variant* Ədaləti düz görürəm,
Gecikmirəm, tez görürəm,
Səksən, doxsan, yüz görürəm,
Ora-bura deyəmmərəm.

Ünsiyyəti pozanlarda,
Düzü-tərsə yozanlarda,
Yolu-izi azanlarda,
Yoxdu çara deyəmmərəm.

Haqq boğulur Cəmil Əkbər,
Çox danışıb, demə hədər,
Nə çəkirsən qəm bu qədər?
Düşüb nara deyəmmərəm.[132]

***Cəmil Əkbər***

## 197. GÖRMƏMİŞ OĞLU GÖRMƏMİŞ

Hazırdı qan qaraltmağa,
Gen dünyanı daraltmağa,
Gül rəngini saraltmağa,
Görməmiş oğlu görməmiş.

Onu-bunu mətəl qoyar,
Xalqın dərisini soyar,
Nə ac qalar, nə də doyar,
Görməmiş oğlu görməmiş.

İnsafı, vicdanı atar,
Yaxşını-yamana qatar,
Nə iş görsə əyri tutar,
Görməmiş oğlu görməmiş.

Doğru gedib, düz görənməz,
Hörmət-izzəti edənməz,
Elin dərdini çəkənməz,[133]
Görməmiş oğlu görməmiş.

Elini cana doydurar,
Sordurub qana doydurar,
Şirəyə, şana doydurar,
Görməmiş oğlu görməmiş.

---

[132] *II variant* Haqdan danış Cəmil Əkbər,
Nə çəkirsən qəm bu qədər?
Çox danışıb, demə hədər,
Gəlmə zara deyəmmərəm.

[133] 1) Əyib qəddini bükənməz, 2) Beləları nə tükənməz.

Xətir-hörmət qana bilmir,
İnsaf-mürvət qana bilmir,
Namus-qeyrət qana bilmir,
Görməmiş oğlu görməmiş.

Nə haraya, haya gəlməz,
Nə sovqata paya gəlməz,
Dada çatmaz, saya gəlməz,
Görməmiş oğlu görməmiş.

***Cəmil Əkbər*** 1999

## 198. OLAYDIM

Bu ulu dünyadan təmənnam budur,
Öz adımın yadigarı olaydım.
Mənim yolum haqq-ədalət yoludur,
Sədaqətin bayraqdarı olaydım.

Könüllər mülkündən izim getməyə,
Söhbətim getməyə, sözüm getməyə,
Gözəl vüsalından gözüm getməyə,
Yaşamağın istəkdarı olaydım.

Yolumu-izimi azıb getməyəm,
Ülfət-ünsiyyəti pozub getməyəm,
Doğrunu-əyriyə yozub getməyəm,
Haqq-ədalət vəfadarı olaydım.

Düşməyəm dəhandan, düşməyəm dildən,
Köçməyəm dünyadan, itməyəm eldən,
Sorağım gələydi əsrdən, ildən,
Ünsiyyətin düz ilqarı olaydım.

***Cəmil Əkbər*** 1999

## 199. NƏ SƏNƏ, NƏ MƏNƏ, NƏ ONA QALIR

Aldanma dünyanın beh-bazarına,
Nə sənə, nə mənə, nə ona qalır.
Dövranın, zamanın xoş rüzgarına,
Nə sənə, nə mənə, nə ona qalır.

Sussama dünyanın cah-calalına,
Dəymişinə, sütülünə, kalına,
Sərsəm düşüncəyə, kəc xəyalına,
Nə sənə, nə mənə, nə ona qalır.

Görmürsənmi yarı yolda qalanı?
Sozalanı, zarıyanı, öləni?
Dərdi-qəmlə bağrın-başın dələni,
Nə sənə, nə mənə, nə ona qalır.

Görmürsənmi məzarlarda yatanı?
Şan-şöhrəti əllərindən atanı,
El-obalar matəmini tutanı,
Nə sənə, nə mənə, nə ona qalır.

İnləyəni, ağlayanı yada sal!
Sinəsini dağlayanı yada sal!
Əsib-coşan, çağlayanı yada sal!
Nə sənə, nə mənə, nə ona qalır.

Çox mənəm deyənlər köçüb getdilər,
Əcəl şərbətini içib getdilər,
Yaxşını-yamanı seçib getdilər,
Nə sənə, nə mənə, nə ona qalır.

Demə bu dünyanı tutub qalacam,
Mənzilə, məkana çatıb qalacam,
Yorulub, dincəlib, yatıb qalacam,
Nə sənə, nə mənə, nə ona qalır.

Demə bu dünyada kef eyləyəcəm,
Qazanclar götürüb nəf eyləyəcəm,
Çalacam, çapacam, müf eyləyəcəm,
Nə sənə, nə mənə, nə ona qalır.

Əsəblər korlama, qaraltma qanı,
Çox əsib-kəsənlər özün de hanı?
Nəqədər qorusan, saxlasan canı?
Nə sənə, nə mənə, nə ona qalır.

Cəmil Əkbər deyir insantək yaşa,
Şərəflə, şöhrətlə ömrü vur başa,
Xəyanət eyləmə dosta, yoldaşa,
Nə sənə, nə mənə, nə ona qalır.

***Cəmil Əkbər*** 1999

## 200. QARDAŞIM

Heç bilmirəm nə halətdi düşmüşəm?
Sarsıyıram, pozuluram qardaşım.
Nə peşədi, nə adətdi düşmüşəm?
Zəifləyib, sozalıram qardaşım.

Gözlərimdən işıq gedir, nur gedir,
Dizlərimdən taqət gedir, gir gedir,
Dəhanımdan inci gedir, dür gedir,
Gündən-günə azalıram qardaşım.

Qiymət yoxdur söhbətimə, sözümə,
Varlığıma, mənliyimə, özümə,
Lağ edirlər qədəyimə, bezimə,
Tərsəməssəb yozuluram qardaşım.

Dayım yoxdu zirvələrə qaldıra,
Alınmamış qalaları aldıra,
Neçə-neçə zəfərləri çaldıra,
Gündən-günə qazılıram qardaşım.

Bu fani dünyada qəm yemə Cəmil!
Zilə meyil göstər, bəm yemə Cəmil!
Günəşdən qüvvət al, nəm yemə Cəmil!
Şeirlərə yazılıram qardaşım.

***Cəmil Əkbər*** 18.11 – 1983

## 201. MƏN NƏ BİLİM?

Mən nə bilim sənin qəlbin?
İbtidadan qırılıbmış?
Sinən üstə sağa-sola?
Dağ düyünlər vurulubmuş?

Mən nə bilim sənin canın?
Damarından axan qanın?
Yeşiyində balın, şanın?
Yerbəyerdən sorulubmuş?

Mən nə bilim sənin yolun?
Eniş-yoxuş, sağın, solun?
Vuran-tutan qılçın, qolun?
Haldan düşüb yorulubmuş.

Xəbərim yox ürəyindən,
İstəyindən, diləyindən,
Qollarından, biləyindən,
Sıxılıbmış, darılıbmış.

***Cəmil Əkbər*** 20.11 – 1987

## 202. BƏS EYLƏR MƏNƏ

Demirəm Hatəm ol, varını payla,
Səxan, səxavətin bəs eylər mənə.
Almanı, heyvanı, narını payla,
Ülfətin, izzətin bəs eylər mənə.[134]

Demirəm qapımda nökərlik eylə,
Hüquq-ixtiyarsız, köməklik eylə,
Haqsız, məvacibsiz fəhləlik eylə,
Məzmunun, hikmətin bəs eylər mənə.

---

[134] *II variant*
Demirəm Hatəmtək varını payla,
Almanı, heyvanı, narını payla,
Buğdanı, arpanı, darını payla,
Səxan, səxavətin bəs eylər mənə.

Qoy xalqımız tuş olmasın qəsdinə,
Dəyilməsin xatirinə, şəsdinə,[135]
İsinməmiş kor olmasın tüsdünə,
Xətirin, hörmətin bəs eylər mənə.[136] [137]

Nəyimə lazımdır yalan sözlərin?
Koramal sözlərin, ilan sözlərin?
Saralan sözlərin, solan sözlərin?
Haqqın-həqiqətin bəs eylər mənə.

Nə varına, nə halına aşiqəm,
Nə cahına, cəlalına aşiqəm,
Nə elinə, mahalına aşiqəm,
Bir təmiz xislətin bəs eylər mənə.[138]

Kimsən, de nəçisən, nəyimə gərək?
Məzlumsan, qoçusan, nəyimə gərək?
Adi bir suçusan nəyimə gərək?
Bir təmiz niyyətin bəs eylər mənə.

---

[135] Dəyməsinlər xatirinə, şəstinə.

[136] Namusun, qeyrətin bəs eylər mənə.

[137] *I variant*
Qoy sözlərim əsər etsin sərinə,
İzi salsın, yolu getsin dərinə,
Arzularım qoy yetişsin yerinə,
Abırın, ismətin bəs eylər mənə.

*II variant*
Qoy sözlərim toxunmasın şəsdinə,
Hücum çəkib soxulmasın qəsdinə,
Yol verməsin başdan qalxan tüsdünə,
Abırın, ismətin bəs eylər mənə.

[138] *II variant*
Nə varında, nə halında gözüm var,
Nə cahında, cəlalında gözüm var,
Nə elində, mahalında gözüm var,
Bir təmiz xislətin bəs eylər mənə.

*III variant*
Nə varına, nə halına sussadım,
Nə cahına-cəlalına sussadım,
Nə elinə, mahalına sussadım,
Bir təmiz xislətin bəs eylər mənə.

Səni xatırlaram müdam ay ata,
Arzu-muradıma hey çata-çata,
Dediyin sözlərin yetir isbata,
Öyüd-nəsihətin bəs eylər mənə.

***Cəmil Əkbər***

## 203. GERİDƏ QALMA!

İşində-gücündə kim olursan ol,
Çalış ədalətdən geridə qalma!
Sazın sinəsində sim olursan ol,
Ülvi-ləyaqətdən geridə qalma![139]

Eşqə-məhəbbətə sönüklük etmə,
Hər dinə, məzhəbə yönüklük etmə,
İlqara, vəfaya dönüklük etmə,
Dosta sədaqətdən geridə qalma! [140]

Abırla oturun, həyayla durun,
Çalışın, yaşayın, yaradın, qurun,
Hünər meydanında özünü yorun,
Ədəb, mərifətdən geridə qalma![141]

Müqəvva olmayın, oyuq olmayın,
Biganə, laqeyid, soyuq olmayın, [142]
Anan oğul doğub, toyuq olmayın,
Cürət, cəsarətdən geridə qalma! [143]

---

[139] *II variant* Nə işdə, nə gücdə, kim olsanda ol,
Haqdan, ədalətdən kənarda qalma!
Daxmaya, saraya him olsanda ol,
Ünsiyyət-ülfətdən kənarda qalma!

[140] *II variant* Eşqə-məhəbbətə biganə olma,
İtirib əqlini divanə olma,
Hər oda alışan pərvanə olma,
Dosta sədaqətdən kənarda qalma!

[141] *II variant* Çalışın, vuruşun, yaradın qurun,
Hünər meydanında özünü yorun,
Ədəblə oturun, mərfətlə durun,
Ülvi-ləyaqətdən kənarda qalma!

[142] Ünsiyyət məqamı soyuq olmayın.

[143] Fəhm-fərasətdən kənarda qalma!

Elin nəzərindən uzağa getmə,
Qarğatək aldanıb, duzağa getmə,
Tufana, çovğuna, sazağa getmə,
Aldığın qiymətdə geridə qalma![144]

Həyat mübarizə, həyat hünərdir,
Çalınan qələbə, böyük zəfərdir,
Səadət yolunda beylə səfərdir,
Çəkdiyin zəhmətdən geridə qalma!

Mənadır həyatı gözəlləşdirən,
İnsanı tanıdıb əməlləşdirən,
Bər-bəzək vurduran, qəşəngləşdirən,
Məzmundan, hikmətdən geridə qalma!

***Cəmil Əkbər***

## 204. TƏZƏDİR

Cığır, keçid, yollar, izlər təzədir,
Çatmaqaşlar, alagözlər təzədir,
Mahnılarda şirin sözlər təzədir,
Başdan-başa hərnəvarsa təzədir.
Çal-çağırdır, kef-damaqdır, məzədir.

Çeşmə də təzədir, çay da təzədir,
Bahar da təzədir, yay da təzədir,
Günəş də təzədir, ay da təzədir,
Başdan-başa hərnəvarsa təzədir.
Çal-çağırdır, kef-damaqdır, məzədir.

Atalar da, analar da təzədir,
Babalar da, nənələr də təzədir,
Körpələr də, nəvələr də təzədir,
Başdan-başa hərnəvarsa təzədir.
Çal-çağırdır, kef-damaqdır, məzədir.

---

[144] *II variant* Tufana, çovğuna, sazağa düşmə,
Qarğatək aldanıb, duzağa düşmə,
Məna-məziyyətdən uzağa düşmə,
Aldığın qiymətdə kənarda qalma!

Təzələnib ünsiyyət də, ülfət də,
Ailə də, məişət də, külfət də,
Ənənə də, adətlər də, xislət də,[145]
Başdan-başa hərnəvarsa təzədir.
Çal-çağırdır, kef-damaqdır, məzədir.

Təzələnib şəhərlər də, kəndlər də,
Neçə-neçə kanallar da, bəndlər də,
Mənzərələr, keçməkeşlər, həndlər də,
Başdan-başa hərnəvarsa təzədir.
Çal-çağırdır, kef-damaqdır, məzədir.

***Cəmil Əkbər***

## 205. ÇƏTİNDİR

***Ədalətdir,*** yerin-göyün ləngəri,
Bu yol ilə biz getməsək çətindir.
Bəşər yaranandan, min ildən bəri,
Bu yol ilə biz getməsək çətindir.[146]

***Həqiqətdir,*** ünsiyyətin əsası,
Həm özülü, həm təməli, binası,
Həm məzmunu, həm mətləbi qısası,
Bu yol ilə biz getməsək çətindir.

***Sədaqətdir,*** insanlığın qayəsi,
Üzdə-gözdə gərək olsun həyası,
Kamil gərək hər insanın dayəsi,
Bu yol ilə biz getməsək çətindir[147]

---

[145] Qalmamışdır dəyişməmiş xislət də.

[146] *II variant*
Getdiyimiz ədalətin yoludur,
Bu yol ilə biz getməsək çətindir.
Doğruluğun, həqiqətin yoludur,
Bu yol ilə biz getməsək çətindir.

[147] *II variant*
Sədaqət insanın şərafətidir,
Odudur, közüdür, hərarətidir,
Dözümü, durumu, dəyanətidir,
Bu yol ilə biz getməsək çətindir.

***Nəzakət*** insanın ləyaqətidir,
Arxası, köməyi, dəyanətidir,
Olmasa başının qiyamətidir, [148]
Bu yol ilə biz getməsək çətindir.

***Fəzilət*** insana gərəkdir qardaş,
Dayaqdır, sütundur, dirəkdir qardaş,
Nemət, bin-bərəkət, çörəkdir qardaş,
Bu yol ilə biz getməsək çətindir.

***Məlahət*** insana yaraşıq verir,
Gətirir gözlərə nur, işıq verir,
Kim deyir işləri dolaşıq verir?
Bu yol ilə biz getməsək çətindir.

***Düşüncə*** insanı qanan eyləyir,
Hərkəsi hamıya, həyan eyləyir,
Çox gizli sirləri bəyan eyləyir,
Bu yol ilə biz getməsək çətindir[149]

***Fərasət*** insana qol-qanad verir,
İşə vüsət verir, o nicat verir,
Koroğlu, Fərhada o isnad verir,
Bu yol ilə biz getməsək çətindir.

***Məhəbbət*** hərkəsin ürəyindədir,
Nəcib arzusunda, diləyindədir,
Zəhməti, xidməti, köməyindədir,
Bu yol ilə biz getməsək çətindir.

***Cəsarət*** insanı ürəkləndirir,
Açıb gözlərini zirəkləndirir,
Dar gündə hamını gərəkləndirir,
Bu yol ilə biz getməsək çətindir.

---

[148] Zülmü, müsibəti, fəlakətidir.

[149] *II variant* Ləyaqət insanı qanan eyləyir,
Ellərin dərdinə yanan eyləyir,
Hərkəsi hamıya həyan eyləyir,
Bu yol ilə biz getməsək çətindir.

***Mərifət*** insanın özündə gərək,
İşində, gücündə, sözündə gərək,
Mərd igid oğlunda, qızında gərək,
Bu yol ilə biz getməsək çətindir.

***Mərhəmət*** hərkəsin canında gərək,
Gendə, damarında, qanında gərək,
Zülalında gərək, şanında gərək,
Bu yol ilə biz getməsək çətindir.[150]

***Cəmil Əkbər*** 9. 09-1989

## 206. NEÇƏSƏN?

Yersiz-yersiz lovğalanıb öyünmə,
Gör məzmundan, məziyyətdən necsən?
Ənlik, kirşan, sürmən ilə sevinmə,
Ədəb-ərkan, mərifətdən necəsən?

Gəl aldanma bəzəyinə, formana,
Saksafona, gitaraya, qarmona,
Çarə yoxsa təbib verən dərmana,
Dəyanətdən, qətiyyətdən necəsən?

İnsanlıqdan olubdurmu xəbərin?
Ona-buna dəyməyibki xətərin?
Deyən varmı bərəkallah, afərin?
Qüdsiyyətdən, ülviyyətdən necəsən?

Yedin-içdin bu dünyanın varından,
Almasından, heyvasından, narından,
Təzəcə bəslənən ilk nübarından,
Sədaqətdən, səxavətdən necəsən?

Ömürboyu el varından dolandın,
Becərildin, bəslənildin, sulandın,
Hər məsləyə, əqidəyə yollandın,
Bəşər üçün xidmətindən necəsən?

---

[150] Səxavət insanın canında gərək.

Yaradıbmı, yaşadıbmı əməyin?
Birkimsəyə çatıbdırmı köməyin?
Məhəbbətlə döyünübmü ürəyin?
Pak arzudan, saf niyyətdən necəsən?

Çəkmisənmi el yolunda əzabı?
Qazandınmı heç olmasa savabı?
Vermisənmi öz-özünə hesabı?
İnsanlıqdan, ləyaqətdən necəsən?

Ona-buna dönə-dönə pis dedin,
Nadan dedin, cahil dedin, nəs dedin,
Xəbis dedin, höcət, inad, tərs dedin,
Söylə görüm keyfiyyətdən necəsən?

Ona-buna eyləmisən nifrəti,
Qəzəbini, qisasını, hiddəti,
Bəsləmisən ömürboyu küdrəti,
Saf eşqdən, məhəbbətdən necəsən?

Yaxşı-pisi birbirinə qatanda,
Mərd igidi namərdlərə satanda,
İnsafını, vicdanını atamda,
Heç bildinmi xəcalətdən necəsən?

Günlərini keçirdikcə kef ilə,
Oğrun-oğrun qazanc ilə, nəf ilə,
Barışdıqca yalan ilə, səhv ilə,
Düşündünmü, aqibətdən necəsən?

Sən düşdükcə el-obanın gözündən,
Əməlindən, cığırından, izindən,
Heç olmasa incidinmi özündən?
Anladınmı, hörmətindən necəsən?

Ay acgözlər, tamahkirlər, hərislər,
A xainlər, a paxıllar, xəbislər,
A eybəcər, a çirkinlər, a pislər,
İnsaf, vicdan, de mürvətdən necəsən?

***Cəmil Əkbər*** 5. 05 – 1978

## 207. A NADİR?

*Həkim Nadir  Əliyevin vəfatı ilə*

Görmürdünmü səni oba, el sevir?
Necə qıydın, niyə qıydın a Nadir?
Çəmən sevir, çiçək sevir, gül sevir?
Necə qıydın, niyə qıydın a Nadir?

Bilmədinmi ana, bacı ağlayar?
Dərd-qəm çəkib, sinəsini dağlayar?
Yas saxlayıb, başa qara bağlayar?
Necə qıydın, niyə qıydın a Nadir?

Bilmədinmi yol gözləyər balalar?
Səndən ayrı dərd çəkərək saralar?
Qulaq səsdə, gözü yolda qalallar?
Necə qıydın, niyə qıydın a Nadir?

Bilmədinmi qohum-qardaş yanacaq?
Ömürboyu axtaracaq, anacaq?
Səni sənsiz öz yanında sanacaq?
Necə qıydın, niyə qıydın a Nadir?

Bilmədinmi dərd çəkəcək Cəmil də?
Qohumlar da, qardaşlar da, nəsil də?
İllər, aylar, həftələr də, fəsil də?
Necə qıydın, niyə qıydın a Nadir?

***Cəmil Əkbər*** 2.02- 1980

## 208. ÖNÜNDƏ

Yüz dəfə, min dəfə diz çökürəm mən,
Sədaqətin, səxavətin önündə.
Təzim eyləyirəm, tez çökürəm mən,
Pak arzudan, saf niyyətin önündə.

Yüz dəfə, min dəfə kiçilirəm mən,
Ot kimi doğranıb, biçilirəm mən,
Şərbəttək süzülüb, içilirəm mən,
Ləyaqətin, mərifətin önündə.

Yüz dəfə, min dəfə ucalıram mən,
Zəfərlər çalıram, bac alıram mən,
Kim deyər, kim deyər qocalıram mən?
Saf ülfətin, ünsiyyətin önündə.

Cəmili vəfasız tanımayın siz!
Hər addımbaşında sınamayın siz!
Mənliyi belədir, qınamayın siz!
Neyləsinki xasiyyətn önündə?

***Cəmil Əkbər*** 5.03 – 1983

## 209. BİRHALDAKİ...

Birhaldaki, xəyanət var,
Etibar nə, düz ilqar nə?
Şikayət var, cinayət var,
Dümdüz qamət, şahvüqar nə?

Birhaldaki, əyrilik var,
Həqiqət nə, ədalət nə?
Özgəlik var, qeyrilik var,
Utanmaq nə, qeyrilik nə?

Birhaldaki, hərislər var,
Abır nədir, həya nədir?
Xainlik var, xəbislik var,
Halallıq nə, mayə nədir?

Birhaldaki, insaf yoxdur,
Kəramət nə, mürvət nədir?
İnsanlarda vicdan yoxdur,
Ar-namus nə, qeyrət nədir?

Birhaldaki, çaqqallar var,
Cəsarət nə, cürət nədir?
Dəllallar var, baqqallar var,
Ədəb nədir, mərfət nədir?

***Cəmil Əkbər***

## 210. LƏYAQƏT

Ləyaqətdi insanı, yerdən-göyə qaldıran,
Hər addımın başında, zəfərləri çaldıran.
Ləyaqətdi deyirlər, insanı-insan edən,
Böyük düha sahibi, təbibi-loğman edən.
Ləyaqətdi deyirlər, gözəllərin-gözəli,
İnsanlığın əlası, özəllərin-özəli.
Hörmət-izzət onundur, mərhəmət də onundur,
Kainat da onundur, məmləkət də onundur.
Şan-şöhrət də onundur, şərafət də onundur,
Bacarıq da, fəhm də, məharət də onundur,
Məclislər də onundur, ziyafət də onundur.
Onunkudur bu dövran, onunkudur bu karvan,
Qəflə-qatır hərnəvar, onunkudur bu sarvan.
Onunkudur bu şeir, onunkudur bu dastan,
Onunkudur bu “Büstan”, onunkudur “Gülüstan”.
Onunkudur qoşmalar, onunkudur qəzəllər,
Onunkudur zərəfşan, hərnəvarsa gözəllər.
Ləyaqətə bağlıdır, hər qələbə, təntənə,
Odur zəfər çaldıran, el-obaya, Vətənə.
Ləyaqətə bağlıdır, ədalətin özü də,
Doğruluğun, düzlüyün, həqiqətin özü də.
Kəramətin özü də, səxavətin özü də,
İnsaf-mürvət həm kərəm, mərhəmətin özü də.
Ləyaqətə bağlıdır, ləyaqətli nə varsa,
Təravətli nə varsa, məlahətli nə varsa.
Sədaqətli nə varsa, səxavətli nə varsa,
Ünsiyyətdə, ülfətdə, ədalətli nə varsa,
Bacarıqlı, fəhmli, fərasətli nə varsa.
Ləyaqətə bağlıdır, ünsiyyətin əsası,
Yenilməyən təməli, bünövrəsi, binası.
Ayın-günün nuru da, ləyaqətə bağlıdır,
Huri-mələk, qılman da ləyaqətə bağlıdır.
Ləyaqətə bağlıdır, xoşa gələn hərnəvar,
Könüllərə ruh verən, coşa gələn hərnəvar.
Ləyaqətə bağlıdır, sədaqətin özü də,
Gözəl vərdiş, ənənə, xoş adətin özü də.
Ləyaqətə bağlıdır, bütün kəndlər, şəhərlər,

Yaxın, uzaq nə varsa, ən uğurlu səfərlər.
Ləyaqətə bağlıdır, kainatın özü də,
İnsanoğlu, bu bəşər, cəmiyyətin özü də.
Gəl ay qardaş, bacılar ləyaqəti artıraq,
Bu mənanı, məzmunu, bu hikməti artıraq.
Bu dəyəri çoxaldaq, bu qiyməti artıraq,
Bu qayğını, yardımı, bu xidməti artıraq.
Bu təpəri çoxaldıb, bu riqqəti artıraq,
Bu nicatı artıraq, bu nüsrəti artıraq.
Ləyaqətsiz yaşamaq müsibətdi həyatda,
İşgəncədi, zülümdü, fəlakətdi həyatda.
Ləyaqətsiz yaşamaq zəlalətdi dünyada,
Nadanlıqdı həyatda, cəhalətdi həyatda.
Ləyaqətsiz yaşamaq ölümdən də betərdi,
İztirabdan, əzabdan, zülümdən də betərdi.
Ləyaqətdi insana qanad verən, qol verən,
Cığır açıb, iz salan, səadətə yol verən.
Ləyaqətdi insanı şərafətə çatdıran,
Bacarığa, biliyə, məharətə çatdıran.
İnsanoğlu harda var, ləyaqətə güc verir,
Bu varlığa sığınıb, bu hikmətə güc verir.
Ləyaqətsiz yaşamaq yaraşmayır insana.

***Cəmil Əkbər***

## 211. AYAQLARIM

Mən səni çox yorub, çox incitmişəm,
Ay mənim dizlərim, ay ayaqlarım,
Yalvardıb, yaxardıb çox yoncutmuşam,
Ay mənim dizlərim, ay ayaqlarım.

Mənim hər yükümü çəkən sən oldun,
Şumlayan sən oldun, əkən sən oldun,
Ağırlıq altına çökən sən oldun,
Ay mənim cağlarım, ay oynaqlarım.

Qüvvətim, qüdrətim səninlə olub,
Şərəfim-şöhrətim səninlə olub,
Dözüm-dəyanətim səninlə olub,
Ay mənim sütunum, ay dayaqlarım.

Heyif ki, qədrini bilməmişəm mən,
Axan gözyaşını silməmişəm mən,
Utanıb, qızarıb ölməmişəm mən,
Ay mənim ulduzum, ay mayaqlarım.

***Cəmil Əkbər*** 20.03 -1987

## 212. İNQİLAB NƏFƏSLİ ŞAİR

*(Gəncədə Nizami Gəncəvinin məqbərəsi qarşısında keçirilən dövlət tədbirində Xalq Şairi Süleyman Rüstəmə xitabən)*

Azəri xalqının şair oğlusan,
Nizami yurdunun hüzurundasan.
Vətənə, xalqına elə baqlısan,
Düşmüsən məhəbbət dünyasındasan.

Aldanıb uymadın hərcayi sözə,
Hərcürə baxışa, hərcürə üzə,
Hərcürə cığıra, hərcürə izə,
Sərrafsan cəvahir meydanındasan.

Dərin xəyallara dalan şairsən,
Zəfərlər təblini çalan şairsən,
Əsrlər keçsə də qalan şairsən,
Xoş tale, xoş iqbal güzarındasan.

Yorulmaz qolların, dizlərin sənin,
Silinən deyildir izlərin sənin,
Könüllər mülkündə sözlərin sənin,
Xalqın qəlbindəsən, nəzərindəsən.

Gəzək Daşkəsəni, gəzək Qoşqarı,
Axtarıb, arayaq, tapaq dostları,
Baxanda Kəpəzdən Göygölə sarı,
Eləbil Bakının Xəzərindəsən.

Sizəki doğmadır bu Vətən, bu el,
Bu tarla, bu çəmən, bu yamac, bu çöl,
Yasəmən, qərənfil, hər çiçək, hər gül,
Eləbil ananın qucağındasan.

Xəyal aləmində yerin var şair,
İnci xəzinən var, zərin var şair,
Elləri düşünən sərin var şair,
Təfəkkür, təxəyyül dünyasındasan.

Amalın həqiqət, ədalət olmuş,
Xalqına etibar, sədaqət olmuş,
Düşmənlə çəkdiyin ədavət olmuş,
Mizan tərəzinin yarağındasan.

Bəllidir dünyada gücün, qüdrətin,
Tutubdur həryanı şanın, şöhrətin,
Yoxdur kimsələrə heç bir minnətin,
Zamanın hökmündə, nəzərindəsən.

Carçısı olmusan sən səadətin,
Sağlam düşüncənin, sağlam niyyətin,
Sadiq şairisən bizim dövlərin,
Gerbin çəkicində, orağındasan.

Seyrinə çıxmısan elin-obanın,
Tutursan nəbzini dövrün, zamanın,
Şöhrətli oğlusan Azərbaycanın,
Lenin dühasının bayrağındasan.

Olmusan tutarlı, samballı şair,
Nüfuzlu, idraklı, kamallı şair,
Məsləkli, vicdanlı, amallı şair,
Qanun kitabımın varağındasan.

Yetmişi haqladın, yüzdədir meylin,
Lalətək yanaqlı üzdədir meylin,
Eləbil salmısan, düzdədir Leylin,
Düşmüsən sorağa, fərağındasan.

Əzəldən doğuldun eşq-həvəsdəsən.
Kim deyir yorulub, son nəfəsdəsən?
Düşmüsən Fərhadla bəhsə-bəhsdəsən,
Yenicə çıxmısan Bisütundasan.

***Cəmil Əkbər*** 1979

## 213. NECƏSƏN?

Lovğalanıb yersiz-yersiz öyünmə,
Məzmunundan, məziyyətdən necəsən?
Üz-gözünə sürmə çəkib sevinmə,
Ədəb-ərkan, mərifətdən necəsən?

Aldanmaynan bəzəyinə, formana,
Ümid olma hər təbibə, loğmana,
Hər hakimə, hər hökümə, fərmana,
Etikadan, ləyaqətdən necəsən?

De varmıdır insanlıqdan xəbərin?
Ona-buna dəyməyibki, xətərin?
El içində deyiblərmi afərin?
Durumundan, dəyanətdən necəsən?

Dolanmısan el-obanın varından,
Bağçasından, bostanından, barından,
Almasından, heyvasından, narından,
Göstərdiyin səxavətdən necəsən?

Kimsələrə de çatıbmı köməyin?
Yaradıbmı, yaşadıbmı əməyin?
Məhəbbətlə döyünübmü ürəyin?
Xoş arzudan, niyyətindən necəsən?

Əzab-əzyət vermisənmi bədənə?
Üz qoydunmu öz babana, dədənə?
Getmisənmi onun-bunun bədinə?
Öz mənandan, hikmətindən necəsən?

Onu-bunu keyfiyyətsiz anlama!
Ləyaqətsiz, şəxsiyyətsiz anlama!
Dəyanətsiz, qətiyyətsiz anlama!
Qazandığın keyfiyyətdən necəsən?

Çəkmisənmi ellər üçün zəhməti?
Yaratdınmı yer üzündə cənnəti?
Etmisənmi haqq-sayı, minnəti,
Xoş arzudan, pak niyyətdən necəsən?

Hünər varmı varlığında, canında?
Təpər varmı cövlan edən qanında?
Ləl-cəvahir tapılarmı kanında?
Alıbsanmı, qiymətindən necəsən?

Keçirdikcə günlərini kef ilə,
Oğrun-oğrun qazanc ilə, nəf ilə,
Yol verdikcə, barışdıqca səhv ilə,
Çəkəcəyin xəcalətdən necəsən?

Ömür boyu ellər səni saxladı,
Nə dedisə, amin deyib haxladı,
Sondan-sona əməlini yoxladı,
Bəşər üçün xidmətindən necəsən?

Toplamısan var-dövləti, paranı,
Sağaltmısan dərdi-səri, yaranı,
Unutmusan İncil, Tövrat, Quranı,
Qazandığın hörmətindən necəsən?

Ay acgözlər, tamahkirlər, hərislər,
Ay paxıllar, ay xainlər, xəbislər,
Ay eybəcər, ay çirkinlər, a pislər,
İnsaf-mürvət, kəramətdən necəsən?

***Cəmil Əkbər*** 25.05 - 1979

## 214. BİRİYƏM

*I variant*

Ölüb getsəm, qəhərlənmə balalar,
Milyon-milyon ölənlərdən biriyəm.
Dərd-qəm çəkib zəhərlənmə balalar,
Xoş əməllə gülənlərdən biriyəm.

Sanmayın ki, bu dünyadan köçürəm,
Əcəl şərbətini alıb içirəm,
Sirat körpüsündən gəlib keçirəm,
Xəzan vurub solanlardan biriyəm.

Mən ölsəm də yaşadacaq el məni,
Kamanımda inildəyən tel məni,
Dəhan məni, dodaq məni, dil məni,
Könüllərdə qalanlardan biriyəm.

Dastanlarım, şeirlərim, sözüm var,
Alovum var, hənirim var, közüm var,
Ürəklərdə cığırım var, izim var,
Zəfərləri çalanlardan biriyəm.

Vətənimdə ləyaqəti gördükcə,
Zərifliyi, məlahəti gördükcə,
Ünsiyyətdə hərarəti gördükcə,
İlhamımı alanlardan biriyəm.

İdrakımın, kamalımın quluyam,
Əqidəmin amalımın quluyam,
Vətən adlı mahalımın quluyam,
Xəyallara dalanlardan biriyəm.

Mən gücümü el-obamdan almışam,
Doğulduğum yurd-yuvamdan almışam,
Mərd atadan, mərd anadan almışam,
Sanıramkı igidlərdən biriyəm.

***Cəmil Əkbər*** 13. 01 – 1996

## 215. BİRİYƏM

*II variant*

Poladdandır əsil köküm, təməlim,
Yaşayacaq el içində əməlim,
İmkan verin bir az yatım dincəlim,
Kim deyir ki, muma dönüb əriyəm?

Bu dünyadan çox almadım kamımı,
Az çəkmişəm zülalımı, şamımı,
Bildirmişəm şöhrətimi, şanımı,
İnanmakı o dünyada kiriyəm.

Ölənlərdən, qalanlardan halıyam,
Xəzanlarda solanlardan halıyam,
Dəryalara dalanlardan halıyam,
Fikirlərin əjdahası, şiriyəm.[151]

Bir gül kimi Vətənimdə bitmişəm,
Arzu-istək, muradıma yetmişəm,
Çoxlarını çox yerlərdə ötmüşəm,
Kim deyərki taydan-tuşdan geriyəm?[152]

Abırım var, ismətim var üzümdə,
Yalan yoxdur, yanlış yoxdur sözümdə,
Axtarsanız görərsiniz izimdə,
Zəmanənin nuranisi, piriyəm.

Eşidənlər pis deməsin sözümə,
Daha bəsdir, kəs, deməsin sözümə,
Heyran olsun qoy məndəki dözümə,
Əhli-halın incisiyəm, zəriyəm.

Yaradacam quracağam hərzaman,
Oyanacam, duracağam hərzaman,
Əhval tutub soracağam hərzaman,
İnanmakı torpaqlarda çürüyəm.

Ölümümə sevinənlər olmasın,
Qürrələnib öyünənlər olmasın,
Öz-özünə güvənənlər olmasın,
Köç etsəm də dirilərdən-diriyəm.

---

[151] *II variant* Əzəl gündən ədalətdi amalım,
Doğruluqdu, həqiqətdi amalım,
İnsanlıqdı, ləyaqətdi amalım,
Fikirlərin əjdahası, şiriyəm.

[152] *II variant* Yalan desəm qınasınlar el məni,
Bərkdə-boşda sınasınlar el məni,
Sözlərimdən tanısınlar el məni,
Sanmasınlar xeyir-şərdən geriyəm.

Ünsiyyəti-ülfətləri pozanı,
Fitnə-fəsad, şər-böhtanı yazanı,
Ona-buna dərin quyu qazanı,
İstərdimki diri-diri sürüyəm.

***Cəmil Əkbər*** 13. 01 – 1996

## 216. HƏZZ ALA

Şair gərək elə yazıb yarada,
El oxuyub qoşmasından həzz ala.
İtib-batıb o qalmaya arada,
İlhamının çeşməsindən həzz ala.

El-obadan kəsliməyə sədası,
Heç birkəsi incitməyə ədası,
Zəngin ola, dolu ola kasası,
Vəcdə gəlib coşmasından həzz ala.

Gəraylısı, təcnisindən danışa,
Od qoymamış alovlana, alışa,
Xeyir-şərə harda olsa qarışa,
Qaynar təbin daşmasından həzz ala.

Gəşd edə dünyanı, gəzə mərdanə,
Seyredib elləri sezə mərdanə,
Hünər meydanında dözə mərdanə,
Qıfılbəndlər açmasından həzz ala.

Cəhaləti törədəni xar edə,
Dünyasını başlarına dar edə,
Vurub töküb gözlərini kor edə,
Haqsızlığa sancmasından həzz ala.

Bu dünyada itirsə də yerini,
Ellər üçün axıtsa da tərini,
Uca tutub el içində sərini,
Şərafətlə köçməsindən həzz ala.

İlqarından, imanından dönməyə,
Qaralmaya, qarsıxmaya, sönməyə,
Zirvələrdən heç aşağı enməyə,
Tərlan kimi uçmasından həzz ala.

Aralığı qatanları pisləyib,
Vicdanını satanları pisləyib,
Günahlara batanları pisləyib,
Arxasından qaçmasından həzz ala.

Mənliyini el-obada bildirib,
Ürəkləri sevindirib, güldürüb,
Nanəcibi yer üzündən sildirib,
Ziyasını saçanlardan həzz ala.

Ötsə qərinələr, əsrlər belə,
Fəsillər dalınca, fəsillər belə,
Nəsillər dalınca nəsillər belə,
Abı-kövsər içməsindən həzz ala.

***Cəmil Əkbər*** 9. 01- 1996

## 217. BARIŞAMMIRAM

Dövrü-zəmanəmiz nə bəd gəlibdir,
Zamanla, dövranla barışammıram.
Nə həvəs gəlibdir, nə təb gəlibdir,
Sarvanla, karvanla barışammıram.

Əzəldən salınan yolu çaşırlar,
Sağı yanılırlar, solu çaşırlar,
Min bir nağıl, min bir dastan qoşurlar,
Verilən fərmanla barışammıram.

Gör nə gündə, nə halətdə qalmışıq?
Avamlıqda, cəhalətdə qalmışıq?
Bir kök üstə neçə hava çalmışıq?
Cahillə, nadanla barışammıram.

Nə məqsəddi, nə mətləbdi güdürlər?
Hara gəldi şütüyürlər, gedirlər?
Hər nə gəldi, nə gəlmədi edirlər?
Hər addım atanla barışammıram.

Gözgörəti düz işi də pozurlar,
Min bir yana çevirirlər, yozurlar,
Bu bəşərə dərin quyu qazırlar,
Hər cahil, ahalla barışammıram.

Məhəl yoxdur dühaların sözünə,
Baxan yoxdur yolağına, izinə,
Qiymət vermir özgəsinə, özünə,
Hər qanmaz, kahalla barışammıram.

Qiymət yoxdur dərrakəyə, kamala,
Vicdan-məslək, əqidəyə, amala,
İnsandakı bu mənəvi camala,
Hər təbib, loğmanla barışammıram.

Gündən-günə xarablaşır günümüz,
Yad ölkədən gətirilir dənimiz,
Xoşa gəlmir səs-küyümüz, ünümüz,
Bu cürə alverlə barışammıram.

Ellərin dərdinə qalan görünmür,
İnciyən qəlbləri alan görünmür,
Saxtalıq çoxalır, yalan görünmür,
Kütlərlə, bütlərlə barışammıram.

***Cəmil Əkbər*** 28.09 -1996

## 218. BU YERDƏ

Aman Allah insaf-mürvət tükənib,
Baş girləmək məharətdi bu yerdə.
Qalmayıb arada mürvət tükənib,
Ölüb-getmək şərafətdi bu yerdə.

İnsan bir-birinin varını soyur,
Çəkib damarından qanından doyur,
Artırıb dərdini pis günə qoyur,
İşgəncədi, zəlalətdi bu yerdə.

Gedən yoxdur yol-ərkanla düzünə,
Məhəl yoxdur dühaların sözünə,
Tor gəlibdir çoxlarının gözünə,
Nadanlıqdı, cəhalətdi bu yerdə.

Ünsiyyəti korlayırlar nadanlar,
Tərbiyədən alayarı dadanlar,
Yollarını tərsəməssəb adanlar,
İşgəncədi, zəlalətdi bu yerdə.

Üzlərdə, gözlərdə həya qalmayıb,
Əqidə qalmayıb, qayə qalmayıb,
Təlimi düz verən dayə qalmayıb,
Pozğunluqdu, rəzalətdi bu yerdə.

Necə dolanasan, gün keçirəsən?
Günü birbirindən şən keçirəsən?
Xətanı-bəlanı gen keçirəsən?
Addımbaşı qəbahətdi bu yerdə.

Ürəklərdə iblis, əqrəb, cin yatır,
Kök salıbdır, kömənc atıb, kin yatır,
Aralığa duman çöküb, çən yatır,
Xainlikdi, xəyanətdi bu yerdə.

Qanundan-qaydadan əsər qalmayıb,
Düşüb ovxarından kəsər qalmayıb,
Xalqa yetişəsi səmər qalmayıb,
Kin-küdurət, ədavətdi bu yerdə.

Bilmirsən kim ilə ülfət edəsən?
Dost olub, yanına gəlib-gedəsən,
Açıb ürəyini söhbət edəsən,
Giley-güzar, şikayətdi bu yerdə.

Halal zəhmət ilə dolanmaq olmur,
Bəslənib, yetişib sulanmaq olmur,
Bağban naşıdırsa, calanmaq olmur,
Xəta-bəla, cinayətdi bu yerdə.

Şər danışıb, araqatan çoxalıb,
Quldurluqla vara çatan çoxalıb,
Ucuz alıb, baha satan çoxalıb,
Yoxsulluqdu, səfalətdi bu yerdə.

İncidir, bezdirir insan-insanı,
Baxanın, görənin qaralır qanı,
Yazdımki eşidib, yaxşı gör, tanı,
Ah-nalədi, müsibətdi bu yerdə.

Nəgünə qoyubdur millət-milləti?
Artırır qüssəni, dərdi, hilləti,
Cəmil Əkbər gödək eylə söhbəti,
Qal-qovğadı, fəlakətdi bu yerdə.

***Cəmil Əkbər*** 15. 01 - 1994

## 219. ADIM

Mən elə insanam dünyadır adım,
Fikirdir, xülyadır, röyadır adım.
Məndə istək də var, məhəbbət də var,
Sədaqət, səxavət, kəramət də var.
Doğruluq, düzgünlük, həqiqət də var,
Yaxşılıq, yamanlıq, ləyaqət də var.
Mənim gündüzüm də, gecəm də vardır,
Zülalım, şərbətim, cecəm də vardır.
Gülüm-gülşənim də, tikanım da var,
Tərsanəm, yelkənim, sükanım da var.
Mənim hərarətim, sazağım da var,
Yaxın mehribanım, uzağım da var.
Mənim qəzəbim də, hiddətim də var,
Kinim-küdurətim, nifrətim də var.
Məndə sadəlik də, xudbinlik də var,
Gözəllik, nəciblik, çirkinlik də var.
Məndə məyusluq da, nikbinlik də var,
Şadlıq-şadyanalıq, qəmginlik də var.
Dözüm də, durum da, dəyanət də var,
Giley də, güzar da, şikayət də var.
Məndə yaxşılıq da, pislik də vardır,
Günəş də, duman da, çislik də vardır.
Məndə xeyirxahlıq, nəslik də vardır,
Höcətlik, inadlıq, tərslik də vardır.
Məndə şeir də var, hekayət də var,
Hələ çox sir qalan məlumat da var.

Cavanlıq çağları, qocalıq da var,
Vəzirlik, vəkillik, xocalıq da var.
Məndə insaf da var, mürvət də vardır,
Şərafət də vardır, şöhrət də vardır.
Məndə dözüm də var, dəyanət də var,
Xalqa deyiləsi bəyanat də var.
Mən elə dünyayam, dağım-düzüm var,
İki sifətim var, iki üzüm var,
İki söhbətim var, iki sözüm var,
İki yolağım var, iki izim var.
Birisi acıdır, birisi şirin,
Birisi dayazdır, birisi dərin.
Birisi yaxşıdır, birisi pisdir,
Birisi qızıldır, birisi misdir.
Dağımı istəyən dağımda gəzir,
Bağımı istəyən bağımda gəzir.
Gülümü istəyən, gülümü dərir,
İncimi, sədəfi, ləlimi dərir.
Düzümü istəyən, düzümü gəzir,
Yolumu istəyən, izimdə gəzir.
Sözümü istəyən, sözümdə gəzir,
Gözümü istəyən, gözümdə gəzir.
Çoxumu istəyən, çoxumda gəzir,
Yoxumu istəyən, yoxumda gəzir.
Qışımı istəyən, qışımda gəzir,
Yazımı istəyən, yazımda gəzir.
Mən elə insanam Cəmildir adım,
Təlim-tərbiyədir, dəlildir adım.
Düşünüb dərk edən, biləndir adım,
Ellərin şəninə güləndir adım.

***Cəmil Əkbər*** 14. 10 -1993

## 220. NƏPİSDİR ALLAH?

Gedən-getməyində, gələn-gəlməkdə,
Oxuyan-oxuyur, bilən-bilməkdə.
Ağlayan-ağlayır, gülən-gülməkdə,
Axan gözyaşını silən-silməkdə.
Satan-satmağında, alan-almaqda,

Fikirə-xəyala dalan-dalmaqda.
Açılan-açmaqda, solan-solmaqda,
Boşalan-boşalır, dolan-dolmaqda.
Ucalan-ucalır, enənlər-enir,
Qaralıb-qarsıxan, sönənlər-sönür.
İlqardan-imandan dönənlər-dönür,
Gizlənən-gizlənir, sinənlər-sinir.
İnciyən-inciyir, bezənlər-bezir.
Darıxan-darıxır, dözənlər-dözür,
Qanmayan-qanmayır, sezənlər-sezir.
Sərsəri dolanan, gəzənlər-gəzir,
Cücərən-cücərir, bitənlər-bitir,
Tapılan-tapılır, itənlər-itir.
İnsafı-mürvəti atanlar-atır,
Şər deyib aranı qatanlar-qatır.
Gədənin bəyliyi nəpisdir Allah?
Məramı, qərarı, nə nəsdir Allah?

Alan-almağında, verən-verməkdə,
Bağ-bağat salmamış dərən-dərməkdə.
Baxan-baxmağında, görən-görməkdə,
Tutan-tutmağında, hürən-hürməkdə.
Sökən-sökməyində, quran-qurmaqda,
Yatan-yatmağında duran-durmaqda.
Döyən-döyməyində, vuran-vurmaqda,
Zəlitək qanları soran-sormaqda.
Asan-asmağında, kəsən-kəsməkdə,
İnciyən-inciyir, küsən-küsməkdə.
Çalan-çalmağında, çapan-çapmaqda,
Əlaman eyləyib qapan-qapmaqda.
Zəhmətsiz, xidmətsiz yeyən-yeməkdə,
Lüt qalan lüt qalır, geyən-geyməkdə.
Düzəldən-düzəldir, əyənlər-əyir,
Toxunub qəlblərə dəyənlər-dəyir.
Eşidən-eşidir, susanlar-susur,
Sinirən-sinirir, qusanlar-qusur.
Yayınan-yayınır, sapan-sapmaqda,
Axtaran-axtarır, tapan-tapmaqda.
Qaçan-qaçmağında, tutan-tutmaqda,

Arzuya-məqsədə çatan-çatmaqda.
İnciyən-inciyir, küsənlər-küsür,
Qorxu vahimədən əsənlər-əsir.
Asanlar-asırlar, kəsənlər-kəsir,
Kimi saray tikir, kimisi qəsir.
İnsanın keyliyi nəpisdir Allah?
Kamaldan göylüyü nəpisdir Allah?
İnsanın səyliyi nəpisdir Allah?
Höcətdir, inaddır, nə tərsdir Allah?

***Cəmil Əkbər*** 8. 10 - 1993

## 221. NƏ ƏCAYIB, EYBƏCƏRSƏN, ÇİRKİNSƏN?

Bir-birini bezdirməkdən doymursan,
Nə əcayib, eybəcərsən, çirkinsən?
Əzablara dözdürməkdən doymursan,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Birbirinə qəsd etməkdən doymadın,
İçməmişdən, məsd etməkdən doymadın,
Astarını üst etməkdən doymadın,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Əbəs yerdən al-qanları qaraltdın,
Xəsan olub bağda gülü saraltdın,
Gen dünyanı başımıza daraltdın,
Nə əcayib, eybəcərsən, çirkinsən.

Dərk eyləyib anlamırsan nədənsə?
Öz-özünü danlamırsan nədənsə?
Kötəkləyib yanlamırsan nədənsə?
Nə əcayib, eybəcərsən, çirkinsən?

Nə utanıb, nə qızarıb ölürsən,
Nə oxuyub öyrənirsən, bilirsən,
Nə hal bilib yanımıza gəlirsən,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Yerə-göyə sığışmadı ədanız,
Xoş gəlmədi sorağınız, sədanız,
Gəda oğlu gədalardan gədasız,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Nə abır gözlədin, nə həya qandın,
Nə əqidə, məslək, nə qayə qandın,
Nə təlim götürdün, nə dayə qandın,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Nə eldən utandın, nə də obadan,
Nə ata-anadan, nə də babadan,
Nə yurddan utandın, nə də yuvadan,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Nə xətir anladın, nə hörmət qandın,
Nə insaf anladın, nə nürvət qandın,
Nə bəşər anladın, nə millət qandın,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Nə bəd işdən, nə bəd sözdən utandın,
Nə bəd yoldan, nə bəd izdən utandın,
Nə bəd nəzər, nə bəd gözdən utandın,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Deməklə, yazmaqla başa gəlmirsən,
Xəyala gəlmirsən, huşa gəlmirsən,
Könülə yatmırsan, xoşa gəlmirsən,
Nə əcayib, eybəcərsən, çirkinsən?

Əfsus olsun bir güzgüyə baxmırsan,
Xəcil olub ürəyini sıxmırsan,
Nadanlığın axırına çıxmırsan,
Nə əcayib, eybəcərsən, çirkinsən?

***Cəmil Əkbər*** 27. 09 – 1993

## 222. SƏN OLSAN DA, OLMASAN DA

Qəlbim dolu məhəbbətdir,
Sən olsan da, olmasan da,
Səxavətdir, sədaqətdir,
Sən olsan da, olmasan da.

Dövran ötər, zaman keçər,
Dağ başından duman keçər,
Yaxşı keçər, yaman keçər,
Sən olsan da, olmasan da.

***Cəmil Əkbər***

## 223. SƏN OLSAN DA, OLMASAN DA

Qoca dünya yaşayacaq,
Sən olsan da, olmasan da.
Öz yükünü daşıyacaq,
Sən olsan da, olmasan da.

Qaynayası-qaynayacaq,
Naynıyası-naynıyacaq,
Oynayası-oynayacaq,
Sən çalsan da, çalmasan da.

Dolasılar-dolacaqdır,
Solasılar-solacaqdır,
Qalasılar-qalacaqdır,
Sən qalsan da, qalmasan da.

Xəyala dalan-dalacaq,
İlhamın alan-alacaq,
Yadına salan-salacaq,
Sən salsan da, salmasan da.

Öləsilər-öləcəkdir,
Biləsilər-biləcəkdir,
Güləsilər-güləcəkdir,
Sən gülsən də, gülməsən də.

Gələsilər-gələcəkdir,
Biləsilər-biləcəkdir,
Gedəsilər-gedəcəkdir,
Sən bilsən də, bilməsən də.

Yazasılar-yazacaqdır,
Pozasılar-pozacaqdır,
Azasılar-azacaqdır,
Sən yazsan da, yazmasan da.

Alan-alır, verən-verir,
Baxan-baxır, görən-görür,
Əkən-əkir, dərən-dərir,
Sən dərsən də, dərməsən də.

Dinən-dinir, susan-susur,
Yeyən-yeyir, qusan-qusur,
Bezən-bezir, küsən-küsür,
Sən sussan da, susmasan da.

***Cəmil Əkbər*** 28. 09 – 1993

## 224. XƏBƏRSİZSİNİZ

Oturmusan taci-tətxdə xan kimi,
Bazardan, qiymətdən xəbərsizsiniz.
İsgəndər Zülqədər, Süleyman kimi,
Zəhmətdən, xidmətdən xəbərsizsiniz.

Keçir qərinələr, illər nə çəkir?
Qarışqa nə çəkir, fillər nə çəkir?
Obalar, oymaqlar, ellər nə çəkir?
Dəyərdən qiymətdən xəbərsizsiniz.

Rəiyyəti axtaran yox, sayan yox,
Yaxşı-pisi birbirinə qoyan yox,
Bədxahlıqdan usanan yox, doyan yox,
İnsafdan-mürvətdən xəbərsizsiniz.

Aralıqda itib-batıb dinimiz,
Başımızdan dağılmayır cinimiz,
Qəlbimizdən silinməyir kinimiz,
Saf arzu niyyətdən xəbərsizsiniz.

Ağsaqqalı tanıyan yox, seçən yox,
Boya baxıb xələtini biçən yox,
Haqq yolundan addayan yox, keçən yox,
Ünsiyyət-ülfətdən xəbərsizsiniz.

Eşidən yox, anlayan yox Cəmili,
Alan yoxdur nəsihəti, dəlili,
Unudubdur İbrahimi-Xəlili,
Şərafət, şöhrətdən xəbərsizsiniz.

***Cəmil Əkbər*** 24. 05 - 1989

## 225. MƏNİ ŞAİR EYLƏDİ

Səadətə səfərim,
Məni şair eylədi.
Ürəyimdə təpərim,
Məni şair eylədi.

Vətənimin gözəli,
Sevdamızın əzəli,
Söz-söhbəti məzəli,
Məni şair eylədi.

Nakam qalan məhəbbət,
Başa gələn fəlakət,
Əzəl, axır, nihayət,
Məni şair eylədi.

Pak döyünən ürəyim,
Nəcib arzu-diləyim,
El xeyrinə əməyim,
Məni şair eylədi.

Düşünməyim, qanmağım,
Haqq-sayı anmağım,
Haqsızlıqda yanmağım,
Məni şair eylədi.

Dərrakəmlə kamalım,
Əqidəmlə amalım,
Bu mənəvi camalım,
Məni şair eylədi.

Addımbaşı qəbahət,
Törədilən xəyanət,
Giley-güzar, şikayət,
Məni şair eylədi.

Qədirbilməz nadanlar,
Təlimdən kəm dadanlar,
Yolu tərsə adanlar,
Məni şair eylədi.

İlqarından dönənlər,
Yersiz-yersiz dinənlər,
Orda-burda sinənlər,
Məni şair eylədi.

Yolu-izi azanlar,
Düzü tərsə yozanlar,
Ayaq altdan qazanlar,
Məni şair eylədi.

Qanı soran zəlilər,
Kəmağıllar dəlilər,
Bu səmərsiz valilər,
Məni şair eylədi.

Mərd igidin xidməti,
Aldıqları töhməti,
Çəkdikləri möhnəti,
Məni şair eylədi.

Yer üzündə ədalət,
Doğru-düzlük həqiqət,
Sehirlənib ləyaqət,
Məni şair eylədi.

Vətənimin dağları,
Gül-çiçəkli bağları,
Ötüb-keçən çağları,
Məni şair eylədi.

İnsanların dərdləri,
Harda varsa mərdləri,
Uduzduğu nərdləri,
Məni şair eylədi.

Dərrakəmlə düşüncəm,
İztirabım, işgəncəm,
Çıxardığım nəticəm,
Məni şair eylədi.

Dərk eyləmək, anlamaq,
Öz-özünü danlamaq,
Kötəkləmək, yanlamaq,
Məni şair eylədi.

Yaşadığım zamanda,
İnildəyən kamanda,
Küsənlər də, uman da,
Məni şair eylədi.

El-obanın qəhəri,
Çəkdikləri kədəri,
Qəsəbəsi, şəhəri,
Məni şair eylədi.

***Cəmil Əkbər*** 14. 10 – 1997

## 226. DAĞLARDA QALDI

Mən həryanı gəzmişəm,
Çətinliyə dözmüşəm,
Nə usanıb bezmişəm,
Dözüm dağlarda qaldı.

Heyran oldum baxmaqdan,
Yorulmadım axmaqdan,
Çınqım çıxdı çaxmaqdan,
Közüm dağlarda qaldı.

Orda düşdüm borana,
Qaranlığa, torana,
Yönüm düşdü arana,
Sözüm dağlarda qaldı.

Zirvələrə vuruldum,
Axa-axa duruldum,
Şirətəki soruldum,
Sezim dağlarda qaldı.

Mən ona aşiq oldum,
Sevərək məşuq oldum,
O səbəbdən şux oldum,
Gözüm dağlarda qaldı.

Ondan ilham almışam,
Xəyallara dalmışam,
İndi harda qalmışam?
Sazım dağlarda qaldı.

Mən həryanı gəzmişəm,
Nə inciyib bezmişəm,
Nələr-nələr sezmişəm,
İzim dağlarda qaldı.

Bahar fəsli həmişə,
Kolda bitdi bənövşə,
Mən də düşdüm təşvişə,
Yazım dağlarda qaldı.

Qəlbimdə nə odum var,
Nə qohumum, yadım var,
Nə tamım var, dadım var,
Duzum dağlarda qaldı.

İlk sevdamın əzəli,
Töküldülər xəzəli,
Məni sevən gözəli,
Qızım dağlarda qaldı.

Mən aranda qalsam da,
Xəzan olub solsam da,
Lap yüz yaşa dolsam da,
Özüm dağlarda qaldı.

Cəmil Əkbər aşiqdi,
Görün nəyə məşuqdu?
O məğrurdu, o şuxdu,
Yazım dağlarda qaldı.

***Cəmil Əkbər***

## 227. DƏYİŞMƏRƏM

Məndə olan məziyyəti,
Təmiz arzu, saf niyyəti,
Kəmiyyəti, keyfiyyəti,
Sədaqəti, səxavəti
Səndəkiylə dəyişmərəm.

Məndə olan şəxsiyyəti,
Qüdsiyyəti, ülviyyəti,
İnsaf, mürvət kəraməti,
İnsanlıqdan əmanəti,
Səndəkiylə dəyişmərəm.

Məndə olan ənaəti,
Haqdan gələn zəmanəti,
Ədəb-ərkan nəzakəti,
Eşqi, andı, məhəbbəti,
Səndəkiylə dəyişmərəm.

Məndə olan hərəkəti,
Xaliq verən bərəkəti,
Səndəkiylə dəyişmərəm.

Vüqarımı vüqarınla,
İlqarımı ilqarımla,
Nigarımı nigarınla
Mən heç zaman dəyişmərəm.

Gözlərimi gözlərinə dəyişmərəm!
Hörmətimi hörmətinə dəyişmərəm!
Mürvətimi mürvətinə dəyişmərəm!
İsmətimi ismətinə dəyişmərəm!
Dəyərimi dəyərinə dəyişmərəm!
Qiymətimi qiymətinə dəyişmərəm!
Xidmətimi xidmətinlə dəyişmərəm!
Hikmətimi hikmətinlə dəyişmərəm!
Qüvvətimi qüvvətinlə dəyişmərəm!
Şöhrətimi şöhrətinlə dəyişmərəm!
Sənətimi sənətinlə dəyişmərəm!
Adətimi adətinlə dəyişmərəm!
Qəzəbimi qəzəbinlə dəyişmərəm!
Hiddətimi hiddətinlə dəyişmərəm!
Nəzərimi nəzərinlə dəyişmərəm!
Diqqətimi diqqətinlə dəyişmərəm!
Təpərimi təpərinlə dəyişmərəm!
Riqqətimi riqqətinlə dəyişmərəm!
Hünərinlə hünərimi dəyişmərəm!
Zəfərimi zəfərinlə dəyişmərəm!
Şəhərimi şəhərinlə dəyişmərəm!
Qəhərimi qəhərinlə dəyişmərəm!
Təhərimi təhərinlə dəyişmərəm!
Səhərimi səhərinlə dəyişmərəm!
Bəhərimi bəhərinlə dəyişmərəm!
Şəkərimi şəkərinlə dəyişmərəm!
Kədərimi kədərinlə dəyişmərəm!
Qədərimi qədərinlə dəyişmərəm!
Səfərimi səfərinlə dəyişmərəm!
Söhbətimi söhbətinlə dəyişmərəm!

Hörmətimi hörmətinlə dəyişmərəm!
Niyyətini niyyətimlə dəyişmərəm!
Dağlarımı dağlarınla dəyişmərəm!
Bağlarımı bağlarınla dəyişmərəm!
Əsilimi əsilinlə dəyişmərəm!
Nəsilimi nəsilinlə dəyişmərəm!
Varlığımı varlığına dəyişmərəm!
Yoxluğumu yoxluğuna dəyişmərəm!
Aclığımı aclığına dəyişmərəm!
Toxluğumu toxluğuna dəyişmərəm!
Qeyrətimi qeyrətinə dəyişmərəm!
Heyrətimi heyrətinə dəyişmərəm!
Cürətimi cürətinə dəyişmərəm!
Sürətimi sürətinə dəyişmərəm!
Vüqarımı vüqarınla dəyişmərəm!
İlqarımı ilqarınla dəyişmərəm!
Nigarımı nigarınla dəyişmərəm!
Nicatımı nicatına dəyişmərəm!
Nüsrətimi nüsrətinə dəyişmərəm!
Mənə qüvvət verən verib,
Mənə şöhrət verən verib,
Mənə qüdrət verən verib,
Mənə hikmət verən verib,
Xətirləri görən görüb,
Möhübləri düzən düzüb.
Haqdan gələn bu qüdrəti,
Bu nicatı, bu nüsrəti,
Sənin ilə dəyişmərəm, dəyişmərəm.

***Cəmil Əkbər*** 25. 02 – 1991

## 228. DƏYİŞMƏRƏM

Var-halına qürrələnib, yekəxana öyünmə,
Fəxr eyləyib yerli-yersiz iftixarla öyünmə.
Sadə olan bu daxmamı, sarayına verməròm,
Ötüb keçən saatımı, hər ayına verməròm,
Evimdəki boz kilim də, zər-zibandan yaxşıdır,
Adi sirkəm, doşabım da, yağ-balından yaxşıdır.

Bağımdakı kal zoğalım, dəymişindən gözəldir,
Turşənəyim, yelpənəyim, yemişindən gözəldir.
Azdan-çoxdan nəyim varsa, Haqq-taaladan payımdır,
Süfrəm üstə halal qismət, çörəyimdir, çayımdır,
Mərd igidlər harda varsa, tay-tuşumdur, tayımdır,
Ər kişilər, nuranilər, əmilərim, dayımdır.
Öz atamı, anamı da, dəyişmərəm heçkəsə,
Yaxınılaşıb, həmrəy olub, uyuşmaram heçkəsə.
Öz elimi, nə obamı, özgə yurda vermərəm,
Öz qoynumu, öz quzumu, özgə qurda vermərəm.
Sanmayınki hələ tifil, bir sadəlövh uşağam?
Vətənimdən cüda düşüb, didərginəm, qaçağam?
Nə bəy-xanam, nə sultanam, nə nökərəm, ağayam?
Çox şeyləri duyammıram, yoxsa körpə çağayam?
Məndə olan keyfiyyəti kimsələrə vermərəm,
Olan-qalan nağdıları, nisyələrə vermərəm.
Elə sanma öz-özümə elə-belə vuruldum,
Gör haçandan çalxanaraq, dönə-dönə duruldum.
Neyləyimki əzəl gündən təbiətim belədir?
Ürəkdəki arzularım, pak niyyətim belədir?
Nəyim varsa heç birkəsə, onu bir an vermərəm,
Ötüb keçsə vaxt-vədələr, dövrü-zaman vermərəm.
Mən düşsəmdə çətinliyə, ay dad-aman vermərəm,
Öz kəndimi, kəsəyimi, cahan olsa vermərəm,
Nəyim varsa, nəyim yoxsa, yaxşı-yaman vermərəm!
Nəyim varsa, nəyim yoxsa, etmə güman, vermərəm!

***Cəmil Əkbər*** 24. 12– 1997

## 229. QALIB

Kimə zəhmət çəkib, kimə can qoyaq?
Onsuzda nə xətir, nə hörmət qalıb.
Kimə süfrə salaq, kimə nan qoyaq?
Onsuzda nə insaf, nə mürvət qalıb.

Kimə “sən igidsən, kişisən” deyək?
Kimlərə biqeyrət, xoryadsan deyək,
Bəs kimə  “erkəksən, dişisən” deyək?
Onsuzda nə namus, nə qeyrət qalıb.[153]

Bəs kimə deyək ki, sən hikmətlisən?
Abırlı, həyalı ya ismətlisən?
Təmiz arzulusan, saf niyyətlisən?
Onsuzda nə abır, nə ismət qalıb.[154]

Kimə düşün deyək, kimə qan deyək?
Kimə möhüb düzək, kimə can deyək?
Kimə xatırlayın, kimə an deyək?
Onsuzda nə ədəb, nə mərfət qalıb.[155]

Kimə can yandırıb tər axıdaq biz?
İncilər, sədəflər, zər axıdaq biz?
Bəhrələr yetirək, bar axıdaq biz?
Onsuzda nə xahiş, nə minnət qalıb.[156]

---

[153] *II variant* Kimə “sən igidsən”, “kişisən” deyək?
Nə namus, ar qalıb, nə qeyrət qalıb.
Alimsən, arifsən, naşısan deyək?
Nə şan-şöhrət qalıb, şərafət qalıb.

[154] *II variant* Biz kimə deyək ki, sən hikmətlisən?
Sağlam fikirlisən, pak niyyətlisən,
Ədəbli, ərkanlı, mərifətlisən,
Nə abır, nə həya, nə ismət qalıb.

[155] *II variant* Kimə düşün deyək, kimə qan deyək?
Kimə bəli deyək, kimə can deyək?
Kimə süfrə açıb, kimə nan deyək?
Nə insaf, nə mürvət, kəramət qalıb.

[156] *II variant* Kimə zəhmət çəkib, kimə tər tökək?
Kimə ürək açıb, kimə sirr tökək?
Kimə inci verək, kimə zər tökək?
Nə ədəb, nə ərkan, mərfət qalıb.

Kimə lazım imiş düşüncə, kamal?
Ya vicdan, ya məslək, əqidə, amal?
Mənəvi gözəllik, bu hüsnü-camal?
Onsuzda nə dəyər, nə qiymət qalıb. [157]

Bəs kimçün çalışıb, vuruşaq görən?
Hünər meydanında yarışaq görən?
Axtarıb, arayıb, soruşaq görən?
Onsuzda nə nəzər, nə diqqət qalıb.[158]

Yaxşısı budurki vəhşi olasan,
Ünsiyyət-ülfətdə naşı olasan,
Oğru, ciqan, quldurbaşı olasan,
Onsuz da nə nifrət, nə hiddət qalıb.

Niyə ürəyinə salmısan xalı?
Salmısan davanı, qovğanı qalı?
Salmısan inləyən, sızlayan valı?
Onsuzda nə təpər, nə riqqət qalıb.

Bürüyüb bəşəri başısoyuqluq,
Qabağı soyuqluq, qaşısoyuqluq,
Vicdan tərəzisi, daşısoyuqluq,
Nə yaxşı bir xidmət, nə zəhmət qalıb.

---

[157] *II variant*

Hayana gedibdir düşüncə, kamal?
Görünmür gözlərə əqidə, amal,
Mənəvi xəzinə, bu gözəl camal,
Nə düzgün bir dəyər, nə qiymət qalıb.

[158] *II variant*

Nəüçünçalışıb, vuruşsun bəşər?
Didişib, söküşür, xeyir ilə şər,
Nə deyim, danışım, yazım müxtəsər?
Nə fəhm, nə nəzər, nə diqqət qalıb.

Cəmil Əkbər hər nə etsən əbəsdi,
Ha danışıb, hey ötsən də əbəsdi,
Hara gəlsən, hara getsən əbəsdi,
Onsuzda nə fikir, nə niyyət qalıb.[159]

***Cəmil Əkbər*** 15. 09 -1991

## 230. QALIB

Heçkimsə inciyib, küsməsin gərək,[160]
Hamı öz başının hayına qalıb.
Ülfət-ünsiyyəti kəsməsin gərək,[161]
Hərkəs öz ahına-vayına qalıb.

Hamının öz dərdi, azarı da var,
Enişə, yoxuşa güzarı da var,
Almağa, satmağa bazarı da var,
Hamı öz hesabı, sayına qalıb.[162]

Hərənin yaxşı-pis öz dədəsi var,
Öz ağrı-acısı, öz zədəsi var,
Zamanı, gərdişi, öz vədəsi var,[163]
Düşüb öz ilinə, ayına qalıb [164].

Hər yetəndən ümid kəsmə qardaşım,
Ay həmkarım, ay həmdəmim, sirdaşım,
Can-ciyərim, tanış, biliş, yoldaşım,
Əlac çörəyinə, çayına qalıb.[165]

---

[159] *II variant* Hamının fikiri dolaşıb yaman,
Yaxşısı-pisinə bulaşıb yaman,
İpi-ilməsinə culaşıb yaman,
Nə sağlam bir fikir, nə niyyət qalıb.

[160] Kimsədən inciyib küsmək nə lazım?

[161] Ülfət-ünsiyyəti kəsmək nə lazım?

[162] 1) Başı öz hesabı, sayına qalıb. 2) Özünün hesabı, sayına qalıb.

[163] Özünün vaxtı var, öz vədəsi var.

[164] 1) Hərkəs öz çörəyi, çayına qalıb. 2) Öz günü, öz ili, ayına qalıb.

[165] *II variant* Kimsədən nə umma, küsmə qardaşım,
Ay həmkarım, ay həmdəmim, sirdaşım,
Ay can-ciyər, ay vəfalı yoldaşım,
Hərə öz çörəyi, çayına qalıb.

İlin hər fəslində bar yetişməyir,
Dövlət yetişməyir, var yetişməyir,
Heyva yetişməyir, nar yetişməyir,
Ümid bürküsünə, yayına qalıb.[166]

Ülfət-ünsiyyəti biryolluq pozmaq,
Haqdan aralanmaq, yolunu azmaq,
Doğrunu, düzgünü tərsinə yozmaq,
Qəlbi çamırlıya, xayına qalıb. [167]

Döyünən ürəyin qara daş isə,[168]
Fikirin, xəyalın, qəlbin çaş isə,
Kim gülər üzünə, əlin boş isə?
Hamı sovqatına, payına qalıb. [169]

Bəşərə verməyə zülmü, zilləti,
Acığı, qəzəbi, hökmü, hiddəti,
Ədavət çəkməyi, kin-küdurəti,
Qəlbi çamırları xayına qalıb.

---

*III variant* Hərkimsədən umub-küsmə qardaşım,
Ay həmkarım, ay həmdəmim, sirdaşım,
Can-ciyərim, dost-tanışım, yoldaşım,
Hünər çörəyinə, çayına qalıb.

[166]*II variant* Hər fəsli-zamanda bar yetişməyir,
Heyva yetişməyir, nar yetişməyir,
Dövlət yetişməyir, var yetişməyir,
1) Əlac bürküsünə, yayına qalıb. 2) Əlac istisinə, yayına qalıb.

[167] *II variant* Bəşəri-övlada vermə zilləti,
Acığı, qəzəbi, kini, hiddəti,
Ədavət çəkməyi, qəzəb, hiddəti,
Qəlbi çamırlıya, xayına qalıb.

*III variant* Bəşərə verməyə zülmü, zilləti,
Acığı, qəzəbi, hökmü, hiddəti,
Ədavət çəkməyi, kin-küdurəti.
Qəlbi çamırlara, xayına qalıb.

[168] Sinəndə ürəyin qara daş isə.
[169] 1) Çarə sovqatına, payına qalıb. 2) Əlac sovqatına, payına qalıb.

Cəmiləm, həyatı belə görmüşəm,
Ateyi-mehriban, lələ görmüşəm,
Qana-qana, bilə-bilə görmüşəm,
Əlac öz haqqına-sayına qalıb. [170]

***Cəmil Əkbər*** 22. 10 – 1985

## 231. QALACAQ

İnsanın idrakı işə düşməsə,
Nə ədalət, nə həqiqət qalacaq.
Hamı dərk eyləyib başa düşməsə,
Nə insanlıq, nə ləyaqət qalacaq[171]

Hamı ilqarını atıb gedərsə,
Yaxşını-yamana qatıb gedərsə,
Vicdanı-məsləyi satıb gedərsə,
Nə sədaqət, nə səxavət qalacaq.[172]

Hamı bir diyarda günah eyləsə,
Aldanıb nəfsə, tamah eyləsə,
Hər axşam, günorta, sabah eyləsə,
Ülvü-istək, nə məhəbbət qalacaq.[173]

Alimlər, loğmanlar keylik eyləsə,
İtirib əqlini səylik eyləsə,
Gədələr ağalıq, bəylik eyləsə,[174]
Nə şan-şöhrət, nə şərafət qalacaq.[175]

---

[170] *II variant* Cəmiləm, həyatı belə görmüşəm,
Varlını, hallını lələ görmüşəm,
Dönə-dönə, bilə-bilə görmüşəm,
Əlac öz haqqına, sayına qalıb.

[171] *II variant* Təfəkkür dünyamız işə düşməsə,
Ədalət, həqiqət sözdə qalacaq.
Bu bəşər anlayıb başa düşməsə,
İnsanlıq, ləyaqət sözdə qalacaq.

[172] Sədaqət, səxavət düzdə qalacaq.
[173] Məhəbbət nə sizdə, bizdə qalacaq.
[174] Gədələr, zamana bəylik eyləsə.
[175] Şan-şöhrət dayanıb üzdə qalacaq.

Ünsiyyət-ülfətlər pozulub getsə,
Doğrular tərsinə yozulub getsə,
Mərd igid qatardan üzülüb getsə,
Ədəb-ərkan, nə nəzakət qalacaq.

Hamı yaratmasa, hamı qurmasa,
Hamı oyanmasa, hamı durmasa,[176]
Yolunu azanı hamı vurmasa,[177]
Xeyirxahlıq, nə fəzilət qalacaq.

Doğru düşünməsək, düz anlamasaq,
Məqamı çatanda tez anlamasaq,
Yollar araşdırıb iz anlamasaq,
Nə ünsiyyət, nə də ülfət qalacaq.

Ləyaqət əhlinə qiymət verməsək,
Bər-bəzək vurmasaq, zinət verməsək,
Zəhmət çəkib bəhrəsini dərməsək,[178]
İnsaf-mürvət, nə mərhəmət qalacaq.

Nəqədərki xəyanətlər törəyir?
Kin-küdurət, ədavətlər törəyir?
Addımbaşı qəbahətlər törəyir?
Nə ehtiram, nə kəramət qalacaq.

Cəmil Əkbər beylə getsə cahanda,
Nə tam qalar, nə dad qalar dəhanda,
Dolanarıq, girlənərik de handa?
Nə şən ölkə, nə məmləkət qalacaq.

***Cəmil Əkbər*** 12. 02 – 1996

---

[176] Oyanıb qəflətdən hamı durmasa.
[177] Külüngü, çəkici birgə vurmasa.
[178] Zəhmətinin bəhrəsini dərməsək.

## 232. QALACAQ

*I variant*

Yaxşı dolan bu dünyada, ömrü şərəflə vur başa,[179]
Nə iş tutsan, nə eyləsən xalqa əmanət qalacaq. [180]
Öz işində inamlı ol, ümidini vurma daşa,[181]
Bəşər üçün nəcib əməl, bir də ləyaqət qalacaq.
Haqq-divanı sal yadına, əyrilikdən gen gəz, dolan,
Hatəmlərə min bir rəhmət, xalqa səxavət qalacaq.[182]
Mehriban ol, səmimi ol, qeyrilikdən gendə dolan, [183]
Ünsiyyətdə mehri-ülfət, xalqa bu hikmət qalacaq.[184]
Şər danışıb, ara vurma, fitnədən, feldən əl götür,[185]
Əhdi-peyman, doğru ilqar, bir də sədaqət qalacaq.
Cahillərlə etmə ülfət, nadanlardan kənarda dur,[186]
Ustadları kim saymasa, ona fəlakət qalacaq. [187]
Namus ilə çalış, vuruş, Vətəninə tərini tök,
Vətən üçün, xalqın üçün bilki məhəbbət qalacaq.[188]
Harda olsan, yaşasan da, təmiz saxla ürəyini,[189]
Tale özü yar olacaq, sənə səadət qalacaq.
Vicdanını atsan əgər, haqq yolundan uzaqlaşsan, [190]
Onda sənə çatar bir pay, bilki xəcalət qalacaq. [191]
Ha böyüyüb yaşa dolsan, gəda kimi tanınarsan,[192]
Alarsan eldən küdurət, sənə ədavət qalacaq.[193]
Ha yaşayıb sürsən ömür, haqq yoluna düzəlib gəl,

---

[179] Yaxşı dolan, yaxşı yaşa, ömrü şərəflə vur başa.
[180] Hər nə tutsan, nə eyləsən o da əmanət qalacaq.
[181] 1) Daim çalış, inamlı ol, ümidini vurma daşa, 2) İnam ilə çalış, vuruş, ümidini vurma daşa,
[182] Hatəmlərə bil ehtiram, xalqa səxavət qalacaq.
[183] Mehriban ol, elə, xalqa, bədxahlıqdan uzaqda gəz.
[184] Mehri-ülfət, səmimiyyət, bilki bu xidmət qalacaq.
[185] Şər deyərək ara vurma, fitnə fəsaddan əl götür.
[186] Cahillərlə girmə bəhsə, nadanlardan uzaqda gəz.
[187] Kim ustaddan dərs almasa ona xəcalət qalacaq.
[188] 1) El xətiri, el hörməti, ülvi məhəbbət qalacaq. 2) Ellər üçün çalışana, ülvi şərafət qalacaq.
[189] Harda olub yaşasan da, təmiz saxla qəlbini sən,
[190] Vicdanını atıb getsən, haqq yolundan uzaqlaşsan,
[191] Ondan sənə də çatacaq bil ki, fəlakət qalacaq.
[192] Ha böyüyüb yaşasan da, gəda kimi tanınarsan.
[193] Alacaqsan el-obadan sənə küdurət qalacaq.

Öz yoluna düzəlməsən, sənə cəhalət qalacaq.[194]
Kitablara bir nəzər sal, nə bacarsan oxu, öyrən,[195]
Alacaqsan ondan məna, sənə şərafət qalacaq.[196]
Ədəb-ərkan gözləyərək kamal ilə yaşa dolsan,
Qazanarsan xətir-hörmət, sənə məhəbbət qalacaq.
Yol gözləmə, nə pay umma, yalan sözdən, söhbətlərdən,
Tutar bir gün bil qolundan, sənə ədalət qalacaq.[197]
Əlini çək, dilini çək, giley-güzar qeybətlərdən,
Doğru yoldan çıxma kənar, sənə həqiqət qalacaq.
Eşitməsən, dərk etməsən, düşünməsən, anlamasan,
Düşəcəksən məhşərə sən, sənə qiyamət qalacaq.[198]
Dinləginən gəl Cəmili, ustadlardan dərsini al,
Sağlam fikir harda olsa, sənə nəsihət qalacaq.[199]

***Cəmil Əkbər*** 7. 10 – 1991

## 233. QALACAQ

*II variant*

Harda olsan yaxşı yaşa, ömrü şərəflə vur başa,
Nə iş görsən yaxşı-yaman, xalqa əmanət qalacaq.
Xeyirxah ol, mehriban ol, zəhmətini vurma daşa,
Bəşər üçün nəcib əməl, ülvi ləyaqət qalacaq.
Meyl göstər haqqa doğru, əyrilikdən gendə dolan,
Hatəmlərdən bir adətdir, bilki səxavət qalacaq.
El içində səmimi ol, qeyrilikdən tində dolan,
Ömürboyu yada düşüb, xalqa bu hikmət qalacaq.
Şər fikirdən, yalan sözdən, fitnə-fəsaddan nə çıxar?
Ünsiyyətdə əhdi-peyman, xalqa sədaqət qalacaq.
Cəhalətdə uyub qalma, nadanlıqdan tez uzaqlaş,
Kim dərs almır ustadından, ona fəlakət qalacaq.
Qeyrət ilə çalış-vuruş, Vətən üçün tərini tök,
Zəhmət çəksən, xidmət etsən, bilki məhəbbət qalacaq,[200]
Sağlam düşün bu həyatda, ürəyini təmiz saxla,

---

[194] Öz yolunla düzəlməsən sənə ədavət qalacaq.
[195] Oxu-öyrən kitabları, dühalara nəzər yetir.
[196] Dərk eyləyib anmayana, bil ki, cəhalət qalacaq.
[197] Yetişəcək harayına, sənə ədalət qalacaq.
[198] Qərq olarsan müsibətə, sənə qiyamət qalacaq.
[199] Sağlam fikir harda olsa, sənə nəsihət qalacaq.
[200] Əvəzində alacaqsan, bilki məhəbbət qalacaq.

Tale özü yar olacaq, sənə səadət qalacaq.
Vicdanını tapdalayıb, haqq yolundan uzaq olsan,
Ondan sonra peşimanlıq, sənə xəcalət qalacaq.[201]
Ha böyüyüb ucalsan da, gədalıqdan sədan gələr,
Ellər bilki nifrət edər, sənə ədavət qalacaq.[202]
Zaman keçib vaxt ötüşsə, Haqq yolundan uzaqlaşma,
Avamlıqda inləyərsən, sənə cəhalət qalacaq.
Daim çalış, yazıb-yarat yorulmuşam deməginən,
Hünər göstər bu meydanda, sənə fərasət qalacaq.[203]
Boş-boşuna, hədər yerə, veyil-veyil vaxt keçirmə,[204]
İndi qeyrətin dəmidir, sənə məharət qalacaq.[205]
Əlini çək, dilini çək, fitnələrdən, fəsadlardan,
Doğru yoldan getmə kənar, sənə həqiqət qalacaq.
Eşitməsən, dərk etməsən, bu hikməti anlamasan,
Düşəcəksən müsibətə, sənə qiyamət qalacaq.
Oxu, öyrən bu sözləri, özün üçün ibrət götür,
Qurtararsan zülmətlərdən, sənə bəraət qalacaq.
Kim dərk edib, kim anlasa, işə salsa kamalını,
Bu ellərdən, obalardan ona mərhəmət qalacaq.
Cəmil Əkbər, sən də çalış, xidmətini artır biraz,
Qazanarsan məna-məzmun, sənə də nüsrət qalacaq,
Çalış qardaş bu dünyada heçkimsəyə vermə əzab,
Harda olsan xeyirxah ol, sənə fəzilət qalacaq.

***Cəmil Əkbər*** 7. 10 – 1991

## 234. QALACAQ

*III variant*

Zəhmət çəkib eylə yaşa, ömrü şərəflə vur başa,
Yaxşı-yaman nə iş görsən xalqa əmanət qalacaq.
Ömürboyu xeyirxah ol, aldanmayın daşa-qaşa,
Bəşər üçün nəcib əməl, bir də ləyaqət qalacaq.
Meylini sal doğru yola, əyrilikdən gen gəz, dolan,
Ellər üçün, oba üçün bil ki, səxavət qalacaq.

---

[201] Sənə bundan peşimanlıq, bir də xəcalət qalacaq.
[202] Alarsan el küdurəti, sənə ədavət qalacaq.
[203] Alacaqsan min bir məna, sənə şərafət qalacaq.
[204] Vaxt ötürüb hədər yerə, veyil-veyil gün keçirmə!
[205] Doğru sözlər tutar qoldan, sənə ədalət qalacaq.

Səmimi ol, mehriban ol, qəddarlıqdan tində dolan,
Mehri-ülfət yaşadacaq, sənə bu hikmət qalacaq.
Şər deməkdən, yalan sözdən, fitnə-fəsaddan əl götür,
Ünsiyyətdə əhdi-peyman, bir də sədaqət qalacaq.
Hər yetənlə ülfət etmə, nadanlardan kənarda gəz,
Yol-ərkanı pozanlardan daim zəlalət qalacaq.
Hünər ilə çalış-vuruş, xalqın üçün tərini tök,
Əvəzində eldən sənə, bil ki, məhəbbət qalacaq.
Harda olsan, yaşasan da, ürəyini təmiz saxla,
Taleh özü yar olacaq, sənə səadət qalacaq.
Vicdanını tapdalasan, Haqq yolundan uzaqlaşsan,
Əvvəl-axır bədəməldən sənə xəcalət qalacaq.
Ha böyüyüb ucalsan da, gədəlikdə solacaqsan,
Qazanarsan kin-küdurət, sənə ədavət qalacaq.
Ha yaşayıb ömür sürsən, haq yolundan düşmə uzaq,
Avamlıqdan, nadanlıqdan sənə cəhalət qalacaq.
Eşitginən gəl Cəmili, sözlərinə əməl eylə,
Yaddaşında yaxşı saxla, sənə nəsihət qalacaq.

***Cəmil Əkbər*** 26. 12 – 1995

## 235. QALACAQ

*IV variant*

İnsanoğlu şər-böhtandan, fitnə-fəsaddan əl götür,
Yaxşı-yaman nə eyləsən xalqa o adət qalacaq.
Ədavətin, küdurətin əvvəli nə, sonu nədir?
Nə iş görsən əməlindən, el üçün imdat qalacaq.
Nə lazımdır törədilsin, yerli-yersiz dava-dalaş?
Bəşər sevmir qal-qovğanı, ona səadət qalacaq.
Qoy var olsun yer üzündə, mehri-ülfət nəki varsa?
İlqar-iman, əhdi-peyman, xalqa sədaqət qalacaq.
Vicdanını atmaginən dünya malından ötəri,
O yeyilib-içiləcək, xalqa məzəmmət qalacaq.
Ürəyində kin saxlama, küdurətdən gendə dolan,
İtib-batar yalan-yanlıc, bu dünyada qala bilməz.
Yaşayacaq doğru-düzlük, xalqa həqiqət qalacaq,
Xainlikdən, xəbislikdən, bil ki, xəcalət qalacaq.
Nə inciyək, nə də küsək, pozulmasın qoy ünsiyyət,
Mehri-ülfət, səmimiyyət, xalqa məhəbbət qalacaq.

Giley-güzar eyləməyək, dolanmayaq gəl aralı,
Anlayana, dərk edənə, xalqa nəsihət qalacaq.
Zalımlıqdan, qəddarlıqdan kim olubdur, de yarayan?
Bəşər üçün xeyirxahlıq, bir də fəzilət qalacaq.
Özün söylə ədavətin əvvəli nə, sonu nədir?
Hörmət edib əff eləsən, xalqa bəraət qalacaq.
Qəlbə dəyib, könül qırma, əsəbləri korlama gəl,
İnsan üçün insaf-mürvət, bir də kəramət qalacaq.
Avamlığın, cəhalətin, faydası yoxdur bəşərə,
Qoya bilsən xətir-hörmət, xalqa bu minnət qalacaq.
Acgöz olub, həris olma, qulluq eyləmə tamaha,
İnsan üçün gözütoxluq, bil ki, ləyaqət qalacaq.
Nə bacarsan xidmət eylə, ömürboyu öz xalqına,
Nəsillərdən-nəsillərə beylə bir hikmət qalacaq.
Elə et ki, el içində gözdən salma mənliyini,
Hərkəsdənin ünvanına, bil ki, şərafət qalacaq.
Yorulmaynan, ərinməynən, nə bacarsan qurub yarat,
Ötüb keçər qərinələr, xalqa bu xidmət qalacaq.
Nanəciblik, naqislikdən birdəfəlik əlini çək,
Eldən-elə mərdanəlik, bir də dəyanət qalacaq.
Qazananlar qazanacaq, itirənlər itirəcək,
Kimiyə iftixar, sevinc, kimiyə heyhat qalacaq.
Cəmil Əkbər eylə sanma, dövrü-zaman böylə gedər,
Gör kimlərə əvvəli xoş, kimə nihayət qalacaq.

***Cəmil Əkbər*** 7. 09 -1989

## 236. QALACAQ

*V variant*

İnsanoğlu fitnə-fəsad, şər-böhtandan gəl əl götür,
Yaxşı-yanman nə iş tutsan xalqa əmanət qalacaq.
Ədavətin, xəyanətin əvvəli nə, sonu nədir?
Hər nə etsən əməlindən ellərə adət qalacaq.
Nə lazımdır törədilsin yerli-yersiz dava, dalaş?
Bəşər sevmir qal-qovğanı, ona səadət qalacaq.
Qoy var olsun yer üzündə, mehri-ülfət nəki vardır,
İlqar-iman, əhdi-peyman, xalqa sədaqət qalacaq.
Vicdanını atma qardaş, dünya malından ötəri,
O yeyilib içiləcək, xalqa məzəmmət qalacaq.

İtrib-batar, yalan-yanlıc bu dünyada qala bilməz,
Yaşayacaq doğru-düzlük, xalqa həqiqət qalacaq.
Ürəyində kin saxlama, küdurətdən gendə dolan,
Xainlikdən, xəbislikdən bilki xəcalət qalacaq.
Nə inciyək, nə də küsək, qoy ünsiyyət pozulmasın,
Mehri-ülfət, səmimiyyət, xalqa məhəbbət qalacaq.
Giley-güzar eyləyərək gəl aralı dolanma sən,
Eşidənə, götürənə xalqa nəsihət qalacaq.
Zalımlıqdan, qəddarlıqdan, nə bacarsan gendə dolan,
Bəşər üçün xeyirxahlıq, bir də fəzilət qalacaq.
Özün söylə ədavətin əvvəli nə, sonu nədir?
Hörmət edib əff eyləsən, xalqa bəraət qalacaq.
Qəlbə dəyib, könül qırma, əsəbləri korlama gəl,
İnsan üçün insaf-mürvət, bir də kəramət qalacaq.
Avamlığın, cəhalətin bir faydası yox bəşərə,
Qoya bilsən xətir-hörmət, xalqa mərhəmət qalacaq.
Ömürboyu acgöz olub qulluq etmə tamahına,
İnsan üçün gözütoxluq, ülvi ləyaqət qalacaq.
Nə bacarsan xidmət eylə ömürboyu öz xalqına,
Nəsillərdən-nəsillərə, beylə bir xidmət qalacaq.
Elə etki, el içində, gözdən salma mənliyini,
Hərkəsdənin ünvanına, bilki şərafət qalacaq.
Nə yorulma, nə darılma, nə bacarsan qurub yarat,
Ötüb keçər qərinələr, xalqa bu zəhmət qalacaq.
Mənfurluqdan, xəbislikdən, birdəfəlik əlini çək,
Eldən-elə mərdanəlik, beylə ənaət qalacaq.
Qazananlar qazanacaq, itirənlər itirəcək,
Kimilərə fərəh sevinc, kimiyə heyvah qalacaq.
Cəmil Əkbər elə sanma dövrü-zaman böylə gedər,
Kiminin əvvəli xoşsa, kimə nihayət qalacaq.

***Cəmil Əkbər*** 7. 09-1989

## 237. QALACAQ

*VI variant*

İnsanoğlu fitnə-fəsad, şər-böhtandan əl götür,
Yaxşı-yaman nə iş tutsan, xalqa o adət qalacaq.
Nə lazımdır törədilsin yerli-yersiz davalar?
Bəşər sevmir qovğa-qalı, ona səadət qalacaq.

Qoy var olsun yer üzündə, mehri-ülfət nəki var,
İlqar-iman, əhdi-peyman, xalqa sədaqət qalacaq.
Vicdanını atma qardaş, dünya malından ötəri,
Yeyiləcək, içiləcək, xalqa məzəmmət qalacaq.
İtəcəkdir-batacaqdır, yalan-yanlıc nəki varsa,
Yaşayacaq doğru-düzlük, xalqa həqiqət qalacaq.
Ürəyində kin saxlama, küdurətdən aralı gəz,
Xainlikdən, xəbislikdən bilki xəcalət qalacaq.
Nə inciyək, nə küsüşək, nə sən məndən, nə mən səndən,
İtib-batar kin-küdurət, xalqa məhəbbət qalacaq,
Xainlikdən, xəbislikdən bilki xəcalət qalacaq.
Dolanmayaq gəl aralı, nə sən gendən, nə mən gendən,
Eşidənə, götürənə xalqa nəsihət qalacaq.
Nə bacarsan bu dünyada, qəddarlıqdan sən əl götür,
İnsan üçün xeyirxahlıq, bir də fəzilət qalacaq.
Paxıllığın, xəyanətin əvvəli nə, axırı nə?
Hər nə etsən, nə iş tutsan, xalqa əmanət qalacaq.
Qəlbə dəyib, könül qırma, əsəbləri heç korlama,
Bəşər üçün xoş güzəran, bir də kəramət qalacaq.
Avamlığın, cəhalətin nə xeyri varki bəşərə?
Yaşayacaq xətir-hörmət, xalqa mərhəmət qalacaq.
Ömürboyu acgöz olma, qulluq etməynən tamaha,
İnsan üçün gözü toxluq, xalqa ləyaqət qalacaq.
Nə bacarsan qulluq eylə öz xalqına, öz elinə,
Nəsillərdən-nəsillərə, beylə bir xidmət qalacaq.
Sadə dolan el içində, gözdən salma mənliyini,
Hərkəsdənin ünvanına bil ki, bu şöhrət qalacaq.
Nə bezikmə, nə usanma, nə bacarsan hey qur, yarat,
Dolansada min əsrlər, xalqa bu zəhmət qalacaq.
Nə xain ol, nə də paxıl, nə həris ol, nə də xəbis?
Eldən-elə mərdanəlik, beylə ənaət qalacaq.
Hərkəs haqqa göz yumarsa, özü bilsin de neyləyim?
Kimki onu danmayacaq, ona toy-büsat qalacaq.
Cəmil Əkbər, elə sanma, dövrü-zəmanə belədir,
Kimisinə əvvəli xoş, kimə nihayət qalacaq.

***Cəmil Əkbər*** 7. 09-1989

## 238. QALAR

*VII variant*

İnsanoğlu fitnə-fəsad, şər-böhtandan əl götür,
Yaxşı-yaman nə iş tutsan, xalqa əmanət qalar.
Ədavətin, xəyanətin əvvəli nə, sonu nədir?
Hər nə etsən əməlindən, ellərə adət qalar.
Nə lazımdı törədilsin, yerli-yersiz davalar?
Bəşər sevmir qal-qovğanı, ona səadət qalar.
Qoy var olsun yer üzündə mehri-ülfət nəki var,
İlqar-iman, əhdi-peyman, xalqa sədaqət qalar.
Vicdanını atma qardaş, dünya malından ötrü,
O yeyilər, o içilər, xalqa məzəmmət qalar,
İtrib-batar, yalan-yanlıc bu dünyada nə varsa?
Yaşayacaq doğru-düzlük, xalqa həqiqət qalar.
Ürəyində kin saxlama, küdurətdən gen dolan,
Nə inciyək, nə də küsək, ünsiyyəti pozmayaq,
De nifrətdən nə çıxacaq, xalqa məhəbbət qalar.
Giley-güzar eyləyərək dolanmayaq aralı,
Eşidənə, götürənə xalqa nəsihət qalar.
Zalımlıqdan, qəddarlıqdan, nə bacarsan əl götür,
İnsan üçün xeyirxahlıq, bir də fəzilət qalar.
Bu dünyada ədalətin əvvəli nə, yekunu nə?
Hörmət edib əff eyləsən, xalqa bəraət qalar.
Qəlbə dəyib, könül qırma, əsəbləri korlama!
Bəşər üçün xeyirxahlıq, bir də kəramət qalar.
Avamlığın, cəhalətin faydası nə bəşərə?
Qoya bilsən xətir-hörmət, xalqa mərhəmət qalar.
Acgöz olub, həris olub, qulluq etmə tamaha,
İnsanoğlu könlü toxluq, ülvi ləyaqət qalar.
Nə bacarsan xidmət eylə öz xalqına, elinə,
Nəsillərdən-nəsillərə, beylə bir xidmət qalar.
Sadə dolan el içində, gözdən salma mənliyi,
Hərkəsdənin ünvanına bil ki, bu şöhrət qalar.
Nə yorulma, nə darılma, nə bacarsan qur yarat,
Ötüb-keçər min əsrlər, xalqa bu zəhmət qalar.
Mənfurluqdan, xəbislikdən, birdəfəlik əl götür,
Eldən-elə mərdanəlik, beylə ənaət qalar,
Cəmil Əkbər, elə sanma, dövrü-zaman belədir,
Kimsələrə əvvəli xoş, kimə nihayət qalar.

***Cəmil Əkbər*** 7. 09 - 1989

## 239. QALIBDI

Əhsən o şəxslərə, o şəxsiyyətə,
Özü olmasa da, sözü qalıbdı.
O məna-məzmuna, o məziyyətə,
Ocağı sönsə də, közü qalıbdı.

Mən səcdə qılıram o insanaki?
Alim, münəccimə o loğmanaki?
O aşiq məşuqa, o cananaki?
Könüllər mülkündə izi qalıbdı.

Təzim eyləyirəm o kəslərəki?
O avaz, zəngulə o səslərəki?
O arzu istəyə, nəfəslərəki?
Ellərə çıxmağa üzü qalıbdı.

Əbədi eşq olsun o ərlərəki?
O inci sədəfə, o zərlərəki?
Qeyrətli oğula, o pirlərəki?
Layiqli oğulu, qızı qalıbdı.

Mərhaba o xalqa, o nəsiləki?
O mövsüm, o aya, o fəsiləki?
O kökə, əcdada, o əsiləki?
Tamı azalmayıb, duzu qalıbdı.

***Cəmil Əkbər*** 14. 10 – 1988

## 240. QALMADI

Çox dəydi qəlbimə nadan, sərsəri,
Eşqim, andım, məhəbbətim qalmadı.
Təlimdən yarımçıq dadan sərsəri,
İnsaf, mürvət, kəramətim qalmadı.

Korlandı əsəbim, qaraldı qanım,
Sarsıldı xəyalım, üzüldü canım,
Nəüçün gizlədim, nəüçün danım?
Odum, közüm, hərarətim qalmadı.

Qəlbimin başına yara vuruldu,
Salındı ləkələr, qara vuruldu,
Özüm də bilmirən hara vuruldu?
Olan-qalan ləyaqətim qalmadı.

Dərdimi anlayan loğman tapmadım,
Düşünüb dərk edən, qanan tapmadım,
Oduma alışıb, yanan tapmadım,
Cəsarətim, fərasətim qalmadı.

Nəqədər can dedim, hədərə getdi?
Dərs dedim, qan dedim, hədərə getdi,
Arayıb an dedim, hədərə getdi,
Sədaqətim, səxavətim qalmadı.

Ünsiyyət-ülfətdə hörmət qalmadı,
Kəramət, səxavət, mürvət qalmadı,
Bağlandı qapısı, nüsrət qalmadı,
Bacarığım, məharətim qalmadı.

Zəmanə bəd gəldi, dövran dəyişdi,
Dağlara qar yağdı, aran dəyişdi,
Güzəran dəyişdi, karvan dəyişdi,
İxtiyarım, sədarətim qalmadı.

Qiymət verilmədi pisə-pis kimi,
Höcətə, inada, tərsə-tərs kimi,
Bədxaha bədxahtək, nəsə-nəs kimi,
Şan-şöhrətim, şərafətim qalmadı.

Gözlədim yolunu haqq, ədalətin,
Doğruluq, düzlüyün, ol həqiqətin,
Ədəbin, ərkanın ol nəzakətin,
Dözüm-durum, dəyanətim qalmadı.

Oqədər çoxaldı nanıkor gədə,
Vurdular qəlbimə dalbadal zədə,[206]
Dəyişdi zəmanə, bəd gəldi vədə,
Təmiz arzum, saf niyyətim qalmadı.

---

[206] Toxundu qəlbimə yerbəyer zədə.

Gədə-güdələri çəkdilər başa,[207]
Çəkdilər qabağa, çəkdilər qaşa, [208]
Bəşərin taleyi toxundu daşa,
Məna, məzmun, məziyyətim qalmadı.

Daha güman yoxdu insanoğluna,[209]
Düşünüb, dərk edən insanoğluna,[210]
Ellərin halına yanan oğluna,
Nəzir-niyaz, ibadətim qalmadı.

Yaxşılıq eylədim, yamanlıq gördüm,
Övladı-bəşərdə zinalıq gördüm,
Ögeylik, ayrılıq, analıq gördüm,
Nicat yolum, nə nüsrətim qalmadı.

İnsanoğlu niyə belə gic oldu,
Bədxah oldu, zalım oldu, kəc oldu,[211]
Hiylə oldu, kələk oldu, bic oldu,
Daha öyüd, nəsihətim qalmadı.

Aman Allah özün saxla Cəmili,
Sağlam ikən bu xəstəni, zəlili,
Əsirgəmə bu bəşərdən dəlili,
Qibləgaha ibadətim qalmadı.[212]

***Cəmil Əkbər*** 19. 10 -1992

## 241. QALMASIN

Kəsilsin nəfəsi pis adamların,
Silinsin həyatdan izi qalmasın.[213]
Tutulsun nitqi də, qulaqları da,[214]
Kor olsun, baxmağa gözü qalmasın.[215]

---

[207] Hər yetən gədələr çəkildi başa.
[208] Çəkildi qabağa, çəkildi qaşa.
[209] Bir güman qalmadı insanoğluna.
[210] Düşünüb, dərk edən qanan oğluna.
[211] Xain oldu, xəbis oldu, öc oldu.
[212] Qibləgaha ziyarətim qalmadı.
[213] 1) Silinsin dünyada izi qalmasın. 2) Silinsin, biryolluq izi qalmasın.
[214] Kar olub tutulsun qulaqları da.

Könüllər mülkündə gəzməyənlərin,
Məhəbbət gülündən üzməyənlərin,
Elin cəfasına dözməyənlərin,
Bükülsün qolları, dizi qalmasın.

Haqq-say itirən nanıkorların,
İnsan övladına ziyankarların,
Vicdan qarşısında günahkarların,
Xörəyə tökməyə duzu qalmasın.

Əqilə, kamala dolmayanların,[216]
İncik könülləri almayanların,
Elin qayğısına qalmayanların,[217]
Qırılsın zurnası, sazı qalmasın.

Namərdlər çəkdiyi qeylü-qal olsun,
Əyilsin vüqarı, qəddi dal olsun,
Danışa bilməsin, dili lal olsun,
Söhbəti qalmasın, sözü qalmasın.[218]

Bədəməl törədib söyünənlərin,[219]
Qəlbi nifrət ilə döyünənlərin,[220]
Zəhmətsiz alqumaş geyinənlərin,
Əyninə taxmağa bezi qalmasın.

Xalqını çətinə, zülmə salanın,
Qaz kimi tükünü didib-yolanın,
Elin sərvətindən daşan kalanın,
Cibində qəpiyin yüzü qalmasın.

Fitnə-fəsad qalmaqallar salanın,
Dava-dalaş qeylü-qallar salanın,[221]
Kin-küdurət, qeyri-hallar salanın,
Sönsün ocağının közü qalmasın.

---

[215] Dünyaya baxmağa gözü qalmasın.
[216] Yetişib kamala dolmayanların,
[217] Dərin xəyallara dalmayanların.
[218] Deyib-danışmağa sözü qalmasın.
[219] Axmaq əməllərlə söyünənlərin.
[220] Qanları qaraldıb öyünənlərin.
[221] 1) Qal-qovğalar, qeylü-qallar salanın, 2) Evlər yıxıb, qeylü-qallar salanın.

Elin şərəfinə darılanların,
İçindən çürüyüb qırılanların,
Partlayıb, çatlayıb yarılanların, [222]
Oğulu qalmasın, qızı qalmasın.

Xətiri, hörməti bilməyənlərin,
Axan gözyaşları silməyənlərin,
Xalqının şəninə gülməyənlərin,
Varlığı puç olsun, tozu qalmasın. [223]

Xalqı səadətə səsləməyənin,
Qəlbində məhəbbət bəsləməyənin,
Cəmiltək insanı istəməyənin,
Köçsün bu dünyadan, özü qalmasın.[224]

***Cəmil Əkbər*** 1962

## 242. QALIBDI

Çox yazılıb, deyilsə də dünyada,
Keyin oğlu keyliyində qalıbdı.
Çox döyülüb, söyülsə də dünyada,
Səyin oğlu səyliyində qalıbdı.

Yalvarmaqla, yaxarmaqla düzəlmir,
Bəsləməklə, saxlamaqla düzəlmir,
Məzəmmətlə, nə qaxmaqla düzəlmir,
Zayın oğlu zaylığında qalıbdı.

---

[222] Çatlayıb yüz yerdən yarılanların.

[223] *II variant* Haqq-say qoymayıb bilməyənlərin,
Axan gözyaşını silməyənlərin.
Xeyirxah işilə gülməyənlərin.
Varlığı yox olsun, tozu qalmasın.

[224]*II variant* Ləyaqət əhlinə pis deyən kəsin,
Ədalət əhlinə nəs deyən kəsin,
Qızıla, gümüşə mis deyən kəsin,
Köç etsin dünyadan, özü qalmasın.

*III variant* Haqqa-ədalətə can atmayanın,
Ülvü-ləyaqətə can atmayanın,
Dözüm, dəyanətə can atmayanın,
Dünyadan köç etsin, özü qalmasın.

Bədəsildən əsil olmaz deyiblər,
Nəcabətli nəsil olmaz deyiblər,
Ələ gəlib hasil olmaz deyiblər,
Çiyin oğlu çiyliyində qalıbdı.

Bağban olub bağça-bara çatsa da,
Gül-çiçəyə, çəmənzara çatsa da,
Nazı-nemət, külli-vara çatsa da,
Göyün oğlu, göylüyündə qalıbdı.

Yanyörədən qarışmasa mayası,
Düz qurular təməlindən binası,
Mərd atadan igid doğar anası,
Eyin oğlu, eyliyində qalıbdı.

Əyib qamətini dal eyləsən də,
Bağlayıb nitqini  lal eyləsən də,
Qapında, bacanda qul eyləsən də,
Bəyin oğlu, bəyliyində qalıbdı.

Günah nə bundadır, nə də ondadır?
Zatındadır, kökündədir, qandadır,
Hüceyrədə, nüvədədir, gendədir,
Nəyin oğlu nəyliyində qalıbdı.

Ey Cəmil hər yetən götürmür öyüd,
Nəqədər istəsən saxlayıb, böyüt?
Bar vermir nə ulğun, nədəki söyüd,
Şöyün oğlu, şöylüyündə qalıbdı.

***Cəmil Əkbər***

## 243. QALAR

Cəfa çəkmə qədir bilməz yolunda,
Qəlbində qəm-kədər, ahuzar qalar.
Tükənər qüvvətin, qalmaz qolunda,
Könül bağlarında tufan, qar qalar.[225]

---

[225] *II variant* Cəfa çəkdim qədir bilməz yolunda,
Qəlbimdə qəm-kədər, ahuzar qaldı.
Getdi novbaharım, soldu güllərim,
Qəlbimdə zimistan tufan, qar qaldı.

İztirab çəkərsən müdam sərbəsər,
Səni el içində edər dəngəsər,
Nə sözün, söhbətin eyləməz əsər,
Sanki cəsədinə bir azar qalar.

Çəksən həsrətini dərd qananların,
Eşqin atəşindən odlananların,
Bəd işdən əlçəkib usananların,
Arzunda min xəyal, min diyar qalar.

Olmasa qəlbində xəyanət sənin,
Güclənən dizində dəyanət sənin,
Qəlbini didərmi, cinayət sənin?
Əbədi kök salıb, namus, ar qalar. [226]

Nalbənd zər qədrini biləsi deyil,
Nəinsaf gözyaşın siləsi deyil,
Zərgərin işinə güləsi deyil,
Ölərkən dünyada intizar qalar.[227]

***Cəmil Əkbər*** 7. 07 -1961

## 244. QALDI

*Qadınla kişinin dialoqu*

***QADIN:*** Məndən sənə eşqin odu,
Səndən mənə de, nə qaldı?
Ləblərimin zülal dadı,
Səndən mənə de, nə qaldı?

---

[226] *II variant* Etmədim heçkəsə pislik, xəyanət,
Ürək dözüb daha etmir dəyanət,
Sözümü söyləyib etdim bəyanət,
Qəlbimdə bir namus, bir də ar qaldı.

[227] *II variant* Nalbənd zər qədrini bilən ha deyil,
Nəinsaf gözyaşım silən ha deyil,
Ağlayan bir könül gülən ha deyil,
Ölərkən dünyada intizar qaldı.

***KİŞİ:*** Məndən sənə məhəbbətim,
Dözüm-durum, dəyanətim,
Əhdim-andım, sədaqətim,
Bax bu qaldı, bax bu qaldı?

***QADIN:*** Məndən sənə laləyanaq,
Mərmər sinə, billurbuxaq,
Şəkər kimi qaymaqdodaq,
Səndən mənə de, nə qaldı?[228]

***KİŞİ:*** Pak istəyim, saf niyyətim,
Mətanətim, qətiyyətim,
Mehri-ülfət, ünsiyyətim,
Bax bu qaldı, bax bu qaldı.

***QADIN:*** Səmimilik, mehribanlıq,
Mülayimlik, istiqanlıq,
Xətir-hörmət, xeyirxahlıq,
Səndən mənə de, nə qaldı?

***KİŞİ:*** Gör nəqədər haqq-saylar?
Unutduqca ahı-vaylar,
Gözyaşımdan axan çaylar,
Bax bu qaldı, bax bu qaldı.

***QADIN:*** Çatma-qaşım, qara telim,
Mina gərdən, incə belim,
Ram eyləyən tuti-dilim,
Səndən mənə de, nə qaldı?[229]

---

[228] *II variant* Çatmaqaşlar, alagözlər,
Qaymaq dodaq, lalə üzlər,
Xoş təbəssüm, şirin sözlər,
Səndən mənə de, nə qaldı?

[229] *II variant* Gərdan üstə qara telim,
Mərmər sinəm, incə belim,
Şəkər zəban, tuti-dilim,
Səndən mənə de, nə qaldı?

***KİŞİ:*** Alın tərim, halal zəhmət,
Ömürboyu qayğı, xidmət,
Qəlbim dolu insaf-mürvət,
Bax bu qaldı, bax bu qaldı.[230]

***QADIN:*** Məndən sənə şirin canım,
Dür-mətahım, gövhər-kanım,
Özün deynən din-imanım, [231]
Səndən mənə de, nə qaldı.

***KİŞİ:*** Yeri gəlsə candan keçmək,
Şöhrətindən, şandan keçmək,
Varlığından, qandan keçmək,
Bax bu qaldı, bax bu qaldı.

***QADIN:*** Ev-eşikdə fənar oldum,
Gecə-gündüz yanar oldum,
Naməhrəmdən kənar oldum,
Səndən mənə de, nə qaldı?

***KİŞİ:*** Həsrətindən Kərəm olmaq,
Can-ciyəri vərəm olmaq,
Gen dünyası haram olmaq,
Bax bu qaldı, bax bu qaldı.

***QADIN:*** Şirin-şirin xatirələr,[232]
Xoş xülyalar, xoş röyalar, [233]
Yad etdikcə nələr, nələr,
Səndən mənə de, nə qaldı?

---

[230] *II variant* Cani-dildən, halal zəhmət,
Halal qayğı, halal xidmət,
İnsaf, vicdan, rəhm, mürvət,
Bax bu qaldı, bax bu qaldı.

[231]Dür-mətahım, gövhər-kanım.
[232] Şirin-şirin xoş röyalar.
[233] Silinməyən xatirələr.

***KİŞİ:*** Yolunuzda Sənan olmaq,
Eyhamından qanan olmaq,
Fərhad kimi külüng çalmaq,
Bax bu qaldı, bax bu qaldı.

***QADIN:*** Məndən sənə abır-ismət,
Təmiz ad-san, təmiz xislət,
Ana kimi gözəl xilqət,[234]
Səndən mənə de, nə qaldı?

***KİŞİ:*** Məcnun olub çölə düşmək,
Çaya düşmək, selə düşmək,
Qasırğaya, yelə, düşmək,
Bax bu qaldı, bax bu qaldı.

***QADIN:*** Övladının anasıyam,
Yan desələr, yanasıyam,
Özülüyəm, binasıyam,
Səndən mənə de, nə qaldı?

***KİŞİ:*** Yadına sal gəl insafa,
Uğrunda çəkmişəm cəfa,
Bilmədinmi a bivəfa,
Bax bu qaldı, bax bu qaldı.

***QADIN:*** Məndən sənə Leyli, Əsli,
Gül-çiçəkli bahar fəsli,
İnsanlığın gözəl nəsli,
Səndən mənə de, nə qaldı?

***KİŞİ:*** Məndən sənə aludəlik,[235]
Öz-özümə biganəlik,
Odda yanan pərvanəlik,
Bax bu qaldı, bax bu qaldı.

***Cəmil Əkbər*** 15. 06 - 1984

---

[234] Ana kimi zərif xilqət.
[235] Məndən sənə divanəlik.

## 245. MAT QALIB

Zəmanə dəyişib, dövran dəyişib,
İnsanlıq da ləyaqət də mat qalıb.
Sədarət hökm edir, fərman dəyişib,
El-oba da, cəmaət də mat qalıb. [236]

Ünsiyyət-ülfətdə qəbahət artıb,
Küdurət çoxalıb, ədavət artıb,
Nadanlıq, avamlıq, cəhalət artıb,
Ədəb-ərkan, mərifət də mat qalıb.[237]

Üzlərdə, gözlərdə həya azalıb,
Əqidə azalıb, qayə azalıb,
İnsandan-insana sayə azalıb,
Xətir-hörmət, nəzakət də mat qalıb.

---

[236] *II variant*
Oğruluq, əyrilik oqədər artıb,
Doğruluq da, həqiqət də mat qalıb.
Yad fikirlər, qeyriliklər çoxalıb,
İnsanlıq da ləyaqət də mat qalıb.

*III variant*
Saxtalıq əlindən, yalan əlindən,
Ədalət də, həqiqət də mat qalıb.
Varlılar, pullular, kalan əlindən,
İnsanlıq da ləyaqət də mat qalıb.

*IV variant*
Xainlik, xəyanət oqədər artıb,
Gileylər, şikayət oqədər artıb,
Oğruluq, cinayət oqədər artıb,
Ədalət də, həqiqət də mat qalıb.

[237] *II variant*
Avam, cahil, nadanların əlindən,
Haqq-sayı udanların əlindən,
Təlimdən kəm dadanların əlindən,
Ədəb-ərkan, mərifətdə mat qalıb.

*III variant*
Yol verilir günahlara batana,
İnsafını, vicdanını satana,
Deyən yoxdur lənət olsun şeytana,
Ədəb-ərkan, mərifətdə mat qalıb.

Hamı birbirinə pislik eyləyir,
Bədxahlıq eyləyir, nəslik eyləyir,
Höcətlik, inadlıq, tərslik eyləyir,
Xeyirxahlıq, fəzilət də mat qalıb.[238]

Haqqı-ədaləti pozan oqədər,
Çevirib tərsinə yozan oqədər,
Yolunu çaşanlar, azan oqədər,
Quran-kitab, şəriət də mat qalıb.[239]

Hayana baxırsan pozulub gedib,
Xətir də, hörmət də azalıb gedib,
Doğrular tərsinə yozulub gedib,
Saf arzu da, pak niyyət də mat qalıb.[240]

Ürəklərdə qəzəb yatır, kin yatır,
Beyinlərdə iblis, əqrəb, cin yatır,
Cəhalətdən miras qalan din yatır,
Saf istək də, məhəbbət də mat qalıb.[241]

---

[238] *II variant*
El varına tamahkarlar əlindən,
Bədniyyətlər, günahkarlar əlindən,
Öz xalqına zinakarlar əlindən,
Xeyirxahlıq, fəzilət də mat qalıb.

*III variant*
İnsan qlıfında heyvan çoxalıb,
Ariflər azalıb, nadan çoxalıb,
1) Haqq-say sümürüb udan çoxalıb, 2) Təlimdən yarımçıq dadan çoxalıb,
Xeyirxahlıq, fəzilət də mat qalıb.

[239] *II variant*
Əməllər başqadır, sözlər başqadır,
Fikirlər, xəyallar, gözlər başqadır,
Yolaqlar, cığırlar, izlər başqadır,
Quran-kitab, şəriət də mat qalıb.

[240] *II variant*
Çoxalıbdır saxtalıqlar, yalanlar,
Xalqı soyub çalıb, çapan kalanlar,
Əl-ayaqda saralanlar, solanlar,
Sağlam fikir, saf niyyət də mat qalıb.

[241] *II variant*
Sərsərilər, divanələr çoxalıb,
El-obaya biganələr çoxalıb,
Oda yanan pərvanələr çoxalıb,
Ülvi-istək, məhəbbət də mat qalıb.

Hamı bir-birini soymaq istəyir,
Qarnını güdərək doymaq istəyir,
Fitnəyə, fəsada uymaq istəyir,
Sədaqət də, səxavət də mat qalıb[242]

Dövrü-zəmanənin kəc gərdişinə,
Hiyləgər, dələduz, bic gərdişinə,
Sərsəri sayağı gic gərdişinə,
Külli-aləm, cəmiyyət də mat qalıb.

Pis yaxşıya, yaxşı pisə qarışıb,
Boz köpəklər yalquzaqla barışıb,
Fürsət tapıb sürülərə sırışıb,
Əsl kök də, nəcabət də mat qalıb.

Çatır vəzifəyə dayı tapanlar,
Döşürərək xalq malını qapanlar,
Hər xətadan yayınaraq, sapanlar,
Bacarıq da, məharət də mat qalıb.[243]

Nəqədər danışmaq, yazmaq gərəkdir?
Silib, qaralayıb, pozmaq gərəkdir?
Planlar uydurub cızmaq gərəkdir?
Giley-güzar, şikayət də mat qalıb.

---

*III variant* İnsan bir-birindən soyuyub gedib,
Qərq olub qəflətə uyuyub gedib,
İtirib əqlini, keyiyib gedib,
Ülvi istək, məhəbbət də mat qalıb.

[242] *II variant* İlqara, imana dönüklər artıb,
Hər səmtə üz tutan yönüklər artıb,
Dadamal, canavar, əniklər artıb,
Sədaqət də, səxavət də mat qalıb.

*III variant* Hamı at çapırır şərə, böhtana,
Afərin deyirlər araqatana,
Şər işlərlə məqsədinə çatana,
Sədaqət də, səxavət də mat qalıb.

[243] *II variant* Qiymət azdır tərtökənə, zəhmətə,
Canqoyana, çalışana, xidmətə,
1)Baxan yoxdur məna, məzmun, hikmətə, 2) Nə məzmuna, məziyyətə, hikmətə,
Bacarıq da, məharət də mat qalıb.

Abırsızlar, həyasızlar çoxalıb,
Əqidəsiz, qayəsizlər çoxalıb,
Tərbiyəsiz, dayəsizlər çoxalıb,
Öyüd sənə, nəsihət də mat qalıb.

Hiylə, kələk kainatı bürüyüb,
Yoldan çəkib gör haraya sürüyüb?
Cəmil Əkbər dərd çəkməkdən çürüyüb,
Şan-şöhrət də, şərafət də mat qalıb.[244]

***Cəmil Əkbər*** 7. 12 – 1993

## 246. YOXSA İNSAN QALMAYIB?

Gör kimləri seçmişik palataya ay aman?!
Beylə ali məclisə, elitaya ay aman?
Gör necədə dayanıb, arxasında durmuşuq?
Əbəs yerdən tər töküb, özümüzü yormuşuq.[245]
Əsəbləri korlayıb, ürəkləri sıxmışıq,
Nəcib arzu-istəyi, diləkləri sıxmışıq.
Gör kimlərin yerində, kimlər gəlib oturur?
Öz xalqını, elini qəm-qüssəyə batırır.[246]
Mərhəməti göstərib kimə hörmət etmişik?
Kimə insaf eyləyib, kimə mürvət etmişik?
Təkəbbürlə yeriyib addımını gen atır,
Vəl, xırmanı görməmiş, dağarcığa dən atır.
Beylə fikir-xəyalla görən hara gedirik?
Gör kimləri pisləyib, kimə tərif deyirik?
Kimi müqəddəs bilib, kimə şeytan deyirik?

---

[244] *II variant* İnsaf, mürvət, kəramətə baxan yox,
Etimada, mərhəmətə baxan yox,
Nə fəhmə, fərasətə baxan yox,
Şan-şöhrət də, şərafət də mat qalıb.

*III variant* 1) Sanıram ki, bəşər indi oyanıb, 2) Sanırlar ki, bəşər indi oyanıb,
Avamlıqdan, cəhalətdən yayınıb,
Aman Allah zülüm ərşə dayanıb,
Şan-şöhrət də, şərafət də mat qalıb.

*IV variant* Cəmil Əkbər dünya belə də getməz,
Çalışıb, can qoyub, ölə də getməz,
Həftə nə, ay nədir, ilə də getməz,
Fəhm nədi, fərasət də mat qalıb.

[245] Zəhmət çəkib tər töküb, özümüzü yormuşuq.

[246] Xalqı salıb möhnətə, qəm-qüssəyə batırır.

Kimə lənət yağdırıb, kimə böhtan deyirik?
Gör kimləri dirildib, kimləri öldürürük?
Kimə kef-damaq verib, kimləri güldürürük?
Gör kimləri yandırıb, kimləri söndürürük?[247]
Kimsələrə sus deyib, kimləri dindiririk?
Kimsələri boşaldıb, kimləri doldururuq?
Bəs kimləri bəsləyib, kimləri soldururuq?
Yoxsa insan yox imiş, insanların içində?[248]
Düşünüb dərk eyləyən qananların içində?[249]
Haqq-sayı yad edib ananların içində?
Ədəb-ərkan gözləyən, nəzakətlər içində?
Fərasətlər, fəhmlər, ləyaqətlər içində?
Düşüncəli, idraklı, ziyalılar içində?
Abırlılar, ismətli, həyalılar içində?
Əqidəli, məsləkli, qayəlilər içində?
Qədəmləri uğurlu, sayəlilər içində?
Bu bəşərin, bu xalqın, cəmiyyətin içində?
Bir bu qədər kəmiyyət, keyfiyyətin içində?[250]
Ən mehriban, səmimi dost-tanışmı qalmayıb?
Həmkarlarmı, həmdəmmi, sirdaşlarmı qalmayıb?
Hünər ilə yaşayıb, ucalanlar qalmayıb,
Şərafətlə, şöhrətlə qocalanlar qalmayıb.
Düşüncəli, idraklı ziyalılar qalmayıb,
Ar-namuslu, ismətli, həyalılar qalmayıb.
Əqidəli, məsləkli, qayəlilər tapılmır,
Qədəmləri uğurlu, sayalılar tapılmır.
Saxtalığa, yalana öc olan da yox imiş,
Bu vətəndən, bu eldən güc alan da yox imiş.
Yoxsa insan qalmayıb, sədaqəti olan da,
Bacarığı, fəhmi, fərasəti olan da.
Yoxsa insan tapılmır, hoqqabazdan savayı?
Yekəxana lovğadan, modabazdan savayı? [251]
Öz yerini bilməyən gədələrdən savayı?

---

[247] Bəs kimləri yandırıb, kimləri söndürürük?
[248] Yoxsa insan yox imiş adamların içində?
[249] Tərbiyədən, təlimdən dadanların içində?
[250] Bir bu qədər məxluqun, kəmiyyətin içində.
[251] Lovğalardan, danqadan, ədəbazdan savayı.

Düşüncəsi, idrakı zədələrdən savayı?
Məyər yoxmu eləsi, düzgün ola mərəzi?
Düz işləyib, düz çəkə vicdanında tərəzi?
Yoxsa insan qalmayıb, bu bəşərin içində?
İtib-batıb gedibdi, xeyir-şərin içində?
Yoxsa daha tapılmır, dərk eyləyən kişilər?[252]
Cəhalətə son qoyub, tərk eyləyən kişilər?[253]
Kainatda günəş də, duman da var əzizim,
Yaxşı da var həyatda, yaman da var əzizim.
Huri də var, pəri də, mələk də var əzizim,
Şadara da, xəlbir də, ələk də var əzizim.
Qardaş gəlin hər şeyi, xəlbirləyib ələyək,
Anasından doğulan körpəni düz bələyək.
Yoxsa insan qalmayıb, bu şəhərdə, bu kənddə?
Bu mahalda, bu eldə, həndəvarda, bu həddə?
Yoxsa yoxdu dünyada, bu məzmunda bu donda?
Nə bizdə var, nə sizdə, nə bunda var, nə onda?
Yoxsa insan tapılmır, həqiqəti arasın?
Məlhəm qoyub yaraya, nəzakətlə sarısın?
Gəlib başa dırmaşır, öz yerini bilməyən,
Oturanda, duranda, düz yerini bilməyən.
Buminvalla, məramla, xarab olur halımız,
Qərar tutmur budaqda, tez tökülür kalımız.
Qoymayaq ki, əzalar yerbəyerdən əyilsin,
Şikəst olub biçarə böyüdükcə söyülsün.
Gəl qardaşım amandır, yaxşıya pis deməyək,
Qurğuşuna, qalaya, qızıla mis deməyək,
Ağa-qara deməyək, qaraya-ağ deməyək,
Dağa-təpə deməyək, təpəyə-dağ deməyək.
Daha yetər bu qədər, görə-görə kor olmaq,[254]
Əqidədən, məsləkdən, səqir olmaq, kar olmaq.[255]
Niyə haqqa göz yumaq, həqiqəti görməyək?[256]
Hərkəsdənin özünə düz qiyməti verməyək? [257]

---

[252] Yoxsa insan tapılmır dərk eyləyən kişidən?
[253] Avamlığa son qoyan, tərk eyləyən kişidən?
[254] Bəsdir daha bu qədər, görə-görə kor olmaq.
[255] Əqidədən, məsləkdən, tamam-kamal kar olmaq.
[256] Niyə haqqa göz yumaq, ədaləti görməyək?

Qoy ayılsın bu bəşər, yatmasınlar cahanda,
Çamırlığa, mamıra batmasınlar bir anda.
Ay qardaş, ay bacılar düz tanıyaq hamını,
Gecikməyək bir an da, tez tanıyaq hamını.
Bəsdir bu laqeyidlik, bəsdir bu biganəlik,
Bəsdir bu sərsərilik, bəsdir bu divanəlik.
Yaxşıları pislərdən ayırıb seçməliyik,[258]
Boya görə xələti yüz ölçüb biçməliyik.[259]
Bunu edə bilməsək zaman bizi qınayar,
Küsən bizi qınayar, uman bizi qınayar,
Loğman  bizi qınayar, dərman bizi qınayar,
Hakim bizi qınayar, fərman bizi qınayar.
Gözdən düşər bu həyat, üzə çıxar paxırı,
Sürülərə sırışıb, qurdlar qırar naxırı.
Gəlin görək biz kimə, səsimizi vermişik?
Qəlbimizi açaraq, sözümüzü demişik?
Səbəb nədir seçməyək, yaxşıları yamandan?
Çıxarmayaq bəşəri nisgillikdən, dumandan?
Qiyməti düz verməyək, hərkəsdənin özünə,
Hərkəsdənin işinə, əməlinə sözünə.
Daha bəsdi verməyək səsimizi kütlərə,
Kütbeyinə, maymağa, müqəvvaya, bütlərə.
Tərs-məssəbə, inada, öcə səsi verməyək,
Fikri-xəyalı çaşbaş, kəcə səsi verməyək,[260]
Hiyləgərə, kələyə, bicə səsi verməyək,
Xainlərə, paxıla, gicə səsi verməyək.
Səsimizi verməyək hər yetirən gədəyə,
Həm zəhməti kasada, həm xidməti gödəyə.
Gəlin səsi biz verək igidlərə, nərlərə,
Neçə-neçə nurani, ağsaqqala, pirlərə.
Gəl ay bacım, qardaşım kamallıya səs verək,[261]
Əqidəli, məsləkli, amallıya səs verək.

***Cəmil Əkbər*** 30. 09 – 1990

---

257 Doğruluğu, düzlüyü həqiqəti görməyək?
258 Yaxşıları pislərdən seçməliyik əzizim.
259 Boya görə xələti biçməliyik əzizim.
260 Fikirləri, xəyalı, kəcə səsi verməyək.
261 Gəl qardaşım bir daha kamallıya səs verək.

## 247. YAXŞILARDAN QALIBDI

*I variant*

Deyirlərki bu bəşəri dolandıran, saxlayan,
Hey axtarıb arayan, yada salıb yoxlayan.[262]
Zəhmət çəkib tər tökən, bəsləyəndi yaxşılar,[263]
Səadətə car çəkib, səsləyəndi yaxşılar.[264]
Yaxşılardan törəyib, yaxşıların özü də,[265]
Ocaqların alovu, həniri də, közü də.
Fəsillərin əzəli, gül-çiçəkli yazı da,
Yaddaşlara həkk olan, hər oğulu, qızı da.[266]
Baxışları, diqqəti, nəzəri də, gözü də,
Kəlmələri, cümləsi, danışığı, sözü də.
Könüllərə saldığı, cığırı da, izi də,
Yorulmayan qolları, bükülməyən dizi də.
Uzaqları seyredib, görə bilir yaxşılar,
Məhəbbətdən bağ salıb, dərə bilir yaxşılar.
Duzlu-duzlu məzəli, zərafət ondan qalıb,
İnsanlıqdan nə varsa, əlamət ondan qalıb.
Qayda-qanun, yol-ərkan, təriqət ondan qalıb,
Ədəb-ərkan ehtiram, mərifət ondan qalıb.[267]
Ünsiyyətdə gözəllik, təravət ondan qalıb,
Bu həyatda nə varsa ləyaqət ondan qalıb,
Eşqin ulu sevdası məhəbbət ondan qalıb.
Ədalət də onlardan xatirədir bizlərə,
Könüllərdə həkk olan, xatirədir bizlərə.
Xeyirxahlıq eyləmək, bir nişanə qalıbdı,[268]
Sarsılmayan bir qala, bir kaşanə qalıbdı.
Ünsiyyətin gövhəri deyirlər ondan qalıb,
Saf incisi, cövhəri deyirlər ondan qalıb.

---

[262] Hey arayıb, araşdıran, yada salıb yoxlayan.
[263] Qayğısını çəkə-çəkə bəsləyəndi yaxşılar.
[264] Səadətin dünyasına səsləyəndi yaxşılar.
[265] 1)Yaxşılardan yaranıbdır, yaxşıların özü də, 2) Yaxşılardan zühur edib, yaxşıların özü də,
[266] 1) Ləyaqətli övladı, oğulu da, qızı da. 2) Məharətli, hünərli oğulu da, qızı da.
[267] Xətir-hörmət, ehtiram, mərifət ondan qalıb,
[268] Xeyirxahlıq onlardan, bir nişanə qalıbdı.

Babaların məzmunu, hikməti ondan qalıb,[269]
Ürək dolu istəyi, riqqəti ondan qalıb.
Könüllərə yol açıb, girə bilir yaxşılar,
Məhəbbətdən bağ salıb dərə bilir yaxşılar.
Dərk eyləyib, anlayır, qana bilir yaxşılar,
Ülviyyətin tacına qona bilir yaxşılar.[270]
Yer üzündə yaraşıq, göylərə də bəzəkdir,
Çöl, bayıra nur saçır, evlərə də bəzəkdir.
Olmasaydı həyatda onlar bircə an belə,
Xoş gəlməzdi heçkəsə, bizim bu canan belə.
Olmasaydı yaxşılar, bəşər pislər əlində,
Bədxah, zalım əlində, ya da nəslər əlində.
El varından doymayan, hərislərin əlində,
Xainlərin, xəbisin, naqislərin əlində.
Hər əzaba dözərək, müsibətlər görərdi,
Çətinliyə düşərək, məşəqqətlər görərdi.[271]
Cəhalətdə çürüyüb, avamlıqda qalardı,
Ömürboyu sərasər, nadanlıqda qalardı.
Xəzan vurmuş yarpaqtək saralardı, solardı,
Səadətin dalınca gözü yolda qalardı.
Yer üzündə gözəllik, məhv olardı bir anda,
Qayda-qanun pozulub səhv olardı bir anda.
Yerlə-yeksan olaraq, tökülərdi bu bəşər,
Dağılaraq himindən, sökülərdi bu bəşər.
Deyirlərki yaxşılar zərəfşandı dünyada,
Yolgöstərən ulduzdur, kəhkəşandı dünyada.
Ta qədimdən bəridir, zaman-zaman o yanır,
Yaxşıların çiynində dünya durub dayanır.

***Cəmil Əkbər*** 1989

[269] Mənaları, məzmunu, hikməti ondan qalıb,
[270] Zirvələri fəth edib, qona bilir yaxşılar.
[271] Hər çətinlik çəkərək, məşəqqətlər görərdi.

## 248. YAXŞILARDAN QALIBDI

*II variant*

Deyirlərki bəşəri milon ildir saxlayan,
Araşdırıb arayan, yada salıb yoxlayan.
Zəhmətini çəkərək, bəsləyəndi yaxşılar,
Səadətə çağırıb, səsləyəndi yaxşılar.
Yaxşılardan yaranıb, yaxşıların özü də,
Ocaqların atəşi, alovu da, közü də.
Fəsillərin gözəli, gül-çiçəkli yazı da,
Məharətli övladı, oğulu da, qızı da.
Uzaqları seyr edib, görə bilir yaxşılar,
Öz borcunu xalqına verə bilir yaxşılar.
Könüllərə yol açıb girə bilir yaxşılar,
Məhəbbətdən bağ salıb, dərə bilir yaxşılar.
Dərk eyləyib, anlayıb, qana bilir yaxşılar,
Ülviyyətin tacına qona bilir yaxşılar.
Yer üzünə yaraşıq, göylərə də bəzəkdir,
Çöl, bayıra nur saçır, evlərə də bəzəkdir.
Deyirlərki ləzzət də yaxşılardan qalıbdır,
Xətir-hörmət, izzət də yaxşılardan qalıbdır.
Yer üzündə incəlik, lətafət ondan qalıb,
Mehribanlıq, nəciblik, məlahət ondan qalıb.
Xeyirxahlıq amalı, səadət ondan qalıb,
İnsanlığa xas olan, ləyaqət ondan qalıb.
Duzlu, tamlı, baməzə, zərafət ondan qalıb,
İnsanlıqdan nə varsa, əlamət ondan qalıb.
Qayda-qanun, yol-ərkan, təriqət ondan qalıb,
Ədəb-ərkan ehtiram, mərifət ondan qalıb.
Ünsiyyətdə gözəllik, təravət ondan qalıb,
Bu həyatda nə varsa ləyaqət ondan qalıb.
Eşqin ülvi sevdası məhəbbət ondan qalıb,
Ədalət də onlardan yadigardı bizlərə,[272]
Həqiqət də əbədi, yadigardı bizlərə.[273]
Xeyirxahlıq, fəzilət, bir nişanə qalıbdı, [274]

---

[272] Ədalət də onlardan, xatirədir bizlərə,
[273] Könüllərə həkk olan, xatirədir bizlərə.
[274] Əməlləri bizlərə bir nişanə qalıbdı.

Sarsılmayan bir qala, bir kaşanə qalıbdı.[275]
Ünsiyyətin gövhəri deyirlər ondan qalıb,[276]
Saf incisi, cövhəri deyirlər ondan qalıb.
İnsanlığın məzmunu, hikməti ondan qalıb,
Ürəklərin təpəri, riqqəti ondan qalıb.[277]
Nəzarəti, baxışı, diqqəti ondan qalıb,
Müdriklərin kəlamı, hikməti ondan qalıb.
Neçə böyük dühalar, qüdrəti ondan alıb,[278]
Deyirlərki Hatəm də səxanı ondan alıb,
Əhdi-peyman bağlayıb, vəfanı ondan alıb,[279]
Nəcib arzu-istəyi, niyyəti ondan alıb,[280]
Vicdan, məslək nə varsa, niyyəti ondan alıb.
Şairlər də ilhamı deyirlər ondan alıb,
Şeirtəki ənamı deyirlər ondan alıb.
Təbiət ondan alıb, çəməndəki xalını,
Arılar ondan çəkib, pətəkdəki balını.
Deyirlərki dağlar da səfanı ondan alıb,[281]
Loğmanlar da verdiyi, şəfanı ondan alıb.
Dünyadakı ləzzət də yaxşılardan qalıbdır,
Xətir-hörmət- izzət də yaxşılardan qalıbdır.
Pak ülfətin təməli, bu ərlərdən qalıbdır,
Hər işi, hər əməli, bu nərlərdən qalıbdır,[282]
Bu incidən, sədəfdən, bu zərlərdən qalıbdır.
Deyirlərki günəş də ziyanı ondan alıb,
Abır-ismət sahibi, həyanı ondan alıb.[283]
Mərd igidlər məsləyi, qayəni ondan alıb,
Ən müqəddəs kitablar, ayəni ondan alıb,
Yolgöstərən nurani, dayəni ondan alıb.
Ünsiyyətdə incəlik, lətafət ondan qalıb,
Ətirləri solmayan təravət ondan qalıb.

---

[275] Dağılmayan mötəbər, bir kaşanə qalıbdır.
[276] Ünsiyyətin mehvəri, sədaqət ondan qalıb.
[277] Ürək dolu istəyi, riqqəti ondan qalıb.
[278] 1) Dahilər, dühalar da qüdrəti ondan alıb, 2) Böyük düha sahibi, qüdrəti ondan alıb,
[279] Etibarı, ilqarı vəfanı ondan alıb.
[280] Sağlam fikir, düşüncə, niyyəti ondan alıb,
[281] Şah vüqarlı dağlar da səfanı ondan alıb.
[282] Bu igiddən qalıbdır, bu nərlərdən qalıbdır.
[283] Gəlinlər də, qızlar da həyanı ondan alıb.

Mehribanlıq, nəciblik, məlahət ondan qalıb,
Duzlu, tamlı, baməzə zərafət ondan qalıb.
İnsanlığa xas olan, əlamət ondan qalıb,[284]
Qayda-qanun, yol-ərkan, təriqət ondan qalıb,
Xətir-hörmət, ehtiram, mərifət ondan qalıb.
Gül-çiçək də ətrini, yaxşılardan götürüb,[285]
Xətirlilər-xətrini, yaxşılardan götürüb.[286]
Gülüstanın rəngi də, yaxşıların rəngidir,
Koroğlunun cəngi də, yaxşıların cəngidir.[287]
Duz da dadı-tamını, deyirlər ondan alıb,
Bəşər oğlu kamını, götürüb ondan alıb.
Pak arzular, istəklər, kök salıb ondan qalıb,[288]
Əsrlərdən-əsrə yol tapıb ondan qalıb.[289]
Yer üzünə bərəkət, gətirən onlar olub,
Cırlara peyvənd vurub, bitirən onlar olub. [290]
Yaxşılara bağlıdır insanlığın ziynəti,[291]
Hər məzmunu, mənası, hər dəyəri, qiyməti.[292]
Nümunəni, ibrəti, onlar verib cahana,[293]
Şərafəti-şöhrəti, onlar verib insana.[294]
Uzaqları seyredib, görə bilir yaxşılar,
Öz borcunu xalqına verə bilir yaxşılar.
Könüllərə yol tapıb girə bilir yaxşılar,
Məhəbbətin bağını dərə bilir yaxşılar.
Çoxları köç etsə də, qalanlar onlar olub,[295]
Zəfərlərin təblini, çalanlar onlar olub.
Onları yad etdikcə xəyallara dalırıq,[296]
El gözündə çəkilib, əlenirik, qalırıq.

---

[284] İnsanlıqdan nə varsa, əlamət ondan qalıb.
[285] Gül-çiçək də ətrini, deyirlər ondan alıb.
[286] Xətirlilər-xətrini, deyirlər ondan alıb.
[287] İgidlərin cəngi də, yaxşıların cəngidir,
[288] 1) Xoş arzular, niyyətlər, kök salıb ondan qalıb, 2) Xoş arzular, istəklər, kök salıb ondan qalıb.
[289] Əsrlərdən keçərək yol tapıb ondan qalıb.
[290] Əkən, səpən, sulayan, bitirən onlar olub.
[291] Yaxşılara bağlıdır yer üzünün ziynəti,
[292] Hər mənası, məzmunu, hər dəyəri, qiyməti.
[293] 1)Nümunəni, ibrəti, bəşər ondan alıbdır, 2) Nümunəni, ibrəti, onlar verib insana,
[294] 1) Şərafəti, şöhrəti bəşər ondan alıbdır, 2) Ar-namusu, qeyrəti, onlar yayıb cahana.
[295] Çoxları köç eyləyib, qalanlar onlar olub.
[296] 1) Düşündükcə onları xəyallara dalırıq, 2) Oxşadıqca onlara, xəyallara dalırıq.

### YAXŞILARIN ƏMƏLİ

Yer üzünə nur saçır yaxşıların əməli,
İnci səpir, dür tökür, həm sağ əli, sol əli.
O səbəbdən möhkəmdir bünövrəsi, təməli,
Nə əyilir, qırılır, qatlanmayır deməli.
Dərk etdikcə onları, xəyallara dalırıq,
Fəxr edərək, sevinib ondan ilham alırıq.
El gözündə çəkilib, süzülərək qalırıq,
Hünərləri göstərib, zəfərləri çalırıq.
Zəmanənin ahəngi yaxşılarla səslənir,
Nəhənglərin-nəhəngi, yaxşılarla bəslənir.
Nəyaxşıki, dünyada belə varlıq olubdur?
Bəşər üçün, xalq üçün bəxtiyarlıq olubdur.
Çox şükür ki, dünyada bu yaxşılar olubdur,
Bu gözəllik, nəciblik, bu naxışlar olubdur.
Cücərtilər boy atıb, bu çıxışlar olubdur,
Görüm-baxım, ənaət, bu baxışlar olubdur.
Yer üzünə yaraşan bu insanlar olubdur,
Bu hurilər, pərilər, bu qılmanlar olubdur.

Eeşit ay vətəndaşım, dinlə doğma qardaşım, [297]
Vicdanları, məsləyi, qanı təmiz qardaşım.
Ay həmkarım, həmdəmim, ay vəfalı yoldaşım,[298]
İllər yola saldığım tay-tuşlarım, çağdaşım.
Yamanlardan uzaq ol, yaxşılarla dur qoşa,[299]
Ömür-günü şərəflə, ötür başa, vur başa.[300]
Deyirlərki dünyada nə əkərsən, biçərən,
Ö saldığın körpüdən, özün bir gün keçərsən.[301]
Çalışginən həyatda sən də gözəl ad qazan,
Yaxşılarla ülfət et, dostluq eylə, yad qazan.
Deyirlər ölən deyil, yaxşıların adəti,
İşi-gücü, peşəsi, ənənəsi, sənəti.[302]

---

[297] Eşit ay vətəndaşım, eşit əziz qardaşım.
[298] Ay həmkarım, sirdaşım, ay vəfalı yoldaşım.
[299] Yamanlardan uzaq ol, yaxşılarla gəz qoşa.
[300] Onlar ilə əlbir ol, hər çətinə döz qoşa.
[301] Öz saldığın yollardan, özün gəlib keçərsən.
[302] Ənənəsi, vərdişi, işi-gücü, sənəti.

Əsrləri fəth edir, bu ərlərin vərdişi,[303]
Pozulan döy qurğusu, nə dövranı, gərdişi.[304]
Gözəl gəlir həryandan, deyirlərki sədası,[305]
İncitməyir heçkəsi, yerli-yersiz ədası.[306]
El içində dolanıb, əməli sağ gəzirlər,
Bünövrəsi, özülü, təməli sağ gəzirlər.
Alnıaçıq, kefi saz, damağı çağ gəzirlər,
Başı uca dağ kimi, üzü də ağ gəzirlər.[307]
Harda olub yaşasan, onlar ilə otur, dur,[308]
Onlar kimi işləyib, onlar kimi yarat, qur.[309]
Qayğılara qalmağı, yaxşılardan öyrənin,
Zəfərləri çalmağı, yaxşılardan öyrənin.
Xətir-hörmət nə varsa, yaxşılardan öyrənin,
İnsaf-mürvət nə varsa, yaxşılardan öyrənin.
Mənzil kəsib, yolu get, onlar kimi sal izi,
Onlar kimi fikirləş, onlar kimi de sözü.
Zəmanənin ahəngi yaxşılarla səslənir,
Nəhənglərin nəhəngi, bu adlarla bəslənir.[310]
Deyirlərki yaxşılar zərəfşandı dünyada,[311]
Yolgöstərən mayaqdı, kəhkəşandı dünyada.[312]
Harda olsan, yaşasan, hörmət eylə bu ada,
İnsaf eylə bu ada, mürvət eylə bu ada.
Nəyaxşıki, cahanda beylə varlıq olubdur,
Bəşər üçün səadət, bəxtiyarlıq olubdur.[313]
Deyirlərki qədimdən zaman-zaman o yanır,
Yaxşıların əliylə dünya nura boyanır.[314]

[303] Əsrləri fəth edir, deyirlərki vərdişi.
[304] Pozulmayır dövranı, sarsılmayır gərdişi.
[305] Gözəl gəlir həryandan, yaxşıların sədası.
[306] İncitməyir birkəsi, yersiz-yersiz ədası.
[307] Fikirləri tərtəmiz, üzü də ağ gəzirlər.
[308] Yaxşılarla ömür sür, onlar ilə otur, dur.
[309] Onlar ilə işləyib, ömür-günü başa vur.
[310] Nəhənglərin nəhəngi, yaxşılarla bəslənir.
[311] Deyirlərki yaxşılar kəhkəşandı dünyada.
[312] Həm incidi, əşrəfdi, zərəfşandı dünyada.
[313] Bəşər üçün nə gözəl, bəxtiyarlıq olubdur.
[314] Yaxşıların çiynində dünya durub dayanır.

### *YAXŞILAR OLMASAYDI*

Olmasaydı yaxşılar deyirlər bir an belə,
Gözdən düşüb gedərdi, bizim bu cahan belə.[315]
Yaxşılarsız dünyanın nə olardı axırı?[316]
Sürtülərdi qalayı, üzə çıxar paxırı.[317]
Nəciblikdən nişanə, bir əlamət qalmazdı,
Nə ehtiram, nə hörmət, nə mərhəmət qalmazdı.
Yaxşılarsız dünyanın kef-damağı olmazdı,
Çal-çağırı kəsilər, oynamağı olmazdı.
Dağılardı kəndistan, talanardı şəhərlər,
Bürüyərdi həryanı, qəm-qüssələr, qəhərlər.
Xalqı yoldan azdıran, bəyanatlər artardı,
Addımbaşı həryanda qəbahətlər artardı.
Oğru-əyri çoxalar, cinayətlər artardı,[318]
Zülüm ərşə dirənib, məşəqqətlər artardı.
Giley-güzar, qal-qovğa, şikayətlər artardı,
Ürəklərdə küdurət, xəyanətlər artardı,
Düşmənçilik çoxalıb, ədavətlər artardı.[319]
Yer üzündə həryanı səfalətlər bürüyər,
Avamlıqlar boy atıb, cəhalətlər bürüyər.[320]
Azğınlaşıb qudurar yırtıcılar, vəhşilər,
Başımıza od ələr, nabələdlər, naşılar.[321]
Min bir hoqqa törədər, gicbəsərlər, dəlilər,
Al-qanlara sussayıb, sorardılar zəlilər.[322]
Cəlladlar baş kəsərdi, ad alardı canilər,[323]
İşə düşən maşıntək, xod alardı fanilər.[324]
Gözləri ağlar qoyub, sinəyə dağ basardı,
Haqq-nahaqqa baxmazdı, boğazından asardı.
Canavarlar sırışıb, sürüləri qırardı,

---

[315] Gözəl görünməzdi heç, bizim bu cahan belə.
[316] Yaxşılarsız dünyanın pis olardı axırı.
[317] Bürüyərdi həryanı, xəbislərin paxırı.
[318] Yer üzündə kök salıb, cinayətlər artardı.
[319] Kin-küdurət çoxalıb, ədavətlər artardı.
[320] Yayılaraq həryanı, səfalətlər bürüyər.
[321] Başımızdan od ələr, nabələdlər, naşılar.
[322] Al qanları soraraq, kef çəkərdi zəlilər,
[323] Qırıb, töküb bəşəri, cəlladlar ad alardı.
[324] 1) İşə düşən maşın tək, xod alardı cahillər. 2) Yeyib, içib, kef edib, damağı dad alardı.

Şil-küt edib tökdüyü, leşdən qala qurardı.
Həşarətlər, böcəklər, verərdilər əl-ələ,
Hücum çəkib yerbəyer, salardılar vəlvələ.
İnsaf-mürvət tükənər, kəramət də qalmazdı,[325]
Mehribanlıq azalar, mərhəmət də qalmazdı.
Etibarlar yox olar, sədaqətlər azalar,[326]
Ədəb-ərkan pozular, mərifətlər azalar,
Xətir-hörmət puç olar, səxavətlər azalar.
Ən müqəddəs, ən ali hərəkətlər azalar,
Nazı-nemət tükənər, bərəkətlər azalar.
Yaxşıları itirmək, ah-nalələr gətirər,[327]
Yer üzünə müsibət, min bəlalar gətirər.
Həyatdakı çətinlik, o səbəbdən yaranır,[328]
O səbəbdən cücərir, o səbəbdən daranır.[329]
O səbəbdən saralıb, sozalırıq, soluruq, [330]
Bulud kimi tutulub, qaralırıq, doluruq.[331]
O səbəbdən yozulub, səhv oluruq dünyada,[332]
Silinirik bir anda, məhv oluruq dünyada.
Vaxt-vədəsiz qocalıb, qarıyırıq gedirik,[333]
İçin-için ağlayıb, zarıyırıq gedirik.[334]
Acıq çəkib, hirslənib, içimizi yeyirik,
Düçar olub matəmə, qaraları geyirik.[335]
Yaxşılarsız bu həyat divanəlik deməkdir,
Laqeyidlik, soyuqluq, biganəlik deməkdir.[336]
Dava-dalaş, qalmaqal viranəlik deməkdir,[337]
Cah-calalın yerində, xərabəlik deməkdir.[338]

---

[325] İnsaf-mürvət tükənər, kəramətlər azalar,
[326] Etibarlar azalar, sədaqətlər azalar,
[327] Yaxşılarsız bu dünya, ah-nalələr gətirər,
[328] 1) Həyatdakı çətinlik, bil onlardan yaranır, 2) Həyatdakı çətinlik, hamsı onlardan yaranır,
[329] Hamsı ondan cücərir, hamsı ondan daranır.
[330] O səbəbdən sozalıb, saralırıq, soluruq,
[331] Bulud kimi qaralıb, tutuluruq, doluruq.
[332] O səbəbdən pozulub, səhv oluruq dünyada,
[333] 1) Vaxt-vədəsiz qırılıb, məhv oluruq dünyada. 2) Məqam gəlir qocalıb, qırılırıq, gedirik,
[334] Xəstəliyə tutulub, zarıyırıq gedirik.
[335] Çənəmizə güc verib, hərnə olsa deyririk.
[336] Gözəlliyə, göyçəyə biganəlik deməkdir.
[337] Dava-dalaş deməkdir, viranəlik deməkdir.
[338] Dağıntılq deməkdir, xərabəlik deməkdir.

Yaxşılarsız dünyanın kəm-kəsiri çoxalar,[339]
Ah-naləsi çoxalar, dərdi-səri çoxalar.[340]
Kəmağılı çoxalar, gicbəsəri çoxalar,
Sərsərisi çoxalar, dəngəsəri çoxalar.
Yaxşılarsız həyatın, cövhəri itib gedər,[341]
Ünsiyyətin, ülfətin, məhvəri itib gedər.[342]
Bürüyərdi tarlanı sarmaşıqlar, alalar,[343]
Ərşə bülənd olardı, göy üzündə nalələr. [344]
Gəl qardaşım, ay bacım yaxşıları saxlayaq,[345]
Xeyirxahı nəslərdən, azad edib saxlayaq.
Hər nə deyir, danışır, məqamında yoxlayaq.[346]
Düz sözünü, fikrini, məqamında haxlayaq.
Yaxşıları pislərdən, xilas edib qoruyaq,
Onları məhv olmağa, əzilməyə qoymayaq.
Bədxahların felinə, onlar düçar olmasın,[347]
Nadanların əlində, onlar naçar qalmasın. [348]
Yaxşılarsız yaşamaq müsibətdi dünyada,[349]
Məşəqqətdi, məhşərdi, qiyamətdi dünyada.[350]

### *ƏFSUSLARKİ*

Əfsuslarki nədənsə yaxşıların sədası,[351]
Xətir, hörmət-izzəti, ərki-nazı, ədası,[352]
Nəcib arzu-istəyi, xülyaları, sevdası.
Çoxlarını sarsıdıb, gözlərini kor edir,[353]
Eləbilki başına dünyasını dar edir.

---

339 Yer üzündə həyatın kəmkəsiri çoxalır,
340 Ah-naləsi yayılıb, dərdi-səri çoxalır.
341 Zəmanənin, dövranın cövhəri əldən gedər.
342 1)Ünsiyyəti, ülfəti, gövhəri itib gedər. 2) Ünsiyyəti, ülfəti, məhvəri əldən gedər.
343 Bürələyir tarlanı sarmaşıqlar, alalar.
344 1) Nə iztirab çəkirlər, bizim körpə balalar, 2) İstirabın içində əzab çəkər balalar.
345 Gəl ay qardaş amandır, yaxşıları saxlayaq.
346 Məqamında tanıyaq, sözlərini haxlayaq.
347 Kimlərinsə felinə onlar düçar olmasın.
348 Zalımların əlində onlar naçar qalmasın.
349 1) Yaxşılarsız yaşamaq müsibətdi dünyada, 2)Yaxşılarsız yaşamaq fəlakətdi dünyada,
350 1) Məşəqqətdi, dəhşətdi, qiyamətdi dünyada. 2) Məşəqqətdi dünyada, qiyamətdi dünyada.
351 Əfsus olsun, nədənsə yaxşıların sədası.
352 Çoxlarını dəng edib, səbəb nədir qadası?
353 Çoxlarını sarsıdıb, gözlərini kor edib.

Sanki girib qəsdinə, gücə salıb zor edir,[354]
Ad-sanına toxunub, şöhrətini xar edir.
Bədxahların qəlbinə xeyirxahlar yatmayır,[355]
İdrakına sığışmır, kəlləsinə batmayır.[356]
Gözlərinə mələk də, əqrəb, iblis, görünür, [357]
Huri-qılman olsa da, tamam naqis görünür.[358]
Nə edəsən beləsi, aralıqda var hələ,
İlan-çayan, qurbağa, əqrəb-iblis, mar hələ.[359]
Sazişlərə girərək, onlar verir əl-ələ,
Ünsiyyəti korlayıb, xalqa salır vəlvələ.[360]
Yer üzündə vuruşur, xeyir ilə şər hələ,[361]
Əfsuslar ki, seçilmir, zibillikdən zər hələ.[362]
Neyləyəsən yaxşıya, bəzən də pis deyirlər,[363]
Namərdi mərd sanaraq, mərdə naqis deyirlər.[364]
Acgöz, həris, tamahkir, satılırlar dinara,[365]
Aralığı qataraq, çəkilirlər kənara.
Fürsət tapıb bu anda, tez keçirlər başa da,[366]
Yol açırlar irəli, var toplayır qışa da.[367]
Yaxşıların yerində pislər gəlib oturur,
Yerli-yersiz işlərlə adı-sanı batırır. [368]
Al şəfəqin üzünü qara duman bürüyür, [369]
Dərələrə, təpəyə, karvanını sürüyür.
Ömürboyu bəşərə, fayda verən yaxşılar,[370]

---

[354] Toxunaraq qəlbinə, gücə salıb, zor edib.
[355] 1) Bədxahların qəlbinə xeyirxahlıq yatmayır, 2) Xainlərə, xəbisə, xeyirxahlar yatmayıb,
[356] Kəlləsinə yerləşib, idrakına batmayıb.
[357] 1) Gözlərində mələk də, əqrəb, iblis, görünür. 2) Gözlərinə nədənsə əqrəb, iblis görünüb?
[358] 1) Nəcib işlər, əməllər tamam naqis görünür. 2) Çıxıb əndazəsindən, tamam naqis görünüb.
[359] İlan, çayan, qurbağa, sıramızda var hələ.
[360] Ünsiyyəti korlayıb, yaman salır vəlvələ.
[361] Yer üzündə baqidir, xeyir ilə şər hələ.
[362] Seçilməyir nədənsə, zirzibildən zər hələ.
[363] Əfsuslar ki, nədənsə yaxşıya pis deyirlər.
[364] Namərdi mərd anlayıb, mərdə nakəs deyirlər.
[365] Acgöz, həris, divanə, satılırlar dinara.
[366] Fürsət tapıb bu anda, pislər keçirlər başa.
[367] Oğulsansa gəl eylə, müsibətə tamaşa.
[368] 1) Biraz keçmir həryanı zibilliyə batırır, 2) Zibilləyir nəki var, həndəvarı batırır.
[369] Al şəfəqin üzünü gəlib duman bürüyür.
[370] Ömürboyu bəşərə gərək olan yaxşılar,

Ədəb-ərkan gözləyən, qayda verən yaxşılar.[371]
Bircə anın içində, yaddan çıxıb gedirlər,[372]
Nəzərlərdən salınıb, moddan çıxıb gedirlər.[373]
Bəzən də qəsd edilib, salınırlar zindana,[374]
Ləkə düşür məsləyə, zərbə dəyir vicdana.[375]
Qəsd olunur nəqədər, ləyaqətli insana,
Dərrakəli, fəhmli, fərasətli insana.[376]
İgid, cəsur, qəhrəman, cəsarətli insana,
Təravətli, ətirli, məlahətli insana.
İradədəsi mötəbər, dəyanətli insana,[377]
Doğruluqdan, düzlükdən, bəyanatli insana.
Belə olub deyirlər, Müşviq, Cavid bir zaman,[378]
İtib-batıb bu yolla, Vazeh, Hadi bir zaman.[379]
Seyd Əzim vərəm olub, Sabirimiz çərləyib,
Cəhalətin içində başlarını girləyib.
Şahin kimi oğullar, zirvələrdən endilər,[380]
Sürgünlərdə boğulub, zindanlarda dindilər.[381]
Qəsd olundu nəqədər çox sahibi-kamala,[382]
Pak vicdana, məsləyə, əqidəyə, amala.
Çoxlarının xidməti, zəhmətləri danıldı,[383]
Görünmədi dəyəri, xidmətləri danıldı.
Xətirləri danıldı, hörmətləri danıldı,
İnsafları yox oldu, mürvətləri danıldı.[384]
Namusları heç oldu, qeyrətləri danıldı,[385]
Şərəfləri danıldı, şöhrətləri danıldı.

---

[371]Dar ayaqda, məqamda kömək olan yaxşılar.
[372] Əfsus olsun nədənsə yaddan çıxıb gedirlər.
[373] Nəzərlərdən yayınıb dəbdən düşüb gedirlər.
[374] Qəsd-qərəz ucbatından, salınırlar zindana.
[375] Kimdi baxan məsləyə, kimdi baxan vicdana.
[376] Bacarıqlı, fəhmli, fərasətli insana.
[377] İradədən mötəbər, dəyanətli insana.
[378] Belə olub bir zaman, Cavid, Müşviq deyirlər.
[379] Ölüb Əhməd Cavad da, Vazeh, Hadi deyirlər.
[380] Şahin kimi oğlanlar, zirvələrdən eniblər.
[381] Məhbəslərə salınıb, zindanlarda dinbilər.
[382] Qəsd olunub nəqədər, çox sahibi-kamala.
[383]Xidmətləri danılıb, zəhmətləri danılıb.
[384] İnsafları danıldı, mürvətləri danıldı.
[385] Namusları danıldı, qeyrətləri danıldı.

Ləyaqəti tapdandı, fərasəti danıldı,
İgidliyi puç oldu, cəsarəti danıldı.
Ədaləti yozuldu, həqiqəti danıldı,
Bacarığı yox oldu, məharəti danıldı.
Ad-sanı gözdən düşdü, şərafəti danıldı,
Tər qönçəsi pozuldu, təravəti danıldı.
Etibarı, ilqarı, sədaqəti danıldı,
Kəraməti azaldı, səxavəti danıldı.
Ədəb-ərkan nəyi var, hər adəti danıldı,
İdrakı da sarsıldı, kamalı da danıldı.
Məsləyi yoxa çıxdı, amalı da danıldı,
Xidməti də danıldı, zəhməti də danıldı.
Dəyəri heçə endi, qiyməti də danıldı,
Arzuları, istəyi, niyyəti də danıldı.
Abırı da, həyası, isməti də danıldı,
Nicatı da danıldı, nüsrəti də danıldı.
Təbiəti, varlığı, xisləti də danıldı,
Fəhmləri, nəzəri, diqqətləri danıldı,[386]
Məzmunu, mənası da, hikməti də danıldı.[387]
Sağlığında dəyəri, verilmədi qiyməti,[388]
Bilinmədi məqsədi, duyulmadı niyyəti.[389]
Yada salıb adını, elə-belə andılar,[390]
Xidmətini gizlədib, yerbəyerdən dandılar.[391]
Sədheyif ki, yaxşını məqamında görmürük,
Xidmətini göstərib, dəyərini vermirik.
İstisinə isinib, oduna yanmadılar,[392]
Sözlərini eşidib, nədənsə qanmadılar?[393]
Mənliyinə toxunub, xatirinə dəydilər, [394]
Vüqarını sarsıdıb, qamətini əydilər.

---

386 1)Nəzəri də danıldı, diqqətləri danıldı. 2) Nəzəri də heç oldu, diqqəti də danıldı.
387 Məzmunu da danıldı, hikməti də danıldı.
388 Verilməyib vaxtında, qiymətləri danıldı.
389 1) Arzları, istəyi, niyyətləri danıldı. 2) Duyulmadı məramı, bilinmədi niyyəti. 3) Bilinmədi arzusu, duyulmadı niyyəti.
390 Adını elə-belə, üzəbarı andılar.
391 Xidmətini nədənsə, gizlətdilər, dandılar.
392 İstisinə isinib, yanmadılar nədənsə.
393 1) Sözlərini eşidib qanmadılar nədənsə, 2)Yaxşıları eşidib, nədənsə qanmadılar.
394 Əsəbini korlayıb, xatirinə dəydilər.

Bəd danışıb dalınca, ünvanına söydülər,
Törədərək bədəməl, gözlərini döydülər.
Yaxşıları məhv edib, xalqı naçar qoydular,
Bağçasına daş atıb, budağını qırdılar.[395]
Meyvəsinə kal deyib, yerdən-yerə vurdular,[396]
Bezdirib, heydən salıb, gör necə də yordular?[397]
Qollarını qatlayıb, biləyini burdular.
Mərd igidin yerləri zaman-zaman boş qalıb,[398]
Fikir, xəyal dolaşıb, gör necə çaşbaş qalıb? [399]
Haqq, ədalət yerində, yalanlar cövlan edib,
Çalıb-çapan quldurlar, kalanlar dövran edib.[400]
Hökm eyləyib bir zaman, yarımçıqlar, naşılar,
Dələduzlar, hiyləgər, neçə quldurbaşılar.[401]
Yeyib-içib kef çəkib, cah-calalı görüblər,[402]
Sağa-sola at sürüb, buminvalı görüblər.[403]
Qaralandı bir zaman yaxşıların adları, [404]
Qaralıbdı, qarsıxıb, ocaqları, odları.[405]
Əbəs yerə çoxları çıxarılıb aradan,[406]
Bircə anın içində götürülüb sıradan.[407]
Mərd igidin yerində, namərdlər hökm eyləyib,[408]
Nanəciblər, naqislər, xoryadlar hökm eyləyib.[409]
Bülbüllərin yerində koryapalaq ulayıb,[410]
Şiri-nərlər yerində, tula quyruq bulayıb.[411]

---

[395] Hər yetirən daş atıb, budağını qırdılar.
[396] 1)Meyvəsini dişləyib, yerdən-yerə vurdular. 2) Meyvəsini dadmayıb, yerdən-yerə vurdular.
[397] Bezikdirib, incidib gör necə də yordular.
[398] Yaxşıların yerləri zaman-zaman boş qalıb.
[399] Xəyalları dolaşıb, gör necə də çaş qalıb?
[400] Azğınlaşan harınlar, kalanlar cövlan edib.
[401] Dələduzlar, hiyləgər, hərcür qumarbaşılar.
[402] Kef eyləyib dünyada, cah-calalı görüblər.
[403] 1) Sağa-sola at sürüb, xoş əhvalı gördülər. 2) Aralığı qataraq qeylü-qalı görüblər.
[404] 1) İtib-batıb nəqədər, igidlərin adları? 2) İtib-batıb arada, çox igidin adları.
3) Üzə çıxdı çəkildi, naşıların adları.
[405] Sönüb yanan çırağı, alovlanan odları.
[406] Əfsuslar ki, nəqədər, çıxarıldı aradan.
[407] 1) Qərəz ilə, qəsd ilə götürüldü sıradan. 2) İtirilib dəstədən, götürülüb sıradan.
[408] Yerlərini əl-aman, pislər gəlib tutdular.
[409] Bədniyyətlər, xəbislər, nəslər gəlib tutdular.
[410] Bülbüllərin yerində koryapalaq uladı.
[411] Şiri-nərin yerində, tula quyruq buladı.

Tərlanların yerini gör nəqədər sar alıb?[412]
Gül-çiçəkli bağları, xəzan vurub, xar alıb.[413]
Zaman keçdi gördülər, sitəm olub bəşərə,[414]
Zülm ərşə dirənib, nalə çıxıb mənşərə.[415]
Yaxşılara pis demək ahı-nalə gətirdi,
Yer üzünə, həyata min bir bəla gətirdi.
Həyatdakı çətinlik o səbəbdən törədi,
O səbəbdən boy atdı, o səbəbdən cücərdi.
Yaxşılarsız dünyada divanələr çoxaldı,
Sərsərilər, laqeyid, biganələr çoxaldı.
Yer üzündə həyatın kəm-kəsiri çoxaldı,
Yelbeyini çoxaldı, dəngəsəri çoxaldı.
Yaxşılarsız həyatın cövhəri itib gedir,
Ünsiyyətin, ülfətin mehvəri itib gedir.
Daha gəlmir nədənsə yaxşıların sədası, [416]
Eşidilmir diləyi, eşidilmir sevdası.[417]
Bəşər görür axırda dolanmayır yaxşısız,[418]
Cücərənmir, bitənmir, sulanmayır yaxşısız.[419]
Yaxşılarsız dünyanı səfalətlər bürüyür,
Baş qaldırır yerbəyer, cəhalətlər bürüyür.
Qəsd-qərəzlər çoxalır, ədavətlər çoxalır,
Satqınlıqlar çoxalır, xəyanətlər çoxalır.
İnsaf-mürvət azalır, kəramətlər azalır,
Etibarlar, ilqarlar, sədaqətlər azalır.
Xətir-hörmət tükənir, səxavətlər puç olur,
Ədəb-ərkan gözlənmir, nəzakətlər puç olur.
Ən müqəddəs, ən ali, hərəkətlər azalır,
Nazı-nemət tükənir, bərəkətlər azalır.
Gəl qardaşım, ay bacım yaxşıları saxlayaq,
Məqamında vaxtında, araşdırıb yoxlayaq.
Yaxşıları pislərdən, xilas edib qoruyaq,

---

[412] Tərlanların yerini tez-tələsik sar aldı.
[413] Gülüstanın üstünü, gör nəqədər xar alıb?
[414] 1) Zaman keçdi bildilər, zülm olubdur bəşərə. 2) Sondan-sona bilindi qəsd olunub bəşərə.
[415] 1) Zəhərləndi ab-hava, korlanıbdır mənzərə 2) Abı-hava korlanıb, dəyişibdi mənzərə.
[416] Tarixlərdən gəlibdir, yaxşıların sədası.
[417] Həzin-həzin dinləndi, eşidildi sevdası.
[418] Bəşər görür axırda, yaxşılarsız dolanmır.
[419] Becərilib, bəslənib, nə vaxtında sulanmır.

Onları məhv olmağa, bircə anda qoymayaq.
Yaxşılarsız yaşamaq müsibətdi dünyada,
Cəhənnəmin əzabı, qiyamətdi dünyada.
Qoy yaşasın yaxşılar birdəfəlik getməsin,
Yaddaşlardan silinib, gözümüzdən itməsin.
Bu bəşərin yükünü, öz çiynində daşıyır,
Onlar ölüb getsədə, zaman-zaman yaşayır, [420]
Qiymətli fikirləri, sözü bizlə yaşayır.
Məzarlara gömsədə, əbədilik çürümür,
Heç bir zaman susmayır, birdəfəlik kirimir.
O səbəbdən deyirlər yaxşıya rəhmət olsun,[421]
Bu ünvana, bu ada daima hörmət olsun,
Zalımlara, qəddara, pislərə töhmət olsun.

Milyon ildi bəşərə, fayda verdi yaxşılar,
Səliqə-sahman verib, qayda verdi yaxşılar.
Əfsuslar ki, bəzən də yaddan çıxıb gedirlər,
Yaşadığı zamanda dəbdən düşüb gedirlər.
Xidmətinə darılıb, gözdən yaman salınır,
Çıxarılıb yolundan, izdən yaman salınır.
Yaxşılara bağlıdır, bu dünyanın ziynəti,
Hər mənası-məzmunu, məziyyəti, qiyməti.

Zaman gəlir, vaxt keçir, yaxşı tapır yerini, [422]
Alim tutur yerini, naşı tapır yerini. [423]
Tanıyırlar hərkəsin xeyirini, şərini,
Bəşər üçün verdiyi incisini, zərini.
Hörmət olur hərkəsin öz adına, sanına,[424]
Sərraf çıxır meydana, qiymət qoyur kanına.[425]
Üzə çıxdı gec-tezi yaxşıların sədası,
Möhübləri düzüldü, hökm edildi nidası.
Çox ölənlər dirilir, çox dirilən ölürlər,

[420] 1) Onlar ölüb getsə də, qalanlarla yaşayır. 2) Onlar ölüb getsə də özü bizlə yaşayır.
[421] Yaxşılara deyirlər, əbədi rəhmət olsun.
[422] Gəlir dövrü-zəmanə yaxşı tapır yerini,
[423] Alim tutur yerini, naşı tutur yerini,
[424] Hörmət oldu hərkəsin ünvanına, özünə.
[425] 1) Qiymət düzgün qoyulur gövhərinə, kanına. 2) Göz qoyuldu hərkəsin yolağına izinə.

Çox gülənlər ağlayır, çox ağlayan gülürlər.
Fürsət ələ keçəndə yaxşı çıxır yerinə,[426]
Təzim olur hər yerdə, ləyaqətin zərinə.[427]
Pisin oğlu pislərdən, xalqın canı qurtarır,
Nalələri, fəryadı, ah-amanı qurtarır.[428]

Nə deyəsən zamana, belə qurub qurğunu?
Dərdi-qəmi az çəkin, olma fikir yorğunu.[429]
Dözməliyik həyatda yaxşı-pisin cənginə,
Yaşamağı bacarıb, qalmalıyıq son günə.
Nəyaxşıki, yaxşılar birdəfələk getməyir,
Yaddan çıxıb biryolluq, el gözündən itməyir. [430]

***Cəmil Əkbər*** 10. 08 -1986

## 249. PİSDƏN QALIB

***(Ş i k a y ə t n a m ə)***

Deyirlərki bəşərə qəmi verən pis olub,
Əyər-əksik nə varsa, kəmi verən pis olub.[431]
Əsəbləri korlayan, al-qanları qaraldan,[432]
İnsanları bezdirən, gen dünyanı daraldan.[433]
İnsanlığa qəsd edən, canilər onlar olub,[434]
Ömürləri gödəldən, fanilər onlar olub.[435]
Doüru fikri tərsinə yozan da onlar olub,[436]
Yol-izini çaşan da, azan da onlar olub.[437]
Ünsiyyəti-ülfəti pozan da onlar olub.
Ayaqların altından qazan da onlar olub.
Deyirlərki yezit də dərsini ondan alıb,[438]

---

[426] Zaman gəlir, vaxt ötür, yaxşı çıxır yerinə.
[427] Qiymət qoyur hərkəsin, mətahına, zərinə.
[428] Nəsin oğlu nəslərdən, xalqın canı qurtardı.
[429] Dərdi-qəmi çəkməkdən oldum fikir yorğunu.
[430] Yaddan çıxıb biryolluq, gözümüzdən itməyir.
[431] 1) Əksikliyi gətirən, kəmi verən pis olub. 2) Əyər-əksik gətirən, kəmi verən pis olub.
[432] Əsəbləri korlayan, qanımızı qaraldan.
[433] Qaşlara düyün vuran, yanaqlar ı saraldan.
[434] 1) El-obaya qəsd edən, canilər də pis olub. 2) Ömürboyu qəsd edən, canilər pislər olub.
[435] 2) Ömürləri gödəldən fanilər də pis olub. 3) Ömürləri gödəldən fanilər, pislər olub.
[436] 1) Düz fikiri tərsinə yozan da onlar olub. 2) Əzəl gündən, binadan ünsiyyəti pozanlar.
[437] 1) Düzlərə əyri deyən, tərsəməssəb yozanlar. 2) Yollarını çaşan da, azan da onlar olub.

Qəzəbini, hiddəti, hirsini ondan alıb. [439]
Koryapalaq, bayquş da, niyyəti ondan alıb, [440]
Pis adəti, vərdişi, tinyəti ondan alıb.[441]
Əfilər də, əqrəb də götürübdü zəhəri,
Bu gərəksiz mətahı, bu yaramaz bəhəri.
Viran edib kəndləri, dağıdıblar şəhəri,
Gətirib yer üzünə fəlakəti, qəhəri.[442]
Xəyanət də onlardan miras qalıb bəşərə,[443]
Bəd misralar, qafiyə, cinas da ondan qalıb.[444]
Bədxah işlər, əməllər, sənətidir onların,[445]
Peşəsidir onların, adətidir onların.[446]
Kef-damağı, nəşəsi, ləzzətidir onların,
Zəhmətidir onların, xidmətidir onların.
Sinələri dağlamaq niyyətidir onların,[447]
Bəzəyidir onların, zinətidir onların. [448]
Deyirlərki canavar o nəsildən törəyib,[449]
Cəddavası, babası, o əsildən törəyib. [450]
İfritələr, iblislər, peydah olub onlardan,
Alaqarğa, saxsağan, “şeyda” olub onlardan.
Yırtıcılar, vəhşilər, vərdişi ondan alıb,
Sürdükləri dövranı, gərdişi ondan alıb. [451]
Deyirlərki həşarət, zəlilər ondan olub, [452]

---

[438] Deyirlərki yezit də dərsin alıb onlardan.
[439] Acıq-qıcıq, intiqam hirsin alıb onlardan.
[440] Kor yapalaq, bayquşa, niyyəti də o verib.
[441] Pis adəti, vərdişi, tinyəti də o verib.
[442] Gətirib yer üzünə müsibəti, qəhəri.
[443] Xəyanət də deyirlər, miras qalıb onlardan.
[444] Xaric misra, qafiyə, cinas qalıb onlardan.
[445] 1) Deyirlərki şər işlər sənətidir mənfurun, 2) Bədxah əməl, şər işlər sənətidir onların,
[446] 1) Hər naxışı, bəzəyi, zinyətidir mənfurun. 2) Naxışları, bəzəyi, zinyətidir onların.
[447] Sinələri dağlamaq peşəsidir məlunun.
[448] Kef-damağı, ləzzəti, nəşəsidir məlunun.
[449] Canavar da deyirlər, o nəsildən törəyib.
[450] O köklərdən boy atıb, o əsildən törəyib.
[451] Dövranı ondan alıb, gərdişi ondan alıb.
[452] Deyirlərki qan soran zəli də ondan olub.

Sərsərilər, gicbəsər, dəlilər ondan olub.[453]
Kətəyən də, ulğun da, o nəsildən törəyib, [454]
Söyüd ilə qarğan da o əsildən törəyib. [455]
Bəhrəsizlər, barsızlar, rişəni ondan alıb,
Hüceyrəni, nüvəni, qişanı ondan alıb. [456]
Kol-koslar da, qanqal da, böyrtkan da, tikan da,
Vurub-yıxıb, uçuran, dağıdan da, sökən də,
Avamlıq da, səylik də, deyirlər ondan qalıb,
Biganəlik, keylik də, deyirlər ondan qalıb.
Xəsislik də göylük də, deyirlər ondan qalıb,
Ah-amanlar, nalələr, fəryadlar ondan qalıb.[457]
Nanəciblər, naxələf, xoryadlar ondan qalıb,
Tərbiyədən yarımçıq dadanlar ondan qalıb.
Addımını tərsinə adanlar ondan qalıb,
Haqq-sayı sümürüb udanlar ondan qalıb.
Deyirlərki nadanlıq, cəhalət pisdən qalıb,[458]
Kin-küdurət, ədavət, qəbahət pisdən qalıb. [459]
İnilti ondan qalıb, sızıltı ondan qalıb,
Ağrılar ondan qalıb, gizilti ondan qalıb.
Bu bəşər övladının zilləti ondan qalıb,
Hər ağrısı, acısı hilləti ondan qalıb.
Ondan qalıb nalələr, ondan qalıb fəryadlar,
Ondan qalıb nanəcib, ondan qalıb xoryadlar.
Yer üzündə salınan davalar ondan qalıb,
Zəhərlərə qarışan, havalar ondan qalıb.
Kəramətsiz, mürvətsiz, hörmətsiz ondan qalıb,
İşə-gücə yaramaz, cürətsiz ondan qalıb.
Deyirlərki həyatda çirkinlik ondan qalıb,

[453] Sərsərilər, gicbəsər, dəli də ondan olub.
[454] Kətəyən də, ulğun da, o pisilərdən törəyib.
[455] 1) Söyüd ilə ceyil də, o əsildən törəyib, 2) Söyüd ilə qarğan, bu cinslərdən törəyib.
[456] 1) Özəyi ondan alıb, qişanı ondan alıb. 2) Həm qanını, genini, qişanı ondan alıb.
[457] Nalələr ondan qalıb, fəryadlar ondan qalıb.
[458] Baş qaldırıb ədavət, pislərdən nəşət alıb.
[459] Qəbahət də boy atıb, nəslərdən nəşət alıb.

Ədəbazlıq, lovğalıq, xudbinlik ondan qalıb.
Yer üzündə qəm-kədər, qəmginlik ondan qalıb,
Biçarəlik, məyyusluq, bədbinlik ondan qalıb.
Dağıdanlar, talayan, sökənlər ondan qalıb,
Sinələrə dağ-düyün çəkənlər ondan qalıb.
Yola, izə qanqallar, əkənlər ondan qalıb,
İnsanlara dərd-azar verənlər ondan qalıb.
Ona-buna çəmkirən, hürənlər ondan qalıb,
Al-yanağı saraldan, solduran ondan qalıb.
Mərd igidi vədəsiz, öldürən ondan qalıb,
El varını xidmətsiz yeyənlər onlar olub.
Toxumamış, tikməmiş geyənlər onlar olub,
Deyirlərki al-qanı qaraldan onlar olub.
Gül yanağı vədəsiz saraldan onlar olub,
Bu həyatda quzğunluq, pozğunluq ondan qalıb.
Abırsızlıq, həyasız, azğınlıq ondan qalıb,
Yer üzündə nə varsa, pis adət ondan qalıb,
Müsibət ondan qalıb, fəlakət ondan qalıb.
Daha bəsdir ayılaq başa salaq pisləri,
Qoşaq kəlin yerinə, işə salaq pisləri.
Əlbir olub birləşək, islah edək onları,
İslah edək yerbəyer, qoy qalmasın sonları.
Qardaş, gəlin onları sıramızdan qoparaq,
Avamlıqdan çıxarıb, ləyaqətə aparaq.
Cərgəmizdə qalmasın bir nəfər də pis belə,
Bircə nəfər qalmasın, höcət-inad, tərs belə.
Gəlin verək əl-ələ, kəsək beylə bəlanı,
Tarlamızda qalmasın bir də beylə alanı.
Birdəfəlik yox edək, ahuzarı, naləni,
Bezdirib incitməsin, ölənləri, qalanı.
Kəsək belə qovğanı, kəsək belə qalı biz,
Nə eşidək, nə görək, buminvalı, halı biz.

***Cəmil Əkbər*** 31. 12 – 1985

## 250. ÇOX İMİŞ!

Bu dünyanın nəşəsindən kefindən,
Qəm-qüssəsi, dərd-azarı çox imiş!
Qazancından, gəlirindən, nəfindən,
Viranəsi, tarimarı çox imiş!

Bu dünyanın şəkərindən, balından,
Dövlətindən, sərvətindən, malından,
Dəymişindən, lalığından, kalından,
Zəqqutunu, zəhrimarı çox imiş!

Fikir, dərd çəkməkdən düşmüşəm haldan,
Doymuşam qovğadan, doymuşam qaldan,
Görmək istədiyin nurlu vüsaldan,
Həsrət dolu intizarı çox imiş!

Könül sarayımın günlü-günündən,
Dumanlı günündən, çənli günündən,
Səs-küylü günündən, ünlü günündən,
Sən deməynən boran-qarı çox imiş!

Dönük imiş məxluqatın üzləri,
Düz gəlmirmiş əməliylə sözləri,
Dolaşıqdır yolaqları, izləri,
Etibarsız, beh-bazarı çox imiş!

Öz-özünü öyə-öyə gedənin,
Sinəsinə döyə-döyə gedənin,
Haqq yolunu əyə-əyə gedənin,
Dərdi-qəmi, ahu-zarı çox imiş!

***Cəmil Əkbər***

## 251. SADİQ QALMALIYIQ CƏMİYYƏTƏ

*I variant*

Bu dünya nəqədər davalar görüb?
Barıtlı, tüstülü havalar görüb.
Dağalıb, talanıb yurdlar, yuvalar,
Matəmə qarışıb ellər, obalar,
Viranə çevrilib şəhərlər, kəndlər,

Yerləri, göyləri bürüyüb dərdlər.
Nəqədər ağrılar, acılar olub?
Qəm çəkən qardaşlar, bacılar olub.
Nəqədər zülm olub müdrik bəşərə?
Salınıb zindana, düşüb məhşərə.
Nəqədər qapılar, baca bağlanıb?
Əsəblər korlanıb, sinə dağılıb.
Nəqədər aralıq qatılıb gedib?
Vicdanlar, məsləklər satılıb gedib.
Verilib hökmlər, kəsilib başlar,
Tutulub qabaqlar, çatılıb qaşlar.
Sədaqət, səxavət pozulub gedib,
Düz fikir tərsinə yozulub gedib.
Üzüb ürəkləri fəryad, nalələr,
Qarışıb zəhərə mey-piyalələr.
Nəqədər dözüblər məşəqqətlərə?
Əzab, işgəncəyə, əziyyətlərə.
Aclıq, susuzluğa, səfalətlərə,
Qorxunc fəlakətə, rəzalətlərə.
Dözüblər yay-oxu, dar ağacına,
Gərməşöv çubuğu, nar ağacına.
Davalar saldıqca kəmalı-kəmlər,
Veriblər bəşərə dərdlər, ələmlər.
Dözüblər qərəzə, qisasa, qəsdə,
Gözlər yolda qalıb, qulaqlar səsdə.
Nəqədər bəxtinə qaralar deyib?
Tapmayıb dərdinə çarələr deyib.
Gah üzü danlandı, gah ləyaqəti,
Gah haqqı tapdandı, gah şəxsiyyəti.
Gah qolu kəsilib, gah ayaqları,
Gah ulduzu sönüb, gah mayaqları.
Gah qanı qaralıb, gah əsəbləri,
Gah özü tutulub, gah mənsəbləri.
Gah malı soyuldu, gah da dərisi,
Odlara atıldı könül pərisi.
Vuruldu nəqədər, vurdu nəqədər?
Qırıldı nəqədər, qırdı nəqədər?
Əzildi nəqədər, əzdi nəqədər?
Bezdirdi nəqədər, bezdi nəqədər?

Bu nə qısqa-boğma, nə sıxha-sıxdır?
Nə uçurha-uçur, nə yıxha-yıxdır?
Bu nə asha-asdır, nə kəsha-kəsdir?
Nə incitha-incit, nə küsha-küsdür?
Bu necə dərrakə, necə kamaldır?
Necə əqidədir, necə amaldır?

Bu necə istəkdir, necə diləkdir?
Bu nə cür arzudur, necə ürəkdir?
Bu necə insafdır, necə mürvətdir?
Necə möhüb düzmək, necə hörmətdir?
Necə ünsiyyətdir, necə ülfətdir?
Necə hərəkətdir, necə sifətdir?
Bu necə can vermək, necə ölməkdir?
Necə nəşələnmək, necə gülməkdir?
Bu nə həngamədir, nə qiyamətdir?
Necə dönüklükdür, nə xəyanətdir?
Bu necə cəfadır, necə cəbrdir?
Necə iradədir, necə səbrdir?
Nədir bu cinayət, nədir bu xəta?
Fəlakət gətirir ömrə, həyata,
Nədir bu dərd-bəla, bu aman, bu ah?
Nədir bu qəbahət, nədir bu günah?
Nədir bu nalələr, nədir bu fəqan?
Niyə qan ağlasın, bu gözəl cahan?
Niyə könülləri didsin qəm-kədər?
Ömrümüz-günümüz ötüşsün hədər?
Üz-üzə durduqca xeyr ilə şər,
De nələr görməyib bu yazıq bəşər?
Belə qayğı olmaz, kömək də olmaz,
Belə zəhmət çəkmək, əmək də olmaz.
Belə nəşə olmaz, kef-damaq olmaz,
Belə çalhaçala oynamq olmaz.
Nəyə lazım imiş bu kəc baxışlar?
Uçurumlu eniş, bu sərt yoxuşlar?
Nəüçün yol olsun bədəməllərə?
Böhtana, yalana, fitnə-fellərə?
Bədəməl törədən görmürmü pis gün?
Onlar da olmurmu taledən küsgün?

Kimlərə nə verib bu toqquşmalar?
Bu döyüş meydanı, bu vuruşmalar?
Kimlərə nə verdi qanlı cəbhələr?
Amansız həmlələr, hərbə-zərbələr?
Nəüçün lazımdır həyəcan, təlaş?
Gözlərdən tökülən axan qanlıyaş?
Kimə nə veribdir, bu qəzəb, hiddət?
Ağırlıq, gərginlik, çətinlik, şiddət?
Davalarda ərşə çıxdı sədaqət,
İtdi, batdı aralıqda ədalət.
Nədir diləyiniz, nədir ağalar?
Nədir məqsədiniz, nədir cənablar?
Bu bəşər yenəmi davalar görsün?
Zəhərə qarışmış havalar görsün?
Yenəmi talansın yurdlar, yuvalar?
Matəmə qərq olsun ellər, obalar?
Qırılıb məhv olsun aləmi-bəşər?
Yayılsın həryana bu qara xəbər?
Yenəmi dərd-azar, qəhərlər gərək?
Viranə çevrilən şəhərlər gərək?
Yenəmi tutulsun qabaqlar, qaşlar?
Vurulsun boyunlar, kəsilsin başlar?
Yüksəlsin göylərə ahlar, amanlar?
Göyləri bürüsün qara dumanlar?[460]
Yenəmi amansız cəbhələr gərək?
Hücumlar, həmlələr, zərbələr gərək?
Yenəmi tökülsün qanlar, qadalar?
Bürüsün həryanı qara sədalar?
Yenəmi ağalar davalar olsun?
Atasız, anasız balalar olsun?
Analar ayrılsın, əziz yarından?
Sevgi-məhəbbətin ilk nübarından?
Yenəmi hər yerdə yetimlik gərək?
Düşüb məşəqqətə çətinlik gərək?
Vətəndən ayrılıb qürbətə düşək?

[460] Çökübdü həryana qara dumanlar.

Həsrət girdabına, zülmətə düşək?
Yenəmi qırılıb, tökülsün bəşər?
Düşüb müsibətə, çəksin dərdi-sər?
Yenəmi çoxalsın topallar, şillər?
Günahsız məzlumlar, şikəst əlillər?
Yenəmi çoxalsın aclıq səfalət?
Bürüsün həryanı dəhşət, fəlakət?
Partlasın bombalar, toplar, mərmilər?
Od-alov içində yansın zəmilər?
Yenəmi tökülsün, axsın qanımız?
İşgəncə içində çıxsın canımız?
Nədir diləyiniz, nədir cənablar?
Nədir məqsədiniz, nədir ağalar?
Nifrət olsun aralığı qatana!
Qan tökməklə məqsədinə çatana!
Bizə lazım deyil ölkələr almaq,
Ülfət-ünsiyyətə ləkələr salmaq.
Bizə lazım deyil qapı bağlamaq,
Əsəblər korlamaq, sinə dağlamaq.
Raket vahiməsi, qumbara səsi,
Bomba gurultusu, topun nərəsi.
Qovrulmuş, qarsıxmış barıt qoxusu,
Kütləvi qırğınlar, ölüm qorxusu.
Görmək istəmirik məşəqqətləri,
Amansız dəhşəti, zəlalətləri.
Sinələr kədərlə, qəm ilə dolsun,
Gül kimi yanaqlar saralıb solsun.
Bizki istəmirik səfalətləri?
Nadanlıq, avamlıq, cəhalətləri?
Gözyaşı tökülüb car olub getsin,
Gen dünya başlara dar olub getsin.
Bizki istəmirik atılsın güllə?
Adi insana da dəysin bir şillə.
Bizim andımız var sülhə, zəhmətə,
Bəşəri yaşadan əbədiyyətə,
Bizki istəyirik ellər bir olsun,
Ölkələr, obalar həmfikir olsun.

Biz şüar etmişik beynəlmiləli, [461]
Nədir məchul qalan, nədir şübhəli?
Bizki istəyirik səadət olsun,
Hərkəsdən hamıya səxavət olsun.
Yaşayaq, yaradaq, quraq mehriban,
Ömür-günü başa vuraq mehriban.
Bizdən ibrət alsın gələn nəsillər,
Keçən qərinələr, gələn fəsillər.
Bizdən inciməsin övladı-bəşər,
Heçkəsdən heçkimə dəyməsin xətər.
Bu bəşər övladı unutmur haqqı,
Doğrunu, düzgünü, nə də nahaqqı.
Yaxşıya ehtiram, rəhmətlər deyir,
Pisə nifrət edir, lənətlər deyir.
Eşitsin, düşünsün evlər yıxanlar,
Qanları qaraldıb, ürəksıxanlar.
Tikdiyi xaniman söküləcəkdir,
Yerlə-yeksan olub töküləcəkdir.
Bilsinki dünyadan köç edən zaman,
Ellər deyəcəkdir, gəbərdi heyvan!
Daha bəs deyilmi dava-dalaşlar?
Çəkişmə, didişmə, yersiz vuruşlar?
Görəsən bəşərin nə günahı var?
Nədən umacağı, nə tamahı var?
Niyə yol verilsin hərisliklərə?
Azğınlıq, pozğunluq, xəbisliklərə?
Niyə yol verilsin avamlıqlara?
Vəhşilik, cahillik, nadanlıqlara?
Niyə yol verilsin fitnə-fellərə?
Bəd fikir, bəd xəyal, bədəməllərə?
Niyə yol verilsin başıboşlara?
Vicdanıkəmlərə, qəlbidaşlara?
Qaniçən cəllada, davakarlara?
Qatilə, quldura, ziyankarlara?
Dünya dağılmazki dava olmasa?
Zəhərə qarışan hava olmasa?

---

[461] Biz məqsəd qoymuşuq beynəlmiləli.

Gərək şən dünyamız viran edilsin?
Dağılıb yerlərə-yeksan edilsin?
Gərək qazancımız odlara düşsün?
Dağılıb, talanıb yadlara düşsün?
Gərək ömürboyu intizar çəkək?
İnləyib, sızlayıb ahuzar çəkək?
Nədir məqsədiniz, nədir ağalar?
Nədir istəyiniz, nədir cənablar?
Gəlin bu bəşəri bezdirməyin siz,
Salıb əziyyətə dözdürməyin siz.

Heçkəs bənzətməsin özünü şirə,
Təsir bərabərdir əks-təsirə.
Buynuzsuz qoçun da, buynuzlu qoçda,
Qisası qalmamış, heç bərkdə-boşda.
Əbəsdir nahaqdan evlər yıxmayın,
Əsəblər korlayıb, ürək sıxmayın.
Nahaqdan kim töksə gözyaşlarını?
Sansınki kəsirlər öz başlarını.
Tökülən gözyaşı axıdar onu,
Vurub qayalara dağıdar onu.
Çox qantökənlərin, tökülüb qanı,
Alınıb əlindən şöhrəti, şanı.
Başkəsən cəlladlar özü can verib,
Qansoran zəlilər özü qan verib.
Çox evlər yıxanın yıxıldı evi,
Sarsıldı dövranı, pozuldu dəbi.
Çatmadı haraya nə tacı-taxtı,
Nəqədər yollara boylandı baxdı?
Ağalar tarixi varaqlayın siz,
Axtarıb-arayıb, soraqlayın siz.
Hanı topal Teymur, hanı İsgəndər?
Nifrətlə yad olub, dillərdə əzbər.
Napoleon, Hitleri yada salın siz,
Keçmişin dərsindən ibrət alın siz.
Gəlin ibrət alın tarixinizdən,
Sonra inciməyin taleyinizdən.
İbrət almayanlar xəcalət olur,

Səadət yerində zəlalət olur.
"Dünya gör-götürdür", atalar deyib,
Görüb-götürməyən hədərə gedib.
Qovuşmaq istəsək səadətə biz,
Sadiq olmalıyıq cəmiyyətə biz.

***Cəmil Əkbər***

## 252. SADİQ QALMALIYIQ CƏMİYYƏTƏ

*II variant*

### I BÖLÜM: *YER ÜZÜ NƏLƏR GÖRÜB?*

Yer üzü nəqədər davalar görüb?
Zəhərə qarışmış havalar görüb?
Dağalıb, talanıb yurdlar, yuvalar,
Matəmə qarışıb ellər-obalar.
Viranə çevrilib kəndlər, şəhərlər,
Aləmə sığmayıb dərdlər, ələmlər.
Nəqədər qapılar, baca bağlanıb?
Əsəblər korlanıb, sinə dağılıb?
Vurulub aralıq qatılıb gedib?
Tutulub qabaqlar, çatılıb qaşlar,
Verilib hökmlər, kəsilib başlar.
Nəqədər ülfətlər pozulub gedib?
Doğrular tərsinə yozulub gedib.
Nəqədər dözülüb məşəqqətlərə?
Zülmə, iztiraba, əziyyətlərə?
Nəqədər bəxtinə qaralar deyib?
Tapmayıb dərdinə çaralar deyib?
Ağrılar baş verib, acılar olub,
Dərd çəkən qardaşlar, bacılar olub.
Yüksəlib göylərə ahlar, amanlar,
Bürüyüb günəşi qara dumanlar.
Nəqədər dözülüb səfalətlərə?
Avamlıq, nadanlıq, cəhalətlərə?
Dözülüb yay-oxu, dar ağacına,
Gərməşöv çubuğu, nar ağacına.
Qisas, intiqama, qərəzə, qəsdə,

Gözlər yolda qalıb, qulaqlar səsdə.
Uçurumlu enişlər, bu sərt yoxuşlar?
Gah haqqı tapdanıb, gah ləyaqəti.
Korlanıb əsəbi, qaralıb qanı,
Əzilib, tapdanıb, üzülüb canı.
Gah malı soyulub, gah da dərisi,
Odlara atılıb könül pərisi.
Çəkilib, tükənib, payı, sovqatı,
Darıxıb, azalıb, səbri, ovqatı.
Nəqədər zülm olub yazıq bəşərə?
Salınıb zindana, düşüb məhşərə.
Üz-üzə durduqca xeyr ilə şər,
De nələr görmədi bu yazıq bəşər?

**II BÖLÜM: *NƏÜÇÜN?***

Nəüçün elləri bürüsün təlaş?
Gözlərdən tökülən axan qanlıyaş?
Pozulub məhv olsun, rahatlıq, dinclik,
Bəşərə zülm etsin, avamlıq, ginclik.
İnsana verilsin ən ağır cəza,
Zülmətə qarışsın bu açıq fəza?
Kimə nə veribdi, qanlı cəbhələr?
Amansız hücumlar, hərbə-zərbələr?
Kimə nə veribdir, bu kəc baxışlar?
Uçurumlu  eniş, bu sərt yoxuşlar.
De kimə lazımdı bu toqquşmalar?
Bu döyüş meydanı, bu vuruşmalar?
Bəşərə qəsd etmək, qanlı döyüşlər?
Bədxah danışıqlar, bədnam söyüşlər?
Niyə yol verilsin bədəməllərə?
Böhtana, yalana, fitnə-fellərə?
Bədəməl törədən görmürmü pis gün?
Onlar da taledən olmurmu küsgün?
Bu nə həngamədir, nə qiyamətdir?
Necə dönüklükdür, nə xəyanətdir?
Bu nə qısqa-boğma, nə sıxha-sıxdır?
Nə uçurha-uçur, nə yıxha-yıxdır?
Bu nə asha-asdır, nə kəsha-kəsdir?
Nə incitha-incit, nə küsha-küsdür?

Nədir bu dərd-bəla, bu aman, bu ah?
Nədir bu qəbahət, nədir bu günah?
Nədir bu nalələr, nədir bu fəqan?
Niyə qan ağlasın, bu gözəl cahan?
Bu necə dərrakə, necə kamaldır?
Necə əqidədir, necə amaldır?
Bu necə ünsiyyət, necə ülfətdir?
Necə üz göstərmək, necə sifətdir?
Belə qayğı olmaz, kömək də olmaz,
Belə zəhmət çəkmək, əmək də olmaz.
Belə nəşə olmaz, kef-damaq olmaz,
Belə çalhaçala oynamq olmaz.
Nədir bu cinayət, nədir bu xəta?
Bununla yetişən, nədir isbata?

**III BÖLÜM *ÇOX GÖRÜBLƏR***

Çox görüblər davaların dadını,
Yanğısını, alovunu, odunu.
Törədilən cinayəti, xətanı,
İtirilən neçə-neçə atanı.
İtirilən bacıları, qardaşı,
Həmkarları, həmdəmləri, yoldaşı.
Neçə-neçə dayıları, əmini,
Çox çəkmişik, həsrətini, qəmini.
İtirilib neçə igid oğullar,
Şərbət kimi, şəkər kimi noğullar.
Neçəsinin şilküt olub qolları?
Neçəsinin bağlanıbdı yolları?
İtirilib səadət də, dinclik də,
Nakam qalan təravətli gənclik də.
Qəhəd oldu insanlarda kəramət,
Mehribanlıq, xeyirxahlıq, mərhəmət.
Ev uçurdu qasırğalar, küləklər,
Daşa dəydi neçə arzu diləklər.
Neçə qapı, neçə baca bağlandı?
Neçə ürək, neçə sinə dağlandı?
Üzdü ürəkləri dərdlər, ələmlər,
Davadan pay umdu əqili-kəmlər.

### IV BÖLÜM *BƏS DÖYMÜ?*

Bəsdöymü cənablar, dava-dalaşlar?
Çəkişmə, didişmə, yersiz vuruşlar?
Görəsən bəşərin nə günahı var?
Nədən umacağı, nə tamahı var?
Davaya, dalaşa nədir ehtiyac?
Həyəcan, təlaşa nədir ehtiyac?
Niyə yol verilsin hərisliklərə?
Azğınlıq, pozğunluq, xəbisliklərə?
Niyə yol verilsin nadanlıqlara?
Vəhşilik, cahillik, avamlıqlara?
Niyə yol verilsin fitnə-fellərə?
Bədxah fikirlərə, bəd əməllərə?
Gəlin yol verməyək qəlbidaşlara,
Vicdanıkəmlərə, başıboşlara.
Qaniçən cəllada, davakarlara,
Övladı-bəşərə, zülümkarlara.
Dünya dağılmaz ki, olmasa dava?
Qarışıb  zəhərlə dolmasa hava?
Dinclikdə yaşamaq bu xətadırmı?
Dağıtmaq, talamaq bir modadırmı?
Gərək şən dünyamız viran edilsin?
Dağılıb yerlərə yeksan edilsin?
Gərək qazancımız odlara düşsün?
Dağılıb, talanıb yadlara düşsün?
Gərək bu dünyada intizar çəkək?
İnləyib, sızlayaq, ahuzar çəkək?

### V BÖLÜM *YENƏMİ?*

Bu bəşər yenəmi davalar görsün?
Zəhərə qarışmış havalar görsün?
Yenəmi talansın yurdlar, yuvalar?
Matəmə qarışsın  ellər, obalar?
Yenəmi tutulsun qabaqlar, qaşlar?
Vurulsun boyunlar, kəsilsin başlar?
Yüksəlsin göylərə ahlar, amanlar?
Bürüsün səmanı qara dumanlar?
Yenəmi amansız cəbhələr gərək?
Hücumlar, həmlələr, zərbələr gərək?

Yenəmi tökülsün qanlar, qadalar?
Yayılsın həryana qara sədalar?
Yenəmi fəryadlar, nalələr olsun?
Atasız böyüyən balalar olsun?
Analar ayrılsın, tezcə yarından?
Sevgi-məhəbbətin ilk nübarından?

Yenəmi hər yerdə yetimlik görək?
Ehtiyac, səfalət, çətinlik görək?
Ayrılıb vətəndən, qürbətə düşək?
Həsrət qucağında, zülmətə düşək?
Yenəmi qırılıb, tökülsün bəşər?
Düşüb müsibətə, çəksin dərdi-sər?
Həryanda çoxalsın topallar, şillər?
Təqsirsiz, günahsız, şikəst zəlillər?
Yenəmi çoxalsın aclıq səfalət?
Bürüsün elləri dəhşət, fəlakət?
Partlasın bombalar, toplar, mərmilər?
Alovlar içində yansın zəmilər?
Yenəmi tökülsün, axsın qanımız?
Əzablar içində çıxsın canımız?
Bu necə cəfadır, necə cəbrdir?
Necə iradədir, necə səbrdir?
Bu necə tamahdır, necə hərislik?
Necə bədxahlıqdır, necə də pislik?
Nifrət insanları bezdirənlərə,
Əzab-iztiraba dözdürənlərə.
Kəmağıl, sarsağa, giclərə nifrət,
İnsanlıq naminə öclərə nifrət.
Buynuzsuz qoçun da, buynuzlu qoçda,
Qalmayıb qisası, nə bərkdə-boşda.
Heçkəs əbəs yerdən evlər yıxmasın,
Qanları qaraldıb, ürək sıxmasın.
Nahaqdan kim töksə göz yaşlarını?
Sansınki kəsirlər öz başlarını?
Tökülən gözyaşı axıdar onu,
Vurub qayalara dağıdar onu.
Çox qantökənlərin, tökülüb qanı,
Alınıb əlindən şöhrəti-şanı.

Başkəsən cəlladlar özü can verib,
Qansoran zəlilər özü qan verib.
Çox evləryıxanın yıxıldı evi,
Sarsıldı dövranı, pozuldu dəbi.
Silindi şərəfi, şöhrəti, şanı,
Qaldı dar məzarda çürüdü canı.

Çatmadı haraya nə tacı, taxtı,
Nəqədər yollara boylandı baxdı.
Düşünsün, anlasın evlər yıxanlar,
Əsəblər korlayıb ürək sıxanlar.
Qəflət yuxusunda yatıb qalmasın,
Düşüb günahlara batıb qalmasın.
Bu bəşər övladı unutmur haqqı,
Doğrunu, düzgünü nə də nahaqqı.[462]
Yaxşıya ehtiram, rəhmətlər deyir,
Pislərə min dəfə lənətlər deyir.
Biz də bu dünyadan köçedən zaman,
Ellər deməsin ki, gəbərdi heyvan!

**VI BÖLÜM *BİZƏ LAZIM DEYİL***

Bizə lazım deyil, dava-dalaşlar,
Vahimə, həyəcan, nə də təlaşlar.
Ölkələr zəbt etmək, qalalar almaq,
Ah-aman törətmək, nalələr salmaq.
Ev-eşik dağıtmaq, qapı bağlamaq,
Əsəblər korlamaq, sinə dağlamaq.
Bizə lazım deyil, güllənin səsi,
Bomba gurultusu, topun nərəsi.
Görmək istəmirik məşəqqətləri,
Aclıq, ehtiyacı, zəlalətləri.
Sinələr kədərlə, qəm ilə dolsun,
Gül kimi yanaqlar saralıb, solsun.
Gözlərin yaşları car olub getsin,
Gen dünya başlara dar olub getsin.
Biz ki, istəmirik atılsın güllə,
Adi insana da, dəysin bir şillə.

[462] Unutmur nə haqqı, nədə nahaqqı.

Bizim andımız var, səmimiyyətə,
Sülhə, səadətə, əbədiyyətə.
Biz şüar etmişik beynəlmiləli,
Nədir məchul qalan, nədir şübhəli?
Bizim istəyimiz qardaşlıqdı, bil!
Dostluq eyləməkdi, yoldaşlıqdı bil!
İstərdik hərzaman ellər bir olsun,
Həmrəylik eyləsin, həmfikir olsun.
Arzular, istəklər, dilək bir olsun,
Nəbizlər bir vursun, ürək bir olsun.
Ölkələr, obalar bərabər olsun,
Əsrlər illərlə sərasər olsun.
Yaşayaq, yaşadaq, yaradaq, quraq,
Sağlam niyyətlərlə oturub duraq.
Hərzaman, həryanda xoş həyat olsun,
Azadlıq, səadət, toy-büsat olsun.
Bizdən ibrət alsın gələn nəsillər,
Ötən qərinələr, keçən fəsillər.
Bu cahan mülkündə gözəllik olsun,
İncəlik, zəriflik, nəciblik olsun.
Bizdən inciməsin övladı-bəşər,
Heçkəsdən heç kimə dəyməsin xətər.

Gəlin bu dünyanı zəhərləməyək,
Kimsəyə dərd verib qəhərləməyək.
Qoymayaq ünsiyyət pozulub getsin,
Düz fikir tərsinə yozulub getsin.
Qoymayaq yaxşıya yaman deyilsin,
Nabələd, naşıya, qanan deyilsin.
Qoymayaq xainlər, xəbislər olsun,
Tamahkir, acgözlər, hərislər olsun.
Qoymayaq qanları zəlilər sorsun,
Əhli-keflər sorsun, dəlilər sorsun.
Qoymayaq nadanlar çəkilsin başa,
Çəkilsə zülm edər, qardaş-qardaşa.
Qoymayaq çoxalsın dərdlər, ələmlər,
Davaya yol versin kamalı-kəmlər,
Qoymayaq pozulsun saf ünsiyyətlər.
Sağlam düşüncələr, təmiz niyyətlər.

Qoymayaq heç zaman haqq, nahaq olsun,
Dünya qalmaqallı bir sayaq olsun.

### VII BÖLÜM *GƏLİN*

Gəlin avamlığa əlvida deyək!
Gəlin nadanlığa əlvida deyək!
Səadət əsridir, bizim əsrimiz,
Xoş-niyyət əsridir, bizim əsrimiz!
Düşməsin araya qal-qovğa, oyun,
Ey bəşər övladı, buna son qoyun.
Nədir diləyiniz, nədir ağalar?
Nədir kələyiniz, nədir ağalar?
Baxıb tarixləri vərəqləsinlər,
Axtarıb, arayıb soraqlasınlar.
Hanı tatar oğlu, hanı Çingiz xan?
Şərqin fatehləri, bir də Batı xan?
Hanı topal Teymur, hanı İsgəndər?
Nifrətlə yad olur, dillərdə əzbər.
Bəs Dara, Nadir şah, bəs hanı Neyron?
Gördüyü kef-damaq, sürdüyü dövran?
Məhv oldu Qacartək, qansız cəlladlar,
Şərəfsiz, şöhrətsiz, şansız cəlladlar.
Napoleon, Hitlerin axırı hanı?
Donuzdan sürüsü, naxırı hanı?
Ovutmaq olarmı, qoca tarixi?
O qanlı-qadalı beca, tarixi?
Gəlin ibrət alaq tarixinizdən,
Sonra inciməyək talehinizdən.
İbrət almayanlar xəcalət çəkir,
Düşüb müsibətə zəlalət çəkir.
Əzəli-axırı peşiman olur,
Özü də özünə bir düşmən olur.
“Dünya gör-götürdür”, atalar deyib,
Görüb-götürməyən hədərə gedib.
De nədir fikriniz, nədir cənablar?
De nədir zikriniz, nədir cənablar?

***Cəmil Əkbər***

## 253. SADİQ QALMALIYIQ CƏMİYYƏTƏ

*III variant*

Bu bəşər nəqədər davalar görüb?
Zəhərə qarışmış havalar görüb?
Viranə çevrilmiş, yuvalar görüb,
Matəmə qarışmış obalar görüb.
Dağılıb, talanıb şəhərlər, kəndlər,
Yerlərə, göylərə sığmayıb dərdlər.
İgidlər məhv olub, qapı bağlanıb,
Əsəblər korlanıb, sinə dağılıb.
Nəqədər aralıq qatılıb gedib?
Vicdanlar, məsləklər satılıb gedib?
Tutulub qabaqlar, çatılıb qaşlar,
Verilib hökmlər, kəsilib başlar.
Sədaqət, səxavət pozulub gedib,
Düz fikir tərsinə yozulub gedib.
Nəqədər bəxtinə qaralar deyib?
Tapmayıb dərdinə çaralar deyib?
Dünyada nəqədər acılar olub?
Dərd çəkən qardaşlar, bacılar olub.
Yüksəlib göylərə ahlar, nalələr,
Qarışıb zəhərə mey-piyalələr.
Nəqədər hicrana dözübdü millət?
Çəkiblər müsibət, görüblər zillət.
Sinələr gəribdir məşəqqətlərə,
Zülümə, zillətə, əziyyətlərə.
Hərcür bədəmələ, bədniyyətlərə,
Aclıq, susuzluğa, səfalətlərə,
Ehtiyac, fəlakət, rəzalətlərə.
Gah üzü danlanıb, gah şəxsiyyəti,
Gördü hərcür cəza, hər əziyyəti.
Dözdülər zülümə, qərəzə-qəsdə,
Gözlər yolda qaldı, qulaqlar səsdə.
Gördülər əzabı, hər iztirabı,
Gah şişi yanıbdı, gah da kababı.
Gah üzü danlandı, gah şəxsiyyəti,
Gah haqqı tapdandı, gah ləyaqəti.
Gah əli kəsildi, gah ayaqları,

Gah ulduzu söndü, gah mayaqları.
Gah qanı qaraldı, gah da əsəbi,
Gah özü tutuldu, gah da mənsəbi.
Gah malı soyuldu, gah da dərisi,
Odlara atıldı könül pərisi.
Gah payı kəsildi, gah da sovqatı,
Gah səbri tükəndi, gah da ovqatı.
Vuruldu nəqədər, vurdu nəqədər?
Yıxıldı nəqədər, yıxdı nəqədər?
Söyüldü nəqədər, söydü nəqədər?
Döyüldü nəqədər, döydü nəqədər?
Bezdirdi nəqədər, bezdi nəqədər?
Əzdirdi nəqədər, əzdi nəqədər?
Ağlatdı nəqədər, güldü nəqədər?
Öldürdü nəqədər, öldü nəqədər?
Alışdı nəqədər, söndü nəqədər?
Ucaldı nəqədər, endi nəqədər?
Nəqədər zülm oldu yazıq bəşərə?
Salındı zindana, düşdü məhşərə.
Qəflət yuxusundan ayılın insan!
İnsantək seçilin, sayılın insan!
Gözlərdə kədərlər, nəmlər olmasın,
Üz-üzə durduqca xeyir ilə şər,
De nələr görmədi, hər axşam səhər?
Nədir bu cinayət, nədir bu xəta?
Nəyi yetirirsiz, nəyi isbata?
Nədir bu dərd-bəla, bu aman, bu ah?
Nədir bu qəbahət, nədir bu günah?
Nədir bu nalələr, nədir bu fəqan?
Niyə qan ağlasın, bizim bu cahan?
Didsin könülləri, didsin qəm-kədər?
Ömrümüz-günümüz ötüşsün hədər.
Bu nə əzha-əzdir, nə çıxhaçıxdır?
Nə uçurha-uçur, nə yıxha-yıxdır?
Bu nə asha-asdır, nə kəsha-kəsdir?
Nə incitha-incit, nə küsha-küsdür?
Nə dağıtha-dağıt, nə qırha-qırdır?
Nə talanha-talan, nə vurhavurdur?
Bu nə gethagetdir, nə gəlhagəldir?

Nə öldürha-öldür, nə ölhaöldür?
Bu necə dərrakə, necə kamaldır?
Necə əqidədir, necə amaldır?
Bu necə həvəsdir, necə ürəkdir?
Necə ünsiyyətdir, necə ülfətdir?
Necə hərəkətdir, necə sifətdir?
Belə qayğı olmaz, kömək də olmaz,
Belə zəhmət olmaz, əmək də olmaz.
Belə insaf olmaz, mürvət də olmaz,
Belə hörmət olmaz, izzət də olmaz.
Nədir diləyiniz, nədir ağalar?
Nədir kələyiniz, nədir ağalar?
Nəüçün lazımdır bu toqquşmalar?
Bu döyüş meydanı, bu vuruşmalar?
Nəüçün lazımdır qanlı cəbhələr?
Amansız hücumlar, hərbə-zərbələr?
De kimə lazımdır həyəcan, təlaş?
Tökülsün gözlərdən, axsın qanlıyaş?
Nəüçün lazımdır bu qəzəb, hiddət?
Ağırlıq, gərginlik, çətinlik, şiddət?
Vahimə, həyəcan, yersiz təşvişlər?
Səksəkə, qorxular, qara müdhişlər?
Nəüçün pozulsun rahatlıq, dinclik?
Məhv etsin bəşəri avamlıq, giclik?
Nəüçün insana verilsin cəza?
Tutulsun, qarışsın bu açıq fəza?
De kimə lazımdır bu kəc baxışlar?
Uçrumlu enişlər, bu sərt yoxuşlar?
Nəüçün yol olsun bədəməllərə?
Böhtana, yalana, fitnə-fellərə?
Bədəməl törədən görmürmü pis gün?
Onlarda olmurmu taledən küsgün?
Bu nə müsibətdir, nə qiyamətdir?
Necə hərəkətdir, nə xəyanətdir?
Nifrət olsun aralığı qatana,
Qan tökməklə məqsədinə çatana.
Nifrət insanları bezdirənlərə,
Sitəmə, zülümə dözdürənlərə,
Nifrət, el malını talayanlara!

Töküb al-qanını bulayanlara!
Nifrət, bu bəşərə qəsd edənlərə!
Yeməmiş-içməmiş məsd edənlərə!
Nifrət xainlərə, sitəmkarlara!
Haqq-say itirən nanıkorlara!
Qaniçən, tüfeyli, müftəxorlara!
Əməli önündə təqsirkarlara!
Heçkəs bənzətməsin özünü şirə,
Təsir bərabərdir əks-təsirə.
Buynusuz qoçun da, buynuzlu qoçda,
Qisası qalmayıb heç bərkdə-boşda.
Gəlin əbəs yerə evlər yıxmayın,
Əsəblər korlayıb, ürək sıxmayın.
Nahaqdan tökəndə gözyaşını sən,
Hesab et kəsirsən öz başını sən.
Tökdüyün gözyaşı axıdar səni,
Vurub qayalara dağıdar səni.
Çox qantökənlərin töküldü qanı,
Alındı əlindən şöhrəti, şanı.
Başkəsən cəlladlar özü can verir,
Qansoran zəlilər özü qan verir.
Çox evləryıxanın yıxıldı evi,
Pozuldu növrağı, pozuldu dəbi.
Axırda özünün axdı qanları,
Çökdü dar məzara, çökdü canları.
Çatmadı haraya nə tacı, taxtı,
Nəqədər boylandı, nəqədər baxdı.
Gəlin ibrət alaq tariximizdən,
Sonra inciməyək talehimizdən.
İbrət almayanlar xəcalət olur,
Tale üz döndərir, zəlalət olur.
Bu bəşər övladı unutmur haqqı,
Unutmur haqsızı, nə də nahaqqı.
Yaxşıya ehtiram, rəhmətlər deyir,
Pisə nifrət edir, lənətlər deyir.
Bəşər övladını cana doydurma,
Nahaqdan tökülən qana doydurma.
Düşünün ağalar! evlər yıxanda,
Əsəblər korlayıb, ürək sıxanda,

Sənin xanimanın söküləcəkdir,
Gözyaşın car olub töküləcəkdir.
İnsan yaranıbdır, qurmaq üçündür,
Sülhün keşiyində durmaq üçündür.
Son qoyun davaya-dalaşa gəlin,
Sonsuz həyəcana, təlaşa gəlin.
Əzilən olmasın, əzən olmasın,
Bezdirən olmasın, bezən olmasın.
Vicdanı-məsləyi danan olmasın,
Alovlar içində yanan olmasın.
Qəflət yuxusunda yatıb getməyin,
Yaxşını-yamana qatıb getməyin.
Dağıdıb, talayıb, sökməkdən əlçək!
Elin gözyaşını tökməkdən əlçək!
Bir gün bu dünyadan köç edən zaman,
Ellər deməsinki gəbərdi heyvan.
Biz bilirik davaların dadını,
Alovunu, yanğısını, odunu.
Çox görmüşük xəbisliyi, xətanı,
İtirmişik neçə-neçə atanı.
Nəqədər görmüşük yetimlikləri?
Yoxsulluq, səfalət, çətinlikləri?
İtirmişik bacıları, qardaşı?
Həmkarı, tay-tuşu, dostu, yoldaşı?
İtirmişik dayıları, əmini?
Yandırmışıq neçə tarla, zəmini?
İtirmişik neçə igid oğullar?
Neçə şərbət, neçə şəkər, noğullar?
Neçəsinin kəsilibdi qolları?
Silinibdi cığırları, yolları?
İtirmişik nələr-nələr varı da,
Abırı da, isməti də, arı da.
İtirmişik təzə toylu yarı da.
Neçə-neçə xeyiri də, karı da.
İtirmişik səadəti, dincliyi,
Neçə-neçə cavanlığı, gəncliyi.
Davalarda çoxalıbdı ədavət,
Pozulubdu ədəb-ərkan, sədaqət.
Ərşə çıxdı insaf-mürvət, kəramət,

Xeyirxahlıq, mehribanlıq, mərhəmət.
Daşa döndü neçə-neçə ürəklər,
Nakam qaldı neçə-neçə diləklər.
Neçə igid, neçə ərlər ölübdür,
Neçə-neçə qönçə güllər solubdur.
Neçə qapı, neçə baca bağlandı?
Dərd əlindən neçə sinə dağlandı?
Nəqədər cavanlar qocaldı getdi,
Ölümdən, zülümdən bac aldı getdi.
Qırıldı töküldü, azaldı getdi,
Yoruldu, üzüldü, sozaldı getdi.
Nəqədər çəkildi dərdlər, ələmlər?
Davadan pay umdu aqili-kəmlər.
Bürüdü dünyanı nəqədər ahlar?
Məzara çökdülər nəqədər şahlar.
Bəs deyilmi bu davalar, dalaşlar?
Yersiz çəkişmələr, yersiz vuruşlar?
Nədir məqsədiniz, nədir ağalar?
Nədir istəyiniz, nədir ağalar?
Bu bəşər yenəmi davalar görsün?
Zəhərə qarışmış havalar görsün?
Yenəmi dağılmış şəhərlər görsün?
Ağrılar, acılar, qəhərlər görsün?
Yenəmi dağılsın yurdlar-yuvalar?
Matəmə qarışsın ellər-obalar?
Yenəmi qırılsın bu xalq, bu millət?
Çəksinlər məşəqqət, görsünlər zillət?
Yenəmi tutulsun qabaqlar, qaşlar?
Kəsilsin qol-qılça, vurulsun başlar?
Göylərə yüksəlsin ahlar-amanlar?
Çaxnaşsın buludlar, qara dumanlar?
Yenəmi yön alaq qanlı cəbhəyə?
Sinələri gərək hərbə-zərbəyə?
Ayrılıb vətəndən qürbətə düşək,
Savaş meydanında zülmətə düşək.
Tökülsin yerlərə qanlar-qadalar?
Yayılsın həryana qara sədalar?
Yenəmi hicranlar didsin ürəyi?
Pozsun arzuları, pozsun diləyi?

Yenəmi, yenəmi davalar olsun?
Atasız böyüyən balalar olsun?
Analar ayrılsın gözəl yarından?
Sevgi-məhəbbətin ilk nübarından?
Yenəmi, yenəmi yetimlik görək?
Düşüb məşəqqətə çətinlik görək?
Yenəmi qırılsın bu yazıq bəşər?
Düşsünlər əzaba, çəksin dərdi-sər?
Yenəmi çoxalsın topallar, şillər?
Əlsiz-ayaqsızlar, zəlil, əlillər?
Çoxalsın ehtiyac, aclıq, səfalət?
Bürüsün həryanı dəhşət, fəlakət.
Yenəmi partlasın toplar, mərmilər?
Alovlar içində yansın zəmilər?
Dünyada yenəmi məşəqqət olsun?
Qisaslar alınsın, ədavət olsun?
Dünyada yenəmi səfalət olsun?
Çətinlik, ehtiyac,  zəlalət olsun?
Yenəmi cəbhədə axsın qanımız?
Əzab-iztirabda çıxsın canımız?
Gərək şilküt olsun qılça, qolumuz?
Düşsün çətinliyə hərbir yolumuz?
Yenəmi çəkilsin sinəyə dağlar?
Dağılıb-talansın bağçalar, bağlar?
Gərək qan qaralsın, sıxılsın ürək?
Qapılar bağlansın, yıxılsın dirək?
Mərmilər səsindən batsın qulaqlar?
Matəmə qərq olsun aranlar, dağlar?
Nəüçün dünyamız viran edilsin?
Dağılsın, yerlərə yeksan edilsin?
Gərək qazancımız odlara düşsün?
Talanıb var-dövlət yadlara düşsün?
Gərək bu dünyada intizar çəkək?
Ah-aman eyləyək, ahu-zar çəkək?
Məktubu çatdırın, deyin Reyqana,
Bəşəri salmasın günahsız qana.
Belə çalhaçala oynamaq olmaz,
Belə nəşə olmaz, kef-damaq olmaz.
Belə hörmət olmaz, izzət də olmaz,

Belə qazanc olmaz, ləzzət də olmaz.
Belə avaz olmaz, səs-səmir olmaz,
Belə hökүm olmaz, nə əmir olmaz.
Bu necə cəfadır, necə cəbrdir?
Necə dəyanətdir, necə səbrdir?
Nədir bu acgözlük, nədir hərislik?
Nədir bu bədxahlıq, nədir bu pislik?
Gəlin bu bəşəri bezdirməyin siz,
Əzab-əziyyətə dözdürməyin siz.
Dünya dağılmazki, olmasın dava?
Zəhərə qarışıb dolmasın hava?
Davalar olmasa bu xətadırmı?
Dağılmaq, talanmaq de modadırmı?
Görəsən bəşərin nə günahı var?
Kimdən umacağı, nə tamahı var?
Davaya, dalaşa nə ehtiyac var?
Həyəcan-təlaşa nə ehtiyac var?
Niyə yol verilsin hərisliklərə?
Azğınlıq, pozğunluq, xəbisliklərə?
Niyə yol verilsin nadanlıqlara?
Quldurluq, cahillik, avamlıqlara?
Gəlin yol verməyək fitnə-fellərə,
Bəd fikir, bəd sözə, bədəməllərə.
Gəlin yol verməyək qəlbidaşlara,
Vicdanıkəmlərə, başıboşlara.
Qisasçı, qərəzçi davakarlara,
Bəşər övladına ziyankarlara.
Bizə lazım deyil dava-dalaşlar,
Vahimə, həyəcan, təşviş, təlaşlar.
Şəhərlər qəsb etmək, qalalar almaq,
Ah-aman törətmək, nalələr salmaq.
Bizə lazım deyil qapı bağlamaq,
Əsəblər korlamaq, sinə dağlamaq.
Bizki düşməniyik hərisliklərin,
Paxıllıq, xainlik, xəbisliklərin.
Bizki istəmirik səfalətləri,
Avamlıq, nadanlıq, cəhalətləri.
Ellərin malı da talanıb getsin,
Qanına bələnib, bulanıb getsin.

Bizki istəmirik məşəqqətləri,
Əzab-əziyyəti, zəlalətləri.
Məhəbbət bağları saralıb-solsun,
Sinələr kədərlə, dərd-qəmlə dolsun.
Gözyaşı sel kimi car olub getsin,
Gen dünya başlara dar olub getsin.
Bizki istəmirik atılsın güllə,
Dəysin insanlara adi bir şillə.
Bizim istəyimiz qardaşlıqdı bil!
Dostluq, əməkdaşlıq, yoldaşlıqdı bil!
Biz şüar eylədik beynəlmiləli,
Nədir məchul olan, nədir şübhəli?
Bizki istəyirik ellər bir olsun,
Məqsəd, məram, amal, yollar bir olsun.
Ölkələr, obalar, bərabər olsun,
Ay nədir, il nədir sərasər olsun.
Bizim andımız var səmimiyyətə,
Ən ülvi, müqəddəs səmimiyyətə.
Sədaqət, kəramət səxavət olsun,
Yaşayıb-yaşadaq, yaradaq, quraq.
Şöhrətlə, şərəflə oturub-duraq,
Bizdən ilham alsın gələn nəsillər,
Ötən qərinələr, keçən fəsillər.
Deməsin babalar nadan olubdur,
Elin qazancını udan olubdur,
Qoy onlar bizlərdən əməl öyrənsin,
Binalar tikəndə təməl öyrənsin.
Bizki istəyirik gözəllik olsun,
Zəriflik, incəlik nəciblik olsun,
Bizdən inciməsin övladı-bəşər,
Həm yaxın, həm uzaq olan ölkələr.
Nədir diləyiniz, nədir ağalar?
Nədir kələyiniz, nədir ağalar?
Bizə lazım deyil güllənin səsi,
Mərmi vahiməsi, topun nərəsi.
Qovrulmuş, qarsıxmış barıt qoxusu,
Səksəkə, vahimə ölüm qorxusu.
İnsan, daha bəsdir uyma tamaha,

Odur bais olan qarğışa, aha.
Tamaha uyanlar haqq-nahaq qanmır,
Həyatdan utanmır, bəşəri sanmır.
Dünya alışsa da bir tükü yanmır,
Tamah ucbatından mərd namərd olur,
Nəşələr pozulur, kef də dərd olur.
Beyin düşünməyir, göz görənməyir,
Dil də topuq çalır, söz deyənməyir.
Hərislik olanda vara-dövlətə,
Ellərin malına, pula sərvətə.
Bəşərə zülm edir ağıl dünyası,
Qəlbləri sındırır hicran yarası.
Tamahdan mənliklər məhv olub gedir,
Nəqədər doğrular səhv olub gedir.
Tamahdır insanı yoldan azdıran,
Odur quyuları dərin qazdıran,
Odur bu bəşərə ağılar verən,
Quldurlar törədən, yağılar verən.
Çoxu var topladı, qanları sordu,
Bəşəri-övladın qəsdində durdu.
Artırdı dərdini, qəddini bükdü,
Havayı nəqədər gözyaşı tökdü?
Bu dünya ən ulu babalarındır,
Müqəddəs atalar, analarındır.
Həyatı anlayıb qananlarındır,
Məhəbbət oduna yananlarındır.
Bu dünya ellərin, obalarındır,
Hörməti-izzəti ananlarındır,
Körpəcə, istəkli balalarındır,
Qəlbində saf eşqi olanlarındır.
Gözəllik, nəciblik, ülviyyətindir,
Sağlam düşüncənin, saf niyyətindir.
Bu dünya vəfanın, etibarındır,
Etiqad, inamın, düz ilqarındır.
Gəlin bu dünyanı zəhərləməyək,
İnsana dərd verib qəhərləməyək.
Qoymayaq ünsiyyət pozulub getsin,
Düz fikir tərsinə yozulub getsin.
Qoymayaq yaxşıya yaman deyilsin,

Nabələd, naşıya qanan deyilsin.
Qoymayaq xainlər, xəbislər olsun,
Tamahkar, acgözlər, hərislər olsun.
Qoymayın qanları zəlilər sorsun,
Əqli-kəmlər sorsun, dəlilər sorsun.
Qoymayın nadanlar çəkilsin başa,
Çəkilsə zülm edər qardaş-qardaşa.
Qoymayın çoxalsın dərdlər, ələmlər,
Xalqa yol göstərsin kamalı-kəmlər.
Qoymayın pozulsun saf ünsiyyətlər,
Sağlam düşüncələr, təmiz niyyətlər.
Qoymayaq heç zaman haqq-nahaq olsun,
Dünya qalmaqallı bir sayaq olsun.
Gəlin avamlığa əlvida deyək,
Gəlin nadanlığa əlvida deyək.
Keyfiyyət əsridir bizim əsrimiz,
Xoş niyyət əsridir bizim əsrimiz.
Cahillik eyləyib olmayın naşı,
Evləri dağıdıb, tökməyin yaşı.
Gəlin baxışlarda haçalanmayaq,
Fikirdə, məsləkdə parçalanmayaq.
Obalar bir olsun, ellər bir olsun,
Fikirlər bir olsun, dillər bir olsun.
Bəşəri millətə parçalamayaq,
Yüz yerə bölünüb xırdalanmayaq.
Soruşub deməyək, sən haralısan?
Yaxınsan, uzaqsan, ya aralısan?
Bölməsin sərhəddi hərə min yerə,
Kəsməsin aranı nə dağ, nə dərə.
Sərhədlər bir olsun, yerlər bir olsun,
Arzular bir olsun, sirlər bir olsun.
Şərqlilər, qərblilər həmfikir olsun,
Şimal da Cənubla oturub dursun.
Qüvvələr dağılır parçalananda,
Fikirlər məhv olur haçalananda.
“El bir olsa zərbi kərən sındırar”,
Məcbur edib qanmazları qandırar.
Qəflət yuxusundan ayılın insan!
İnsantək yaşayın, sayılın insan!

Gözlər yaranıbdır görmək üçündür,
Əql dərk eyləyib bilmək üçündür.
Bu bəşər övladı unutmur haqqı,
Unutmur haqsızı, nə də nahaqqı.
Yaxşıya min əhsən, min rəhmət deyir,
Pisə nifrət edir, min lənət deyir.
Hərkəs bənzətməsin özünü şirə,
Təsir bərabərdir əks-təsirə.
Buynuzsuz qoçun da buynuzlu qoçda,
Qisası qalmamış heç bərkdə-boşda.
Xainlik, bədxahlıq versə əl-ələ,
Qoyarmı insanlıq əmələ gələ?
Sındırır qəlbləri bu qara iblis,
Didib ürəkləri eyləyir müflis.
Girərsə qəlblərə yeyər qurd kimi,
Xərabə eyləyər köhnə yurd kimi.
Qoymaz yetişməyə məhəbbət bağı,
Vicdanı eyləyər könül dustağı.
Olmayın nə paxıl, nə qəlbiqara,
Paxıllıq, xainlik, insanlıq hara?
Xainlik əqrəbdir, başını əzək,
Asudə dolanıb, asudə gəzək.
Ürəkdə bu qurdu yaşatmayaq biz,
Hicranın yükünü daşıtmayaq biz.
Yol açaq könüldə sevinclər gərək,
Məhəbbət bağından incilər dərək.
Ağalar dünyada evlər yıxmayın,
Ürəklər ağrıdıb, qəlblər sıxmayın.
Nahaqdan tökəndə gözyaşını sən,
Eləbil kəsirsən öz başını sən.
Tökdüyün gözyaşı axıdar səni,
Vurub qayalara dağıdar səni.
Görün həqiqəti bilin siz bunu,
Baxın uzaqlara, görün siz sonu.
Haqqı-ədaləti görüb bilməsən,
Onun yollarıyla gedib-gəlməsən,
El nifrət eyləyib dalınca söyər,
Nəfinə danışmaz, bədinə deyər:
*“Getdi gündüzləri çölə-naxıra,*

*Gecələr qayıtdı yenə axura".*
Bədəməl törədib bükmə qəddini,
Qoru hüdudunu, gözlə həddini.
Yetişin hərzaman, yetişin dada,
Köməyə çatanlar yetər murada.
Gördünki birinin pozulub halı,
Çoxalıb dərd-qəmi, artıb məlalı.
Ona təsəlli ver, oxşa qəlbini,
Azalt kədərini, yox et dərdini.
Gördünki tapdanır birinin haqqı,
Qoyma hakim ola haqqa-nahaqqı.
Ətir saç ellərə könül bağından,
Kölgə sal ətrafa öz budağından.
Kölgəndə oturub sərinləsinlər,
Durub gedəndə də əhsən desinlər.
Aldanıb uymayın dünya malına,
Nəzər sal həyatın axır, dalına.
Çox yeyib-içənlər torpağa döndü,
Payızı gələndə yarpağa döndü.
Çalışın heç kimə qəsd eyləməyin,
Yeməmiş, içməmiş məsd eyləməyin.
Qəsd etsən özünə düşmən taparsan,
Xəcalət çəkərsən, peşman olarsan.
İnsansan-insana vermə əzabı,
Nə şişi yandırma, nə də kababı.
Çox evlər yıxanın yıxıldı evi,
Pozuldu dövranı, pozuldu dəbi.
Düşünün həyatda nə iş görmüsən?
Nəqədər insana xeyir vermisən?
Ağac əkmisənmi, bağ salmısanmı?
İncik könülləri de almısanmı?
Nəqədər könüllər qırmısan qafil?
Qaşlara düyünlər vurmusan qafil?
Əbəsdir havayı tökülən qanlar,
Yazıqdır əzilən məzlum insanlar.
Bəşər övladını cana doydurma,
Havayı tökülən qana doydurma.
Ey zalım anla ki, evlər yıxanda,
Əsəblər korlayıb ürək sıxanda,

Öz könül sarayın söküləcəkdir,
Gözyaşın car olub töküləcəkdir.
Yığılan pul-para haraya çatmaz,
Əcəl məqamında əlindən tutmaz.
İnsanıq, insanı əzib getməyək,
Bədəməl törədib bezib getməyək.
İnsan gəlməyibki ahuzar versin,
Dünyanın nəki var zülmünü görsün.
Əlçəkin fitnədən, əlçəkin feldən,
Çürük düşüncədən, sarsaq əməldən.
Mənfur düşüncələr əridir bizi,
Dağıdıb məhv edir o qəlbimizi.
Ey insan əbəsdir, uyma tamaha,
Odur bais olan qarğışa-aha.
Tamaha uyanlar haqq-nahaq qanmır,
Vicdanda isinmir, ürəkdə yanmır.
Tamaha uyanda mərd-namərd olur,
Nəşələr pozulur, kef də dərd olur.
Beyin düşünməyir, göz də görməyir,
Dil də topuq çalır, düz deyənməyir.
Hərislik olanda vara-dövlətə,
Ellərin malına, pula-sərvətə.
Ellərə zülm edir ağıl dünyası,
Öldürür bəşəri hicran yarası.
Tamahdan mənliklər məhv olub gedir,
Nəqədər doğrular səhv olub gedir.
Odur quyuları dərin qazdıran,
İnsanı aldadıb yoldan azdıran.
Tamahdır əqrəb də, iblis də bilin,
Mənfur da, alçaq da, xəbis də bilin.
Odur bu bəşərə ağılar verən,
Dostu düşmən edib, yağılar verən.
Odur üzümüzü qara eyləyən,
Odur könülləri yara eyləyən.
Tamahdır gözləri kor eyləyən də,
İnsana zülmedib, zor eyləyən də.
Çoxu var topladı, qanları sordu,
Bəşər övladının qəddinə durdu.
Artırdı dərdləri, qədləri bükdü,

Nəqədər, nəqədər gözyaşı tökdü?
Olmayaq tamahın nökəri, qulu,
Atmayaq vicdanı, görəndə pulu.
Çox şah təxtdən düşdü, saray boşaldı,
Çox başlar kəsildi, taclar boşaldı.
Qorxun tarixlərin məhkəməsindən,
Vurhavur, tuthatut, həngaməsindən.
Nə töksən qazana yemiş babalar,
Nə əksən biçərsən demiş babalar.
Çox mənəm deyənlər, qanlar tökənlər,
Çox evlər yıxanlar, saray sökənlər.
Haqsız qantökənin tökülür qanı,
Korlanır əsəbi, üzülür canı.
Canalan cəlladın özü can verir,
Qansoran zəlinin özü qan verir.
Çatmadı haraya nə tacı-təxdi,
Nəqədər ağladı, nəqədər baxdı?
Gəlin ibrət alaq tariximizdən,
Sonra inciməyək talehimizdən.
İbrət almayanlar xəcalət olur,
Tale üz döndərir, səfalət olur.
Mənayla şənlənək, mənayla gülək.
Mənayla yaşayaq, mənayla ölək,
Mənadır insanın şərəfi-şanı,
Mənadır həyatın cövhəri, canı.
Mənadır hər zövqü, kefi, ləzzəti,
Mənadır hərkəsin öz məziyyəti.
Düşünüb yazmışam bu həqiqəti,
İstədim ayıldam bəşəriyyəti.
Olmasın qan-qada, olmasın oyun,
Ey bəşər övladı buna son qoyun.
Gəlin avamlığa əlvida deyək,
Gəlin nadanlığa əlvida deyək.
Keyfiyyət əsridir, bizim əsrimiz,
Xoş niyyət əsridir, bizim əsrimiz.
Qovuşmaq istəsək əbədiyyətə,
Sadiq qalmalıyıq bu cəmiyyətə.

***Cəmil Əkbər*** 15.10 – 1979

## 254. SADİQ QALMALIYIQ CƏMİYYƏTƏ

*IV variant*

Bu bəşər nəqədər davalar görüb?
Zəhərə qarışmış havalar görüb?
Dağalıb ev-eşik, qapı bağlanıb?
Əsəblər korlanıb, sinə dağlanıb?
Dağıldı nəqədər şəhərlər, kəndlər?
Yerlərə, göylərə sığmadı dərdlər.
Viranə qalıbdır yurdlar, yuvalar,
Matəmə qarışdı ellər, obalar.
Qırıldı, töküldü bu xalq, bu millət,
Çəkdilər müsibət, gördülər zillət.
Nəüçün lazımdır bu toqquşmalar?
Bu döyüş meydanı, bu vuruşmalar?
Amansız davalar, qanlı cəbhələr?
Bu azğın hücumlar, hərbə-zərbələr?
De niyə törənsin, həyəcan təlaş?
Tökülsün gözlərdən axsın qanlıyaş?
Edilsin nəüçün bədxahlıq, pislik?
Qəddarlıq, zalımlıq, höcətlik, nəslik?
De kimə lazımdır bu qəzəb, hiddət?
Bu zülmət, gərginlik, çətinlik, şiddət?
Yersiz həyəcanlar, yersiz təşvişlər?
Səksənə vahimə, qorxunc  müdhişlər?
Nəüçün başversin avamlıq, giclik?
Pozulsun səadət, rahatlıq, dinclik?
İnsana nəüçün verilsin cəza?
Qarışsın zəhərə bu açıq fəza?
Nəüçün lazımdır bu kəc baxışlar?
Dözdü yay-oxuna, dar ağacına,
Nəüçün uyulsun bədəməllərə?
Böhtana, yalana, fitnə-fellərə?
Bədəməl törədən görmürmü pis gün?
İnciyib olmurmu taledən küsgün?
Nəqədər aralıq qatıldı getdi?
Vicdanlar, məsləklər satıldı getdi?
Töküldü qabaqlar, çatıldı qaşlar?

Verildi hökümlər, kəsildi başlar?
Sədaqət, səxavət pozuldu getdi?
Düz fikir tərsinə yozuldu getdi?
Nəqədər bəxtinə qaralar dedi?
Tapmayıb dərdinə çaralar dedi?
Dünyada nəqədər acılar oldu?
Dərd çəkən qardaşlar, bacılar oldu?
Yüksəldi göylərə, ahlar, nalələr,
Qarışdı zəhərə mey-piyalələr.
Üz-üzə durduqca xeyr ilə şər,
De, nələr görməyib bu yazıq bəşər?
Vuruldu nəqədər, vurdu nəqədər?
Yıxıldı nəqədər, durdu nəqədər?
Döyüldü nəqədər, döydü nəqədər?
Söyüldü nəqədər, söydü nəqədər?
Əzildi nəqədər, əzdi nəqədər?
Bezdirdi nəqədər, bezdi nəqədər?
Soyuldu nəqədər, soydu nəqədər?
Ac qaldı nəqədər, doydu nəqədər?
Ağladı nəqədər, güldü nəqədər?
Öldürdü nəqədər, öldü nəqədər?
Nədir bu cinayət, nədir bu xəta?
Nədir bu mərhəmət, nədir bu əta?
Nədir bu hərislik, nədir bu tamah?
Nədir bu qəbahət, nədir bu günah?
Nədir bu ah-nalə, nədir bu fəqan?
Nəüçün kədərə qarışsın cahan?
Didsin könülləri qüssə-qəm, kədər?
Ömrümüz-günümüz ötüşsün hədər?
Bu nə əzha-əzdir, nə  sıxha-sıxdır?
Nə uçurha-uçur, nə  yıxha-yıxdır?
Bu nə asha-asdır, nə kəsha-kəsdir?
Nə incitha-incit, nə küsha-küsdür?
Nə dağıtha-dağıt, nə qırha-qırdır?
Nə talanha-talan, nə vurhavurdur?
Bu nə əndazədir, nə cahcəlaldır?
Bu nə gethagetdir, nə gəlha-gəldir,
Nə öldürha-öldür, nə ölha-öldür?
Bu necə dərrakə, necə kamaldır?

Necə əqidədir, necə amaldır?
Bu necə həvəsdir, necə ürəkdir?
Nə cürə arzudur, necə diləkdir?
Necə ünsiyyətdir, necə ülfətdir?
Necə hərəkətdir, necə sifətdir?
Bu necə yaşayış, nə qiyamətdir?
Necə qəm çəkməkdir, nəcür xiffətdir?
Belə insaf olmaz, nə mürvət olmaz,
Nə ehtiram olmaz, nə hörmət olmaz.
Belə qayğı olmaz, nə kömək olmaz,
Belə zəhmət olmaz, nə əmək olmaz.
Belə rəftar olmaz, yaşamaq olmaz,
Nə toy-büsat olmaz, kef-damaq olmaz.
Belə nəşə olmaz, ləzzət də olmaz,
Nəvaziş də olmaz, izzət də olmaz.
Nə yarış, nə yürüş, nə bəhs də olmaz,
Belə sevgi olmaz, həvəs də olmaz.
Belə qisas olmaz, ədavət olmaz,
Səxavət, kəramət, sədaqət olmaz.
Bu necə cəfadır, necə cəbrdir?
Bu necə dəyanət, necə səbrdir?
Bu dünya ən ulu babalarındır,
Mehriban ellərin, obalarındır,
Müqəddəs atalar, analarındır.
Bizim odumuza yananlarındır,
Bu dünya düşünüb qananlarındır,
Yaşamaq istəyən insanlarındır.
Sevimli körpəcə balalarındır,
Qəlbində məhəbbət olanlarındır.
Gözəllik, nəciblik, ülviyyətindir,
Sağlam düşüncənin, xoş niyyətindir.
Bu dünya vəfanın, etibarındır,
Etiqad, inamın, düz ilqarındır.
Gəlin bu dünyanı zəhərləməyək,
Kimsəyə dərd verib qəhərləməyək.[463]

---

[463] Bezdirib insanı qəhərləməyək.

Qoymayaq ünsiyyət pozulub getsin,
Düz fikir tərsinə yozulub getsin.
Qoymayaq yaxşıya yaman deyilsin,
Nabələd, naşıya, qanan deyilsin.
Usanıb canından bezənlər olsun,
Əzablar içində dözənlər olsun.
Paxıllar, xainlər, xəbislər olsun,
Qanlara sussayan hərislər olsun.
Qoymayaq həddini aşanlar olsun,
Ellərin varından daşanlar olsun.
Qoymayaq heç zaman haqq, nahaq olsun,
Həyat qalmaqallı bir sayaq olsun.
Nədir bu qal-qovğa, nədir bu oyun?
Ey bəşər övladı buna son qoyun!
Qovuşmaq istəsək əbədiyyətə,
Sadiq olmalıyıq bəşəriyyətə.

***Cəmil Əkbər***

## 255. BƏDXAH ƏMƏLLƏR

Nəqədər ölümün baisi oldun?
Ay bədxah fikirlər, bədxah əməllər.
Hər əzab, hər zülmün baisi oldun,[464]
Ay bədxah fikirlər, bədxah əməllər.

İnsanı pis günə dəlalətin var,
Əzab-əziyyətin, zəlalətin var,
Nəqədər müsibət, fəlakətin var?[465]
Ay bədxah fikirlər, bədxah əməllər.

De neçə sağları çərlətdiniz siz?
Dağları, daşları hərlətdiniz siz?
Çətinə salaraq tərlətdiniz siz?
Ay bədxah fikirlər, bədxah əməllər.

---

[464] 1) Əzabın, zülmün baisi oldun. 2) İnsan övladınn canisi oldun.
[465] Nəqədər günahın, pis adətin var?

Nəqədər analar ağlar qoymusan?
Sinələr üsdünə dağlar qoymusan?
Qapı-bacaları bağlar qoymusan?
Ay bədxah fikirlər, bədxah əməllər.

Nəqədər insanı zora saldınız?
Vurub iliyini dara saldınız?[466]
Çox duzaq qurdunuz, tora saldınız?[467]
Baisin kim olub deyəsən bəlkə?
Nifrətlə yad olub, söyəsən bəlkə?
Kötəklə, çəkiclə döyəsən bəlkə?[468]
Ay bədxah fikirlər, bədxah əməllər.

Söylə, neçə qəlbi yaraladınız?[469]
Vurub yüz yerindən paraladınız?
Adını tarixdən qaraladınız?[470]
Ay bədxah fikirlər, bədxah əməllər.

Əlindən nəqədər kama yetmədi?
Nahara çatmadı, şama yetmədi?
Dəhanı, dodağı tama yetmədi?
Ay bədxah fikirlər, bədxah əməllər.[471]

Uçurub nəqədər evlər yıxmısan?
Əsəblər korlayıb, ürək sıxmısan?
Övladı-bəşərə qənim çıxmısan?
Ay bədxah fikirlər, bədxah əməllər.

---

[466] Vurub iliyini hara saldınız?
[467] 1) Kəməndə saldınız, tora saldınız. 2) Kəməndi qurdunuz, tora saldınız,
[468] Kötəklə, qırmancla döyəsən bəlkə?
[469] Bir de, neçə qəlbi yaraladınız?
[470] Silərək həyatdan qaraladınız,
[471] *II variant* Nələr çəkmədiki əlindən bəşər?
Düşdü müsibətə daim sərbəsər,
Döyüşdü, vuruşdu xeyir ilə şər,
Ay bədxah fikirlər, bədxah əməllər.
*III variant* Gör nələr çəkibdir əlindən bəşər?
1) Görüb müsibəti, çəkib dərdi-sər, 2) Düşüb müsibətə, çəkib dərdi-sər,
1) Düşüb əzablara, daim sərbəsər, 2) Dözüb əzablara, daim sərbəsər,
Ay bədxah fikirlər, bədxah əməllər.

Ülfət-ünsiyyəti pozdurdun niyə?
İnsanı yolundan azdırdın niyə?
Ayaq altdan quyu, qazdırdın niyə?
Ay bədxah fikirlər, bədxah əməllər.[472]

Nəqədər qapılar bağlı qoymusan?
Sinələr üstünü dağlı qoymusan?
Günləri qaralı-ağlı qoymusan?
Ay bədxah fikirlər, bədxah əməllər.[473]

Xilqəti nəqədər zədələmisən?
Qorxudub, ülküdüb hədələmisən?
Döyüb, qırmanclayıb, pedələmisən?
Ay bədxah fikirlər, bədxah əməllər.

Həmişə başların bəlası oldun, [474]
Araqarışdıran çalası oldun,
Əvvəl-axır sən də solası oldun,[475]
Ay bədxah fikirlər, bədxah əməllər.

Nəqədər xətanın baisi sənsən?
Başbilən ustadı, dahisi sənsən?
Qocaman memarı, banisi sənsən?
Ay bədxah fikirlər, bədxah əməllər.

---

[472] *II variant* Ünsiyyət-ülfəti pozan sən oldun,
Ayaqlar altından qazan sən oldun,
Doğrunu əyriyə yozan sən oldun,
Ay bədxah fikirlər, bədxah əməllər.

[473] *II variant* De neçə qapılar bağlatmış oldun?
Nəqədər sinələr dağlatmış oldun?
Analar, bacılar ağlatmış oldun?
Ay bədxah fikirlər, bədxah əməllər.

*III variant* Nəqədər qapılar bağlatmısınız?
De neçə sinələr dağlatmısınız?
Analar, bacılar ağlatmısınız?
Ay bədxah fikirlər, bədxah əməllər.

[474] Nəqədər başların bəlası oldun?

[475] Əvvəli-axırı solası oldun.

Bəndəni haqq yoldan döndərən sənsən,[476]
Yanan çıraqları söndürən sənsən, [477]
Gedər-gəlməzlərə göndərən sənsən,
Ay bədxah fikirlər, bədxah əməllər.

Sənin ucbatından yarıyan hanı?
Qocalanlar hanı, qarıyan hanı?
Taleyi gətirən, sarıyan hanı?
Ay bədxah fikirlər, bədxah əməllər.

Əlindən gör nələr törədi getdi?
Alışdı şam kimi əridi, getdi?
Torpağa qarışdı, çürüdü, getdi?
Ay bədxah fikirlər, bədxah əməllər.

İnsanı pis günə dəlalətin var,
Avamlıq, nadanlıq, cəhalətin var,
Nəqədər günahın, qəbahətin var?
Ay bədxah fikirlər, bədxah əməllər. [478]

Sənin əməlindən yarıyan varmı?
Ucalıb, qocalıb, qarıyan varmı?
Taleyi gətirən, sarıyan varmı?
Ay bədxah fikirlər, bədxah əməllər.[479]

---

[476] İnsanı yoldan döndərən sənsən.
[477] Çox dolu payları endərən sənsən.
[478] *II variant* İnsanı pis günə dəlalətin var,
Avamlıq, gədalıq, cəhalətin var,
Nə pis ənənən var, nə adətin var,
Ay bədxah fikirlər, bədxah əməllər.

*III variant* İnsanı pis günə dəlalətin var,
Əzab-əziyyətin, zəlalətin var,
Avamlıq, nadanlıq, fəlakətin var,
Ay bədxah fikirlər, bədxah əməllər.

[479] *II variant* Sənin ucbatından yarıyan kimdir?
Ucalıb, qocalıb, qarıyan kimdir?
İşi düz gətirən, sarıyan azdır,
Ay bədxah fikirlər, bədxah əməllər.

Səninlə çəkməyə ədavətim var,
Fəhmim, bacarığım, fərasətim var,
Qorxmuram hünərim, cəsarətim var,
Ay bədxah fikirlər, bədxah əməllər.

Kim olub baisin, deyəsən bəlkə?
Nifrətlə yad edib söyəsən bəlkə?
Çəkiclə başına, döyəsən bəlkə?[480]
Ay bədxah fikirlər, bədxah əməllər.

Açıb faş etmişəm sənin sirrini,
Olan ləkələri, qalan kirini,
Heç qoymadın qalsın sağlam birini,
Ay bədxah fikirlər, bədxah əməllər.[481]

Bəşərə dedim ki, sezələr bəlkə?[482]
İnciyib əlindən, bezələr bəlkə?[483]
Səndən çox uzaqda gəzələr bəlkə?[484]
Ay bədxah fikirlər, bədxah əməllər.

Düşünüb, dərk edib qanalar bəlkə?
Xətiri, hörməti sanalar bəlkə?[485]
Arayıb, axtarıb, analar bəlkə?[486]
Ay bədxah fikirlər, bədxah əməllər.

---

[480] Çəkiclə zindanda, döyəsən bəlkə?

[481] *II variant* Açmışam, tökmüşəm olan sirrini,
Yumuşam ləkəni, qalan kirini,
Qoymadın qalmağa sağlam, dirini,
Ay bədxah fikirlər, bədxah əməllər.

*III variant* Açıram, tökürəm olan sirrini,
Boşalan kirini, dolan kirini,
Qoymadın qalmağa sağlam, dirini,
Ay bədxah fikirlər, bədxah əməllər.

[482] Dedim ki, bəşərə sezələr bəlkə?

[483] İnciyib küsələr, bezələr bəlkə?

[484] 1) Səndən uzaxlarda gəzələr bəlkə? 2) Gedib aralıda gəzələr bəlkə? 3) Əlini-əlindən üzələr bəlkə.

[485] Böyüyü, kiçiyi sanalar bəlkə?

[486] Tərgiyib bəd işi danalar bəlkə.

Əlçək bu bəşərdən, get gendə dolan,
Dalanda, döngədə ya tində dolan,[487]
Çəkil bu meydandan, get hində dolan,[488]
Ay bədxah fikirlər, bədxah əməllər.

Nəola torundan çıxaydı bəşər,
Zəfərlər əlini sıxaydı bəşər,
Vurub dirəyini yıxaydı bəşər,
Ay bədxah fikirlər, bədxah əməllər.

Sənsən törədəni hər pis işlərin,[489]
Hər höcət, hər inad, hər tərs işlərin,
Əsas səbəbkarı, hər nəs işlərin,
Ay bədxah fikirlər, bədxah əməllər.

Ay bəşər övladı bundan əlçəkin!
Gedin gendə durun, ondan əlçəkin!
Əvvəl, bəribaşdan, sondan əlçəkin!
Ay bədxah fikirlər, bədxah əməllər.

Nəola çıxaydım sonuna sənin,
Zərbəni vuraydım onuna sənin,
Baxaydım sahibsiz donuna sənin,
Ay bədxah fikirlər, bədxah əməllər.

Nəqədər ürəklər zədələmisən?
Üsdünə qışqırıb hədələmisən, [490]
Döyüb, döyəcləyib pedələmisən,[491]
Ay bədxah fikirlər, bədxah əməllər.

Kamal sahibinə dəli demisən,
Fəhmsiz, çəlimsiz, ölü demisən,
Qansoran həşərat, zəli demisən,
Ay bədxah fikirlər, bədxah əməllər.

---

[487] Dalanda, dəhlizdə, ya tində dolan.
[488] Çəkil bu meydandan, get çəndə dolan.
[489] *II variant* Sən oldun törədən hər pis işləri,
Hər höcəd, hər inad, hər tərs işləri,
Düzəlmək bilməyən hər nəs işləri,
Ay bədxah fikirlər, bədxah əməllər.
[490] 1) Salıb dərd-azara, hədələmisən. 2) Salıb təhlükəyə hədələmisən.
[491] Vurub, döyəcləyib pedələmisən.

Haqqı-ədaləti görmədi gözün,[492]
Odur ki, ellərdə keçmədi sözün,
Bağ salıb barından dərmədin özün,
Ay bədxah fikirlər, bədxah əməllər.

Nəgünə qoymusan Cəmil Əkbəri?
Xeyirxah bəndəni, insanpərvəri?
Şair təbiətli hünərpərvəri?
Ay bədxah fikirlər, bədxah əməllər.[493]

***Cəmil Əkbər*** 23. 12 -1987; 30. 09 – 1991; 23. 12 -1991

## 256. GƏRƏKDİR QARDAŞ

Avamlıqdan, cəhalətdən əlçəkək,
O nə mənə, sənə gərəkdir qardaş.
Paxıllıqdan, xəyanətdən əlçəkək,
O nə mənə, sənə gərəkdir qardaş.

Xam xəyalla, əyri yolla getməyək,
Kol-kos olub yolda-izdə bitməyək,
Bayquş kimi xərabədə ötməyək,
O nə mənə, sənə gərəkdir qardaş.

Yerli-yersiz nə lazımdır dillənmək?
Şeytan kimi fitnələşmək, felləşmək,
Buynuzlaşıb meydanlarda helləşmək,
O nə mənə, sənə gərəkdir qardaş.

Nə lazımdır əsəbləri korlayaq,
Yerli-yersiz hissimizi zorlayaq,
Çınqı salıb qəlbimizi qorlayaq,
O nə mənə, sənə gərəkdir qardaş.

---

[492] Hərkəsə düz qiymət vermədi gözün,

[493] *II variant* Nəqədər insanı salmısan əldən?
Cəmili ayırdın obadan, eldən,
Saldın eşq-həvəsdən, salmısan dildən,
Ay bədxah fikirlər, bədxah əməllər.

Doğru gedək, yolumuzu azmayaq,
Ayaq altdan eşələyib qazmayaq,
Ünsiyyəti, ülfətləri pozmayaq,
O nə mənə, sənə gərəkdir qardaş.

Fikirləşib saxtalığa uymayaq,
Qan qaraldıb, çörək yeyib doymayaq,
Onu-bunu ağlar gözlü qoymayaq,
O nə mənə, sənə gərəkdir qardaş.

Hiylədən, məkrdən gendə dolanaq,
Dalanda, dəhlizdə, tində dolanaq,
Güzəran xoş olsun, şəndə dolanaq,
O nə mənə, sənə gərəkdir qardaş.

Cəmil çox görübdür yaramazları,
Yad edib haqq-say aramazları,
Sərsəri, gicbəsər, hoqqabazları,
O nə mənə, sənə gərəkdir qardaş.

***Cəmil Əkbər*** 15. 05 – 1989

## 257. QARDAŞIM?

***(Ş i k a y ə t n a m ə)***

Bir zamanlar hamıdan, başda olan biz idik,
Nə dəyərsiz olmuşuq, ay dəyərli qardaşım?
Zirvələrdə əyləşən, qaşda olan biz idik,
Nə qədirsiz olmuşuq, ay qədirli qardaşım?

Kimlər arif göründü, kimlər gəlib key oldu?
Kim-kimə nökər oldu, kimlər gəlib bəy oldu?
Kimlər aqil sayıldı, kimlər gəlib səy oldu?
Nə səbirsiz olmuşuq, ay səbirli qardaşım?[494]

---

[494] *II variant* Gör zəmanə kimlərin, indi qəlbinə dəydi?
Kimlər aqil göründü, kimlər gəlib key oldu?
Gör kimlər nökər oldu, kimlər gəlib bəy oldu?
Nə səbirsiz olmuşuq, ay səbirli qardaşım?

Təlimini düz verən, indi dayə qalmayıb,
Qananlardan qanmaza indi sayə qalmayıb,
Azalıb üz-gözlərdə, ismət, həya qalmayıb,
Nə ismətsiz olmuşuq, ay ismətli qardaşım?

Bir zamanlar var idi, abır bizə yar idi,
Əqidə də, məslək də, qayə bizə yar idi,
Halal süfrə, duz-çörək, maya bizə yar idi,
Nə həyasız olmuşuq, ay həyalı qardaşım?

Ürəyimdən keçəni, mən danışa bilmirəm,
Hər gədənin işinə mən qarışa bilmirəm,
Zamanın gərdişilə, mən barışa bilmirəm,
Nə hünərsiz olmuşuq, ay hünərli qardaşım?

Bu bəşəri gör necə, yaman hala saldılar,
Oğulsansa baş çıxar, min xəyala saldılar,
Qanadını sındırıb, daldan-dala saldılar,
Nə şərəfsiz olmuşuq, ay şərəfli qardaşım?

Hər insanam deyəndə, dərin kamal qalmayıb,
Nə əqidə, nə məslək, nə də amal qalmayıb,
Nə mənəvi gözəllik, beylə camal qalmayıb,
Nə kamalsız qalmışıq, ay kamallı qardaşım?

Öz elini tərk edib, indi qaçan çoxalıb,
Doğma yurd-yuvasından, indi köçən çoxalıb,
Qanad alıb quş kimi, indi uçan çoxalıb,
Nə mahalsız qalmışıq, ay mahallı qardaşım?

Böyük dahi dühalar, gözdən nə tez salındı?
İxtiyarı, hüququ, əllərindən alındı?
Nə hörmətsiz, izzətsiz, beylə yola salındı?
Nə ağılsız olmuşuq, ay ağıllı qardaşım?

Beylə dərdi çəkməyə, ürək daha dözməyir,
Sinələr tab gətirmir, kürəyimiz dözməyir,
Qollarımız yorulub, biləyimiz dözməyir,
Nə xidmətsiz olmuşuq, ay xidmətli qardaşım?

Tablaşmayıb bu dərdə, qocalırıq deyəsən,
İçin-için inləyib, sozalırıq deyəsən,
Əriyərək mum kimi, azalırıq deyəsən,
Nə gərəksiz olmuşuq, ay gərəkli qardaşım?

Üzümüzə baxan yox, sözümüzə baxan yox,
Yolumuza baxan yox, izimizə baxan yox,
Ərkimizə baxan baxan yox, nazımıza baxan yox,
Nə şöhrətsiz olmuşuq, ay şöhrətli qardaşım?

Bir zamanlar bol idi, çörəyimiz var idi,
Yemək-içmək, nə desən, xörəyimiz var idi,
Yaman günə çatası, gərəyimiz var idi,
Nə çörəksiz qalmışıq, ay çörəkli qardaşım?

Nə azardır, bezardır, nə bəladır düşmüşük?
Gör kimlrdən inciyib, gör kimlərdən küsmüşük?
Əzabını çəkirik, cəfasına dözmüşük?
Nə hörmətsiz olmuşuq, ay hörmətli qardaşım?

Dövrü-zaman bəd gəlib, bizi zəlil eyləyib,
Sağ olsaq da bədəncə, bizi əlil eyləyib,
Salıb dərdi-azara, müşgül-məlil eyləyib,
Nə nüsrətsiz qalmışıq, ay nüsrətli qardaşım?

Bir zamanlar var idi, el gözü bizdə idi,
Müdriklərin kəlamı, el sözü bizdə idi,
Dühaların saldığı, yol-izi bizdə idi,
Nə nicatsiz olmuşuq, ay nicatlı qardaşım?

Qəlbimizi salıblar gör nəyaman həvəsdən?
Toxunublar, dəyiblər, qisas ilə, ya qəsdən?
De nə çıxar əzizim, bir quruca qəfəsdən?
Nə hünərsiz qalmışıq, ay hünərli qardaşım?

Nə şərafət, nə şöhrət karımıza gəlməyir,
Gedib gendə dolanır, halımızı bilməyir,
Dadımıza çatmayır, gözümüzü silməyir,
Nə zəfərsiz qalmışıq, ay zəfərli qardaşım?

Gör haradan-haraya, güzar edib gəlmişik?
Vicdan alıb-sataraq, bazar edib gəlmişik?
Düşüb min bir bəlaya, azar edib gəlmişik?
Nə biləksiz qalmışıq, ay biləkli qardaşım?

Ömür-günü  sərf edib, kitabları oxuduq,
Xalqımıza çatası xitabları oxuduq,
Vərəq-vərəq eyləyib ətirini qoxuduq,
Nə savadsız olmuşuq, ay savadlı qardaşım?

Nə səbəbdir görəsən, elm kara gəlməyir?
Çiçək ikən soluxur, heç nübara gəlməyir?
Qədəm qoyub bu elə, bu diyara gəlməyir?
Nə idraksız qalmlşıq, ay idraklı qardaşım?

Harda qaldı gəlməyir, karımıza bəs elim?
Bizi yaman incidir, müsibətlər, bu zülüm.
Niyə belə susubdur, danışmayır bu dilim?
Gör nə əfəl olmuşuq, ay zəkalı qardaşım?

Dühaları nəüçün salmayırıq yada biz?
Gətirmirik onların kəlamını dada biz?
Əl açıb yalvarırıq, yad ölkəyə, yada biz?
Nə ziyasız qalmışıq, ay ziyalı qardaşım?

Beylə dərdi çəkməkdən, Cəmil Əkbər sarsıyıb,
Bulud kimi tutulub, gör nəyaman qarsıyıb?
İnciyibdir hamıdan, acıq yeyib, hirs yeyib,
Nə sahibsiz qalmışıq, ay sahibli qardaşım?

***Cəmil Əkbər*** 10.05- 1992

## 258. QARDAŞIM

Söylədiyin doğru sözdür ay aşıq,[495]
Qeyrət dərsi alan yoxdur qardaşım.
Dediklərin hamsı düzdür ay aşıq,
Şöhrət dərsi alan yoxdur qardaşım.

---

[495] Ay aşıq – Tovuzlu Aşıq Xanlar Məhərrəmov nəzərdə tutulur.

Qeyrət hərkəsdənin özündə olmur,
Qüvvət qollarında, dizində olmur,
Sərraflıq igidin gözündə olmur,
Riqqət dərsi alan yoxdur qardaşım.

Hamı yaşamağın dərdini çəkir,
Artıb dərdi-səri, qəddini bükür,[496]
Ağlayıb, sızlayıb gözyaşı tökür,
Nüsrət dərsi alan yoxdur qardaşım.

Averə qarışıb hamının başı,
Axtarıb-aramır qardaş-qardaşı,
Həmkar-həmkarını, yoldaş-yoldaşı,
Zəhmət dərsi alan yoxdur qardaşım.[497]

Gündən-günə artırırlar qiyməti,
Azaldırlar abır-həya, isməti,[498]
Biz çəkirik müsibəti, zilləti,[499]
Mürvət dərsi alan yoxdur qardaşım.

Meydan verilibdir həyasızlara,
Vicdansız, məsləksiz, qayəsizlərə,
Təlimdən kəm-kəsir, dayəsizlərə,
Hörmət dərsi alan yoxdur qardaşım.

Hamı tamahının əsiri olub,
Qulu, qarabaşı, yesiri olub,
Tapdanan palazı, həsiri olub,
İsmət dərsi alan yoxdur qardaşım.

Çoxları qərq olub, qəflətdə yatır,
Düşüb üfunətə, palçığa batır,
Namusu tullayıb, qeyrəti atır,
Riqqət dərsi alan yoxdur qardaşım. [500]

---

[496] Əyib qamətini, qəddini bükür,

[497] *II variant* Averə qarışıb millətin başı,
İşləyir, vurhavur tərəzi daşı.
Paslanıb kotanı, işləmir xışı,
Zəhmət dərsi alan yoxdur qardaşım.

[498] Çoxaldırlar küdurəti, nifrəti.

[499] Çəkən-çəkir zəlaləti, zilləti.

Zəmanə hamını dəllal edibdir,
Alverçi, möhtəkir, baqqal edibdir,
İsmətsiz, həyasız, naqqal edibdir,
Şəriət dərsi alan yoxdur qardaşım.

Kələf düyün düşüb, dolaşıb yaman,
Dağların başını bürüyüb duman,
Kəsməyir bir ara, verməyir aman,
Cürət dərsi alan yoxdur qardaşım. [501]

Toxunma qəlbinə Cəmil Əkbərin,[502]
Elin sənətkarı, ay sədd afərin,
Yara qövr eyləyir, dərindir-dərin, [503]
Hikmət dərsi alan yoxdur qardaşım.

***Cəmil Əkbər*** 14 -19. 01 -1995

## 259. QARDAŞ

Bir zaman hamıdan başda biz idik,
Dəyərsiz olmuşuq dəyərli qardaş.
Zirvədə biz idik, qaşda biz idik,
Qədirsiz olmuşuq, qədirli qardaş.

Zəmanə gör kimin qəlbinə dəydi?
Vurub qamətini yay kimi əydi,
Kimlər nökər oldu, gör kimlər bəydi,[504]
Səbrsiz olmuşuq, səbrli qardaş.

---

[500] *II variant* Qərq olub, qəflətdə yatan çoxalıb,
Üfunət gölünə batan çoxalıb,
Aranı-bərəni qatan çoxalıb,
Xidmət dərsi alan yoxdur qardaşım.

[501] *II variant* 1) Nəqədər vətandaş qaçıb gedibdir, 2) Çoxları vətəndən qaçıb gedibdir,
Didərgin düşübdür, köçüb gedibdir,
Özgə diyarlara uçub gedibdir,
Cürət dərsi alan yoxdur qardaşım.

[502] Toxundun qəlbinə Cəmil Əkbərin.

[503] Bilmirəm yoxdurmu, varmı xəbərin?

[504] Kimlər aqil oldu, gör kimlər səydi.

Təlimi düz verən dayə qalmayıb,
Uğurlu yollardan sayə qalmayıb,
Azalıb üzlərdə həya qalmayıb,
İsmətsiz olmuşuq, ismətli qardaş.

Ürəkdən keçəni danışanmırıq,
İqtidar işinə qarışanmırıq,
Zamanın hökmüylə barışanmırıq,
Hünərsiz olmuşuq, hünərli qardaş.

Qaz kimi nəqədər yolublar bizi?
Cəsarət-cürətdən salıblar bizi?
Nə ucuz tutublar, alıblar bizi?
Şərəfsiz olmuşuq, şərəfli qardaş.

İnsanam deyəndə kamal azalıb,
Qalmayıb əqidə, amal azalıb,
Mənəvi gözəllik, camal azalıb,
Kamalsız olmuşuq, kamallı qardaş.

Doğma yerlərindən qaçan çoxalıb,
Özgə diyarlara köçən çoxalıb,
Qanadsız quş kimi uçan çoxalıb,
Mahalsız qalmışıq, mahallı qardaş.

Düha sahibini gözdən saldılar,
Yoluna məhəl yox, izdən saldılar,
Fürsət ələ keçdi, üzdən saldılar,
Sambalsız olmuşuq, samballı qardaş.

Çəkilən zəhməti zay eylədilər,
Ulduzu doğrayıb ay eylədilər,
Gör kimi-kimlərə tay eylədilər?
Sahibsiz qalmışıq, sahibli qardaş.

Bu dərdi çəkməyə ürək dözməyir,
Sinə tab gətirmir, kürək dözməyir,
Qollar heydən düşüb, bilək dözməyir,
Xidmətsiz olmuşuq, xidmətli qardaş.

Dözməyib bu dərdə, qocaldıq deyən,
İnlədik, sızladıq, sozaldıq deyən,
Günbəgün əriyib, azaldıq deyən,
Gərəksiz olmuşuq, gərəkli qardaş.

Bazar bahalıqdır, dolanmaq olmur,
Düşüb eşq oduna, qalanmaq olmur,
Yüyürmək, hoppanmaq, tullanmaq olmur,
Çörəksiz qalmışıq, çörəkli qardaş.

Nə bazardır, nə baladır düşmüşük?
Gör kimdən inciyib, kimdən küsmüşük?
Əlimizi-ətəyindən kəsmişik,
Hörmətsiz olmuşuq, hörmətli qardaş.

Dövrü-zəmanədə zəlil qalmışıq,
Bədən sağ olsa da, əlil qalmışıq,
Müşkülə düşmüşük, məlil qalmışıq,
Nüsrətsiz olmuşuq, nüsrətli qardaş.

Bir zaman ellərin gözü bizdəydi,
Böyük dühaların sözü bizdəydi,
Getdiyi yolaqlar, izi bizdəydi,
Nicatsız qalmışıq, nicatlı qardaş.

Qəlbimiz düşübdür eşq-həvəsdən,
Toxunub dəyiblər eləbil qəsdən,
Nə çıxar əzizim quru qəfəsdən,
Zəfərsiz qalmışıq, zəfərli qardaş.

***Cəmil Əkbər*** 9. 09 – 1992

## 260. KƏNDLİ QARDAŞIM

***(Dünya fəhlələrinə)***

Bəşər-övladının xeyirxahısan,[505]
Ay fəhlə qardaşım, kəndli qardaşım.
Zəfər dünyasının ümidqahısan.[506]
Ay fəhlə qardaşım, kəndli qardaşım.

---

[505] 1) Övladı-bəşərin xeyirxahısan. 2) Aləmi-bəşərin xeyirxahısan.

[506] 1) Həryanda olsan da gövhər-kanısan. 2) Həryanda olsan da qibləgaısan.
3) Zəhmət övladısan, gövhər-kanısan? 4) Sən bütün xalqların ümidqahısan.

Sənin sərvətinlə el cana gəlir,
Coşub, tüğyan edib alqana gəlir,
Doğulub, törəyir cahana gəlir,
Ay fəhlə qardaşım, kəndli qardaşım. [507]

Nuş edib daddığın çörək sənindir,[508]
Müqəddəs arzular, dilək sənindir,
O məğrur döyünən ürək sənindir,[509]
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Bu dövran, bu qurğu, büsat sənindir,
Bu cahi-cəlallar, həyat sənindir,[510]
Bu dəmdəstgah sənin, barat sənindir,[511]
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Ucalan saraylar, tağlar sənindir,
Tükənməz meyvəli-bağlar sənindir,
Bu gözəl növraqlar, çağlar sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Bu xətir, bu hörmət- izzət sənindir,
Ən nəcib arzular, niyyət sənindir,
Dünyada ən böyük şöhrət sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Salınan körpülər, yollar sənindir,
Xərclənən sərvətlər, pullar sənindir,
Yorulmaq bilməyən qollar sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

---

[507] *II variant* Sənin zəhmətinlə el cana gəlir,
Hissə, həyəcana alqana gəlir,
Yaranır, törəyir cahana gəlir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.
*III variant* Elin bəslədiyi can da sənindir,
Bədəndə dövr edən qan da sənindir,
Şərəf də, şöhrət də, şan da sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[508] Süfrəmdə yeyilən çörək sənindir,

[509] Sinəmdə döyünən ürək sənindir,

[510] Bu cah-calal sənin, barat sənindir,

[511] 1) Bu nüsrət sənindir, nicat sənindir, 2) Koroğlu mindiyi Qırat sənindir.

Gözəl dünyamızda hünər sənindir,
Qələbə sənindir, zəfər sənindir,
Nurlu gələcəyə səfər sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[512]

Hayanda olsan da nəzərimdəsən,
Yadımdan çıxmazsan, güzarımdasan,
Aorta, venamda, ürəyimdəsən,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Sərf olan qüvvələr, zəhmət sənindir,
Edilən qayğılar, xidmət sənindir,
İztirab sənindir, möhnət sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[513]

Ədalət, həqiqət amalın olub,
Ən dərin düşüncə, kamalın olub,
Təbii gözəllik, camalın olub,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[514]

---

[512] *II variant*
Bu zəhmət, bu qeyrət, hünər sənindir,
Qələbə müjdəli zəfər sənindir.
Uğurlu yollarda səfər sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

*III variant*
Azadlıq naminə zəfər sənindir,
Gözəl gələcəyə səfər sənindir,
Dəyanət sənindir, hünər sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[513] *II variant*
Haqq-say sənindir, hörmət sənindir,
Ən vacib, ən gözəl xidmət sənindir,
Hünər, qələbələr, zəhmət sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[514] *II variant*
Dünyada ən böyük kamal sənindir,
Əqidə sənindir, amal sənindir,
Təbii gözəllik, camal sənindir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

*III variant*
Dünyada hamıdan kamallı sənsən,
Vicdanlı, məsləkli, amallı sənsən,
Mənəvi surətli, camallı sənsən,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Bəşər övladını saxlayan sənsən,
Axtarıb, arayıb, yoxlayan sənsən,
Haqqı, ədaləti haqlayan sənsən,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[515]

Sənin zəhmətinlə el başa çatır,
Bürünür zər-ziba, qumaşa çatır,
Son qoyub zülmətə o xoşa çatır,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[516]

Borcluyuq hərzaman haqq-sayına,
Halal sovqatına, dürlü payına,
Lənət nanıkora, lənət xayına,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Sənsən yer üzünün gülüstanı da,
Tarlası, zəmisi, bağ-bostanı da,
Əfsanə, əsatir, hər dastanı da,
Ay fəhlə qardaşım, kəndli qardaşım[517]

Əkən də, səpən də, bitirən də sən,
Bəsləyib, becərib, yetirən də sən,
Damağı dadlara gətirən də sən,
Ay fəhlə qardaşım, kəndli qardaşım[518]

---

[515] *II variant* Bu cahan mülkünü saxlayan sənsən,
Haqqı-həqiqəti yoxlayan sənsən,
Gül kimi ətrini qoxlayan sənsən,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[516] *II variant* Sənin zəhmətinlə çəkildik başa,
Bəzənib-düzənib gəlirik xoşa,
Üz tutduq bahara, son qoyduq qışa,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[517] *II variant* Sənsən ustadları bağın, bostanın,
Gözəl dünyamızın, bu gülüstanın,
Əsatir, əfsanə, böyük dastanın,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[518] *II variant* Əkən də, səpən də, bitirən sənsən,
Becərib, bəsləyiən, yetirən sənsən,
1) Hər elə, obaya gətirən sənsən, 2) Qazanıb götürən, gətirən sənsən,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Yaradan, yaşadan, quran da sənsən,
Sülhün keşiyində duran da sənsən,
Özünü bu yolda yoran da sənsən,[519]
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Aləmi-bəşərin zəhmətkeşisən,
Qayğı çəkənisən, möhnətkeşisən,
Nemət yaradanı, ərsən, kişisən,
Ay fəhlə qardaşım, kəndli qardaşım[520]

Üstün ləkədirsə, qəlbin təmizdir,
Xətirin, hörmətin, ülvi, əzizdir,
Kim deyir zəhmətkeş, quldur, kənizdir?
Ay fəhlə qardaşım, kəndli qardaşım?[521]

Yeyirlər, içirlər bəyzadələrin,
Qədrini bilməyir keyzadələrin,
Sərsəri, kütbeyin səyzadələrin,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Haqqını, sayını itirən də var,
Yolunda kol-koslar bitirən də var,
Günahı boynuna götürən də var,
Ay fəhlə qardaşım, kəndli qardaşım[522]

---

[519] Bu yolda özünü yoran da sənsən,

[520] *II variant* Bəşəri-övladın zəhmətkeşisən,
Dərdini çəkəni, möhnətkeşisən,
Əzaba dözəni, ərsən, kişisən,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

*III variant* Bəşəri-övladın cəfakeşisən,
Zülmünü çəkəni, möhnətkeşisən,
Çörək verənisən, ərsən, kişisən,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[521] *II variant* 1) Üstün kirlidirsə, qəlbin təmizdir, 2) Vicdanın, məsləyin, qəlbin təmizdir,
Xətirin, hörmətin, pakdır, əzizdir,
Xəyalın ümmandır, arzun dənizdir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[522] *II variant* Ar olsun haqqını itirənlərə,
Yolunda kol-koslar bitirənlərə,
Günahı boynuna götürənlərə,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Nanıkor olana vicdan ar olsun,
Dünyada çəkdiyi ahuzar olsun,
Utanıb, qızarsın hamsı xar olsun,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[523]

Sənin xidmətini duymayan da var,
Yoluna, izinə uymayan da var,
Varından, halından doymayan da var,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Zəlitək qanını soranlar da var,
Salıb çətinliyə yoranlar da var,
Eləbil qəsdində duranlar da var,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Girin ittifaqa verin əl-ələ,
Zalım dünyasına salın vəlvələ,[524]
Müqəddəs arzular gəlsin əmələ,[525]
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Çıxarın səsini, deyin sözünü,
Bağlayıb nitqini, döymə gözünü,
Çatıb qabağını, tökmə üzünü,
Ay fəhlə qardaşım, kəndli qardaşım[526]

---

[523] *II variant*
Nanıkor kəslərə vicdan ar olsun,
Çəkdiyi qəm-qüssə, ahuzar olsun,
Əzilib sıxılsın, küllü xar olsun,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

*III variant*
Səni unudana vicdan ar olsun,
Dünyası başına tamam dar olsun,
Utansın, qızarsın tamam xar olsun,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[524] Zülmət dünyasına salın vəlvələ,

[525] 1) Qoymayın yaranıb əmələ gələ. 2) Qoymayın həşərat əmələ gələ, 3) Qoymayın yenidən əmələ gələ.

[526] *II variant*
Məzlumluq eyləyib döymə gözünü,
Nadanlar əlində üzmə özünü,
Çıxarın qərarı, verin sözünü,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Bəşərin taleyi öz əlindədir,
Salıblar yolunu düz əlindədir,
Cığırlar, keçidlər, iz əlindədir,
Ay fəhlə qardaşım, kəndli qardaşım[527]

Saymaqla xidmətin qurtara bilməz,
Haqqını heçkimsə batıra bilməz,
Dərdini-qəmini artıra bilməz,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Cəhalət bəndini dağıdın, qırın,
Dizini sındırın, boynunu burun,
Bəşər dünyasını yenidən qurun,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[528]

Qoymayın dünyada qalmaqal olsun,
Nə qüssə, nə kədər, nə məlal olsun,
Nə dava, nə dalaş, qeyri-hal olsun,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

---

[527] *II variant*
Bəşərin taleyi öz əlindədir,
Ədalət əlində, düz əlindədir,
Salınıb cığırlar, iz əlindədir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

*III variant*
Bəşərin taleyi öz əlindədir,
Haqqın göstərdiyi iz əlindədir,
Doğru yolundadır, düz əlindədir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[528] *II variant*
Zülmün zəncirini həryanda qırın,
Fəzilət nə varsa yenidən qurun,
Haqqın keşiyində dayanın, durun,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

*III variant*
Cəhalət bəndini qıran, sən oldun,
Zalımın boynunu buran sən oldun,
Gözəl dünyamızı quran sən oldun,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

*IV variant*
Oyan cəhalətin buxovunu qır,
Nadanlıq edənin bir boynunu bur,
Zalım dünyasını gəl yenidən qur,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Qoymayın əzilən, əzənlər olsun,
Usanıb canından bezənlər olsun,
Əzab-əziyyətə dözənlər olsun,
Ay fəhlə qardaşım, kəndli qardaşım[529]

Qoymayın yolunu azanlar azsın,
Haqqı-ədaləti pozanlar pozsun,
Doğrunu əyriyə yozanlar yozsun,[530]
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Tarixin çarxını hərləyən sənsən,
Bəşəri saxlayıb girləyən sənsən,
Şahların tacını zərləyən sənsən,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Alim də, loğman da səndən güc alır,
Qanun da, fərman da səndən güc alır,
Kainat, cahan da səndən güc alır,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Həyat mehvərinin tağı səndədir,
Tarix təkərinin bağı səndədir,
Fikirin, xəyalın sağı səndədir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Hamıdan qüdrətli sanıram səni,
Dərk edib duyuram, qanıram səni, [531]
Hər süfrə başında anıram səni,[532]
Ay fəhlə qardaşım, kəndli qardaşım.

---

[529] *II variant* Qoymayın dünyada əzənlər olsun,
1) Avarə dolanan, gəzənlər olsun. 2) Canından əlçəkib bezənlər olsun.
Əzablar içində dözənlər olsun,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

[530] Ayaqlar altından qazanlar olsun,

[531] Yaxşıca dərk edib, qanıram səni,

[532] 1) Axtarıb, arayıb anıram səni. 2) Hərzaman, hər yerdə anıram səni.

Keçmiş də, bu gün də, gələcək sənin,
Zəhmətin bar verib güləcək sənin,
Bədinə gedənlər öləcək sənin,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Saymaqla xidmətin qurtaran deyil,
Haqq-say, hörmətin qurtaran deyil[533]
Şərəfin, şöhrətin qurtaran deyil,[534]
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Heyifki qədrini bilməyən də var,
Yanına getməyən, gəlməyən də var,
Utanıb-qızarıb ölməyən də var,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Sənin hünərinlə qurulur həyat,
Çalxanır, ələnir, durulur həyat,
Bükülür, eşilir, burulur həyat,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Düzəlir cah-calal, kef-damaq, büsat,
Düzəlir dəm-dəstgah, qurulur barat,
Dəyərin, qiymətin bilinmir heyhat,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Qazanan sən oldun, yeyən başqası,
Toxuyan sən oldun, geyən başqası,
Söyülən sən oldun, söyən başqası,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Borcluyuq hərzaman haqq-sayına,
Halal sovqatına, dürlü payına,
Yüz lənət, min lənət, qəlbi xayına,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[535]

---

[533] Yeməklə nemətin qurtaran deyil,

[534] Çəkdiyin zəhmətin qurtaran deyil.

[535] *II variant* Eşq olsun dünyada haqq-sayına,
1) Halal sovqatına, halal payına. 2) Halal zəhmətinə, dürlü payına.
Nifrətlər, lənətlər qəlbi xayına,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Unutmaq olarmı xətir-hörməti?
Sağlam arzuları, saf məhəbbəti,
Deyirəm sözümü, qətidir-qəti,
Ay fəhlə qardaşım, kəndli qardaşım.[536]

Mən səndən öyrəndim mehribanlığı,
Səmimi olmağı, istiqanlığı,
Məcbur ediləndə dəliqanlığı,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Mən səndən öyrəndim dəyanətimi,
Səadət naminə bəyanatımi,
Xeyirxah, sadəlik əlamətimi,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Mən səndən öyrəndim ucalmağı da,
Mərdanə yaşayıb qocalmağı da,
Zəfərlər çalmağı, bac almağı da,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Mən sənə bağladım öz niyyətimi,
Dözümü, durumu, qətiyyətimi,
İradə, gücümü, dəyanətimi,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Mən səndən almışam keyfiyyətimi.
Fikrimi, zikrimi, nəsihətimi,
Oturub-durmağı, ünsiyyətimi,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Mən səndən almışam hərarətimi.
Bacarıq, ləyaqət, fərasətimi,
Zəhmət dünyasında məharətimi,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

---

[536] *II variant* Mən səndən görmüşəm xətir-hörməti,
1) Ülvi arzuları, pak məhəbbəti, 2) Sağlam fikirləri, saf məhəbbəti,
3) Deyirəm sözümü, qətidən-qəti,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Böyük dühalartək kəhkəşanın var,
Həmkarın, həmdəmin, təssübkeşin var,
Qayğını çəkənlər, möhnətkeşin var,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

Yaşa ey əzizim, yaşa ey ata,
Ülvi məqsədinə hey çata-çata,
Gecəni-gündüzə, hey qata-qata,
Ay fəhlə qardaşım, kəndli qardaşım[537]

Üstün çirklisədə, qəlbin təmizdir,
Özün kasıbsansa, arzun dənizdir,
Cəmilin yanında xətrin əzizdir,
Ay fəhlə qardaşım, kəndli qardaşım.

***Cəmil Əkbər*** 1980

## 261. VERMƏLİDİR CAVABI

Nə xəyaldı düşüblər, gicbəsərlər görəsən?
Kəmağıllar, kütbeyin, dəngəsərlər görəsən?
Haqsızlığa yön alıb, ədaləti danırlar,
Doğruluğu görməyib, həqiqəti danırlar.
Nə fikirdi düşüblər, insafını atanlar?
Namərdliklə şərəfə, şan-şöhrətə çatanlar?
İnsafını unudub, ləyaqəti dananlar,
Etibarı, ilqarı, sədaqəti dananlar.
Nə xəyaldı düşüblər, alqanları soranlar?
Xalqı əldən salanlar, incidənlər, yoranlar.
İnsanları bezdirib, zəhlələri tökənlər,
Qaşqabağı çatanlar, qamətləri bükənlər.
Bu bəşərin taleyi niyə yada düşməyir?
Daş ürəklər görəsən, niyə oda düşməyir?
Həqiqətin üzünə niyə pərdə çəkilir?

---

[537] *II variant* Yaşa ey əzizim, dünyaca yaşa,
1) Müqəddəs arzuna hey çata-çata, 2) Fikircə, xəyalca, röyaca yaşa,
Mətləbcə, məzmunca, mənaca yaşa.
Ay fəhlə qardaşım, kəndli qardaşım.

İnsanoğlu günahsız, niyə dərdə çəkilir?
Səbəb nədir görəsən, haqsızlığın boranı?
Əsib-coşub bürüyür, dağı-daşı, aranı?
Nadan oğlu görmürmü, törətdiyi əzabı?
Qaladığı "ocağı", qızartdığı "kababı".
Anlamırmı, bəşərə bədəməllər verirlər?
Nə "becərib", "bəsləyir", nə "yetirib", nə "dərir"?
Zalımoğlu görməyir əməlinin dalını,
Yetirib bəsləmədən vurub tökür kalını.
Düşünməyir nəüçün əməlinin sonunu?
Törətdiyi fitnənin doqquzunu, onunu.
Korladığı əsəbi, qaraltdığı qanı da,
Sındırdığı qəlbləri, çürütdüyü canı da.
Seçə bilmir nə üçün, yaxşı nədir, pis nədir?
Qalay nədir, gümüş nə, qızıl nədir, mis nədir?
Gözəl nədir, çirkin nə, sadə nədir, xudbin nə?
Qüssə nədir, kədər nə, xürrəm nədir, bədbin nə.
Əli-ələ verərək, dili-dilə verərək,
Fitnələri-fitnəyə, feli-felə verərək.
Nə bacardı eylədi, çaldı-çapdı mahalı,
Saymadılar cahalı, pəsinmədi ahalı.
Anlamadı alimi, tanımadı qananı,
Görənmədi dərd çəkib, öz içindən yananı.
Nadan oğlu nadanlar yığdı pulu-paranı,
İnildərtdi, sızlatdı, dağı-daşı, aranı.
Nadan oğlu nadanlar utanmadı, ölmədi,
Xalqa nələr eylədi, düşünmədi, bilmədi.
Dərdə salıb bəşəri, qəhərlədi hamını,
Al-qanını qaraldıb, zəhərlədi hamını.
Göynəməmiş bədəndə bir yaramız qalmadı,
Səbr eyləyib dözməkdən bir çarəmiz qalmadı.
Nadan oğlu nadanlar, niyə gəldi cahana?
Hərbir işə qulp qoyub, gətirdilər bəhanə.
Xeyirxahlıq eyləyib qazanmadı savabı,
İndi məqam çatıbdır, verməlidir cavabı.

***Cəmil Əkbər*** 14.09 -1988

## 262. İKİ GÖZ

*I variant*

İnsan dedikləri iki gözlüdür,
Birisi qəzəblə, hiddətlə baxır.[538]
İki fikirlidir, iki sözlüdür,[539]
Biri məhəbbətlə, nifrətlə baxır.[540]

Biri gördüyünə: "nə olsun? - deyər,
Ya axıb boşalsın, ya dolsun deyər.[541]
Açılır-açılsın, ya solsun deyər,
Birisi hörmətlə, izzətlə baxır.

Birisi hər şeyə darılır yaman,
İçindən partlayıb, qırılır yaman,
Darıxır, karıxır, çatdayır yaman,
Birisi dünyaya ləzzətlə baxır.

Birisi gördüyün götürəndi də,
Bağ salıb, bacarıb bitirəndi də,
Becərib, bəsləyib yetirəndi də,
Birisi dünyaya xiffətlə baxır.

İnsan dedikləri iki əllidir,
Gördüyü işləri bizə bəllidir,
İki düşüncəli, iki dillidir,
Birisi xahişlə, minnətlə baxır.

Hərəsi bircürə yaradıb qurur?
Gəşd edib dünyanı oturub durur?
Ömür karvanını bircürə sürür?
Birisi məzmunla, hikmətlə baxır.

Yaradan əzəldən belə yaradıb,
Birini mülayim, pilə yaradıb,
Birini-birinə kölə yaradıb,
Birisi həvəslə, riqqətlə baxır.

---

[538] Birisi qəzəblə, küdrətlə baxır.
[539] İki astarlıdır, iki üzlüdür,
[540] 1) Biri məhəbbətlə, hiddətlə baxır. 2) Biri məhəbbətlə, diqqətlə baxır.
[541] 1) Boşalan boşalsın, ya dolsun deyər. 2) Hamıya boşalsın, ya dolsun deyər.

İnsan yaranıbdır görüb-götürə,
Əkib yer şumlaya səpib-bitirə,
Estafeti əldən-ələ ötürə,[542]
Birisi zəhmətlə, xidmətlə baxır.

***Cəmil Əkbər***

## 263. İKİ GÖZ

*II variant*

İnsan olan kəslər iki gözlüdür,
Birisi qəzəblə, hiddətlə baxır.
İki astarlıdır, iki üzlüdür,
Birisi töhmətlə, nifrətlə baxır.
Birisi hörmətlə, izzətlə baxır,
Feyziyab olaraq ləzzətlə baxır.

Biri gördüyünə, "nə olsun?" deyər,
Açılır açılsın ya solsun deyər,
Ya axıb boşalsın ya dolsun, deyər,
Gedirsə qoy getsin ya qalsın, deyər.

Birisi gördüyün götürəndi də,
Bağ salıb becərən, bitirəndi də.
Birisi səksənib nə də ürpənir,
Nə heyrətə gəlir, nə də tərpənir.

İnsan dedikləri iki sözlüdür,
İki yolaqlıdır, iki izlidir.
Birisi əyridir, birisi düzdür,
Birisi dərindir, birisi üzdür.

İki ayaqlıdır, iki əllidir,
Gördüyü işləri bizə bəllidir.
Birisi çalışır, yaradır, qurur,
Xidmət göstərərək özünü yorur.

---

[542]Xoş əməli əldən-ələ ötürə.

Birisi qoçaqdır, birisi tənbəl,
Birisi zirəkdir, birisi əngəl.
Birisi güclüdür, qolu zorludur,
Eşqi, məhəbbəti odlu, qorludur.

Yaradan əzəldən yaradıb belə,
Birisi qatıdır, birisi pilə,
Sənsiz də, mənsiz də həyat belədir,
Bu dövran, bu zaman, büsat belədir.

Olana, qalana neyləmək olar?
Nə bəyan eyləyib, söyləmək olar?
İnsan yaranıbdı görüb-götürsün,
Estafeti əldən-ələ ötürsün.

***Cəmil Əkbər*** 4. 10 – 1991

## 264. HƏYAT FƏLSƏFƏSİ

*I variant*

Bu dünya belədir, belədir qardaş,
Kimiyə çox sərtdir, pilədir qardaş.
Kimiyə dayazdır, kimiyə dərin,
Kimiyə istidir, kimiyə sərin.
Kimiyə acıdır, kimiyə şirin.
Kimiyə daş verib, kimiyə zərin.
Kimiyə şəkərdi, zülaldı, baldır,
Kimiyə dəyməyib qoradı, kaldır.
Kimiyə tikandı, kimiyə güldür,
Kimiyə incidir, kimiyə ləldir,
Kimiyə fəsaddır, fitnədir, feldir,
Kimiyə dəryadır, kimiyə göldür.
Axtaran axtarır, tapanlar tapır,
Xətadan-bəladan sapanlar sapır.
Döşürən döşürür, qapanlar qapır,
Özünə qalalar yapanlar, yapır.
Oyanan oyanır, yatanlar yatır,
Arzuya, məsləyə çatanlar çatır.
Yaradan yaradır, quranlar qurur,
Kişitək yaşayıb, duranlar durur.

Boşalan boşalır, dolanlar dolur,
Açılan açılır, solanlar solur.
Gedənlər gedirlər, qalanlar qalır,
Fikir, xəyallara dalanlar, dalır.
Könüllər küsdürüb, alanlar alır,
Zəfərlər təblini çalanlar çalır.
Cücərən cücərir, bitənlər bitir,
Torpağa qarışıb itənlər itir.
Ağlayan ağlayır, gülənlər gülür,
Yaranan yaranır, ölənlər ölür.
Oxuyan oxuyur, bilənlər bilir,
Gözünün torunu  silənlər silir.
Dağılan dağılır, uçanlar uçur,
Başını götürüb qaçanlar qaçır.
Qazanan qazanır, yeyənlər yeyir,
Başına, dizinə döyənlər döyür.
Düzəldən düzəldir, əyənlər əyir,
Toxuyan toxuyur, geyənlər geyir.
İnciyən inciyir, bezənlər bezir,
Səbr edib, tablaşıb dözənlər dözür.
Dərk edib, hiss edən, duyanlar duyur,
Aldanan aldanır, uyanlar uyur.
Düşünən düşünür, sezənlər sezir,
Seyredib həryanı gəzənlər, gəzir.
Soyulan soyulur, soyanlar soyur,
Son günə var-dövlət qoyanlar, qoyur.
Gedənlər gedəcək, gələn gələcək,
Ağlayan ağlayıb, gülən güləcək.
Öyrənən öyrənib, bilən biləcək,
Könlünün pasını silən, siləcək.
Səpilib bəslənən bitən, bitəcək,
Arzuya, mətləbə yetən, yetəcək.
Nə gedənə darılma, nə gələnə darılma!
Nə qalana küsənmə, nə ölənə darılma!
Götürün dünyanın kamını alın,
Fürsəti verməyin, namını alın.
Zülalını çəkin, şamını alın,
Duzunu anlayın, tamını alın.
Arıtək şirəni, balını çəkin,

Dəymişi, sütülü, kalını çəkin.
Bu dünya görənin, götürənindir,
Calayıb bağları bitirənindir.
Çalışıb düzəldin, əyəndən olma!
Gözünü yollarda döyəndən olma!
Nə boşalıb gedənə, nə dolana darılma!
Nə kasıba, fəqirə, nə kalana darılma!
Deyirlərki dəyirman bildiyini eləyir,
Çaxçax isə bir təhər, öz başını girləyir.

***Cəmil Əkbər*** 6. 10 – 1991

## 265. HƏYAT FƏLSƏFƏSİ

*II variant*

Yaşayan yaşayır, ölənlər ölür,
Ağlayan ağlayır, gülənlər gülür.
Gedənlər gedirlər, gələnlər gəlir.
Oxuyan oxuyur, bilənlər bilir.

Axtaran axtarır, tapanlar tapır,
Götürən götürür, qapanlar qapır.
Yayınan yayınır, sapanlar sapır,
Quruyan quruyur, hopanlar hopur.
Oyanan oyanır, yatanlar yatır,
Arzuya, məqsədə çatanlar çatır.
Boşalan boşalır, dolanlar dolur,
Açılan açılır, solanlar solur.
Cücərən cücərir, bitənlər bitir,
Tapılan tapılır, itənlər itir.
Dağılan dağılır, uçanlar uçur,
Büdrəyən büdrəyir, qaçanlar qaçır.
Qazanan qazanır, yeyənlər yeyir,
Düzəldən düzəldir, əyənlər əyir.
İncidən incidir, bezənlər bezir,
Səbr edib, tablaşıb dözənlər dözür,
Avarə dolanıb gəzənlər, gəzir.
Tər töküb canını qoyanlar qoyur,
Soyulan soyulur, soyanlar soyur.
Gedənlər gedəcək, qalandan olun,

Zəfərlər təblini çalandan olun.
Baxıb əməlinə güləndən olun,
Oxuyub öyrənib biləndən olun.
Səpilib cücərən, bitəndən olun,
Dar gündə haraya yetəndən olun.
Götürüb dünyanın kamını alın,
Verməyin fürsəti, namını alın.
Zülalını çəkin, camını alın,
Duzunu anlayın, tamını alın.
Arıtək şirəni, balını bəslə,
Dəymişini yeyin, kalını bəslə.
Bu dünya görənin, götürənindir,
Bağ salıb, becərib bitirənindir.
Çalışıb düzəldin, əyəndən olma!
Başına-dizinə döyəndən olma!
Nə gedənə sevinmə, nə gələnə darılma!
Nə yaşayıb qalana, nə ölənə darılma!
Nə kasıba ağrıma, nə kalana darılma!
Çalxalanıb, qaynayıb, nə dolana darılma!
Deyirlərki dəyirman bildiyini eləyir,
Çaxçax başın ağrıdır, elə-belə girləyir.

***Cəmil Əkbər*** 6. 10 – 1991

## 266. BELƏ GÖRMƏDİM

Ünsiyyət ülfətdə hörmət var idi,[543]
Mən elə görmüşdüm, belə görmədim.
Kəramət var idi, hikmət var idi,[544]
Mən elə görmüşdüm, belə görmədim.

Mən ata sanırdım qocaları da,
Mövqedə hamıdan ucaları da,
Axundu, qazını, hacıları da,[545]
Mən elə görmüşdüm, belə görmədim.

---

[543] Ünsiyyət ülfətdə mürvət var idi.
[544] Oturub durmaqda hikmət var idi.
[545] Axundu, mollanı, hacıları da.

Hamını özümə qardaş sanırdım,
Vəfalı dost-tanış, yoldaş sanırdım,
Həmkar anlayırdım, sirdaş sanırdım,[546]
Mən elə görmüşdüm, belə görmədim.

Mən elə oxuyub, elə öyrəndim,
Böyüyü özümə lələ öyrəndim,
Qana-qana, bilə-bilə öyrəndim,
Mən elə görmüşdüm, belə görmədim.

Etibar, etiqad, vəfa bol idi,
Sürürdük dövranı, səfa bol idi,
Dərdlərə dərmanlar, şəfa bol idi,
Mən elə görmüşdüm, belə görmədim.

Münasibətlərdə inam var idi,
Bəxşeyiş, nəmərlər, ənam var idi,
Əqidə-məsləkdən binam var idi,
Mən elə görmüşdüm, belə görmədim.

Biz ülvü sanmışdıq beynəlmiləli,
Sanmayın sözümü əsla gülməli.
Nədir məchul qalan, nədir şübhəli?
Mən elə görmüşdüm, belə görmədim.

Obalar, oymaqlar, ellər bir idi,[547]
Fikirlər, xəyallar, dillər bir idi,
Yaşadan, yaradan əllər bir idi,
Mən elə görmüşdüm, belə görmədim.

Elə tanımışdıq loğmanları da,
Düşünüb dərk edən, qananları da,
Aşiqi, məşuqu, cananları da,
Mən elə görmüşdüm, belə görmədim.

---

[546] Ən yaxın həmfikir sirdaş sanırdım.
[547] Cığırlar, keçidlər, yollar bir idi.

Əzəldən can deyib, can eşidərdik,[548]
Süfrələr açardıq, nan eşidərdik,
Oxu anla deyib, qan eşidərdik,
Mən elə görmüşdüm, belə görmədim.

Ötüşdü dövranlar, dəyişdi zaman,
Vermədi heçkəsə, nə fürsət, aman.[549]
Qarışdı din-məzhəb, dəyişdi iman,
Mən elə görmüşdüm, belə görmədim.

Xətir xətir idi, hörmət də hörmət,
İnsaf insaf idi, mürvət də mürvət,
Abır abır idi, ismət də ismət,
Mən elə görmüşdüm, belə görmədim.

Əyri əyri idi, düz də düz idi,
Dərin dərin idi, üz də üz idi,
Söhbət söhbət idi, söz də söz idi,
Mən elə görmüşdüm, belə görmədim.

Oğul oğul idi, qız da qız idi,
Payız payız idi, yaz da yaz idi,
Ədəb ərkan idi, naz da naz idi,
Mən elə görmüşdüm, belə görmədim.

Arvad arvad idi, kişi də kişi,
Erkək erkək idi, dişi də dişi,
Alim alim idi, naşı da naşı,
Mən elə görmüşdüm, belə görmədim.

Dəyişdi zamanın gərdişi yaman,
Adət-ənənəsi, vərdişi yaman,
Xeyirxah işləri, şər işi yaman,[550]
Mən elə görmüşdüm, belə görmədim.

---

[548] Can deyib hamıya, can eşidərdik.
[549] Vermədi bir ara, vermədi aman.
[550] 1) Xeyir işi yaman, şər işi yaman. 2) Hər sözü-söhbəti, hər işi yaman.

Sayılan var idi, sayan var idi,
İşi öz səmtinə qoyan var idi,[551]
İnsandan-insana həyan var idi,[552]
Mən elə görmüşdüm, belə görmədim.

Üzlərdə, gözlərdə həya var idi,
Əqidə var idi, qayə var idi,
Tutarlı, samballı dayə var idi,[553]
Mən elə görmüşdüm, belə görmədim.

Dükan dükan idi, bazar da bazar,
Səfər səfər idi, güzar da güzar,
Yuli Yuli idi, Sezar da Sezar,[554]
Mən elə görmüşdüm, belə görmədim.

İnsan arasında diqqət var idi,
Fəzilət var idi, riqqət var idi,
Şərafət var idi, şöhrət var idi,[555]
Mən elə görmüşdüm, belə görmədim.

Hərkəs birbirinə gərəkli idi,
Xeyir-bərəkətli, çörəkli idi,[556]
Xoş arzu istəkli, diləkli idi,[557]
Mən elə görmüşdüm, belə görmədim.

Biz ümid bəslərdik sabahkı günə, [558]
Oyanıb qalxardıq bu səsə, ünə,
Nə deyim, anlayıb qanasan sənə? [559]
Mən elə görmüşdüm, belə görmədim.

---

[551] Hər işi səmtinə qoyan var idi.
[552] Sirri aşkar edən, bəyan var idi.
[553] İnsandan-insana sayə var idi.
[554] Hakim hakim idi, qərar da qərar.
[555] Qayğılar göstərmək, xidmət var idi.
[556] Barlı-bərəkətli, çörəkli idi.
[557] Açardı süfrəni, ürəkli idi.
[558] Hamı ümid idi sabahkı günə.
[559] 1) Görəsən gələrmi o zaman yenə? 2) Görəsən gələrmi o dövran yenə?

Əvvəlki səxavət, kəramət hanı?
Şan-şöhrət necoldu, şərafət hanı?[560]
Mənəvi sərvətlər, var-dövlət hanı?
Mən elə görmüşdüm, belə görmədim.

Demə tərif edir, köhnə zamanı,
Bünövrə zamanı, dəhnə zamanı,[561]
Kino lentasıtək, səhnə zamanı,
Mən elə görmüşdüm, belə görmədim.

Verən də, alan da, az idi o vaxt,
Boşalıb dolan da, az idi o vaxt,
Zəhmətsiz kalan da az idi o vaxt,
Mən elə görmüşdüm, belə görmədim. [562]

Yolunu-izini azan az idi,
Ayaqlar altından qazan az idi,[563]
Doğrunu tərsinə yozan az idi,
Mən elə görmüşdüm, belə görmədim.

Gecəni-gündüzlü çalışan vardı,
Tərləri torpağa qarışan vardı,
Düşüb bəhsə-bəhsə yarışan vardı,
Mən elə görmüşdüm, belə görmədim.

Kiçiklər böyükdən pəsinərdilər,
Eşidib adını səksənərdilər,
Xof edib qorxaraq diksinərdilər,
Mən elə görmüşdüm, belə görmədim.

İlahi sən saxla bəşəriyyəti,
Vətən övladını, bu cəmiyyəti,
Yenə bərqərar et səmimiyyəti,
Mən elə görmüşdüm, belə görmədim.

---

[560] 1) Ədəb-ərkan hanı, nəzakət hanı? 2) Nəciblik, zəriflik, məlahət hanı?
[561] Bünövrə, təməli, dəhnə zamanı.
[562] *II variant* Verən də, alan da, az idi onda.
Zəhmətsiz kalan da az idi onda.
1) Xəyala dalan da az idi o vaxt, 2) Saxtalıq, yalan da az idi onda.
Mən elə görmüşdüm, belə görmədim.
[563] Ülfət-ünsiyyəti pozan az idi.

İnsan birbirindən həyalanardı,
Əqidə götürüb qayələnərdi,
Halal tikəsilə mayalanardı,
Mən elə görmüşdüm, belə görmədim.

Meyl edən az idi, tamahasarı,
Xətaya, bəlaya, günahasarı,[564]
Ümid bəsləyərdi sabahasarı,[565]
Mən elə görmüşdüm, belə görmədim.

Yaxşı yaxşı idi, pis də pis idi,
Qızıl qızıl idi, mis də mis idi,
Höcət höcət idi, tərs də tərs idi, [566]
Mən elə görmüşdüm, belə görmədim.

Ata ata idi, oğul da oğul,
Şəkər şəkər idi, noğul da noğul,
Zəka zəka idi, ağıl da ağıl,
Mən elə görmüşdüm, belə görmədim.

Ədəb yerindəydi, ərkan yerində,
Bazar yerindəydi, dükan yerində,
Gəmi yerindəydi, sükan yerində,
Mən elə görmüşdüm, belə görmədim.

Pozula-pozula bu günə düşdük,
Yozula yozula bu günə düşdük,
Kələfi dolaşdı, bu günə düşdük,
Mən elə görmüşdüm, belə görmədim.

Arzu-arzu idi, niyyət də niyyət,
Dəyər dəyər idi, qiymət də qiymət,
Dövlət dövlət idi, hökmət də hökmət,
Mən elə görmüşdüm, belə görmədim.

---

[564] Qarğışa, naləyə, nə aha sarı.
[565] Baxıb boylanardı sabaha sarı.
[566] Xain xain idi, nəs də nəs idi.

Qanun qanun idi, qayda da qayda,
Qazanc qazanc idi, fayda da fayda,
Çömçə çömçə idi, bayda da bayda,
Mən elə görmüşdüm, belə görmədim.

Şəhər şəhər idi, kənd də kənd idi,
Tədbir tədbir idi, fənd də fənd idi,
Noğul noğul idi, qənd də qənd idi,
Mən elə görmüşdüm, belə görmədim.

Təpə təpə idi, dağ da dağ idi,
Kol-kos kol-kos idi, bağ da bağ idi,
Pendir pendir idi, yağ da yağ idi,
Mən elə görmüşdüm, belə görmədim.

Hərkəs öz işində, gücündə idi,
Alırdı nəzərə, vecində idi,
Özünün günahı, suçunda idi,
Mən elə görmüşdüm, belə görmədim.

Nəyaman dəyişdi gördüklərimiz?
Eşidib, öyrənib, bildiklərimiz?
Becərib, bəsləyib dərdiklərimiz?
Mən elə görmüşdüm, belə görmədim.

Nəyaman dəyişdi cəmiyyətimiz?
İradə, dəyanət, qətiyyətimiz?
Sağlam fikirimiz, saf niyyətimiz?
Mən elə görmüşdüm, belə görmədim.

Bəşərin özünün dühası vardı,
Mənəvi aləmi, dünyası vardı,
Nəzəri fikiri, xülyası vardı,
Mən elə görmüşdüm, belə görmədim.

Qələbə pozuldu, zəfər pozuldu,
Cəsarət, dəyanət, hünər pozuldu,
Nurlu gələcəyə səfər pozuldu,
Mən elə görmüşdüm, belə görmədim.

İlahi sən saxla bəşəriyyəti,
Vətən övladını, bu cəmiyyəti,
Yenə bərqərar et səmimiyyəti,
Mən elə görmüşdüm, belə görmədim.

Hamı bir-birilə canhacan idi,
Sığınıb dururdu, mehriban idi,
Haçandan bəridir anbaan idi,
Mən elə görmüşdüm, belə görmədim.

Hərkəs bir-birinə yoldaş deyərdi,
Vəfalı dost-tanış, qardaş deyərdi,
Arzu bir, istək bir, sirdaş deyərdi,
Mən elə görmüşdüm, belə görmədim.

Hamı bir-birini əldə tutardı,
Dəstə də bağlayıb, gül də tutardı,
Gün nədir, ay nədir, il də tutardı,
Mən elə görmüşdüm, belə görmədim.

Hamı düşünərdi xalqı, bəşəri,
Haqqa yönəlmişdi meyli, nəzəri,
Qibləsi sanardı Bakı, Xəzəri,
Mən elə görmüşdüm, belə görmədim.

Boşalan var idi, dolan var idi,
Açılan var idi, solan var idi,
Ölənlər var idi, qalan var idi,
Mən elə görmüşdüm, belə görmədim.

Bilmirəm hayana gedir bu bəşər?
Vuruşub didişir, xeyr ilə şər?
Necə açılacaq görəsən səhər?
Mən elə görmüşdüm, belə görmədim.

İlahi hamıya ağıl ver indi,
Sərrast ver, kamil ver, mağıl ver indi,
Oxusun, öyrənsin nağıl ver indi,
Mən elə görmüşdüm, belə görmədim.

İnsan əlçəkərmi gördüklərindən?
Eşidib, öyrənib bildiklərindən?
Becərib, bəsləyib dərdiklərindən?
Mən elə görmüşdüm, belə görmədim.

İnsan əlçəkərmi öz adətindən?
Doğru ənənəsi, düz adətindən?
Dərin adətindən, üz adətindən?
Mən elə görmüşdüm, belə görmədim.

Zəmanə dəyişib anla ay Cəmil,[567]
Onu az kötəklə, yanla ay Cəmil,
Məzəmmət eyləyib, danla ay Cəmil,
Mən elə görmüşdüm, belə görmədim.

***Cəmil Əkbər*** 9.09-1991

## 267. NƏ DEYİM?

Dünən görün kim idik, bu gün kimlər olmuşuq?
İnildəyən, sızlayan, qırıq simlər olmuşuq.
Dünən ilham alırdıq, bu gün qəhər çəkirik,
Dünən zülal çəkirdik, bu gün zəhər çəkirik.
Xoş keçirdi zəmanə, dövranımız, günümüz,
Yer-göyə səda salıb, bürüdü səs-ünümüz.
Dəyirmanda vurhavur üyünürdü dənimiz,
Qəlbimizdə yox idi, nisgilimiz, kinimiz.
Cıra peyvənd vuraraq, bağban bağa baxardı,
Bostanları becərib, dürlü tağa baxardı.
İnsanlardan-insana xətir-hörmət var idi,
Ünsiyyətdə-ülfətdə, insaf-mürvət var idi.
Könüllərin diyarı məhəbbət bəsləyərdi,
Sədaqət bəsləyərdi, səxavət bəsləyərdi.
Səmimilik var idi, mehri-ülfət var idi,
Səadətlər naminə şirin söhbət var idi.
Həmkar idik hamımız, sirdaş idik hamımız,

---

[567] Zəmanə başqadır anla ay Cəmil.

Əqidədə, məsləkdə yoldaş idik hamımız.
Hünərlərdə, zəfərdə əlbir idik hamımız,
Sözbir idik hamımız, dilbir idik hamımız.
Danışıqda, söhbətdə yalan-palan yox idi,
Vicdanını, məsləyi alıb-satan yox idi.
İndi zaman dəyişdi, sarvan çaşdı yolunu,
Doğru gedə bilməyir, karvan çaşdı yolunu.
İndi ülfət pozuldu, ünsiyyətlər pozuldu,
Xətir-hörmət, hərnəvar, yerbəyerdən azaldı.
Əyri düzə yozuldu, düz əyriyə yozuldu,
Şahrah yollar dağıldı, dərin quyu qazıldı.
Ürəkdəki təpər də, riqqətlər də pozuldu,
Nəzərlər də yayındı, diqqətlər də pozuldu.
Hər addımın başında qəbahətlər törəyir,
Kin-küdurət çoxalır, ədavətlər törəyir.
Ürəklərdə xəbislik, xəyanətlər çoxalır,
Yerli-yersiz söz-söhbət, bəyanatlər çoxalır.
Oğruluqlar, əyrilik, cinayətlər çoxalır,
Giley-güzar, qalmaqal, şikayətlər çoxalır.
Əhdi-peyman qalmadı, ilqar-iman qalmadı,
Yetiş dada Xudayə, ay dad-aman qalmadı.
Dərrakədən, kamaldan bütə döndü bu bəşər,
İtirərək ağlını, kütə döndü bu bəşər.
İndi əsər qalmayıb, insanlardan-insana,
Söz də əsər etməyir, cahillərə, nadana.
Zəmanəni bu günə, qoyanlara nə deyim?
Dühaların gözünü oyanlara nə deyim?

***Cəmil Əkbər*** 14. 09 – 1996

## 268. OXU BU MƏKTUBU

Oxu bu məktubu ay vətən oğlu,
Nə vaxtdan bəridir cəhalətdəsən.
Qulaqların səqir, gözlərin bağlı,[568]
Nadanlıq içində qəbahətdəsən.[569]

---

[568] İtirmə düşüncə, dərrakə, ağlı.
[569] Avamlıq hökm edir, qəbahətdəsən.

Qəlbində yaşayır, kinin nəqədər?
İblisin, əqrəbin, cinin nəqədər?
Yolunu göstərir dinin nəqədər?
Düz yola gəlmirsən, xəyanətdəsən.[570]

Haçandan bəridir qovğa-qaldasan?
Özün də bilmirsən heç nə haldasan?
O səbəbdən hər millətdən daldasan,
Davada-dalaşda, ədavətdəsən.[571]

Düzələ bilmirsən doğru yollara,
Qurşanıb gedirsən əyri yollara,
Özgə fikirlərə, qeyri yollara,
Xətada-bəlada cinayətdəsən.

Davadan-dalaşdan açılmır başın,
Dolaşıb kələfin, dolaşıb işin,
Gödəlir ömürün, kəsilir yaşın,
Xətada, bəlada cinayətdəsən.

Tapdanır hüququn, tapdanır haqqın,
Nəqədər istəsən güc verib zıqqın?
Bir deyil, beş deyil vicdanı satqın,
Gileydə, güzarda şikayətdəsən.

Nəqədər deyilib qana bilmirsən?
Xalqının dərdinə yana bilmirsən,
Atıb avamlığı dana bilmirsən,
Düşüb müsibətə fəlakətdəsən.[572]

---

[570] Paxıllıq, xainlik, xəyanətdəsən.

[571] *II variant* Düşmüsən nəyaman qovğa-qaldasan?
Əyri fikirlərdə, əyri yoldasan?
O səbəbdən geridəsən, daldasan,
Davada-dalaşda, ədavətdəsən.

[572] *II variant* Nəqədər deyilib əsəri yoxdur,
Tükənib faydası, səməri yoxdur,
İtibdir, batıbdır, xəbəri yoxdur,
Taleyin bəd gəlib, fəlakətdəsən.

Xainlik, xəbislik qəlbini didir,
Kimsəyə bəllidöy nə məqsəd güdür?
Bu yazıq millətə gör nələr edir?
Düşmüsən zindana zəlalətdəsən.

İblislər, əqrəblər başını qatıb, [573]
Fikrini çaşdırıb, huşunu qatıb,
Əməlini qatıb, işini qatıb,
Bilmirsən ay yazıq nə halətdəsən.[574]

Ülfət-ünsiyyəti pozub gedirsən,
Doğrunu əyriyə yozub gedirsən, [575]
Yolunu-izini azıb gedirsən,
Özün də bilmirsən nə niyyətdəsən.

Öldürən də sənsən, ölən də sənsən,
Ağlayan da sənsən, gülən də sənsən,
Gözünün yaşını silən də sənsən,
Sanma ki, fəhmdə, fərasətdəsən?

Haçandan silinmir qəlbinin pası,
Azalmır matəmi, yox olmur yası,
Baxdırma falına, qurdurma tası,
Qəzəbdə, hiddətdə, küdurətdəsən.

***Cəmil Əkbər*** 24. 05 – 1993

## 269. ŞİKAYƏT

Niyə doğulmayır Nizamim yenə?
Oyanıb gəlməyir Fizulim yenə.
Nəsirəddin Tusi, Xəqanim yenə,
Nəsimi, Hadimiz, Sabirim yenə.
Seyid Əzim Şirvani, Cəlilim yenə,
Vidadim, Vaqifim, Səmədim yenə.
Xalqımız qərq olub dumana, çənə,
Gəlməyir səs-küyə, gəlməyir ünə.

---

[573] Tamahın, nəfisin başını qatıb.
[574] 1) Bilən yox ay yazıq nə halətdəsən. 2) Özün baş açmırsan nə halətdəsən.
[575] Doğrunu tərsinə yozub gedirsən.

Hayanda qalıbdır kamal sahibi,
Əqidə sahibi, amal sahibi.
Xalqımız yolunu, izini çaşıb,
Əyrisini çaşıb, düzünü çaşıb.
Böhtan deyən çoxdur, şər deyən çoxdur,
Hər zirə-zibilə, zər deyən çoxdur.
Kor olub yaxşıya, pis deyən artıb,
Xeyirxah kəslərə, nəs deyən artıb,
Qızıla, gümüşə, mis deyən artıb.
Yolunu, izini azan çoxalıb,
Şər-böhtan danışan, yazan çoxalıb.
İnciyib-küsənlər, bezən çoxalıb,
Əzab-əziyyətə dözən çoxalıb,
Ünsiyyət-ülfəti pozan çoxalıb.

Niyə doğulmayır Nizamim yenə?
Nəsimi, Xəqani, Fizulim yenə,
Seyid Əzim Şirvani, Sabirim yenə,
Vaqifim, Vidadim, Səmədim yenə,
Cavadım, Cavidim, Müşviqim yenə,
Gəlməyir səs-küyə, gəlməyir ünə,
Xalqımız qərq olub yaman pis günə.

***Cəmil Əkbər***

## 270. NƏ DEYƏSƏN?

Gör haçandan dövr eyləyir, cəhalətdə günlər keçir,
Avamlıqda, nadanlıqda, qəbahətdə günlər keçir.
Şər danışıb, böhtan deyib, ünsiyyəti korlayırlar,
Qəlbə dəyib, qan qaraldıb, hissiləri zorlayırlar.
Fitnə-fəsad işlədərək, aralığı qatan da var,
İnsafını, vicdanını kor qəpiyə satan da var.

Bədəməllər törədənə, tutanlara nə deyəsən?
Qəflətlərdə qərq olaraq yatanlara nə deyəsən?
Onu-bunu aldadana, yalançıya nə deyəsən?
El varını talan edən, talançıya nə deyəsən?
Nanəcibə, namərdlərə, naqislərə nə deyəsən?

Paxıllara, xainlərə, xəbislərə nə deyəsən?
Tamahkara, acgözlərə, hərislərə nə deyəsən?
Bədəsildən törəyənə, nacinslərə nə deyəsən?
Əqrəblərə, ilanlara, iblislərə nə deyəsən?
Yaramaza, alçaqlara, o pislərə nə deyəsən?

Bir ha deyil, beş ha deyil, fikirləri dolaşdıran,
Əyriyə-düz, düzə-əyri, ağa qara bulaşdıran.
Hiyləgərə, kələkbaza, dələduza nə deyəsən?
İnsafsıza, mürvətsizə, qəlbi buza nə deyəsən?
Avamlıqdan əlçəkməyən, nadanlara nə deyəsən?
Tərbiyədən ala-yarı, dadanlara nə deyəsən?

Bir ha deyil, beş ha deyil, al-qanını qaraldan kəs,
Əsəbini tarım çəkib, gen dünyanı daraldan kəs.
Ədəb-ərkan, nəzakətsiz olanlara nə deyəsən?
Əl-ayaqda qalanlara, solanlara nə deyəsən?
Təsadüfi şan-şöhrətə çatanlara nə deyəsən?
İxtiyara, sədarətə çatanlara nə deyəsən?
Ədaləti, həqiqəti boğanlara nə deyəsən?
Bu yolla zühur eyləyib, doğanlara nə deyəsən?

Bir ha deyil, beş ha deyil, ünsiyyəti korlayanlar,
İnsanlığa qənim çıxan, ləyaqəti xorlayanlar,
Görə-görə görməyənə, o korlara nə deyəsən?
Ha deyirsən, eşitməyir, bu karlara nə deyəsən?
Qınamıram mən heçkəsi, bu dövrana nə deyəsən?
Gəlib çıxdıq görün hara, bu zamana nə deyəsən?
Qanunları, qaydaları pozanlara nə deyəsən?
Tərsəməssəb çevirənə, yozanlara nə deyəsən?

***Cəmil Əkbər*** 28. 01 -1994

## 271. NƏ DEYƏSƏN?

Söz çatmadı, yetişmədi, nadanları qandırmağa,
Kütbeyinə, kəmağıla, başıboşa nə deyəsən?
İşığını yandırmağa, ocağını qalamağa,
Vicdanı kəm, məsləyi kəm, qəlbidaşa nə deyəsən?

Çağırırsan eşitməyir, dediyini qana bilmir,
Ocağına köz qoyursan, üfürürsən yana bilmir,
Qatlayırsan əyilməyir, ha döyürsən sına bilmir,
İnsanlığa qənim çıxan, qəlbidaşa nə deyəsən?

Zaman keçib, yaş ötsə də, saç-saqqalı ağarmayıb,
Yetişməyib dərrakəsi, nə kamalı ağarmayıb,
Əqidəsi, nə məsləyi, nə amalı ağarmayıb,
Beylə ömür, beylə günə, beylə yaşa nə deyəsən?

Gül-çiçəkli yaz gəlsə də, sırsırası əriməyib,
Dəng eyləyir başımızı, nağarası kiriməyib,
Əzaları qarısada bir giləsi çürüməyib,
Beylə soyuq, beylə ayaz, payız, qışa nə deyəsən?

Çox deyirsən çoxu qanmır, az deyirsən azı qanmır,
Tar çalırsan tarı qanmır, saz çalırsan sazı qanmır,
Ərk edirsən ərki qanmır, naz edirsən nazı qanmır,
Filə hürən tulalara, alabaşa nə deyəsən?

Dinlədikcə qan qaralır, nifrət artır sözünə də,
Qəzəb artır, kin çoxalır, hiddət artır özünə də,
İstəmirəm boylanasan həyasızın üzünə də,
Beylə burun, beylə qulaq, beylə başa nə deyəsən?

Niyyəti pis bayquşlara, sar olana acıyıram,
Qəlbi dolu iblis, əqrəb, mar olana acıyıram,
El içində bədəməldən, xar olana acıyıram,
Beylə fikir, beylə xəyal, beylə huşa nə deyəsən?

Bir ha deyil, beş ha deyil, cəhalətdə gün keçirən,
Avamlıqla ömür sürüb, qəbahətdə gün keçirən,
Dava-dalaş, qal-qovğada, ədavətdə gün keçirən,
Beylə kifir, eybəcərə, beylə qaşa nə deyəsən?

Cəmil Əkbər, nə yazsan da sözlərinin əsəri yox,
Götürən yox faydasını, birkimsəyə səməri yox,
İtib-batır aralıqda, müjdəsi yox, nəməri yox,
Beylə səsə, beylə küyə, beylə guşa nə deyəsən?

***Cəmil Əkbər*** 6. 02 – 1994

## 272. NƏ DEYƏSƏN?

Heç bilmirəm nə deyəsən?
Dədəni də danan vardır.
Nifrət edib nə söyəsən?
Babanı da danan vardır.

Öz vətəni, öz elini,
Öz əlini, öz dilini,
Yanılan var, danan vardır.
Bəyənməyir nənəsini,
Əzir-büzür çənəsini,
Xoşlamayır anasını,
Məhəbbətin binasını.
Unudaraq məsləyini,
Vicdanını danan da var.
Anlamayır xətir-hörmət,
Ədəb-ərkan ya mərifət.
Ünsiyyətdə ədaləti,
Doğruluğu, həqiqəti.
Sədaqəti danan da var,
Səxavəti danan da var.
Gör nəqədər nanıkor var?
Bədxahlar var, ziyankar var.

Heç bilmirəm nə deyəsən?
Ləyaqəti danan da var,
Şərafəti danan da var.
Neyləyəsən dönüklərə?
Vicdanından sönüklərə.
Yoldaşı da danan da var,
Qardaşı da danan da var,
Haqq-sayı danan da var,
Görə-görə kor olan var,
Lal olan var, kar olan var.
Nə deyəsən beləsinə?
Tamahının köləsinə?
Xidməti də danan da var,
Çörəyi də dadan da var,

Köməyi də dadan da var.
Haqa doğru gözlərini,
Yumanlar da az deyil.
Bataqlığa, çamırlığa,
Cumanlar da az deyil.
Yalan-palan danışanlar,
Deyənlər də az deyil.
Doğru-dürüst, düz işi,
Əyənlər də az deyil.
Ünvanlara danışan,
Söyənlər də az deyil.
Haqq-nahaqdan aranı,
Qatanlar da az deyil.
Vicdanını, məsləyi,
Satanlar da az deyil.
Min sifətlə məqsədə,
Çatan da var əzizim.
Qərq olaraq qəflətdə,
Yatan da var əzizim.
Yaxşıları görməyən,
Atan da var əzizim.
Kol-kos olub ayağa,
Batan da var əzizim.
Köpək olub sahibini,
Tutan da var əzizim.
İnsan gərək bunları,
Öz yerində tanısın.
Enişlərdə, yoxuşda,
Bərkdə-boşda sınasın.

***Cəmil Əkbər***

## 273. DEYƏSƏN

Qüvvətim günbəgün azalıb gedir,
Bədəni girləmir başım deyəsən.
Varlığım sarsıyıb, sozalıb gedir,
Gətirmir xəyalım huşum deyəsən.[576]

---

[576] Köməyə çatmayır huşum deyəsən.

Zamanın işinə dözə bilmirəm,
Fikirsiz, xəyalsız gəzə bilmirəm,
Həyat çox şirindir, bezə bilmirəm,[577]
Tutulur qabağım, qaşım deyəsən. [578]

Zəmanənin etibarı bu imiş,
Əhdi-peyman düz ilqarı bu imiş,
Əvvəl-axır beh-bazarı bu imiş,
Baxmayır sözümə yaşım deyəsən.[579]

İxtiyar, sədarət əldə qalmayır,
Bacarıq, məharət əldə qalmayır,
Əvvəlki təravət əldə qalmayır,
İtirir tamını aşım deyəsən.

Fələyin işinə nə sözümüz var?
Üzünə çıxmağa nə üzümüz var?
Nə qüvvəmiz çatır, nə gücümüz var?
Seyrəlir çağdaşlar, tuşum deyəsən. [580]

Zəyifləyir əzələ də, dəri də,[581]
Bəhsəbəsdən qalan yoxdur geridə,
Əzalardan sağlam qalmır biri də,
Yetməyir karıma dişim deyəsən.[582]

Dolandı zəmanə qocaldım getdim,
Günbəgün əridim, sozaldım getdim,[583]
Çevrilib tərsinə yozuldum getdim,[584]
Çəkir imtahana qışım deyəsən.

Qəlbimin başını qəhər bürüdü,
Çəkmək də mümkün döy, kədər bürüdü,
Nəimiş təqsirim, hədər bürüdü?
Azalıb həvəsim, xoşum deyəsən.

---

[577] Tablaşıb, sinirib bezə bilmirəm.
[578] Tutulub-çatılır qaşım deyəsən.
[579] Sözümə baxmayır yaşım deyəsən.
[580] Seyrəlir çağdaşım, tuşum deyəsən,
[581] Əzalardan sağlam qalmır biri də.
[582] Karıma yetməyir dişim deyəsən.
[583] Əridim mum kimi, azaldım getdim.
[584]Yoluma-izimə düzəldim getdim.

Əfsuslar, arxamca danışan da var,
Yalandan üzümə irişən də var,
Dar ayaqda qaçıb süyüşən də var,
Ağırdır başlara daşım deyəsən.

Öyüd çox verilib, qananlar azdır,
Sanıram çoxunun ağlı dayazdır,
Haqq-say axtarıb, ananlar azdır,
Günbəgün çoxalır naşım deyəsən.

Sərraflar tapılmır söz gövhərinə,
Fəhmin-fərasətin öz gövhərinə, [585]
Alimlər nəslinə, biz gövhərinə,[586]
Gərəksiz görünür peşəm deyəsən.[587]

İstərdim xalqımı yetirib gedəm,
Calayıb, bağını bitirib gedəm,
Möhnəti üstündən götürüb gedəm,
Az fayda veribdir işim deyəsən.

Cəmiləm olmuşam fikir yorğunu,
Havayı iztirab, zikir yorğunu,
İlahi önündə şükür yorğunu,
İşləmir kotanım, xışım deyəsən.[588]

***Cəmil Əkbər*** 18.09 – 1996

## 274. QÜVVƏTİM, QÜDRƏTİM AZALIB GEDİR

Qüvvətim, qüdrətim azalıb gedir,
Girləyə bilməyir bədəni başım.[589]
Varlığım günbəgün, sozalıb gedir,
Gətirmir xəyalım, dağılır huşum.

---

585 Fəhmin-fərasətin düz gövhərinə.
586 Alimə, loğmana, biz gövhərinə.
587 Çatmadı çoxuna peşəm deyəsən.
588 Düşübdür dəbindən xışım deyəsən.
589 Daha girləməyir bədəni başım.

Səbr edib, tablaşıb, dözə bilmirəm,
Dağları-daşları gəzə bilmirəm,
Bu dünya çox şirin, bezə bilmirəm,
Tutulur qabağım, çatılır qaşım.

Zəmanənin etibarı bu imiş,
Əhdi-peyman düz ilqarı bu imiş,
Əvvəl-axır beh-bazarı bu imiş,
Tükənir bu ömrüm, kəsilir yaşım.

İxtiyar, iqtidar əldə qalmayır,
Dəhanda, dodaqda, dildə qalmayır,
Obada, oymaqda, eldə qalmayır,
İtirir tamını, dadını aşım.

Fələyin işinə nə sözümüz var,
Üzünə çıxmağa nə üzümüz var,
Nə qüvvə, nə qüdrət, nə gücümüz var,
Günbəgün azalır çağdaş, taytuşum.

Sağlam qalmır əzalardan biri də,
Sümülkər də, əzələ də, dəri də,
Bəhsə-bəhsdən qalan yoxdur geridə,
Tökülür dəhanda, qalmayır dişim.

Ötüşdü zəmanə, qocaldım getdim,
Hünər meydanında, bac aldım getdim,
Yetmişə, səksənə ucaldım getdim,
Tutubdur yaxamdan boranlı qışım.

Qəlbimin başını qəhər bürüyüb,
Çəkmək də mümkün döy, kədər bürüyüb,
Həm axşam, günorta, səhər bürüyüb,
Deyəsən azalıb həvəsim, xoşum.

Neyləyim bədimə danışan varmış?
Yalandan üzümə irişən varmış?
Necəsən deyərək soruşan varmış?
Deyəsən ağırdır başlara daşım.

Sözlər çox deyilib, azdır qananlar,
Haqq-say axtarıb, azdır ananlar,
Ellərin malına azdır yananlar,
Günbəgün çoxalır deyəsən naşım.

Sərraf tapılmayır söz gövhərinə,
Haqqın-ədalətin düz gövhərinə,
Qırx ildir aliməm, biz gövhərinə,
Deyəsən hörmətdən düşübdür peşəm.

İstərdim xalqımı yetirib gedəm,
Bəsləyib, becərib, bitirib gedəm,
Möhnəti üstündən götürüb gedəm,
Bir bəhrə vermədi xalqıma işim.

Cəmiləm olmuşam fikir yorğunu,
Çəkirəm havayı zikir yorğunu,[590]
Verirəm özümə beylə sorğunu,
Paslanıb, işləmir kotanım, xışım.

***Cəmil Əkbər*** 18.09 – 1996

## 275. NANIKORSAN NANƏCİB (1)

*I variant*

Nə yaxşını seçdin, nə pisi qandın?
Nanıkorsan, nanıkorsan nanəcib.
Nə qızıl tanıdın, nə misi qandın?
Nanıkorsan, nanıkorsan nanəcib.

Görünürki, xarab imiş zatınız,
Bədöy imiş, alaşanız, atınız,
Əlinizdə qalacaqdır çatınız,
Nanıkorsan, nanıkorsan nanəcib.

Xətir-hörmət yanınızda puç oldu,
Ayaqlandı, tapdalandı heç oldu,
Xeyirxahlıq günah oldu, suç oldu,
Nanıkorsan, nanıkorsan nanəcib.

---

[590] Havayı-havayı, zikir yorğunu.

Haqq-saylar yaddaşından silindi,
Qərq olaraq yerə-yurda bələndi,
Əsl kökün agah oldu, bilindi,
Nanıkorsan, nanıkorsan nanəcib.

Nə olanı, nə qalanı pəsindin,
Nə açanı, nə solanı pəsindin,
Nə boşalıb, nə dolanı pəsindin,
Nanıkorsan, nanıkorsan nanəcib.

Heç bilmirəm nə danışım, nə deyim?
Nə danlayıb, nə dalaşıb, nə söyüm?
Vəsf eyləyib, tərifləyib nə öyüm?
Nanıkorsan, nanıkorsan nanəcib.

Ədəb-ərkan, mərifəti qanmadın,
Saf istəyi, pak niyyəti qanmadın,
Məna dolu məziyyəti qanmadın,[591]
Nanıkorsan, nanıkorsan nanəcib.

Bu dünyada öz nəfini güdürsən,
Öz gəlirin, öz kefini güdürsən,
Öz zurnanı, öz dəfini güdürsən,
Nanıkorsan, nanıkorsan nanəcib.

Nəolardı sən olmasan görəsən?
Sən çoxalıb, sən dolmasan görəsən?
Bu dünyada sən qalmasan görəsən?
Nanıkorsan, nanıkorsan nanəcib.

Şərəf yaddan çıxdı, ad yaddan çıxdı,
Damaq yaddan çıxdı, dad yaddan çıxdı,
Qohum yaddan çıxdı, yad yaddan çıxdı,
Nanıkorsan, nanıkorsan nanəcib.

***Cəmil Əkbər*** 17-19 // 09 – 1990

[591] Sədaqəti, səxavəti qanmadın.

## 276. NANIKORSAN NANƏCİB (2)

*II variant*

Bədəsilsən qananmıram mən səni,
Nanıkorsan, nanıkorsan nanəcib.
Bərkdə-boşda sınamıram mən səni,
Nanıkorsan, nanıkorsan nanəcib.

Vətən səni övlad kimi bəslədi,
İnsanlığa, ləyaqətə səslədi,
Cəhaləti, avamlığı pislədi,
Nanıkorsan, nanıkorsan nanəcib.

Çox güman ki, qatqarışsan mayadan,
O səbəbdən kəm-kəsirsən həyadan,
Vicdan, məslək, əqidədən qayədən,
Nanıkorsan, nanıkorsan  nanəcib.

O səbəbdən cəhalətdə qalmısan,
Kin-küdurət ədavətdə qalmısan,
Avamlıqda, nadanlıqda qalmısan,
Nanıkorsan, nanıkorsan  nanəcib.

Yaxşını, yamandan seçə bilmirsən,
Haqqın yollarından keçə bilmirsən,
Mərifət şərbətin içə bilmirsən,
Nanıkorsan, nanıkorsan  nanəcib.

Əzəl gündən tor gəlibdir gözünə,
Məhəl yoxdur yolağına izinə,
Su calanıb ocağına, közünə,
Nanıkorsan, nanıkorsan nanəcib.

Şər danışıb aralığı qatırsan,
Qərq olaraq qəflətlərdə yatırsan,
Min sifətlə məramına çatırsan,
Nanıkorsan, nanıkorsan nanəcib.

Yaxşını da kor gözlərin pis görür,
Zalım görür, bədxah görür, nəs görür,
Höcət görür, inad görür, tərs görür,
Nanıkorsan, nanıkorsan nanəcib.

***Cəmil Əkbər*** 17-19// 09 – 1990

## 277. CAVANLIĞIN

*I variant*

Səni belə gördüm əfətim uçdu,
Nəgünə düşübdü ləl cavanlığın?
Mehri-ünsiyyətim, ülfətim uçdu,
Nəyaman solubdu gül cavanlığın?[592]

Qocalıb nəyaman qarı olmusan?
Azalıb yarıdan-yarı qalmusan,
Solubdu yanağın sarı, qalmısan,
Görünmür gözümə kal cavanlığın.

Əvvəlki təmtəraq gözümə dəymir,
Oduma isinmir, közümə dəymir,
Çıxıb qənşərimə, izimə dəymir,
Zülala oxşayan bal cavanlığın.

O hüsnü-camalın yadımdan çıxmır,
O yetkin kamalın yadımdan çıxmır,
Əqidən, amalın yadımdan çıxmır,
Salıbdı qəlbimə yol cavanlığın.

Məni öz hüsnünə pərvanə etdi,
İtirdi əqlimi, divanə etdi,
Özümü-özümə biganə etdi,
Qovğa cavanlığın, qal cavanlığın.

Məni hayıl-mayıl, əsir eylədi,
Haqsız, məvacibsiz yesir eylədi,
İtirdi əqlimi, kəsir eylədi,
Tirmə cavanlığın, şal cavanlığın.

---

592 Saralıb solubdu gül cavanlığın.

Gördüyüm nəciblik, təravət hanı?
İncəlik, zəriflik, məlahət hanı?
Əvvəlki gözəllik, lətafət hanı?
Çəkilib qəhətə bol cavanlığın.

O şahrah baxışlar hayanda qaldı?[593]
Hayanda saraldı, hayanda soldu?
Hayanda boşaldı, hayanda doldu?
Sükuta qərq oldu, lal cavanlığın.

Dolaşdı xəyalım, qaraldı qanım,
Sıxıldı ürəyim, üzüldü canım,
Nəola yenidən ay din-imanım,
Qona yanağına xal cavanlığın.

Mən Cəmil Əkbərin ürəyi halal,
Arzusu, istəyi, diləyi halal,
Süfrəsi halaldı, çörəyi halal,
İtirmə, qeydinə qal cavanlığın.

***Cəmil Əkbər*** 20-21. 09 – 1990

## 278. CAVANLIĞIN

*II variant*

Mən səni görüncə qaraldı qanım,
Nəyaman solubdu gül cavanlığın?
Sıxıldı ürəyim ay din-imanım?
Qaytarıb versələr al, cavanlığın.

Qüvvətin tükənib, heyin azalıb,
Zəhmətin, xidmətin, payın azalıb,
Köçha-köç edibdir, tayın azalıb,
Nəyaman tez dəydi, kal cavanlığın?

Əvvəlki təmtəraq gözümə dəymir,
Oduma alışmır, közümə dəymir,
Çıxmır qənşərimə, izimə dəymir,
Zülal cavanlığın, bal cavanlığın.

---

[593] Duruşlar, baxışlar hayanda qaldı?

Canalan gözlərin xəyalımdadır,
Elimdə, obamda, əyalımdadır,
Eşqi-həvəsmdə, ilhamımdadır,
Salıbdır qəlbimə yol cavanlığın.

Məni öz nuruna pərvanə etdi,
İtirib əqlimi, divanə etdi,
Özümü-özümə biganə etdi,
Qovğa cavanlığın, qal cavanlığın.

Alıb ixtiyarı, əsir eylədi,
Dağıdıb huşumu kəsir eylədi,
Haqsız, məvacibsiz yesir eylədi,
Tirmə cavanlığın, şal cavanlığın.

Bir zaman gördüyüm, məlahət hanı?
Zəriflik, incəlik, təravət hanı?
Nəcabət, nəzakət, lətafət hanı?
Çıxıbdır qəhətə bol cavanlığın.

Gəlmədik, getmədik kəsildi ara,
Sevib-sevilənə olmadı çara,
Nəqədər qəlblərə dəyibdi yara?
Qərq oldu sükuta, lal cavanlığın.

Nəqədər vaxt-vədə hədərə getdi?
Qəmlərə, qüssəyə, kədərə getdi?
Qarışdı ağıya, zəhərə getdi?
Qədri bilinmədi ləl cavanlığın.

Sənə qurban olum ay mehribanım,
De neyçün gizlədim, sözümü danım?
Sənsiz nəyə lazım, bu şirin canım?
Qonaydı üzünə xal, cavanlığın.

Çalış cavanlığın eşqiylə yaşa,
Hünəri, təpəri, məşqiylə yaşa,
Ətri, təravəti, müşqüylə yaşa,[594]
Qədir-qiymətini bil, cavanlığın.

---

[594] Ətiri, ənbəri, müşqüylə yaşa.

Mən Cəmil Əkbərin ürəyi təmiz,
Arzusu, istəyi, diləyi təmiz,
Süfrəsi halaldı, çörəyi təmiz,
İtirmə, qeydinə qal cavanlığın.

***Cəmil Əkbər*** 20-21. 09 – 1990

## 279. BU, İNSANA YARAŞARMI, YARAŞMIR?!

Zəmanədə gör bir nələr törədi?
Bu, insana yaraşarmı, yaraşmır?!
Müsibətlər, həngamələr törədi,
Bu, insana yaraşarmı, yaraşmır?!

Ünsiyyət oqədər korlanıbdıki?
Budağı kəsilib darlanıbdıki?
Hissiyyat oqədər zorlanıbdıki?
Bu, insana yaraşarmı, yaraşmır?!

Ədalətdən, həqiqətdən əsər yox,
Şan-şöhrətdən, şərafətdən əsər yox,
Mərifətdən, ləyaqətdən əsər yox,
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər idrakdan kütlər var imiş,
Vicdandan, məsləkdən lütlər var imiş,
Müqəvva var imiş, bütlər var imiş,
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər qaraya ağ demək olar?
Tikana, qanqala bağ demək olar?
Kiçik təpələrə dağ demək olar?
Bu, insana yaraşarmı, yaraşmır?![595]

---

[595] *II variant* Nə qədər qaraya ağdı dedilər?
Heyhat ki, kol-kosa bağdı dedilər?
Təpəni böyüdüb dağdı dedilər?
Bu, insana yaraşarmı, yaraşmır?!

*III variant* Nə qədər qaraya ağdı dedilər?
Nəqədər kol-kosa bağdı dedilər?
Nəqədər təpəyə dağdı dedilər?
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər əyriyə düz deyiləcək?
Tablaşıb, səbr eylə, döz deyiləcək,
İnci deyiləcək bez deyiləcək,
Bu, insana yaraşarmı, yaraşmır?![596]

Nəqədər saxtalıq, yalan olacaq?
Əllərdə, ayaqda qalan olacaq?
İnləyib, sızlayıb, solan olacaq?
Bu, insana yaraşarmı, yaraşmır?![597]

Utanıb, qızarıb ölməyənə bax,
Oxuyub, öyrənib bilməyənə bax,
Gözünün torunu silməyənə bax,
Bu, insana yaraşarmı, yaraşmır?![598]

Yaxşıya kor olub darılan da var,
İçindən çatlayıb qırılan da var,
Qoluna, qılçına sarılan da var,
Bu, insana yaraşarmı, yaraşmır?![599]

---

596 *II variant* Nəqədər əyriyə düzdü dedilər?
Dərinə dayazdı, üzdü dedilər?
1) Tablaşıb sinə gər, döz də dedilər? 2) Tablaşıb, səbr eylə, döz də dedilər.
Bu, insana yaraşarmı, yaraşmır?!

597 *II variant* Nəqədər saraldı, soldu dünyada,
Gözləri yollarada qaldı dünyada,
Qərq olub fikirə daldı dünyada,
Bu, insana yaraşarmı, yaraşmır?!

598 *II variant* Utanıb, qızarıb ölməyən də var,
Xalqın bu dərdini bilməyən də var,
Gözünün torunu silməyən də var,
Bu, insana yaraşarmı, yaraşmır?!

*III variant* Utanıb, qızarıb ölməyən də var,
Oxuyub, öyrənib bilməyən də var,
Ellərin şəninə gülməyən də var,
Bu, insana yaraşarmı, yaraşmır?!

599 *II variant* Nəqədər yaxşıya darılan oldu,
Çatdayıb içindən qırılan oldu,
Qoluna, qılçına sarılan oldu,
Bu, insana yaraşarmı, yaraşmır?!

Araqarışdırıb qatana baxın,
Vicdanı, məsləyi satana baxın,
Qərq olub qəflətdə yatana baxın,
Bu, insana yaraşarmı, yaraşmır?![600]

Xainlər, paxıllar, kəclər oqədər?
Hiyləgər, dələduz, biclər oqədər?
Sərsəri, kəmağıl giclər oqədər?
Bu, insana yaraşarmı, yaraşmır?![601]

Zəmanə mülkündə darğa çoxalıb,
Başı dəng eyləyən qarğa çoxalıb,
Karsala qulaqda sırğa çoxalıb,
Bu, insana yaraşarmı, yaraşmır?![602]

Kişilər donunda gədələr də var,
Vicdanı kəm-kəsir zədələr də var,
Şaqqulusayağı dədələr də var,
Bu, insana yaraşarmı, yaraşmır?![603]

Dünyada oqədər sırtıqlar artıb,
İnsan cərgəsində artıqlar artıb,
Təlxəklik eyləyən şıltaqlar artıb,
Bu, insana yaraşarmı, yaraşmır?![604]

---

[600] *II variant*
Qəflət yuxusunda yatan oqədər?
Gedib çamurluqda batan oqədər?
İnsafı-mürvəti atan oqədər?
Bu, insana yaraşarmı, yaraşmır?!

[601] *II variant*
Nəqədər hiyləgər, biclər çoxalıb?
Haqqa-ədalətə kəclər çoxalıb?
Sərsəri, kəmağıl giclər çoxalıb?
Bu, insana yaraşarmı, yaraşmır?!

[602] *II variant*
Dünyada nəqədər darğalar artıb?
Başları dəng edən qarğalar artıb?
Karsala qulaqda sırğalar artıb?
Bu, insana yaraşarmı, yaraşmır?!

[603] *II variant*
Kişi libasında gədələr də var,
Sağlam bədənlərdə zədələr də var,
Hərcürə hoqqabaz dədələr də var,
Bu, insana yaraşarmı, yaraşmır?!

Vətənə, xalqına qəsd edənə bax,
Yeməmiş, içməmiş məsd edənə bax,
Astarı çevirib, üst edənə bax,
Bu, insana yaraşarmı, yaraşmır?!

Xalqın ürəyini sıxanlara bax,
Vurub dirəyini yıxanlara bax,
Qənim olanlara, çıxanlara bax,
Bu, insana yaraşarmı, yaraşmır?![605]

Nəqədər haqq-say itirmək olar?
Könüldə şər-xəta bitirmək olar?[606]
Möhnəti boyuna götürmək olar?
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər sərsəri, divanələr var?
Laqeyid, əhli-kef, biganələr var?
Şamlara qərq olan pərvanələr var?
Bu, insana yaraşarmı, yaraşmır?!

İnsanı nəqədər bezdirmək olar?
Salıb müsibətə dözdirmək olar?
Dağları-daşları gəzdirmək olar?
Bu, insana yaraşarmı, yaraşmır?!

Dünyada nəqədər kütlər olacaq?
Müqəvvasayağı bütlər olacaq,
Sahibə çəmkirən itlər olacaq,
Bu, insana yaraşarmı, yaraşmır?!

---

[604] *II variant* Nəqədər həyasız, sırtıqlar artıb?
Bəşərə yük olan artıqlar artıb?
Xalqın sərvətinə ortaqlar artıb?
Bu, insana yaraşarmı, yaraşmır?!

[605] *II variant* Xalqın iliyini vuranlar da var,
Zəlitək qanını soranlar da var,
İncidib, bezdirib yoranlar da var,
Bu, insana yaraşarmı, yaraşmır?!

[606] Süpürüb, sümürüb, ötürmək olar.

Dünyada nəqədər zəhərlənək biz?
Havayı dərd çəkib qəhərlənək biz?
Düşüb haldan-hala təhərlənək biz?
Bu, insana yaraşarmı, yaraşmır?![607]

Nəqədər asmalı, kəsməliyik biz?
İncidib, inciyib küsməliyik biz?
Qorxudan səksənib, əsməliyik biz?
Bu, insana yaraşarmı, yaraşmır?![608]

Nəqədər vicdanı atmalıyıq biz?
Onu kor qəpiyə satmalıyıq biz,
Nahaqdan günaha batmalıyıq biz?
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər xain var, xəbis var Allah?
Tamahkar, acgöz var, həris var Allah?
Sirri açılmamış hədis var Allah?
Bu, insana yaraşarmı, yaraşmır?!

Tərini tökməmiş yeyən oqədər,
Hamıdan bahalı geyən oqədər,
Özündən bədgüman deyən oqədər,
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər gözəllər çirkin göründü?
Nəqədər sadələr nikbin göründü?
Ədəbaz göründü, xudbin göründü?
Bu, insana yaraşarmı, yaraşmır?!

---

[607] *II variant* Nəqədər dərd çəkib qəhərlənək biz?
Yeməmiş, içməmiş zəhərlənək biz?
Haldan-hala düşüb təhərlənək biz?
Bu, insana yaraşarmı, yaraşmır?!

[608] *II variant* Nəüçün asmalı, kəsməliyik biz?
Qorxudan, ülküdən əsməliyik biz?
Kimdənsə inciyib küsməliyik biz?
Bu, insana yaraşarmı, yaraşmır?!

Dünyada nəqədər yaramaz gördüm,
Simləyən yaranı sarımaz gördüm,
Dostunu-tanışı aramaz gördüm,
Bu, insana yaraşarmı, yaraşmır?! [609]

Nəqədər vədəsiz qocalmalıyıq,
İlqara-imana kəc olmalıyıq,
Sən mənə, mən sənə öc olmalıyıq,
Bu, insana yaraşarmı, yaraşmır?!

Dünyada nəqədər nakam gedəcək,
Nəqədər igidin haqqı itəcək,
Sulanmamış, cücərməmiş bitəcək,
Bu, insana yaraşarmı, yaraşmır?!

Dünyada nəqədər davalar oldu?
Zəhərə qarışmış havalar oldu?
Əqlini itirən yavalar oldu?
Bu, insana yaraşarmı, yaraşmır?! [610]

Nəqədər insanın qaşı çatıldı?
Çıxıldı sonuna, daşı atıldı?
Zəhməti tapdandı, işi atıldı,
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər al-qanlar qaraldı getdi?
Gen dünya başlara daraldı getdi,
Gül kimi yanaqlar saraldı getdi,[611]
Bu, insana yaraşarmı, yaraşmır?!

---

[609] *II variant* Nəqədər xeyirə yaramayan var,
Dostunu-tanışı aramayan var,
Qövr edən yaranı sarımayan var,
Bu, insana yaraşarmı, yaraşmır?!

[610] *II variant* Dünyada nəqədər davalar olsun?
Əqli-kəmlər olsun, yavalar olsun?
Zəhərə qarışmış havalar olsun?
Bu, insana yaraşarmı, yaraşmır?!

[611] Vədəsiz yanaqlar saraldı getdi.

Dünyada nəqədər fitnəkar olsun,
Vicdan qarşısında günahkar olsun,
İnsan övladına ziyankar olsun,
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər qüssədən, qəhərdən öldü?
İnfarktdan, vərəmdən, şəkərdən öldü,
Çatmadı axşama, səhərdən öldü,
Bu, insana yaraşarmı, yaraşmır?! [612]

Nəqədər qüssələr, qəm çəkək daha?
Zilə köklənməyib, bəm çəkək daha?
Qövr etsin yaramız, sim çəkək daha?
Bu, insana yaraşarmı, yaraşmır?! [613]

Nəqədər insanın varı tükəndi?
Namusu, qeyrəti arı tükəndi?
Fayda verməmişdən yarı tükəndi?
Bu, insana yaraşarmı, yaraşmır?! [614]

Araqarışdıran fitnəkar olsun,
Vicdan qarşısında günahkar olsun,
Bəşər övladına ziyankar olsun,
Bu, insana yaraşarmı, yaraşmır?!

---

[612] *II variant* Nəqədər qüssədən, qəhərdən ölsün?
İnfarktdan, vərəmdən, şəkərdən ölsün?
Axşama çatmamış səhərdən ölsün?
Bu, insana yaraşarmı, yaraşmır?!

[613] *II variant* Nəqədər dərd-azar, qəm çəkək görən?
Qövr edən yaradan, sim çəkək görən?
Zilə köklənməyib, bəm çəkək görən?
Bu, insana yaraşarmı, yaraşmır?!

[614] *II variant* Nəqədər xilqətin varı tükənsin?
Bir fayda verməmiş yarı tükənsin?
Namusu, qeyrəti arı tükənsin?
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər qulağı kar olmalıyıq?
Gözləri, könülü kor olmalıyıq?
Ad-sanı ellərdə xar olmalıyıq?
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər sədaqət sözdə qalacaq?
Ədalət, həqiqət düzdə qalacaq?
Yolaqda, cığırda izdə qalacaq?
Bu, insana yaraşarmı, yaraşmır?!

Nəqədər küdurət, ədavət olsun?
Xətalar, bəlalar, qəbahət olsun?
Gileylər, güzarlar, şikayət olsun?
Bu, insana yaraşarmı, yaraşmır?!

Bəşər yaman pis günlərə qalıbdır,
Bədxah günə, nəs günlərə qalıbdır,
Höcət, inad, tərs günlərə qalıbdır,
Bu, insana yaraşarmı, yaraşmır?!

Hamı birbirindən qapha-qapdadır,
İtirha-itirdə, tapha-tapdadır,
Yayınha-yayında, sapha-sapdadır,
Bu, insana yaraşarmı, yaraşmır?!

Hamı bir-birini ələ salıbdır,
Fitnəyə, fəsada, felə salıbdır,
Palçığa, çamıra, lilə salıbdır,
Bu, insana yaraşarmı, yaraşmır?!

Belə getsə dağılacaq bu dünya,
Əziləcək, sıxılacaq bu dünya,
Axırına çıxılacaq bu dünya,
Bu, insana yaraşarmı, yaraşmır?!

Ay Cəmil, sədaqət sözdə qalıbdı,
Tapılmır sahibi düzdə qalıbdı,
Cığırda, yolaqda izdə qalıbdı,
Bu insana, nə heyvana yaraşmır.

***Cəmil Əkbər*** 31. 12 -1990; // 26. 01 – 1991

## 280. HƏYAT HƏQİQƏTLƏRİ (1)

Bir zaman bu oldu arzumuz bizim,
Fikir, diləyimiz, sözümüz bizim.
Hamı təhsil alsın, savadlı olsun,
İqtidar sahibi, imdadlı olsun.
Oxuduq, öyrəndik, savad da aldıq,
Şərəfli, şöhrətli bir ad da aldıq.
Kimi alim oldu, kimi mühəndis,
Kimi müsbət oldu, kimi də naqis.
Kimi axund oldu, kimi münəccim,
Kimi şair oldu, kimi mütərcim.
Kimi Hatəm oldu, kimisi xəsis,
Kimi xain oldu, kimi də xəbis.
Kimi hakim oldu, kimi aqranom,
Diplomlar yazıldı neçə-neçə "tom".
Kimisi müğənni, kimi bəstəkar,
Kimi çoban oldu, kimi sənətkar.
Oxuyan çoxaldı, yazan çoxaldı,
Ülfət-ünsiyyəti pozan çoxaldı.
Çoxları üz tutdu şəhərə sarı,
Nə deyib qınayaq, nə deyək barı?
Təhsil də, təlim də moddan salındı,
Damaqdan salındı, daddan salındı,
Alim də, loğman da yaddan salındı,
Şərəfli, şöhrətli addan salındı.
Əhali çoxaldı, şəhər böyüdü,
Şəhər böyüdükcə, qəhər böyüdü.
Ehtiyac çoxaldı, tələbat artdı,
Ölənlər, itənlər tələbat artdı.
Avamlıq çoxaldı, cəhalət artdı,
Nadanlar artdıqca qəbahət artdı,
Qazanan azaldı, yeyənlər artdı,
Danışan çoxaldı, deyənlər artdı,
Bəzənən, düzənən, geyənlər artdı.
Becərən azaldı gen tarlaları,
Firavan çölləri, şen tarlaları.
Çoxaldı hökmedən quruca bəylər,
Sular bulandıqca duruca bəylər.
Qanlara sussayan zəlilər artdı,
Əqli-kəm, sərsəri, dəlilər artdı.

Ünsiyyət korlandı, ülfət pozuldu,
Fikirlər sarsıldı, söhbət pozuldu.
Nəqədər artdıqca savad alanlar?
Hörmətli, izzətli bir ad alanlar?
Əfsus ki, düşünən qanan azaldı,
Dərk edib anlayan insan azaldı.
Vətəni, xalqını duyan olmadı,
Yetib imdadına həyan olmadı.
Tamahdan, nəfsdən doyan olmadı,
Onu bir yoluna qoyan olmadı.
Bəşəri yolundan döndərdi tamah,
Onu zülmətlərə döndərdi tamah.
Çox dolu payları endirdi tamah,
Çox yanan şamları söndürdü tamah.
Əfsus tamahını boğan az oldu,
Mərdanə doğulan, doğan az oldu.
Kəsib qabağını nadürüstlərin,
Əqildən, kamaldan o şikəstlərin.
Bir deyən olmadı, dayanın biraz,
Yatmayın qəflətdə oyanın biraz.
Bir zaman dedilər: "Bol olsun üzüm",
Bol olsun dəyanət, bol olsun dözüm.
Taxılı üzümlə əvəz eylədik,
Bu xalqa, millətə zülüm eylədik.
Gör nəyi, nə ilə peyvənd eylədik,
Heç deyən olmadı, səyvənd eylədik.
Baltanı götürüb meşəni qırma,
Sağlam təbiəti, guşəni qırma.
İnəyi kəsdilər ət olsun deyə,
Pambığı əkdilər çit olsun deyə.
Bir deyən olmadı inək süd verir,
İnək bala verir, inək yağ verir.
İnəyi kəsənin əli kəsilsin,
Dodağı yerbəyer, dili kəsilsin.
Bir deyən olmadı malı bəsləyin,
Dəymiş yeyilsə də, kalı bəsləyin.
Dananı böyüdün, öküz eyləyin,
Beçəni böyüdün, xoruz eyləyin,
Dayçanı böyüdün, köhlən eyləyin.
Əkini, səpini qaydaya salın,

Yeməyi, içməyi qaydaya salın.
Kəsməyin, kökünü körpəliklərin,
Şıvırtı pöhrənli, meşəliklərin.
Kəsməyin, kökünü qırqovulların,
Burmayın qolunu mərd oğulların.
Tarlanı bürüyüb ala basmasın,
Çuxurlar, xəndəklər, çala basmasın.
Becərin, bəsləyin məhsul bol olsun,
Yesinlər, içsinlər nəsil tox olsun.
Hər şey insanlardan qayğı istəyir,
Tər tökmək istəyir, yardım istəyir.
Hər şey insanlardan ürək istəyir,
Dadına yetişmək kömək istəyir.
Hər şey insanlardan bilik istəyir,
Xoş arzu, xoş istək, dilək istəyir.
Hər şey insanlardan fərasət dilər,
Qoçaqlıq, zirəklik, cəsarət dilər.
Hər şey insanlardan məharət dilər,
Sədaqət, səxavət, kəramət dilər.
Hər şey insanlardan ləyaqət dilər,
Doğruluq, düzgünlük, həqiqət dilər.
Xeyirxahlıq dilər, fəzilət dilər,
Nəciblik, zəriflik məlahət dilər.
Hər şey insanlardan hörmət gözləyir,
Kəramət gözləyir, mürvət gözləyir,
Nəzakət, xoş rəftar, diqqət gözləyir,
Ədəb-ərkan umur, mərfət gözləyir.
Ar həya gözləyir, ismət gözləyir,
Yaxşılıq, gözəllik, hikmət gözləyir.

Qoyunun-quzunun sonuna çıxdıq,
Məhsula, nemətə həsrətlə baxdıq.
Dananı, buzovu, inəyi qırdıq,
Sütunu doğradıq, dirəyi qırdıq.
Yağı da, südü də, çörəyi kəsdik,
Ciyəri doğradıq, ürəyi kəsdik.

***Cəmil Əkbər*** 17. 10 -1992

## 281. HƏYAT HƏQİQƏTLƏRİ (2)

Bu dünyanın əzəl gündən binası,
Həqiqətdi, həqiqətdi, həqiqət.
Ülviyyətin, qüdsiyyətin əsası,
Ədalətdi, ədalətdi, ədalət.

Ləyaqəti el içində tanıdan,
Bərkdə boşda, imtahanda sınadan,
Ya əhsən dedirdən, ya da qınadan,
Ünsiyyətdir, ünsiyyətdir, ünsiyyət.

Ürəkləri birbirinə  bağlayan,
Vəcdə gəlib, ümman kimi çağlayan,
Daşa dəysə uşaq kimi ağlayan,
Məhəbbətdir, məhəbbətdir, məhəbbət.

İnsan üçün qüvvət verən, can verən,
İnsaf verən, mürvət verən, qan verən,
Süfrə açıb, bərəkətli nan verən,
Sədaqətdir, sədaqətdir, sədaqət.

Yer üzündə zinyət verən cahana,
Dad gətirən dodaqlara, dəhana,
Yaşamağa nicat verən insana,
Cəmiyyətdir, cəmiyyətdir, cəmiyyət.

Yer üzündə gözəlliyin mayası,[615]
İnsanlığın, ləyaqətin mayası,
Hər mənanın, məziyyətin mayası,
Kəramətdi, kəramətdi, kəramət.

Məxluqatı sızıldadan, ağladan,
Tərəqqinin qapısını bağladan,
Sinələri od-ocaqsız dağladan,
Cəhalətdi, cəhalətdi, cəhalət.

---

[615] Nəcibliyin, gözəlliyin mayası.

Şən həyatda yaratmamaq, qurmamaq,
Düz oturub, düz dolanıb, durmamaq,
El xeyrinə  tər tökməmək, yormamaq,
Xəyanətdi, xəyanətdi, xəyanət.

Doğru yolu tanımamaq, bilməmək,
Hünəriylə sevinməmək, gülməmək,[616]
Bədəməldən utanmamaq, ölməmək,[617]
Cinayətdi, cinayətdi, cinayət.

Addımını doğru yola qoymamaq,
Böyük-kiçik tanımamaq, saymamaq,
El malından gözü, könlü doymamaq,
Fəlakətdi, fəlakətdi, fəlakət.

Nadanlığın, cəhalətin axırı,
Günahların, qəbahətin axırı,
Hər pis işin, pis halətin axırı,
Şikayətdi, şikayətdi, şikayət.

Tezi-geci pozğunların axırı,[618]
Cəlladların, quzğunların axırı,[619]
Həyasızın azğınların axırı,[620]
Xəcalətdi, xəcalətdi, xəcalət.

El sözünü anlamamaq, qanmamaq,
Haqq-sayı yada salıb anmamaq,
El xeyrinə alışmamaq, yanmamaq,[621]
Qəbahətdi, qəbahətdi qəbahət.

Cəmiləm, sözümdə min hikmət yatır,
Bahar çiçəyitək təravət yatır,
Gözəllik, nəciblik, məlahət yatır,
Nəsihətdir, nəsihətdir, nəsihət.

***Cəmil Əkbər***

---

[616] El şəninə sevinməmək, gülməmək.
[617] Bədxahlıqdan utanmamaq, ölməmək.
[618] Azğınların pozğunların axırı.
[619] Açılacaq tezi-geci paxırı.
[620] Dağılacaq, talanacaq naxırı.
[621] El dərdinə şərik olub yanmamaq.

## 282. HƏYAT HƏQİQƏTLƏRİ (3)

Bəşəri-övlada həyat bəxş edən,
Məhəbbətdir, məhəbbətdir, məhəbbət.
Səadət bəxş edən, nicat bəxş edən,
Sədaqətdir, sədaqətdir, sədaqət.

Yorulmaz qollara qüvvət paylayan,
Cəsarət paylayan, cürət paylayan,
Sevən ürəklərə mürvət paylayan,
Ədalətdir, ədalətdir, ədalət.

İgidəm deyənə zəfər çaldıran,
Fürsət tapıb töküləni dolduran,
Finişə çıxanda nəmər aldıran,
Məharətdir, məharətdir, məharət.

İnsanı şərəfli, şöhrətli edən,
Xətirli eyləyən, hörmətli edən,
Abırlı, həyalı, ismətli edən,
Ləyaqətdir, ləyaqətdir, ləyaqət.

Tutarlı eyləyən, karlı eyləyən,
Dövlətli, sərvətli, varlı eyləyən,
Bağçalı-bağatlı barlı eyləyən,
Fərasətdir, fərasətdir, fərasətdi.

Hərkəsi ciyərli, ürəkli edən,
Haraya çatdırıb, gərəkli edən,
İstəkli-arzulu, diləkli edən,
Fəzilətdir, fəzilətdir, fəzilət.

Hərkəsi yolundan dönməz eyləyən,
Zirvədən aşağı enməz eyləyən,
Qaralmaz, qarsıxmaz, sönməz eyləyən,
Cəsarətdir, cəsarətdir, cəsarət.

İnsanı yaşadıb, saxlayan bilin,
Sınaqdan keçirib yoxlayan bilin,
İsbata yetirən haxlayan bilin,
Dəyanətdir, dəyanətdir, dəyanət.

Hamını yaxşıdan pisə döndərən,
Höcətə, inada, nəsə döndərən,
Quruma döndərən, hisə döndərən,
Ədavətdir, ədavətdir, ədavət.

İnsanı çətinə dara göndərən,
Salıb müsibətə, zara göndərən,
Tufana qərq edib, gora göndərən,
Cəhalətdir, cəhalətdir, cəhalət.

Göz gərək yaxşını, pisi tanısın,
Qalayı, gümüşü, misi tanısın,
İnadı tanısın, tərsi tanısın,
Fəlakətdir, fəlakətdir, fəlakət.

Hərkəsi yerindən tərpədən də bil,
Səksəkəli edib, ürpədən də bil,
Qorxudub, hürküdüb, qınadan da bil,
Şikayətdir, şikayətdir, şikayət.

Belə getsə pis görünər axırı,
Höcət, inad, nəs görünər axırı,
Qəzəb-qisas, hirs görünər axırı,
Fəlakətdir, fəlakətdir, fəlakət.

İnsanoğlu bir-birini qanmasa,
Zəhmətini, xidmətini sanmasa,
Xətirini, hörmətini anmasa,
Qiyamətdir, qiyamətdir, qiyamət.

İnsan gərək bir-birini anlasın,
Səhvi varsa öz-özünü danlasın,
Kötəkləsin, qırmaclasın, yanlasın,
Xəcalətdir, xəcalətdir, xəcalət.

Ay Cəmil hamını həyalı edən,
Qədəmi uğurlu, sayalı edən,
Vicdanlı, məsləkli, qayəli edən,
Kəramətdir, kəramətdir kəramət.

***Cəmil Əkbər***

## 283. HƏYAT HƏQİQƏTLƏRİ (4)

Ədaləti, həqiqəti puç edən,
Xəyanətdi, xəyanətdi, xəyanət.
İnsanlığı, ləyaqəti məhv edən,
Pis adətdi, pis adətdi, pis adət.

Bacarığı, məharəti görməyən,
Ədəb-ərkan, nəzakəti görməyən,
Xeyirxahlıq, fəziləti görməyən,
Ədavətdi, ədavətdi, ədavət.

Ünsiyyəti-ülfətləri korlayan,
Nəcib, zərif hissimizi zorlayan,
Sinəmizi od-ocaqsız qorlayan,
Qəbahətdi, qəbahətdi, qəbahət.

Tərəqqinin, tənəzzülün əsası,
Həm təməli, həm özülü, binası,
Qoy dolmasın səbrlərin kasası,
Ziddiyyətdi, ziddiyyətdi, ziddiyyət.

İnsanları yollarından azdıran,
Ünsiyyəti-ülfətləri pozduran,
Müsibətə düçar edən, dözdürən,
Kəsafətdi, kəsafətdi, kəsafət.

Ta qədimdən pis günlərin baisi,
Bədxah günün, nəs günlərin dahisi,
Höcət, inad, tərs günlərin canisi,
Bədniyyətdi, bədniyyətdi, bədniyyət.

Bu bəşəri birbirinə qırdıran,
Başlarını, iliyini vurduran,
Zəli kimi al-qanları sorduran,
Cinayətdi, cinayətdi, cinayət.

Mərd igidi zirvələrdən endirən,
Ocağına su calayıb söndürən,
Doğru yoldan, düz fikirdən döndərən,
Fəlakətdi, fəlakətdi, fəlakət.

Bəd işlərin yaman olur axırı,
Üzə çıxır geci-tezi paxırı,
Azar tutur, bezar tutur naxırı,
Zəlalətdi, zəlalətdi, zəlalət.

Nanəciblik, naqisliyin axırı,
Xainliyin, xəbisliyin axırı,
Qəsd-qərəzin, ya pisliyin axırı,
Şikayətdi, şikayətdi, şikayət.

Görən gözü görə-görə kor edən,
İnsanlığa divan tutan, zor edən,
Mərd igidi el içində xar edən,
Cəhalətdi, cəhalətdi, cəhalət.

Cəmil Əkbər nə çətindi bu həyat?
Əbədi deyildir toy, düyün, büsat,
Tapılmır çarəsi, tapılmır heyhat,
Hekayətdi, hekayətdi, hekayət.

***Cəmil Əkbər*** 7. 05 – 1993

## 284. HƏYAT HƏQİQƏTLƏRİ (5)

Bəşərin qəzəbi, elin nifrəti,
Qərq olub qəflətdə yatanlarındır.
Qəlbində kök salan kin-küdurəti,
Yaxşını yamana qatanlarındır.

Məzlumun, fəqirin mey piyaləsi,
Amanı, fəryadı, ahı, naləsi,
Gözlərdən tökülən kədər danəsi,
İnsafı, vicdanı atanlarındır.

Kədər rübabını çalıb ağlamaq,
Gül kimi saralıb, solub ağlamaq,
Dünyada tək-tənha qalıb ağlamaq,
Mənliyi nəfsə satanlarındır.

Doğru düşünənin gülləri solmaz,
Onunla yol gedən naümid qalmaz,
Anası-bacısı saçını yolmaz,
Zəfərlər bu elmə çatanlarındır.

Əsəbi korlamaq, qanı qaralmaq,
Gen dünyanı başlarına daralmaq,
Bağçasını, bostanını xar almaq,
Namərd ətəyindən tutanlarındır.

Cəmilin sözünü alın nəzərə,
Oxuyub öyrənin onu min kərə,
Dərk edən kimsələr getməz xətərə,
Yazıq, nəsihəti atanlarındır.

***Cəmil Əkbər***

## 285. HƏYAT HƏQİQƏTLƏRİ (6)

Yaxşı-yaxşılıqda, pislər pislikdə,
Qalmışdır, qalıbdır, qalasıdır da.
Xain-xainlikdə, nəslər-nəslikdə,
Solmuşdur, solubdur, solasıdır da.[622]

Xəsis-xəsislikdə, nəslər-nəslikdə,
Namərd biilqarda, igid vəfada,
Tənbəl mürgülərdə, qoçaq cəfada,
Dolmuşdur, dolubdur, dolasıdır da.[623]

Alim düşüncədə, şair xəyalda,
Hakim ədalətdə, cani məlalda,
Mömin ibadətdə, şeytan da qalda, [624]
Olmuşdur, olubdur, olasıdır da.

---

[622] *II variant* 1) Həyat öz işində, tarix muzeydə, 2) Həyat yaşamaqda, tarix muzeydə.
Güney-güneylikdə, quzey quzeydə,
Doğma-doğmalıqda, ögey-ögeydə,
Qalmışdır, qalıbdır, qalasıdır da.

*III variant* Bərəkət payızda, təravət yazda,
Hay-həşir zurnada, məlahət sazda,
İgidlik oğlanda, nəzakət qızda,
Qalmışdır, qalıbdır, qalasıdır da.

[623] *II variant* Xəsis simiclikdə, Hatəm səxada,
Gözəllər ismətdə, igid vəfada,
Güllər təravətdə, loğman şəfada,
Dolmuşdur, dolubdur, dolasıdır da.

[624] Mömin ibadətdə, iblis də qalda.

Habil kamançada, Ədalət sazda,
Qurban öz tarında, Bülbül avazda, [625]
İgidlər vüqarda, gözəllər nazda,
Çalmışdır, çalıbdır, çalasıdır da.

Avarə xəcalət, işgüzar səfər,
Dağıdan zəlalət, yaradan hünər,
Bayquşlar viranə, Şahinlər nəmər,
Almışdır, alıbdır, alasıdır da.[626]

Zəmanə atanda öz kəməndini,
Dolansın şəhəri, doğma kəndini, [627]
Nəqədər qursan da bürcü-bəndini?[628]
Salmışdır, salıbdır, salasıdır da.

***Cəmil Əkbər*** 5. 02 – 1989

## 286. HƏYAT HƏQİQƏTLƏRİ (7)

Günəş-günəşlikdə, ay-aylığında,
Qalıbdır, qalmışdır, qalacaqdı da.
Çeşmə-çeşməlikdə, çay-çaylığında,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Təpə-təpəlikdə, dağ dağlığında,
Kol-kos kolluğunda, bağ-bağlığında,
Qara qaralıqda, ağ-ağlığında,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Bahar baharlıqda, qış-qışlığında,
Yamac-yamaclıqda, döş-döşlüyündə,
Ayaq-ayaqlıqda, baş-başlığında,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

---

[625] Gül-çiçək baharda, bülbül avazda.

[626] *II variant* Tənbəllər xəcalət, qoçaqlar zəfər,
Avarə zəlalət, yaradan hünər,
Bayquşlar xərabə, Şahinlər nəmər,
Almışdır, alıbdır, alasıdır da.

[627] İşlədib hiyləni, qurub fəndini.

[628] Tiksən də, qursan da bürcü-bəndini.

Araz-Araz kimi, Kür də, Kür kimi,
İnci-inci kimi, zər də, zər kimi,
Xeyir-xeyir kimi, şər də şər kimi,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Dərin dərinlikdə, üz-üzlüyündə,
Əyri-əyrilikdə, düz-düzlüyündə,
Kabab-kabablıqda, köz-közlüyündə,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Heyva heyva kimi, nar da nar kimi,
Kaman kaman kimi, tar da tar kimi,
Şahin-şahin kimi, sar da sar kimi,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Cücərən-cücərir, bitənlər bitir,
Tapılan tapılır, itənlər itir,
Arzuya, məqsədə yetənlər yetir,
Olubdur, olmuşdur olasıdır da.

Gözəl-gözəllikdə, çirkin çirkintək,
Sadə-sadə kimi, xudbin xudbintək,
Bədbin bədbin kimi, nikbin nikbintək,
Qalıbdır, qalmışdır, qalasıdır da.

Namərd namərd kimi, mərd də mərd kimi,
Nəşə-nəşə kimi, dərd də dərd kimi,
Şahmat-şahmat kimi, nərd də nərd kimi,
Qalıbdır, qalmışdır, qalasıdır da.

Tülkü-tülkü kimi, qurd da qurd kimi,
Oba-oba kimi, yurd da yurd kimi,
Namərd-namərd kimi, mərd də mərd kimi,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Doğru doğruluqda, bic-bicliyndə,
Xain-xainlikdə, kəc-kəcliyində,
İnad-inadlıqda, öc-öclüyündə,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Yaxşı-yaxşılıqda, pis-pisliyində,
Bədxah-bədxahlıqda, nəs-nəsliyində,
Höcət-höcətlikdə, tərs-tərsliyində,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Payız-payız kimi, yaz da yaz kimi,
Kaman-kaman kimi, saz da saz kimi,
Oğul-oğul kimi, qız da qız kimi,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

Dünyamız belədir ay Cəmil Əkbər,
Qərq olub fikirə, çəkmə qəm kədər,
Bu qurğu, bu dövran belə də gedər,
Qalıbdır, qalmışdır, qalacaqdı da.

***Cəmil Əkbər*** 5. 05 – 1992

## 287. HƏYAT HƏQİQƏTLƏRİ (8)

Güney-güneylikdə, quzey-quzeydə,
Qalıbdı, qalmışdır, qalacaqdı da.
Əməllər həyatda, tarix muzeydə,
Olubdu, olmuşdur, olacaqdı da.

Yaxşı-yaxşılıqda, pis-pisliyində,
Höcət-höcətlikdə, tərs-tərsliyində,
Bədxah-bədxahlıqda, nəs-nəsliyində,
Solubdu, solmuşdur, solacaqdı da.

Xəsis-xəsislikdə, Hatəm səxada,
Gədə dönüklükdə, igid vəfada,
Zənan bər-bəzəkdə, kişi cəfada,
Dolubdu, dolmuşdur, dolacaqdı da.

Zalım kef-damaqda, məzlum məlalda,
Mömin etiqadda, iblislər qalda,
Alim düşüncədə, şair xəyalda,
Dalıbdı, dalmışdır, dalacaqdı da.

Bol məhsul payızda, təravət yazda,
Mətanət oğulda, nəzakət qızda,
Hay-həşir zurnada, məlahət sazda,
Çalıbdı, çalmışdır, çalacaqdı da.

Dənizi dalğalar, dağları duman,
Kamalı düşüncə, könülü güman,
Yamanı yaxşılar, yaxşını yaman,
Alıbdı, almışdır, alacaqdı da.

Əcəlin toruna düşməyən kimdir?
Yeməyən, içməyən şişməyən kimdir?
Qaralıb, qarsıxıb bişməyən kimdir?
Salıbdı, salmışdır, salacaqdı da.

Ay Cəmil, əkinçi alaq otunu,
Tikanlar, qanqallar, ulaqotunu,
Gicitkansayağı dalaqotunu,
Yolubdu, yolmuşdur, yolacaqdı da.

***Cəmil Əkbər*** 13. 01– 1985

## 288. HƏYAT HƏQİQƏTLƏRİ (9)

Yaxşı-yaxşılıqda, pis-pisliyində,
Qalıbdır, qalmışdır, qalacaqdı da.
Bədxah-bədxahlıqda, nəs-nəsliyində,
Olubdur, olmuşdur, olacaqdı da.

Varsız-varsızlıqda, varlı-varında,
Barsız-barsızlıqda, barlı-barında,
Arsız-arsızlıqda, arlı-arında,
Dolubdur, dolmuşdur, dolacaqdı da.

Doğru-doğruluqda, yalan-yalanda,
Oğru-oğruluqda, talan-talanda,
Satan-satmağında, alan-alanda,
Bulubdur, bulmuşdur, bulacaqdı da.

Gedənlər-gedibdir, qalanlar-qalır,
Fikirə-xəyala dalanlar-dalır,
Zəfərlər təblini çalanlar-çalır,
Çalmışdır, çalıbdır, çalacaqdı da.

Kiminki əməli üzünə gülmür?
Yoluna boylanmır, izinə gülmür?
Oduna isinmir, közünə gülmür?
Saçını yolubdur, yolacaqdı da.

Kimki düz danışmır, düz görənməyir,
Yol tapıb həyatda, iz görənməyir,
Düşünüb, dərk edib, tez görənməyir,
Solubdur, solmuşdur, solacaqdı da.

Kimki bu dünyada qanıb gedibdir,
Xətiri-hörməti anıb gedibdir,
Böyüyü-kiçiyi sanıb gedibdir,
Alıbdır, almışdır, alacaqdı da.

Hərkəs nə əkibdir onu biçəcək,
Əvvəli-axırı, sonu biçəcək,
Əyninə yaraşan donu biçəcək,
Xəyala dalıbdır, dalacaqdı da.

***Cəmil Əkbər*** 29.08 – 1993

## 289. SƏNSİZ

Gözlərim yoldadır, qulağım səsdə,[629]
Günüm-güzəranım belədir, sənsiz.
Həsrətin çəkməkdən mən oldun xəstə,
Günüm-güzəranım belədir, sənsiz.

[629] Könlüm intizarda, qulağım səsdə.

Tutulub qabağım, çatılıb qaşım,
Sarsıyıb xəyalım, dağılıb huşum,[630]
Ötübdür baharım, gəlibdir qışım, [631]
Günüm-güzəranım belədir, sənsiz.[632]

Çəkirəm qüssəni, yeyirəm qəmi,
Gözlərim buluddan götürür nəmi,
Hayanda qalmısan könül həmdəmi,[633]
Günüm-güzəranım belədir, sənsiz.

Neynirəm qazancı, neynirəm nəfi,
Kamanı, zurnanı, qavalı, dəfi,
Çəkmirəm ləzzəti, görmürəm kefi,
Günüm-güzəranım belədir, sənsiz.

Azalıb kamalım, eləbil keyəm,
İnləyən kamanam, bir qırıq neyəm,
Tək-tənha yaşamaq həyatdır bəyəm?
Günüm-güzəranım belədir, sənsiz. [634]

---

[630] 1) Dərdini çəkməkdən ağarıb başım. 2) Zəmanə hökm edib, ağarıb başım.
3) Ağarıb saqqalım, ağarıb başım.

[631] Keçibdi baharım, gəlibdi qışım.

[632] *II variant* Tutulub qabağım, çatılır qaşım,
Bəd gəlir baharım, sərt keçir qışım,
Ağrıyır ürəyim, ağarır başım,
Günüm-güzəranım belədir, sənsiz.

[633] 1) Ötüşür günlərim, verirəm çəmi. 2) Tapmıram vəfalı səntək həmdəmi.

[634] *II variant* Tək-tənha yaşamaq həyatdır bəyəm?
Eləbil diriykən ölüyəm, nəyəm,
Şaxtadan donmuşam, yadakı keyəm,
Günüm-güzəranım belədir, sənsiz.

*III variant* Sanıram diriykən ölüyəm, nəyəm,
Tutqunam, boğuğam, sönüyəm, keyəm,
İnləyən kamanam, bir qırıq neyəm,
Günüm-güzəranım belədir, sənsiz.

*IV variant* 1) Sarsıyıb kamalım, eləbil nəyəm, 2) İşləmir kamalım, eləbil keyəm,
İnləyən kamanam, sızlayan neyəm,
Tək-tənha yaşamaq həyatmı bəyəm?
Günüm-güzəranım belədir, sənsiz.

Ürəkdən sevinib, gülə bilmirəm,
Yanına nə gedib, gələ bilmirəm,
Soruşub halını bilə bilmirəm,
Günüm-güzəranım belədir, sənsiz.

Həsrətlər içində vurur ürəyim,
Yaradır ürəyim, qurur ürəyim,
Dayanır ürəyim, durur ürəyim,
Günüm-güzəranım belədir, sənsiz.

Gəzirəm sərsəri divanələrtək,[635]
Özüm də özümə biganələrtək,
Yanıram oduna pərvanələrtək,
Günüm-güzəranım belədir, sənsiz.

Pozulub əhvalım, açılmır eynim,
İşləmir dərrakəm, düşünmür beynim,
Tapmıram dərdimə çarə, de neynim?
Günüm-güzəranım belədir, sənsiz.[636]

Gözəl yaradıbdır yaradan səni,
Görüm çıxarmasın sıradan səni,
Gəzməklə mən tapım haradan səni?
Günüm-güzəranım belədir, sənsiz.

Çəkilib ağzımın qalmayıb dadı,
Sönübdü qəlbimin atəşi, odu,[637]
Dərdi-qəm möhnətin mənə dəryadı, [638]
Günüm-güzəranım belədir, sənsiz.

---

[635] Eləbil gəzirəm divanələr tək,

[636] *II variant* Eynim açılmayır, durulmur qanım,
Pozulub əhvalım, üzülür canım,
Ey gözəl dildarım, nəüçündanım?
Günüm-güzəranım belədir, sənsiz.

[637] Azalıb qəlbimin eləbil odu.
[638] Çəkirəm naləni, ahı-fəryadı.

Təlx olub ovqatım, durulmur qanım,
Bil ey qibləgahım, dinim, imanım, [639]
Nəüçün gizlədim, nəüçün danım?
Günüm-güzəranım belədir, sənsiz[640]

Sanmaki, kefdəyəm cah-calaldayam,
Gözəllər içində min xəyaldayam,
Oxu bu naməni, gör nə haldayam?
Günüm-güzəranım belədir, sənsiz.[641]

Cəmiləm qurbanam məlahətinə,
Ətiri-gülüstan, təravətinə,
İnsaf-mürvətinə, kəramətinə,
Günüm-güzəranım belədir, sənsiz.[642]

***Cəmil Əkbər.*** 12-14 // 12-1981. / Kiyev

## 290. VALLAH

Cahillik eyləyib qırma qəlbimi,
İnciyib küsərəm, bezərəm Vallah.
Artırıb dərdimi, əymə qəddimi,
Düşərəm aralı, gəzərəm Vallah.

---

[639] Düzəlmir əhvalım, durulmur qanım.

[640] 1) Həsrətin çəkməkdən üzülür canım. 2) Bilsin din-imanım, o qibləgahım.

[641] *II variant* Demə kef çəkirəm, kefdə haldayam,
Gözəllər içində min xəyaldayam,
Oxu məktubumu, gör nə haldayam?

[642] *II variant* Mən Cəmil Əkbərin halına yanın,
Axtarıb arayın, qeydinə qalın,
İnciyib küsübsə könlünü alın,
Günüm-güzəranım belədir, sənsiz.

*III variant* Cəmiləm qurbanam məlahətinə,
İnsaf-mürvətinə, kəramətinə,
Zövqümü oxşayan təravətinə,
Günüm-güzəranım belədir, sənsiz.

*IV variant* Cəmiləm qurbanam məlahətinə,
Əhdinə, andına, sədaqətinə,
Zövqümü oxşayan nəzakətinə,
Günüm-güzəranım belədir, sənsiz.

Soruşub kefini, halı olmanam,
Lalə yanağının xalı olmanam,
Qaymaq dodağının balı olmanam,
Əlimi-əlindən üzərəm Vallah.

Demə ki, dəyməmiş qalmışam kalam,
Danışa bilmirəm, kəköyəm, lalam,
Öl desən ölərəm, qal desən qallam,
Duyaram, qanaram, sezərəm Vallah.[643]

Görüb eşidənlər qınayar bizi,
Çəkib imtahana sınayar bizi,
Vurub dişlərinə tanıyar bizi,
Düşsəmdə çətinə dözərəm Vallah.[644]

Biryolluq dönərəm məhəbbətimdən,
Əhdimdən, andımdan, sədaqətimdən,
İnsanlıq naminə ləyaqətimdən,[645]
Adını qəlbimdəm pozaram Vallah.

Haraya bəs qoyaq ötən günləri?
Əkilən, səpilən, bitən günləri?
Arzu, mətləbinə yetən günləri?
Gəlib keçənləri yozaram Vallah.

Gəl Cəmil Əkbərin dəymə şəsdinə ,
Düşmə acığına, girmə qəsdinə,
Yerli-yersiz ayaq alma üsdünə,[646]
Çaşaram yolları, azaram Vallah.

***Cəmil Əkbər.*** 14-16 // 12 – 1987

---

[643] *II variant* Görənlər, bilənlər deyərlər gicsən,
Xainsən, xəbissən, paxılsan, kəcsən,
Ləyaqət əhlinə nəüçün öcsən?
Dərk edib, duyaram, sezərəm Vallah.

[644] *II variant* Meylini yetirmə davaya yazıq,
Zəhərə qərq olan havaya yazıq,
Həyəcan, təlaşa, qovğaya yazıq,
Qalsamda həsrətdə dözərəm Vallah.

[645] Ədəb-ərkanımdan, nəzakətimdəm.

[646] Haqq-nahaqdan ayaq alma üsdünə.

## 291. MƏNİMKİ DÖY[647]

Çoxalıbdır hiyləgərlər, dələduzlar nəyaman,
Vicdanı kəm, məsləyi kəm, qəlbi buzlar a yaman.
İndi meydan mənimki döy, indi bazar mənimki döy,
İndi höküm mənimki döy, indi qərar mənimki döy.
Alana bax, satana bax, çalana bax, çapana bax,
Vurana bax, tutana bax, yoğurmamış qapana bax.
Şər danışıb, böhtan deyib, aralığı qatana bax,
İnsafını tullayana, vicdanını satana bax.
Hörmət-izzət indi daha dələduzun, biclərindir,
İlqarına-imanına dönük çıxan kəclərindir.
İndi lövbər mənimki döy, indi sükan mənimki döy,
İndi alov mənimki döy, bazar, dükan mənimki döy.
İndi dövlət mənimki döy, indi sərvət mənimki döy,
İndi şərəf mənimki döy, indi şöhrət mənimki döy.
Gözlənilmir abır-həya, indi ismət mənimki döy,
Tükənibdi halal maya, halal qismət mənimki döy.
İndi zəhmət mənimki döy, indi xidmət mənimki döy,
İndi məna mənimki döy, indi hikmət mənimki döy.
Ha çağrıram, ha bağrıram səsim çatmır elə mənim,
Ha daşıram, ha coşuram gücüm çatmır selə mənim.
Ha gərirəm bu sinəmi, gücüm çatmır yelə mənim,
Sanıramkı qarışqayam, öcüm çatmaz "filə" mənim.
Ha yazıram, ha pozuram, oxuyanı tapanmıram,
Ətirini duyan yoxdur, qoxuyanı tapanmıram.
Düz düşünüb, dərk edənlər, eləbilki yoxdur daha,
Yeyib-içib candan keçib gözü-könlü toxdur daha.
İndi qələm mənimki döy, indi kitab mənimki döy,
Çıxarılan qətnamələr, nə də xitab mənimki döy.
Axtarsanız, arasanız gözü yolda qalan mənəm,
Fikirlərim dərbədərdir, könül mülkü talan mənəm.
Dərya kimi çalxalanıb, ümman kimi dolan mənəm,
Qərq olaraq tufanlara, xəzan kimi solan mənəm.
Belə görüb zəmanəni, nədən yazım, nədən pozum?
Nəyi duyub, dərk eyləyim, heç bilmirəm nəyi yozum?

---

[647] Döy – deyil anlamında.

Bir zamanlar düz bilinən, indi sanki yalan olub,
Zəhmət ilə yaradılan, indi niyə talan olub?
İndi səfər mənimki döy, indi güzar mənimki döy,
Bu xəstəlik, bu ölümlər nə də azar mənimki döy.
Bu düşüncə, bu dərrakə, nə də kamal mənimki döy,
Beylə məslək, nə əqidə, nə də amal mənimki döy.
Nə məmləkət, nə də ölkə, nə də mahal mənimki döy,
İlqarına dönük çıxan cavan, ahal mənimki döy.
Nə tay-tuşlar, nə həmyaşıd, nə də yoldaş mənimki döy,
Nə həmkarlar, nə həmdəmlər, nə də sirdaş mənimki döy.
Ayrı düşdüm dost-tanışdan, eləbilki adadayam,
Yönüm düşüb cəzirəyə, sussuz qalan səhradayam.
İndi meydan mənimki döy, indi hünər mənimki döy,
Nə qələbə, nə təntənə, nə də zəfər mənimki döy.
İndi dövran mənimki döy, indi zaman mənimki döy,
İndi əmr mənimki döy, indi fərman mənimki döy.
İndi meydan saxtanındır, hiylənindir, yalanındır,
Min sifətdə min bir hava, püfüləyərək çalanındır.
İndi dövran sənə qalıb, zaman sənin zamanındır,
Qərar sənin qərarındır, fərman sənin fərmanındır.
Vəl də sənin, at da sənin, xırman sənin xırmanıdır,
Zəmi sənin, taxıl sənin, türpan sənin türpanıdır.
Təbib, Loğman, xəstə sənin, dərman sənin dərmanındır,
Dərya sənin, dəniz sənin, ümman sənin ümmanındır.
Bulud sənin, yağış sənin, duman sənin dumanındır,
Sürü sənin, naxır sənin, orman sənin ormanındır.
Dağlar sənin, bağlar sənin, aran sənin aranındır,
Tufan sənin, çovğun sənin, boran sənin boranındır.
Qurğu sənin, kələk sənin, plan sənin planındır,
Fitnə  sənin, fəsad sənin, yalan sənin yalanındır.
Əqrəb sənin, iblis sənin, ilan sənin ilanındır,
Vuran sənin, tutan sənin, çalan sənin çalanındır,
Aclıq sənin, qıtlıq sənin, kalan sənin kalanındır.
Bu sökhasök, bu çəkhaçək, talan sənin talanındır,
Çuval kimi gözələnən, dolan sənin dolanındır,
Bağlar sənin, xəzan sənin, solan sənin solanındır.
Bu həyatda indi nə var, yeni, təzə səninkidir,
Bu yehaye, bu içhaiç, bu meyməzə səninkidir.
Bu vurhavur, bu qırhaqır, dava-dalaş səninkidir,

Bu səksəkə, bu vahimə, qorxu-təlaş səninkidir.
Sorğu sənin, sual sənin, cavab indi səninkidir,
Ocaq sənin, köz də sənin, kabab indi səninkidir.
Yer də sənin, yurd da sənin, indi fəza səninkidir,
El hiddəti, el nifrəti, indi cəza səninkidir!

***Cəmil Əkbər*** 4. 01 – 1993

## 293. TÜKƏNƏN DEYİL

İnsanlığı gözləyənə, bilənə,
Xətirim, hörmətim tükənən deyil.
El şəninə sevinənə, gülənə,[648]
İnsafım, mürvətim tükənən deyil.

Eysüdlü anadan mayalanana,
Ellərdən, obadan həyalanana,
Əqidə, məsləkdən qayələnənə,
Ülfət-ünsiyyətim tükənən deyil.[649]

Kiminki qəlbində ədaləti var?
Mərhəmət, sədaqət, səxavəti var? [650]
İnsanlıq naminə ləyaqəti var?
Ülvi-məhəbbətim tükənən deyil.

İşarə anlayıb, göz qananlara,
Cığırlar tanıyıb, iz qananlara,
Mətləbi, mənanı düz qananlara,
Zəhmətim, xidmətim tükənən deyil.[651]

---

[648] Haqq yoluyla gedənlərə, gələnə.

[649] *II variant*
Eysüdlü anası olan kəslərə,
Təməli, binası olan kəslərə,
Özülü, əsası olan kəslərə,
Ülfət-ünsiyyətim tükənən deyil.

*III variant*
Halal süddən mayasını alana,
Abır, ismət, həyasını alana,
Məsləyini, qayəsini alana,
Ülfət-ünsiyyətim tükənən deyil.

[650] Sədaqət, səxavət, kəraməti var.

Dostluq, yoldaşlıqda mehribanlara,
Canından keçənə, istiqanlara,
Ləyaqət əhlinə, şirincanlara,
Həvəsim, riqqətim tükənən deyil.

Mənalar kəsb etdim mən beləsindən,[652]
Aldığı təlimdən, tərbiyəsindən,[653]
Nə fitnə-felindən, nə hiyləsindən,[654]
Saf arzum, niyyətim tükənən deyil.

İnciyib küsmüşəm bir parasından, [655]
Nanəcib, namərdin dil yarasından,
Xərabə yurdunun yarasasından,
Qəzəbim, hiddətim tükənən deyil.

Bədxahlıq eyləyib yaşayanlara,
Möhnətin yükünü daşıyanlara,
Axırda peysəri qaşıyanlara,
Nifrətim əbədi tükənən deyil. [656]

Zəhmətsiz, xidmətsiz baş olanlara,
Taxılıb üzüyə, qaş olanlara,
Vicdanı, məsləyi çaş olanlara,
Kinim-küdurətim tükənən deyil.[657]

---

[651] *II variant* İşarə anlayıb, göz qananlara,
Cığırlar, keçidlər, iz qananlara,
Dərk edib, anlayıb tez qananlara,
Zəhmətim, xidmətim tükənən deyil.
*III variant* İşarə anlayıb sözqananlara,
Mətləbi, mənanı düz qananlara,
Yolaqlar tanıyıb iz qananlara,
Zəhmətim, xidmətim tükənən deyil.

[652] Mənalar tapmışam mən beləsindən.

[653] 1) İnciyib küsmədim tərbiyəsindən. 2) İnciyən olmayıb tərbiyəsindən.
3) İnciyən olmayıb heç beləsindən,

[654] Məkrindən, felindən, nə hiləsindən,

[655] İnciyib küsürəm bir parasından,

[656] *II variant* Bədxahlıq edənə hörmətim yoxdur,
İnsafım tükənir, mürvətim yoxdur,
Qurtarıbdır sözüm-söhbətim yoxdur,
Nifrətim əbədi tükənən deyil.

Sərsəri, divanə, gic olanlara,
Hiyləgər, dələduz, bic olanlara,
Haqqa, ədalətə öc olanlara,
Töhmətim, nifrətim tükənən deyil. [658]

Kimdəki insanlıq, ləyaqət gördüm,
Beylə hikmət gördüm, bu halət gördüm,
Sədaqət, səxavət, kəramət gördüm,
Eşqim, məhəbbətim tükənən deyil.

Zəfər dünyasından bac alanlara,
Hünərlər göstərib tac alanlara,
Halal zəhmətilə ucalanlara,
Nəzərim, diqqətim tükənən deyil.

Cəmili anlayıb duyan kəslərə,
Eşidib sözünə uyan kəslərə,[659]
Hərkəsi yerinə qoyan kəslərə,[660]
Məzmunum, hikmətim tükənən deyil.

***Cəmil Əkbər*** 8.01-1980

## 293. DEYİL

Bədəsil əsilə elə qarışıb,
Yüz illər keçsədə çıxası deyil.
Yalquzaq sürüyə elə sırışıb,
Çəkilib kənardan baxası deyil.

---

[657] *II variant* Yolunu, izini azan kəslərə,
Doğrunu tərsinə yozan kəslərə,
1) Sağlam ünsiyyəti pozan kəslərə. 2) Elin sərvətindən qızan kəslərə.
Qəzəbim, hiddətim tükənən deyil.

[658] *II variant* Haqqa, ədalətə kəc olanlara,
Sərsəri, divanə, gic olanlara,
1) Qanuna, qaydaya öc olanlara, 2) Ləyaqət naminə öc olanlara,
1) Əbədi nifrətim tükənən deyil. 2) Məzəmmət, töhmətim tükənən deyil.

[659] Oxşayıb qəlbinə uyan kəslərə.

[660] Bir insan yerinə qoyan kəslərə.

Damara soxulub, qana işləyib,
Zülala dadanıb, şana işləyib,
Dür mədəni, gövhər-kana işləyib,
Özünü heç yana soxası deyil.

Hərə bir diyarda öz işindədir,
Əyrimi, qeyrimi düz işindədir,
Dərinmi, dayazmı, üz işindədir,
Özünü odlara yaxası deyil.

Hər çayın daşqını, öz axarı var,
Səmti, sorağı var, öz baxarı var,
Məcrası, mənbəyi, öz çıxarı var,
Özgə bir deltaya axası deyil.[661]

Hərkəs öz yerində qalıb, qalacaq,
Fikirə, xəyala dalıb, dalacaq,
Püfləyib zurnanı çalıb-çalacaq,[662]
Namərdlər mərdləri yıxası deyil.

Cəmil Əkbər hər yetənlə işin yox,
Hər cücərib, bitənlərlə işin yox,
Hər tapılıb itənlərlə işin yox,
İncidib, qəlbini sıxası deyil.

***Cəmil Əkbər*** 14. 09 – 1996

## 294. DEYİL

*I variant*

Tamahkarın, acgözlərin, hərisin,
Ha çalıb-çapsa da varı, var deyil.[663]
Qeyrətini gözləməyən varisin,
Namusu-namus döy, arı-ar deyil.

---

[661] Özgə bir dəryaya axası deyil.
[662] Zurnasını püfləyərək çalacaq,
[663] Aşsa da, daşsa da varı-var deyil.

Söyüdə, ulğuna xidmət edənin,
Tərini tökənin, zəhmət çəkənin,
Vurhavur bağ salıb, şitil əkənin,
Meyvəsi meyvə döy, barı-bar deyil.

Avamlıqla, cəhalətə uyanın,
Nadanlıqla, qəbahətə uyanın,
Kin-küdurət, ədavətə uyanın,
Qüvvəsi qüvvə döy, zoru, zor deyil.

Kimin ki, başında kamalı yoxsa,
Əqidə, məsləyi, amalı yoxsa,
Mənəvi aləmdə sambalı yoxsa,
Yoldaşı yoldaş döy, yarı-yar deyil.

Kim ki, el-obadan nifrətlər alır?
Gileylər, güzarlar, qeybətlər alır?
Ünvana yaraşmaz söhbətlər alır?
Kəfəni kəfən döy, goru-gor deyil.

Haqqa-ədalətə qənim çıxanın,
Ülvü ləyaqətə qənim çıxanın,
İstək məhəbbətə qənim çıxanın,
Hiyləsi hiylə döy, toru tor deyil.

Düşünüb dərk edib qanmayanların,
Xətiri-hörməti anmayanların,
Ellərin dərdinə yanmayanların,
Həniri-hənir döy, qoru-qor deyil.

Kiminki qəlbində yoxdur inadı,
Başa yetməz arzu-istək, muradı,
Bərkdə-boşda tab gətirməz qanadı,
Tərlanı-tərlan döy, sarı-sar deyil.

Kim ki, seçə bilmir yaxşnı pisdən?
Xeyirxah kimsəni, bədxahdan, nəsdən?
Əlçəkmir qisasdan, qərəzdən, qəsdən?
Ayranı ayran döy, şoru-şor deyil.

Könüllər mülkündə qalmayanların,
Vətəndən ilhamı almayanların, [664]
Onun rübabını çalmayanların,
Kamanı kaman döy, tarı-tar deyil.

Yaxşını pislərdən seçən kəslərin,
Qızılı mislərdən seçən kəslərin,
Həlimi nəslərdən seçən kəslərin,
Qulağı kar deyil, gözü kor deyil.

Kimin insanlıqda ləyaqəti var,
Eşqi var, andı var, sədaqəti var,
Dözümü, durumu, dəyanəti var,
Zülmətə düşsə də, yeri dar deyil.

***Cəmil Əkbər*** 11. 04 -1992; // 14. 05 – 1992; // 21.06 -1992

## 295. DEYİL

*II variant*

Nəqədər çalışsa gic oğlu gicin,
Dövləti dövlət döy, varı var deyil.
İlqara-imana kəc oğlu kəcin,
Yoldaşı yoldaş döy, yarı yar deyil.[665]

Hərkəs bu dünyada həyasız gəzir,
Məsləksiz, vicdansız, qayəsiz gəzir,
Təlim götürməyib, dayəsiz gəzir,
Namusu-namus döy, arı-ar deyil.

Kim ki, öz bağına peyvənd vurmayır?
Zəhmət çəkib xidmətində durmayır?
Tər tökərək, hey özünü yormayır?
Bağçası bağça döy, barı-bar deyil.[666]

---

[664] Xəyal dünyasına dalmayanların.

[665] *II variant* Kim ki, Vətənini ürəklə sevmir,
Xoş arzu istəklə, diləklə sevmir,
Sağlam qollar ilə, biləklə sevmir,
Yoldaşı yoldaş döy, yarı-yar deyil.

[666] *II variant* Kimki öz bağına peyvənd vurmayır,
Gecə-gündüz qulluğunda durmayır,
Bu xidmətlə o özünü yormayır,
Alması alma döy, narı-nar deyil.

Kiminki başında kamalı yoxdur?
Əqidə, məsləyi, amalı yoxdur?
Mənəvi gözəllik, camalı yoxdur?
Arxası-arxa döy, zoru-zor deyil,[667]

Hərkimki yaxşını pisdən seçməyir?
Qərəzi-qisası, qəsdən seçməyir?
Qızılı-gümüşü misdən seçməyir?
Kəfəni kəfən döy, goru-gor deyil.

Kimki vicdanını atıb yaşayır?
Şər deyib aranı qatıb yaşayır?
Bədəməl işlədib, tutub yaşayır?
Hiyləsi hiylə döy, toru tor deyil.[668]

Düşünüb dərk edib qanmayanların,
Böyüyü-kiçiyi sanmayanların,
Xətiri-hörməti anmayanların,
Ocağı ocaq döy, qoru-qor deyil.

Hərkəsinki möhkəm deyil inadı?
Möhkəm deyil uçmaq üçün qanadı?
Ellər onu məzəmətlə qınadı,
Tərlanı-tərlan döy, sarı-sar deyil.

Hərkiminki sədaqəti bilinmir?
Səxavəti, kəraməti bilinmir?
İnsanlıqda ləyaqəti bilinmir?
Nə yağı-yağ deyil, şoru-şor deyil.[669]

---

[667] *II variant* Kiminki sərində kamalı yoxdur,
Vicdanı, məsləyi amalı yoxdur,
Ağıllı varisi, cahalı yoxdur,
Arxası-arxa döy, zoru-zor deyil.

[668] *II variant* Kimki ədaləti atıb yaşayır?
Mərdləri-namərdə satıb yaşayır?
Qəflətlər içində batıb yaşayır?
Hiyləsi hiylə döy, toru tor deyil.

[669] *II variant* Hərkiminki sədaqəti bilinmir,
Səxavəti, kəraməti bilinmir,
İnsanlıqda ləyaqəti bilinmir,
Nə yağı-yağ deyil, şoru-şor deyil.

Ay Cəmil, kiminki məhəbbəti var?
Ədəbi, ərkanı, nəzakəti var?
Sağlam arzuları, saf niyyəti var?
Düşsədə zülmətə yeri dar deyil.[670]

***Cəmil Əkbər*** 11. 04 -1992; // 14. 05 – 1992; // 21.06 -1992

## 296. DEYİL

Dünyada nəqədər qocalan oldu?
Ədalət, həqiqət qocalan deyil.
Zəfərlər çalaraq, bac alan oldu?
Hər yetən gədələr bac alan deyil.

Çoxları dözmədi, pozuldu getdi,
Çevrilib tərsinə yozuldu getdi,
Qatardan ayrılıb, üzüldü getdi,
İnsanlıq, ləyaqət pozulan deyil.

Dağların başını qar aldı getdi,
Tərlanın yerini sar aldı getdi,
Nəqədər gülləri xar aldı getdi?
Eşqin güllərini xar alan deyil.

Nəqədər dünyada əkildi, bitdi?
Nəqədər tapıldı, nəqədər itdi?
Nəqədər dağıldı, söküldü getdi?
Məhəbbət sarayı sökülən deyil.

Nəqədər qaşqabaq çatıldı getdi?
Buludtək qaraldı, tutldu getdi?
Nəqədər alındı, satıldı getdi?
Nə insaf, nə mürvət satılan deyil.

Nəqədər dağıldı, söküldü getdi?
Sinəyə dağ-düyün çəkildi getdi?
Əyildi qamətlər büküldü getdi?
Xudanın qurğusu sökülən deyil.

---

[670] *II variant* Kim ki, öz işində ədalətlidir,
Gözəldir, nəcibdir, ləyaqətlidir,
Kamildir, aqildir, nəzakətldir,
Düşsədə zülmətə yeri dar deyil.

Çoxları taledən küsdü deyirlər,
Əlini-əllərdən kəsdi deyirlər,
Kiriyib biryolluq susdu deyirlər,
Məhəbbət aşiqi susası deyil.[671]

Çoxları dinmədi, kiridi getdi,
Şam kimi, mum kimi əridi getdi,
Qarışdı torpağa, çürüdü getdi,
Nə xətir, nə hörmət çürüyən deyil.

Dünyada nəqədər doğuldu getdi?
Düşdü cəhalətə boğuldu getdi?
Dərildi bosdantək soğuldu getdi?
Pak arzu, saf niyyət soğulan deyil.

Deyirlər çoxları dözdü də getdi,
İnciyib-küsərək bezdi də getdi,
Düşünüb, dərk etdi, sezdi də getdi,
Çoxları tablaşıb dözəsi deyil.[672]

***Cəmil Əkbər*** 29. 05 – 1993

## 297. DEYİL

*I variant*

Haqqa, ədalətə qənim çıxanın,
Ayağı ayaq döy, başı baş deyil.
Ülvi ləyaqətə qənim çıxanın,
Xəyalı xəyal döy, huşu huş deyil.

Böyüyü kiçiyi saymayanların,
Yad edib, axtarıb anmayanların,
Xətiri-hörməti qanmayanların,
Kipriyi kiprik döy, qaşı qaş deyil. [673]

---

[671] Fərasət, cəsarət susası deyil.

[672] *II variant* Deyirlər çoxları bezdi də getdi,
Düşünüb, dərk etdi, sezdi də getdi,
Birtəhər tablaşıb dözdü də getdi,
Çoxları bu dərdə dözəsi deyil.

[673] *II variant* Böyüyü kiçiyi saymayanların,
Xətiri, hörməti anmayanların,
Yaxşını-yamanı qanmayanların,
Alını alın döy, qaşı qaş deyil.

Haqq-say itirən nanıkorların,
Araqarışdıran fitnəkarların,
Əzazil, zülümkar, sitəmkarların,[674]
Peşəsi-peşə döy, işi-iş deyil.[675]

Lovğa, yekəxana ədəbazların,
Hiyləgər, dələduz kələkbazların,
Təlxəklik eyləyən kəndirbazların, [676]
Baharı bahar döy, qışı qış deyil.

Gedib qəflətlərdə yatan gədənin,
Mərdi namərdlərə satan gədənin,
Dünyanı on əllə tutan gədənin,
İkisi iki döy, beşi beş deyil.

Çörəyi dizində olan kəslərin,
Vücudu, varlığı yalan kəslərin,
Zəhmətsiz, xidmətsiz kalan kəslərin,
Bozbaşı bozbaş döy, aşı aş deyil. [677]

Vicdanı, məsləyi daş olanların,
Arzusu istəyi, çaş olanların,
Qafası, idrakı boş olanların,
Dirisi diri döy, leşi leş deyil.

Söyüd ağacıtək barsız olanın,
Ulğun ağacıtək karsız olanın,
Abırsız, ismətsiz arsız olanın,
Sinəsi sinə döy, döşü döş deyil. [678]

---

[674] Dağıdıb talıyan qəsbkarların,

[675] *II variant* Eşidə-eşidə kar olanların,
Adı lənət ilə car olanların,
Düşüb el gözündən xar olanların,
Əməli-əməl döy, işi iş deyil.

[676] Vicdanı kəmlərin, qəlbi buzların.

[677] *II variant* Çörəyi dizində olan kəslərin,
Dünyada tək-tənha qalan kəslərin,
Vicdanı, məsləyi solan kəslərin,
Bozbaşı bozbaş döy, aşı aş deyil.

[678] *II variant* Kimin ki, qəlbində çamırlıq yatır,
Bürüyüb üfunət, mamırlıq yatır,
Qara bulut çöküb yağmurluq yatır,
Sinəsi sinə döy, döşü döş deyil.

Kiminki üzündə həya görünmür?
Məslək qəhəd olub, qayə görünmür?
Nə təlim verməyə dayə görünmür?[679]
Ömrü ömür döy, yaşı yaş deyil.

Şərəflə yaşayıb qocalmayanın,
Zəfərlər çalaraq bac almayanın,
Namusla, qeyrətlə ucalmayanın,
Torpağı torpaq döy, daşı daş deyil.

Əhdinə, ilqara dönük çıxanın,
Eşqi-məhəbbəti sönük çıxanın,
Həryana, hər səmtə yönük çıxanın,
İncisi inci döy, daşı daş deyil.

Toxunub qəlblərə dəyən kimsənin,
Düzləri yolundan əyən kimsənin,
Zəhmətsiz, xidmətsiz yeyən kimsənin,
Kotanı kotan döy, xışı xış deyil.

Kiminki düşüncə, kamalı azdır?
Əqidə, məsləyi, amalı azdır?
Çəkidə tutarı sambalı azdır?
Ağılı ağıl döy, guşi guş deyil.

Cəmil Əkbər beləsindən bezibdir,
Sinə gərib əzabına dözübdür,
Öz əlini əllərindən üzübdür,
Nə zoru zor deyil, xoşu xoş deyil.

***Cəmil Əkbər*** 7. 10 – 1992

## 298. DEYİL

*II variant*

Yaxşı-pisi qanabilməyənlərin,
İdrak, düşümcəsi başı-baş deyil.
Haqq-sayı anabilməyənlərin,
Fikiri, xəyalı, huşu-huş deyil. [680]

---

[679] Təlimi verməyə dayə görünmür.

[680] *II variant* Yaxşı-pisi qananmayan kimsənin,
İdrak, düşümcəsi başı-baş deyil.
Haqq-sayı ananmayan kimsənin,
Fikiri, xəyalı, huşu-huş deyil.

Vicdanıkəmlərin, qəlbidaşların,
İlqarı, imanı, fikri çaşların,
Filə hücum çəkən alabaşların,
Gözləri göz deyil, qaşı qaş deyil.

Eşqi, məhəbbəti kəm-kəsirlərin,
Sərsəri, kütbeyin, dəngəsərlərin,
Naxələf, naqisin, müxtəsərlərin,
Kababı kabab döy, şişi-şiş deyil.

Gedib qəflətlərdə yatan kəslərin,
Mərdi namərdlərə satan kəslərin,
Dünyanı min əlli tutan kəslərin,
İkisi iki döy, beşi beş deyil.

Əli ola-ola var həsrətlinin,
Alma həsrətlinin, nar həsrətlinin,
Aşna həsrətlinin, yar həsrətlinin,
Süfrəsi süfrə döy, aşı aş deyil.

Ləyaqət əhlinə darılanların,
Çatlayıb içindən qırılanların,
Qoluna-qılçına sarılanların,
Cəsədi-cəsəd döy, leşi-leş deyil.

Ədəb-ərkan, nəzakətdən kəmlərin,
Sədaqətdən, səxavətdən kəmlərin,
Xeyirxahlıq, fəzilətdən kəmlərin,
Sinəsi sinə döy, döşü döş deyil.

Sədası, səmiri pis gələnlərin,
Bədxah gələnlərin, nəs gələnlərin,
Yolunu, izini tərs gələnlərin,
Ömürü ömür döy, yaşı-yaş deyil.

Haqqı-ədaləti əyən kəslərin,
Zəhmətsiz, xidmətsiz yeyən kəslərin,
Toxunub qəlblərə dəyən kəslərin,
Mizan tərəzisi, daşı-daş deyil.

Vətən torpağına tər tökməyənin,
İnci səpələyib, zər tökməyənin,
Bərəkət gətirib dür tökməyənin,
Kotanı kotan döy, xışı xış deyil.

Ay Cəmil elləri bezdirənlərin,
Dağları, daşları gəzdirənlərin,
Salıb müsibətə dözdürənlərin,
Peşəsi-peşə döy, işi iş deyil.

***Cəmil Əkbər*** 3. 01 - 1995

## 299. QANMAYACAQ

İlahi hərəyə bircür baş verib,
Qanmayan qanmayıb, qanmayacaq da.
Çox ürək yerinə qara daş verib,[681]
Qanmayan qanmayıb, qanmayacaq da.

Nə lazımdır hər yetənə söz demək,
Candan keçib, başdan keçib düz demək,
Məqamından, vədəsindən tez demək,
Qanmayan qanmayıb, qanmayacaq da.

Əbəs imiş hər yetənlə danışmaq,
Can yandırıb iş-gücünə qarışmaq,
Bəhsə girib, cəhlə düşüb yarışmaq,[682]
Qanmayan qanmayıb, qanmayacaq da.

Hər yetəndən mərifəti gözləmə,
Döyəcləmə, təpikləmə, bizləmə,
Kələfini yumaqlama, çözləmə,
Qanmayan qanmayıb, qanmayacaq da.

Hər gədədən gəl sədaqət umma sən,
Nə insanlıq, nə ləyaqət umma sən,
Xeyirxahlıq, nə fəzilət umma sən,
Qanmayan qanmayıb, qanmayacaq da.

---

[681] Kimiyə düz verib, kimə çaş verib.

[682] Bəhsə-bəhsə, çəhlə düşüb yarışmaq.

Hər yetən üzlərdə həya hardadır?
Əqidə hardadır, qayə hardadır?
Edəcək yardımı sayə hardadır?
Qanmayan qanmayıb, qanmayacaq da.

Hər yetən insanda kamal hardadır?
Əqidə hardadır, amal hardadır?
Mənəvi gözəllik, camal hardadır?
Qanmayan qanmayıb, qanmayacaq da.

Ay Cəmil, hərkəslə oturma, durma,
İgidha deyildir, hər bığıburma?
Əbəsdir tər töküb özünü yorma,
Qanmayan qanmayıb, qanmayacaq da.

***Cəmil Əkbər*** 16. 09 – 1994

## 300. BİR DEYİL

Hər sinə altında bir ürək yatır,
Həsrəti bir deyil, kamı bir deyil.[683]
Min bir nisgil yatır, min dilək yatır,
Sorağı bir deyil, namı bir deyil.[684]

Hərəsi bircürə kef eyləyibdir,
Güzəran keçirib, nəf eyləyibdir,
Yeyibdir, içibdir, püf eyləyibdir,
Şərbəti bir deyil, camı bir deyil.

Hərəsi bircürə düşünüb, qanıb,
Axtarıb, soraşub, arayıb, anıb,
Od alıb, köz alıb, alışıb yanıb,[685]
Fitili bir deyil, şamı bir deyil.

Birisi hünərli, biri hünərsiz,
Birisi təpərli, biri təpərsiz,
Birisi süpərli, biri süpərsiz,
Hərə bambaşqadır, hamı bir deyil.

---

683 Dövranı bir deyil, kamı bir deyil.
684 Sədası bir deyil, namı bir deyil.
685 Od alıb, ətəkdən, alışıb yanıb.

Birisi istidir, birisi sərin,
Birisi dayazdır, birisi dərin,
Birisi acıdır, birisi şirin,
Nə duzu, nə dadı, tamı bir deyil,[686]

Hər yerin ünvanı, öz adı vardır,
Yaxını, uzağı, öz yadı vardır,
Hər bağda meyvənin öz dadı vardır,
Saplağı bir deyil, tumu bir deyil.[687]

Dağların təpəsi, dərəsi bircür,
Bərəlgəsi bircür, bərəsi bircür,
İgidəm deyənin hərəsi bircür,
Fürsəti bir deyil, çəmi bir deyil[688]

İnsan var, qoçaqdır, hərəkətlidir,
Tarla var, barlıdır, bərəkətlidir,
Torpaq var duzludur, şorəkətlidir.
Aratı bir deyil, şumu bir deyil.

Qurulan daxmaya, yataqlara bax,
Mənzilə, eyvana otaqlara bax,
Limana, dənizə, bataqlara bax,[689]
Özülü bir deyil, himi bir deyil.

***Cəmil Əkbər***

---

[686] Ləzzəti bir deyil, tamı bir deyil.

[687] *II variant*
Birisi yoxsuldur, birisi varlı,
Birisi karsızdır, birisi karlı,
Birisi barsızdır, birisi barlı,
Saplağı bir deyil, tumu bir deyil.

[688] *II variant*
Hər dağın, təpənin öz dərəsi var,
Öz yalı-yamacı, öz bərəsi var,
İgidəm deyənin öz nərəsi var,
Fürsəti bir deyil, çəmi bir deyil.

[689] Kölgəlik, daldalıq, sokaqlara bax.

## 301. DEYİLƏM

Adət eyləmişəm dağda gəzməyə,
Özgə diyarlara uyan deyiləm.
Barlı-bərəkətli bağda gəzməyə,
Özgə diyarlara uyan deyiləm.
Onu gözlərimdən qoyan deyiləm,
Ha baxıb boylansam doyan deyiləm.

Dağların döşünün lalasıyam mən,
Onunla açılıb solasıyam mən,
Onunla boşalıb dolasıyam mən,
Onunla yaşayıb, qalasıyam mən,
Özgə diyarlara uyan deyiləm.
Onu gözlərimdən qoyan deyiləm,
Ha baxıb boylansam doyan deyiləm.

Elimdə, obamda gözüm qalıbdı,
Onun cığırında izim qalıbdı,
Ocağım alışıb, közüm qalıbdı,
Oğulum qalıbdı, qızım qalıbdı,
Kamanım qalıbdı, sazım qalıbdı,
Öz ərkim qalıbdı, nazım qalıbdı.
Özgə diyarlara uyan deyiləm,
Onu gözlərimdən qoyan deyiləm,
Ha baxıb boylansam doyan deyiləm.

Məskənim olubdu o yerlər mənim,
Möcüzələr mənim, o sirlər mənim,
Müqəddəs ocaqlar, o pirlər mənim.
Özgə diyarlara uyan deyiləm,
Onu gözlərimdən qoyan deyiləm,
Ha baxıb boylansam doyan deyiləm.

Yaxşı tanıyıram obaları mən,
Hər yurdu-yuvanı sobaları mən,
Hər quşu, budağı, yuvaları mən,
Özgə diyarlara uyan deyiləm,
Onu gözlərimdən qoyan deyiləm,
Ha baxıb boylansam doyan deyiləm.

Nəqədər dadmışam nemətini mən,
Görmüşəm hər yerdə hörmətini mən,
Bilirəm dəyəri, qiymətini mən.
Özgə diyarlara uyan deyiləm,
Onu gözlərimdən qoyan deyiləm.
Boylanıb baxmaqla doyan deyiləm.

Bu elin-obanın, vətəndaşıyam,
Bəslənib, böyüyən, bitən daşıyam,
Məzara qoyulub itən daşıyam.
Özgə diyarlara uyan deyiləm,
Onu gözlərimdən qoyan deyiləm,
Boylanıb baxmaqla doyan deyiləm,

Fitnə, fəsadlara uyarmı Cəmil?
Yad yerə ayağın qoyarmı Cəmil?
Ana vətənindən doyarmı Cəmil?
Özgə diyarlara gedən deyiləm,
Otarıb qarnımı güdən deyiləm.
Onu gözlərimdən qoyan deyiləm.
Boylanıb baxmaqla doyan deyiləm,

***Cəmil Əkbər*** 21. 09 – 1995

## 302. DEYİLƏM

Kim nə deyir qoy desin, nə söyləyir-söyləsin?
Nə danışır-danışsın, bəyan edir-eyləsin?
Döyülürsə-döyülsün, söyülürsə-söyülsün?
Qatlanırsa-qatlansın, əyilirsə-əyilsin?
Mən heçkəsi düz yoldan əyəsi də deyiləm,
Xatirinə toxunub, dəyəsi də deyiləm.

Kim nə geyir qoy geysin, bürünürsə-bürünsün?
İlan kimi torpaqda, sürünürsə-sürünsün?
Nə sifətdə, nə donda görünürsə-görünsün?
Yorulursa-yorulsun, ərinirsə-ərinsin?
Mən heçkəsi yanlayıb, döyəsi də deyiləm,
Tərifləyib bədxahı, əyəsi də deyiləm.

Hərkəs sönür qoy sönsün, hərkəs yanır qoy yansın,
Hərkəs qanmır-qanmasın, hərkəs qanır qoy qansın.
Hərkəs danır qoy dansın, hərkəs danmır-danmasın,
Hərkəs anır qoy ansın, hərkəs anmır-anmasın.
Kim nə edir qoy etsin, hara gedir qoy getsin?
Kim çürüyür-çürüsün, kim bitirsə qoy bitsin?
Kim kiriyir-kirisin, kim susursa qoy sussun?
Kim döşürür-döşürsün, kim qusursa qoy qussun?
Vicdanımın önündə mən sönəsi deyiləm,
İlqarımdan, vəfamdan mən dönəsi deyiləm.

Külək kimi həryana, kim əsirsə qoy əssin,
Taleyindən inciyib, kim küsürsə qoy küssün.
Ünsiyyəti-ülfəti kim pozursa, qoy pozsun,
Yol-izini yanılıb, kim azırsa qoy azsın.
Doğru sözü tərsinə, kim yozursa qoy yozsın,
Öz əliylə qəbrini, kim qazırsa qoy qazsın.
Yarpaq kimi titrəyib, mən əsəsi deyiləm,
Əllərimi-əllərdən mən kəsəsi deyiləm.

Ona-buna ilişib kim dolaşır-dolaşsın,
Zibil olub ayağa, bulaşırsa-bulaşsın.
Çəkişirsə-çəkişsin, tutaşırsa-tutaşsın,
Vuruşursa-vuruşsun, dalaşırsa-dalaşsın.
Əbəs yerə vurnuxub, çalışırsa-çalışsın,
Bomba kimi partlayıb, alışırsa-alışsın.
Heçkimsəyə toxunub, sataşası deyiləm,
Qapılara-bacaya, daş atası deyiləm.

Mən elimin, obamın şərəfini güdürəm,
Al şəfəqli səhərə, səfərini güdürəm,
Qəsəbəni, kəndini, şəhərini güdürəm,
Xeyirini güdürəm, bəhərini güdürəm,
Bəzəyinə vurğunam, zinətini güdürəm,
Dəyərini artırıb, qiymətini güdürəm,
Şərəfini-şanını, şöhrətini güdürəm,
Mənasını, məzmunu, hikmətini güdürəm.
Kim solursa qoy solsun, mən solası deyiləm,
Kökdən salıb qəlbimi, bəm çalası deyiləm.

İnsan gərək insantək, hörmət ilə dolansın,
İnsafıyla dolansın, mürvətilə dolansın.
Namusuyla dolansın, qeyrətilə dolansın,
Bu mənəvi aləmi, sərvətilə dolansın.
Abırıyla dolansın, ismətilə dolansın,
Öz xalqıyla, eliylə, millətiylə dolansın.
Kim nə edir, qoy bilsin, o özünə eyləyir,
Ocağının oduna, öz közünə eyləyir.
Öz oğluna eyləyir, öz qızına eyləyir,
Ya kəcinə yön alır, ya düzünə eyləyir.
Kim nə əksə gec-tezi, özü biçər deyirlər,
Nə tökərsə qabına, onu içər deyirlər.
Öz saldığı körpüdən, özü keçər deyirlər,
Öz boyuna xələti, özü biçər deyirlər.
Kim bədxahlıq edərsə, özü peşman olacaq,
Qənim çıxıb özünə, özü düşmən olacaq.
Zaman keçib vaxt gələr, yuxusundan ayılar,
Törpülənib, düzəlib, bir gün insan sayılar.
Kim nə edir qoy etsin, hara gedir qoy getsin?
Bədxahlığa yön alıb, mən gedəsi deyiləm.

***Cəmil Əkbər*** 3. 03 – 1990

## 303. DEYİLDİR

Dövr eyləyib zəmanə, həyat yaman dəyişib,[690]
Əyyam o əyyam deyil, il də o il deyildir.
Yer də, göy də, asiman, bu kainat dəyişib,[691]
Sərraf o sərraf deyil, ləl də o ləl deyildir.

Çox-çox mənəm deyənlər, yoldan əyilib gedir,
Hökümləri verilib, daldan dəyilib gedir,
Taxıllar da, zəmi də, tezcə döyülüb gedir,
Xırman o xırman deyil, vəl də o vəl deyildir.[692]

---

[690] Dövr eyləyib zəmanə, dövran yaman dəyişib.
[691] 1) Cah-calallar dəyişib, büsat yaman dəyişib, 2) Sərvan çaşıb yolunu, karvan yaman dəyişib.
[692] *II variant* Çoxlarını görürük yoldan əyilib gedir,
Üzlərinə gülürlər, daldan söyülüb gedir,
Taxılları, zəmisi, tezcə döyülüb gedir,
Xırman o xırman deyil, vəl də o vəl deyildir.

Davalarda, dalaşda, qırılanlar qoşundur,
Xalqa dəyir xətası, bu nə qayda qanundur?
Yükümüzü daşıyan, sağa-sola maşındır,
Araba o araba, kəl də o kəl deyildir. [693]

Yersiz gəlib yerlini, öz yerindən oynadır,
Zəhmət çəkib tutduğu, düz yerindən oynadır,
Darıxsanda nəfayda, döz yerindən oynadır,
Nə obalar o oba, el də, o el deyildir.

Acgöz, həris, tamahkir, yaman harınlaşıblar,
Əli-ələ verərək yaman tarımlaşıblar, [694]
Peysərləri yoğnudub, daqqa qarınlaşıblar,
Qarın o qarın deyil, bel də o bel deyildir.

İnsanlar birbirindən inciyirlər, küsürlər,
Ünsiyyəti korlayıb, ülfətləri kəsirlər,
Bədəməlin önündə yarpaq kimi əsirlər,
Külək o külək deyil, yel də o yel deyildir.[695]

Nəzir-niyaz paylayıb, günahları yuyurlar,
Zəmanənin nəbzini sanki sezib duyurlar,
Könülləri həsrətdə, gözü yolda qoyurlar, [696]
Xirtdək o xirtdək deyil, əl də o əl deyildir.

Saxtalıqlar sulanıb, əyriliklər göyərib,[697]
Həqiqətin əksinə, qeyriliklər göyərib,
Ənlik, kirşan boy atıb, süniliklər göyərib,
Fitnə o fitnə deyil, fel də o fel deyildir.

---

[693] Nə araba, nə öküz kəl də o kəl deyildir.

[694] Əli-ələ verərək möhkəm tarımlaşıbdır,

[695] *II variant* 1) Həqiqətdən söz açsan inciyirlər, küsürlər, 2) İnsanoğlu incidib, birbirindən küsürlər,
Ünsiyyəti pozaraq, ülfətləri kəsirlər,
Dayın dursa dalında yarpaq kimi əsirlər,
Külək o külək deyil, yel də o yel deyildir.

[696] 1) Avçarkası ölsədə, üstündə büst qoyurlar, 2) Varın olsa öləndə üstündə büst qoyurlar,

[697] *II variant* Saxtalıqlar sulanıb, əyriliklər göyərib,
Dələduzlar çoxalıb, qeyriliklər göyərib,
Ənlik, kirşan boy atıb, süniliklər göyərib,
Fitnə-fəsad o deyil, fel də o fel deyildir.

*III variant* Saxtalıqlar sulanıb, əyriliklər göyərib,
Bəd fikirlər, əməllər, qeyriliklər göyərib,
Ənlik, kirşan çoxalıb, süniliklər göyərib,
Fitnə-fəsad dəyişib, fel də o fel deyildir.

Qara saçlar hənadan, gör necə də saralıb?
Adətimiz korlanıb, al-qanımız qaralıb,
Ovqatımız təlx olub, səbrimiz də daralıb,
Dəllək o dəllək deyil, tel də o tel deyildir. [698]

Çaylar da yüz yerindən, indi bəndə salınıb,
Buxovlanıb dizindən, lap kəməndə salınıb,[699]
İşıqları şəhərə, neçə kəndə salınıb,
Daşqın o daşqın deyil, sel də o sel deyildir.

Baxışlar da dəyişib, indi göz də başqadır,
Batilinə oxşamır, indi üz də başqadır,
Əməllər də dəyişib, daha söz də başqadır,
Fikir o fikir deyil, dil də o dil deyildir.[700]

Mələklər də dəyişib, ərənlər də dəyişib,
Alanlar da dəyişib, verənlər də dəyişib,
Pərdilər də dəyişib, kərənlər də dəyişib,
Sütun o sütun deyil, mil də o mil deyildir.

Ayaqlar da dəyişib, başımız da dəyişib,[701]
Kotanlar da dəyişib, xışımız da dəyişib,
Torpağımız bir yana, daşımız da dəyişib,
Tərkib o tərkib deyil, gil də o gil deyildir.

Canlı-cansız nə varsa bəşəriyyət dəyişib,[702]
O cəmiyyət bir yana, əksəriyyət dəyişib,
Qanun-qayda pozulur, cümhuriyyət dəyişib,[703]
Yasdıq o yasdıq deyil, tül də o tül deyildir.

---

[698] Nə dəlləklər o dəllək, tel də, o tel deyildir.

[699] Buxovlanıb gör necə, lap kəməndə salınır.

[700] *II variant* Baxışlar da dəyişib, indi göz də başqadır,
Batilinə oxşamır, tamam üz də başqadır,
Əməlinə oxşamır, tamam söz də başqadır,
Nə fikirlər o fikir, dil də o dil deyildir.

[701] *II variant* 1) Ayaqlar da dəyişib, başımız da dəyişib, 2) Fikirlər də dəyişib, başımız da dəyişib.
Çatılıbdı qabaqlar, qaşımız da dəyişib,
Fikirlər də dəyişib, huşumuz da dəyişib,
Torpaq o torpaq deyil, gil də o gil deyildir.

[702] Canlı, cansız nəki var, bəşəriyyət dəyişib.

[703] Səlahiyyət dəyişib, cümhuriyyət dəyişib.

Tərsanələr dəyişib, gəmilər də dəyişib,
Dayılar da dəyişib, əmilər də dəyişib,[704]
Tarlalar da dəyişib, zəmilər də dəyişib,[705]
Çiçək o çiçək deyil, gül də o gül deyildir.

Fikirlərin məşəli, doğru söz ilə yanır,
Ədalətin şamları, o da düz ilə yanır,[706]
Ocaqlar da odunsuz, indi qaz ilə yanır,
Közlər o közlər deyil, kül də o kül deyildir.

Məkəs-milçək "fil" olub, fillər "milçəyə" dönüb,
Gözəllər çirkin olub, çirkin göyçəyə dönüb,[707]
Kələf yumağa dönüb, piltə düyçəyə dönüb,
Cəhrə o cəhrə deyil, qıl da o qıl deyildir.[708]

Hamı indi düşünür, dərk edirlər, qanırlar,
Haqsızlığı gördükcə, odlanırlar, yanırlar,
İnsanlığa meyl edib, cahilliyi danırlar,
Kəkov o kəkov deyil, lal da o lal deyildir. [709]

Hərkəsdəyə arxadı, törətdiyi əməli,
Dar ayaqa dayaqdı, bünövrəsi, təməli,
Həyat olub qəribə, həyat olub məzəli,
Arxa o arxa deyil, dal da o dal deyildir.[710]

Çalıb-çapır, dağıdır, var toplayır oğrular,
Əl-ayaqda neyləsin, biçarələr, fağırlar?
Qeyrətini saxlayıb, ar toplayır doğrular,
Var da o var deyildir, mal da o mal deyildir.[711]

---

[704] Dayılara nə söz var, əmilər də dəyişib,

[705] 1) Tarlalar da, bağlar da, zəmilər də dəyişib. 2) Səhralar da dəyişib, zəmilər də dəyişib.

[706] Həqiqətin şamları, o da düz ilə yanır,

[707] Gözəllər çirkinləşib, çirkin göyçəyə dönüb.

[708] Tənzif o tənzif deyil, qıl da o qıl deyildir.

[709] Korlar o korlar deyil, lal da o lal deyildir.

[710] *II variant*

Hərkimsəyə arxadır, törətdiyi əməli,
Dar günündə dayaqdır, bünövrəsi, təməli,
Qəribədir bu həyat, olub yaman məzəli,
Arxa o arxa deyil, dal da o dal deyildir.

İçki bir yana qalsın, yeyimlər süniləşib,
Paltar, palaz dəyişib, geyim də süniləşib,
Bilən yoxdu nə qalıb, bəyim də süniləşib,
Tirmə o tirmə deyil, şal da o şal deyildir.[712]

Dələduzlar, haramxor, şəkərdən də bal çəkir,
Çiçəklərə qonmamış, gör necə də bol çəkir?
Bal yerinə həyasız, hörrə çəkir, yal çəkir,
Arı o arı deyil, bal da o bal deyildir.

Bir-birini nəyaman insan lağa qoyubdur,
Əridərək yağını, lap cızdağa qoyubdur,
Eşit, etiqat eylə, inan qağa qoyubdur,
Nömrə o nömrə deyil, xal da o xal deyildir.[713]

Vəzifəyə soxulur, hər yolunu azanlar,
Doğruları əyriyə, əyrini düz yozanlar,
Haqqa dönük çıxanlar, qaydaları pozanlar,[714]
Qovğa o qovğa deyil, qal da o qal deyildir.[715]

Toyuqlar da döşürür, tezcə yumurtasını,
Boş-boşuna keçirmir, bircə günortasını,
Tutan yoxdur vayını, çəkən yoxdur yasını,
Fallıq o fallıq deyil, fal da o fal deyildir.[716]

Cığırlar da dəyişib, keçidlər də dəyişib,
Məzhəblər də dəyişib, məscidlər də dəyişib,[717]
Molla, qazı qalmayıb, seyidlər də dəyişib,[718]
Ərkan o ərkan deyil, yol da o yol deyildir.

---

[711] Var da o var deyildir, hal da o hal deyildir.

[712] *II variant* İçki bir yana qalsın, yeyimlər də sünidir,
Paltar, palaz dəyişib, geyimlər də sünidir,
1) Yazı-pozu nə varsa, deyimlər də sünidir, 2) Gəlinlər də, qızlar da, göyüm də süniləşib,
Tirmə o tirmə deyil, şal da o şal deyildir.

[713] 1) İşlədilən nömrə də, xal da o xal deyildir. 2) Nə nömrələr o nömrə, xal da o xal deyildir.

[714] Haqqa qənim çıxanlar, qaydaları pozanlar.

[715] Nə qovğalar o qovğa, qal da o qal deyildir.

[716] Nə fallıqlar o fallıq, fal da o fal deyildir.

[717] Minbərlər də dəyişib, məscidlər də dəyişib.

[718] Molla, qazı, axundlar, seyidlər də dəyişib.

Çoxlarını dəng edir, dostdoğmaca sazımız,
Təravətli, ətirli, gül-çiçəkli yazımız,
Düz çəkilmir neyləyim, nə ərkimiz, nazımız,
Avaz o avaz deyil, val da o val deyildir.[719]

Qövr eyləyir yaralar, göz-göz olub sulanır, [720]
Ayağımız yerdəsə, xəyal göydə dolanır,
Şair təbim alışıb, sanki oda qalanır,
Çaylar o çaylar deyil, göl də o göl deyildir.[721]

Parniklərdə yetişir, qış fəslində tərəvəz,[722]
Axtarmaqla tapılmır, ayran ilə körəməz,[723]
Nə başını ağrıdım, beylə olub əlqərəz,
Dəymiş o dəymiş deyil, kal da o kal deyildir.

Görünməyir gözümə nə Koroğlu, nə Qırat,
Nə Mustafa, nə Həsən, Eyvaz xanla, nə Dürat,
Qaçaq Nəbi, nə Eldar, nə Göydəmir, nə Bozat,
Dırnaq o dırnaq deyil, nal da o nal deyildir.

Alabaşlar dartılıb, fillərə hücum çəkir,
Qanqallar da boy atıb, güllərə hücum çəkir,
Mığmığalar, böcəklər çöllərə hücum çəkir,
Milçək o milçək deyil, fil də o fil deyildir.[724]

Dəyişibdir ətrini, lalə, nərgiz, qərənfil,
Mixək moddan düşübdür, işləməyir zəncəfil,
Mənki qəflətdə yatdım, olma sənsada qafil,
Darçın o darçın deyil, hil də o hil deyildir.[725]

---

[719] Nə avazlar o avaz, val da o val deyildir.
[720] Qövr eyləyir yaramız, göz-göz olur sulanır.
[721] Çaylar o çaylar deyil, sel də o sel deyildir.
[722] Qış fəslində bəslənir parniklərdə tərəvəz.
[723] 1) Nəhrələrdə çalxanıb, yağa dönür körəməz. 2) Nə yol ilə bilinmir, yağa dönür körəməz.
[724] Nə köstəbək, milçəklər fil də o fil deyildir.
[725] *II variant* Dəyişibdir ətrini, lalə, nərgiz, qərənfil,
Mixək moddan düşübdür, gözdən düşüb zəncəfil,
Kimsə qəflətdə qaldı, sənsada olma qafil,
Nə zəfəran, nə darçın, hil də o hil deyildir.

Arzu-istək nəki var, niyyətlər də dəyişib,[726]
Bər-bəzəklər, naxışlar, ziynətlər də dəyişib,
Dəyər-dəyməz bahadır, qiymətlər də dəyişib,[727]
Məzənnə o məzənnə, pul da o pul deyildir

Yol verilib ay aman, dələduza, biclərə,
İnsafsıza, qansıza, kəmağıla, giclərə,
Yol-ərkana, qanuna, öcün oğlu öclərə, [728]
Bakirə də pozulub, dul da o dul deyildir. [729]

Şahzadələr dəyişib, bəyzadələr dəyişib,[730]
"Stol"unun başında keyzadələr dəyişib,[731]
Kütbeyinlər çoxalıb, səyzadələr dəyişib,
Ağalar da o ağa, qul da o qul deyildir.

Ülfət qılmaq dəyişib, ünsiyyətlər dəyişib,
Ənənələr pozulub, xasiyyətlər dəyişib,
Söz də əsər etməyir, nəsihətlər dəyişib,
Nə sərraflar o sərraf, ləl də o ləl deyildir.

***Cəmil Əkbər*** 10. 10 – 1990

## 304. DEYİLDİR

*I variant*

Dövranımız dəyişib, zamanımız dəyişib,
Nə obalar oymaqlar, el də o el deyildir.
Tarixlərə nəqş olan, salnaməmiz dəyişib,
Fəsillər də o fəsil, il də o il deyildir.

Dəyişibdir donunu, başdan-başa oylaqlar,
Könlümüzü oxşayan o səfalı yaylaqlar,
Sısqalaşıb nəyaman, durna gözlü bulaqlar,
Daşqın o daşqın deyil, sel də o sel deyildir.

---

[726] Arzular da, istək də, niyyətlər də dəyişib.

[727] 1) Dəyər-dəyməz nəki var, qiymətlər də dəyişib. 2) Dəyər-dəyməz nə varsa, qiymətlər də dəyişib.

[728] Tərsəməssəb qaçana, öcün oğlu öclərə.

[729] 1) Bakirə moddan düşüb, dul da o dul deyildir. 2) Nə bakirə, bakirə, dul da o dul deyildir.

[730] Xanzadələr dəyişib, bəyzadələr dəyişib.

[731] Vəzifənin başında keyzadələr dəyişib.

Qanun-qayda dəyişib, hökmü-fərman dəyişib,
Təbiblər də dəyişib, indi dərman dəyişib,
Tarla, zəmi dəyişib, indi orman dəyişib,
Tufan o tufan deyil, yel də o yel deyildir.

Cahil, nadan bəy olub, ariflər də dəyişib,
Məktəblər də, təlim də, maariflər də dəyişib,
Cədvəldəki rəqəmlər, taariflər də dəyişib,
Sərraf o sərraf deyil, ləl də o ləl deyildir.

Bataqlıqda üfunət, çamırlıqlar çoxalıb,
Ceyilliklər çoxalıb, mamırlıqlar çoxalıb,
Yal-yamacda cacıqlıq, çaşırlıqlar çoxalıb,
Löhmə o löhmə deyil, göl də o göl deyildir.

Qərinələr dolanıb, fəsillər də dəyişib,
Zaman gəlib vaxt keçib, nəsillər də dəyişib,
Əkin-biçin dəyişib, xəsillər də dəyişib,
Çəmən o çəmən deyil, gül də o gül deyildir.

Oxuyan da dəyişib, çalanlar da dəyişib,
Fikirlərə, xəyala dalanlar da dəyişib,
Açılan da dəyişib, solanlar da dəyişib,
Kaman o kaman deyil, tel də o tel deyildir.

“Tərəkəmə” oynumuz indi gəlib caz olub,
Gitara meydan açıb, dəbdən düşən saz olub,
Özümüzü danmışıq, xaric bizə paz olub,
Ocaq o ocaq deyil, kül də o kül deyildir.

Yad ellərdən alırıq taxılı da, dəni də,
Süfrəmizdə yeməyə çörək üçün unu da,
Qınayarlar vətəndaş, bil ki, səni, məni də,
Xırman o xırman deyil, vəl də o vəl deyildir.

Gün-güzəran çətindir, neçin belə gəzirik,
Hər cəfaya tablaşıb, çətinliyə dözürük,
Cəhalətin içində özümüzü üzürük,
Zirvə o zirvə deyil, zil də o zil deyildir.

Baxışlar da, diqqət də, nəzərlər də dəyişib,
Al şəfəqli səfərə, güzarlar da dəyişib,
Xəstəliklər çoxalıb, azarlar da dəyişib,
Darçın o darçın deyil, hil də o hil deyildir.

Sütunlar da, dirək də, dayaqlar da dəyişib,
Yolgöstərən kəhkəşan, mayaqlar da dəyişib,
Dənizdəki yosunlar, əmyoblar da dəyişib,
Nə mığmığa, nə böcək, fil də o fil deyildir.

İblislər də, əqrəb də, şeytanlar da dəyişib,
Uydurmalar, yalanlar, böhtanlar da dəyişib,
Şər danışıb aranı, qatanlar da dəyişib,
Nə fitnələr, fəsadlar, fel də o fel deyildir.

Kişi kimi yaradan, quranlar da dəyişib,
Bığlarını şeşəldib, buranlar da dəyişib,
Zəli kimi al-qanı, soranlar da dəyişib,
Ayaq o ayaq deyil, əl də o əl deyildir.

Qızlar həna yaxırlar, qarılar da dəyişib,
Qara saçlar boyanıb, sarılar da dəyişib,
Yeşikdəki pətəkdə, arılar da dəyişib,
Bəhməz o bəhməz deyil, bal da o bal deyildir.

Baxımsızlıq ucundan, bağda bağlıq qalmayıb,
Dərdi-qəmin əlindən, canda sağlıq qalmayıb,
Aran gözdən düşübdür, dağda dağlıq qalmayıb,
Dəymiş o dəymiş deyil, kal da o kal deyildir.

Səs-səmirlər dəyişib, avazlar da dəyişib,
Əhli-keflər, dəngəsər, nasazlar da dəyişib,
Ariflər gözdən düşüb, qanmazlar da dəyişib,
Avaz o avaz deyil, val da o val deyildir.

Hiyləgərlik, saxtalıq, bicliklər də çoxalıb,
İlqarına, imana kəcliklər də çoxalıb,
Qanunlara, qaydaya öclüklər də çoxalıb,
Nömrələr də, naxış da, xal da o xal deyildir.

Bu həngamə, oyunlar, mat qoyubdur Cəmili,
Sözlərini oxuyub, alan yoxdur dəlili,
İstər "Misri" çalınsın, istərsə də "Cəlili",
Söz-söhbətlər, danışıq, dil də o dil deyildir.

***Cəmil Əkbər*** 15. 09 - 1989

## 305. DEYİLDİR

*II variant*

Dolanıbdı zəmanə, dövran yaman dəyişib,
Oba-oymaq, məmləkət, el də o el deyildir.
Karvan azıb yolunu, sarvan yaman dəyişib,
Qarğalar bülbül olub, gül də o gül deyildir.[732]

Dəyişibdir donunu, çəmən, çiçək oymaqlar,
Gör kimlərə qalıbdır, o səfalı yaylaqlar?
Sısqalaşıb, quruyub, durna gözlü bulaqlar,
Daşqın o daşqın deyil, sel də o sel deyildir.[733]

Baxışlarda dəyişib, nəzərlər də dəyişib,
Səfərlər də dəyişib, güzarlar da dəyişib,
Alan-satan dəyişib, bazarlar da dəyişib,[734]
Yazı-pozu bir yana, dil də o dil deyildir.[735]

Sütunlar da dəyişib, dayaqlar da dəyişib,
Yolgöstərən kəhkəşan, mayaqlar da dəyişib,
Dənizdəki yosunlar, əmyoblar da dəyişib,
Nə begemot, göstəbək, fil də o fil deyildir.[736]

---

[732] *II variant* Gör nəyaman dəyişib, zəmanəmiz ay aman?
Nə obalar oymaqlar, el də o el deyildir.
Tarixlərə nəqş olan, salnaməmiz ay aman?
Fəsillər də o fəsil, il də o il deyildir.

[733] *II variant* Dəyişibdir donunu, başdan-başa oymaqlar,
Sinəsində gəzdiyim, o səfalı yaylaqlar,
Sısqalaşıb nəyaman, durna gözlü bulaqlar?
Daşqın o daşqın deyil, sel də o sel deyildir.

[734] 1) Xəstəlik də dəyişib, azarlar da dəyişib, 2) Təbiblər çaşbaş qalıb, azarlar da dəyişib,

[735] Danışılan söz-söhbət dil də o dil deyildir.

Fürsət tapıb gədalar, yaman harınlaşıbdır,
Əli-əli verərək, yaman tarımlaşıbdır,
Peysərini yoğnudub, daqqa qarınlaşıbdır,
Gərdan o gərdan deyil, bel də o bel deyildir.[737]

Nadanlar da dəyişib, ariflər də dəyişib,
Müəllim də, məktəb də, maariflər də dəyişib,[738]
Qiymətlər də dəyişib, taariflər də dəyişib,[739]
Sərraf o sərraf deyil, ləl də o ləl deyildir.

Törədilən həngamə, mat qoyubdur hamını,
Öküzlər düz çəkməyir, sındırırlar samını,
Çəkən yoxdu hesabı, götürən yox namını,
Darçın o darçın deyil, hil də o hil deyildir.

İblislər də, əqrəb də, şeytanlar da dəyişib,
Saxtalıqlar, yalanlar, böhtanlar da dəyişib,
Vicdanını, məsləyi satanlar da dəyişib,[740]
Fitnə o fitnə deyil, fel də o fel deyildir.

Bataqlıqlar quruyur, çamırlıqlar dəyişir,
Ceyilliklər soğulur, mamırlıqlar dəyişir,
Yal-yamaclar, örüşlər, çaşırlıqlar dəyişir,
Nə dəryalar, dənizlər, göl də o göl deyildir.

Qərinələr dolanıb, fəsillər də dəyişir,
Nəsillərin dalınca, nəsillər də dəyişir,
Bədəsillər bir yana, əsillər də dəyişir,
Rüstəm o Rüstəm deyil, Zal da o Zal deyildir.

Yaradanlar dəyişib, quranlar da dəyişib,
Bezdirən də, bezən də, yoranlar da dəyişib,
Bığlarını şeşəldib, buranlar da dəyişib,
Nə ayaqlar o ayaq, əl də o əl deyildir.

---

[736] Nə mığmığa, nə böcək, fil də o fil deyildir.
[737] Qarın o qarın deyil, bel də o bel deyildir.
[738] Məktəblər də müəllim, maariflər də dəyişib.
[739] Məzənnə də dəyişib, taariflər də dəyişib.
[740] Ünsiyyəti pozanlar, qatanlar da dəyişib.

Küçələr də dəyişib, dalanlar da dəyişib,
Gedənlərdən xəbər yox, qalanlar da dəyişib.
Kasıblar da dəyişib, kalanlar da dəyişib,
Kaman o kaman deyil, tel də o tel deyildir.

Ocaqlarda alışan, indi yanan qaz olub,
"Tərəkəmə" oyunu indi dönüb caz olub,
Gitara meydan açıb, dəbdən düşən saz olub,
Ocaq o ocaq deyil, kül də o kül deyildir.

Taxılımız, unumuz, Hindistandan yön alır,
Türkiyədən yön alır, Pakistandan yön alır,
Uzaq-yaxın diyardan, Dağıstandan yön alır,
Xırman o xırman deyil, vəl də o vəl deyildir.

Yerdə dolanmaq nədir, kosmoslarda gəzirik,
Apogeyə yön alıb, gör haraya gedirik?
Hər cəfaya tablaşıb, hər çətinə dözürük,
Zirvə o zirvə deyil, zil də o zil deyildir.

Bakirələr dəyişib, qarılar da dəyişib,
Qaralara baxaraq, sarılar da dəyişib,
Yeşikdəki pətəkdə, arılar da dəyişib,
Bəhməz o bəhməz deyil, bal da o bal deyildir.

Pis yaxşıya qarışıb, yaxşı pisə qarışıb,
Qurğuşunlar qalaya, qızıl misə qarışıb.
Xeyirxahlar nədənsə, gedib nəsə qarışıb,[741]
Dəymiş o dəymiş deyil, kal da o kal deyildir.

Hiyləgərlər dələduz, biclər yaman çoxalıb,
İlqarına-imana kəclər yaman çoxalıb,
Qanunlara, qaydaya öclər yaman çoxalıb,
Nömrə o nömrə deyil, xal da o xal deyildir.[742]

---

[741] Saf, tərtəmiz havalar, gedib hisə qarışıb.

[742] *II variant* Sərsərilik çoxalıb, gicliklər də çoxalıb,
Xainliklər, xəbislik, kəcliklər də çoxalıb.
İnsaf, mürvət azalıb, öclüklər də çoxalıb,
Nömrələr də o nömrə, xal da o xal deyildir.

Hamı atlas geyinir, hamı şala bürünür,
Qədək, bezi geyən yox, hamı ala bürünür,
Asta-asta bəzənib, bala-bala bürünür,[743]
Palan o palan deyil, çul da o çul deyildir.[744]

Hamı "duflu" geyinir, hamı çəkmə geyinir,
Baxıb öz kölgəsinə, gör necə də soyunur?
Qürrələnib gədələr, gör necə də öyünür?
Pəncə o pəncə deyil, nal da o nal deyildir.

Görmürsənmi ay Cəmil, dövran bizi mat qoyub,
Sarvan yolu çaşıbdır, karvan bizi mat qoyub,
Dağ-dumana bürünüb, aran bizi mat qoyub,
Ay da, gün də, saat da, il də o il deyildir.

***Cəmil Əkbər*** 10. 10 – 1990

## 306. DEYİLDİR

*III variant*

Gör nəyaman dəyişib, zəmanə də, dövran da,
Nə obalar oymaqlar, el də o el deyildir.[745]
Çöl yamaclar dəyişib, dəyişibdir aran da,
Çəmən o çəmən deyil, gül də o gül deyildir.[746]

Dəyişibdir donunu, seyrəngahlar, oymaqlar, [747]
Sinəsində gəzdiyim, o səfalı yaylaqlar,
Sısqalaşıb gözümdə, durna gözlü bulaqlar,
Daşqın o daşqın deyil, sel də o sel deyildir.

Baxışlar da diqqət də, nəzərlər də dəyişib,
Mənzillərə səfərlər, güzarlar da dəyişib,
Təbiblər də loğman da, azarlar da dəyişib,[748]
Nə söhbətlər o söhbət, dil də o dil deyildir.

---

[743] Hərə bir moda tapıb, ala-bula bürünür.

[744] *II variant* Hamı atlas bəzənib, hamı şal geyinibdir,
Hamı tirmə qurşanıb, hamı al geyinibdir,
Zər-xaraya bürünüb, hamı cal geyinibdir,
Palan o palan deyil, çul da o çul deyildir.

[745] Obalar da o oba, el də o el deyildir.

[746] Dəyişibdir yal-yamac, gül də o gül deyildir.

[747] Dəyişibdir donunu, seyrəngahlar, oylaqlar.

[748] Dükanlar da dəyişib, bazarlar da dəyişib.

Çahil, nadan bəy olub, ariflər də dəyişib,
Məktəblərdə təlim də, maariflər də dəyişib,[749]
Cədvəldəki rəqəm də, taariflər də dəyişib,[750]
Sərraf o sərraf deyil, ləl də o ləl deyildir.

İblislər də, əqrəb də, şeytanlar da dəyişib,
Uydurmalar, yalanlar, böhtanlar da dəyişib,
Şər danışıb, aranı qatanlar da dəyişib,
Nə fitnələr, fəsadlar, fel də o fel deyildir.

Bataqlıqlar dəyişib, çamırlıqlar dəyişib,
Ceyilliklər quruyub, mamırlıqlar dəyişib,
Örüşlərdə cacıqlar, çaşırlıqlar dəyişib,
Löhmə o löhmə deyil, göl də o göl deyildir.

Qərinələr dolanıb, fəsillər də dəyişib,
Zaman gəlib, vaxt keçib, nəsillər də dəyişib,
Bədəsildən dad aman, əsillər də dəyişib,[751]
Aylar o aylar deyil, il də o il deyildir.[752]

Bığlarını şeşəldib, buranlar da dəyişib,
Keşiklərdə dayanan, duranlar da dəyişib,
Kişitəki yaradan, quranlar da dəyişib,
Ayaq o ayaq deyil, əl də o əl deyildir.

Küçələr də dəyişib, dalanlar da dəyişib,
Əl-ayaqda ölən də, qalanlar da dəyişib,
Oxuyan da dəyişib, çalanlar da dəyişib,
Kaman o kaman deyil, tel də o tel deyildir. [753]

---

[749] Məktəblər də dəyişib, maariflər də dəyişib.
[750] Cədvəllər də dəyişib, taariflər də dəyişib.
[751] Tarladakı əkin də, xəsillər də dəyişib.
[752] Çəmən o çəmən deyil, gül də o gül deyildir.
[753] *II variant* Ölənlər də dəyişib, qalanlar da dəyişib,
Boşalan da dəyişib, dolanlar da dəyişib,
Ağlayan da dəyişib, gülənlər də dəyişib.
Kaman o kaman deyil, tel də o tel deyildir.

Yad ellədən alınır, taxılımız, dənimiz,
Dağa-daşa düşübdür, aman Allah yönümüz,
Qulaqları dəng edir, səs-küyümüz, ünümüz,
Xırman o xırman deyil, vəl də o vəl deyildir.

Gün-güzaran çətindir, zəmanədə bezirik,
Hər cəfaya tablaşıb, hər çətinə dözürük,
Cəhalətin içində, canımızı üzürük,
Zirvə o zirvə deyil, zil də o zil deyildir.

Kamil bağban ölübdü, bağda bağlıq qalmayıb,
Dağıdılıb, talanıb, dağda dağlıq qalmayıb,
Pozulubdu bostanlar, tağda tağlıq qalmayıb,
Dəymiş o dəymiş deyil, kal da o kal deyildir.

Səs-səmirlər dəyişib, avazlar da dəyişib,
Əhli-keflər dəyişib, nasazlar da dəyişib,[754]
Qananları demirəm, qanmazlar da dəyişib,[755]
Avaz o avaz deyil, val da o val deyildir.

Hiyləgərlik çoxalıb, bicliklər də çoxalıb,
Xainliklər, xəbislik, kəcliklər də çoxalıb,
Qanunlar da, qayda da, öclüklər də çoxalıb,
Nömrələr də, naxış da, xal da o xal deyildir.

Hamı atlas geyinir, hamı şala bürünür,
Tirmələrə qurşanıb, hamı ala bürünür,
Hərə bir yola düşüb, ala-bula bürünür.
Palan o palan deyil, çul da o çul deyildir.

Kişilər də, qadın da hamı çəkmə geyinir,
Baxıb öz kölgəsinə, gör necə də öyünür?
Qürrələnib gədələr, gör necə də söyünür,[756]
Dırnaq o dırnaq deyil, nal da o nal deyildir.

---

754 Əhli-keflər çoxalıb, nasazlar da dəyişib.
755 Qananlara nə deyim, qanmazlar da dəyişib.
756 Qürrələnib gədələr, fərəhlənib söyünür.

Düz düşünmür beyinlər, düz vurmayır ürəklər,[757]
Bam-başqadır arzular, bam-başqadır diləklər,
Gilavarı meh əsir, zəyifləşib küləklər,[758]
Tufan o tufan deyil, yel də o yel deyildir.

Bu həngamə, bu oyun mat qoyubdu Cəmili,
Eşidən yox nəsihət, alan yoxdu dəlili,[759]
İstər "Nəcəfi" çal, istər "Cəlili", [760]
Darçın o darçın deyil, hil də o hil deyildir.

***Cəmil Əkbər*** 10. 10 – 1990

## 307. ANLAMIŞAM MƏN

Dedimki insanıq, həyalı olaq,
Beylə düşünmüşəm, anlamışam mən.
Qədəmi uğurlu, sayalı olaq,
Beylə düşünmüşəm, anlamışam mən.

İncidib heçkəsi, bezdirməyək biz,
Salıb əzablara dözdürməyək biz,
Dağları, daşları gəzdirməyək biz,
Beylə düşünmüşəm, anlamışam mən.

İlqarlı, vəfalı yoldaş olaq biz,
Ən yaxın can-ciyər qardaş olaq biz,
Həmkarlıq eyləyək, yoldaş olaq biz,[761]
Beylə düşünmüşəm, anlamışam mən.

Kimsənin qəlbinə dəyməyək əsla, [762]
Vurub qamətini əyməyək əsla,
Ünvanı dalınca söyməyək əsla,[763]
Beylə düşünmüşəm, anlamışam mən.

---

[757] Bam-başqadır beyinlər, bambaşqadır ürəklər,
[758] Ara vermir bir an da, dayanmayır küləklər.
[759] Nə oxuyub öyrənən, alan yoxdur dəlili.
[760] İstər "Misiri" çal, istər "Cəlili".
[761] Mehri ülfət qılaq, sirdaş olaq biz.
[762] Toxunub qəlblərə dəyməyək əsla.
[763] Kimsənin dalınca söyməyək əsla.

Dedimki düşünüb, qanandan olaq,
İnsanın dərdinə yanandan olaq,
Axtarıb, arayıb anandan olaq,
Beylə düşünmüşəm, anlamışam mən.

Dedim qoy əzilən, əzən olmasın,
Düşüb müsibətə dözən olmasın,
Canından usanıb bezən olmasın,
Beylə düşünmüşəm, anlamışam mən.[764]

Dedim qaralmasın heçkəsin qanı,
Hamının bol olsun süfrəsi, nanı,
Səadət bürüsün Azərbaycanı,
Beylə düşünmüşəm, anlamışam mən.

Hər eldə, obada ağsaqqal olsun,
Dərin düşüncəli pürkamal olsun,
Yer üzü ən gözəl bir mahal olsun,
Beylə düşünmüşəm, anlamışam mən.[765]

Əsəblər korlanıb, qan qaralmasın,
Bağlarda açılan gül saralmasın,
Zehinlər, idraklar heç korlanmasın,
Beylə düşünmüşəm, anlamışam mən.

İnsan bir-birinin dadına yetə,
Qohuma, qardaşa yadına yetə,[766]
Ünvanına yetə, adına yetə,
Beylə düşünmüşəm, anlamışam mən.

---

[764] *II variant* Əzilən olmasın, əzən olmasın,
Avarə dolanıb gəzən olmasın,
Usanıb canından, bezən olmasın,
Beylə düşünmüşəm, anlamışam mən.

[765] *II variant* Ellərdə obada ağsaqqal olsun,
Təlimi öyrədən pürkamal olsun,
Mənəvi aləmi nur camal olsun,
Beylə düşünmüşəm, anlamışam mən.

[766] Qohum-qardaşına, yadına yetə.

Ünsiyyət ülfətdə ədalət gərək,
Doğruluq, düzgünlük həqiqət gərək,
Ədəb-ərkan, mərfət, nəzakət gərək,
Beylə düşünmüşəm, anlamışam mən.[767]

İnsan birbirindən hörmət görəydi,
Kəramət görəydi, mürvət görəydi,
Mənəvi var-dövlət, sərvət görəydi,[768]
Beylə düşünmüşəm, anlamışam mən.

Dedimki çaşmayaq, yolu düz gedək,
Sağa yanılmayaq, solu düz gedək,
Düşsək də qajlara, qolu düz gedək,[769]
Beylə düşünmüşəm, anlamışam mən.

Dedim sıramızda nadan olmasın,
Təlimdən yarımçıq dadan olmasın,
Yolunu tərsinə adan olmasın,
Beylə düşünmüşəm, anlamışam mən.

Ünsiyyət-ülfəti pozan olmayaq,
Şər-böhtan danışıb, yazan olmayaq,
Doğrunu əyriyə yozan olmayaq,
Beylə düşünmüşəm, anlamışam mən.

Eşidib bilənlər qınamasınlar,
Hər addımbaşında sınamasınlar,
Dişini qıcayıb yanımasınlar,
Beylə düşünmüşəm, anlamışam mən.

İstədim olmasın nə dava, dalaş,
Həyəcan, səksəkə, nə qorxu, təlaş,
Yaşayaq, yaradaq biz yavaş-yavaş,
Beylə düşünmüşəm, anlamışam mən.

---

[767] *II variant* İnsanam deyəndə ləyaqət gərək,
Etibar, etiqat, sədaqət gərək,
Ədəb-ərkan gərək, nəzakət gərək,
Beylə düşünmüşəm, anlamışam mən.

[768] Mənəvi gözəllik, sərvət görəydi.

[769] Qajlara düşəndə, qolu düz gedək.

Susmasın, danışsın, dil açsın könül,
Gəlsin bahar fəsli, gül açsın könül,
Eldən ilham alsın, tel açsın könül,
Beylə düşünmüşəm, anlamışam mən.

İstədim həryanda qardaşlıq olsun,
Dostluq, mehribanlıq, yoldaşlıq olsun,
Həmkarlıq, həmdəmlik, sirdaşlıq olsun,
Beylə düşünmüşəm, anlamışam mən.

Heç kimin taleyi qara gəlməsin,
Dərdləyib ürəyi yara gəlməsin,
Düşüb ah-amana, zara gəlməsin,
Beylə düşünmüşəm, anlamışam mən.

İnsanıq, insanın hayına gedək,
Çatıb köməyinə, hoyuna gedək,
Nişana, bəlgəyə, toyuna gedək,
Beylə düşünmüşəm, anlamışam mən.

Mən Cəmil Əkbərəm sözümüz haqdır,
Yolumuz doğrudur, izimiz haqdır,
Əyrimiz nahaqdır, düzümüz haqdır,
Beylə düşünmüşəm, anlamışam mən.

***Cəmil Əkbər*** 1. 11 – 1992

## 308. ANLAMIŞAM

Əfv edib, sən məni bağışla yoldaş,
Mən səni hamıdan gec anlamışam.
Bağışla a qohum, bağışla sirdaş,
Nədənsə mən səni kəc anlamışam.

Sanmışam hamıdan kamallı səni,
Əqidə, məsləkli, amallı səni,
Görkəmli, yöndəmli, camallı səni,
Mən səni sərsəri, gic anlamışam.

Duymuşdum hamıdan qafalı sənsən,
Loğmansan, xəstəyə şəfalı sənsən,
Yaylaqtək gəzməli, səfalı sənsən,
Ülfət-ünsiyyətdə öc anlamışam.

Duyub sezənmədim həyanı sənin,
Əqidə, məsləkli, qayəni sənin,
Əzəldən bəxş edən dayəni sənin,
Mən səni hiyləgər, bic anlamışam.

Cəmil Əkbər əzəl gündən belədir,
Vicdan qarşısında quldur, kölədir,
Mülayim, həlimdir, sanki pilədir,
Kini-küdurəti hec anlamışam.

***Cəmil Əkbər*** 24.03 – 1991

## 309. ÖLÜCAN

Necə getdin, necə gəldin bilmədim? [770]
Ölücansan, ölücansan, ölücan.
El şəninə sevinmədin, gülmədin, [771]
Ölücansan, ölücansan, ölücan.

Vaxt-vədəni hədər yerə ötürdün,
Bağ yerinə kol-kosları bitirdin,
Ömür-günü havayıdan itirdin,
Ölücansan, ölücansan, ölücan.[772]

Şərəf nədir, şöhrmət nədir qanmadın?
Xətir-hörmət anlamadın, anmadın.
Ha od aldın, alışmadın, yanmadın,
Ölücansan, ölücansan, ölücan.[773]

---

[770] Harda qaldı məhəbbətin görünmür?
[771] Sədaqətin, səxavətin görünmür?
[772] *II variant* Dərk eyləyib anlamırsan, bilmirsən,
Gözündəki dumanını silmirsən,
Utanmırsan, qızarmırsan, ölmürsən,
Ölücansan, ölücansan, ölücan.

Nə xətirdən, nə hörmətdən utandın,
Nə insafdan, nə mürvətdən utandın,
Nə mənəvi o sərvətdən utandın,
Ölücansan, ölücansan, ölücan.[774]

Nə eşqin bilindi, nə məhəbbətin,
Fəhmin, fərasətin, nə cəsarətin,
İnsanlıq naminə nə ləyaqətin,
Ölücansan, ölücansan, ölücan.[775]

Düşüncən, dərrakən, kamalın yoxdur,
Əqidən, məsləyin, amalın yoxdur,
İnsana oxşayan camalın yoxdur,
Ölücansan, ölücansan, ölücan.[776]

Ömürboyu yerdə-yurdda süründün,
Künc-bucaqda daldalarda göründün,
İş məqamı yorğun düşdün, ərindin,
Ölücansan, ölücansan, ölücan.[777]

---

[773] *II variant* Xətir nədir, hörmət nədir qanmırsan,
Böyük nədir, kiçik nədir sanmırsan,
Axtarmırsan, aramırsan, anmırsan,
Ölücansan, ölücansan, ölücan.

[774] *II variant* Ustadlardan dərsini də almadın,
Haqq-sayı yadına da salmadın,
Fikirlərə, xəyallara dalmadın,
Ölücansan, ölücansan, ölücan.

[775] *II variant* Dil tərpədib yaxşılara pis dedin,
Höcət dedin, inad dedin, tərs dedin,
Bədxah bilib, zalım bilib, nəs dedin,
Ölücansan, ölücansan, ölücan.

[776] *II variant* Görə-görə kor olubdur gözlərin,
Bilinməyir yolaqlarda izlərin.
Dil-dodaqda söylənilmir sözlərin,
Ölücansan, ölücansan, ölücan.

[777] *II variant* Düşüncədən, kamalından dayazsan,
Əqidədən, amalından dayazsan,
Qəlbə yatan camalından dayazsan,
Ölücansan, ölücansan, ölücan.

Sayılmadın, seçilmədin ellərdə,
Sürünmüsən toz-torpaqda, güllərdə,
Ad çıxarıb gəzənmədin dillərdə,
Ölücansan, ölücansan, ölücan.

Utanmadın oba nədir, el nədir?
Ağlamaq nə, sızlamaq nə, gül nədir?
Oxu öyrən, öz gücünü bil nədir?
Ölücansan, ölücansan, ölücan.[778]

Xidmətini, zəhmətini görən yox,
Qazandığın nemətini görən yox,
Becərdiyin bağça-bağı dərən yox,
Ölücansan, ölücansan, ölücan.[779]

Utanmırsan, qızarmırsan ay yazıq,
Ha od qoydum, közərmirsən ay yazıq,
Ağarmırsan, bozarmırsan ay yazıq,
Ölücansan, ölücansan, ölücan.[780]

Nə ölənə, nə qalana hay verdin,
Nə satana, nə alana pay verdin,
Nə bibinə, nə xalana çay verdin,
Ölücansan, ölücansan, ölücan.[781]

---

[778] *II variant* Baqidir qəlbində kinin, nifrətin,
Paxıllığın, xainliyin, hiddətin,
Üstümüzdə ağır yükdü möhnətin,
Ölücansan, ölücansan, ölücan.

[779] *II variant* Anadan olanda tənbəl doğuldun,
Zəmanə mülkünə əngəl doğuldun,
Qal-qovğa doğuldun, cəncəl doğuldun,
Ölücansan, ölücansan, ölücan.

[780] *II variant* Nə inci anladın, nə zər anladın,
Nə zəhmət anladın, nə tər anladın,
Nə xeyir anladın, nə şər anladın,
Ölücansan, ölücansan, ölücan.

[781] *II variant* Xəzan olub solanlarda əlin var,
Əl-ayaqda qalanlarda əlin var,
Fikirlərə dalanlarda əlin var,
Ölücansan, ölücansan, ölücan.

Xəzan vurub nə saralıb solmusan?
Bilən yoxdu niyə belə olmusan?
Əl-ayaqda nə günlərə qalmısan?
Ölücansan, ölücansan, ölücan.[782]

Alan yoxdu sorağını ellərdən,
Həvəsini, marağını ellərdən,
Silahını, yarağını ellərdən,
Ölücansan, ölücansan, ölücan.

Ona-buna yetişmədi köməyin,
Görünmədi, bilinmədi əməyin,
Yorğun düşdü əzəl gündən biləyin,
Ölücansan, ölücansan, ölücan.

Yaraşmayır sənə insan deməyim,
Dərk eyləyən, nə də qanan deməyim,
Eşqin yollarında Sənan deməyim,
Ölücansan, ölücansan, ölücan.

Dilim gəlmir sənə yoldaş deyim mən,
Həmkar, həmdəm nədə qardaş deyim mən,
Yaxşı tay-tuş, yaxşı çağdaş deyim mən,
Ölücansan, ölücansan, ölücan.

Sözüm yoxdur sənin ilə danışım,
Ülfət edib bircə saat barışım,
Nə kefini, əhvalını soruşum,
Ölücansan, ölücansan, ölücan.

Onun bunun kölgəsində dolandın,
Hara gəldi ayaq basdın, yollandın,
Yedin-içdin bala-bala sulandın,
Ölücansan, ölücansan, ölücan.

---

[782] *II variant*
Yıxılanın qollarından tutmadın,
Ha çağırdı, harayına çatmadın,
Möhüb düzüb bir savaba batmadın,
Ölücansan, ölücansan, ölücan.

Anlamırsan ünsiyyəti, ülfəti,
Doğru-düzgün şirin-şəkər söhbəti,
Sağlam arzu, saf istəyi, niyyəti,
Ölücansan, ölücansan, ölücan.

Şərəfini, şöhrətini görən yox,
Ədəb-ərkan mərfətini görən yox,
Məzmununu, hikmətini görən yox,
Ölücansan, ölücansan, ölücan.

Söz dedim ki, beləsinə ar ola,
Tanınaraq el içində xar ola,
Gen dünyası bəlkə ona dar ola,
Ölücansan, ölücansan, ölücan.

Qocalıbdı el dərdini çəkməkdən,
Əvəzində tər torpağa tökməkdən,
Qamətini, vüqarını bükməkdən,
Ölücansan, ölücansan, ölücan.

Ürəyində məhəbbət yox, təpər yox,
Qoçaqlıq yox, zirəklik yox, hünər yox,
Fərasət yox, cəsarət yox, zəfər yox,
Ölücansan, ölücansan, ölücan.

Nə vətəni, el-obanı pəsindin,
Nə bu yurdu, nə yuvanı pəsindin,
Nə daxmanı, nə sobanı pəsindin,
Ölücansan, ölücansan, ölücan.

Heç bilmirəm necə baxım üzünə?
Addım atım yolağına, izinə,
İsinən yox ocağının közünə,
Ölücansan, ölücansan, ölücan.

Əl uzadıb dərən yoxdu barını,
Almansını, heyvasını, narını,
Görən yoxdu nə xeyrini, karını,
Ölücansan, ölücansan, ölücan.

Görən yoxdu kəsərini a yazıq,
Əsərini, səmərini a yazıq,
Alan yoxdu nəmərini a yazıq,
Ölücansan, ölücansan, ölücan[783].

***Cəmil Əkbər*** 15. 02 – 1993

## 310. ELƏ SANDIM

*I variant*

Əzəl gündən elə sandım, dünya mənim dünyamdır,
Oymaqlar öz oymağım, obaları obamdır.
Ataları öz atamdır, babaları babamdır,
Nənələri öz nənəmdir, anaları anamdır.
Aranları öz aranım, dağları da dağımdır,
Çəmənləri, çiçəkləri, bağları da bağımdır.
Gözəlləri gözəlimdir, çirkini çirkinimdir,
Bədbinləri bədbinimdir, nikbini nikbinimdir.
Sadələri sadəmdir, xudbini xudbinimdir,
Kef-damağı kefimdir, qəmgini qəmginimdir.
Kəndləri də kəndimdir, şəhərləri şəhərim,
Şənlikləri şənliyim, qəhəri öz qəhərim.

Elə sandım, anladım, hamı mənim yoldaşım,
Dostdoğmaca can-ciyər, atam, anam, qardaşım,
Hamı mənim həmdəmim, hamı mənim sirdaşım,
Hamı mənim tay-tuşum, hamı mənim çağdaşım.
Əmiləri əmimdir, dayıları dayımdır,
Bibiləri bibimdir, xalaları xalamdır,
Ağsaqqalı böyüyüm, balaları balamdır.
Qardaşları qardaşım, bacıları bacımdır,
Şirinləri şirinim, acıları acımdır.

Elə sandım, eləbildim, hamı mənim oğlumdur,
Hamı mənim mehribanım, hamı mənim noğlumdur,
Xoş günlərdə fərəhləndim, qəhərləndim pis gündə,

---

[783] *II variant*

Ha yaşadın, səmərini görən yox,
Nüfuzunu, əsərini görən yox,
Ovxarını, kəsərini görən yox,
Ölücansan, ölücansan, ölücan.

Kefim-halım pozularaq, zəhərləndim nəsində,
Şərik oldum dərdlərində, şərik oldum qəmində,
Şərik oldum əyər-əksik, hərnəvarsa kəmində.

Çox çalışdım, vuruşdum ki, heçkəs pis gün görməsin,
Düşməsinlər müsibətə, heçkəs nəs gün görməsin.
Elə sandım əzəl gündən dünya mənim dünyamdır,
Səadətə yolgöstərən, xülya mənim xülyamdır.
Şimal mənim şimalımdır, şərq də mənim şərqimdir,
Cənub mənim cənubumdur, Qərb də mənim qərbimdir.
Dənizləri öz dənizim, çayları da çayımdır,
Əsrləri, qərinəsi, ayları da ayımdır.

Beylə baxdım bu dünyaya əzəl gündən ellərə,
Hər çəməndə, hər çiçəkdə, hər qönçədə, güllərə.
Qanmazına qan demişəm, qananına can dedim,
Haqq-sayı unudana, dönə-dönə an dedim.
İstədimki, mehri-ülfət pozulmasın bir anda,
Doğru fikir, doğru sözlər, yozulmasın bir anda.
Elə sandım, anladım ki, dünya gözəl dünyadır,
Səndən, məndən, çox qədimdən, dünya əzəl dünyadır.
Dünya müəmmalıdır, yetən yoxdu sirrinə,
Çoxları üzdən gedib, başvurmayıb dərinə.
Başdan-başa tamaşadır, sehirlidir bu dünya,
Möcüzədir ta qədimdən, çox sirlidir bu dünya.
Elə sandım, anladım ki, dünya mənim özümdür,
O düşünən beyinimdir, görən iki gözümdür.
Səcdə qılmışam hərzaman, torpağına, daşına,
Nə yoruldum, nə ərindim, ha dolandım başına.
Ha boylanıb gəzdimsədə, bu dünyadan doymadım,
Fitnələrə-fəsadlara ha dedilər, uymadım.
Yollarıyla çox getmişəm, cığırında izim var,
Şərəfinə-şanına çox deyilməmiş sözüm var.
Dünya çox gözəl yaranıb şəfası da var onun,
Anlamaza, qanmaza da cəfası da var onun.
Qədir-qiymət bilənə də vəfası da var onun,
Qayğısını çəkənlərə səfası da var onun.

***Cəmil Əkbər*** 9. 07 – 1993

## 311. ELƏ SANDIM

*II variant*

Əzəl gündən, ibtidadan dünya bizim dünyadır,
Oymaqları oymağımız, obaları obamdır.
Ataları öz atamdır, babaları öz babam,
Nənələri nənəmizdir, anaları anamdır.
Aranları öz aranım, dağları da dağımdır,
Bostanları bostanımdır, bağları da bağımdır.
Hərnəvarsa gözəlləri, çirkini də bizimdir,
Mağmını da, bədbini də, nikbini də bizimdir.
Sadələr də, fəqirlər də, xudbini də bizimdir,
Yeyib-içən kef əhli də, qəmgini də bizimdir.
Kəndləri də kəndimizdir, şəhərləri bizimdir,
Şənlikləri şənliyimiz, qəhəri də bizimdir.
Həmkarlar da öz həmkarım, hamı öz yoldaşımdır,
Dostdoğmaca can-ciyərim, atam, anam, qardaşımdır.
Həmdəmimdir hamı mənim, yaxınca sirdaşımdır.
Əmiləri əmimizdir, dayıları dayımız,
Bibiləri bibimizdir, xalaları xalamız.
Ağsaqqalı pir nuranim, balaları balamız,
Qardaşları qardaşımız, bacıları bacımız,
Şirinləri şirnimizdir, acıları acımız.
Övladlar öz övladımtək, nəvələr də nəvəmdir,
Nəticələr nəticəmtək, kötücələr kötücəm.
Şərik oldum dərdlərinə, ortaq oldum qəmə də,
Əyər əksik hərnəvarsa, şərik oldum kəmə də.
Çox çalışdım, vuruşdumki, heçkəs pis gün görməsin,
Düşməsinlər heç çətinə, heçkəs nəs gün görməsin.
Elə zənnedib bildim ki, dünya mənim dünyamdır,
Səadətə gedən yollar, xülya mənim xülyamdır.
Şimal mənim şimalımdır, Şərq də mənim şərqimdir,
Cənub mənim cənubumdur, Qərb də mənim qərbimdir.
Dənizləri dənizimdir, çayları öz çayımdır,
Ötüb keçən qərinələr, ayları öz ayımdır.
Beylə baxdım bu dünyaya, əzəl gündən ellərə,
Hər çəməndə, hər çiçəkdə, hər qönçədə güllərə.
Qanmazına qan demişdim, qananına can dedim,
Haqq-sayı udana mən, dönə-dönə yan dedim.

Çox cəhd etdim mehri-ülfət, pozulmasın bir anda,
Doğru-düz fkir tərsinə, yozulmasın bir anda.
Elə sanıb, anlamışam, dünya gözəl dünyadır,
Səndən məndən çox əzəldir, dünya özəl dünyadır.
Dünya çox müəmmalıdır, yetən yoxdur sirrinə,
Çoxu üzdən seyredibdir, gedənməyib dərinə.
Başdan-başa tamaşadır, sehirlidir bu dünya,
Möcüzədir əzəl başdan, çox sirlidir bu dünya.
Mən elə zənnetmişəm ki, dünya mənim özümdür,
O düşünən beynim, zehnim, görən iki gözümdür.
Təzim etmişəm hər zaman, torpağına, daşına,
Nə yoruldum, nə ərindim, hey dolandım başına.
Ha boylandım, ha gəzmişəm, bu dünyadan doymadım,
Hər fitnəyə, hər fəsada, ha dedilər uymadım.
Yollarıyla doğru getdim, cığırında izim var,
Şərəfinə, şanına çox deyilməmiş sözüm var.
Dünya gözəl yaranıbdır, səfası da var onun,
Anlamaza, qanmaza da, cəfası da var onun,

***Cəmil Əkbər*** 9. 07 – 1993

## 312. ELƏ SANDIM

*III variant*

Əzəl gündən elə sandım, dünya mənim öz dünyamdır.
Oymaqları öz oymağım, obaları öz obamdır.
Ataları öz atamdır, babaları öz babamdır,
Nənələri öz nənəmdir, anaları öz anamdır.
Aranları öz aranım, dağları da öz dağımdır,
Çəmənləri, çiçəkləri, bağları da öz bağımdır.
Gözəlləri-gözəllərim, çirkini də çirkinimdir,
Bədbinləri bədbinimdir,  nikbinləri nikbinimdir.
Sadələri öz sadəmdir, xudbini də xudbinimdir,
Əhli-kefi əhli-kefim, qəmgini də qəmginimdir.
Kəndləri də öz kəndimdir, şəhərləri şəhərimdir,
Şənlikləri öz şənliyim, qəhəri də qəhərimdir.
Elə sandım, əzəl gündən, hamı mənim yoldaşımdır,
Dostdoğmaca can-ciyərim, atam, anam, qardaşımdır.
Hamı mənim həmdəmimdir, hamı mənim sirdaşımdır,

Hamı mənim tay-tuşumdur, hamı mənim çağdaşımdır.
Əmiləri öz əmimdir, dayıları öz dayımdır,
Bibiləri bibilərim, xalaları xalamdır,
Ağsaqqalı ağsaqqalım, balaları balamdır.
Qardaşları qardaşlarım, bacıları öz bacımdır,
Şirinləri şirinimdir, acıları öz acımdır.
Elə sandım, eləbildim, hamı mənim eloğlumdur,
Hamı mənim mehribanım, hamı mənim gül oğlumdur.
Xoş günlərdə fərəhləndim, pis gündə qəhərləndim,
Kefim-halım pozularaq, nəs günündə zəhərləndim.
Şərik oldum hər dərdinə, şərik oldum qəminə də,
Şərik oldum əyər-əksik, hərnəvarsa kəminə də.
Çox çalışdım, ha vuruşdum, heçkəs pis günü görməsin,
Düşməsinlər müsibətə, heçkəs nəs günü görməsin.
Elə sandım əzəl gündən dünya mənim öz dünyamdır,
Səadətə yolgöstərən, xülya mənim düz xülyamdır.
Şimal mənim şimalımdır, şərq də mənim öz şərqimdir,
Cənub mənim cənubumdur, qərb də mənim öz qərbimdir.
Dənizləri öz dənizim, çayları da öz çayımdır,
Əsrləri, qərinəsi, ayları da öz ayımdır.
Beylə baxdım bu dünyaya, əzəl gündən bu ellərə,
Hər çəməndə, hər çiçəkdə, hər qönçədə bu güllərə.
Qanmazına qan demişəm, qananına can demişəm,
Haqq-sayı unudana, dönə-dönə an demişəm.
İstədimki, mehri-ülfət bir an belə pozulmasın,
Doğru fikir, doğru sözlər, tərsəməssəb yozulmasın.
Elə sandım, anladım ki, dünya gözəl dünyamızdır,
Səndən, məndən, çox qədimdən, dünya əzəl dünyamızdır.
Bu dünya müəmmalıdır, yetən yoxdur sirrinə,
Bir çoxu üzdən seyredib, gedənməyib dərinə.
Başdan-başa tamaşadır, sehirlidir bu dünya,
Bir möcüzədir əzəldən, çox sirlidir bu dünya.
Elə sandım, anladım ki, dünya mənim özümdür,
O düşünən beynim mənim, görən iki gözümdür.
Hörmət etmişəm hərzaman, torpağına, daşına,
Nə yoruldum, nə ərindim, hey dolandım başına.
Ha boylandım, gəşt etmişəm bu dünyadan doymadım,
Hər fitnəyə, hər fəsada, ha dedilər uymadım.
Haqq yoluyla mən getmişəm, cığırında izim var,

Şərəfinə, şanına xoş deməfiyim sözüm var.
Dünya gözəl yaranıbdır, şəfası da var onun,
Anlamaza, qanmaza da, cəfası da var onun,
Qədirini bilənələrə, vəfası da var onun,
Zəhmətini çəkənlərə səfası da var onun.

***Cəmil Əkbər*** 9. 07 -1993

## 313. "ELİN AĞSAQQALI, BAŞBİLƏNLƏRİ"

Bir zaman kim idi, indi kim olub?
"Elin ağsaqqalı, başbilənləri".
Kimlər köç eylədi, gör kimlər qalıb?
"Elin ağsaqqalı, başbilənləri".

Dövrü-zəmanəni bu günə qoydu,
Kələfi, yumağı düyünə qoydu,
Xalqın sərvətini evinə qoydu,
"Elin ağsaqqalı, başbilənləri".

Vətən övladını zülmətə saldı,
Min bir dərd-azara, hillətə saldı,
Əzab-əziyyətə zillətə saldı,
"Elin ağsaqqalı, başbilənləri".

Dünyanı dağıtdı, taladı getdi,
Qanları torpağa caladı getdi,
Xalqı barmağına doladı getdi,
"Elin ağsaqqalı, başbilənləri".

Özünə çoxluca dövlət topladı,
Cah-calal düzəltdi, sərvət topladı,
Yeməyə, içməyə nemət topladı,
"Elin ağsaqqalı, başbilənləri".

Bir zaman kim idi, gör indi kimdi,
Əqrəbdi, iblisdi, şeytandı, cindi,
Xalqın var-halına, malına cumdu,
"Elin ağsaqqalı, başbilənləri".

Məqamı gəldikcə yolunu azdı,
Sağını yanıldı, solunu azdı,
Qajını ayırdı, qolunu azdı,
"Elin ağsaqqalı, başbilənləri".

Şər-böhtan danışıb ara qatdılar,
Fürsət tapıb iqtidara çatdılar,
Çalıb, çapıb külli-vara çatdılar,
"Elin ağsaqqalı, başbilənləri".

Haqqı, ədaləti yalan etdilər,
Dağıdıb ölkəni talan etdilər,
Qohum qardaşını kalan etdilər,
"Elin ağsaqqalı, başbilənləri".

Bədxah əməliylə gözdən düşdülər,
Yolunu azdılar, izdən düşdülər,
Dəhandan, dodaqdan, gözdən düşdülər,
"Elin ağsaqqalı, başbilənləri".

Abırını, həyasını itirdi,
Əqidəsi, qayəsini itirdi,
Köməyini, sayəsini itirdi,
"Elin ağsaqqalı, başbilənləri".

Özünü düşündü, eli unutdu,
Muğanı, Şirvanı, Mili unutdu,
Yaradan qolları, əli unutdu,
"Elin ağsaqqalı, başbilənləri".

Ləyaqət əhlinə gözünü yumdu,
Yolunu kəsərək, izini yumdu,
Yalana yol açdı, düzünü yumdu,
"Elin ağsaqqalı, başbilənləri".

Mərd, igid görəndə darıldılar da,
Çatlayıb içindən qırıldılar da,
Qoluna, qılçına sarıldılar da,
"Elin ağsaqqalı, başbilənləri".

Pozub ünsiyyəti pis günə qoydu,
Xalqa qənim olub, gözünü oydu,
Edam edib nahaq dərisin soydu,
“Elin ağsaqqalı, başbilənləri”.

Ay Cəmil, xalqına qəsd elədilər,
Yeməmiş, içməmiş məsd elədilər,
Astarı çevirib üst elədilər,
“Elin ağsaqqalı, başbilənləri”.

***Cəmil Əkbər*** 6. 02 – 1999

## 314. HARAY

Nə zamandan bəridir, vətən dara düşübdü,
Qəm-qüssəyə, kədərə, ahuzara düşübdü.
Didərgini çoxalıb, qaçqınları çoxalıb,
Çadırlarda yaşayan, köçkünləri çoxalıb.
Halal zəhmət çəkənlər, qəhətliklə dolanır,
Ehtiyacda boğulur, çətinlikdə dolanır.
Gör nəqədər müsafir nemət tapıb yeyənmir?
Ürəyindən keçəni, məqamında deyənmir.
Yalançılar, saxtalar, düz deyəni bəyənmir,
Fikirini müfəssəl tez deyəni bəyənmir.
Hiyləgərlər, dələduz, ədaləti bəyənmir,
Doğruluğu, düzlüyü, həqiqəti bəyənmir.
Eşit məni bir anlıq, ay vəfalı yoldaşım,
Ay həmkarım, həmdəmim, ay səmimi sırdaşım.
Gəl səsimə qulaq ver, ay tay-tuşum, çağdaşım,
Dosdoğmaca can-ciyər, ay mehriban qardaşım.
Beylə işləmək olmaz, beylə çalışmaq olmaz,
Beylə bəhsə düşərək, beylə yarışmaq olmaz.
Giley-güzar eyləyib, beylə danışmaq olmaz,
Beylə küsüşmək olmaz, beylə barışmaq olmaz.
Bağdaş qurub oturmaq, beylə durmaq yaramaz,
Beylə tikib yaratmaq, beylə qurmaq yaramaz.
Gözəl-göyçək dünyada beylə dolanmaq olmaz,

Çatılaraq ocağa, beylə qalanmaq olmaz.
Beylə dağılmaq olmaz, beylə talanmaq olmaz,
Pərçimlənib cır kökə, beylə calanmaq olmaz.
Beylə güzar eyləmək, beylə yollanmaq olmaz,
Beylə sıçramaq olmaz, beylə tullanmaq olmaz.
Ləyaqətin əhlinə, beylə diqqət yaramaz,
Beylə xidmət göstərmək, beylə qiymət yaramaz.
Bu nə adət, ənənə, beylə vərdiş yaramaz?!
Beylə ağıl yaramaz, nə də kamal yaramaz?!
Nə sir-sifət, nə yöndəm, nə də camal yaramaz?!
Xoşa gəlmir xəbərlər, beylə bəyanat olmaz!
Beylə giley-güzarlar, nə də şikayət olmaz!
Ünsiyyətdə, ülfətdə beylə qəbahət olmaz!
Bir buqədər küdurət, beylə ədavət olmaz!
Xalqı boğur avamlıq, beylə dəlalət olmaz!
Beylə paxıllıq olmaz, beylə xəyanət olmaz!
Dedi-qodu, söz-söhbət, beylə şikayət olmaz!
Bu Vətənə, bu xalqa, beylə zülmət yaramaz,
Bir bu qədər dərd-azar, beylə hiddət yaramaz.
Yalan-yanlış oturub, başları qatmaq olmaz,
Düyün vurub qabağa, qaşları çatmaq olmaz.
Bir bu qədər insafı, mürvəti atmaq olmaz,
Əqidəni, məsləyi, vucdanı satmaq olmaz.
Bu Vətənə, bu xalqa sədaqəti göstərək,
Doğru-düzgün danışıb, həqiqəti göstərək.
İnsanlığı car çəkək, ləyaqəti göstərək,
Hatəmlərdən xatəmə, səxavəti göstərək.
Qoçaqlığı göstərək, fərasəti göstərək,
Hünərləri bildirək, cəsarəti göstərək.
Harda varsa insana, mehribanlıq eyləyək?
Səmimilik göstərib, istiqanlıq eyləyək?
İnsan gərək insanın köməyinə yetişsin,
Arzusuna, istəyə, diləyinə yetişsin.
Qollarından yapışıb, biləyinə yetişsin,
Xəlbirini ələsin, ələyinə yetişsin.
Gecə-gündüz çalışıb, xidmətində dayansın,
Yatıbdısa qəflətdə, məqamında oyansın.
Yazılanı oxusun, dərk eyləsin, anlasın,

Əgər varsa xətası, kötəkləsin, yanlasın.
Harda olsa, yaşasa məhəbbəti bildirsin,
Saf arzunu, istəyi, pak niyyəti bildirsin.
Xeyirxahlıq eyləsin, fəziləti bildirsin,
Təmiz arzu, istəyi, saf niyyəti bildirsin.
İnsafını, mürvəti, kəraməti bildirsin,
İnsanlığa xas olan, əlaməti bildirsin.
Ədəb, ərkan gözləsin, nəzakəti bildirsin,
Ədaləti car çəkib, bu bəşəri güldürsün.
İnsan gərək insana, yalan söz söyləməsin,
Boşboğazlıq eyləyib, kalan söz söyləməsin.
Bir-birinə zülmedib, bezdirməsin heçkəsi,
Salıb dağa, daşlara, gəzdirməsin heçkəsi.
Deyiləni eşitsin, anlayaraq dərk etsin,
Harda olsa avamlıq, tez-tələsik tərk etsin.
Yerli-yersiz danışıb, dərdi-qəmə salmasın,
Zildən pəsə endirib, pəsdən bəmə salmasın.
El-obanın içində, hörmətini saxlasın,
Məzmununu qorusun, hikmətini saxlasın.
Abırını, həyanı, ismətini saxlasın,
Soykökünə xas olan, xislətini saxlasın.
Hamı yemək diləyir, hamı geymək diləyir,
Hamı yardım diləyir, hamı kömək diləyir.
Vətən bizi gözləyir, yarat deyir, qur deyir,
Yatma qəflət içində, oyan qafil dur deyir.
Harda tapsan kitabı, oxu, öyrən, bil deyir,
Üstündəki ləkəni, məqamında sil deyir.
Dəftər bizi gözləyir, qələm bizə yaz deyir,
El-obalar çağırır, aləm bizə yaz deyir.
Əkilməmiş yamaclar, yerlər bizi gözləyir,
Məchul qalan nəqədər, sirlər bizi gözləyir.
Neçə körpə balalar, cavan bizi gözləyir,
İnciyənlər, küsənlər, uman bizi gözləyir.
Külli-aləm, bu bəşər, cahan bizi gözləyir,
Eşit Cəmil Əkbəri, ay dad-aman gözləyir.

***Cəmil Əkbər*** 6. 02 – 1999

## 315. GƏDA OĞLU DÜZƏLMİRKİ, DÜZƏLMİR

Milyon ildir ha tökürlər tədbirin,
Gəda oğlu düzəlmirki, düzəlmir.
İstəyirlər başa salsın hərbirin,
Gəda oğlu düzəlmirki, düzəlmir.[784]

Birdə gördün pis dedilər yaxşıya,
Yer verdilər nabələdə, naşıya,
Oğul gərək belə dərdi daşıya,[785]
Gəda oğlu düzəlmirki, düzəlmir.

Bir də gördün dahi oldu gədası,
Yerə-göyə sığışmadı ədası,
Nifrət ilə qarşılanır sədası,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Bir də gördün "gəda" oldu dahisi,
Yer dəyişdi, dahi oldu canisi,
Bilən yoxdu kimdi bunun baisi?
Gəda oğlu düzəlmirki, düzəlmir.

Zaman keçir, kiçildilir irisi,
Üç qəpiyə satılmayır dərisi,
Atılır odlara könül pərisi,
Gəda oğlu düzəlmirki, düzəlmir.[786]

---

[784] *II variant* Milyon ildir tədbirini tökürlər,
Gəda oğlu düzəlmirki, düzəlmir.
Dərd-qəm çəkib qamətini bükürlər,
Gəda oğlu düzəlmirki, düzəlmir.

[785] Səbir gərək belə dərdi daşıya.

[786] *II variant* Bir də gördün xırdalandı irisi,
Üç qəpiyə satılmadı dərisi,
Yandı atəşlərə könül pərisi,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Fürsət tapıb bir-birini əkirlər,
Dalda ikən lap qabağa çəkirlər,
Abırını, həyasını tökürlər,
Gəda oğlu düzəlmirki, düzəlmir.[787]

Bir-birini arxasından vururlar,
Haldan salıb bezikdirib yorurlar,
Dolaşdırıb tez torunu qururlar,
Gəda oğlu düzəlmirki, düzəlmir.[788]

İşə girsən, dayı gərək yanında,
Sovqat gərək, payı gərək yanında,
Yemək-içmək, çayı gərək yanında,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Əlçəkməyir hiyləsindən, kələkdən,
Qorxusu yox yaradandan, fələkdən,
Bir-birini keçirirlər ələkdən,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Dönə-dönə törədirlər davanı,
Zəhərləyib korlayırlar havanı,
Cahilləri qanmaz sanır qananı,
Gəda oğlu düzəlmirki, düzəlmir.

---

[787] *II variant* Bir də gördün bir-birini əkirlər,
Arxadaykən ön sıraya, çəkirlər,
Şum yerinə başqasını səpdilər,
Gəda oğlu düzəlmirki, düzəlmir.

[788] *II variant* Bir də gördün tez birini vurdular,
Haldan salıb bezdirdilər, yordular,
Dolaşdırıb torunu da qurdular,
Gəda oğlu düzəlmirki, düzəlmir.

*III variant* Əbəs yerdən bir-birini bezdirir,
Haldan salıb ürəyini üzdürür,
Cəhənnəmi diri-diri gəzdirir,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Ayaq alır bir-birinin üsdünə,
Toxunurlar mənliyinə, şəsdinə,[789]
Xəbisliklə girişirlər qəsdinə,[790]
Gəda oğlu düzəlmirki, düzəlmir.

Çərlətdilər qəzəlxanı Vahidi,
Tutdurdular Müşviqini, Cavidi,
Tarix oldu haqsızlığın şahidi,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Çalıb-çapıb dolananlar az deyil,
Var-dövlətdən hallananlar az deyil,
Yağlananlar, buğlananlar az deyil,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Kef eyləyir dələduzlar, oğrular,
Baxıb-baxıb köks ötürür doğrular,
Heydən salıb səsini də boğurlar,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Aldananda pul-paraya, vara da,
O səbəbdən ağ görünür qara da,
Haqq-ədalət tapdalanır arada,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Əl atırlar fitnələrə, böhtana,
Oxşayırlar şarlatana, şeytana,
Abır gərək, həya gərək utana,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Yaşamağı əldə edib bəhanə,
Halal-haram doldururlar dəhana,
Heç bilməyir niyə gəlib cahana?[791]
Gəda oğlu düzəlmirki, düzəlmir.

---

[789] Qiymət vermir mənliyinə, şəstinə,
[790] Tez girirlər,qərəz, qisas qəsdinə,
[791] Heç bilmir ki, niyə gəlib cahana?

Ata minən piyadanı unudur,
Dərdi-qəmi, ziyadəni unudur,
Ədəb-ərkan, hər qaydanı unudur,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Acıyıram insanların halına,
Sərsəm fikirinə, kəc xəyalına,
İstərdim son qoyam qeylü-qalına,
Gəda oğlu düzəlmirki, düzəlmir.

Bunu yazdım yatanları oyadam,
Aralaığı qatanları oyadam,
İnsafını atanları oyadam,
Gəda oğlu düzəlmirki, düzəlmir.

***Cəmil Əkbər*** 1975

## 316. DAYAQ OL

Hər yetənə gəl qan demə, qan deməklə qanan döy,
İtirməynən haqq-sayı, an deməklə anan döy.
Ha vursan da, ha döysən də, dur da desən durası döy,
Zəhmət çəkib yarat desən, qur da desən qurası döy.
Qananları gəl danlama, qanasılar qanacaqdır,
Axtarası axtaracaq, anasılar anacaqdır.
Gələsini qovlama gəl, nə etsən də gələcəkdir,
Gedəsini əyləməynən, neyləsən də gedəcəkdir.
Yanasını gəl söndürmə, o sönsə də yanasıdır,
Yeri düşsə, məqam gəlsə, səni bir gün danacaqdır.
Sönəsini gəl yandırma, o yansa da sönəcəkdir,
Mövqeyində dura bilməz, yeri gəlcək enəcəkdir.
Ölən-ölür, qalan-qalır, öləni saxlamaq olmur,
Açan-açır, solan-solur, solanı saxlamaq olmur.
Gedənlərə gəl ağlama, qalanlara darılma gəl,
Nə paxıl ol, nə xain ol, nə içindən qırılma gəl.
Hər yetənə üzmə canı, canına yazığın gəlsin,
Əsəbini gəl korlama, qanına yazığın gəlsin.
Qanmazlardan kənar dolan, qananların dayağı ol!
Yol gözləmə nanıkordan, ananların dayağı ol!
Ölənlərə inləsən də, qalanların dayağı ol!

Zəhmət çəkib haray-dada, çatanların dayağı ol!
Bülbültəki cəh-cəh vurub, ötənlərin dayağı ol!
Hünər ilə yaşayanın, ucalanın dayağı ol!
Şərəf ilə, şöhrət ilə, qocalanın dayağı ol!
İnsanlığa gəl təzim et, ləyaqətin dayağı ol!
Çəksələr də səni dara, həqiqətin dayağı ol!
El yolunda qurban gedən, itəninə dayaq ol!
Xidmət eylə ana yurda, vətəninə dayaq ol!

***Cəmil Əkbər*** 21. 01– 1991

## 317. BUSAYAQ OL

El-obanın içində, abır ilə gəz dolan!
Mehri-ülfət eyləyib, həya ilə gəz dolan!
Qədəmləri uğurlu, sayə ilə gəz dolan!
Təlimində mükəmməl dayə ilə gəz dolan!
Əqidəylə, məsləklə, qayə ilə gəz dolan!
Ədəb-ərkan, eyhamla, nəzakətlə gəz dolan!
Xeyirxahlıq eyləyib, fəzilətlə gəz dolan!
İnsanlığa yaraşan, ləyaqətlə gəz dolan!
İnsafını gözləyib, kəramətlə gəz dolan!
Nəcibliklə xidmət et, məlahətlə gəz dolan!
Eyhamla gəz dünyada, ismətli ol, arlı ol!
Dəyanətli, dözümlü, tutarlı ol, karlı ol!
Əzəmətli, vüqarlı, qol-butaqlı, barlı ol!
Elə, xalqa dayaq ol, yolgöstərən mayaq ol!
Yatma qardaş oyaq ol, olursan busayaq ol!
Ünsiyyətdə-ülfətdə sədaqətin görünsün,
Doğruluğun, düzlüyün, həqiqətin görünsün.
Bacarığın, fəhmin, fərasətin görünsün,
Müdrikliyin, biliyin, cəsarətin görünsün.
Enişlərdə, yoxuşda, dəyanətin görünsün,
Yazı-pozu, hərnəvar, qiraətin görünsün.
Yenilməyən iradən, sədarətin görünsün,
El-obaya yayılsın, bəyanatın görünsün.
İlk nəzərdə, baxışda, məharətin bilinsin,
Qılıncında, qalxanda, kəsarətin bilinsin.
Hatəm təbli olduğun, səxavətin bilinsin,
Qönçələrdə qalmasın, təravətin bilinsin,
Odun-közün, atəşin, hərarətin bilinsin.

Elə-xalqa dayaq ol, yatma qardaş oyaq ol,
Yolgöstərən mayaq ol, olursan busayaq ol.
Təvəqqəm budur qardaş ədavətlə dolanma!
Qəlbində kin saxlayıb, küdurətlə dolanma!
Naxələflik eyləyib, xəyanətlə dolanma!
Nadanlara qoşulub, cəhalətlə dolanma!
Könülləri sındırıb, xəsarətlə dolanma!
Bəyan eylə qayğını, xidmətini bilsinlər,
Xeyir-şərdə çəkdiyin, zəhmətini bilsinlər.
Məzmununu anlayıb, hikmətini bilsinlər,
Dəyərini anlayıb, qiymətini versinlər.
Varlığını tanıyıb, xislətini bilsinlər,
Nəzərini, baxışı, diqqətini bilsinlər.
Qəlbindəki təpəri, riqqətini bilsinlər,
Nicatını görsünlər, nüsrətini bilsinlər.
Nakam qalan arzunu, həsrətini bilsinlər,
Yatma qardaş, oyaq ol, yolgöstərən mayaq ol!
El-obaya dayaq ol, olursan busayaq ol!

***Cəmil Əkbər*** 9. 04 -1997

## 318. DE!

İnsan olan görə-görə kor olma,
Yaxşıya-yaxşı de, pisə-pisdi de!
Bəd iş tutub axırında xar olma,
Günəşə-günəş de, hisə-hisdi de!

Dili ola-ola lal olmaq olmaz,
Anan oğul doğub, mal olmaq olmaz,
Ötüşür vaxt-vədə, kal olmaq olmaz,
Namərdə namərd de, mərdə mərddi de!

Gözəllik sevməyir çirkini əsla!
Sadələr xoşlamır xudbini əsla!
Bədbinlər bəyənmir nikbini əsla!
İkiyə iki de, birə-birdi de![792]

---

[792] *II variant* Gözəli sevməyir çirkin olanlar,
Bədbini xoşlamır nikbin olanlar,
Sadəni bəyənmir xudbin olanlar,
Gülşənə gülşən de, xara xardı de!

Damlaya damla de, ümmana-ümman,[793]
Günəşə-günəş de, dumana-duman,[794]
Arpaya-arpa de, samana-saman,
Kasada-kasad de, vara-vardı de!

Bilsinlər zəhməti çəkənlər kimdir?
Bağı-gülüstanı əkənlər kimdir?
Böhtan toxumunu tökənlər kimdir?[795]
Cavana-cavan de, pirə-pirdi de!

Qoy hərkəs tanısın, bilsin yerini,
Anlasın dayazı, görsün dərini,
Göstərsin hünəri, töksün tərini,[796]
Çiçəyə çiçək de, bara-bardı de!

İnsanam deyənlər yanılmasınlar,
Çıxıb yaddaşlardan danılmasınlar,
Nanəcib, naxələf sanılmasınlar,
Xeyirə-xeyir de, şərə-şərdi de![797]

Yavını çapırtma böhtana sarı,
Axırda özgəni görməynən karı,
Darını səpənlər biçəcək darı,
Köhlənə-köhlən de, xərə-xərdi de!

Ədəbli, ərkanlı, mərfətli olun,
Abırlı, həyalı, ismətli olun,
İnsaflı-vicdanlı, mürvətli olun,[798]
Aşkara-aşkardı, sirrə-sirdi de!

---

793 Damlanı-damla gör, ümmanı-ümman.
794 Çisgini-çisgin gör, dumanı-duman.
795 Şər-böhtan yayanlar, səpənlər kimdir?
796 Göstərsin xidməti, töksün tərini,
797 *II variant* Çalışın həyatda yanılmayasan,
Çıxıb yaddaşlardan danılmayasan,
Vətəndə naxələf sanılmayasan,
Xeyirə-xeyir de, şərə-şərdi de!
798 Fərli-fərasətli, diqqətli olun.

Anlayan-anlasın, bilənlər-bilsin,
Sevinən-sevinsin, gülənlər-gülsün,
Utanan utansın, ölənlər ölsün,
Korlara kor deyin, kara kardı de.[799]

Bülbülə-bülbül de, qarğaya-qarğa,
Sərçəyə-sərçə de, qırğıya-qırğı,
Ceyilə-ceyil de, qarğıya-qarğı,[800]
Tərlana-tərlan de, sara-sardı de![801]

Ünsiyyət-ülfəti pozma amandır,
Şər-böhtan danışıb yazma amandır,[802]
Doğrunu tərsinə yozma amandır,[803]
Yoldaşa yoldaş de, yara-yardı de!

Qalsın damaqlarda dadı, ləzzəti,
Olmasın ötəri, nə müvəqqəti,[804]
Unutma sözümü qətidir-qəti,
Qaymağa-qaymaq de, şora-şordu de![805]

Günəşi kiçildib ay eyləməynən,
İtirib zəhməti zay eyləməynən,
Böyüyü kiçiyə tay eyləməynən,
Tülküyə-tülkü de, şirə-şirdi de![806]

---

[799] *II variant* Anlayan-anlasın, bilənlər-bilsin,
Ağlayan ağlasın, gülənlər gülsün,
Yaşayan-yaşasın, ölənlər ölsün,
1) Lala-laldı deyin kara-kardı de! 2) Eşidən-eşitsin kara-kardı de!

[800] Çətənə-çətən de, qırğıya-qırğı.

[801] *II variant* Bülbül cəh-cəh vurar, qarğa qarğadır,
Sərçələr sərçədir, qırğı qırğıdır,
Qamış qamışdırsa, qarğı qarğıdır,
Tərlana-tərlan de, sara-sardı de!

[802] Düzləri əyriliyə yozma amandır, Düzləri əyriyə yozma amandır.

[803] Fikirdə, xəyalda azma amandır.

[804] Çıxmasın yadından qoy müvəqqəti.

[805] Pendirə pendir de, şora-şordu de!

[806] *II variant* İnciyən incisin, küsənlər küssün,
Əlini-əlindən kəsənlər kəssin,
Bağlasın nitqini, susursa-sussun,
Tülküyə-tülkü de, şirə-şirdi de!

Doğru danışanın ağzı əyilmir,[807]
Zəhməti, xidməti itmir, yeyilmir,
Ünvanına hər nə gəldi deyilmir,[808]
İgidə-igid de, nərə-nərdi de!

Düzlüklə ucalır cahan deyirlər,
Haqqa qənim çıxır, nihan deyirlər,
Aralığı qatır pünhan deyirlər,
Ayağa-ayaq de, sərə-sərdi de! [809]

***Cəmil Əkbər*** 17.09 -1988

## 319. DEDİM BƏLKƏ...

Dedim bəlkə nadanları qandırım,[810]
Qanan qandı, qanmayanlar qanmadı.
Başa salıb zəfərləri çaldırım, [811]
Çalan çaldı, çalmayanlar çalmadı.

Dedim bəlkə düşünələr, qanalar,
Ağsaqqalı böyük kimi sanalar,
Haqq-sayı yada salıb analar,
Anan andı, anmayanlar anmadı.[812]

---

*III variant* Qoy səndən incisin, küssün-küsənlər,
Əlini-əlindən kəssinr kəsənlər,
Bağlasın nitqini sussun-susanlar,
Tülküyə-tülkü de, şirə-şirdi de!

[807] Haqqa haq deyənin ağzı əyilmir.

[808] Ünvanına şər-böhtanlar deyilmir.

[809] *II variant* Düzlüklə ucalır cahan deyirlər,
Düzlüklə tanınır dəhan deyirlər,
Pisdən pis törənir pünhan deyirlər,
Ayağa-ayaq de, sərə-sərdi de!

[810] Dedim bəlkə nadanları qandıram.

[811] Başa salıb zəfərləri çaldıram.

[812] *II variant* Dedim bəlkə düşünələr, qanalar,
Haqq-sayı unutmaya analar,
Böyük kiçik tanıyalar, sanalar,
Sanan sandı, sanmayanlar sanmadı.

Dedim bəlkə görməyənlər görələr,
Bağlar salıb meyvəsini dərələr,
Öz borcunu vədəsində verələr, [813]
Verən verdi, verməyənlər vermədi.

Dedim bəlkə bilməyənlər bilələr,
Gözlərinin dumanını silələr,
Bədəməldən utanalar, ölələr,
Ölən öldü, ölməyənlər ölmədi. [814]

Dedim bəlkə bəşər oğlu gülələr,
Nə dərd varsa aralıqda bölələr,
Birbirinə ülfət edib gələlər,
Gələn gəldi, gəlməyənlər gəlmədi.[815]

Dedim bəlkə hamı doğru adalar,
Düz təlimdən, tərbiyədən dadalar,
Uzaq ola el obadan qadalar,
Dadan-daddı, dadmayanlar dadmadı.[816]

---

*III variant* Dedim bəlkə sözlərimi qanalar,
Xatırlayıb yadlarına salalar,
Düşüncəyə, idraklara dolalar,
Alan aldı, almayanlar almadı.

[813] Öz borcunu qaytaralar, verələr.

[814] *II variant* Dedim bəlkə eşidələr bilələr,
Bədəməldən utanalar, ölələr,
Gözlərinin dumanını silələr,
Silən-sildi, silməyənlər silmədi.

[815] *II variant* Dedim bəlkə ağlayanlar gülələr,
Dərdi-qəmi aralıqda bölələr,
Ünsiyyətdə din-imana gələlər,
Gələn gəldi, gəlməyənlər gəlmədi.

[816] *II variant* Dedim bəlkə hamı düzgün adalar,
Uzaq ola yerüzündə qadalar,
Təlim-tərbiyədən biraz dadalar,
Dadan-daddı, dadmayanlar dadmadı.

Dedim bəlkə şər işlərdən ötələr,
Becərilib, suvarılıb bitələr,
Nəcib arzu diləyinə yetələr,
Yetən yetdi, yetməyənlər yetmədi. [817]

Dedim bəlkə öyüdümü yazalar, [818]
Düşünələr, dərk edələr sezələr, [819]
Alnıaçıq, dağvüqarlı gəzələr,
Gəzən gəzdi, gəzməyənlər gəzmədi.

Dedim bəlkə çətinliyə dözələr,
Qəvvas olub dəryalarda üzələr,
Deyiləni anlayalar, sezələr,
Sezən sezdi, sezməyənlər sezmədi.

Cəmil Əkbər gördüyünü götürdü,
Bağlar saldı, calaq vurdu, bitirdi,
Estafeti əldən-ələ ötürdü,
Görən-gördü, görməyənlər görmədi.

***Cəmil Əkbər*** 11. 12 – 1992

## 320. SÖZÜMÜZÜ DEMƏLİYİK, DEMƏLİ

Nəqədərki insafını atan var?
Sözümüzü deməliyik, deməli.
Nəs danışıb aralığı qatan var?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki baxan yoxdur kamala,
Vicdan, məslək, əqidəyə, amala,
İnsandakı bu mənəvi camala,[820]
Sözümüzü deməliyik, deməli.

---

[817] *II variant* Dedim bəlkə şər işlərdən qaçalar,
İdrakının ziyasını saçalar,
Səadətin qapısını açalar,
Açan-açdı, açmayanlar açmadı.

[818] Dedim bəlkə dediyimi yazalar.

[819] Azdan-çoxdan dərk edələr sezələr.

[820] Qiymət yoxdur bu mənəvi camala.

Nəqədərki zəhlələri tökən var?
Dağıdan var, talayan var, sökən var,?
Şər toxumu səpənlər var, əkən var?[821]
Sözümüzü deməliyik, deməli.

Nəqədərki ayaq gəlib baş olur?
Ünsiyyətdə-ülfətlərdə qış olur?
Sirr açılır, əvvəl-axır faş olur?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki qayda-qanun pozulur?
Düz fikirlər tərsəməssəb yozulur?
Şan-şöhrətlər gözdən düşür, azalır?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki  aramızda lallar var?[822]
Yetişməmiş qoralar var, kallar var?
İnsan qlıfında davar, mallar var?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki aramızda nadan var?
Haqq-sayı sümürən var, udan var?
Təlimindən dadar-doymaz dadan var?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki  xəyanətlər hökm edir?
Avamlıqlar, cəhalətlər hökm edir?
Kin-küdurət, ədavətlər hökm edir?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki ürəkləri sıxan var?
Ev uçurub dirəkləri yıxan var?
İnsanlığın axırına çıxan var?
Sözümüzü deməliyik, deməli.[823]

---

[821] Düzü qoyub tərsəməssəb çəkən var.
[822] Nəqədərki, aramızda korlar var,
[823]*II variant* Nəqədərki, ürəklərdə kin yatır,
İblis yatır, şeytan yatır, cin yatır,
Qulaqları dəng eyləyən ün yatır,
Sözümüzü deməliyik, deməli.

Nəqədərki ucalanı vuran var?[824]
Qərəzində-qisasında duran var?
Mərd igidi haldan salıb yoran var?
Sözümüzü deməliyik, deməli.[825]

Nəqədərki yaxşı-pisə qarışır?
Boz köpəklər yalquzaqla barışır?[826]
Fürsət tapıb sürülərə sırışır? [827]
Sözümüzü deməliyik, deməli.

Nəqədərki meydan açıb gədələr?[828]
Geni, qanı kəm-kəsirlər, zədələr?[829]
Cibi pullu, gönü yağlı dədələr?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki həyasızlar yaşayır?
Əqidəsiz, qayəsizlər yaşayır?
Kölgəsi yox, sayəsizlər yaşayır?[830]
Sözümüzü deməliyik, deməli.

İndi daha susmaq bizə yaramaz,
Onu-bunu pusmaq bizə yaramaz,
Hökm eyləyib dama basmaq yaramaz,
Sözümüzü deməliyik, deməli.[831]

---

*III variant* Nəqədərki, ürəklərdə kin yatır,
Fikirlərdə duman yatır, çən yatır,
İblis, əqrəb, ilan çayan, cin yatır,
Sözümüzü deməliyik, deməli.

[824] Zəfər çalıb bac alanı vuran var?

[825] *II variant* Nəqədərki, ucalanı vururlar?
Qərəzində-qisasında dururlar,
Bezikdirib, haldan salıb yorurlar,
Sözümüzü deməliyik, deməli.

[826] Alabaşlar qurdlar ilə barışır?

[827] Yalquzaqlar sürülərə sırışır?

[828] Nəqədərki, meydan açır gədələr,

[829] Düşüncədən, idrakından zədələr.

[830] Tərbiyəsiz, dayəsizlər yaşayır?

Bəsdir daha uyduğunuz fellərə,
Hiylə, kələk, məkr dolu dillərə,[832]
Qəsd olunan incilərə, ləllərə,[833]
Sözümüzü deməliyik, deməli.

Nəqədərki düzələni əyən var,
Könüllərə toxunan var, dəyən var,
Tər tökməmiş harın-harın yeyən var,
Sözümüzü deməliyik, deməli.

Nəqədərki biganələr yaşayır?[834]
Sərsərilər, divanələr yaşayır,
Allah bilir daha nələr yaşayır?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki söz qədrini bilən yox?
Yol tanıyan, iz qədrini bilən yox?[835]
Gözlərinin dumanını silən yox?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki düzəlməyib aramız?
Qövr eyləyib sızıldayır yaramız?
Tapılmayıb dərdimizə çarəmiz?[836]
Sözümüzü deməliyik, deməli.

Nəqədərki cəhalətdə qalmışıq?
Kin-küdurət, ədavətdə qalmışıq?
Giley-güzar, şikayətdə qalmışıq?
Sözümüzü deməliyik, deməli.

---

[831] *II variant* İndi daha susmaq bizə yaraşmır,
Orda-burda pusmaq bizə yaraşmır,
Yerli-yersiz küsmək bizə yaraşmır,
Sözümüzü deməliyik, deməli.

[832] Yağlı-yağlı söhbətlərə, dillərə.

[833] Qəsd olduğu işi görən kəllərə.

[834] Əhli-keflər, biganələr yaşayır.

[835] Yol tanıyıb, iz qədrini bilən yox.

[836] Tapılmayıb, bilinməyib çarəmiz.

Nəqədərki, anlamırıq, qanmırıq?
Xətir-hörmət yada salıb anmırıq?[837]
Böyük-kiçik pəsinmirik, sanmırıq? [838]
Sözümüzü deməliyik, deməli.

Nəqədərki ədaləti görmürük?
Doğruluğu, həqiqəti görmürük?
İnsanlığı, ləyaqəti görmürük?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki durulmayır qanımız?
Düzəlməyib zülalımız, şanımız?[839]
Sağlam deyil hüceyrəmiz, genimiz? [840]
Sözümüzü deməliyik, deməli.

Nəqədərki haqq-nahaqqı görən yox?
Bağlar salıb meyvəsini dərən yox,
Öz borcunu qaytaran yox, verən yox, [841]
Sözümüzü deməliyik, deməli.

Nəqədərki qanun-qayda pozulur?[842]
Xətir-hörmət itib-batır, azalır?
Gündən-günə zəifləyir, sozalır?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki xəbisliklər var hələ?
Nanəciblik, naqisliklər var hələ?
Acgözlüklər, hərisliklər var hələ?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki haqqın səsi boğulur?
Mərd yerinə namərd gəlib doğulur?
Xəzan vurur, şamamalar soğulur?
Sözümüzü deməliyik, deməli.

---

[837] Haqq-sayı xatırlayıb anmırıq.
[838] Böyük-kiçik unamırıq, sanmırıq.
[839] Dərdi-qəmdən azad deyil canımız.
[840] Gözdən düşür şərəfimiz, şanımız.
[841] Öz borcunu kişi kimi verən yox.
[842] Nəqədərki, ünsiyyətlər pozulur.

Nəqədərki saralan var, solan var?
Əl-ayaqda tapdanan var, qalan var?[843]
Qan sümürən zəlilər var, kalan var?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki vicdan-məslək satılır?[844]
Yaxşı-yaman birbirinə qatılır?[845]
Qaşqabaqlar düyünlənir, çatılır?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki bezdirən var, bezən var?
Əzablara, əziyyətə dözən var?
Boş-bikarə dolanan var, gəzən var?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki saxtalıq var, yalan var?
Əqrəblər var, iblislər var, ilan var?
Adsız-şansız dolanan var, qalan var?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki ədaləti boğurlar?
Doğruluğu, həqiqəti boğurlar?
Tapdalayıb ləyaqəti boğurlar?
Sözümüzü deməliyik, deməli.

Nəqədərki hiyləgər var, biclər var?
İlqarına-imanına kəclər var?
Kəmağıl var, sərsəri var, giclər var?
Sözümüzü deməliyik, deməli.

***Cəmil Əkbər*** 25-29 / 12 – 1993

---

[843] 1) İntizarda, gözü yolda qalan var? 2) Həsrət ilə gözü yolda qalan var.
[844] Nəqədərki, yaxşı-pisə qatılır.
[845] Vicdan, məslək kor qəpiyə satılır.

## 321. MƏN SÖZÜMÜ DEMƏLİYƏM, DEMƏLİ

*I variant*

Nəqədərki cəhalət var dünyada?
Mən sözümü deməliyəm, deməli.
Paxıllıq var, xəyanət var dünyada?[846]
Mən sözümü deməliyəm, deməli.[847]

Nəqədərki rəzalətlər yaşayır?
İşgəncələr, müsibətlər yaşayır?
Addımbaşı qəbahətlər yaşayır?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki xəbisliklər törəyir,[848]
Nanəciblik, naqisliklər törəyir,[849]
Acgözlüklər, hərisliklər törəyir,
Mən sözümü deməliyəm, deməli.

Duyan-duysun, duymayanlar duymasın,
Uyan-uysun, uymayanlar uymasın,
Günahını yuyan-yusun, yumasın,
Mən sözümü deməliyəm, deməli.

Sezən-sezsin, sezməyənlər sezməsin,
Bezən-bezsin, bezməyənlər bezməsin,
Dözən-dözsün, dözməyənlər dözməsin,
Mən sözümü deməliyəm, deməli.

Görən-görsün, görməyənlər görməsin,
Alan-alsın, verməyənlər verməsin,
Dərən-dərsin, dərməyənlər dərməsin,
Mən sözümü deməliyəm, deməli.

---

[846] 1) Ünsiyyətdə ədavət var dünyada. 2) Xəyanət var, ədavət var dünyada.
3) Nadanlıq var, qəbahət vardünyada.

[847] *II variant* Qanan-qansın, qanmayanlar qanmasın,
Mən sözümü deməliyəm, deməli.
Danan-dansın, danmayanlar danmasın,
Mən sözümü deməliyəm, deməli.

[848] Nəqədərki, naqisliklər törəyir.

[849] Nanəciblik, xəbisliklər törəyir.

Gələn-gəlsin, gəlməyənlər gəlməsin,
Bilən-bilsin, bilməyənlər bilməsin,
Gözlərini silən-silsin, silməsin,
Mən sözümü deməliyəm, deməli.

Eşidən-eşitsin, bilənlər-bilsin,
Ağlayan-ağlasın, gülənlər-gülsün,
Dirilən-dirilsin, ölənlər ölsün,
Mən sözümü deməliyəm, deməli.

Satan-satır, almayanlar-almasın,
Dolan-dolur, dolmayanlar-dolmasın,
Solan-solur, solmayanlar-solmasın,
Mən sözümü deməliyəm, deməli.[850]

Nəqədərki vicdan, məslək satılır?
Yaxşı-yaman birbirinə qatılır?[851]
Qaşqabaqlar düyünlənir, çatılır?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki harın-harın yeyən var?
Toxumamış-tikməmişdən geyən var?
Könüllərə toxunan var, dəyən var?
Mən sözümü deməliyəm, deməli.

İnciyən-incisin, küsənlər-küssün,
Sinirən-sinirdin, qusanlar-qussun,
Əlini-əlimdən kəsənlər-kəssin,
Mən sözümü deməliyəm, deməli.

Dələduz var, hiyləgər var, biclər var,
İlqarına, imanına kəclər var,
Qanunlara, qaydalara öclər var,
Mən sözümü deməliyəm, deməli.

---

[850]*II variant* Alan-alsın, almayanlar-almasın,
Dolan-dolsun, dolmayanlar-dolmasın,
Solan-solsun, solmayanlar-solmasın,
Mən sözümü deməliyəm, deməli.

[851] Pis yaxşıya, yaxşı pisə qaılır.

Cəmil Əkbər söz deməyi bacarır,
Haqq-ədalət, düz deməyi bacarır,
Məqamında tez deməyi bacarır,
Mən sözümü deməliyəm, deməli.

***Cəmil Əkbər*** 24. 05 – 1994

## 322. MƏN SÖZÜMÜ DEMƏLİYƏM, DEMƏLİ

*II variant*

Nəqədərki bu dünyada nadan var?
Mən sözümü deməliyəm, deməli.
Tərbiyədən alayarı dadan var?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki qəbahətlər yaşayır?
Kin-küdurət, ədavətlər yaşayır?
Giley-güzar, şikayətlər yaşayır?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki haqqın səsi boğulur?
Haq yerinə nahaq gəlib doğulur?
Bar verməmiş bostanları soğulur?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki müsibətlər yaşayır?
Giley-güzar, şikayətlər yaşayır?
Yalan-yanlıc bəyanatlər yaşayır?
Mən sözümü deməliyəm, deməli.[852]

Nəqədərki gül yanağı solan var?[853]
Əl-ayaqda tapdanan var, qalan var?
Sökülən var, dağılan var, talan var?
Mən sözümü deməliyəm, deməli.[854]

---

[852] *II variant* Nəqədərki gedən yoxdur düzünə?
Baxan yoxdur yolağına, izinə?
Məhəl qoymur nə özgəyə, özünə?
Mən sözümü deməliyəm, deməli.

[853] Vaxt-vədəsiz gül yanağı solan var.

[854] *II variant* Nəqədərki saralan var, solan var?
Əl-ayaqda tapdanan var, qalan var?
Məzlumlar var, yoxsullar var, kalan var?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki vaxt-vədəsiz ölən var?
Ona-buna rişxənd edib, gülən var?
Dayanmadan  gedənlər var, gələn var,
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki ünsiyyəti pozan var?
Bəd danışıb böhtanları yazan var?
Külüngləyib ayaq altdan qazan var?
Mən sözümü deməliyəm, deməli. [855]

Nəqədərki ədaləti danırlar?
Doğru, düzlük, həqiqəti danırlar?
Saf arzunu, pak niyyəti danırlar?
Mən sözümü deməliyəm, deməli. [856]

Söz-söhbətdə saxtalıq var, yalan var,
Vicdanını satanlar var, alan var,
Əl-ayaqda tapdalanan, qalan var,
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki tərsəməssəb adan var?
Təlimindən dadar-doymaz dadan var?
Haqq-sayı sümürən var, udan var?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki nanəcib var, naqis var?
Tamahkar var, acgözlər var, həris var?
El-obaya yaramayan varis var?
Mən sözümü deməliyəm, deməli.

---

[855] *II variant* Ünsiyyəti, ülfətləri pozan var,
Düzü tərsə, tərsi düzə yozan var,
Yollarını dağa-daşa azan var,
Mən sözümü deməliyəm, deməli.

[856] *II variant* Nəqədərki inciyən var, bezən var,
Bədəməllə ürəkləri üzən var,
Əzablara sinə gərib dözən var,
Mən sözümü deməliyəm, deməli.

Yazan-yazsın, pozan-pozsun neyləyim?
Tərsəməssəb yozan-yozsun neyləyim?
Çaşan-çaşsın, azan-azsın neyləyim?
Mən sözümü deməliyəm, deməli.

Şər-böhtanla, aralığı qatan var,
İnsafını, mürvətini atan var,
Namərdliklə muradına çatan var,
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki bu canımda qüvvət var?
Ürəyimdə təpərim var, riqqət var?
Nəzərim var, baxışım var, diqqət var?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki haqq ədalət boğulur?
Yerində də, min bir hiylə doğulur?
Ağıl başdan perik düşüb dağılır?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki qəbahətlər var hələ?
Kin-küdurət, ədavətlər var hələ?
Paxıllıqlar, xəyanətlər var hələ?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki gen dünyamız dar olur?
Mərd igidlər haqq-nahaqdan xar olur?
Könüllərdə məskən salır, qar olur?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki qal-qovğa var, dava var?
Aralığı qarışdıran yava var?
Zəhərlərə bülənd olan hava var?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki bu dünyada qanmaz var?
Haqq-sayı unudan var, anmaz var?
Qor da qoysan alışmaz var, yanmaz var?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki kamalından kütlər var?
Kara yetməz müqəvvalar, bütlər var?
Düşüncədən, dərrakədən qıtlar var?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki görə-görə korlar var?
Eşitsədə qulaqları karlar var?
Kor yapalaq, bayquşlar var, sarlar var?
Mən sözümü deməliyəm, deməli.

Nəqədərki pis deyilir yaxşıya?
Zər verilir nabələdə, naşıya?
Oğul gərək bu dərdləri daşıya?
Mən sözümü deməliyəm, deməli.

Eşidənlər qınamasın Cəmili,
Elə-belə tanımasın Cəmili,
Diş qıcayıb yanımasın Cəmili,
Mən sözümü deməliyəm, deməli.

***Cəmil Əkbər*** 4. 04 – 1997

## 323. DEYƏCƏM

*I variant*

Gülüm sən mənə daş desən, mən sənə mərcan deyəcəm.[857]
Sən mənə çor da desən, mən sənə haycan deyəcəm.[858]
Tikan sanıb, xar da desən, mən sənə orman deyəcəm,
Sən mənə bircə dən versən, mən sənə xırman verəcəm.
Səni kamil loğman sanıb, dərdimə dərman deyəcəm,[859]
Cəllad bilib, cani desən, mən sənə fərman deyəcəm.[860]
Ağla desən ağlayaram, bil ki, sənə gül deyəcəm,[861]
Hər nə sanıb sarda desən, mən sənə bül-bül deyəcəm.
Səy də desən, key də desən, mən sənə heyran deyəcəm,[862]
Meyi-məzə, ətri-təzə, sünbülü-reyhan deyəcəm.

---

[857] Gülüm mənə daş desən də, mən sənə mərcan deyəcəm.
[858] Acıqlanıb çor da desən, mən sənə haycan deyəcəm.
[859] Təbib bilib, loğman sanıb, dərdimə dərman deyəcəm.
[860] Cəllad olub, cani desən, mən sənə fərman deyəcəm.
[861] Ağla desən ağlayaram, mən sənə gül, gül deyəcəm.
[862] Sən mənə key də desən, mən sənə heyran deyəcəm.

Get də desən, öt də desən, mən sənə gəl-gəl deyəcəm,
Qədək bilib, çit də desən, mən sənə tül-tül deyəcəm.
Öl də desən, it də desən, mən sənə ölmə deyəcəm,
Məndən sonra min il yaşa, arxamca gəlmə deyəcəm.[863]
Bəyaz desən, qara desən, mən sənə rövşən deyəcəm,[864]
Çəmənzarda qönçə açan, laleyi-gülşən deyəcəm.
Sən dilimə zəhər desən, mən də sənə bal deyəcəm,[865]
Bu qəlbimə məlhəm qoyub, onu ələ al deyəcəm.[866]
Sən məni nadan bilib, yetişməmiş kal da desən,[867]
Mən sənə əbru-atlas, tirmə bilib şal deyəcəm.
Sən mənə hər nə desən, mən sənə insan deyəcəm,
Qətrə bilib, damla desən, mən sənə leysan deyəcəm.[868]
Yad eyləsən damla qədər, mən sənə ümman deyəcəm,
Etibara, ilqarıma, əhdimə peyman deyəcəm.
Sən ha desən bu gözəllik, atamdandır, anamdandır,
Mənki onu bəxş edənə, qadiri-sübhan deyəcəm.[869]
Təzim edib hüzurunda, mən ona əhsən deyəcəm.[870]
Vədə gəlib, vaxt keçəcək, bu dünyadan getsək də biz,[871]
Xəyalımda yaşadıqca, ismini pünhan deyəcəm.
Unudan döy Cəmil Əkbər, mən səni hər an deyəcəm,
Gəzəcəyəm diyar-diyar, cümleyi-cahan deyəcəm.

***Cəmil Əkbər*** 20. 01– 1989

## 324. DEYƏCƏM

*II variant*

Sən mənə aşiq desən, mən sənə canan deyəcəm,
Həsrətimə dözənməyən, oduma yanan deyəcəm.[872]
Lalə yanaq, billur buxaq, qaşları kaman deyəcəm,
Sərvi-boylu, mina gərdan, sinəsi mərcan deyəcəm,

---

[863] Məndən sonra min il yaşa, dalımca gəlmə deyəcəm.
[864] Sən mənə qara desən, mən sənə rövşən deyəcəm.
[865] Sən mənə zəhər desən, mən də sənə bal deyəcəm.
[866] Qəlbim üçün məlhəm sanıb, onu ələ al deyəcəm.
[867] Sən mənə yetişməmiş meyvə kimi kal da desən.
[868] Qətrə qədər damla desən, mən sənə leysan deyəcəm.
[869] Onu sənə bəxş eylədi, qadiri-sübhan deyəcəm.
[870] Ömürboyu minnətdaram, mən ona əhsən deyəcəm.
[871] Vədə gəlib, vaxt keçəcək, bu dünyadan köçəcəyik.
[872] Görərəm eşq əhlisən, oduma yanan deyəcəm.

Sən mənə çor da desən, mən sənə haycan deyəcəm.
İlqarına sadiq olan, əhdinə peyman deyəcəm,
Qoy yayılsın sədalarım, eşitsin həryan deyəcəm.
Halım bərbad, kefim pozğun, qəlbimə viran deyəcəm,
Yanır cismim dönür külə, sovurur boran deyəcəm,
Ötüb-keçdi dövrü-zaman, sürmədim dövran deyəcəm.[873]
Həsrətindən inildərəm, çəkirəm aman deyəcəm,
Məni sənə həsrət qoydu, ayırdı zaman deyəcəm.
Əsəblərim tab gətirmir, qaraldıbdır qan deyəcəm,
Sən bir şamsan mən pərvanə, oduna giryan deyəcəm.
Baxışından ovlanmışam, bağrım olub şan deyəcəm,
Dili şəkər, dodaq püsdə, alagöz ceyran deyəcəm.
Ünvanını deyəmmərəm, ay ismi-pünhan deyəcəm,
Cəllad olub alma canım, verməynən fərman deyəcəm.
Mən sənə huri-mələk, qadiri-sübham deyəcəm,
Bu dərdimə yoxdu əlac, səndədi dərman deyəcəm.
Hicranına sinə gərmək, sanmıram asan deyəcəm,
İnanmasan and içərəm, gətirin Quran deyəcəm.
Didələrim tökür leysan, verməyir aman deyəcəm,
Əsir külək, sovurur qar, eylə bir tufan deyəcəm.
Dağda bülbül, daşda kəklik, eyləsin fəqan deyəcəm,
Əzəl gündən əhli-halam, öldürür nadan deyəcəm.
Bu dərdim aşikar olsun, eşitsin cahan deyəcəm,
Sən mənə yox da desən, mən alım qadan deyəcəm.
Unudan döy Cəmil Əkbər, mən səni hər an deyəcəm,
Gəzəcəyəm diyar-diyar, cümleyi-cahan deyəcəm.

***Cəmil Əkbər*** 20. 05– 1989

## 325. DEYİRSƏN

*I variant*

Deyirsənki eloğlum, nə tez belə qocaldın?
Çələng qoyub ağ saçdan, nə tez belə tac aldın?
Nə tez belə inləyib, nə tez belə sozaldın?
Nə tez belə kiçildin, nə tez belə azaldın?
Haldan düşüb üzüldün, ay atamın balası,
Cuna kimi süzüldün, ay anamın balası.
Deyirsənki sarsılma, pozulmaynan qardaşım,

[873] Tale döndü, bəxtim yatdı, sürmədim dövran deyəcəm.

Gedə-gedə əksilib, azalmaynan qardaşım.
Bir deginən mümkünmü, bu həyatda belə iş?
Yol verərmi heç buna, bu həngamə, bu gərdiş?
Mümkündürmü əzizim cavan qalaq həmişə?
Ömürboyu şax gəzib, rəvan olaq həmişə?
Cəhalətin əlindən zarımamaq olurmu?
Vaxt-vədəsiz qocalıb, qarımamaq olurmu?
Sağa-sola baxırsan həndəvarda gic durur,
Hiyləgərlər, dələduz, vələdüzna, bic durur.
İlqarına-imana, xain durur, öc durur,
Hər daxmada, hər evdə, divarlar da kəc durur.
Bir yanında kütbeyin, bir yanında dəngəsər,
Al-qanları qaraldır, ömürboyu sərbəsər.
Yerli-yersiz söz deyib, əsəbini korlayır,
Xətirlərə dəyərək, hissimizi zorlayır.
Oturanda səhv edir, duranda da səhv edir,
Danışanda, dinəndə, vuranda da səhv edir.
Hər kəlmədə səhv edir, hər sözündə səhv edir,
Yolağında, cığırda, hər izində səhv edir.
Tamahkarlar, hərislər, əli-ələ verirlər,
Fitnələri-fitnəyə, feli-felə verirlər.
Sözü-sözə verirlər, dili-dilə verirlər,
Qana-qana verirlər, bilə-bilə verirlər.
Damağını çağ edib gülə-gülə verirlər,
Qərq eyləyib bu xalqı, daşqın selə verirlər.
Qasırğaya, tufana, qara yelə verirlər.
Qarışdırıb aranı elə salır vəlvələ,
Yazıq bəşər odur ki, gələ bilmir əmələ.
Nanəciblər, nakəslər, nəslər məni qocaldır, [874]
Abırsızlar, həyasız, pislər məni qocaldır.[875]
Həşarətlər, böcəklər, zəli məni qocaldır,
Kütbeyinlər, ağılsız, dəli məni qocaldır.
Yerli-yersiz hökmedən, darğa məni qocaldır,
Bülbüllərə lağ edən qarğa məni qocaldır.
Oturanda, duranda öz yerini bilməyən,
Mənliyini tanıyıb, düz yerini bilməyən,
İşarəni anlayıb, göz yerini bilməyən.

---

[874] Nanəciblər, nakəslər, naqis məni qocaldır,
[875] İnsanlığa yad olan, o pis məni qocaldır.

Kişilərin yerində gədə məni qocaldır,
Yerli-yersiz lovğalıq, əda məni qocaldır.
Qəlbimizdə yer tapan, zədə məni qocaldır,
Dəyənəklər, kötəklər, pedə məni qocaldır.
Bir demirsən bəs necə kənar olaq onlardan, [876]
Çəkilərək bir yana, danar olaq onlardan.[877]
Yaxamızı qurtaraq, acgözlərdən, hərisdən,
Xainlərdən, paxıldan, naqis oğlu xəbisdən. [878]
Deyirsən ki, ay gülüm kefini çək dünyada,
Nə bacarsan sök, tala nəfini çək dünyada. [879]
Mümkündümü de bunu, eldən ayrı dolanmaq?[880]
Ondan ayrı bəslənib, ondan ayrı sulanmaq?
Ondan ayrı yaşayıb, ondan ayrı hərlənmək?[881]
Ondan ayrı kef çəkib, ondan ayrı girlənmək?[882]
Elin dərdi dərdimiz, elin səri bizimdir,
Elin yurdu-yuvası, elin yeri bizimdir.
Elin qəmi də bizim, onun kefi də bizim,
El-obanın qazancı, onun nəfi də bizim.
Eli boğur xəyanət, eli boğur qəbahət,
Eli boğur küdurət, eli boğur ədavət.
Eli boğur nadanlıq, eli boğur cəhalət,
Eli boğur müsibət, eli boğur fəlakət.
Eli boğur cahillər, eli boğur nadanlar,
Tərbiyədən yarımçıq, dadar-doymaz dadanlar.
Haqq-sayı sümürüb, diri-diri udanlar,
Doğru yolu azanlar, tərsəməssəb adanlar.
Fitnə-fəsad işlədib, aralığı qatanlar,
Vicdanını, məsləyi kor qəpiyə satanlar.
Ədəb-ərkan qalmayır, nəzakət də pozulur,
Xeyirxahlıq pozulur, fəzilət də pozulur.
Tək-tək insan deyildir, cəmiyyət də pozulur,

---

[876] Bir demirsən bəs necə uzaq olaq onlardan?
[877] Çəkilərək bir yana kənar olaq onlardan.
[878] Xainlərdən törəyən xəbis oğlu xəbisdən.
[879] Qazancını götürüb, nəfini çək dünyada.
[880] Mümkündümü deginən, eldən ayrı dolanmaq?
[881] Ondan ayrı qəşd edib, ondan ayrı hərlənmək.
[882] Ondan ayrı yaşayıb, ondan ayrı girlənmək.

Sağlam fikir, arzular, saf niyyət də pozulur.
Buminvalla, məramla gümrah olmaq çətindir,
Səksən, doxsan keçirib, yaşa dolmaq çətindir.
Bu məramla, qərarla cavan olmaq çətindir,
Yolla, izlə düz gedib, rəvan qalmaq çətindir.
Eldən ayrı de necə qulaq asım özümə?
Nəzər salım yoluma, nəzər salım izimə?
Necə baxım özümə, ay atamın balası?
Ay könlümün şüşəsi, ay qəlbimin aynası?

## 326. DEYİRSƏN

*II variant*

Deyirsənki vədəsiz qocalmaynan qardaşım,
Ağ tükdən çələng qoyub, tac almaynan qardaşım.
Əldən düşüb üzülmə, ay atamın balası,
Cuna kimi süzülmə, ay anamın balası,
Sakınmaynan qatardan, pozulmaynan deyirsən,
Nə kiçilmə, əksilmə, azalmaynan deyirsən,
Bir deginən mümkünmü, zəmanədə belə iş?
Yol verərmi heç buna, belə dövran, bu gərdiş?
Bir deginən mümkünmü, cavan qalaq hərzaman?
Cavanlıqda kef çəkək, rəvan olaq hərzaman?
Deyirsənki a gülüm nə ağlama, zarıma,
Dən düşməsin saçına, azacıq da qarıma.
Vurhavurda de gülüm, zarımamaq mümkünmü?
Qocalmamaq  mümkünmü, qarımamaq mümkünmü?
Sağa-sola baxırsan dörd yanında gic durur,
Dələduzlar, lotular, hiyləgərlər bic durur.
İnsanlığa qəsd edən, tərsəməssəb öc durur,
Ədəb-ərkan qaydaya, başdan-başa kəc durur.
Bir yanında dəngəsər bir,  yanında kütbeyin,
Bir yanında daş ürək, bir yanında ət beyin.
Al-qanımı qaraldır, əsəbini korlayır,
Xatirimə hey dəyərək, hissimi də zorlayır.
Bədxah oğlu bədxahlar, veribdilər əl-ələ,
Qarışdırıb aranı, yaman salır vəl-vələ.
Üz-gözümə irişir, ünvanıma bəd deyir,
Hər sözümə irişir, mənasına bəd deyir.
Bir deginən bəs necə uzaq olaq pislərdən?
Bədniyyətdən, alçaqdan, nəsin oğlu nəslərdən.

Qarınqulu, tamahkir, acgöz oğlu, hərisdən,
Xainlərdən törəyən, xəbis oğlu xəbisdən.
Deyirlərki qardaşım fikir vermə dərinə,
Ağrı salma ürəyə, gücü vermə sərinə.
Bir deginən mümkünmü, görə-görə görməyək?
Eşidərək, duyarq, bilə-bilə bilməyək.
Bilmirsənmi qardaşım, daş ha deyil qəlbimiz?
Çəp ha deyil gözümüz, çaş ha deyil qəlbimiz?
Bilə-bilə bilməyim, qana-qana qanmayım,
Öz içimdən od alıb, yana-yana yanmayım.
Deyirsənki a gülüm, kefini çək dünyada,
Ələ keçir qazancı, nəfini çək dünyada.
Mümkündürmü deginən eldən ayrı kef çəkim?
Çalıb-çapıb, dağıdıb, özüm üçün nəf çəkim?
Eldən ayrı yaşayıb, ondan ayrı dolanam?
Ondan ayrı bəslənəm, ondan ayrı sulanam?
Ondan ayrı gəşt edib, ondan ayrı hərlənəm?
Ondan ayrı gün görüb, ondan ayrı girlənəm?
Necə baxım özümə ay atamın balası,
Ay könlümün şüşəsi, ay qəlbimin aynası.

***Cəmil Əkbər*** 20. 04 – 1986

## 327. DEYİRSƏN

*III variant*

Deyirsənki vədəsiz qocalmaynan qardaşım,
Ağ tükdən çələng qoyub, tac almaynan qardaşım.
Bu dünyanın dərdini çəkmə atam balası,
Qamətini yay kimi bükmə anam balası.
Hər xırdaca bir işdən, pozulmaynan deyirsən,
Ülfət çəkib, qəm yeyib, azalmaynan deyirsən.
Deyirsənki həyatda inildəmə, zarıma,
Dən düşməsin saçına, azacıq da qarıma.
Bir deginən mümkünmü, qarımamaq dünyada?
Dərdin tüğyan eyləsə, zarımamaq dünyada?
Bir deginən mümkünmü, cavan olaq hərzaman?
Gümrah olaq həmişə, rəvan olaq hərzaman?
Ömürboyu kef çəkib, məzələnək dünyada?
Altdan-üstdən bəzənib, təzələnək dünyada?
Nəzər salıb görürsən, dörd yanında gic durur,

Sağ yanında hiyləgər, sol yanında bic durur.
Bir yanında kütbeyin, bir yanında dəngəsər,
Əsəbinə toxunur, qan qaraldır sərbəsər.
Yolağını tanıyıb, izlərini bilməyən,
Oturanda-duranda, sözlərini bilməyən.
Tərbiyəsi kəm olan, gəda məni qocaldır,
Yersiz-yersiz lovğalıq, o da məni qocaldır.
Ləyaqəti kəm-kəsir, naqis məni qocaldır,
Tamahkirlər, acgözlər, həris məni qocaldır.
Nadan məni dəng edir, xəbis məni qocaldır,
Orda-burda sülənən nəfs məni qocaldır.
Sərsərilər, dəngəsər, dəli məni qocaldır,
El-obanı sarsıdan bəli məni qocaldır.
Bədöylərdən törəyən darğa məni qocaldır,
Başımızı dəng edən qarğa məni qocaldır.
Bir deginən bəs necə, uzaq olaq pislərdən?
İnadkardan, höcətdən, bədxahlardan, nəslərdən?
Deyirsənki qardaşım fikir vermə dərinə,
Yormaginən özünü, ağrı vermə sərinə.
Bir deginən mümkünmü, qana-qana qanmayım?
İçimizdən od alıb, yana-yana yanmayım?
Deyirsənki qardaşım kefini çək dünyada,
Nə bacarsan götürüb, nəfini çək dünyada.
Mümkündürmü de görüm, eldən ayrı kef çəkək?
Eldən ayrı toplayıb, eldən ayrı nəf çəkək?
Ondan ayrı yaşayıb, ondan ayrı dolanaq?
Ondan ayrı kök tutub, ondan ayrı calanaq?
Ondan ayrı gəşt edib, ondan ayrı hərlənək?
Ondan ayrı çeşt edib, ondan ayrı girlənək?
Elin dərdi dərdimiz, elin səri sərimiz,
Elin yurdu-yurdumuz, elin yeri yerimiz.
Elin qəmi qəmimiz, elin kefi kefimiz,
Elin xeyri-xeyrimiz, el qazancı nəfimiz.
Ondan ayrı de necə qulaq asım özümə?
Nəzər salım yoluma, nəzər salım izimə?
Necə baxım özümə ay atamın balası?
Ay könlümün şüşəsi, ay qəlbimin aynası?

***Cəmil Əkbər*** 20. 04 - 1986

## 328. PİS ONLARA DEYİLİR

***(Ş i k a y ə t n a m ə)***

*Pis onlara deyilir*, dadı-tamı bilinmir,
Nə həvəsi, nə eşqi, nə ilhamı bilinmir.
Nə kölgəsi görünür, nə meyvəsi yeyilir,
Nə şəninə bir kəlmə, xeyir sözlər deyilir.
*Pis onlara deyilir*, ədaləti qanmayır,
Doğruluğu, düzlüyü, həqiqəti qanmayır.
Sədaqəti unudub, səxavəti qanmayır,
İnsanlıqdan uzaqdır, ləyaqəti qanmayır.
*Pis onlara deyilir*, vicdan, məslək qanmayır,
Nə pirani, nə mömün, huri-mələk qanmayır.
Haldan salıb incidir, insanlığı bezdirir,
Salır zülmə, mənşərə əzablara dözdürür.
Nə xeyirdə görünür, nə də şərə yarayır,
Nə özünə özgəyə, nə bəşərə yarayır.
*Pis onlara deyilir*, nə uzağa yarayır,
Nə fəqirə, səqirə, nə yazığa yarayır.
Nə vətənə, nə xalqa, nə obaya yarayır,
Nə özgəyə həyandır, nə doğmaya yarayır.
*Pis onlara deyilir*, məharətdən uzaqdır,
Ülvi, istək, pak arzu, məhəbbətdən uzaqdır.
Gəlib-gedib havayı, adı-sanı bilinmir,
Nə zülalı çəkilir, nə də şanı bilinmir.
*Pis onlara deyilir*, xidmətini görən yox,
Faydasını bilən yox, zəhmətini görən yox.
Dəyərini  duyan yox, qiymətini verən yox,
Mənasını, məzmunu, hikmətini dərən yox.
*Pis odur ki*, hamını dərdə salıb bezdirir,
Zəhlələri tökərək, ürəkləri üzdürür.
Əsəbləri korlayıb, al-qanları qaraldır,
Zəhərləyib havanı, gen dünyanı daraldır.
*Pis onlara deyilir*, nəs fikirdən dönməyir,
Bu fikirdən, xəyaldan, aşağıya enməyir.
Xainlikdə ad alıb, xəbislikdə ad alıb,
Acgözlükdə ad alıb, hərislikdə ad alıb.
*Pis onlara deyilir*, ürəklərdə yeri yox,
Nəcib arzu-istəkdə, diləklərdə yeri yox.
Düz gedəni yolundan, çalışıb ki, əyilsin,

Nifrət ilə yad olub, arxasından söyülsün.
*Pis odur ki,* kimsəyə hörmətini etməyib,
İnsafını göstərib, mürvətini etməyib.
Qaraya ağ deyibdir, ağa qara deyibdir,
Kəsirə tam deyibdir, tama para deyibdir.
*Pis onlara deyilib*, ha görüb-götürməyib,
Cıra peyvənd calayıb, bəsləyib bitirməyib.
Xətir-hörmət bilməyib, haqq-sayı unudub,
Yediyini unudub, içdiyini unudub,
Yaxşı-yaman nə varsa, seçdiyini unudub.
Ondan-bundan aldığı borclarını unudub,
Gəlirini unudub, xərclərini unudub.
*Pis odur ki,* dünyada yaxşı-pisi qanmayır,
Xeyirxahı tanımır, nə də nəsi qanmayır.
Düzə əyri deyirlər, əyriyə düz deyirlər,
Dayazı dərin bilib, dərinə üz deyirlər.
*Pis onlara deyilir,* ləyaqəti xoşlamır,
Ədəb-ərkan tanımır, nəzakəti xoşlamır.
Nadanlıqdan uzaşıb, cəhalətdən çıxanmır,
Xəta-bəla törədir, qəbahətdən çıxanmır.
Qal-qovğadan çıxanmır, ədavətdən çıxanmır,
Paxıllıqdan çıxanmır, xəyanətdən çıxanmır.
Bədxhlıqdan uzaşıb, pis niyyətdən çıxanmır,
Bataqlıqdan gen durmur, üfunətdən çıxanmır.
*Pis onlara deyilir,* dar eyləyir dünyanı,
Utandırır insanı, xar eyləyir insanı.
Nə bu gündən utanır, nə sabahdan utanır,
Nə qarğışdan utanır, nə də ahdan utanır.
Nə alimdən, loğmandan, nə qanandan utanır,
Nə böyükdən, kiçikdən, bir insandan utanır.[883]
*Pis onlara deyilir,* pisliyində dayanıb,
Bədxahlıqda dayanıb, nəsliyində dayanıb.
*Pis onlara deyilir,* insanlıqda payı yox,
Nə xidməti, zəhməti, duz-çörəyi, çayı yox.

***Cəmil Əkbər*** 4. 03 - 1990

---

[883] Nə böyükdən, kiçikdən, birkimsədən utanır.

## 329. DEMƏSİNLƏR

Qulaq asaq ədalətə, haq səsə,
Hörmət edək hər insana, hərkəsə,
Könülləri incitməsin hər nəsə,
Deməsinlər görən səbəb vardımı?

Hər kəlməmiz ürək açan söz olsun,
Əqidəmiz, əməlimiz düz olsun,
Qəlbimizdə məhəbbətdən köz olsun,
Deməsinlər ürəklərdə qardımı?

Heçkimsəyə pis tanıtma özünü,
El –obadan yayındırma gözünü,
Düz eşidək cəmaətin sözünü,
Deməsinlər qulaqları kardımı?

Parçalanıb dağılmayaq hər yerə,[884]
Ayırmasın bizi nə dağ, nə dərə,
Qoy eşitsin bunu hamı min kərə,
Deməsinlər "düşüncəsi dardımı?"[885]

Bədəməli, bədniyyəti yox edək,
Bu bəşərə çörək verək, tox edək,
Çalışaq ki, el varını çox edək,
Deməsinlər "harda qaldı yardımı?" [886]

---

[884] Parçalanıb dağılmayaq yüz yerə.

[885] *II variant* Parçalanıb dağılmayaq, bitişək,
Xoş məqsədə, xoş arzuya yetişək,
Bülbültəki cəh-cəh vuraq ötüşək,
Deməsinlər "bağa qonan xardımı?"

[886] *II variant* Pis arzunu, bəd niyyəti yox edək,
Zəhmətkeşə çörək verib tox edək,
Çalışaq ki, el varını çox edək,
Deməsinlər "harda qaldı yardımı?"

Şair coşsun, eldən alsın ilhamı,
Görüb bilsin dost-tanışlar, el hamı.
Qəlbimizi alışdırsın nur şamı,
Deməsinlər "alovdumu, qordumu?"[887]

Şərə doğru maşınını xoddama,
Həddi gözlə, hüdudunu addama,
Könülləri od-ocaqsız oddama,
Deməsinlər "çayandımı, mardımı?"

Unutmayaq nərdibanı, fələyi,
Biz yaşadaq xoş arzunu, diləyi,
İşlətməyək fitnə-fəsad kələyi,
Deməsinlər "bu qurulan tordumu?"

Layiq olaq hər şöhrətə, hər ada,
Əyilməyək dost-düşmənə, nə yada,[888]
Şahin kimi qanad açaq səmada,[889]
Deməsinlər "qarğadımı, sardımı?"

Körpü salıb bir üstündən keçək biz,
Saf çeşmənin gözlərindən içək biz,
Arif olub yaxşı-pisi seçək biz,[890]
Deməsinlər "gözləriniz kordumu?"

***Cəmil Əkbər*** 3. 12 -1970

[887] *II variant* Şair görsun, eldən alsın ilhamı,
Qoy şad olsun dost-tanışlar, el hamı,
Qəlbimizdə işıq saçsın nur şamı,
Deməsinlər "alovdumu, qordumu?"

[888] Əyilməyək nə qohuma, nə yada,
[889] Şahin kimi havalanaq səmada,
[890] Cəmil kimi yaxşı-pisi seçək biz.

## 330. NƏ DEYƏSƏN?

Gör haçandan dövr eyləyir, cəhalətdə günlər keçir?
Avamlıqda, nadanlıqda, qəbahətdə günlər keçir?
Şər danışıb, böhtan deyib, ünsiyyəti korlayırlar,
Qəlbə dəyib, qan qaraldıb, hissiləri zorlayırlar.
Fitnə-fəsad işlədərək, aralığı qatan da var,
İnsafını, vicdanını korqəpiyə satan da var.
Bədəməllər törədənə, tutanlara nə deyəsən?
Qəflətlərdə qərq olaraq yatanlara nə deyəsən?
Onu-bunu aldadana, yalançıya nə deyəsən?
El varını tar-mar edən, talançıya  nə deyəsən?
Nanəcibə, namərdlərə, naqislərə nə deyəsən?
Paxıllara, xainlərə, xəbislərə nə deyəsən?
Tamahkara, acgözlərə, hərislərə nə deyəsən?
Əqrəblərə, ilanlara, iblislərə nə deyəsən?
Yaramaza, alçaqlara, o pislərə nə deyəsən?
Bir ha deyil, beş ha deyil, fikirləri dolaşdıran,
Əyriyə düz, düzə əyri, ağa qara bulaşdıran.
Hiyləgərə, kələkbaza, dələduza nə deyəsən?
İnsafsıza, mürvətsizə, qəlbi buza nə deyəsən?
Avamlıqdan əlçəkməyən nadanlara nə deyəsən?
Tərbiyədən alayarı dadanlara nə deyəsən?
Bir ha deyil, beş ha deyil, al-qanını qaraldan kəs,
Əsəbini tarım çəkib, gen dünyanı daraldan kəs.
Ədəb-ərkan, nəzakətsiz olanlara nə deyəsən?
Əl-ayaqda qalanlara, solanlara nə deyəsən?
Təsadüfi şan-şöhrətə çatanlara nə deyəsən?
İxtiyara, sədarətə çatanlara nə deyəsən?
Ədaləti, həqiqəti boğanlara nə deyəsən?
Bu yollarda zühr eyləyib, doğanlara nə deyəsən?
Bir ha deyil, beş ha deyil, ünsiyyəti korlayanlar,
İnsanlığa qənim çıxan, ləyaqəti xorlayanlar.
Görə-görə görməyənə, o korlara nə deyəsən?
Ha deyirsən eşitməyir, bu karlara nə deyəsən?
Qınamıram mən heçkəsi, bu dövrana nə deyəsən?
Gəlib çıxdıq görün hara, bu zamana nə deyəsən?
Qanunları, qaydaları pozanlara nə deyəsən?
Tərsəməssəb çevirənə, yozanlara nə deyəsən?

***Cəmil Əkbər*** 28. 01 – 1994

## 331. ƏHSƏN DESİN

Elə dolan, elə otur, elə dur?
Oba əhsən desin, el əhsən desin.[891]
Elə çalış, elə yarat, elə qur?
Gözlər heyran olsun, əl əhsən desin.

Elə düşün, elə anla, elə yaz?
Elə eşit, elə danış, elə yoz?
Elə dayan, elə tablaş, elə döz? [892]
Dodaq gülümsəsin, dil əhsən desin.[893]

Elə xanələr qur, elə toxuki?
Elə açıl, elə saçıl, qoxuki?
Elə çağır, elə çalıb oxuki?
Bülbül vəcdə gəlib, gül əhsən desin.[894]

Ey əziz dostumuz, mehriban qardaş,
Əlinə götürüb qələmi bir baş,
Elə dolub, elə daşıb, elə aş,
Çay-çaya qovuşsun, sel əhsən desin.

Elə hərlən, elə otur, elə dur?
Elə yaşa, elə yarat, elə qur?
Karvanını bu həyatda elə sür?
Sarvan inciməsin, yol əhsən desin.

---

[891] Obalar, oymaqlar, el əhsən desin.
[892] Elə yazıb, elə silib elə poz.
[893] *II variant* Əsəblər korlayıb ağrıtma başı,
Turşutma üzünü, çatmaynan qaşı,
1) Görənlər, bilənlər deməsin naşı, 2) Görüb tanıyanlar deməsin naşı,
Dəhan büzülməsin, dil əhsən desin.

[894]*II variant* Hörmət qazan el içində xətirlən,
Dastanlarda, nağıllarda sətirlən,
Çəməndəki çiçək kimi ətirlən,
Bülbül cəh-cəh vursun, gül əhsən desin.

Elə oxu, elə öyrən, elə bil?
Elə sevin, elə şənlən, elə gül?
Elə yaşa, elə yarat, elə öl?[895]
Əsrlər yad etsin, il əhsən desin.

Elə bəslə, elə satıb, elə al?[896]
Elə gedib, elə gəlib, elə qal?
Nizamlayıb elə köklə, elə çal?
Mizrab toxunduqca tel əhsən desin.[897]

Elə açıl, elə saral, elə sol?[898]
Elə çalxan, elə silkin, elə dol?[899]
Elə yön al, axtarıb tap elə yol?
Dəryalar, dənizlər, göl əhsən desin.

Elə gəşt et, elə seyr et, elə bax?[900]
Elə parla, elə gurla, elə çax?
Elə hellən, elə sellən, elə ax?[901]
Səhralar gül açsın, çöl əhsən desin.

Çox mənəm deməynən, sinənə döymə,
Məclisə girəndə özünü öymə,
İncisən sözündən Cəmilə söymə,
Arif ol, sərraf ol, bil əhsən desin.[902]

***Cəmil Əkbər*** 14-15// 04 - 1980

---

[895] Öləndə də kişi kimi elə öl.
[896] Elə becər, elə bəslə, elə al.
[897] 1) Barmaq vəcdə gəlib tel əhsən desin. 2) Pərdələr, mizrablar, tel əhsən desin.
[898] 1) Elə üzül, elə saral, elə sol. 2) Elə saral, elə sozal, elə sol.
[899] Dolanda da elə çalxan, elə dol.
[900] Nəzər salıb elə seyr et, elə bax.
[901] Elə yellən, elə sellən, elə ax.

[902] *II variant*
Yaxşıya, yamana yumma gözünü,
Hər yetənə danışmaynan sözünü,
Elin nəzərindən salma özünü,
Ariflər baxdıqca bil əhsən desin.



# HÜQUQŞÜNAS ƏLİ İLQAR OĞLU İMAMVERDİ

Əli İlqaroğlu İmamverdi 1993-cü ildə Bakı şəhərində anadan olmuşdur. 2000 ilində Bakı şəhər ibtidai məktəbdə, daha sonra Ərzurum ilk okulda təhsilini davam etdirdi. 2008-2012 illər arası "Çağdaş" bilgi okulunda litseyi tamamlayıb 2012 ilində Qaziantep Universitetinin Hüquq Fakultəsində təhsilini davam etdirib 2021 ilində məzun oldu. 2021-2022-ci ildə Qaziantep şəhərində ixtisası üzrə hüquq sahəsində təcrübə keçməklə, Gaziantep Universitetində magistr təhsili almaqdadır.

Sənətşünaslıq doktoru İlqar Cəmiloğlu ilə ortaq yazdıqları "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020) (türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021) (türkcə),* "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər) (2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı – Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və Rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri" *(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Gacar, Gatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022) (türkcə),* "Bayatı - Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə)* "Azərbaycan muğam dəramədləri və rəngləri ensiklopediyası" *(2022) (türkcə),* "Cəmil Əkbər – I cild şeirlər" *(2022),* "Cəmil Əkbər – II cild şeirlər" *(2022),* "Cəmil Əkbər – III cild şeirlər" *(2022),* "Cəmil Əkbər – IV cild şeirlər" *(2022),* "Cəmil Əkbər – V cild şeirlər" *(2023),* isimli 24 kitabı Azərbaycan və Türkiyə ictimaiyyətinə təqdim olunmuşdur. Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə ***VI cild "Cəmil Əkbər –şeirlər"*** adlı kitabı Hüquqşünas Əli İmamverdinin Azərbaycan ədəbi-filoloji sahədə xalqımıza ərmağan etdiyi **25-ci** əsəridir.



# PROF. DR. İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV

İlqar Cəmiloğlu İMAMVERDİYEV 23 sentyabr 1956-cı ildə Azərbaycanın Gənçə şəhrində anadan oldu. Fikrət Əmirov adına 1 saylı Uşaq Musiqi Məktəbini *(1967-1972),* Qənbər Hüseynli adına Orta İxtisas Müziqi Litseyini *(1972-1976)* və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (Bakı Musiqi Akademiyası) *(1976 - 1981 ilində tar ixtisası üzrə)* fərqlənmə diplomaları ilə bitirdi. 1985 ilində Moskvada təşkil olunmuş Tələbə və Gənclərin XII Ümumdünya Festivalının diplomunu, 1986 ilində Orta Asiya və Zaqafqaziya dövlətləri arasında Şərq Alətləri üzrə Bakıda keçirilən Üzeyir Hacıbəyli adına I Beynəlxalq müsabiqəsinin laureatı adana layiq görüldü. Zaqafqaziya, Orta Asiya və Türkiyədə düzənlənən xalq musiqisi və folkloru sahəsində bir çox uluslararası kongreslərdə aktual mövzularla çıxış edərək, 200-dən artıq elmi məqalələri fərqli hakimli dərgilərdə eyni zamanda Azərbaycan və Türkiyə mətbuatında yayınlanmıştır. 1994 ilində Azərbaycan Respublikası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən "sənətşünaslıq namizədi" diplomunu *(EN № 0308, 2 Noyabr 1994 il tarixli Protokol № 54),* 2009 ilində sənətşünaslıq doktoru diplomunu *(ED № 01109, 8 May 2009 il tarixli Protokol № 8 –R),* - elmi ünvanlarını aldı. 1981 ilindən 2000 ilə qədər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Xalq Çalgı Alətləri Kafedrası"nda, 2000–2006-ci illərdə Ərzurum Atatürk Üniversitetndə dosent vəzifəsində çalışdı. 2007-ci ilindən etibarən Gaziantep Üniversiteti Türk Musiqisi Dövlət Konservatoriyasında dosent, 2011-ci ilindən etibarən həmin Ali Təhsil Qurumunun İdarə Heyətinin qərarı *(05.07-2011, № 14)* ilə professor vəzifəsində çalışmaqdadır. 2015 ilində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı əsasında 2-ci Professorluq Diplomunu *(PR № 01432, 17 Aprel 2015 tarixli Protokol №* 07 *R )* almağa layiq görülən İlqar Cəmiloğlu İmamverdiyev bir çox mükafatlara layiq görüldü.

1. İstanbul Büyükşehir Belediyesi ile Motif Vakfı işbirliğinde düzenlenen 21.Motif Halk Bilim Ödülleri değerlendirmeleri Ödül Tespit Komisyonu tarafından yapılmış "Halk Müziği Hizmet Ödülü". 12 Aralık 2015
2. "Avrupa Nəşr Mətbuat Evi"nin "En Yaxşı Vətənsevər Tədqiqatçı Elm Adamı" Qızıl Medalı və Diplomu *(AZ - № 8032200126 )* Bakı – 2016.
3. İksad Yayınevinin "Onur ödülü" 2018, 2020.

Ötən illər ərzində İlqar Cəmil oğlu İmamverdiyev "Ansambl üçün pyeslər məcmuəsi" *(1997),* "Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri" *(2004),* "Azərbaycanın 20 saz havası" adlı I, II *(2005)* və III cild *(2006),* "Azərbaycanın 40 saz havası" *(2006 ),* "Fortepiano müşayiətli saz əsərləri" *(2006),* "Fortepiano müşayiətli tar əsərləri" I, II cild *(2006),* "İran Türklərində aşıq toy mərasimləri" *(2006),* iki cilddən ibarət "Azərbaycan rəqs havaları" *(2007),* üç cilddən ibarət "Azərbaycan muğam rəngləri və dəramədləri" *(2007, 2009),* "Azərbaycan və İran Türklərinin aşıq - ifaçılıq sənətinin qarşılıqlı əlaqələri" 1-ci nəşr *(2007),* 2-ci nəşr *(2008),* "Aşıq Mikayıl Azaflının saz havaları" *(2008),* altı cilddən ibarət "Azərbaycan xalq mahnıları" *(2007, 2008, 2009),* "Azərbaycan muğam inciləri" *(2010),* "Məzəli əhvalatlar və gülməcələr" *(2010),* "Miskin Abdal ocağının el sənətkarları" 1-ci nəşr *(2011),* "Şirvan aşıqlarının saz havaları" *(2011),* "İran-Azərbaycan aşıqlarının 40 saz havası" *(2012),* "Koroğlu havaları" *(2012),* "Saz havaları antologiyası" *(2013),* "Azərbaycan instrumental xalq musiqi örnəkləri" *(2014),* "Vahid Əlioğlunun şeirlərinə bəstələnmiş musiqilər" *(2015),* "Miskin Abdal elinin saz - söz ustadları" 2-ci nəşr *(2017),* "Dədə Şəmşir ifaçılığı sənətində ənənəvi saz havaları" *(2017),* "Azərbaycan musqisində Bahar mövzusu və Novruz motivlərinin izləri" *(2018),* "Bir millət, iki dövlət, Azərbaycan – Türkiyə" *(2018),*"Azərbaycan musiqi mədəniyyətində bayatılar – manilər" *(2019) (türkcə),* "Yaşayırsan ürəyimdə" *(2020),* eyni zamanda Əli İmamverdi ilə ortaq "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020) (türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021) (türkcə),* "Ürəyimin nəğmələri" *(2021),* "Aşıq Ələsgər - 200, Aşıq Ələsgərin poetik və musiqi dünyası" *(2021),* "Fortepiano müşayiətli instrumental tar əsərləri" *(2021),* Firuzə İmamverdi ilə ortaq yazdığı "İran Türklərində aşıq düyün gələnəyi" *(2021) (türkcə),* Əli İmamverdi ilə ortaq yazdığı "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər) (2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı – Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri" *(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Qacar, Qatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022) (türkcə),* "Bayatı-Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Azərbaycan muğam

dəramədləri və rəngləri ensiklopediyası" *(2022) (türkcə),* I cild "Cəmil Əkbər –şeirlər" *(2022),* II cild "Cəmil Əkbər –şeirlər" *(2022),* III cild "Cəmil Əkbər –şeirlər" *(2022),* IV cild "Cəmil Əkbər –şeirlər" *(2022),* V cild "Cəmil Əkbər –şeirlər" *(2023),* isimli altmış səkkizinci kitabı nəşr edilməklə yanaşı *"Klassik saz havaları" (54 hava) adlı **SD** albomu (2015)* Azərbaycan, Türk mədəni-ədəbi, musiqi ictimaiyyətinin faydalana bilməsi üçün təqdim olunmuşdur.

Prof. Dr. İlqar Cəmiloğlu İmamverdiyev fərqli illərdə **Azərbaycanda** *(Bakı 1979, 1980, 1999, Qazax 2022),* **Gürcüstanda** *(Tiflis 1981),* **Özbəkistanda** *(Daşkənd 1988, 1989),* **Rusiyada** *(Moskva 1982, 1985, Sankt-Peterburq 1980),* **Qazaxıstanda** *(Alma – ata 1992),* **Moldovada** *(Komrat - Qagauziya 2017),* **KKTC** (*Lefkoşa 2019),* və **Türkiyədə**: (*Ankara 2002, 2007, 2012, Qocaeli 2007, Şanlıurfa 2015, Edirnə 2016, Niydə 2017, İstanbul 2012, 2017, Nevşəhər 2017, 2018, Iğdır 2017, Sivas 2017, Diyarbakır 2017, Antalya 2018, Afyon 2018, Ardahan 2019, Əskişəhər 2019, Qaziantep 2019, 2021, Muqla 2021, İzmir 2022, Ərzincan 2022*) düzənlənən bir çox tədbirlərdə, mərasimlərdə folklor və xalq müsiqisi sahəsində beynəlxalq konqreslərdə, simpoziumlarda aktual mövzulardakı məqalələri ilə yanaşı həm də tarda və sazda professional ifaları ilə iştirak etmişdir. Sənətşünaslıq elmləri doktoru, professor İlgar İmamverdiyev fərqli illərdə **Azərbaycan** *(Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Bərdə, Ağcabədi),* **Rusiya** *(Moskva, Sankt-Peterburq),* **Qazaxıstan** *(Alma - ata),* **Özbəkistan** *(Daşkənd, Səmərqənd),* **İtaliya** *(Roma, Napoli, Kapri),* **İran** *(Təbriz, Urmiya),* **İrak** *(Bağdat, Babil),* **Türkiyə** *(Ankara, Ərzurum, Ağrı, Iğdır, Qars, Bayburt, Amasya, Osmaniyə, Şanlıurfa, Akçaabad, İstanbul, Bursa, İzmir, Hayvalık, Əskişəhər, Kırşəhər, Nevşəhər, Qaziantep, Adıyaman, Kozan)* vs. bir çox ölkələrdə təşkil olunmuş konsertlərdə iştirak edərək 70 –dən artıq fəxri fərman və plaketlərlə təltif olunmuşdur. Ötən illər ərzində Azərbaycan və Türkiyə televiziyalarında: "AzTV1", "İctimai TV", "TRT İnt", "TRT Gap", "25. kanal"da tar və saz aləti ilə fərqli konsertlərdə çıxış etmişdir. "Qaçaq Nəbi", "Papaq", "Bəyin oğurlanması", "Doğma sahillər" filmlərinin və Dədə Qorqud motifləri əsasında çəkilmiş "Səkrəyin dastanı" cizgi filminin musiqisində tar, saz, bağlama və ud alətində ifa etmişdir.

Pedaqoji sahədə 50 il ali təhsil qurumunda xidmət etmiş, iqtisadcı alim, şair təbiətli Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirilmiş ***VI cild "Cəmil Əkbər –şeirlər"*** kitabı Hüquqşünas Əli İmamverdinin 25-ci, Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlunun Azərbaycan ədəbi-mədəni, filoloji sahədə xalqımıza ərmağan etdiyi **69-cu** əsəridir.

İKSAD
Publishing House

ISBN: 978-625-367-060-3